Mövzu 1. “Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin predmeti, məqsədi və vəzifələri

1.1. “Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin predmeti. Sosial iş elm kimi.
1.2. Fənnin məqsədi və vəzifələri
1.3. Sosial işdə nəzəriyyələr və təcrübələr
1.4. Sosial işlə bağlı qanunların mahiyyəti və təsnifatı
1.5. Fənnin əhəmiyyəti

1.1. “Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin predmeti. Sosial iş elm kimi.

Müasir dövrdə baş verən sürətli inkişaf, informasiya-kommunikasiya texnologiyalarının tərəqqisi, ayrı-ayrı sahələrdə həyata keçirilən innovasiyalı proseslər tədris prosesində də müasir dövrün tələblərinə cavab verən yeni yanaşmaların mövcudluğunu tələb edir. Hazırda sosial sahədə müxtəlif problemlərin həllinin elmi əsaslarla həyata keçirilməsi, sosial işin institutlaşması və bu sahədə mütəxəssis hazırlığı vacib məsələlərdən sayılır. Bu baxımdan “Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin ali təhsil müəssisələrində, o cümlədən Bakı Biznes Universitetində tədrisi mühüm əhəmiyyət kəsb edir. Tədris zamanı “Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin predmeti, məqsədi, vəzifələri, bu sahədə beynəlxalq təcrübə, sosial işin ictimai xarakteri, sosial iş və şəxsiyyət, sosial etnik münasibətlərin əhəmiyyəti, özünü inkişaf motivasiyasının gücləndirilməsi, insanların sosial müdafiəsi, sosial ekspertiza texnologiyaları, sosial işdə sosial diaqnostika və onun tətbiqi metodları, sosial işə əsas elmi yanaşmalar, sosial işdə modellər və nəzəriyyələr, sosial işdə qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolu kimi məsələlər öz əksini tapacaqdır.

Fənnin predmeti- sosial işin tarixi, nəzəriyyəsi və təcrübəsini müvafiq metod və metodologiyalardan istifadə yolu ilə öyrənmək, sahə üzrə bacarıqlara və vərdişlərə yiyələnməkdən ibarətdir.

“Sosial iş” bir fəaliyyət növü və tədris fənni olaraq, insanlara onları əhatə edən mühitdə mümkün qədər daha yaxşı fəaliyyət göstərmələri üçün yardım etməyə istiqamətlənmişdir. “Sosial iş” anlayışı XIX əsrin sonlarından Qərbi Avropa və Amerikada geniş yayılsa da müstəqil ixtisas kimi İkinci Dünya Müharibəsindən sonra tədris olunmağa başlamışdır. Bu da dövlətlərin üzərinə daha çox sosial öhdəlik götürülməsindən irəli gəlirdi.

Sosial xidmət göstərən şəxslərə “sosial işçilər” deyilir. “Sosial iş” ilk dövrlər yetim və valideyn himayəsindən (ailə qayğısından) məhrum olmuş uşaqları, əlilləri, ahılları, problemli ailələri əhatə etsə də, sonradan bu xidmət növünün əhatə dairəsi yaşından, cinsindən, etnik mənşəyindən, dinindən, irqindən asılı olmayaraq dəstək və yardıma ehtiyacı olan hər kəsə şamil olundu.

Sosial işin əsas vəzifəsi yardıma ehtiyacı olan şəxsə kömək göstərmək, onun hüquq və maraqlarını müdafiə etmək, son nəticədə şəxsin müstəqil fəaliyyət göstərmək qabiliyyətini təmin etməkdir. Odur ki, sosial işçi sifarişinin fərdi psixologiyasına yaxından bələd olmalıdır.

Hələ eramızdan əvvəl 1750-ci ildə Babilistan hakimi Hammurapi tərəfindən tərtib edilmiş Ədalət Kodeksində həbs olunan insanların bir-birinə dəstək olmaları tələbi qoyulmuşdu. E.ə. 1200-cü ilə aid edilən qədim İudeyanın yazılı mənbələrində qeyd edilirdi ki, Allah yəhudilərdən yoxsul və bədbəxtlərə yardım etmələrini gözləyir. Bu qanunlar əslində ehtiyacı olan şəxslərə filantropiya (xeyriyyəçilik) əsasında yardımın göstərilməsini tənzimləyirdi ki, bu da sosial yardımın ilk formalarından birini təşkil edirdi. Filantropiya yunan sözü olub, mənaca “insansevərlik”-ehtiyacı olanlara yardım mənasını ifadə edir. Sosial iş bəzi cəhətlərinə görə “xeyriyyəçilik fəaliyyəti” ilə oxşar olsa da, struktur baxımından tam fərqlidir. Belə ki, xeyriyyəçiliyin əsas hərəkətverici qüvvəsi mənəvi borc və xeyirxahlıq etmək istəyidir.

Sosial işin inkişaf etməsində dinin də müsbət rolu olmuşdur. Belə ki, kilsə və monastırların nəzdində fəaliyyət göstərən məktəblərdə, xəstəxanalarda, nikahdankənar dünyaya gəlmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlar, yaşlı və əlil insanlar üçün sığınacaqlarda yalnız sosial-məişət məsələləri deyil, həm də

pedaqoji fəaliyyət (təhsil, o cümlədən peşə təhsili və s.) həyata keçirilirdi.

Cəmiyyət inkişaf etdikcə yoxsulluğun artıq bir ehtiyac kimi aradan qaldırılması tələb olunur, insanlar tərəfindən yoxsulluq ictimai bəla hesab edilirdi. XIV əsrdən etibarən bir sıra Qərb dövlətləri dilənçilərin təqib edilməsi istiqamətlərində bir sıra qanunlar qəbul etdilər. İngiltərədə fərdi şəxslərə sədəqə vermək qanunla qadağan edildi. Burada sağlam yoxsullar işləməli, xəstələr isə kilsələr tərəfindən idarə olunan xüsusi sığınacaqlarda saxlanmalı idilər. dilənçiliklə mübarizədə cəmiyyətin fəal iştirak etməsi, qısa zamanda İngiltərə və digər ölkələrdə dilənçilərin sayının azalmasına səbəb oldu. Xəstələrə, uşaqlara, məhkumlara qayğı göstərilməsi filantropiya hərəkatının əsas qayəsini təşkil etdi.

1530-cu ildə Almaniyanın imperiya seymi tərəfindən yerli hakimiyyət orqanlarınna hər bir icmanın öz yoxsullarının ehtiyaclarının daxili imkanlar hesabına ödənilməsi barədə göstəriş verildi. Oxşar qanunlar qısa zaman ərzində Fransa, Hollandiya və digər ölkələrdə də qəbul edildi. Qısa müddətdə Avropada qocalar və uşaq evlərinin inşaasına başlandı. Hamburq şəhərində siyasi iqtisadçı Byuşh və ticarətçi Fohtun səyləri nəticəsində 1778-ci ildə yoxsullar üçün ümumi qəyyumluq cəmiyyəti təşkil olundu. Cəmiyyətin yaradılmasında əsas məqsəd hər bir yoxsulun imkan daxilində gündəlik dolanışığının təmin edilməsi idi.

1865-ci ildə İngiltərədə keşiş Vilyam Buts "Xilas ordusu" adlı təşkilat yaratdı. Təşkilatın əsas fəaliyyəti kasıb və kimsəsiz insanlara yardım göstərilməsi idi. XIX əsrin sonu-XX əsrin əvvəllərində könüllü xeyriyyəçilikdən elmi və peşəkar filantropiyaya keçid baş verdi. Avropada "sosial tibb", Amerika Birləşmiş Ştatlarında isə "sosial iş" terminləri yarandı.

Ceyn Adams (1860-1935) Amerika Birləşmiş Ştatları tarixində ilk dəfə "tənzimləmə evi" adlı sosial mərkəz yaratmaqla sosial xidmətin genişlənməsinə böyük töhfələr verdi. 1917-ci ildə ABŞ-da sosial iş sahəsində fəaliyyət göstərən ilk təşkilat –Amerika Sosial İşçilərinin Assosiasiyası yaradıldı.

Sosial iş bir peşəkar fəaliyyət kimi XIX əsrdə formalaşmağa başlamışdır. İlk dəfə 1898-ci ilin yayında Kolumbiya

Universitetində sosial iş üzrə sinif açıldı. İngiltərədə də sosial iş demək olar ki, Amerika Birləşmiş Ştatları ilə eyni vaxtda yaranmışdır. İngiltərədə ilk sosial işçilər xəstəxanada fəaliyyət göstərmişlər. 1895-ci ildə Meri Stevard Royal Fri xəstəxanasında çalışan ilk sosial işçi olmuşdur.

Qeyd olunanları nəzərə alaraq, sosial işin inkişaf tarixini şərti olaraq aşağıdakı dörd mərhələyə ayırmaq olar:

I mərhələ-qədim dövrdən başlayır. Qarşılıqlı yardım və dəstək formasında sosial işin arxaik formaları yaranmışdır. Sədəqə, mərhəmət, filantropiya və xeyriyyəçilik bu dövrdə formalaşmışdır.

II mərhələ- XIX əsrin sonu və XX əsrin əvvəllərin əhatə edən bu dövrdə sosial iş ayrıca peşə kimi formalaşmışdır.

III mərhələ- XX əsrin 80-ci illərində sosial işin insan hüquqlarının müdafiəsi və təmin edilmə üsulu kimi dərk edilməsi formalaşır. Bu mərhələdə Ümumdünya İnsan Hüquqları bəyannaməsi (1948-ci il) və insan hüquqlarına dair digər beynəlxalq sənədlərdə əks olunmuş hüquqlar sosial işin inkişafında və tətbiq dairəsinin genişlənməsində mühüm hüquqi baza yaratdı.

IV mərhələ - XX əsrin 90-cı illərin əvvəllərində sosial iş nəzəriyyəsi formalaşır və bununla dünya elminə daha bir elm sahəsi əlavə olunur.

XX əsrin sonlarından fəaliyyət forması kimi mövcud olan sosial işin inkişafında son dörd onillik xüsusi yer tutur.

Bütün dünyada və Azərbaycanda ailə problemlərinin tədqiqi, yeniləşən və qloballaşan siyasi proseslər zəminində insanların ailə həyatında baş verən dəyişikliklərin öyrənilməsi kifayət qədər böyük aktuallıq kəsb edir.

Müasir dövrdə Azərbaycanda ailə problemlərinin ümumi xarakteristikası ölkənin müstəqilliyi illərində respublikanın ictimai, iqtisadi və siyasi sferalarında baş verən əhəmiyyətli dəyişikliklərlə izah edilir. Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycanın üzləşdiyi çoxsaylı çətinliklər, ölkə ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması, Azərbaycanın ənənəvi sosial-demoqrafik strukturunu dəyişmiş və ölkəni çoxsaylı həyati problemlərlə üz-üzə qoymuşdur. Bununla yanaşı, sosial-iqtisai münasibətlərin yeniləşməsi şəraitində Azərbaycan ailəsinin dəyər

istiqamətləri, maraqları, həyat tərzi, idealları, normaları və davranış stereotiplərini nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Bu isə ayrılıqda hər bir ailənin həyatında müəyyən gərginliyin yaranmasına səbəb olmuşdur.

Ölkəmizdə sosial işin institutlaşması dövrü sosial işçi kadrlarının hazırlanmasını zəruri edir. Məhz bu zərurət, gələcək sosial iş mütəxəssislərinin müvafiq sahə üzrə hərtərəfli nəzəri və praktiki biliklər alması məsələsini aktuallaşdırır.

Müasir ali təhsil sistemində Azərbaycan üçün yeni olan və sosial iş adlanan ixtisasa maraq oyanmışdır. Sosial işin nəzəriyyəsinin uğurlu şəkildə mənimsənilməsi, qərb dövlətlərinin sosial xidmətlər sahəsində toplanmış intellektual potensialına və təkmilləşmiş təcrübəsinə əsaslanmalıdır.

Sosial iş üzrə ixtisaslaşmış kadrların hazırlıq səviyyəsi də mühüm əhəmiyyət kəsb edən amildir. Sosial sahə mütəxəssislərin yetişdirilməsində sosial işin subyekt və obyektlərinin fəaliyyətlərinin psixoloji aspektlərinin öyrənilməsinin vacibliyini zəruri etdi.

Tədrisin məqsədi həmçinin tələbələrin diqqətini mövcud, aktuallıq kəsb edən sosial problemlərə yönəltmək və onları həmin problemlərin ümumi vəziyyəti ilə tanış etməkdir:

-dünyəvi sivil proseslər kontekstində ölkəmizdə və xaricdə sosial dəstək ənənələrinin özünəməxsus formalaşması və inkişaf etməsini təhlil etmək;

-sosial işin nəzəriyyə və praktikasının anlayışlar və kateqoriyalar sistemini müyyənləşdirmək;

-sosial işin tarixi təcrübəsinin aktual problemlərinin əsas mahiyyətini açıqlamaq, sosial yardıma ehtiyacı olan şəxslərə professional səviyyədə köməklik göstərməyin elmi-nəzəri və praktik tərəflərinə dair biliklərini zənginləşdirmək.

1.2. Fənnin məqsədi və vəzifələri

Fənnin məqsədi. Müasir dövrdə baş verən sürətli inkişaf, informasiya-kommunikasiya texnologiyalarının tərəqqisi, ayrı-ayrı sahələrdə həyata keçirilən innovasiyalı proseslər tədris prosesində də müasir dövrün tələblərinə cavab verən yeni yanaşmaların mövcudluğunu tələb edir. Hazırda sosial sahədə müxtəlif problemlərin həllinin elmi əsaslarla həyata keçirilməsi, sosial işin institutlaşması və bu sahədə mütəxəssis hazırlığı vacib məsələlərdən sayılır. Bu baxımdan "Sosial iş nəzəriyyəsi və təcrübəsi-1" fənni üzrə tədris proqramı və digər tədris-metodik vəsaitlər əsasında tədrisin interaktiv metodlardan istifadə yolu ilə həyata keçirilməsi mühümdür.

Fənnin tədrisi məqsədilə tərtib edilən, hazırlanan tədris proqramı və digər tədris-metodik vəsaitlər vasitəsilə kursun predmeti, məqsədi, vəzifələri, sosial iş nəzəriyyəsi və təcrübəsində tarixilik və beynəlxalq təcrübə, sosial işin ictimai xarakteri, sosial iş nəzəriyyəsinin metodoloji əsasları, sosial işə əsas elmi yanaşmalar, sosial işin metodları, sosial işdə modellər, nəzəriyyələr, rol və kommunikativ proseslər, sosial iş nəzəriyyəsi və təcrübəsi ictimai elmlər strukturunda, sosial iş və insan amili, sosial iş və şəxsiyyət, qarşılıqlı sosial təsir sistemində insan resursları, sosial işdə sosial-etnik münasibətlərin əhəmiyyəti, qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolu, bioloji və sosial cəhətlər, tələbatlar, əqidələr, cəhtlər, iddia səviyyələri arasında fərqlilik, sosial işin texnoloji mahiyyəti, sosial işdə diaqnostika və onun tətbiqi metodlar, sosial işdə profilaktika, adaptasiya, reabilitasiya və terapiya vasitələrinin tətbiqi, sosial ekspertiza texnologiyaları, əhalinin məşğulluq sferasında sosial işin texnologiyaları tədris edilir. Eyni zamanda valideynlərini itirmiş uşaqlarla və gənclərlə sosial işin texnologiyaları, deviant davranışlı şəxslərlə sosial iş, ictimaiyyət tərəfindən qanun pozuntularının deviant kimi müəyyənləşdirmə imkanları kimi mövzular da tədris olunur.

Əsas məqsəd isə sosial iş nəzəriyyəsi və təcrübəsi sahəsində bütün bu proseslərin yüksək səmərəlilikdə həyata keçirilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün qarşımızda aşağıdakı vəzifələr durur:

•kursun predmeti, əhəmiyyətini və mahiyyətini tələbələrə izah etmək;

•sosial iş nəzəriyyəsi və təcrübəsində tarixilik və beynəlxalq təcrübənin tədrisi;

•sosial işin ictimai xarakterini və nəzəri-metodoloji əsaslarını tədris etmək;

•sosial iş nəzəriyyəsi və təcrübəsilə bağlı elmi yanaşmalar, modellər və nəzəriyyələri elmi ardıcıllıqla izah etmək;

•qarşılıqlı sosial təsir sistemində insan resurslarının mühüm əhəmiyyətini aydınlaşdırmaq;

•məşğulluq sferası, davranış normaları və ekspertiza texnologiyaları ilə bağlı tələbələrə elmi məluumatları çatdırmaq və hərtərəfli şəkildə mənbələrə istinadən tələbələri bilik, bacarıq və vərdişlərə yiyələndirmək.

1.3. Sosial işdə nəzəriyyələr və təcrübələr

Sosial işin praktikası və praktika nəzəriyyələri

Sosial işdə nəzəriyyələrin əhəmiyyəti, onların sosial quruluşları və seçilib sosial iş praktikasına uzlaşdırılması

Sosial iş peşəsinin praktiki baxımdan fikirləşmək olar. Belə ki, sosial iş prosesi qiymətləndirmə mərhələsindən başlayaraq müdaxilə mərhələsi də daxil olmaqla və başlanılan peşəkar kömək prosesinin sona çatdırılması mərhələlərindən ibrarətdir. Bu istiqamətdə səmərəli işləmək üçün praktiki təlimatlar tələb olunur ki, onlar da elmi sübuta və tədqiqata əsaslanmış olmalıdır. Məsələn, səmərəli ünsiyyət qurmaq üçün sizə nələr lazım olduğunu elmi sübutu olan mənbələrdən öyrənməlisiniz. Sosial işə belə bir prizmadan baxmaq mexaniki bir proses olardı. Lakin sosial işdə nəzəriyyələrin olması sosial işi icra edərkən qiymətləndirmə mərhələsində nəyin əhəmiyyətli olmasını nəzərə almaq, insanlara kömək etmək üçün hansı vasitə ilə və necə müdaxilə etmək lazım olduğunu və prosesi nə zaman və necə başa vurmaq lazım olduğunu bizə deyir. Əgər sosial iş üzrə təlimatlar sizə kimin necə daha yaxşı qiymətləndirməyi belə göstərsə siz nəyin necə qiymətləndirmək lazım olduğunu və necə müdaxilə etmək lazım olduğunu necə bilə bilərsiniz? Əgər sizə kimsə desə ki, “İntervyu eləməyin ən səmərəli yolu budur”, o zaman növbəti məntiqi sual belə olacaqdır: “Hansı məqsəd üçün səmərəlidir?”. Sadəcə

olaraq “bunu belə elə, onu belə elə” kimi sadəcə mexaniki qaydalar onların nəzəriyyə və biliklərini ört-basdır edir. Berqlində görə (1992) sosial iş prosesi elə bir prosesdir ki, müxtəlif alternativlərdən və ya mövqelərdən çıxış edərək qərara gəlmək olur. Əldə etdiyimiz nəzəriyyələr həmişə bizə hansı alternativi seçməyimizi və nəyə görə bu alternativi seçməyimizi sübut etməkdə bizə kömək edir (Hove, 1987). Buna görə də ailə və uşaqlar ilə işləyərkən sosial işçilər kimi nəzəri biliklərimiz olmalıdır ki, iş zamanı verilən qərarların nəyə görə belə verildiyini və necə verildiyini izah edə bilək. Bir sözlə, nəzəriyyələri bilmək sosial işçilərə gördükləri işin elmi əsası olmasını sübut etməyə imkan verir. Bu da yuxarıda sosial işçilərin etik qaydalarında qeyd olunduğu kimi sosial işçilərin əsas etik prinsiplərinə xidmət edir.

Nəzəriyyə dünya haqqında ideyaların təşkil olunmuş bəyanatdır. Fook (2002) qeyd edir ki, hətta əşyalara belə adların verilməsi işdə aydınlıq yaradır. Sosial işdə “nəzəriyyə” sözü üç müxtəlif imkanları açıqlayır, yəni sosial işdə nəzəriyyələr üç müxtəlif terminlər ilə işlənir: modellər, nəzəriyyələr və perspektivlər. Bəzən bunların üçü də eyni mənanı vermək üçün işlənilir və ya bəzən müxtəlif mənaları ifadə etmək üçün işlənilir. Aşağıdakı izahatlar bu üç terminə açıqlıq gətirir.

• Modellər praktika zamanı nəyin baş verməsini ümumi olaraq izah edir: belə ki, bizim düşüncələrimizi müxtəlif situasiyalarda strukturlaşmış şəkildə ifadə edir ki, bu da praktikaya stabillik və tutarlılıq vermək üçün bəzi prinsipləri və nümunələri seçib saxlayır. Modellər bizim fikirlərimizi mürəkkəb situasiyalarda necə davranmağı və necə hərəkət etməyimizi strukturlaşdırır və təşkil edir. Buna yaxşı misal olaraq tapşırığa əsaslanmış praktika modelini gətirmək olar.

• Perspektivlər dünya haqqında dəyərlər və baxışlardır ki, onlar da praktika zamanı beyinləri məcbur edir ki, özlərini idarə edə bilsinlər və düzgün istiqamətə yönəldə bilsinlər. Perspektivlər bizə nəyin nə üçün baş verməsini təşkil olunmuş şəkildə fikirləşməyə imkan verir. Müxtəlif perspektivlərin situasiyaya tətbiq edilməsi bizə situasiyanı müxtəlif prizmalardan görmək imkanı verir. Buna misal olaraq Feminist perspektivini və sistemlər nəzəriyyəsini göstərmək olar.

• İzahedici nəzəriyyələr bəzi hərəkətlər nə üçün bəzi nəticələrə səbəb olduğunu izah edir. Bu nəticələrin baş verdiyi şəraiti müəyyən edir. Bəzi

yazıçılar “nəzəriyyə” sözünü belə səbəb ilə nəticələnən hərəkətləri izah etmək üçün istifadə edirlər. Onlar üçün “nəzəriyyə” deməlidir ki, nə işləyir, nə işləmir. Məsələn, koqnitiv davranış nəzəriyyəsi buna bir misaldır. Perspektivlər, modellər və nəzəriyyələr praktika zamanı lazım olan əhəmiyyətli ünsürlərdir. Çünki sosial iş mürəkkəb dünyamızda praktiki fəaliyyətdir, amma nəzəriyyə və ya perspektivlər sosial işçilərə fəaliyyət üçün konkret yol göstərirlər.

Ümumiyyətlə, nəzəriyyələr iki hissəyə bölünə bilər: bunlar formal və qeyri-formal şəkildə yaranan nəzəriyyələrdir. Formal nəzəriyyələr adətən alimlər və elmi işçilər tərəfindən elmi ocaqlarda müzakirələr, debatlar və ya elmi araşdırmalar nəticəsində ərsəyə gələn nəzəriyyələrdir. Qeyri-formal nəzəriyyələri isə praktika şəraitində və ya iş ərzində meydana çıxan fikirlərin və rəylərin toplusu kimi izah etmək olar və ya onlar belə formada meydana gəlir. Yəni bunlar gündəlik təcrübə əsasında meydana çıxır.

Nəzəriyyələri eyni zamanda həm də induktiv və deduktiv adlandırmaq olar. İnduktiv nəzəriyyə praktiki təcrübədən ümumiləşdirilərək yaradılır. Deduktiv nəzəriyyələr isə ümumi nəzəriyyədən hər hansı bir hadisə haqqında qənaətə gəlmək deməkdir. Məsələn, yəqin ki, siz ağır xəstə olan və ölmək ehtimalı yüksək olan insanlar ilə təmasda olmusunuz və ya işləmisiniz. Onlar adətən qəzəbli olurlar, sonra depresiyaya düşürlər və sonunda isə tezliklə öləcəklərini qəbul edirlər. Əgər siz bu təcrübədən hər hansı bir nəzəriyyə irəli sürmüş olsanız, məsələn ölən insanların davranış nəzəriyyəsini irəli sürmüş olsanız zaman bu induktiv tipli nəzəriyyə olacaqdır. Sonra isə ölməkdə olan və depresiya vəziyyətində olan insana rast gəlsəniz və öz ümumi nəzəriyyənizdən onun hərəkətləri haqqında hər hansı bir şərh versəniz və desəniz ki, o qısa bir zamanda öz ölümünü qəbul edəcəkdir. O zaman bu deduktiv nəzəriyyə olacaqdır. Yəni siz insan ölümü haqqında olan nəzəriyyə ilə tanışsınız və bu biliyə əsaslanaraq həmin adamın növbəti addımının nədən ibarət olacağını proqnoz edə bilərsiniz.

Sosial işdəki nəzəriyyələrə gəldikdə isə Sibeon (1990), bu nəzəriyyələri üç hissəyə bölmüşdür. Birinci tipə sosial işin nə barədə olmasını izah edən yəni “sosial iş nədir?”i izah edən nəzəriyyələrdir. İkinci tipə aid olan nəzəriyyələr “sosial iş necə işləyir?”i izah edən nəzəriyyələrdir.

Üçüncü tipə isə ailə və uşaqların dünyasını araşdıran və ya izah edən nəzəriyyələr daxildir. Çətin həyat şəraitində olan insanın (ailənin) dünyası haqqında olan nəzəriyyələrə bəzən sosial işin elmi bazası kimi istinad edirlər.

Sosial iş nəzəriyyələrinin sosial quruluşu

Sosial işdə nəzəriyyələr eyni zamanda tiplərinə görə bir neçə qrupa bölmək olar. Payne (2005) sosial işdə olan nəzəriyyələri refleksiv-terapetik, sosialist-kollektivist və individualist-reformist kimi tiplərə bölmüşdür.

•Refleksiv-terapetik baxışlar: Dominelli(2002) bu yanaşmaları və ya bu tipə daxil olan nəzəriyyələri terapetik kömək etmək yanaşması kimi adlandırır. Bu yanaşmaya əsaslanıb işləyən sosial işçilər fərdlərin, qrupların və icmaların rifahını onların şəxsi inkişafında və özünü tamamlamaqlarında görürlər və bu istiqamətdə iş aparırlar. Sosial işçi ilə çətin həyat şəraitində olan insanın arasında münasibətlər, çətin həyat şəraitində olan insanın ideyalarını dəyişə bilər və bu da sosial işçiyə imkan verir ki, çətin həyat şəraitində olan insanın arasında təsir etsin; eyni yolla da müraciətçilər sosial işçilərə yardım edirlər ki, onların dünyasını anlasınlar. Bu bir-birilərinə qarşılıqlı təsir prosesi məhz sosial işi bu yanaşmadan görənlər üçün refleksiv edir, belə ki, bu sosial işçinin üzə çıxardığı sosial narahatçılıqlara cavab verir və bu narahatçılıqlarla işlədikcə təcrübə əldə edir. Bu yollar vasitəsilə çətin həyat şəraitində olan insan öz hisləri və həyatları üzərində hakim olmaq bacarıqlarını əldə edirlər. Müraciətçilərə verilən bu dəstək onlara həyatlarında olan problemlərin və iztirabların öhdəsindən gəlməyə onlara imkan verir.

• Sosialist-kollektivist baxışlar: Bu yanaşmaya əsaslanıb işləyən sosial işçilər cəmiyyətdə əməkdaşlıq və qarşılıqlı dəstək axtarırlar ki, cəmiyyətdə əzilmiş və imkansız insanların öz həyatlarına hakim olmalarına şərait yaratmağa çalışırlar. Sosial işçilər insanları səlahiyyətləndirərək öyrənmə və əməkdaşlıq prosesi vasitəsilə elə şərait yaradırlar ki, cəmiyyətin bütün üzvləri bərabər hüquqlu bəhrələnə bilsinlər. Onların baxışlarına görə elit təbəqə cəmiyyətdəki bütün resursları toplayıb onları öz mənfəətləri üçün istifadə edirlər. Belə

etməklə onlar cəmiyyətdə digərlərini zülm altında saxlamaq və digərlərinə imkanlar yaratmamağa çalışırlar. Sosial işçilər də cəmiyyətdə bərabərlik yaratmağa çalışmaqla bu ədalətsizliyə aradan qaldırmağa çalışırlar. Dominelli (2002) bu yanaşmanı azad edən yanaşmalar adlandırır, çünki sosial işçilər insanları zülmdən və ədalətsizlikdən xilas edirlər. Digər alimlər isə bu sosial işçiləri transformasiya edən yəni dönüş yaradanlar adlandırırlar, çünki onlar cəmiyyəti kasıbların və əzilmişlərin haqqını təmin edən bir cəmiyyətə çevirmək istəyirlər. Bundan başqa onlar belə yanaşmaları var ki, əgər cəmiyyətlərdə transformasiya olmasa o zaman güclülər tərəfindən əzilənlər heç bir zmaan fərdi və ya sosial səlahiyyət əldə edə bilməyəcəklər.

• İndividualist-reformist baxışlar: Bu yanaşmadan çıxış edən sosial işçilər sosial xidmətlərin və proqramların fərdlərə cəmiyyət tərəfindən verilən bir xidmət kimi görürlər. Bu fərdlərin ehtiyaclarını ödəyir və onların bir hissəsi gördükləri xidmətlərin keyfiyyətini yüksəldir, bu da sosial işçilərin və xidmətlərin daha da səmərəli fəaliyyət göstərməsinə şərait yaradır. Dominelli(2002) bu yanaşmanı saxlama yanaşması adlandırır. Onlar sosial işi cəmiyyətin sosial düzəninin və sosial bazasını qorumağa çalışan bir peşə kimi görürlər və insanları çətinliklər zamanı hər hansı bir dəstəkləməyə çalışırlar ki, onlar sabitliyi yenidən qazana bilsinlər. Sosial işdə olan nəzəriyyələr aşağıdakı cədvəldə bu tiplər üzrə bölünmüşdülər.

Nəzəriyyənin tipi:

Refleksiv-terapetik

Sosialist-kollektivist

İndividalist-reformist

Perspektiv:

Ətraflı

İnklusiv

Nəzəriyyə

Model

Psixodinamik

Humanist, mövcudluq

Konstruktiv

Krisis

Kritik

Zülmün əleyhinə

Feminist

Səlahiyyətləndirmə

Sosial inkişaf

Sistemlər

Koqnitiv-davranış

Tapşırıq-əsaslı

Nəzəriyyənin sisyası fonu/praktika ilə əlaqəsi

Yuxarıda sosial iş nəzəriyyələrinin quruluşundan və tərkib hissələrindən danışır. İndi isə sosial işin nəzəriyyələrinin real dünya ilə yəni praktika ilə əlaqəsindən danışacağıq. Nəzəriyyənin siyasətinin və praktika ilə əlaqəsi dörd məsələ ətrafında formalaşır:

•Tətbiqi-biz nəzəriyyənin praktika ilə tətbiq edə bilirikmi?

• Uzlaşması-nə qədər nəzəriyyə praktika ilə uzlaşır?

•Məsuliyyət-qurumların və ya sosial işçilərin fəaliyyətindəki müstəqillikdə nəzəriyyə nə qədər məsuliyyət tələb edir?

• Legitimliyi-sosial işin sosial dəyəri varmı və bu nə qədərdir?

Sosial iş nəzəriyyələrinin çeşidləri: seçim edilməsi və ya seçimçilik etmə

Baxmayaraq ki, sosial işdə nəzəriyyələr çoxdr, amma tədqiqatlar göstərir ki, sosial işçilər yalnız iki və ya üç nəzəriyyə ilə işləyirlər. Payne qeyd edir ki, nəzəriyyələr xüsusiyyət baxımından çox ümumidirlər və onlar

müxtəlif situasiyalarda işlənə bilirlər. Onlardan istifadə o demək deyil ki, müəyyən qrup ilə müəyyən nəzəriyyəni işlətmək lazımdır.

UŞAQ VƏ AİLƏLƏR İLƏ SOSİAL İŞDƏ İSTİFADƏ OLUNAN BƏZİ NƏZƏRİYYƏLƏR

Uşaq inkişafı nəzəriyyəsi

"Uşaq inkişafı" anlayışından yaşın müxtəlif mərhələlərində uşaqlarda yaranan ehtiyacların müəyyənləşdirilməsi məqsədilə maraqlı bir yanaşma kimi istifadə edilir. Uşaq inkişafı, doğulduğu gündən yeniyetməlik dövrünə qədər insan həyatının müəyyən bir hisəsini əhatə edən mürəkkəb prosesdir. Bu proses üç mərhələdən keçir: 1) erkən uşaqlıq dövrü; 2) orta uşaqlıq dövrü; 3) yeniyetməlik dövrü. Uşaq inkişafı yanaşmasına görə uşaqlar 5 sahə üzrə inkişaf edirlər. Bunlar 1) fiziki 2) idraki 3) emosional 4) sosial və 5) mənəvi. Uşaqların inkişafında bu 5 sahənin hamısı çox vacibdir. Ona görə mütəxəssislər və valideynlər bu 5 sahənin hamısının inkişafına nəzər yetirməlidirlər. Valideyn və mütəxəssislər üçün "Uşaq inkişafı üzrə vəsait" bu məlumata lavə olunmuşdur və 122 səhifədən ibarətdir.

Aram Maslovun Holistik-Dinamik Nəzəriyyəsi: Ehtiyaclar Piramidası

Abraham Maslov 1908-ci il aprelin 1-də Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində anadan olmuşdur. Ehtiyaclar ierarxiyası nəzəryyəsini ilk dəfə "Motivasiya və Şəxsiyyət" adlı kitabında (1943) təqdim etmişdir. O, bu nəzriyyədə "özünü-sübutetmə/təsdiqetmə"dən danışır ki, bu da insanların fərdi potensialını tam tətbiq etmək üçün böyümə və inkişaf etmə prosesidir.

Maslov inanırdı ki, "özünü-sübutetmə" müsbət prosesdir, çünki bunu əldə etməyə doğru gedən insanlar proses boyunca özlərinin nəyə qadir olduqlarını kəşf edirlər, özlərini inkişaf etdirirlər və nəticədə özlərini tapdıqca insanlar özlərini çox yaxşı hiss edirlər və cəmiyyətdə faydalı vətəndaşlar olurlar. Maslov inanırdı ki, biz ehtiyaclar tərəfindən motivasiya olunuruq. Motivasiya özünü-sübut etmədə əsas rol oynayır. Onun motivasiya haqqında aşağıda qeyd olunan bir neçə fikirləri var idi:

• 1970-ci ildə o, qeyd edirdi ki, insan bütövlükdə motivasiya olunur, yəni onun bir hissəsi ya da hər hansı bir funksiyası yox.

• Motivasiya adətən mürəkkəb və gizli olan hisslərin üzdə görünən sadə davranışıdır/sadə göstəricisidir.

• Onun növbəti fikri ondan ibarətdir ki, insanlar daimi bu və ya digər ehtiyaclar vasitəsilə motivasiya olunurlar. Bütün insanlar dünyanın hər yerində eyni ehtiyaclar vasitəsilə motivasiya olunurlar.

• Sonuncu fikri isə "Ehtiyaclar ierarxiyasıdır". Yəni ehtiyaclar piramidası:

Maslov **ehtiyaclar piramidasının 6 mərhələsini** qeyd etmişdir:

Birinci mərhələdə fizioloji və ya fiziki ehtiyaclardır. Bunlar aşağıdakılardan ibarətdir:

•Ərzaq, su, oksigen, sığınacaq, sevgi, nəvaziş, bədən temperaturunun stabil saxlanması və sairə. Bu ehtiyaclar əsasdır, çünki əgər insan bütün bu ehtiyaclardan məhrum olsa o zaman fizioloji ehtiyacların təmin olunması öndə gələcəkdir.

İkinci mərhələdə olan ehtiyaclar isə təhlükəsizlik ehtiyaclarıdır. Bura daxildir:

•Fiziki təhlükəsizlik, stabillik, asılılıq, müdafiə və s.

•Xaosdan təminat, xəstəliklər, qorxu, həyəcan, təhlükədən azad olma və onları hiss etmədən yaşamaq.

• Eyni zamanda təhlükəsizlik ehtiyaclarına qanunun aliliyi, nizam-intizam və cəmiyyətdə ədalətli strukturun olması da belə ehtiyaclara daxildir.

Piramidanın **3-cü mərhələsində** sevgi və aidolma hissi və ya ehtiyacları durur. Bura dostluğa olan istək, ehtiyac, ailə və ya yoldaşın olması, ailəyə, icmaya, məhəlləyə və sonda xalqa mənsub olma ehtiyacı eyni zamanda insanlarla münasibətdə olmağa, sevmək və sevilməyə olan ehtiyaclar daxildir.

4-cü mərhələdə hörmət hissləri və ya ehtiyaclarıdır. Bu, özünə-hörmət, başqalarına hörmət və başqalarının bizə göstərdiyi hörmətdən ibarətdir.

Burda cəmiyyətdə tutulan status da böyük rol oynayır. İnsanlar cəmiyyətdə və ya icmada tutduqları statusa görə hörmət qazanırlar.

5-ci mərhələdə özünü-sübutetmə mərhələsi gəlir. Bütün ehtiyaclar ödəndikdən sonra insan özünü-sübutetməyə və ya təsdiqə doğru gedir. Bu səviyyəyə çatan insanlar demək olar ki, tam insanlığı əks etdirirlər, belə ki, onların yüksək mənəvi dəyərləri var, körpə uşaq kimi təbiidirlər və yaradıcıdırlar. Lakin bütün özünü-təsdiq hisslərini qarşılayan insanların hamısında pzünü-təsdiqetmə baş vermir. Çünki Maslov qeyd edir ki, "B" dəyərləri vardır ki, insanlar buna malik olmalıdırlar ki, onlarda özünü-təsdiq baş versin. Maslova görə dünya əhalisinin yalnız 2 %-i özünü-sübut/təsdiq etmə mərhələsinə çatır. Maslov bu mərhələyə çatmış insanların bir neçəsinin adını misal olaraq göstərmişdir ki, bunlar: Abraham Linkolin, Ceyn Adams, Albert Eynşteyn, Tomas Jeferson, Elanura Ruzevelt və s-dir. Bu insanlar digərlərindən ona görə fərqlənmişdilər ki, onlar öz dövrlərinin adət-ənənələrinin əsiri deyil və onların çərçivəsində yaşamırdılar və müstəqil, heç kəsdən və heç nədən asılı olmayan bir həyat sürürdülər. Onlar, öz dövrlərinə görə çox irəli getmiş insanlar idilər. Onlar realist idilər və problem yönümlü idilər. Bəs "B" dəyərlər hansılardır? Maslov aşağıda göstərilən dəyərlərə "B" dəyərlərinə daxil etmişdir:

•Bütövlük, mükəmməllik, tamamlama, həqq/ədalət, canlılıq, zənginlik, sadəlik, səmimilik, gözəllik, yaxşılılıq, unikallıq, innovatrlıq, şən, müstəqil, özünə-inanan və dürüstlük.

Maslova görə insan bu dəyərlərə malik olduqda və 5-ci mərhələyə çatdıqda artıq onda özünü-təsdiq etmə baş verir.

6-cı mərhələ isə alturizm mərhələsidir. Bu səviyyəyə çatan insanlar artıq özləri haqqında deyil, başqaları haqqında fikirləşir və yaşayırlar.

Sistemlər və ekoloji perspektivlər

Sistemlər perspektivi sosial işdə əhəmiyyətli bir yanaşmadır, belə ki, ona əsaslanıb insanlara kömək edəndə diqqət təkcə insanın və ya fərdin tək özünə yox həm də onun ətrafına yönəlməlidir. Yəni onun yaşadığı ailə, icma, cəmiyyət və ölkə də sosial iş prosesinin bütün mərhələlərinə cəlb olunmalıdır. Bu sosial işdə və ya digər insanlara kömək göstərən peşələrdə kaunseling, psixoterapiya və digər yanaşmalara müxalif olan

bir perspektivdir, belə ki yuxarıda qeyd olunan yanaşmaların hamısı kömək prosesində diqqəti yalnız fərdə yönəldir və onun ətraf mühiti nəzərə alınmır. Sistemlər perspektiv sosial işin əsas fokusu olan münasibətlər, əlaqələr, sosial ədalət və ya sosial dəyişikliklər ünsürlərinin özündə cəmləyir.

Sistemlər nəzəriyyəsi haqqında əsas məqamlar

•Sistemlər nəzəriyyəsi digər sistemlərin bir hissəsi kimi görür və digərləri ilə daima təmasda olması kimi qəbul edir;

• Sistemlər bir-biriləri ilə mürəkkəb şəkildə əlaqədə olurlar və bunları araşdırmaq fərdlərin ailələri, icmaları və cəmiyyətdəki digər sistemlər ilə necə təmasda olmasını üzə çıxarmaqda bizə kömək edir;

• Sistemlər perspektivi xüsusi ilə ailələrlə işləyərkən bizə kömək edir və daha çox bu sahədə tətbiq olunur;

• ABŞ-da sistemlər perspektivinin bir nəzəriyyəsi olan ekoloji (eko-sistem) nəzəriyyəsindən daha çox istifadə olunur, hansı ki, ənənəvi psixo-dinamik nəzəriyyənin bəzi əlamətlərini ekoloji nəzəriyyəyə birləşdirərək onunla işləməyə başladılar.

Sistemlər nəzəriyyəsi sosial işdə 1970-ci illərdən mövcuddur. Sosial işdə sistemlərin iki böyük nəzəriyyəsi vardır:

• Ümumi sistemlər nəzəriyyəsi

• Ekoloji sistemlər nəzəriyyəsi

Sistemlər nəzəriyyəsi və onların sosial işdə tətbiqi:

Sistemlər bir-birləri ilə həddlər vasitəsilə birləşən fiziki və ya mənəvi varlıqlardır.

Qapalı və açıq sistemlər vardır. Qapalı sistemlərin həddin o tərəfində olan sistemlər ilə heçbir əlaqəsi olmur və vaakumda olurlar. Açıq sistemlərin isə həddlərin o tərəfindəki sistemlər ilə əlaqəsi var, amma eyni zamanda sistemin özünü qoruyub saxlaya bilir.

Sistemlər necə işləyir və biz onları necə dəyişə bilərik:

Girən(idxal)-həddlərindən kənarda olan enerjinin sistemə daxil olması və sistemdə necə istifadə olunması

Çıxan(ixrac)-Sistemdən həddin digər tərəfinə çıxanlar və onların oradakı mühitə necə təsir etməsi

Entropi-Sistemlərin xaotik inkişaf etməsi, sona çatması və ya ölməsi

Neqativ-entropi-Sistemlərin təşkilatlanmış şəkildə inkişaf etdirilməsi, qorunması və başa sona çatması imkan verilməməsi

Sistemlərin vəziyyəti beş xarakteristika ilə müəyyən olunur:

Sabit vəziyyət-Sistemin girənləri qəbul edib istifadə etməklə özünü necə qoruyub saxlayır. Bu isə sistemlərin öz təməl şəxsiyyətlərini dəyişmədən özlərində özlərində necə dəyişiklik edə bilmələrini göstərir.

Homeostasis və ya ekulibrium vəziyyəti-Bu bizim girənlərin bizi dəyişməsinə baxmayaraq təməl xasiyyətimizin və ya vəziyyətimizin dəyişməmək bacarığıdır. Məsələn, mən kələm yeyirəm, amma kələmə çevrilmirəm.

Differensassiya-Sistemlərin müxtəlif vaxtlar və müxtəlif vasitələr ilə inkişaf etməsi tendensiyası

Qeyri-toplumluluq-Sistemin bütövlüyünün onun hissələrinin bəzilərinin bir yerdə olmasından daha çox olmasından daha yaxşı olması ideyasıdır.

Qarşılılıq(reiprocity)-Əgər sistemin biri dəyişərsə bu digər sistemlərə də təsir edir, və bütün sistemlər dəyişir.

Feminizm nəzəriyyəsi

•Feminist düşüncələrin çox qədim tarixi var. Feminizm siyasi, sosial, mədəni və digər sahələrdə qadınların üstünlüyünə diqqət yetirən bir baxışdır. Bundan başqa patriarx cəmiyyətdə qadınlara olan münasibətlərə, kişiləri səlahiyyətləndirən və onlara üstünlük verən düşüncələr sisteminə qarşı çıxır. Bu perspektiv qadınları və ya onların işlərinə etinasız yanaşan, səsvermə hüququnu əlindən alan, gücünü azaldan fikirlərə və yanaşmalara qarşı çıxır.

•Liberal feminizm imkanlara olan çıxışlarda ayrıseçkiliyə və əzilməsinə, qara feminizm isə müxtəlifliyə və qadın təcrübəsinin dəyərləndirilməsinə, postmodern sosial və mədəni cərəyanlara qarşı

çıxır, hansılar ki, qadın konsepsiyasını limitləşdirir və inkişaf yollarını bağlayır.

• Feminis sosial iş özəl təcrübələr ilə və dövlət problemləri arasında bölgüyə və münasibətə diqqət verir və sosial işçilər dövlət adından necə ailədaxili zorakılıqlara dövlət adından müdaxilə edir.

Feminist nəzəriyyənin mənbəyi Marksist nəzəriyyədən gəlir.

1690-cı illərdən başlayaraq feminizmin bir neçə cərəyanı meydana çıxır:

Liberal feminizm: iş yerində və ailədə kişi və qadın arasında bərabərlikdən danışır.

Radikal feminizm: patriarxiyaya diqqət yönəldir. Patriarxiya o sistemdir ki, orda bütün güc və imtiyazlar kişilərdədir.

Sosialist və Marksist feminizm: bu cərəyan isə sinif-əsaslı sosial strukturlarda qadınlara qarşı olan zülmə qarşı çıxır.

Bu cərəyan onu göstərir ki, qadının evdə və işdə ayrıseçkiliyə uğraması ümumiyyətlə cəmiyyətə ziyan gətirir. Bu cərəyan eyni zamanda həm əlillərin haqqını qoruyur. Eyni zamanda irqçiliyə qarşı çıxır.

Qara feminizm: ilkin olaraq rasizmdən çıxış edərək qadın ayrıseçkiliklərə qarşı çıxır.

1.4. Sosial işlə bağlı qanunların mahiyyəti və təsnifatı

Məşğulluq haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir.

Maddə 1. Əsas anlayışlar

1.1. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. Aktiv məşğulluq tədbirləri – işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədi ilə onlar üçün xüsusi proqramların tətbiqinə yönəldilən tədbirlər;

1.1.2. Əmək bazarı – işçi qüvvəsinə olan tələb və təklifin məcmusu;

1.1.3. Fərdi məşğulluq proqramı – işsiz şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədi ilə hazırlanan aktiv məşğulluq tədbirlərinin konkret həcmini, növünü və icra müddətini müəyyən edən sənəd;

1.1.4. Fərdi məşğulluq vərəqi – işaxtaran və işsiz şəxsə dair fərdi məlumatlardan, o cümlədən təhsili və peşəsi (ixtisası) barədə məlumatlardan, məşğulluq tarixçəsi, habelə təklif olunan münasib iş və aktiv məşğulluq tədbirləri, onların icra vəziyyətinə dair məlumatlardan ibarət sənəd;

1.1.5. Haqqı ödənilən ictimai işlər – işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə bu Qanuna uyğun olaraq təşkil edilən ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyan iş yerləri;

1.1.6. İşsiz şəxs – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işsiz kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxs;

1.1.7. İşaxtaran – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) münasib iş üçün müraciət edən və işaxtaran kimi qeydiyyata alınan şəxs;

1.1.8. Kvota – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işlə təmin edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən işəgötürənlər üçün müəyyən edilmiş iş yerlərinin (işçilərin) minimum sayı;

1.1.9. Qeyri-formal məşğulluq – Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi (kontrakt) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq

mülki-hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də "Ailə-kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsi;

1.1.10. Məşğulluq – Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra – şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyəti;

1.1.11. Məşğul şəxslərin reyestri – bu Qanunun 4.1.-ci maddəsində nəzərdə tutulan məşğul şəxslər barəsində fərdi məlumatların, onların təhsili, iş yeri, vəzifəsi (peşəsi) və ya yerinə yetirdiyi iş (xidmət) barədə məlumatların məcmusu;

1.1.12. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar – qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması sahəsində nəzarət tədbirlərini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar);

1.1.13. Nəzarət tədbirləri – "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2ş1ş-ci maddəsində nəzərdə tutulan tədbirlər;

1.1.14. Müvəqqəti məşğulluq – şəxsin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq mövsümi işlərə, bu Qanunla müəyyən edilmiş qaydada haqqı ödənilən ictimai işlərə cəlb edilməsi və ya əmək birjaları vasitəsilə müəyyən müddət ərzində ictimai faydalı fəaliyyəti;

1.1.15. Özünüməşğulluq – şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi;

1.1.16. Peşə standartları – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən minimum tələblərin məcmusu;

1.1.17. Peşə hazırlığı – işaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun olaraq təhsil müəssisələrində ixtisasa (peşəyə) və (və ya) yeni ixtisasa (peşəyə) yiyələnmək üçün yenidən hazırlıq, ixtisasartırma istiqamətlərində təhsil alması;

1.1.18. Sığorta ödənişi – "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sığorta hadisəsi baş verdikdə, sığortaolunana sığortaçı tərəfindən ödənilən aylıq pul vəsaiti;

1.1.19. Sərbəstləşdirilən işçilər – dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil olunması, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar əmək münasibətlərinə xitam verilmiş şəxslər;

1.1.20. Sosial müəssisə - sosial müdafiəyə xüsusi ehtiiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxs;

1.1.21. Sosial iş yeri – işaxtaranlar və işsiz şəxslərin məşğulluğunu təmin etmək və işəgötürənləri həvəsləndirmək məqsədi ilə işəgötürənin ən azı 3 (üç) ay əvvəl vakansiya bankına təqdim olunmuş boş iş yeri üzrə işçinin əməkhaqqının bir hissəsinin bu Qanunla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən maliyyələşdirilən iş yeri;

1.1.22. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər - əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər;

1.1.23. Ştat vahidlərinə dair cədvəl – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi (bundan sonra – elektron informasiya sistemi) tərəfindən işəgötürənlərin bu Qanunun 7.2.-ci maddəsinə uyğun olaraq daxil etdikləri məlumatlar əsasında yaradılan cədvəl;

1.1.24. Vakansiya – işəgötürənin boş olan və işçi tələb edilən iş yeri;

1.1.25. Vakansiyia bankı – işəgötürənin boş olan və işçi tələb edilən iş yerlərinin, habelə yeni yaradılan iş yerlərinin elektron informasiya ehtiyatı;

1.1.26. Yeni iş yeri – işəgötürən tərəfindən mövcud ştat vahidlərinə əlavə olaraq yaradılmış iş yeri.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının Miqraisya Məcəlləsi, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu və başqa normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları verir.

Maddə 2. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Sosial sığorta haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında sosial sığorta sahəsiində münasibətləri tənzimləyir, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

I Fəsil

ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Sosial sığorta anlayışı**

Sosial sığorta – bu Qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır.

Maddə 2. **Sosial sığortanın formalar**

Sosial sığorta məcburi dövlət sığortası və könüllü (əlavə) sığorta formalarında olur.

Məcburi dövlət sosial sığğortası sığortaedənlər tərəfindən bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilir. Bu Qanunda nəzərdə tutulmuş hallarda digər şəxslər də məcburi dövlət sosial sığortasına cəlb olunurlar.

Maddə 3. **Sosial sığortanın prinsipləri**

Sosial sığortanın prinsipləri aşağıdakılardır:

-sosial sığortanın müntəzəmliyinə dövlət təminatı;

-sosial sığortanın ümumiliyi;

-sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi;

-sosial sığorta subyektlərinin hüquq bərabərliyi;

-dövlət sosial sığortasının məcburiliyi;

-məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi

Q A Y D A S I

Bu qayda "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikiası prezidentinin 2001-ci il 9 avqust tarixli 549 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota tətbiq edilməsi qaydasını müəyyən edir.

1. Ümumi müddəalar

1.1. Kvota şamil edilməyən müəssisələr istisna olmaqla, mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün idarə, müəssisə və təşkilatlarda (bundan sonra – müəssisə) sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota tətbiq edilir.

Müəssisələr üçün kvota müəyyən edilərkən və işəgötürənlə işçi arasında əmək müqaviləsi bağlanarkən qadınların, yaşı 18-

dən aşağı olan işçilərin və əlillərin işləməsi üçün müvafiq normativ hüquqi aktlarla qadağan olunan istehsalat sahələrinin siyahıları nəzərə alınır.

1.2. Kvota ərazi əmək bazarındakı vəziyyətdən asılı olaraq müəssisələrdəki işçilərin orta syahı sayının 5 faizindən çox olmamaq şərtilə aşağıdakı kimi müəyyən ediir:

1.2.1. İşçilərin sayı 25-dən 50-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 3 faizi (bir iş yerindən az olmamaqla) miqdarında; bu halda həmin iş yerlərindən biri lillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulur;

1.2.2. İşçilərin sayı 50-dən 100-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 4 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2 faizi əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nnəzərdə tutulmaqla);

1.2.3. İşçilərin sayı 100dən çox olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 5 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2,5 faizi əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulmaqla),

1.4.Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyasın aşağıdakılar aid edilirlər:

-20 yaşadək gənclər;

-yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər;

-sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən valideynlər;

-pensiya yaşına 2 ildən az qalmış şəxslər;

-əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər;

-cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar;

-məcburi köçkünlər;

-müharibə veteranları;

-şəhid ailələri.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəəaliyyətinin təkmilləşdirilməsi və sosial siyasətin həyata keçirilməsi və müasir tələblərə uyğun təşkilinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında aşağıdakı dövlət xidmətləri yaradılsın:
   1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti;
   1.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Baş Məşğulluq İdarəsinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti;
   1.3. Azzərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Tibbi-Sosial Ekspertiza Mərkəzinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti.

“Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikilik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

5.3. Bu Qanunun 5.2.-ci maddəsi həmin maddədə göstərilən müavinətlərin 2020-ci il yanvarın 1-dən əvvəlki dövr üçün təyin edilməsi və ya yenidən hesablanması hallarına və ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunuun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla) sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə tətbiq edilmir.

1.3. 7.0.5.1.-ci maddəyə "olmadıqda" sözündən sonra ("Əmək pensiyaları haqqında Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla)" sözləri əlavə edilsin;

1.4. Aşağıdakı məzmunda 9.1-1-ci maddə əlavə edilsin:

"9.1-1. "Əmək pensiyaları haqqında"Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində nəzərdə tutulan şəxslərə ailə başçısını itirməyə görə sosial müavinətin 2020-ci il yanvarın 1-dən əvvəlki dövr üçün təyin edilməsinə(yenidən hesablanmasına) yol verilmir".

Maddə 2. Bu Qanun 2020-ci il yanvarınn 1-dən qüvvəyə minir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikiası Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

1.1. 6-1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əölavə edilsin:

"Təyin edilmiş əmək pensiyasının məbləğinin əmək pensiyasının minimum məbləğə çatdırılması məqsədilə bu maddəyə əsasən ödənilən məbləğ əmək pensiyasının sığorta hissəsinin tərkibi hesab edilir".

1.2. Aşağıdakı məzmunda 14.4-cü maddə əlavə edilsin:

“14.4. Bu Qanunun 18.2-ci maddəsinə uyğun olaraq ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin onlardan hər birinə düşən məbləği “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ailə başçısını itirməyə görə sosial müavinətin məbləğindən az olduqda, əmək qabiliyyəti olmayan ailə üzvləriniin hər biri ailə başçısını itirməyə görə pensiya əvəzinə ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququna malikdir.”.

Maddə 2. Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği

2020-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində müəyyəən edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2020-ci il yanvarın 1-də qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 noyabr 2019-cu il.

1.5. Fənnin əhəmiyyəti

“Sosial iş nəzəriyyəsi və təcrübəsi-1” fənninin müasir dövrün sosial işçiləri üçün, yəni sosial iş sahəsi ilə məşğul olan mütəxəssis-kadrların hazırlanması üçün mühüm əhəmiyyəti vardır. İlkin mərhələdə tədris olunan bu fənn sosial iş sahəsindəki nəzəri və təcrübi məsələləri elmi ardıcıllıqla öyrənilmədə əhəmiyyətlidir. Fənnin mənimsənilməsində həmçinin tarixilik və beynəlxalq təcrübənin yeni, sosial işin ictimai xarakteri, sosial işə əsas və mühüm elmi yanaşmlar da müxtəlif mənbələrin bazasında və müvafiq normativ-hüquqi aktlara istinadən öyrənilir.

Fənnin tədrisi prosesində sosial iş nəzəriyyəsinin metodları və metodoloji əsasları həm nəzəri, həm də təcrübi aspektlərdən öyrənilir. Bu proseslərdə müxtəlif nəzəri və praktiki nəticələrin də əhəmiyyəti ön plana çəkilir.

Müasir dövrdə sosial işçilərin qarşısında duran tələblərin əhatə dairəsi məzmun və mahiyyət baxımından daha genişdir. Çünki, ölkəmizdə baş verən hərtərəfli inkişaf, dünyada baş verən hadisələr zəminində sosial işçi müqayisələr və təhlillər aparmalı, müvafiq tədbirlərin görülməsi istiqamətində planlaşma işlərini yerinə yetirməyi peşəkar kimi bacarmalıdır. Buna görə də sosial işdə modellər və nəzəriyyələr, rol və kommunikativ nəzəriyyələrin tədris edilməsi, bu prosesdə təcrübi istindlardan istifadə vacibdir.

Tədris zamanı sosial iş nəzəriyyəsi və təcrübəsinin ictimai elmlər strukturunda yeri və əhəmiyyəti də öyrədilir. Təbii ki, bu zaman insan amilinin mühüm və aparıcı yeri elmi şəkildə tədris edilir. Bu proseslərdə şəxsiyyət amilinin qiymətləndirilməsi də əhəmiyyətlidir. Fərddən şəxsiyyətə qədər formalaşma dövrlərinin xüsusiyyətlərinin özünəməxsusluğu və müasir dövrdə şəxsiyyətin rolunun mühümlüyü dəyərləndirilir.

İnsan resurslarının əhəmiyyəti və bu resurslardan istifadə bacarıqlarının formalaşdırılması da vacibdir və bu istiqamətli bilik və bacarıqların, vərdişlərin aşılanması elmi xarakterli olmalıdır.

Hazırki qloballıq şəraitində xalqların bütün fəaliyyət istiqamətlərində inteqrasiyası prosesində etnik münasibətlərə əhəmiyyət verilməsi məqsədəmüvafiqdir. Bu baxımdan fənnin tədrisi zamanı sosial-etnik münasibətlərin nəzəri və praktiki tərəflərinin müqayisələrin müstəvisində bilikilərin aşılanması və bacarıqların formalaşdırılması həyata keçirilir.

Fənnin tədrisində sosial işdə qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolu, sosial işdə bioloji və sosial cəhətlər, tələbatlar, əqidələr, cəhdlər, iddia səviyyələri arasındakı fərqlilikilər həm nəzəri, həm də təcrübi baxımdan mühüm elmi istiqamətlər öyrənilir.

Sosial işdə sosial diaqnostika və onun tətbiqi metodları, sosial işdə profilaktika, adaptasiya, reabilitasiya və terapiya işlərinin tətbiqi, ictimaiyyət tərəfindən qanun pozuntularının deviant kimi müəyyənləşdirmə imkanları da tədris əhəmiyyətlidir. Həmçinin sosial işin texnoloji mahiyyəti, sosial ekspertiza texnologiyaları, əhalinin məşğulluq sferasında sosial işin texnologiyaları, deviant davranışlı şəxslərlə sosial işin texnologiyaları da elmi ardıcıllıqla tədris edilməsi mühüm əhəmiyyətlidir.

Mövzu 2. Sosial iş nəzəriyyəsi və təcrübəsində tarixilik və beynəlxalq təcrübə

2.1. Sosial işin tarixi mərhələləri.

2.2. XIX-XXI əsrlərdə sosial iş sahəsində Şərq və Qərb əlaqəliliyi

2.3. Sosial iş sahəsində beynəlxalq təcrübə

2.4. Azərbaycanda sosial xidmət sferası

2.5. Sosial xidmətin formaları

2.1. Sosial işin tarixi mərhələləri.

Müasir cəmiyyət keçmişdən qalan ailə, mülkiyyət, dövlət və digər institutlarla yanaşı, ona sabitliyi təmin edən xüsusi mexanizm hazırlamışdır. Bu mexanizm – ehtiyacı olanlara yardım etməyə yönəldilmiş peşə fəaliyyəti kimi başa düşülən sosial (ictimai) işdir. Sosial iş sosial yardımın müasir forması olaraq mədəniyyət tarixində formalaşan zəminlər əsasında əmələ gəlmişdir. Bu zəminlərə həm Şərqdə, həm də Qərbdə qədim zamanlardan bəri inkişaf edən müxtəlif sosial yardım formaları aiddir.

Qan qohumluğu formasından qonşu formaya çevrilən ibtidai icma əsasında dövlətin yaranması baş verirdi ki, hakimiyyəti artıq tək nüfuzu deyil, həm də gücü tələb edirdi. Onun əsası dünyaya qədim mədəniyyət ocaqları – Mesapotamiya, Misir, Hindistan və Çini bəxş etmiş Şərqdə qoyulmuşdur. Qədim Şərq cəmiyyətinin sosial strukturunun əsasını qohumluq bağlarından daha çox ərazi bağları ilə əlaqəli olan kənd təsərrüfatı istehsalçılarını birləşdirən qonşuluq icması təşkil etmişdir. İbtidai icmadan torpağa kollektiv mülkiyyətini, insanların birgə əməyini və onlar arasında möhkəm əlaqələri miras olaraq, ona qeyri-adi sabitliyi yaradan neqativliyi ilə fərqlənirdi. Bu sabitlik insanların qədim şərq ölkələrinin üzərinə düşən siyasi sarsıntılardan müdafiəsini təmin edirdi: yalnız hakim yuxarı təbəqələrə toxunaraq, onlar özləri üçün adət edilmiş həyat tərzini qoruyub saxlamış sadə xalqa, demək olar ki, toxunmurdular.

Qədimdə Şərqdə onun tarixinin sonrakı dövrlərində əhəmiyyətli dəyişikliklərə məruz qalmayan sosial yardım mexanizmi formalaşmışdır. Yer kürəsinin "üçüncü dünya"ya aid edilən bir çox regionlarında isə, onlar indi də qüvvədədir: hər bir insan özünün mənsub olduğu ənənəvi strukturların mühafizəsi altında olmaqdan ibarət idi. Həmin strukturlara ilk növbədə ənənəvi olaraq öz üzvlərinə kömək edən ailə və icma daxil idi. İnsan rifahına təhlükə olan əmtəə-pul münasibətlərinin inkişafı ilə sosial yardım subyektləri sırasına peşə əsasında yaranan müxtəlif korporasiyalar daxil olmuşdur. Belə ki, öz ehramları ilə məşhur olan Qədim Misirdə son dərəcə qapalılıqla fərqlənən daşyonanların birlikləri, ittifaqları mövcud idi. Dövlətin sosial yardımın həyata keçirilməsində rolu – onun hüquqi forma almağa başlayan ənənəvi əsaslarının saxlanmasından ibarət idi. Başqa sözlə, qədim Şərqdə formalaşmış ehtiyacı olanlara yardım mexanizminin hissələrindən biri dövlətin fəaliyyəti ilə bağlı olan sosial qanunvericilik olmuşdur.

Sosial yardımın antik dövrdə qazanılmış sinfi xarakteri onun obyektini yalnız cəmiyyətin tamhüquqlu üzvləri hesab olunan ehtiyaclı şəxslər kateqoriyası ilə məhdudlaşırdı. Birinci minillyin əvvəllərində sosial yardıma kəskin şəkildə duyulan tələbat və onun reallaşmasının məhdud imkanları arasında ziddiyyət öz xeyriyyəçilik anlayışını təklif etmiş xristianlıqda aradan qaldırılmışdır. Yəhudilikdə ehtiyacı olanlara yardım zərurəti Allahın hökmü ilə, induizm, buddizm və konfusiçilikdə isə dünya harmoniyasını dərk etməli olan şəxsiyyətin özünütəkmilləşdirmə tələbləri ilə əlaqələndirilirdi. Həmin harmoniyanın insanlara münasibətdə bədxahlığın müxtəlif təzahürlərinə nifrət bəsləyən dünyanın ilkin vəziyyəti kimi mövcud olması şərq adətlərində nəzərdə tutulurdu.

Xristianlığın dünya dininə çevrilməsi I minilliyin yarısında, onun Roma imperiyasının hüdudlarından kənara çıxdığı andan başlamışdır. Xristianlığın min ildən artıq davam edən yayılma prosesi çoxsaylı nəticələrə gətirib çıxarmışdır. Onlardan ikisi diqqətə layiqdir: birincisi o idi ki, xristian kilsəsi ehtiyacı olanlara yardımda fəal iştirak etmirdi, həm də uzun müddət ərzində orada əsas rolu oynayırdı. Bundan başqa, mərhəmətin xristian ideyası həm ictimai təşkilatların, həm də xüsusi şəxslərin xeyriyyəçilik fəaliyyətinin əsası kimi çıxış edirdi. Yalnız İntibah dövründən – Avropada humanizm ideyalarının geniş şəkildə

yayıldığı andan ictimai və xüsusi xeyriyyəçilikdə dini motivlərlə yanaşı, dünyəvi motivlər də sezilməyə başlamışdır.

Tarixə "humanizm" adı altında daxil olan mədəni hərəkat XIV əsrdə İtaliyanın iqtisadi mərkəzi olmuş Florensiyada yaranmışdır. İki yüzillikdən sonra humanizm Almaniya, Fransa və digər Avropa ölkələrinə yayıldı. Onun tərəfdarları hesab edirdilər ki, hər bir insanda hədsiz imkanlar mövcuddur ki, onların da inkişafı insan ömrünün bütün məqsədini təşkil edir. Bu inkişaf ritorika, qrammatika, poeziya, tarix və mənəvi fəlsəfədən ibarət olan humanist məşğələlər vasitəsilə həyata keçirilir. İnsanı öz tədqiqatlarının predmeti edərək, humanistlər dini deyil, dünyəvi xarakter daşıyan yeni dünyagörüşü yaratdılar. Bu dünyagörüşünün yaranması xeyriyyəçilik fəaliyyətinin əsaslarının dəyişilməsinə gətirib çıxardı: əgər xristianlıqda o, Allahın hökmünə əsaslanırdısa, humanistlərdə insanın ən ali dəyər kimi tanınmasına əsaslanırdı.

Xeyriyyəçilik problemləri ilə məşğul olan ən məşhur humanist Vives idi. O, 1526cı ildə ehtiyacı olanlara yardım planını işləyib hazırlamışdı ki, bu da reformasiyanın ümumavropa hərəkatı fonunda Almaniyada baş vermiş kəndli müharibəsinin bitməsi ilə əlaqədar son dərəcə aktual oldu. Bu plan kasıb insanların qeydə alınması, onlara yardım göstərilməsi üçün şəxsi ianələrin yığılması, eləcə də onlardan sağlam olan şəxslərin işlə təmin olunmasından ibarət idi. Ehtiyacı olanlara yardıma dair Vivesin ideyaları sosial qanunvericiliyin gələcək inkişafına böyük təsir göstərmişdir. Onun ayrılmaz hissəsi XVI əsrdən başlayaraq İngiltərə və onun Şimali Amerikadakı koloniyalarında qüvvədə olan yoxsullar haqqında qanun olmuşdur.

Sosial işin tarixi zəminləri haqqında danışarkən, ilk növbədə öz kökləri ilə qədim zamanlara söykənən xeyriyyə fəaliyyətini qeyd etmək lazımdır. Xeyriyyəçiliyin mövcud olduğu tarixi formaların xülasəsi sübut edir ki, hissələrə bölünməyən insan mədəniyyətinin ayrılmaz elementi olmuşdur. Ehtiyacı olanlara yardım kimi başa düşülən xeyriyyəçilik müasir cəmiyyətin həyatının bir hissəsi olmuşdur. Bəşəriyyətin gələcəyini onsuz təsəvvür etmək çətindir.

Sosial tarix və sosial işin tarixi üzrə əksər mütəxəssislərin yekdil fikri ondan ibarətdir ki, müasir ictimai hadisə kimi sosial işin yaranma

tarixi, onun nəzəri əsaslarının yaranma tarixi ilə eyni vaxta – yəni XIX əsrin ikinci yarısına təsadüf edir.

2.2. XIX-XXI əsrlərdə sosial iş sahəsində Şərq və Qərb əlaqəliliyi

XIX əsrin II yarısı – XX əsrin əvvəllərindəki tarixi-sosioloji, statistik, sosial-iqtisadi tədqiqatlar bir daha sübut edir ki, ictimai şüurda məöişət problemləri prioritet yer tutmaqla, qlobal məsələlər sırasına daxil olaraq, iqtisadi, siyasi və sosiomədəni proseslərin inkişafına nəzərə çarpacaq təsir göstərir.

İlk növbədə ictimai həyatın urbanizasiya hadisəsini qeyd etmək lazımdır. Çünki məhz bu proses, o dövrdə intensiv sənaye inkişafının əsasını qoymaqla, kənd əhalisinin kütləvi surətdə şəhərə axınına təkan vermiş oldu. Bütün bunların məntiqi nəticəsi olaraq, cəmiyyətdə marginal təbəqələrin nisbəti, xüsusilə də şəhər şəraitinə zəif uyğunlaşmış birinci və ikinci nəsil şəhərlilərin sayı artmağa başladı.

İctimai hadisə kimi, üasir sosial iş sisteminin formalaşmasına təsir göstərən önəmli amillərdən biri kimi XIX əsrdə zəhmətkeşlərin öz hüquqları uğrunda apardıqları mübarizədir. İri şəhərlərdə və sənaye müəssisələrində işçilərin sayının və sıxlığının artması, fəhlə hərəkatının və həmkarların təsisatlanma prosesini gücləndirməklə, həm burjua hökumətləri, həm də iri sahibkarlar qarşısında sosial işin müxtəlif formalarının tətbiqinin dəstəklənməsi zərurətini tələb kimi qoydu. Bu tələblərə diqqətin yetirilməməsi onunla nəticələnə bilərdi ki, onsuz da vüsət almaqda olan tətil və hərbi toqquşmalar dalğası alovlana bilərdi. XX əsrdə proletar inqilabının alovları bəzi ölkələrdə, o cümlədən Rusiyada alovlandı. Bu inqilabın dağıdıcı xarakteri, *mütərəqqi ictimaiyyəti* daha ədalətli ictimai quruluşa keçidin təkamül yolarını axtarmağa, mövcud və yaranmaqda olan sosial problemlərin həlli istiqamətində daha çevik mexanizmlərinin işlənib hazırlanmasına məcbur etdi.

Qərb ölkələrinin inkişafını müşayiət edən iqtisadi tərəqqi onlar üçün sosial problemlərin kəskinləşməsinə dönürdü. Onun pik nöqtəsi sənaye çevrilişindən sonrakı dövrə təsadüf etmişdir. Bu dövrdən

xeyriyyə fəaliyyəti və ehtiyacı olanlara dövlət yardımı eyni zamanda mövcud olmağa başladı. Bu iki mənbəyin birləşməsi sosial işin peşə kimi yaranmasına gətirib çıxarmışdı. İkinci Dünya müharibəsindən əvvəl tamamlanmış bu peşənin təşəkkülü demək olar ki, Şərq ölkələrinə toxunmamışdır. Bu ölkələrin iqtisadiyyatında dövlət mülkiyyəti üstünhlük təşkil edirdi, sosial sahə isə ciddi sarsılmalardan (daimi siyasi qeyri-sabitlik şəraitində icma münasibətlərinin sarsılmazlığı sayəsində) çəkinirdi. Qədim yunanların artıq imtina etdikləri ənənələrə qeyd-şərtsiz riayət, bu ölkələrdə onların qərbin təsiri obyektlərinə çevrilməsinə qədər dəyişməz qalmışdı. Bu təsirin nəticələrindən biri sosial problemlərin kəskinləşməsi olmuşdur. Bu, yalnız xüsusi mülkiyyətin inkişaf etməsi ilə deyil, həm də insanlarr üçün onların həyat tərzinin sabitliyinin təminatı qismində çıxış edən ənənəvi icma əlaqələrinin zəifləməsi ilə bağlı idi. Təəccüblü deyil ki, XX əsrin 30-cu illərində sosial iş Şərq ölkələrində (əvvəlcə müasir İsrailin ərazisində, sonra isə Hindistanda və Misdirdə) yaranmışdır.

Qərbi Avropa ölkələrində ilkin müharibədən sonrakı onillik həm iqtisadi, həm də bir çox digər sahələrdə Amerika təsiri altına düşmüşdür. Bu təsir xüsusilə İkinci Dünya Müharibəsinin nəticələrinin aradan qaldırılmasında mühü rol oynamış sosial işi əhatə edirdi. Müxtəlif ölkələrin sosial işçiləri arasında müharibə nəticəsində qırılmış əlaqələr bərpa olunurdu. Bunun nəticəsində sosial işçilərin beynəlxalq federasiyasının yaranması dururdu. Bununla da ehtiyacı olanlara yardıma yönəldilmiş peşə fəaliyyətinin inkişafının ikinci mərhələsi başa çatdı.

Sosial işin inkişafında son dörd onillik xüsusi yer tutur. Şübhəsiz ki, buna 1956-cı ildə yaradılmış Sosial İşçilərin Beynəlxalq Federasiyasının fəaliyyəti səbəb olmuşdur. Digər tərəfdən, həmin ildə sosializm binasının özülü dağılmağa başlamışdı (Sov. İKP-nin XX qurultayı və Macarıstanda üsyan). Onun böyüməsi XX əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılmasına gətirib çıxarmışdır.

Sosial işin inkişafında dövlət, həmçinin ehtiyacı olanlara yardım etməklə məşğul olan ictimai və özəl təşkilatlar üstünlük təşkil edə bilər. Birinci halda sosial işin paternalist modeli, ikinci halda isə liberal

modeli haqqında danışmaq olar. Belə ki, Böyük Britaniyada, sosial iş, əsasən, dövlət agentlikləri, Amerika Birləşmiş Ştatlarında isə qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilir. Rusiyanın formalaşmış ənənələri əsasında orada sosial işin inkişafını müəyyən edən başlıca amil dövlətdir. Rusiya məhz dövlət sosial təminat sistemi əsasında sosial işçi peşəsinin daxiledilmə təşəbbüsünü irəli sürmüşdür. Dövlət agentlikləri ilə yanaşı, ictimai və özəl agentliklər də yaranmış, lakin onların ehtiiyacı olanlara peşəkar yardımın inkişafında əməkləri az olmuşdur.

Əhalinin sosial rifahının yüksəldilməsi və yoxsulluğun azaldılması səyləri həmişəki kimi ümumbəşəri bir vəzifədir. Əgər əvvəllər yoxsulluq əsasən ailə gəlirlərinin səviyyəsi və onun ərzaqla təminatı vəziyyəti ilə ölçülürdüsə, bu məfhum getdikcə daha geniş məna daşımağa başladı. Müasir dövrdə yoxsulluğun azaldılması, həm də hər kəsin təhsil almaq, səhiyyə xidmətlərindən istifadə etmək, kişilərlə qadınların hüquq bərabərliyinə nail olmaq, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacı tam ödəmək, torpaqda, su ehtiyatlarından istifadə, ətraf mühitin yaxşılaşdırılması, bir sözlə, insan üçün layiqli həyat səviyyəsini təmin etmək deməkdir.

Azərbaycan dövlətinin bu sosial öhdəlikləri qarşıya qoyub onlara doğru irəliləmək səyləri heç də asan başa gəlməmişdir. 1988-ci ildən etibarən Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizdə əhalinin tkcə sosial rifah halı yox, bütövlükdə təhlükəsizliyi real qorxu altında qalmışdır. Müharibənin coğrafiyasının genişlənməsi nəticəsində zərər dəymiş, 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, iqtisaiyyatımızın güclü tənəzzülü başlamışdı. SSRİ dağıldıqdan sonra MDB məkanında böhran halları gündən-günə dərinləşdiyindən, dövlətçiliyimizin varlığı belə təhlükələrlə üz-üzə qalmış, həmvətənlərimizin haqq və hüquqlarının kütləvi şəkildə pozulması, həyat səviyyəsinin görünməmiş dərəcədə pisləşməsi meylləri adi hal almışdı.

Belə bir mürəkkəb şəraitdə, güclü xarici və daxili maneələrə, təxribatlara baxmayaraq, Ümummilli Lidder Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtması həyati əhəmiyyəti kəsb edir. Onun məqsədyönlü səyləri ilə qısa vaxt ərzində ölkəmizdə sabitlik

və birlik bərqərar oldu, vətəndaşların təhlükəsiz həyat şəraitini təmin etmək sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirildi.

XX əsrin 90-cı illərdə yaşanan məlum mürəkkəb və gərgin problemlərə baxmayaraq, son Minilliyin Bəyannaməsinə ilk imza atan ölkə rəhbərlərindən biri də Ümummilli liderimiz, Azərbaycan Respublikiasının Prezidenti Heydər Əliyev oldu.

Strateji baxımdan Minilliyin İnkişaf Məqsədlərinə qoşulan bir ölkə kimi, bu sənədlə bağlı son illər həyata keçirilmiş tədbirlərin bazasında yeni fəaliyyət sahələri ön plana çıxarılır. İlkin mərhələ olaraq, müəyyən edilən öhdəliklərin ölkə şəraitinə uyğun həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20n fevral 2003-cü il tarixli 854 nömrəli Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq edildi.

2003-cü ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşkilatçılıq və idarəetmə bacarığı sayəsində bu mühüm vəzifə uğurla həyata keçirilir. Ölkəmizdə ümumi makroiqtisadi sabitlik nəinki qorunub saxlanıldı, əksinə, dinamik iqtisadi artımın davamlılığı daha etibarlı şəkildə təmin edildi, inflyasiya səviyyəsi tənzimləndi. Bütün bunlar ölkənin maliyyə imkanlarını hərəkətə gətirdi, mövcud olan sosia gərginliyin, o cümlədən, sosial sahənin irəliləyişinin və yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratdı.

Respublika Prezidenti İlham Əliyev 15 sentyabr 2008-ci ildə geniş əhəmiyyət daşıyan bir sənədi – "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nı təsdiq etdi. Sərəncamda deyilir: "Ölkəmizdə sosial problemləri, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci illə müqayisədə 46,7 faizdən 29,3 faizə endirilmişdir. Sonrakı illər bu istiqamətdə nailiyyətlər daha da artırılmış və 2007-ci ilin

axırına yoxsulluq səviyyəsi 15,8 faiz təşkil etmişdir". 2014-cü il üçün bu göstərici 5 faizdir.

Yeni Dövlət Proqramının respublikamız üçün önə çıxardığı strateji məqsədlər ciddi olduğu qədər də həyati əhəmiyyət daşıyır:

-makroiqtisadi sabitliyi saxlamaqla və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi;

-əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azaldılmasına nail olunması;

-səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların riskinin azaldılması;

-qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi;

-təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması;

-sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi;

-ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi;

-gender bərabərliyinin dəstəklənməsi;

-institusional islahatların davam etdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi.

Sosial siyasət-yoxsulluğun azaldılmasına, rifah halının yüksəldilməsinə xidmət edən geniş bir anlayışdır. Sosial müdafiənin konkret mənada məqsədi ondan ibarətdir ki, o, yoxsulluğu aradan qaldırsın, insan tələbatının və həyat səviyyəsinin normal durumunun ödənilməsinə yönəlsin. Hər kəs yaşayış üçün kifayət edəcək minimum vəsait əldə edə bilsin, fərdin məşğulluğuna və istirahətinə, sağlamlığının qorunmasına, mənzil təminatına, xəstəlik baş verdikdə, qocaldıqda, ailə başçısını itirdikdə öhdəsində olan uşaqları tərbiyə etmək üçün zəmanət verəcək ilkin hüquqların təmin olunması reallaşa bilsin.

Daha geniş mənada isə sosial müdafiə anlayışı aztəminatlı əhali qruplarının məcmu gəlirlərinin yaşayış minimumundan aşağı olmasına imkan verməyi, dövlətin öz vətəndaşlarının yalnız cari gəlirlərinə deyil, həm də onların pul əmanətlərinin, əmlak yığımlarının da qorunmasına zəmanət verməyi özündə ehtiva edir.

Mühüm olan Beynəlxalq sənədi – İqtisadi, Sosial, Mədəni Hüquqlar Haqqında Paketi yada salaq. Sənədin 11-ci maddəsi bütün ölkələrdə insanlar arasında həyat səviyyəsini müəyyən edə biləcək hüququnu təmin etməyə çalışır. Bu sənədin əhəmiyyəti ondadır ki, o, Sosial Təminat Haqqında Konvensiyada və İnsan Hüquqlarının Ümumi Bəyannaməsində göstərilən sosial təminat hüquqlarına (tibbi xidmət, xəstəliyə görə müavinət, işsizliyə görə müavinət, yaş üzrə müavinət, əmək və istehsalat zədələrinə görə müavinət, ailə və analıq müavinətləri, əlilliyə görə müavinətlər, ailə başçısının itirilməsi ilə əlaqədar müavinətlər) əlavə olaraq aşağıdakı vacib hüquqları təsbit edir. Bununla da sosial təminat anlayışının dairəsini xeyli genişləndirir:

• Kifayət qədər qidalanma hüququ;

• Sağlamlıq hüququ;

• Kifayət qədər paltara (geyimə) malik olmaq hüququ;

• Mənzildə yaşamaq hüququ;

• İş tapmaq və işləmək hüququ;

• Təhsil almaq, intellektual hüququ və s.

Hazırda ölkəmizdə sosial müavinətlərin ayrılmasını, sosial xidmətlərin göstərilməsini tənzimləyən vacib qanunvericilik aktları mövcuddur:

• “Vətəndaşların pensiya təminatı haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Əlilliyin qarşısının alınması, əlilliyin reabilitasiyası və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Ahıllara sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu;

• “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasnın Qanunu;

• “Aztəminatlı ailələrin uşaqlarına müavinətlərin təyin edilməsi və verilməsi qaydaları haqqında” təlimat.

Ünvanlı sosial yardımların ayrılması və təyin olunması üçün bütün normativ-hüquqi sənədlər hazırlandıqdan sonra respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qısa müddət ərzində lazımi təşkilati-metodiki tədbirlər görülmüş, 12 iyul 2006-cı il tarixdən bu vacib kompaniyaya start verilmişdir.

Qanun müəyyən edir ki, Ünvanlı Sosial Yardım (ÜSY) hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən, yəni ailə üzvlərinin əmək qabiliyyətini itirmiş olması, ailənin əmək qabiliyyəti üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud vəfat etmiş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s. səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər.

Göründüyü kimi, ÜSY ancaq ailəyə verilir, ayrı-ayrı fərdlərə yox.

Ehtiyac meyarı-əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin olunması əqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq edilən həddir.

Sosial yardımın məbləği-ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq nisbətinə hesablanıb tapılır.

Bəzən ünvanlı dövlət sosial yardımını digər sosial xidmət və yardımlarla – pensiyalarla, ailə başçısını itirməyə görə, işsizliyə, uşağın doğulmasına görə ödənilən yardım və müavinətlərlə səhv salırlar. Yadda

saxlamaq lazımdır ki, Ünvanlı Dövlət Sosial Yardımı-aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır. Dövlət bu yardımı göstərməklə, aztəminatlı ailələrin sosial müdafiəsini təmin etmək, onların ən sadə ehtiyacını ödəmək, aclıqdan, yoxsulluqdan və səfalətdən xilas etmək məqsədini daşıyır.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsinə mandatlı agentliklər daxildir:

• Məhkəmə və prokurorluq orqanları;

• Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar;

• Bələdiyyələr;

• İctimai birliklər.

Uşaq müdafiəsi sistemində mühüm yeri olan bir sıra qurumlar mövcuddur ki, bunlardan aşağıda qeyd olunanları göstərmək olar:

•Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyi;

• Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi;

• Yetkinlik yaşına çatmayanların sosial reabilitasiyası müəssisələri;

• Uşaq evləri;

• Təhsil idarələri və təhsil müəssisələri; açıq və qapalı tip təhsil müəssisələri;

• Səhiyyə idarələri və səhiyyə müəssisələri;

• Tibbi-pedaqoji komissiyalar;

• Qəyyumluq və övladlığa götürməyə dair komissiyalar;

•Yetkinlik yaşına çatmayanların işlərinə dair daxili işlər orqanlarının şöbələri.

Azərbaycanda uşaq müdafiəsi sahəsində çalışan mütəxəssislərin əsasən aşağıdakı problemlərlə üzləşməsinə rast gəlinir:

• Bir çox terminlərin dəqiq tərifi yoxdur (məsələn, “risk qrupuna aid uşaqlar”). Bununla əlaqədar, uşağın gələcək həyatı üçün vacib qərarların qəbulu subyektiv xarakter daşıya bilər.

•Konkret hansı növ böhran vəziyyətinin ailənin və uşağı risk vəziyyətinə məruz qoymasını müəyyənləşdirmək üçün birmənalı meyarlar yoxdur.

• Ailəyə dəstək üçün yönəlmiş profilaktik işlər yetərincə koordinasiya olunmamışdır və s.

2.3. Sosial iş sahəsində beynəlxalq təcrübə

İctimai hadisə kimi, sosial iş insan toplumu yarandığı gündən mövcuddur və müxtəlif tarixi dönəmlərdə, bu yönümdən hər bir cəmiyyət öz üzvlərinə müxtəlif cür kömək etməyə çalışmışdır.

İctimai həyatın obyektiv gerçəkliyi olan sosial işin müxtəlif formalarının geniş yayılması, çağdaş dünyamızda sosial ziddiyyətlərin həlli və ictimai tərəqqinin təmin edilməsi istiqamətində ən önəmli vasitədir. Bunu qloballaşan dünyamızın aktual problemlərinin həllində də müşahidə etmək olar. Bu gün ətraf mühitin çirkləndirilməsi, demoqrafik partlayış, inkişaf etməmiş ölkələrdəki kütləəvi aclıq, kütləvi qırğın silahlarından istifadə olunması təhlükəsi, mənəvi deqradasiya, ailənin dağılması kimi problemlər bəşəriyyəti təlatümə gətirən problemlərdir.

Bugün müasir cəmiyyətin texniki tərəqqi və informasiya, sosial-iqtisadi inkişaf, əhalisinin elm, təhsil səviyyələrinin yüksəldilməsi bir daha onu sübut edir ki, müvafiq tendensiyalara uyğun olaraq sosial iş sahəsində də fundamental dəyişikliklər baş verməli, bununla əlaqədar əhalinin sosial müdafiəsi tədbirlərinin məzmunu durmadan zənginləşdirilməlidir. Bütün bunlar, sosial işin nəzəri əsaslarının möhkəmləndirilməsi, müvafiq sahədə çalışan mütəxəssislərin səriştə və qabiliyyətlərinin artırılması, insanlara veriləcək sosial dəstək və köməyin optimallaşdırılması fonunda baş verməlidir. Sosial işin qruplaşdırılması universal deyil və müxtəlif ölkələrdə onun özünün

xüsusiyyətləri var. Məsələn, Almaniyada sosial işin əsas növləri son illərdə ənənəvi olaraq aşağıdakı istiqamətlərdə qruplaşdırılır:

1) Sosial sığorta;
2) Sosial təminat;
3) Sosial yardım.

ABŞ-da sosial işin növləri:

1) Fərdlərlə sosial iş;
2) Oxşar vəziyyətdə olan insan qrupları ilə sosial iş;
3) İcma ilə sosial iş ayırd edilir.

Avropanın bir çox ölkələrində sosial siyasitin və sosial təminat proqramlarının həyata keçirilməsində rəsmi strukturların yaradılması dövlət tərəfindən dəstəklənirdi. Amerikalılarda isə şəxsi təşəbbüsə arxalanmaq və dövlət strukturlarının təsirinin maksimal dərəcədə azaldılmasına cəhd özünü göstərir. ABŞ-da bu günə kimi dövlətin əhalinn sosial müdafiəsində rolu çox cüzidir.

ABŞ-ın sosial sığorta haqda qanuna əsasən sosial sığortanın iki növü təsdiqlənib: qocalığa görə pensiya və işsizliyə görə müavinət. Sosial sığortanın bütün növlərini Ümumi Federal Proqram adlandırırlar.

ABŞ-da sığorta proqramları mövcuddur. İş qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödəmələrin, kompensasiyaların səviyyəsi müəyyən olunub. Sosial müdafiənin dövlət sisteminin digər tərkib hissəsi-yoxsullara köməkdir. Bu sistem XX əsrin 60-cı illərində inkişaf etməyə başladı. Ehtiyacı olan uşaqlı ailələrin dəstəklənməsi, ərzaq, mənzil və tibbi yardımdır. Zəmanətli gəlirin təminatı proqramı ahıllara və əlillərə aiddir. Əhalinin bu kateqoriyalarına hökumət pullu yardım göstərir. Uşaqlı ailələrin dəstəklənməsi proqramı ailə başçısı dul, boşanmış və ya tənha ana olan, aşağı gəlirli çoxuşaqlı ailələrə yardımın göstərilməsini nəzərdə tutur.

Mənzil yardımını aşağı gəlirli ailələr alır. ABŞ-da xüsusi sığortanın iki forması mövcuddur-kollektiv forma və fərdi forma.

Avropa ölkələrində yerli özünüidarəetmə orqanlarının sosial xidmətlər təklif etməsində dövlət mühüm rol oynayır. Məsələn; Finlandiyada sosial siyasəti dövlət və icma işləyib həyata keçirir. Burda

işin əksər hissəsini bələdiyyələr yerinə yetirir. Əhaliyə ilkin sosial və tibbi xidmət Finlandiyada bələdiyyə xəstəxanaları və poliklinikaları, uşaq bağçaları, internatlar, ahıllar üçün evlər, narkoloji xidmətlərin hesabına tam təmin olunur.

İsveçdə əhalinin sosial xidmət modelində Avropa ənənəsi özünü parlaq şəkildə büruzə verir. Hər il bu ölkədə təxminən 1000 nəfər sosionomlar (sosial sferanın ali təhsilli mütəxəssisləri) hazırlanır. İsveçdə munisipal və rayon komitələrinin işi aşağıdakı istiqamətlərdə gedir:

-kommunal xidmət;

-əhalinin konkret qruplarının sosial şəraitlərinin yaxşılaşdırılması;

-ayrı-ayrı şəxslərlə və ailələrlə konkret problemlər üzrə fərdi iş.

Sosial işin bir peşə fəaliyyəti kimi müxtəlif növlərinin yaranması müxtəlif sosial institutların qarşılıqlı əlaqələrinin xarakteri, ölkələrin inkişafının mədəni və milli xüsusiyyətləri, ictimai şüurun, mədəniyyətin, elmin, təhsilin inkişafının səviyyəsi ilə şərtlənir.

2.4. Azərbaycanda sosial xidmət sferası

Azərbaycanda sosial xidmət sferası, sovet sosial xidmət sistemi çərçivəsində və onun prinsipləri əsasında fəaliyyət göstərmişdir. Sovet İttifaqında sosial xidmət özünəməxsus qaydada həyata keçirilirdi. Belə ki, sosial xidmətlər əsasən uşaqlara, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlara yönəldilmişdi. Kənd, qəsəbə, rayon, şəhər, şəhər mərkəzində rayon xalq deputatları, sovetlərinin qəyyumluq və himayə orqanları kimi fəaliyyət göstərməsi, onlara geniş səlahiyyətlərin verilməsi, hətta bu qurumların valideynlik hüquqlarının icrasına qədər nəzarət etmək səlahiyyətlərinin olması sovet dövründə uşaqlarla bağlı işin səmərəli təşkilini təsdiq edir. Eyni zamanda uşaq evləri, internat müəssisələrinin geniş şəbəkəsi də mövcud idi ki, burada yalnız valideyn himayəsindən məhrum olmuş uşaqlar deyil, maddi cəhətdən zəif təmin olunmuş, aztəminatlı ailələrin də uşaqları, eləcə də müxtəlif səbəblərdən övladlarının təhsilini təşkil etmək imkanına malik olmayan ailələrin

uşaqları da yerləşdirilib təhsil ala bilirdi. Avaraçılıq və dilənçilik bir hüquq pozuntusu kimi qiymətləndirildiyindn nəinki həmin şəxslərin sosial müdafiəsi təşkil edilirdi, əksinə, onlar cəzalandırılır və ya məcburi şəkildə əmək fəaəliyyətinə cəlb edilirdilər. Müstəqillik əldə edildikdən sonra sosial xidmətin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin artırılması istiqamətində müəyyən işlər həyata keçirildi. Azərbaycan Respublikasının Ailə Məcəlləsi (28 dekabr 2000-ci il), "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu (22 iyun 2001-ci il), "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu (28 iyun 2005-ci il) ölkəmizdə sosial xidmətin formalaşması və genişlənməsi üçün təşkilti-hüquqi zəmin yaratdı. 3 dekabr 2011-ci i tarixli 275-İQV nömrəəli "Sosial xidmət haqqında" qanunun qəbulu sosial xidmətin inkişafı və bu sahədə keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Qanun ölkədə göstərilən dövlət sosial xidmətlərinə vahid bir yanaşmanı, onların forma və növlərini, şəxsin sosial xidmətə götürülməsi və ona sosial xidmət göstərilməsi üçün mühüm təsisat olan sosial işçinin statusunu, hüquq və vəzifələrini müəyyən edir.

Sosial xidmətin iqtisadi aspektləri

Sosial xidmət dövlət büdcəsinin vəsaiti, ödənişli əsaslarla sosial xidmət göstərilməsindən əldə olunan vəsaitlər, hüquqi və fiziki şəxslərin ianələri, qrantlar, eləcə də qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

Sosial xidmət haqqının ödənilməsi. Sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət ödənişsiz, qismən ödənişli və tam ödənişli əsaslarla göstərilir. Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət, zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir.

Ödənişsiz sosial xidmət əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin himayəsindən məhrum olan Azərbaycan Respublikası vətəndaşlarına göstərilir. Ödənişsiz sosial xidmətdən əlavə göstərilən sosial xidmətlərin haqqı onlar tərəfindən ödənilir. Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli ərtlərlə sosial xidmətin göstərilməsi qaydası və sosial xidmət haqqının məbləği Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən

müəyyənləşdirilir. Ödənişli sosial xidmətlər çətin həyat şəraitində olan şəxs (ailə) ilə sosial xidmət göstərən subyektlər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Bələdiyyə sosial xidmət müəssisələri gəlir əldə etmək məqsədi güdmür və sosial xidmət haqqı sosial xidmət göstərilməsi ilə bağlı xərclərin, əməkdaşların əmək haqqlarının və digər cari xərclərin həcminə uyğun olaraq bələdiyyə tərəfindən müəyyənləşdirilir. Özəl sosial xidmət müəssisələrində sosial xidmət haqqı müəssisə ilə sosial xidmətə götürülmüş şəxs arasında bağlanmış müqavilə ilə müəyyən edilir.

Sosial xidmət sahəsində dövlət sifarişləri fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilə bilər.

Sosial xidmətin subyektləri dedikdə sosial xidmət göstərənlər və bu xidmətə götürülənlər nəzərdə tutulur.

Dövlət – sosial xidmətin mühüm subyektidir. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən sosial xidmət sahəsində dövlət öz üzərinə bir sıra vəzifələr götürür. Bu, sosial dövlət ideyasından qaynaqlanır və dövlətin üzərinə daha çox öhdəliklər götürməsindən irəli gəlir. Həmin vəzifələr əsasən aşağıdakılardan ibarətdir:

1. Sosial xidmət sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, o cümlədən müvafiq normativ hüquqi aktların və dövlət standartlarının qəbul edilməsi;
2. Sosial xidmətlərin göstərilməsi sahəsindəki fəaliyyətə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının, hüquqi və fiziki şəxslərin cəlb edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və dəstəklənməsi;
3. Sosial xidmətin təmin edilməsi üçün zəruri infrastrukturun və şəraitin, o cümlədən maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi;
4. Sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) sosial xidmət sisteminin qanunla müəyyən edilmiş forma və növləri üzrə xidmət göstərilməsinin təmin edilməsi;
5. Sosial xidmət sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdrilməsi.

Ölkəmizdə sosial işçi institutu yenicə formalaşdığından sosial işçilərin hazırlanmasına ciddi ehtiyac vardır. Sosial işçilərin hazırlanması zamanı artan tələbatı nəzərə alaraq, iki istiqamətə üstünlük verilməlidir:

Birincisi, hazırda sosial xidmət müəssisələrinin mövcud şəbəkəsində fəaliyyət göstərən şəxslərin mütərəqqi təcrübəsinə uyğun olaraq "sosial işçi" kimi yenidən hazırlanması;

İkincisi, ali və orta ixtisas təhsil müəssisələrində yüksək ixtisaslı sosial işçilərin hazırlanması.

Bunun üçün müvafiq tədris və təlim proqramları işlənib hazırlanmalıdır. Təlim proqramları sosial işçilərin ailələrdə sosial işin aparılması və uşaq tərbibyəsi haqqında dolğun bilgiləri əhatə etməlidir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinə (sosial xidmət müəssisələri) əsasən çətiin həyat şəraitində olan şəxslərə sosial xidmətin ayrı-ayrı formalarına və növlərinə uyğun xidmətin göstərilməsi məqsədilə sosial xidmət müəssisələri yaradılır və fəaliyyət göstərir. Bu müəssisələrin dairəsi kifayət qədər genişdir və bura aşağıdakılar aid edilə bilər:

• Ahıllar, əlillər və sağlamlıq imkanları məhdud olan uşaqlar üçün internat evləri;

• Psixonevroloji internat;

• İnsan alveri qurbanları üçün yardım mərkəzləri;

• Günərzi qayğı mərkəzləri;

• Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri;

• Sosial-psixoloji yardım mərkəzləri, müvəqqəti sığınacaqlar, peşə istiqamətləndiirmə mərkəzləri;

• Palliativ yardım mərkəzləri, hospislər;

• İcma əsaslı reabilitasiya mərkəzləri, himayədar ailə, kiçik qrup evləri, müvəqqəti qayğı xidmətləri;

• Sosial mağazalar və yeməkxanalar, digər müəssisə və xidmətlər.

“Sosial xidmət haqqında” qanunun 7-ci maddəsinə görə şəxs (ailə) aşağıdakı əsaslardan azı biri olduqda çətin həyat şəraitində hesab edilir:

1. Uşaqların valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olması;
2. Uşaqların sağlamlıq imkanlarının məhdud olması;
3. Yetkinlik yaşına çatmayanları baxımsızlığı və ya sosial təhlükəli vəziyyətdə olması;
4. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyətinin, habelə şəxsə (ailəyə) qulluq və köməklik göstərə biləcək əmək qabiliyyəti olan qohumların və ya qanuni nümayəndələrin olmaması.
5. Şəxsin ictimai təhlükəli xəstəliyə tutulmasına görə həyat fəaliyyətinin məhdudlaşması;
6. İnsan alverinin qurbanı olması;
7. Məişət zorakılığından zərər çəkməsi;
8. Müəyyən yaşayış yerinin olmaması;
9. Valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin həmin müəssisələri tərk etdikdən sonra yaşayış yerinin olmaması;
10. Şəxsin sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olması.

Göründüyü kimi, sosial xidmətə götürülmək üçün əsaslar kifayət qədər geniş və əhatəlidir. Bu hallardan biri olduqda şəxsin sosial xidmətə götürülməsinə əsas yaranır. Lakin bu heç də o demək deyil ki, çətin həyat şəraitində hesab edilən istənilən şəxs ölkədə mövcud olan sosial xidmət siisteminin bütün forma və növlərindən istifadə edə bilər. Belə ki, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərilən sosial xidmət əsasə stasionar formada (evləri və internat müəssisələri yerləşdirmə) və onların təlim tərbiyəsinin təşkili istiqamətində olmalıdır.

2.5. Sosial xidmətin formaları

Sosial xidmətin formaları aşağıdakılardır:

1. Evdə (səyyar) sosial xidmət

Evdə (səyyar) sosial xidmətə götürülmək üçün aşağıdakı şərtlərin eyni zamanda olması tələb olunur:

• Ahıllıq, əlillilik, sağlamlıq imkanlarının məhdudluğu, eləcə də xəstəliyin terminal (son) mərhələsində olması ilə əlaqədar sosial xidmətə ehtiyacın (məsələn; özünəqulluq qabiliyyətinin olmaması və s.) mövcudluğu;

• Onlarla eyni yaşayış məntəqəsində yaşayan əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələrinin olmaması. Eyni yaşayış məntəqəsi dedikdə konkret inzibati ərazi vahidi (kənd, şəhər, qəsəbə və s.) nəzərdə tutulur.

Evdə (səyyar) sosial xidmətə aşağıdakılar daxildir:

• Dərman vasitələri, zəruri ərzaq və əsas tələbat mallarını almağa köməklik göstərilməsi;

• İstirahətin təşkil olunmasında, qida qəbul edilməsində cə digər məişət xidmətlərinin göstərilməsində köməklik göstərilməsi;

• Tibbi və psixoloji yardım almaqda köməklik göstərilməsi;

• Yaşayış şəraitinin sanitariya-gigiyena tələblərinə uyğunlaşdırılması;

• Hüquqi məsləhət alınmasına köməklik göstərilməsi;

• Əlillərə və 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidmətinin göstərilməsi.

Ticarət-iaşə xidməti zəruri, ərzaq, sənaye və məişət əşyalarını ticarət müəssisələrindən almaq, bazarlıq etmək, lazım gələrsə xörək hazırlamağı nəzərdə tutur.

Məişət xidməti: mənzilləri sahmana salmaq, əşya və avadanlıq təmiizləmək və yumaq, lazım gələrsə, yataq və geyim əşyalarının camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə aparıb gətirmək və s.

Kommunal xidməti üzrə: ə.ya və avadanlığı təmirə vermək və almaq, təmir məqsədilə evə usta çağırmaq. İstiliyə, yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlamaq və s.

Tibbi xidmət üzrə: lazım gəldikdə evə həkim çağırmaq, təyinatla əczaxanadan dərman almaq, həkimin məsləhəti ilə ilk tibbi köməkliklər göstərmək.

Təsərrüfat işləri üzrə: həyətyanı sahəni təmizləmək və becərmək, məhsulu toplamaq və s.

Digər xidmətlər üzrə: qəyyumluq və himayəçilik sənədləriinin hazırlanmasına,. Tənha ahıl vətəndaşların və əlillərin internat evinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına köməklik göstərmək.

Eyni yaşayış sahəsində xidmətə götürülmüş ər-arvad, valideyn-övlad və bacı-qardaş xidmətdə bir nəfər kimi qeydə alınırlar. Vətəndaşlara maddi köməklik göstərilib humanitar yardım verilərkən xidmətə götürülmüş ər-arvad, valideyn-övlad, bacı-qardaş iki nəfər kimi nəzərə alınmalıdır.

Yoluxucu və ya ağır ruhi xəstəəliyi olan tək ahıl vətəndaşlar və əlillər tibb və əhalinin sosial müdafiəsi müəssisələrində müalicə edilməli və ya evlərində sosial-məişət xidmətinə götürülməlidirlər.

2. Yarımstasionar (günərzi) sosial xidmət.

Yarımstasionar (günərzi) sosial xidmət özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllar və əlillərə, o cümlədən çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanlara gündüz və ya gecə vaxtlarıda sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər göstərilməsindən, asudə vaxtın səmərəli təşkil olunmasından, onların münasib əmək fəaliyyətinə cəlb olunmasından ibarətdir.

Sosial xidmətin bu forması ölkəmizdə geniş yayılmışdır. Lakin son illərdə günərzi qayğı mərkəzlərinin yaradılması və fəaliyyəti sosial xidmətin bu formasının məqsədəuyğunluğunu təsdiq edir. Məsələn, hər hansı bir ahıl öz evində yaşayır və fəal həyat tərzinə malikdir. Lakin həmin ahılın asudə vaxtının təşkili, tibbi nəzarətdə olması ehtiyacı var. Ahıllar üçün təşkil olunan bu cür yarımstasionar evlərdə həmin şəxslər gündüz vaxtı gəlirlər, çay içirlər, nərd oynayırlar, cəmiyyətə inteqrasiya olunurlar.

3. Stasionar sosial xidmət.

Tibbi-sosial ekspert komissiyasının qərarına əsasən özünün əsas həyatı tələbatını müstəqil təmin edə bilməyən, əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə yazılı ərizələri olan, habelə fəaliyyət qabiliyyəti olmayan çətin həyat şəraitində olan şəxslər zərurət olduqda sosial xidmət müəssisəsinə yerləşdirilə bilər. Stasionar sosial xidmət, bu məqsədlə yaradılmış müəssisədə sosial xidmət göstərilən şəxslərin (ailələrin) fiziki durumuna və səhhətinə uyğun həyat şəratinin yaradılmasından, tibbi və sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsi kimi, qulluğun təşkilindən ibarətdir.

Stasionar sosial xidmətə götürülmə (yerləşdirmə) üçün aşağıdakı iki şərtin olması vacibdir:

• Çətin həyat şəraitində olan şəxsin məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi, özünün əsas həyati tələbatını müstəqil təmin edə bilməməsi;

• Onlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq etməkdən imtina etməsi barədə yazılı ərizəsinin olması.

Çətin həyat şəraitində olan şəxs müvafiq dövlət orqanının qərarına əsasən dövlət sosial xidmət müəssisəsinə yerləşdirilir.

Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

4. Sosial-məsləhət yardımı.

Sosial məsləhət yardımının məqsədi, çətin həyat şəraitində olan şəxslərin (ailələrin) cəmiyyətə inteqrasiyasını, ailədə sağlam münasibətlərin yaradılmasını təmin etməkdən ibarətdir.

Sosial-məsləhət yardımına aşağıdakılar daxildir:

• Qohumlarından və ya digər qanuni nümayəndələrindən ayrı yaşayan və sosial məsləhət yardımına ehtiyacı olan şəxslərin (ailələrin) müəyyənləşdirilməsi.

• Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) problemlərinin həllində dövlət orqanlarının, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi;

• Sosial xidmət üzrə məsləhətlərin verilməsi.

Təyinatından asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünür:

1. Sosial-məişət xidmətləri – şəxslərin (ailələrin) məişət, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına, xidmətlər göstərilməsinə, dəstək və yardımlar edilməsinə yönəlmişdir;
2. Tibbi-sosial xidmətlər – şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına istiqamətlənmişdir;
3. Sosial-psixoloji xidmətlər – şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji vəziyyətinin reabilitasiyasını nəzərdə tutur;
4. Sosial-pedaqoji xidmətlər – yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailə tərbiyəsində dəstəyə yönəldilmişdir;
5. Sosial-iqtisadi xidmətlər – şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir;
6. Sosial-hüquqi xidmətlər – hüquqi yardım göstərilməsinə, şəxslərin hüquqlarının qorunmasına yönəlmişdir;
7. Palliativ xidmətlər – müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir.

Uşaqlara sosial xidmət dedikdə, ilk növbədə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəsinin təşkili və tərbiyə formasının seçilməsi nəzərdə tutulur.

Uşaqlara sosial xidmət göstərilməsi əsasən iki mərhələni əhatə edir:

1. Birincisi, valideyn himayəsindən məhrum olmuş uşaqların aşkar olunması və onların qeydiyyatının aparılmasıdır.

Valideyn himayəsindən məhrum olan uşaqların yerləşdiyi tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrin

rəhbərliyi həmin uşaqların tərbiyə olunmaq üçün ailəyə verilməsinin mümkün olduğunu bildikdə, 7 gün müddətində qəyyumluq və himayə orqanına bu barədə məlumat verməyə borcludurlar. Qəyyumluq və himayə orqanı məlumatları aldıqdan sonra 1 ay ərzində uşağın yerləşdirilməsini təmin edir, bu mümkün olmadıqda isə həmin uşaq haqqında sənədləri mərkəzləşdirilmiş qaydada qeydiyyata alınmaq üçün göndərir.

2. İkincisi, valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi formasının seçilməsi.

Valideyn himayəsindən məhrum olan uşaqlar ailə tərbiyəsinə (övladlığa, qəyyumluğa, himayəyə və himayədar ailəyə) götürülürlər. Bu imkanlar olmadıqda isə, valideyn himayəsindən məhrum olan və ya yetim uşaqlar üçün nəzərdə tutulmuş tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrinə və digər analoji müəssisələrə verilə bilərlər.

Qanuna görə uşaqların yerləşdirilməsi əsasən aşağıdakı formalarda həyata keçirilə bilər:

• Övladlığa götürmə;

• Uşaqların üzərində qəyyumluq və himayə;

• Uşaqların tərbiyə, müalicə və əhalinin sosial müdafiəsini müəssisələrində yerləşdirilməsi;

• Uşaqların himayədar ailəyə verilməsi.

Qəyyumluq və himayə - valideynlərini itirmiş uşaqların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə müəyyən olunur. Qəyyumluq 14 yaşınadək, himayəçilik 14 yaşından 18 yaşınadək olan uşaqlar üzərində təyin edilir. Uşaqlara qəyyumluq və himayə təyin edilməsi və bunun xitamı Azərbaycan Respublikasının müıki qanunvericiliyi ilə müəyyən edilir.

Yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxslər qəyyum (himayəçi) təyin edilirlər. Uşaqlara qəyyum (himayəçi) təyin edilərkən, qəyyumun əxlaqı və başqa cəhətləri, onun qəyyumluq vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti, habelə mümkünsə uşağın öz arzusu nəzərə alınmalıdır. Spirtli içki düşkünləri və narkomanlar, qəyyumluq vəzifələərini icra

etməkdə kənarlaşdırılmış, valideynlik hüquqları məhdudlaşdırılmış, keçmiş övladlığa götürənlər və səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər qəyyum ola bilməzlər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, qəyyumliqda olan uşaqlar aşağıdakı hüquqlara malikdirlər:

• Qəyyumun ailəsində tərbiyə və qayğı almaq, qəyyumıa birlikdə yaşamaq;

• Onların saxlanması, tərbiyəsi, təhsili, hərtərəfli inkişafı və insan ləyaqətinə layiq şəraitlə təmin olunmaq;

• Onlara düşən təqaüd, müavinət, aliment və s. sosial ödənişləri almaq;

• Yaşadıqları ev üzərində mülkiyyət hüququnu və ya ondan istifadə etmək hüququnu saxlamaq, ev olmazsa, mənzil qanunvericiliyinə uyğun mənzil almaq;

• Qəyyumun sui istifadə hərəkətlərindən müdafiə olunmaq.

Himayədar ailə, uşağı tərbiyə olunmaq üçün verilməsinə dair müqavilə əsasında yaranır. Bu müqavilə qəyyumluq və himayə orqanı ilə himayəçi valideynlər arasında bağlanır.

Aşağıdakılar istisna olmaqla, yetkinlik yaşına çatmış, hər iki cinsdən olan şəxslər himayəçi valideyn ola bilər:

• Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən və ya fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxslər;

• Məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum olunan və ya valideynlik hüquqları məhdudlaşdırılan şəxslər;

• Üzərinə qanunla qoyulan qəyyumluq vəzifələrini lazımi qaydada yerinə yetirmədiyi üçün həmin vəzifələrdən kənarlaşdırılan şəxslər;

• Əvvəl övladlığa götürənlər, əgər övladlığa götürmə onların təqsiri üzündən məhkəmə tərəfindən ləğv olunmuşsa;

• Səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər.

Himayəçi valideynləri qəyyumluq və himayə orqanı seçir. Himayəçi valideynlər tərbiyə olunmaq üçün qəbul olmuş uşaqlara münasibətdə qəyyumun hüquq və vəzifələrinə malik olurlar.

İnsan ömrünün uzanması, daha uzunmüddətli yaşamaq uğrunda həyata keçirilən kompleks tədbirlər başqa bir demmoqrafik və sosial problemi – dünya ölkələrinin bir çoxunda olduğu kimi, ölkəmizdə də müşahidə olunan qocalma prosesini aktuallaşdırır. Əgər orta ömür uzunluğu səhiyyənin mühüm göstəricisi kimi diqqəti çəkirsə, qocalma ciddi demoqrafik, sosial problemlərlə müşayiət olunur. Əhalinin qocalması əmək ehtiyatlarının azalması, əhali artımının aşağı düşməsi, yaşlı əhalinin sosial təminatının (pensiyalarının və digər ödənişlərinin) həyata keçirilməsi sahəsində problemlər yaradır.

Azərbaycanda ölkə üzrə pensiyaçıların 28%-ni ahıl vətəndaşlar təşkil edir. Hazırda 70 yaşdan yuxarı 370 min nəfərədək əmək pensiyaçısı var. Lakin onu da qeyd etmək lazımdır ki, müxtəlif obyektiv və subyektiv səbəblər ahılların ailə üzvlərinin qayğısından məhrum olmasını və onlara sosial xidmət göstərilməsi məsələsini aktuallaşdırır. Buraya aşağıdakı səbəbləri aid etmək olar:

• Ailə üzvlərinin, yaxın qohumların olmaması, vəfat etməsi;

• Miqrasiya səbəbindən ailə üzvləri tərəfindən tərk edilməsi.

Bəs ahıl kimdir?

“Ahıl” yaşı müxtəlif məqsədlər üçün və ayrı-ayrı ölkələrdə fərqli müəyyən edilir. Hətta bəzi dövlətlərdə və beynəlxalq sənədlərdə “ahıl” və “qoca” terminləri də bir-birindən fərqləndirilir. Bəzi mülahizələrə əsasən pensiya yaşına çatmaq artıq şəxsin ahıl kimi nəzərdən keçirilməsini şərtləndirir. Digər mülahizə isə şəxsin işləmək üçün müəyyən olunmuş son yaş həddinə (respublikamızda bu yaş həddi 65 müəyyən edilib) çatması ilə bağlıdır.

BMT-nin baş məclisi tərəfindən 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul edilmiş qətnaməyə əsasən hər il oktyabr ayının 1-i bütün dünyada beynəlxalq ahıllrın günü kimi qeyd olunur.

Artıq Dövlət Proqramına uyğun olaraq əmək pensiyalarının baza hissəsnin məbləği yaşayış minimumu səviyyəsinə çatdırılmasına nail

olunmuşdur. Bu proqrama uyğun olaraq icrası vacib olan məsələlər aşağıdakılardır:

• Tənha və başqasının köməyinə ehtiyacı olan ahıllar üçün ərazilər üzrə informasiya bazasının yaradılması;

• Ahıl və tənha vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması üçün tənha, hərəkət qabiliyyəti məhdudlaşmış ahıllara sosial xidmətlərin, o cümlədən evdə xidmət işinin təkmilləşdirilməsi;

• İnternat evləri və pansionatlarda yaşayan ahıl vətəndaşlar üçün sosial-məişət və tibbi xidmət işinin təkmilləşdirilməsi;

• Dövlət təminatında, internat evlərind, pansionatlarda yaşayan ahılların ayrı-ayrı imkanlı hüquqi və fiziki şəxslər tərəfindən himayəyə götürülməsi təcrübəsinin genişləndirilməsi;

• Ahıl vətəndaşlar üçün sosial müdafiə məsələlərinə dair hüquqi məsləhət xidmətinin inkişafı;

• Tənha ahıl vətəndaşların mənzillərriinin (yanğın və s.) təhlükəsizliyinin təmin edilməsi;

• Ahıllar üçün ixtisaslaşdırılmış psixoloji tibbi xidmətlərin təşkili;

• Ahılların sağlamlığının təmin edilməsi məqsədilə onların idmana cəlb edilməsi;

• Ahılların asudə vaxtlarını səmərəli keçirmələri üçün müvafiq tədbirlərin həyata keçirilməsi.

Ahıllara sosial xidmətin bir sıra növləri vardır: konkret sosial xidmət növünə götürülmək üçün əsaslar yarımstasionar sosial xidmət və ya stasionar sosial xidmət üçün əsaslardan fərqlənir. Lakin ümumi əsaslar ondan ibarətdir ki, ahıl bir qayda olaraq:

-Tənhadır (yaxın qohumlarından və ailə üzvlərindən kənar bir yerdə yaşayır);

-Səhhəti, fiziki və psixoloji durumu ilə əlaqədar başqasının yardımına (sosial xidmətə) ehtiyacı vardır.

Ahıllara sosial xidmət – onların bu xidmətə olan tələbatının ödənilməsinə yönəldilən, sosial xidmət müəssisələrində və evdə qulluq,

iaşənin təşkili, tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların göstərilməsindən ibarət olan fəaliyyətdir. Ahıllar sosial xidmətə onların müraciəti (razılığı) əsasında əhalinin sosial müdafiəsi orqanlarının qərarı ilə qəbul edilirlər. Sosial xidmətlər əhalinin sosial müdafiəsi orqanları, sosial xidmət müəssisələri (ahıllar üçün pansionatla, ahıllar evləri və s.) tərəfindən göstərilir. Gələcəkdə yeni növ sosial xidmət müəssisələrinin yaradılması və fəaliyyətə başlaması da nəzərdə tutulub. Ahıllara sosial xidmət dövlət təminatı, humanistlik, insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl edilməsi prinsiplərinə əsasən həyata keçirilir.

Mövzu 3. Sosial işin mənəvi-humanist xarakteri

3.1. Sosial işin mənəvi-humanist xarakteri

3.2. Sosial işin xüsusiyyətləri

3.3. Sosial işin insan hüquqlarının qorunmasında yeri

3.4. Sosial iş və dövlətin sosial siyasəti

3.5. Sosial işdə sosial müdafiə

3.1. Sosial işin mənəvi-humanist xarakteri

Sosial iş sistemi ictimai tarixi sistem olmaqla mürəkkəb, açıq sistemlər sinfinə aiddir. Açıq sistem kimi sosial iş başqa sistemlərlə sıx qarşılıqlı təsirdə olub, onlarla informasiya mübadiləsi aparır. Bu, sosial iş modellərinin məzmununun, xarakterinin xüsusiyyətlərində təzahür edir.

Praktik fəaliyyət kimi sosial iş sisteminin aşağıdakı elementləri var:

- Sosial işin obyekti və subyekti sosial iş sistemində "kim fəaliyyət göstərir?" və "fəaliyyət kimə istiqamətlənib?" sualına cavab verir.
- Sosial işin sahələri bu kimi sferaları əks etdirir ki, orada problemlər həll olunur, sosial işin məzmununun formalaşmasına təsir edir və cəmiyyətin inkişafının, onun mədəniyyətinin, ictimai şüurunun, ideologiyasının, siyasətinin səviyyəsi müəyyən olunur.
- Sosial iş institutları özünə onların aparıvı fəaliyyətinin həyata keçirilməsinə kömək göstərən əsas sosial xidmətləri və mərkəzləri daxil edir.
- Sosial işin metodları – xüsusi fəndlərin, məqsədlərə nail olma üsullarının və sosial işin vəzifələrinin kompleksidir.
- Formalar, adətən sosial işin metodları və institutları ilə əlaqədədirlər, kliyentin həyati problemlərinin həlli üçün həm

ayrıca tədbirlər, həm də sistematik, çoxsəviyyəli, uzunmüddətli proqramlar ayırd edilir.

Sosial işin mürəkkəb, iyerarxiyalı məqsədgüdmə sistemində müxtəlif sistem səviyyələrini fərqləndirmək qəbul olunub.

1. Milli səviyyəni cəmiyyətin və dövlətin müəssisə və təşkilatları təşkil edir. Bu səviyyə çox ümumi səciyyələndirilir. Hazırda ölkəmizdə sosial müdafiənin alt sistemləri, əlavə təhsillə, dövlət səviyyəsində müxtəlif komitələr və nazirliklər simasında gənclər proqramları ilə təmsil olunub.
2. Regional səviyyə regionun spesifikliyi ilə onun təbii iqlim, iqtisadi, demoqrafik və başqa göstəriciləri ilə müəyyən olunur.
3. Bələdiyyə səviyyəsi ilk növbədə şəhər səviyyəsində sosial işin məqsəd və vəzifələrinin realizə edilməsində, məsələn, qəyyumluq və himayədarlıq problemlərinin həllində sosial müdafiə idarəsinin və xalq təhsili şöbəsinin qarşılıqlı münasibətləri, idarəetmə sahələrinin bölgüsünün, spesifikliyini əks edir.
4. Lokal səviyyə konkret mikrososium xüsusiyyətləri, onun sosial-mədəni özünəməxsusluğu ilə əlaqədardır.
5. Sosial iş sisteminin regional, bələdiyyə və lokal səviyyəsi sosial xidmət modellərinin tiplərinin yüksək dərəcədə variativliyi və rəngarəngliyi ilə səciyyələnir.

Sosial iş sisteminin mövcudluğunun səmərəli şərtlərini qeyd etmək məqsədəuyğundur:

- Sosial işin mədəni və sosial məqsədəuyğunluğu;
- Sistemin cəmiyyətin sosial vəzifələrinə və real imkanlarına adekvatlığı;
- Cəmiyyətin təqdim olunan sosial iş sisteminin realizəsinə hazır olması və hazırlılığı.

Sosial iş institutları - əhalinin sosial problemlərinin həlli ilə məşğul olan (rəsmi, qeyri-rəsmi, dövlət, qeyri-dövlət, könüllü, ictimai xarakterli sosial xidmətlər) müəssisələridir. Hər bir sosial institutun özünün spesifik vəzifələri vardır. Sosial işin ümumdünya təcrübəsi, sosial iş institutlarının aşağıdakı növləri nümayiş etdirir:

- Ümumprofilli
- İxtisaslaşmış

Ümumprofilli institutlara konkret icmanın, kommunanın, bələdiyyənin və digər kiçik inzibati-ərazi vahidlərinin sakinlərinə xidmət göstərmək üçün açılmış müəssisələr aiddir. Bu müəssisələrin məqsəd və vəzifələri: insanların yaşayış yerinə maksimal dərəcədə yaxın olmaqla hər bir ehtiyacı olana ilkin sosial yardım göstərmək.

Ümumprofilli müəssisələrin xüsusiyyətləri konkret ölkədə sosial yardımın modelinin spesifikliyi ilə bağlıdır.

İxtisaslaşmış müəssisələr əhalinin müəyyən kateqoriyalarına sosial xidmətlər göstərirlər: sosial sığınacaqlar, reabilitasiya mərkəzləri və s.

Sosial işə fərqli yanaşmaların tarixi təhlili və müqayisəsi, "sosial iş bütünlüklə humanist yanaşmaya əsaslanır" fikrinin çox bəsit olduğunu üzə çıxarır. "Humanst" (psixologiya) terminini "insanpərvər"(praktika) termini ilə eyniləşdirmək olmaz.

Humanist və fenomenoloji yanaşmalardan sosial işə gələn başlıca müddəa budur: maddi və ya obyektiv gerçəklik insanın indiki anda şüurlu şəkildə qavradığı və interpretasiya etdiyi reallıqdır. Əsas etik dəyər insanların öz talelərini müəyyən etməyə qabil olması prinsipidir.

"*Özünümüəyyənetmə* - insan təbiətinin əsas hissəsidir" əqidəsi belə bir fikrə gətirir: insanlar son nəticədə öz vəziyyətlərinə görə cavabdehdirlər. İstənilən halda "Mən" ilə yaşantı arasında uyğunsuzluq yaranan andan etibarən insanın müdafiəsi adekvat işləmir və əvvəl bütöv olan "Mən" strukturu dağılır. Bu baş verərkən insan həyəcan və təhlükə qarşısında son dərəcə zəif olur. O, özünü yalnız başqaları üçün deyil, özü üçün də anlaşılmaz aparır.

K.Rocersin çoxsaylı bioqraflı hesab edirlər ki, onun elmi yaradıcılığının xarakterinə hadisələrin inkişafının təbii proseslər şəraitində izləməkdən zövq almaqdan ibarət uşaqlıq dövrünün təbiətinə olan marağı böyük təsir etmişdir. Kliyentin inkişafını isə o, psixoloji müdafiənin və özünüdərketmənin (mənlik şüurunun) özü tərəfindən istiqamətləndirilməsinin zəifləməsi prosesləri vasitəsilə təsvir edirdi.

Rocers özünün şəxsiyyət və davranış nəzəriyyəsinə aid tədqiqatlarını genişləndirir və onların nəticələrini "Kliyent üzərində mərkəzləşmiş terapiya" kitabına daxil edir. Onun nəzəriyyəsi 19 başlıca tezisə əsaslanır:

1. Hər bir fərd öz təcrübəsinin daim dəyişən dünyasında mövcuddur. Bub dünyanın mərkəzini fərdin özü təşkil edir.
2. Orqanizm hadisələrin fərdin təcrübəsində necə yazılmış olmasına və onları qavramasına reaksiya verir. Məhz bu qavrayış sahəsi fərdin "reallığıdır".
3. Orqanizm bu fenomenoloji sahəyə təşkil olunmuş tam kimi reaksiya verir.
4. Orqanizm bir başlıca tendensiyaya və meylə malikdir. Özünü yeni təcrübəsini mənimsəyən quruluş kimi fəallaşdırmaq, özünə kömək etmək və özünü böyütmək istiqamətindədir.
5. Davranış - əsasən müəyyən məqsədə istiqamətlənmiş orqanizmin öz ehtiyaclarını qavrayışına uyğun olaraq sınaqdan keçirdiyi metodlar vasitəsilə təmin etmək cəhdidir.
6. Emosiya, belə məqsədyönlü davranışı müşayiət edir və əsasən onu doğurur. Emosiyanın intensivliyi orqanizmə kömək və onun gücləndirilməsi üçün davranışın vacibliyinin subyektiv qavranılması sahəsinə aiddir.
7. Davranışı anlamaq üçün ən yaxşı və uduşlu mövqe fərdin özü ilə əlaqəsindən irəli gəlir.
8. Qavranılan ümumi sahənin bir hissəsi tədricən özünütəsdiq kimi müəyyənləşdirilməyə başlayır.
9. Ətraf mühitlə qarşılıqlı təsir nəticəsində, xüsusilə başqalarının qiymətləndirmə xarakterli qarşılıqlı təsiri nəticəsində özünüstruktur formalaşır.
10. İnsanın davranışını müəyyən edən dəyərlər: a) təcrübə ilə bağlı olanlar; b) "Öz"ün struktur hissəsi ilə əlaqədar olanlar; c) bilavasitə orqanizm tərəfindən qazanılanlar; başqalarından mənimsənilmiş, lakin təhrif olunmuş formada sanki bilavasitə qazanılmış kimi qazanılanlar.
11. Fərdin həyatı boyu təcrübə toplaması gedişində dəyərlər: a) "Öz"ə münasibətdə rəmzləşdirilə, qavranıla və təşkil oluna bilərlər, yaxud b)"Öz"ün strukturu ilə qavranılanla əlaqə

olmadığı üçün nəzərə alınmaya bilərlər; yaxud da c) təcrübə "Öz"ün strukturuna uyğun gəlmədiyi halda, inkar olunan və ya təhrifli şəkildə rəmzləşdirilə bilərlər.

12. Orqanizmin qəbul etdiyi davranış üsullarının əksəriyyəti "Mən" konsepsiyasına uyğun gələnlərdir.
13. Bəzi hallarda davranışı simvollaşdırılmamış orqanik təcrübə və ehtiyaclar doğurur. Belə davranış "Öz"ün strukturuna münasibətdə ardıcıl olmur. Bu halda davranış, sanki həmin fərdə aid olmur.
14. Ətraf aləmə uyğunlaşmaqda psixoloji bacarıqsızlıq insanın müəyyən mühüm xarici və daxili təcrübəni qəbul və dərk etməməsi zamanı yaranır. Dərk olunmayan təcrübə simvollaşdırılmır və tam "Öz"ün bir hissəsinə çevrilə bilmir. Belə bir hal baş verdiyi təqdirdə psixoloji gərginlik üçün şərait yaranır.
15. Psixoloji uyğunlaşma (adaptasiya) "Mən" konsepsiyasının orqanizmin bütün xarici və daxili təcrübəsinin assimilyasiyasına uğradığı quruluş zamanı baş verir.
16. "Öz"ün strukturu ilə uzlaşmayan istənilən təcrübə təhlükə kimi qavranıla bilər. Belə uyğunsuzluqların sayı çox olduqca, "Öz" daha rigid quruluşa malik olur və özünə kömək funksiyası daha zəif yerinə yetirilir.
17. Müəyyən şəraitdə, əsasən "Öz" üçün heç bir təhlükənin olmadığı bir vəziyyətdə, "Öz"ə uyğun olmayan təcrübə elə qavranıla bilər ki, "Öz" quruluşunu dəyişər (yenidən qurular) və bu təcrübəni assimilyasiya edər.
18. Fərd bütün xarici və daxili təcrübəni vahid ardıcıl və birləşmiş sistem kimi qavrayır və qəbul edirsə, bu halda o, başqalarını daha yaxşı anlayır və başqalarına qarşı ayrı-ayrı fərdlər kimi daha açıq olur.
19. Fərd "Öz"ün strukturunda daha çox öz təbii təcrübəsini qavradığı və qəbul etdiyi bir zamanda öz dəyərlər sistemini (bu sistem, əsasən xarici təsirlərə əsaslanıb subyektiv şəkildə rəmzləşdirilmişdi) dəyişdirdiyini aşkar edir və dəyərlərin yenidən qiymətləndirilməsinin təbii prosesi davam edir.

Rocersin şəxsyyət haqqında başqa fərziyyəsi (8-ci müddəa) belədir: inkişaf edən uşağın daxili aləminin bir hissəsi "mən özüm" ifadəsində təzahür edir. O, uşaq davranışını mühitlə qarşılıqlı təsirin gedişində uşaqda özü, mühit, mühitlə qarşılıqlı təsirdə olan özü haqqında anlayışın yaranması kimi təsvir edirdi.

Böyüdükcə situasiya dəyişir, uşağa başqaları qiymət verməyə başlayır. Uşaqlara başqalarının məhəbbəti və özü haqda "sevilən uşaq" təsəvvürü artıq davranışdan asılı olur. Məsələn, qardaşa nifrət uşağa deyilən "sən pissən" , "səni sevmirik" sözlərindən doğa bilər. Uşaq müsbət "mən" – konsepsiyasını qoruyub saxlamaq naminə təcrübəni təhrif etmək zərurəti ilə də üzləşə bilər.

Analoji olaraq, psixoterapiya prosesində bütün iştirakçıların hiss və qavrayışlarında dəyişikliklər baş verə bilər. Kliyent öncə düşünə bilər ki, köməkçi pul məsələsində maraqlıdır. Bu gerçəklik kliyentin terapevti qavramasını təhrif edə bilər və reallıqda qayğı terapevtin davranışının başlıca motivi olduğu halda, kliyent özünə yönələn bu qayğını görməz.

İnsanın daxili hesablama sistemini onun persepsiya sahəsi (hiss və yaşantı dünyasının qavrayışı) təşkil edir. Şəxsiyyət üzərində mərkəzləşmiş terapiya nöqteyi-nəzərincə, bu daxili hesab sistemi insanları, özlərini nə üçün məhz belə aparmalarını tam şəkildə anlamağa imkan yaradır. Bu davranış, münasibətlər və bütövlükdə şəxsiyyət haqda xarici düşüncələrdən fərqlidir.

Psixoterapevtik təcrübə və tədqiqatlar göstərdi ki, bu keyfiyyətlər yaradıla və münasibətlərdə mövcud ola bilərlər. Bundan əlavə, şəxsiyyətə, mərkəzləşmiş yönümlü terapevtlərə aydın oldu ki, özünüdəyişmə, özünüqəbul kimi hadisələr, bilavasitə əlaqədə olan, tələb olarsa, maneələri dəf etməyə qabilliyin inkişafı, münasibətlərdə açıqlıq, "xarici qiymətləndirmə lokusu"ndan "daxili qiymətləndirmə lokusu"na keçid – bütün bunlar qısamüddətli intensiv qrup psixoterapiyası kurslarında və hətta bir intervyunun gedişində baş verə bilər.

Şərtsiz müsbət münasibət və onun təzahürləri – mülayimlik, qəbuletmə, qayğı vacibdir. Çünki terapevtin kliyenti müsbət qiymət vermədən qəbul etməsi, terapevtik dəyişikliklər ehtimalını artırır. Kliyent görüş anında fərqli hisslər-coşqunluq, narazılıq, təhlükə, qəzəb,

cəsurluq, məhəbbət və ya qürur hissi keçirə bilər. Bunlardan asılı olmayaraq terapevt onu qəbul etməyə hazır olmalıdır.

Rocers rəqabətliyi terapevtik böyümədə vacib şərt kimi dəyərləndirirdi. "Bu, onu nəzəri tutmur ki, həkim impulsiv olaraq ağlına gələni söyləyir. Bu o deməkdir ki, terapevt kliyentin hisslərini rədd etmir və münasibətlərdə mövcud olan istənilən davamlı hissə qarşı açıqdır və bu açıqlığa həmişə hazırdır. Bu peşəkarlıq maskası arxasında gizlənmək həvəsindən uzaqlaşmaq deməkdir". "Terapevtin təqdim etdiyi" empatiya, konqruentlik və şərtsiz müsbət münasibətdən əlavə üç başqa şərt də mövcuddur.

Kliyent və həkim psixoloji təmasda olmalıdırlar.

Kliyent müəyyən adamla və ya müəyyən səbəbdən narahatlıq, zəiflik və ya uyuşmazlıq hiss etməlidir.

Kliyent terapevtin təqdim etdiyini qəbul və ya hiss etməyə qadir olmalıdır.

Terapevt kliyentə hörmət nümayiş etdirərək ona rahat olanı seçməyə icazə verir.

Terapevt kliyentin həm müsbət, həm də mənfi hisslərinə, həm onun nitqinə, həm də susmasına, sakitliyinə diqqət yetirir. Bu ilk saat, növbəti yüzlərlə saatın birincisi və ya yeganə saat ola bilər; bu, kliyentin özünün müəyyənləşməsi üçün həm zaman, həm də imkandır. Əgər kliyentin sualları varsa, terapevt onların arxasındakı hissləri tanımağa və onlara cavab verməyə çalışacaq. "Bütün bunların öhdəsindən necə gəlim?" kimi sakramental sual müxtəlif hiss və niyyətləri ifadə edə bilər.

Sosial iş yalnız fokusuna universal istiqamətlənmiş deyil, daha çox seçici istiqamətli olmalıdır: öz yanaşmasında prezentiv olmaqdan çox, reaktiv və məqsədlərində daha təvazökar olmalıdır. O, öz görüş sahəsinə aid tələbatlara münasibətdə preventiv olmalıdır. Lakin bütövlükdə cəmiyyətin tələbatları ilə məşğul olmaq üçün o, nə qabiliyyətə, nə resurslara, nə də mandata malikdir. Göründüyü kimi, sosial işdə humanist yanaşma, humanist psixologiyanın banilərinin nümayiş etdirdikləri sosial, ictimai təfəkkür tendensiyasını əks etdirir. Belə ki, Böyük Britaniya Milli Sosial İş İnstitutunun Barklay komitəsinin 1982-ci ildə dərc olunmuş məşhur hesabatında sosial işin rolunun

konsepsiyasının genişləndirilməsinə aid təkliflər vardər. Buraya həm ənənəvi konsultativ iş, həm də sosial qayğının planlaşdırılması (social care planning) daxil olmalıdır.

Beləliklə, humanist yanaşmanın sosial işin formalaşmasına təsir edən başlıca ideya və dəyərləri aşağıdakılardır:

- Empatiya
- Hörmət
- Diqqət
- Rəqabətlik
- Konkretlilik
- Həyat vərdişləri
- Çətinliklərin öhdəsindən gəlmək vərdişləri
- Qəbuletmə
- Özünüdərketmə
- Başqalarına şərtsiz/şərtli müsbət münasibət
- Özünə şərtsiz/şərtli münasibət
- Özünüqüvvətləndirmə
- Başqalarını qüvvətləndirmə
- Sağlam mikro və makro sistemlərin yaradılması.

3.2. Sosial işin xüsusiyyətləri

Sosial iş bir ixtisas kimi əhalinin kasıb, məzlum, aciz və əzilmiş təbəqəsinin maraqları və sosial rifahı uğrunda vəkillik edən bir tarixə malik və bu sahədə ad qazanmış bir sahədir. Əslində sosial iş, xalqn dərrakəsinə xidmət edən bir ixtisas kimi fəxr etməyə haqqı çatan bir peşədir. Baxmayaraq ki, tarixən sosial iş kasıblara və məzlumlara xidmət edirdisə, hazırda bu ixtisasın xidmət dairəsi çox genişlənmişdir və bu gün sosial işçilər məktəblərdə, dövlət orqanlarında, tibbi xidmət sahələrində, ailə və uşaq rifah mərkəzlərində, ruhi sağlamlıq mərkəzlərində və özəl bölmələrdə fəaliyyət göstərirlər. Sosial iş elə bir ixtisasdır ki, o fərdlərə, qruplara və icmalara öz sosial funksiyalarını həyata keçirmək üçün münasib və münbit sosial şərait yaradır. Sosial iş elə bir peşədir ki, o insanların rifahı üçün sosial dəyişikliklər edir, insanlar arasındakı münasibətlərdə problemləri həll edir və insanların

rifahını yüksəltmək üçün onların daxili güclərinə, öz daxili potensiallarına arxalanmağa yönəldir. Sosial iş rifahlarına çaatmaq üçün insanların müstəqil olmasına da şərait yaradır. İnsan davranışlarının və sosial sistemlərin nəzəriyyələrindən istifadə edərək sosial iş insanlar ətraf mühitlə təmasda olan zaman müdaxilə edir. İnsan haqlarının prinsiplər və sosial ədalət, sosial işin əsas bünövrəsidir.

Peşə daşıyıcıları olaraq sosial işçilər aşağıdakı mühüm rolları yerinə yetirirlər:

-sosial işçilər müvəkkil kimi;

-sosial işçilər ailə məsələləri üzrə məsləhətçilər kimi;

-sosial işçilər sosial pedaqoqlar kimi;

-sosial işçilər psixi sağlamlıq üzrə mütəxəssislər kimi;

-sosial işçilər siyasi qərar qəbul edənlər kimi;

-sosial işçilər tədqiqatçılar kimi;

-sosial işçilər xidmətçilər və əhali arasında əlaqələndiricilər kimi.

Sosial işçilər tərəfində həyata keçirilən rollar və funksiyalar aşağıdakılardır:

1. Sosial işçilər brokerlər kimi.

Məqsəd: müştəri və resurslar arasında əlaqə yaratmaq. Müştəriləri mövcud mənbələrə yönəltmək.

Təsviri: bu işi həyata keçirmək üçün sosial işçilər müştərinin ehtiyaclarını qiymətləndirərək onların bacarıq və qabiliyyətlərini ortaya çıxarırlar ki, onlar müxtəlif xidmətlərdən istifadə etsinlər. Həmçinin onlara mövcud resursları əldə etmələri üçün də yardımçı olurlar.

2. Sosial işçilər vəkilər kimi.

Məqsəd: müştərilərin arzu və tələblərini müvafiq yerlərə çatdırmaq üçün çalışırlar. Onlar həmçin insanlara mənfi təsir edən siyasət və proqramların dəyişilməsinə çalışırlar. Eyni zamanda, tələb olunan yeni siyasət və proqramların yaradılması uğrunda da mübarizə aparırlar.

Təsviri: vəkillik sosial işin özəyidir və sosial işçilərin etik qaydalar məcəlləsində əsas götürülmüşdü. Sosial elmlər üzrə alimlər vəkillik funksiyasına belə tərif verirlər: vəkillik əhalinin aciz və təcrid olunmuş təbəqəsi adından çıxış edərək onların hüquqlarını qoruyur, onları müdafiə edir, müdaxilələr edir və eyni zamanda yeni siyasət və proqramların yaranması üçün təkliflər və tövsiyyələr verirlər.

3. Sosial işçilər müəllim kimi.

Məqsəd: bu sosial işçilər problemlər yaranmamışdan qabaq onların qarşısını almaq üçün müştəriləri və ya əhalini maarifləndirirlər, onlara bilik və bacarıqlar aşılayırlar.

Təsviri: bu sahədə işləyən sosial işçilər makro səviyyədə fəaliyyət göstərmiş olurlar. Onlar öyrəndikləri bilik və bacarıqları üzbə-üz müsahibə zamanı, yaxud xüsusi dərs proqramları zamanı müştərilərə və əhaliyə ötürürlər. Öyrətdikləri biliklər gündəlik sosial və yaşayış bacarıqları, davranış dəyişikliyi etmək üçün biliklər, öncədən qarşısını almaq kimi sahələri əhatə edir.

4. Klinik/ Məsləhətçi kimi sosial işçilər.

Məqsəd: müştərilərə hisslərini daha yaxşı başa düşməyi izah etməklə, davranışlarını dəyişməklə, eyni zamanda problemlərin qarşısını almaq üçün bəzi bacarıqları öyrətməklə müştərilərin sosial funksiyalarını artırmağa kömək edir.

Təsviri: bu sosial işçilər sosial işin nəzəriyyə və metodikasını tətbiq etməklə insanlara onların psixososial disfunksiyalarını dəf etməkdə, mənəvi və əqli pozuntular zamanı müdaxilə edərək yardım etmək, habelə əlillik və zədənin qarşısının alınmasında və yaxşılaşmasında kömək edirlər. Bunu etmək üçün sosial işçilər insan davranışının nəzəriyyəsini, eyni zamanda sosial mühitin insana necə təsir etməsini yaxşı bilməlidirlər. Bu onlara müştəriyə stresini, disfunksiyasını və mənəvi çətinliyini həll etmək üçün düzgün müalicə formasının seçilməsində kömək etməkdir.

Sosial işçilərin peşə hazırlığının ilk proqramları XIX əsrin sonunda Amsterdamda, sonradan isə Berlində və Londonda meydana gəlmişdir.

Bugünkü gündə “sosial işçi” peşəsini bir neçə ixtisas təmsil edir: sosial pedaqoq-psixoloq, etnoloq, sosial hüquqşünas, ekoloq, valeoloq, sosial animator, qerontoloq, “risk qrupları” ilə çalışan sosial işçilər, tibbi sosial işçilər, məktəbdə çalışan sosial işçi, istehsalarda çalışan sosial işçi, ekstremal vəziyyətlərdə sosial işçi və s.

Ümumpeşə fənləri sahəsinə aşağıdakılar aiddir: müxtəlif sosial mühitdə sosial işin spesifikliyi; aparıcı yerli və xarici sosial iş təcrübəsi; əsas psixoloji funksiyalar və onların fizioloji mexanizmləri, psixikanın təşəkkülündə təbii və sosial amillərin qarşılıqlı münasibəti, insan davranışında iradə və emosiyaların, tələbat və motivlərin, eləcə də şüursuz mexanizmlərin əhəmiyyəti; şəxsiyyətə sosioloji yanaşma, onun sosiallaşma prosesində formalaşması amilləri və sosial davranışın tənzimlənməsinin əsas qanunauyğunluqları və formaları; sosial birliklər və sosial qruplar, sosial proseslərin növləri və nəticələri haqqında elmi təsəvvür; kütləvi sosial hərəkatların yaranmasının və inkişafının əsas mənbələri; sosial qarşılıqlı əlaqələrin formaları,. Sosial inkişafın amilləri, sosial təşkilatların növləri və strukturu; ümumi və ailə pedaqogikasının əsasları; pedaqoji fəaliyyətin formaları, vasitələri və metodları; tərbiyyə işi və maarifləndirmənin forma və metodları; məişət və ailə tərbiyyəsinin milli xüsusiyyətləri, xalq ənənələri; ana və uşaqları mühafizəni tənzimləyən, onların sosial müdafiəsini təmin edən ailə, əmək, mənzil qanunvericiliyi normaları; cinayət və mülki hüququn əsasları; qəyyumluq, hamilik, övladlığa götürmə, valideynlik hüquqlarından məhrumetmə qaydaları və təşkili, xüsusi təlim-tərbiyə müəssisələrinə göndəri, tibbi-sosial işin, sosial maarifin, sağlam həyat tərzinin təbliğinin təşkili.

Sosial işçinin hazırlığına həmçinin başqa dillərə məxsus mühitdə peşəkar fəaliyyətin imkanlarını nəzərə almaqla xaric dilləri bilmək; öz işini təşkil etmək bacarığı, kompyuter metodlarını bilməsi, öz imkanlarını təhlil etmə və s. bacarıqları da daxildir.

Sosial işçini peşəkar funksiyaların realizəsi ilə bağlı məqsədin qoyulması və vəzifələrin qısaca və dürüst ifadə edilməsi bacarığı; kollektivdə iş yoldaşları ilə birgə işləmək qabiliyyəti; idarəetmə metodları ilə tanışlıq, icraçıların işini təşkil etmək, idarəetmə qərarlarını tapmaq və qəbul etmək bacarığı; pedaqoji fəaliyyətin əsaslarına

yiyələnmək; fələrarası layihələrdə işləməyə hazırlıq; insanda mənəvi və cismani, bioloji və sosial əsasların qarşılıql münasibətlərinin, insanın texniki inkişaf dövründə onun təbiətdə mövcudluğunda ziddiyyətlərə və böhrana münasibətinin mənasının başa düşülməsi səciyyələndirilməlidir.

Bütövlükdə, nəzəri bilikləri və praktiki bacarıqları əldə edəndən sonra sosial iş üzrə mütəxəssis sosial iş sahəsində təşkilati-idarəetmə, elmi-pedaqoji və praktiki fəaliyyətə malik olmalıdır.

Peşə seçimi hər bir insanın, xüsusilə gəncin (o, öz qüvvəsini sınamaq sahəsini ilk dəfə seçir) həyatında ciddi addım olduğundan, ətraflı götür-qoy etməli, şüurlu, əsaslandırılmış surətdə yanaşmalıdır.

Peşə seçimi üçün əsas qabiliyyət – gələcək mütəxəssisin şəxsiyyətinin özünəməxsus mənəvi-əxlaqi keyfiyyətlərinin və sosial işə meylinin üzvi birləşməsi ola bilər.

Beləliklə, sosial işçinin əxlaqi davranışı onun şəxsiyyətinin əxlaqi və mənəvi keyfiyyətləri ilə müəyyən olunur.

Sosial iş poliparadiqmal nəzəriyyə və təcrübə kimi səciyyələnir. Sosial işin metodologiyası müştəridən başqa sosial işçinin də iştirak etdiyi predmet və obyektin, eləcə də sosial işçi və kliyentin qarşılıqlı münasibətinin baş verdiyi sosial kontekstin, sosial işin strukturunun və sahənin fəaliyyət prinsiplərinin öyrənilməsini nəzərdə tutur.

3.3. Sosial işin insan hüquqlarının qorunmasında yeri

İnsan hüquqları problemi tarix boyu davam etmişdir. İnsan hüquqları – insanın və onun yaşadığı birliyin qarşılıqlı münasibəti məsələsinin şərhi və praktiki həlli üsullarından biridir. Bu fərdə insanlar və dövlət arasında öz bildiyi kimi hərəkət etmək (hüququn bu hissəsini, adətən azadlıq adlandırırlar) yaxud müəyyən fayda götürmək (bu hüququn özüdür) imkanı verən qarşılıqlı əlaqə prinsipləri, normalarıdır. İnsan hüquqları bu əlaqələrdə şəxsiyyətin azadlığını və ləyaqətini, onun ən yüksək dəyər statusunu təsdiq edir.

İnsanın müasir hüquq konsepsiyasında üç əsas blok seçilir. Birinci blok hüquqlara fikir, vicdan, dini etiqad azadlıq hüququ, yaşayış və

şəxsiyyətin təhlükəsizliyi hüququ, ədalət, bərabərlik və insan ləyaqətinə hörmət hüququ aiddir.

İkinci blok hüquqlara əmək, müstəqil iş yeri seçim, sosial təminat təhsil, sağlamlıq hüququ və s.daxildir. Bu hüquqların həyata keçirilməsi "dövlət – cəmiyyət – vətəndaş" sistemində qarşılıqlı təsirin xarakterini normativ şəkildə təyin etmək və fərdin müdafiəsi ürə xüsusi proqram, təminat sistemlərəi və mexanizmləri yaratmaq üçün dövlət tərəfindən müəyyən müdaxiləni nəzərdə tutur.

Üçüncü bloka kollektiv adlanan hüquqlar – sülh hüququ, milli müqəddəratı təyin etmək hüququ, sağlam ətraf mühit, cinsi mənsubiyyətə, yaşa və milli əlamətə görə ayrıseçkilikdən azadlıq hüququ aiddir.

İnsan hüquqlarının ən ümumi təsnifatə bütün hüquqların neqativ(azadlıqlar) və pozitivlərə bölünməsidir. Neqativ mənada azadlıq şəxsiyyətə münasibətdə məcburiyyətin, məhdudiyyətin olmaması, öz istədiyi kimi hərəkət etmək imkanının olması; pozitiv mənada isə, seçim azadlığı, ən başlıcası isə insanın qoyulmuş məqsədə nail olmaq, bütövlükdə fərdi inkişaf qabiliyyətini aşkar etmək bacarığıdır. Neqativ hüquqlardan fərqli olaraq pozitiv hüquqlar dövlətin, şəxsin və təşkilatın vətəndaşı müəyyən hərəkətlər həyata keçirmək üçün bu, yaxud başqa nemətlə təmin etmək vəzifəsini qeydə alır. Bütün sosial hüquqlar pozitiv hüquq xarakteri daşıyır.

İnsan hüquqlarının ən geniş yayılmış təsnifatı onların mülki (şəxsi), siyasi, iqtisadi, sosial (sözün dar mənasında), mədəni və ekoloji hüquqlara bölünməsidir.

Mülki (şəxsi) hüquqlar - əsasən neqativ hüquq xarakteri daşıyan təbii, əsas və ayrılmaz insan hüquqlarıdır. Mülki hüquqlara hər şeydən əvvəl yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq, təmiz ad və qürurun müdafiəsi, yaşamaq üçün yer seçimi və hərəkət etmək hüquqlarıdır.

Siyasi hüquqlar vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda da fəal iştirakəı imkanlarını müəyyən edir. Onlara əsasən insanın vətəndaşlıq hüququ, seçki hüququ, ittifaq və assosiasiya,

nümayiş və iclas azadlığı, söz, fikir azadlığı, eyni zamanda mətbuat və vicdan azadlığı aiddir.

İqtisadi azadlıqlar bilavasitə mülki və siyasi hüquqlara yaxındır. Onlar fərdin istehlak predmetlərindən və təsərrüfat fəaliyyətinin əsas amillərindən özü istədiyi kimi istifadə etməyin təminatı ilə bağlıdır.

Mülki, siyasi və iqtisadi hüquqları çox vaxt liberal hüquq, yaxud birinci nəsil hüququ adlandırırlar.

İkinci nəsil hüquqlara sosial, mədən və ekoloji hüquqlar aiddir. Onlar birlikdə dövlətin hər bir insana layiqli yaşayış şəraiti, minimum maddi nemətlər və xidmət, həmçinin sağlam ətraf mühiti təmin etməsini müəyyən edir.

Bütün adları çəkilən hüquqlar cəmlənmiş şəkildə BMT Baş Assambleyasının 1 dekabr 1948-ci ildə qəbuletdiyi Ümumi İnsan Hüquqları Deklarasiyasında sadalanmışdır. Deklarasiyanı BMT-nin onu hüquqi qüvvəyə mindirən daha dörd sənədi tamamlayır: iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq sənəd, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq sənəd, sonuncu ilə bağlı iki Fakultativ protokol.

1. Qadın sosial təhlükəsizliyin obyekti kimi

Sosial təhlükəsizlik, şəxslər və sosial qrupların mühüm maraqları, hüquq və azadlıqların pozulması təhlükəsindən müdafiə olunması deməkdir. Ümumilikdə isə sosial təhlükəsizlik obyekti dedikdə, şəxsiyyət və onun cəmiyyətin həyat və sosial fəaliyyəti sahəsində mövcud olan həyati əhəmiyyətli hüquq və azadlıqlara malik olması başa düşülür: yaşamağa, çalışmağa və əlverişli şəkildə iştirak etməyə olan hüququ və s.

Sosial siyasət cəmiyyət və şəxsiyyət, eləcə də cəmiyyət və qadın sosiumu arasında mövcud olan münasibətləri tənzimləyir. Bu tənzimlənmənin əsası, şəxslərin sosial hüquqlarının realizə olunmasını təmin edən sosial sistemindən təşkil olunmuşdur. Bu o deməkdir ki, dövlət əhalinin müxtəlif qruplarına qarşı özünün paternalist siyasətini həyata keçirir. İnkişaf etmiş ölkələrin heç biri dövlətinin paternalist siyasəti olmadan fəaliyyət göstərə bilməz

Sosialist təhlükəsizlik tədbirləri – həyat tərzinin keyfiyyətində baş verən dəyişikliklərlə əlaqədar təzahürün, proseslərin və şəxslərin mühüm əhəmiyyətə malik hüquq və azadlıqların məhdudlaşdırılmasıdır.

Sosial xidmət insan hüquq və azadlıqlarına riayət olunması, humanizm, könüllülük, məxfilik, tolerantlıq, ünvanlılıq, ədalətlilik, diskriminasiyaya və stiqmatizasiyaya yol verilməməsi, çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsində bərabər imkanların təmin edilməsi, sosial inteqrasiya və əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması prinsipləri əsasında həyata keçirilir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sosial işçi sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxsdir.

"Sosial xidmət haqqında" qanunda sosial işçilərin aşağıdakı hüquqları təsbit edilmişdir:

- İşə qəbul olunarkən işəgötürənin vəsati hesabına tibbi müayinədən keçmək;
- Peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məqsədilə işəgötürənin vəsaiti hesabına əlavə təhsil almaq;
- Xidməti vəzifəsini yerinə yetirərkən işəgötürənin vəsaiti hesabına zəruri geyim və avadanlıqlarla təmin olunmaq, nəqliyyat xərcləri üçün pul kompensasiyası almaq;
- Zəruri məlumatların əldə edilməsi üçün sorğu göndərmək.

Sosial işçilərin vəzifələri aşağıdakılardır:

- Sosial xidmətin göstərilməsini, sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsini həyata keçirmək, sosial xidmətə götürülən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi planı tərtib etmək;
- Çətin həyat şəraitində olan şəxsin (ailənin) problemlərinin həllinə və aradan qaldırılmasına yardım etmək;

- Sosial xidmətlərin göstərilməsi sahəsində qanunvericiliyə və peşə etikası normalarına əməl etmək;
- Sosial xidmətlərin sosial xidmətin göstərilməsi üzrə standartların tələblərinə uyğun olmasını təmin etmək;
- Sosial xidmət göstərdikləri şəxslərə münasibətdə ayrıseçkiliyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara yol verməmək;
- Öz vəzifələrini yerinə yetirərkən əldə etdikləri məlumatların konfidensiallığını təmin etmək.

İnsan hüquqları və insan ləyaqəti dedikdə aşağıdakılar nəzərdə tutulur:

-sosial işçi həyat tərzi və dəyərlərindən asılı olmayaraq hər bir şəxsin seçim etmək və qərar vermək hüququna hörmətlə yanaşmalıdır.

-sosial işçi müştərinin güclü xüsusiyyətlərini önə çəkməli və onların inkişaf etdirilməsinə səy göstərməlidir.

-hər bir müştəri ilə tam bir varlıq kimi davranmaq.

-hər bir insana şəxsiyyət kimi yanaşmaq.

-hər bir müştəriyə fərdi yanaşmaq.

-məxfiliyi saxlamaq.

Sosial işçilərin xidmət göstərilən şəxsə münasibətdə bir sıra etik məsuliyyəti (öhdəlikləri) vardır. Belə ki, sosial işçi:

- Müştərinin rifahını önə çəkməli və maraqlarını müdafiə etməlidir;
- İşə başlamazdan əvvəl müştəri və onun həyat tərzi ilə bağlı hərtərəfli və dolğun məlumat əldə olunmasına zəmanət verən yazılı razılaşmanı imzalamalıdır;
- Ədalətli mühakimə və professionallığa mane olan maraqların toqquşmasından qaçmalıdır.
- Ödənişi təyin edərkən sosial işçilər ödənişib əsaslı, ədalətli və həyata keçirilən xidmətlərə uyğunluğuna əmin olmalıdır.
- Qərar qəbul etmək bacarığı məhdud olan şəxsin qərar qəbul etməsinə köməklik etməli, adından çıxış etdiyi müştərinin

hüquqlarını və maraqlarını müdafiə etmək üçün əsaslı addımlar atmalıdır.

- Sosial xidmət artıq ehtiyac olmadıqda və müştərinin ehtiyaclarına və maraqlarına xidmət etmədikdə proses dayandırılmalıdır.

İnkişaf etməkdə olan ölkələrdəki yoxsul əhalinin əksəriyyətindən fərqli olaraq, keçid iqtisadiyyatlı ölkələrin yoxsulları bir qayda olaraq savadlı, təhsillidir; yenidənqurmadan qabaq onların iş təminatı vardı, pensiya yaşına çatdıqda isə dövlətdən müntəzəm ödəniş, pensiya və müavinət gözləyirdilər. İş yerləri ixtisar olunduqca və gizli işsizlik artdıqca, həmin yardım mənbələri də yoxa çıxmağa başladı.

İşini itirənlər onların biliyinin, praktiki vərdişlərinin, formal və faktiki ixtisasartırmanın artıq heç kimə lazım olmadığından ümidsizliyə düçar olurlar. Onlar cəmiyyətə mənsubluq duyğusunu itirir – artıq heç nəyə gərək olmadıqlarını düşünürlər. Spirtli içkiyə aludəçilik yaranır. Ailədə münaqişə yüksək psixoloji və sosial istiqamətli gərginliyin bəzi təzahür formalarıdır.

Yoxsulluq səviyyəsində ilk plana üç əsas risk amili çəkilir: məşğulluq, yaş və yaşayış yeri.

1. Məşğulluq: təbiidir ki, ailə başçısının işsiz olduğu, yaxud iqtisadi cəhətdən aktiv olmadığı ailə təsərrüfatları digər əhali ilə müqayisədə daha yüksək yoxsulluq riskinə məruz qalır.
2. Yaş: ölkələrin əksəriyyətində uşaqlar qocalarla müqayisədə daha yüksək yoxsulluq riskinə düçar olur. Bundan başqa, ailədə uşaqların sayı çox olduqca, nisbi yoxsulluq riski daha yüksək olur,hətta istehlak miqyasından alınan effekt nəzərə alınsa belə.
3. Yaşayış yeri: əksər ölkələrdə kənddə yaşayan əhali yoxsulluqla bağlı riskə şəhər əhalisindən daha çox düçar olur – amma istisna hallar da mümkündür (Ukrayna).

İşsizliyin ölçülməsi üçün istifadə olunan metod qadınların işsizlər siyahısına salınmasına maneçilik törədir. İşsizlərin siyahısına daxil olan şəxslər nəzərdən keçirilən dövr ərzində:

1. “işi olmayanlar” olub; yəni ödənişli işi olmayan, yaxud beynəlxalq məşğulluq təyini nöqteyi-nəzərindən muzda görə işləmirdilər;
2. “işə hazır” olublar; yəni nəzərdən keçirilən dövr ərzində muzda görə, yaxud muzdla olmayan ödənişli iş yerinə yetirməyə hazır olublar;
3. “iş axtarıblar”; yəni ödənişli iş tapmaq üçün yaxın zaman ərzində konkret addım atmışlar.

İnkişaf etməkdə olan ölkələrdə işsizlik üzrə sığorta ilə əhatə olunan zəhmətkeşlərin sayı məhduddur. Belə bir şəraitdə çox az sayda insan hansısa bir vaxt ərzində işsiz dura bilir. Əhalinin əksəriyyəti hər zaman hansısa bir iiqtisadi fəaliyyətlə məşğul olmalıdır.

İşsizlik səviyyəsi yaşdan asılı olaraq çox fərqlənir. inkişaf etmiş ölkələrdə işsizlik gənclər arasında daha yüksəkdirş avropa İttifaqı ölkələrində işsizliyin səviyyəsi 20-24 yaşında olan qadınlar arasında Yunanistanda -32%, İtaliyada-36%, İspaniyada isə 41% təşkil edir.

Azərbaycana gəldikdə isə, bizdə işsizliyin səviyyəsi həm kişi, həm də qadın əhalisi arasında hələ də yüksək olaraq qalmaqdadır.

Azərbaycanda açıq işsizliyin səviyyəsi yüksk və sabitdir. İşləyənlər öz rifah vəziyyətini məhsuldarlığın və əmək haqqının artması vasitəsi ilə yaxşılaşdırır, işsizlər (əsasən də xroniki işsizlər) təminatsız qalırlar. ÜDM-un nəzərə çarpan artımına baxmayaraq, iş yelərinin yaranması olduqca ləng gedir.

Statistika göstərir ki, respublikadakı işsizlərin ümumi sayının 60%-ni qadınlar təşkil edir. Əvvəllər qadın əhalisinin yüngül və yeyinti sənayesindki yüksək məşğulluq səviyyəsi həmin sahələrdə qadınların kəskin surətdə azalması ilə əvəz olunur ki, bu da respublikamızda işsizliyin artmasına səbəb olur. Təəssüf ki, Azərbaycanda yoxsul insanların əksəriyyəti qadınlardır.

Azərbaycanda kiçik və orta müəssisələrin özəlləşdirilməsi prosesində əhalidə həmin prosesə birmənalı olmayan münasibət yaranmışdır. Gender inkişafı baxımından qadınlrın 83%-i öz müəssisəsinin özəlləşdirilməsindən narazıdır. Sorğuda iştirak edənlərin

1000-dən 74%-i cavab verdi ki, onlar öz iş yerini əvvəl çalışdıqları müəssisənin özəlləşdirilməsi ucbatından itirmişlər.

İnsanların sosial müdafiəsinin ilkin əsasını hüquqi baza təşkil edir. O, beynəlxalq qanunvericiliyi, Azərbaycan dövlətinin qanunlarını və yerli əsasnamələri, təlimatları. Metodikaları əhatə edir.

İnsanların sosial müdafiəsinin aparıcı aspekti respublikamızda on ildən artıq yaşanan sosial-iqtisadi çətinliklər şəraitində uşaqların maraqlarının hərtərəfli nəzərə alınmasıdır. Sosial baxımdan müdafiəsiz, həmçinin risk qrupuna aid olan uşaqlara yardım xüsusi əhəmiyyət kəsb edir.

İnsanların sosial müdafiəsi, həm də ciddi maddi-iqtisadi baza tələb edir. İnsanların sosial müdafiəsinin müasir maddi-iqtisadi bazası xeyli zəifləmişdir.

Sosial tərbiyyə sahəsində daha bir xoşagəlməz vəziyyət yaranır. Son onillik ərzində uşaq və gənclər üçün bədii filmlər və digər yaşlara yönəlmiş kino, televiziya istehsalı azalmışdır, uşaq nəzrlərinin qiyməti hamı üçün münasib deyil. Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, uşaqlığın sosial müdafiəsinin hüquqi bazasının işlənilib hazırlanmasına baxmayaraq, onun maddi-iqtisadi bazası o qədər az qənaətbəxşdir ki, bu, qanunları həyata keçirməyi mümkünsüz edir.

3.4. Sosial iş və dövlətin sosial siyasəti

Sosial xidmətlər bazarının inkişafı sosial tələbatların təmin olunması mümkünlüyünün prinsipini həyata keçirməyi imkan verəcək.

Geniş mənada sosial dedikdə cəmiyyətə, insanlara, onların həyatına bilavasitə aid ola proseslər və amillər, məsələlər başa düşülür. Bununla bərabər, bilavasitə sosial hadisələrlə bağlı olan və sosial sfera adlandırılan daha dar iqtisadi sahələr də mövcuddur. Sosial sferaya adətən iqtisadi obyektlər və proseslər, insanların həyat tərzi ilə əlaqədar və ona aid olan iqtisadi fəaliyyət növləri, maddi və mənəvi nemətlərin əhali tərəfindən istifadə edilməsi, insanın, ailənin, kollektivin, qrupun, ümumilikdə cəmiyyətin əsas tələbatlarının ödənilməsi aid edilir.

Artıq sosial sferanın bu ümumi xarakteristikasından görünür ki, sosial iqtisadiyyat çoxcəhətlidir, geniş iqtisadi obyektlər və proseslər dairəsini əhatə edir, hər şeydən əvvəl iqtisadiyyatın bu hissəsi nemətləri və xidmətlərin istifadəsi (istehlakı) ilə bağlıdır.

Sosial sferanın nəticəsi kimi sosial xidmətlərin mahiyyətinin və təzahür formalarının təhlili yoxdur. Maddi hüquqi münasibətlərin obyekti olaraq "sosial xidmət" kateqoriyası əsasən hüquqi ədəbiyyatda öz əksini tapır.

Maddi istehsalardan fərqli olaraq sosial sfera istehsal fəaliyyəti ilə deyil, istehlakla əlaqədardır. Bu şəraitdə istehlaka, xidmətin qiymətinə təsir edən əsas amil əmtəənin yararlığıdır.

F.Engels 1891-ci ildə yazırdı ki, "Klassik siyasi iqtisa müəyyən etdi ki, əmtəənin qiyməti onun istehsalı üçün lazım olan əməklə müəyyən edilir. Bu izahla o kifayətlənirdi. Biz də hələlik bu izah üzərində dayana bilərik... hazırki dövrdə bu izah tamamilə qeyri-qənaətbəxş oldu".

Beləliklə, Engels ömrünün axırlarında hesab edirdi ki, dəyər abstrakt kateqoriya kimi qiymətin substansiyasını əks etdirmir, ona görə ki, o səmərəliliyi istisna edən əməyin kəmiyyət tərəfidir. Əmtəənin və qiymətin ikili təbiətni "dəyər" anlayışında birləşdirmək, "dəyər qanununu" və "istehlak dəyəri" qanununu "dəyər qanunu" ilə əvəz etmək cəhətləri, Y.A.Pavznerin fikrincə doğru deyil.

Xidmətin göstərilməsi-maddi dəyərlərin istehsalı və satışı kimi iqtisadi bir funksiyadır. Sosial xidmətin əsas funksiyası – ayrı-ayrı şəxslər və ümumilikdə cəmiyyət üçün təkrar istehsalın təmin edilməsidir. O, milli məhsulun təşkilinə yardım edir, çünki istənilən iqtisadiyyatın məqsədi maddi, mənəvi və digər nemətlər vasitəsilə həyata keçirilən insan tələbatlarının təmin olunmasıdır. Nemət – insan tələbatlarının həyata keçirildiyi dəyərlərdir.

Sosial xidmətin mahiyyətinin təhlili və onun tənzimləmə mexanizminin hazırlanması xidmətin mahiyyətinə, onun sosial sferada təzahürünə və həm əhalii, həm də subyekt üçün onun dəəyərinin və yararlılığının formalaşmasına müraciət etməyi tələb edir.

Ümumilikdə xidmətlərin onları əmtəədən fərqləndirən dörd xarakterik cəhəti vardır: sezilməzliyi, saxlanılmazlığı, xidmətlər göstərən və onlardan istifadə edən şəxslərdən ayrılmazlığı və göstərilən xidmətlərin keyfiyyətinin qeyri-sabitliyi.

Xidmət əmtəədən fərqli olaraq bilavasitə istehlakçının konkret tələbi ilə göstərilir.

Pullu xidmətlər göstərən sahələr iqtisadiyyatı inkişafının və təkrar istiqamətlədirilməsinin özünəməxsus sürətləndiricisi kimi çıxış etməyə qadirdir.

Xidmət sferasında tələbatın həcminin formalaşmasının birinci xüsusiyyəti ondan ibarətdir ki, maddi nemətlərdən fərqli olaraq xidmətlərdən istifadənin həddi yoxdur. Başqa sözlə desək, artıq istifadə edilən xidmətlərin həcmindən asılı olmayaraq, ayrıca istehlakçının və ümumilikdə bütün əhalinin ona tələbatı davam edir.

Eyni zamanda xidmətlərdən istifadə, lazımi qədər qiymətləndirilməməsi onların istehsalının real iqtisadi effektini və qiymətini aşağı salan daxili effektlərin meydana gəlməsinə və artmasına gətirib çıxarır.

Bir sıra xidmətlərin pullu və pulsuz formalarının uyğunlaşdırılması çətinliyi yaranır, o cümlədən ayrı-ayrı sahələrin inkişafının optimal maliyyələşdirilmə mənbələrinin seçilməsi problemi meydana gəlir.

Xidmət sferasında gəlirə görə elastiklik əmsalı da yüksəkdir. Gəlirin səviyyəsinin tələbatın həcminə təsiri onunla izah edilir ki, ixtisaslaşdırılmış idarələrdə xidmətlərdən istifadədən imtina etmək olar. Buna görə də əhalinin real gəlirinin azalması zamanı ilk növbədə xidmət sferası ziyan çəkir.

Xidmətlərin sərbəst qiymətlərinin formalaşdırılması zamanı aşağıdakı üsullardan birini istifadə etmək olar:

- Eyni xidmətin istifadə edildiyi və daimi böyük istehlakçı qruplarının sabit tələbatı olan sahələrdə rəqiblərin tariflərini nəzərə almaqla.
- İstehlakçıların tələbatları əsasında.

- Qalan sahələrdə istehlakçıların mümkün tələbatının nəzərə alınması ilə xərclər əsasında.

Xidmətin qiymətinin çoxfunksionallığı onun tarif, haqq və abunə kimi spesifik formalarının yaranmasına səbəb oldu.

Xidmət sahəsində tələb və təklifin əlaqəsinin tam nəzərə alınması, səmərəli tarif strategiyasının formalaşması və idarələr tərəfindən qiymət qoyulmanın əsaslandırılmış üsullarının tətbiqi xidmətlərin təklifini genişlədirməyə, əhalinin tələbatını ödəməyə və onların ümumi tələbatında xidmət payının artırılmasına imkan yaradacaqdır.

Xidmət, yararlılığı (faydalılığı) konkret müavinətlər, zəmanətlər, pensiyalar şəklində ödəmə formasını alan müdafiə imkanında ibarət əmtəədir.

Sosial müdafiənin təhlili görkəmli alimlərimizin əsərlərində geniş işıqlandırılmışdır. Lakin əsasən tədqiqat obyekti sosial xidmətin həyata keçirilməsinin hüquqi aspektidir. Pensiya hüquqi münasibətləri N.Q.Aleksandrovun, V.S.Andreyevin, E.İ.Astraxanın, V.A.Açarkanın, A.D.Zaykinin, A.E.Paşertskinin, V.A.Tarasovanın və b. əsərlərində daha dərindən öyrənilmişdir.

Sosial xidmətlərin mənimsənilməsi sistemində mərkəzi yeri maddi foormalar tutur, çünki məhz onlar vasitəsilə sosial riskin təsirinə məruz qalan, pul vəsaitlərida, tibbi və sosial xidmətlərdə çıxış edən şəxslərin obyektiv tələbatları ödənilir.

Sosial xidmətin mənimsənilməs və istifadəsi ilə bağlı münasibətlərin fərqli cəhəti ondan ibarətdir ki, subyektlərdən biri (insan, ailə) xidmət almaq üçün qanuni hüquqa malikdir, dövlət orqanı isə (və ya idarəsi) bu xidməti göstərməyə borcludur. Birtərəfli qaydada və ya tərəflərin razılığı ilə münasibətlər dəyişdirilə bilməz.

Sosial xidmət – dövlət tərəfindən zəmanət verilən və vəzli-ekvivalentsiz və ekvivalent formada göstərilən sosial-fərdi və kollektiv tələbatların mənimsənilməsi və ödənilməsində yardımla əlaqədar öhdəliklərdən irəli gələn ictimai nemətdir.


XİDMƏTLƏR
Maddi
Qeyri-maddi
-rabitə
-nəqliyyat
-ticarət
-məişət xidməti
-texniki təchizat
-təhsil
-tibb
-mədəniyyət
-mənəvi inkişaf
-sosial müdafiə
Şəxsi (fərdi)
Kollektiv şəxslər qrupu
İctimai
Sosial
-səhiyyə; -mədəniyyət; -idarəetmə; -sosial təminat; -təhsil; -incəsənət; -daxili və xarici; -sosial yardım təhlükəsizlik; -sosial sığorta

Xidmətlərin quruluşunda sosial xidmətlərin yeri

“Sosial müdafiə” anlayışı əksər hallarda “sosial dəstək” anlayışı ilə, “güzəşt” və “zəmanət” anlayışları isə - “sosial dəstək tədbirləri” anlayışı ilə əvəz edilir.

Dar mənada sosial müdafiəni vətəndaşların sosial hüquqlarına riayət edilməsini və sosial cəhətdən məqbul bir həyat səviyyəsini təmin edən qanunvericiliklə möhkəmləndirilmiş iqtisadi və hüquqi zəmanətlərin məcmusu kimi başa düşülür.

V.S.Andreyev sosial təminatı vətəndaşların qocalıqda və əmək qabiliyyətinin itirilməsi zamanı təminatı, uşaqların təminatı, tibbi xidmət və vətəndaşların müalicəsi üzrə dövlət tərəfindən keçirilən və ya dəstəklənən müəyyən sosial-iqtisadi tədbirlərin məcmusu adlandırırdı. Bu tərifin əsasında aşağıdakı əlamətlər dayanır:

- Həyat təminatının səviyyəsinin saxlanılması və müəyyən səviyyəyə çatdırılmasına yönəldilmiş sosial müdafiə mexanizminin zəruriliyini tələb edən obyektiv əsaslar;
- Xüsusi fondlar, sosial təminat mənbələri;
- Mövcud olma üçün hüquqların verilməsinin xüsusi üsulları;
- Sosial və hüquqi normalarda sosial təminatın göstərilməsi qaydalarının möhkəmləndirilməsi.

Sosial təminat – büdcədənkənar sosial sığorta fondlarının bölüşdürülməsi və əmək haqqının və ya əmək gəlirinin itirilməsi hallarında fiziki şəxslərin tələbatlarının ödənilməsi, uşaqların tərbiyəsi və saxlanması, qayğıya ehtiyacı olan digər ailə üzvlərinə, obyektiv sosial səbəblərdən yaşayış minimumu həcmində vəsaitlərin çatışmazlığına dəstək göstərilməsi, o cümlədən tibbi yardımın və sosial xidmətin göstərilməsi üzrə əlavə xərclərin ödənilməsi məqsədi ilə dövlət

büdcəsinin bir hissəsinin təkrar bölüşdürülməsi ilə bağlı ictimai münasibətlərin məcmusudur.

Tələbatların ödənilməsi aşağıdakıların köməyi ilə həyata keçirilə bilər:

- Ekvivalentsiz, lakin normalaşdırılmış əsaslarla, yaxud əmək fəaliyyətindən və ödənişlərin edilməsindən asılı olmayaraq havayı (aliment şəklində) pul vəsaitlərinin (pensiya, müavinətlə, kompensasiyalar) təyin edilməsi.
- İstehlakçı üçün MTS proqramı üzrə pulsuz tibbi xidmətlərin göstərilməsi;
- Minimum dövlət standartları çərçivəsində istehlakçılara pulsuz sosial xidmətlərin və bunlardan əlavə güzəştli tariflərin göstərilməsi.

3.5. Sosial işdə sosial müdafiə

Dövlət sosial müdafiə və sosial təminat sistemlərinin qarşılıqlı münasibətlərinə gəldikdə isə, ikinciyə birincinin tərkib hissəsi kimi baxmaq lazımdır. Sosial təminatdan başqa sosial müdafiə əməyin, sağlamlığın və ətraf mühitin mühafizəsi, minimal əmk haqqı və insanın normal həyat şəraiti və dövlətin normal fəaliyyəti üçün lazım olan digər tədbirlər üzrə zəmanətləri özündə birləşdirir.

Sosial siyasətə bir neçə komponenti, blokları özündə birləşdirən və iqtisadi artıma müxtəif cür təsir göstərən mürəkkəb struktura təşkil kimi baxdıqda, bazar xarakterini qeyd etmək olar. Əgər ona bölüşdürülmə uyğun gəlirsə, onda burada "əmək üzrə" prinsipi işləyir: nə qədər çox qoysan, o qədər çox alacaqsan. Bir qayda olaraq, bazar modeli bu formada adətən əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi modeli ilə tamamlanır və üç istiqamətdə təkrar bölgü prosesinə ehtiyac yaranır:

1. Sosial dəstək bloku
2. Sosial təminat – zəmanət bloku – bu sosial xidmətlərin göstərilməsidir (səhiyyə, təhsil, mədəniyyət və s.).
3. Sosial siyasətin bazar modeli ilə sosial yardım və sosial zəmanət blokları arasında sərhəddə yerləşən sosial sığorta bloku.

Dövlət sosial risklərdən əhalinin müdafiəsi üçün aşağıdakı formalardan istifadə edir:

- Sosial dövlət dəstəyi;
- Federal büdcədən birbaşa ayrılmalar hesabına sosial təminat;
- Məcburi dövlət sosial sığortası.

Sosial təminatda konstitusiya hüquqlarının həyata keçirilməsi aşağıdakı əlamətlər üzrə fərqləndirilən müxtəlif formalarda təşkil oluna bilər: təmin olunanlar dairəsi; müvafiq tədbirlərin maliyyələşdirilməsi üçün fondların mənbəyi və formalaşdırılma üsulları; təminat növləri; təminatın şərtləri və miqdarı; təminat verən orqanlar.

Dövlət sosial sığortasının mahiyyəti sosial riskin işəgötürənlər, muzdlu işçilər və məcburi sosial sığorta olunan digər məsul şəxslər, həmçinin dövlət arasında ayrılmasından ibarətdir.

Sosial sığortanın əsasında "sosial risk" kimi anlayış dayanır. İnkişaf etmiş bazar münasibətləri şəraitində əhalinin əksər hissəsinin gəlirləri işçilər tərəfindən əmək haqqının mütəmadi alınmasından asılıdır.

Sosial risklər (yəni sosial vəziyyətin pozulması faktları) əhali, ayrı-ayrı zəhmətkeş qruplar üçün təhlükənin artma dərəcəsi üzrə təsnif oluna bilərlər. Onlar sosial müdafiə üsullarının, təhlükənin aradan qaldırılması üzrə daha effektiv mexanizmlərin hazırlanması üçün vacibdir. Bu isə öz növbəsində aşağıdakıların təmin edilməsini tələb edir: uçot, elmi təhlil və sosual risklərin ayrı-ayrı növləri və səbəbləri haqqında informasiyanın sistemləşdirilməsi; milli proqramların hazırlanması yolu ilə sosial risklərin minimallaşdırılması və kompensasiya edilməsi, qarşısının alınması və xəbərdarlığın edilməsi; sosial risklərin kompensasiya mexanizmlərinin işlənib hazırlanması.

"Məcburi sosial sığortanın əsasları haqqında" 16 iyul 1999-cu il tarixli Federal qanununun 3-cü maddəsində sosial risk anlayışı aşağıdakı formada verilib: sosil sığorta riski – baş verdiyi zaman məcburi sosial sığortanın həyata keçirildiyi, işləyən və digər kateqoriyadan olan vətəndaşların maddi və sosial vəziyyətinin dəyişməsinə gətirib çıxaran ehtimal olunan hadisədir.

Bu tərifin dəqiqləşdirilməsinə ehtiyac duyulur.

Birincisi, maddənin mətnində "və ya" bağlayıcısının istifadə edilməsi onu bildirir ki, məcburi sosial sığortanın obyekti müəyyən vətəndaş kateqoriyalarının nəinki maddi, həm də sosial vəziyyətinin dəyişməsidir. Lakin işləyən şəxslərin sosial vəziyyəti ondan ibarətdir ki, onlar muzdlu işçilərədir.

Yalnız işsizlik, əlillik, qocalıq və digər sosial məna ifadə edən şəraitlə bağlı yaranan maddi vəziyyətin dəyişilməsinin nəticələrini minimma endirmək olar.

İkincisi, maddənin mətnindən sosial risk deyildikdə nəyin nəzərdə tutulduğu aydın deyil.

Ehtimal nəzəriyyəsinə əsasən sosial risk – gözlənilən təhlükənin yalnız dərəcəsi, kəmiyyəti, onun ehtimalıdır.

Risk kütləvi, ictimai, yəni sosial xarakter daşıyır: əsasən sosial şəraitlə müəyyən edilir və ayrı-ayrı insanlardan asılı deyil. Əmək haqqının itirilməsi əməyə tələbatın aşağı düşməsi və ya işçi tərəfindən əmək qabiliyyətinin itirilməsi səbəbindən baş verə bilər. Əmək qabiliyyətinin olmaması səbəbi xəstəlik, bədbəxt hadisə, qocalıq, əlillik və nəhayət işçinin ölümü ola bilər. Bunlar sosial riskin növlərini təşkil edirlər ki, bunu da sığorta institutu azaltmalıdır.

Beləliklə, işsizlik səviyyəsini ehtiyatsız peşə seçimi və ya işçinin peşəkarlıq dərəcəsinin kifayət etməməsi, işəgötürənlərin şəxsində istehsalatın inkişaf strategiyasının düzgün olmaması, dövlətin iqtisadi və sosial siyasətinin çatışmazlıqları ilə əlaqələndirirlər.

Məlum fəlakət riski qabaqcadan nəzərə alınır və bu risklə bağlı maddi yük təşkilatın bütün iştirakçıları arasında qabaqcadan bölüşdürülür. Riski, məlum mənfi hadisənin nəzərdə tutulması imkanı kimi müəyyən edilir. Yalnız bu halda əsas əlamətləri aşağıdakılar olan sığorta haqqında danışmaq mümkündür:

-Riskin qabaqcadan müəyyən edilməsi və qeydiyyatı;

-Fərdi riskə görə kollektivdə maddi məsuliyyət və mütəşəkkillik.

Sosial sığortanın vacib əlaməti onun yayılması sferasındakı fəaliyyət dairəsidir:

- Ölkənin müəyyən hissəsində hər hansı əhali qrupuna şamil edilən yerli və xüsusi sığorta;
- Ölkənin bütün ərazisini əhat edən və böyük əhali kütləsinə şamil edilən ümumi sığorta;
- Saziş əsasında bir neçə ölkənin ərazisinə və əhalisinə şamil edilən beynəlxalq sığorta.

Sosial sığorta sistemi aşağıdakı formada təsnif edilə bilər:

1. Sosial risklərin növlərinə görə: xəstəliyə görə; istehsalatda bədbəxt hadisələrdən; əlilliyə görə; qocalığa görə; hamiləlik və analığa görə; ölüm hadisəsinə görə; işsizliyə görə.
2. Xarakterinə görə: könüllü, məcburi.
3. Daxili quruluşuna görə: dövlət, bələdiyyə (yerli v regional), peşə (peşəkar sahə amiləri), beynəlxalq.

Sosial sığorta	**Sosial yardım**
Maliyyələşdirmə dövlətin mümkün iştirakı ilə işəgötürənlərin və zəhmətkeşlərin hesabına həyata keçirilir.	Dövlət və yerli obyektlərin hesabına maliyyələşdirilir
Sosial subsidiyaların (işəgötürənin, işçinin və dövlətin) iştirakı vacibdir.	Qanunvericiliyə uyğun olaraq ödənişlər ehtiyaclıların müəyyən kateqoriyalarına edilir.
Ödənişlər, ödəmələr əsasında formalaşan xüsusi fondlar vasitəsilə həyata keçirilir.	Ehtiyac dərəcəsinin qiymətləndirilməsi zamanı müvafiq şəxslərin mülkiyyətinin gəlirləri və miqdarı nəzərə alınır. Lakin bəzən bəzi tərkib hissələri nəzərə alınmır (az miqdarda olan yığımar).
Bəzən əlavə vəsaitlər tələb olunmur, çünki fondların bir hissəsi gəlir əldə etmək məqsədilə investisiya olunur.	Müavinətin verilmə məqsədi – bir sıra amilləri nəzərə alaraq insanların gəlir səviyyəsinin müəyyən edilmiş minimuma

	çatdırılmsıdır (məcburi ödəmələr və s.). Müavinətin məbləği əvvəlki əmək haqqı və həyat səviyyəsi ilə əlaqədar deyil.
Şəxsin müavinət almaq hüququ ehtiyaclılıq dərəcəsi nəzərə alınmayaraq ödənişlərin alınması haqqında qeydlərə əsaslandırılır.	Sosial yardım insanların rifah səviyyəsini öyrənilməsinin nəsələri üzrə göstərilir və nisbətən yüksəldilməsinə yönəldilir. Sosial sığortadan fərqli olaraq müavinətlərin hesablanması zamanı qanunla müəyyən edilmiş sərbəstlik vardır.
Ödənişlərin və haqqların səviy- Yəsi bəzən konkret şəxslə (dul qadın, əlil və b.) və ya onun əmək haqqı ilə birbaşa əlaqəlidir.	
İstehsalatda bədbəxt hadisələr- Dən sığorta sistemi dövlətin mümkün iştirakı ilə tam olaraq işəgötürən tərəfindən maliyyələşdirilir.	

Sosial müdafiənin sosial sığorta və sosial yardıma bölünməsi ilk növbədə sosial riskin nəzərə alınması (nəzərə alınmaması) üsulu ilə və maliyyələşdirilməsi mənbələrində olan fərqlərlə əsaslandırılır: sosial sığorta zamanı – bu, işəgötürənlərin və zəhmətkeşlərin sığorta ödənişləri; sosial yardım zamanı – vergiqoyma nəticəsində alınan büdcədən ayırmalardır.

Sosial sığorta – zərərin ödənilməsinin kollektiv birliyi əsasında iqtisadi cəhətdən fəal əhalinin işin, əmək qabiliyyətinin və gəlirlərin itirilməsi ilə bağlı müxtəlif risklərdən sosial müdafiə formasıdır.

Sosial sığortanın bazar iqtisadiyyattında təşkili aşağıdakı prinsiplərə əsaslanır: sosial sığortanın məcburiliyinin və könüllüyünün uyğunlaşması; dövlətin, işəgötürənlərin və muzdlu işçilərin sosial

əməkdaşlığı; şəxsi gəlirin və əmək qabiliyyətinin itirilməsinin kompensasiyası; büdcədənkənar məqsədli fondların formalaşması və istifadə edilməsi; dövlət tənzimlənməsinin və sığorta fəaliyyətinin bazar özünütənzimləməsi ilə uyğunlaşması; sosial sığortanın əsas subyektlərinin – sığorta edənlərin, sığortaçıların və sığorta edilmiş vətəndaların qarşılıqlı əlaqəsi; iqtisadi səmərəliliyin və sosial ədalətin balansı; vətəndaşların sığortalanmasında ictimai birlik və fərdi məsuliyyət; sosial risklərin profilaktikası və reabilitasiyası.

Sosial sığortanın ən vacib iqtisadi funksiyası əmək resurslarının inkişafı üçün lazım olan şəraitin yaradılmasından ibarətdir. Bununla bərabər, sosial sığorta – dövlətlərin sosil sferada siyasətinin ayrılmaz hissəsidir. Bu baxımdan sosial sığorta sistemi – cəmiyyətdə sosial ədalətin təmin edilməsinin, sosial sabitliyin yaradılması və qorunmasının ilkin şərtlərindən biridir.

Mövzu 4. Sosial iş nəzəriyyəsinin metodoloji əsasları

4.1. Sosial iş nəzəriyyəsi ilə bağlı müxtəliffikirlilik.

4.2. Sosial işdə pozitiv üsulların rolu.

4.3. Sosial işdə funksional üsulun tətbiqinin özünəməxsusluğu.

4.4. Struktur funksionalizmi.

4.5. Sosial işlə sosiologiyanın qarşılıqlı əlaqəsi.

4.1. Sosial iş nəzəriyyəsi ilə bağlı müxtəliffikirlilik.

Demək olar ki, bütün nəzəriyyəçi sosioloqlar sosial dinamika problemlərinə diqqət verirlər. Bununla belə, bir çox sosial böhranlar gözlənilməz olaraq baş verirlər və bundan başqa mövcud olan nəzəriyyələrin çərçivəsində baş verən dəyişiklikləri ağıllı şəkildə izah edən bir şey tapmaq olmur. Son illərin dramatik hadisələri sosial dinamikanın mövcud konsepsiya və kateqoriyalarını yenidən gözdən keçirilməsini zəruri etmiş oldu. Amerikan sosioloqu M.Xallinen öz kolleqalarına yazdığı müraciətnaməsində qeyd edir ki, dəyişikliklər tempinin sürətlənməsi, qloballaşma, müasir dünyada baş verən proseslərin qarşılıqlı bağlılıqlarının artması sosial dinamikanın öyrənilməsini sosiologiya nəzəriyyəsinin ən aktual probleminə çevirmiş olur. Onun fikrinə görə, sosial elmlər tarixində sanki bir növ sikllər mövcuddur. Əvvəlcə sosial dinamikanın qlobal nəzəriyyələri formalaşır ki, onlarda proseslər abstrakt səviyyədə analiz olunur. Sonra qlobal nəzəriyyə bazasında konkret proseslərin daha müfəssəl şəkildə öyrənilməsi üçün nəzərdə tutulmuş bir sıra spesifik, lokal nəzəriyyələr yaradılır. Nəhayət də sonda lokal nəzəriyyələrin praktiki istifadə təcrübəsinin analizi və ümumiləşdirilməsi yeni qlobal nəzəriyyənin yaradılması zəruriyyətini yaratmış olur. Göstərilən sxem tədricən getdikcə daha mükəmməl olan sosial dinamika nəzəriyyəsinə yüksəlməyi nəzərdə tutur, bu isə təəssüf ki, elmi həyatın reallıqlarına tam uyğun gəlmir. Amma, konkret sosial prosesin modelləşdirilməsinin hər bir halında hər şeyi ağ vərəqdən başlamaq olmaz, hər şeydə toplanmış biliklərə əsaslanmaq lazımdır. Zəruri bilikləri əldə etmək üçün ən yaxşı mənbə P.A.Sorokinin "Sosial-mədəni dinamika" adlı

ensiklopedik əsəridir, ondan yaxşısı hələ yazılmamışdır. Qərbdə Sorokinin fundamental əsəri o qədər də populyar deyildir. Oxucunu yəqin ki, əsərin həcmi (hərəsi 700 səhifədən ibarət dörd cild), həm də yüksək səviyyəsi (yada salaq ki, dördcildlik əsər üzərində qərb oxuclarına az tanış olan rus emiqrasiyasının ən qabaqcııl hissəsi iştirak etmişdir) qorxudur. Adama elə gəlir ki, eyni səbəblər üzündən bu fundamental əsər bu vaxta qədər rus dilinə tərcümə olunmamışdır. XX əsrin sonunda rus sosiologiyasında ən əlamətdar hadisələrdən biri P.Sorokinin bir cildli əsərinin rus dilinə tərcümə edilərkən nəşr edilməsi olmuşdur. Sorokinin nəticələrinə əsaslanan şagirdi V.Mur 1963-cü ildə sosial dinamika üzrə ən yaxşı dərsliklərindən birini nəşr etdirdi. Sorokinin şagirdi materialı çox yığcam, amma başa düşülən şəkildə cəmi 117 səhifədə şərh edə bildi. S.Vaqonun yeni nəsil dərsliyi bir çox cəhətdən Murun kitabının geniş versiyası hesab oluna bilər (Sorokin burada qətiyyən yada salınmır). P.Stompkinin 1996-cı ildə rus dilində nəşr olunmuş "Sosial dəyişikliklərin sosiologiyası" dərsliyində nəzəri yanaşmaların kifayət qədər dolğun siyahısı verilmişdir ki, bu da kitabın müəllifini məsələnin tarixini ətraflı şəkildə təsvir etmək zərurətindən azad etmişdir. Statistik halda olan sosial obyekti öyrənərkən onun müşahidə olunan xarakteristikaları – həm keyfiyyət, həm də kəmiyyət – çox da böyük olmayan müəyyən vaxt ərzində demək olar ki, dəyişmir (daha dəqiq desək baş verən dəyişiklikləri nəzərə almamaq da olar). Formal olaraq demək olar ki, statik nəzəriyyələrdə zaman yoxdur. .Dinamik nəzəriyyələrdə zaman açıq-aşkar iştirak edir. Tədqiqatçının kəmiyyət və keyfiyyətcə dəyişənlərin zaman daxilində dəyişməsi, o cümlədən müşahidə dövründə dəyişməyən sabit parametrlər də maraqlandırır. Obyektin dinamikasının təsviri proses anlayışından istifadəni nəzərdə tutur. Sosial-mədəni prosesin P.A.Sorokinə aid olan klassik tərəfini misal gətirək: - Proses dedikdə istənilən hərəkət növü, modifikasiya, transformasiya, növbə ilə bir-birini əvəz etmə və ya - təkamül, qısaca desək öyrənilən obyektin müəyyən vaxt ərzində istənilən dəyişikliyi – istər fəzada onun yerini dəyişməs və ya onun kəmiyyət və keyfiyyət xarakteristikalarının modifikasiyası nəzərdə tutulur. Sosial dəyişikliklər dedikdə müşahidə olunan sosial obyektin xarakteristikasının hər hansı cür dəyişməsi kimi başa düşəcəyik. S.Vaqo

tərəfindən təşkil olunmuş sosial dəyişikliklərin kifayət qədər rahat tipologiyası verilmişdir. Verilmiş tipologiya əlbəttə ki, tam deyildir.

Təkamül nəzəriyyələri üçün cəmiyyətin son üç min və ya on minlərlə il ərzində inkişafının universal prinsip və mexanizmlərinin axtarışı xarakterikdir. Fərz olunur ki, cəmiyyət bioloji orqanizmlər ilə analoji olaraq inkişaf edir, bu zaman hansı isə vacib göstəricilər durmadan artırlar. Nəzəriyyəçilər sübut edirlər ki, təkamül prosesi də daim artır: mürəkkəblik və differensasiya; uyğunlaşma və müxtəliflik; rasionallıq və azadlıq; urbanizasiya və bürokratizasiya. Klassik təkamül prosesində inkişafın öz məntiqi vardır, hansı ki, təkamülün tədrici, aramsız və yüksələn, kumulyativ və dönməz xarakterini müəyyən edir. Təkamül modellərinə biz dəfələrlə qayıdacayıq, elə buradaca oxucunun diqqətini təkamül nəzəriyyəsinin mükəmməlləşdirilməsi istiqamətində iki perspektivli istiqamətə yönəldək. Universal inkişaf nümunəsinə riayət etməkdən imtina çoxşaxəli təkamül konsepsiyasına həyat verdi. Amerikan antropoloqu C.Styuart hesab edirdi ki, müxtəlif mədəniyyətlərdə və mədəni sahələrdə inkişaf prosesləri spesifik mexanizmlərin hərəkətinə tabedir. Buna görə də təkamül dəyişiklikləri çoxplanlı və çoxşaxəlidir. Styuartın fikrinə görə sosial-mədəni proseslərin inkişafında paralellərin aşkara çıxarılması çoxşaxəli təkamülün əsas predmetidir. Tınyanov ədəbi janrın liderliyi, populyarlığı problemini nəzərdən keçirərək qeyd edirdi ki, təkamül prosesləri planlı deyil, sıçrayışlar şəklində axıb gedir. Hər hansı bir janrın süqut etdiyi dövrdə, həmin janr mərkəzdən ədəbi prosesin periferiyasına keçir, onun yerinə isə ədəbiyyatın dibindən mərkəzə yeni bir hadisə üzüb gəlir. Təkamül prosesinin analoji sxemini Tokio universitetinin professoru Y.Murakami, S.Kumon və S.Soto modernləşdirmənin yapon modelinin xüsusiyyətlərini analiz edərək işləyib hazırlayıblar. Yapon alimlərinin rəyinə görə modernləşdirmənin müasir nəzəriyyələri tarixi prosesin çoxşaxəli xarakterli olmasının qəbuluna əsaslanmalıdır, belə ki, ictimai inkişafın hər bir yeni pilləsində aparıcı rolunu əvvəlki mərhələdə - periferiyalı rolunda olan təkamül xəttlərindən biri ola bilər. Təkamül nəzəriyyələrində son dövrə qədər adaptasiya və təbii seçmə proseslərinə əsaslanan tədrici, aramsız inkişaf ideyası üstünlük təşkil edirdi. Amma, son illər – fasiləli müvazinət konsepsiyası getdikcə çox populyarlaşır. Fasiləli müvazinət nəzəriyyəsi ilk dəfə olaraq bioloqlar N.Eldrec və

S.Hould tərəfindən 1972-ci ildə formalaşdırılmışdır. Onların rəyinə görə bioloji, makrotəkamül dəyişiklikləri partlayış xarakter daşıyır. Uzun sürən sabitlik (durğunluq) dövrləri qısamüddətli sürətli dəyişikliklərlə əvəz olunur, bu dəyişikliklər prosesində yeni bioloji növlərin yaranması baş verir. P.Kun tərəfindən hazırlanmış – normal elmin mərhələlərinin bir-birini əvəz etməsi və yeni elmi paradiqmaya inqilabi keçid modeli yuxarıda adı gedən sxemə uyğun gəlir. Yeri gəlmişkən, - fasiləli müvazinət nəzəriyyəsinin özünü yeni təkamül paradiqması adlandırırlar. Bu ideyaları sosial-mədəni, təşkilati və iqtisadi dəyişiklilərə tətbiq edərkən daha da inkişaf etdirən işlərin sayı getdikcə çoxalır.

Sosial proseslərin izah edilməsi. Sosiologiyada ən əlamətdar hadisələrdən biri 1998-ci ildə-sosial mexanizmlər.

Sosioloji nəzəriyyəyə analitik yanaşma məqalələr məcmuəsinin nəşri oldu. Məcmuənin müəllifləri (adların arasında C.Elster, D.Hambett, R.Budon, A.Sorensen, A.Stinckomb, R.Hedstrem və başqa məşhur sosioloqlar var idi) vahid bir rəyə gəldilər ki, sosiologiyanın əsas məsələsi sosial proseslərin gedişini generasiya və izah edən fundamental sosial mexanizmlərin aşkara çıxarılması və öyrənilməsidir. Sosial mexanizm – bu öyrənilən prosesin səbəb-nəticə modelidir. Belə modellər müxtəlif faktorların (dəyişənlərin, indikatorların...) qarşılıqlı təsirinin sosial proseslərin real gedişini kəmiyyət və keyfiyyət xarakteristikalarının necə generasiya etməsini göstərirlər. Müəlliflərin fikrinə görə səbəbiyyət-nəticə modelləri öz-özlüyündə öyrənilən hadisələrin tam və qəti izahını vermirlər. İş ondadır ki, sosial həyatda abstrakt faktorlar və dəyişənlər deyil, real insanlar hərəkət edirlər. Buna görə də, elan olunan səbəb-nəticə əlaqələrinin insanların inancları və məsləkləri ilə necə qarşılıqlı təsirdə olmasını, onların davranışını necə formalaşdırdığını izah etmək də zəruridir. Sosial mexanizm anlayışının traktovkası genişlənir və təkcə səbəbiyyət nəticə modelini deyil, həm də fərdlərin eləcə də fərdlər və sosial aqreqatlar arasındakı qarşılıqlı təsir münasibətlərinin izahını da əhatə edir. Məcmuənin müəlliflərindən biri T.Şellinq belə bir misal gətirir: sürücü qabaqda gedən maşına qədər olan məsafəni kontrol edəndə bu fərdlər arasındakı qarşılıqlı təsirdir; əgər sürücü öz maşınının sürətini maşın axınının orta sürətinə uyğun olaraq tənzimləyirsə, onda bu fərdin və sosial aqreqatın qarşılıqlı təsir göstərməsidir. Şellinqin rəyinə görə, sosial mexanizm öyrənilən

fenomeni təkrarlayan abstrakt modelin fərdi davranışının terminlərd interpretasiyasıdır. Sosial mexanizm anlayışının belə traktovkası metodoloji individualizmin pparadiqmasına uyğun gəlir. İqtisadi nəzəriyyəyə geniş bütün analiz olunan hadisələr ancaq fərdlərin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi izah olunur. İqtisadi nəzəriyyəyə geniş bütün analiz olunan hadisələr ancaq fərdlərin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi izah olunur. İqtisadi nəzəriyyədə fərd bir qayda olaraq rasional qərarlar qəbul edir – gözlənilən faydanı (fayda və zərər arasındakı fərqi) daha da maksimallaşdırır. Amma, rasional seçim modelləri heç də həmişə real iqtisadi proselsərə adekvat olunur. Sosial-mədəni və siyasi proseslərdə bu modelin məhdudlaşdırılması çox ədalətli olaraq qeyd etdiyi kimi, sosiologiyada rasional seçim modellərini tipik olmayan hadisə kimi özünə əlavə edən koqnitiv modellərdən istifadə etmək zəruridir. Onu da demək olar ki, müəlliflər sosial proseslərin əsil izahının sosial mexanizmlərin iki səviyyəli təsvirinin verdiyini iddia edirlər: makrosəviyyədə səbəb-nəticə modelindən istifadə olunur; mikrosəviyyədə isə fərdlər arasındakı, o cümlədən mikro və makrosəviyyələr arasındakı qarşılıqlı təsirlərinin koqnitiv modelləri istifadə olunur. Bunları sosial model deyil, sosial-koqnitiv mexanizm adlandırmaq daha yaxşıdır. Müəlliflərin əsas postulatlarına şərik olaraq qeyd edirik ki, onların təklif etdiyi yanaşmanın bəzi məhdudiyyətlərinin olması mümkündür. Əlbəttə, səbəbiyyət-nəticə modelləri elmi izahın ən geniş yayılmış üsuludur. Amma, sosial elmlərdə alternativ yanaşmalar – qaydalar sisteminin və təkamülün izahlarının analizi getdikcə daha çox diqqət çəkməyə başlayır. Uyğun olaraq makro və mikro yanaşmaların ənənəvi traktovkasının dəqiqləşdirilməsinə ehtiyac var. Sosiologiyada adətən hesab olunur ki, mikrosəviyyə - fərdlərin səviyyəsidir. Sosial sistemlərin misalında mikro və makro səviyyələrin fərqləndirilməsinin daha rahat traktovkasını nəzərdən keçirək. Dünya sisteminin bir tam kimi analizi makrosəviyyədə aparılır, bu zaman ayrı-ayrı ölkələrin davranışının analizi mikrosəviyyədə həyata keçirilir. Qeyd edək ki, Budon – koqnitivist model terminini işlədir və bu termin altında koqnitiv modelin və dəyərlərin analizinin birləşməsini başa düşür. Sürətli, katastrofik sosial dəyişikliklərə maraq son illərd kəskin şəkildə artmışdır. M.Hallinen qeyd edir ki, sosial sistemlərin inkişafındakı

partlayışlar, diskretlik sosial dinamikanın mövcud nəzəriyyələrinə qarşı əsas çağırışdır. Onun fikrinə görə, son on illiyin kommunizm sisteminin süqutu, millətçilik və terrorizmin geniş yayılması, QİÇS epidemiyası, kompüter inqilabının sürətlə inkişafı kimi hadisələri yeni nəzəri yanaşmalar tələb edir. Fəlakətlər nəzəriyyəsi və xaos nəzəriyyəsi modellərinə əsaslanan sosial dəyişikliklərin yeni konsepsiyalarını yaratmaq zəruridir. Hallinen hesab edir ki, yeni yanaşmaların dərk edilməsində sosial proseslərin formal, riyazi modellərinin öyrənilməsi əhəmiyyətli yardım göstərmiş olar.

4.2. Sosial işdə pozitiv üsulların rolu.

Sosial işdə pozitiv üsul, bir tədqiqat praktikası kimi özünü, sosionomların düzgün, konkret biliklərə əsaslanmasında və sosial işin bu və ya digər konsepsiyasının elmi cəhətdən izahında büruzə verir. Bu mənada pozitiv sosiologiya, sosial iş nəzəriyyə və praktikasının empirik əsaslarından birini təşkil edir.

Sosial işin cəmiyyətdə yerinin dərk edilməsi nöqteyi-nəzərindən, pozitiv mövqedə olanların sosiologiyanın sosial fiziki kimi dəyərləndirilməsi təsəvvürləri də çox önəmlidir. Çünki bu təsəvvürlərə rəğmən, cəmiyyət vahid bi sistem, qarşılıqlı əlaqədə olan elementlərin mexanizmi kimi nəzərdən keçirilirdi. Bu baxışları bir qədər sadələşdirmiş olsaq, onda onların sosial iş üçün də əhəmiyyətli olduğunu görmüş olarıq. Bu halda, müvafiq təsəvvürlərə əsasən, sosial iş cəmiyyətin ayrılmaz hissəsi, onun sosial institutu kimi nəzərdən keçirilməlidir.

Lakin sosial işin elmi əsaslarının təmin edilməsi nöqteyi-nəzərindən pozitiv sosiologiyanın imkanlarının məhdud olduğunu da unutmaq olmaz. Bu məhdudiyyət özünü ilk növbədə, sosial köməyə ehtiyac duyan müştəri ilə aparılan, sosial-funksional və psixososial işin əsaslarının başa düşülməsində büruzə verir. Sosiologiyanın digər klassik paradiqmalarından biri isə funksionalizmdir. Funksionalizm, cəımiyyətin və sosial əlaqələrin elementlərinin ayrı-ayrı fraqmentlərini nəzərdən keçirərkən, onların yerini və rolunu daha geniş əlaqələr sistemində müəyyənləşdirir. Bir sözlə onları sistemli şəkildə öyrənir.

Pozitivizm (lat. positivus-müsbət) XIX əsrdə meydana çıxan fəlsəfi cərəyanlardan biri, banisi fransız filosofu və sosioloqu Ogüst Kont hesab olunur.

Ogüst Kont

Pozitivizm konkret elmləri həqiqi, gerçək biliyin yeganə mənbəyi sayır və fəlsəfi tədqiqatın idraki əhəmiyyətini inkar edir, nəzəri spekulyativliyi, biliklər əldə etməyin vasitəsi kimi abstraktlaşdırmanı qəbul etmirdi. Mahiyyətinə görə pozitivizm müəyyən münasibətlərdə ifrat məntiqi nəticələrə gətirib çıxarmış empirisizmdir.

Bu cərəyanın ideyalarına əsasən, cəmiyyətdə baş verən hər hansı bir hadisəni və hər hansı bir insanın hərəkətini onun yaşadığı mühitə baxaraq başa düşmək olar. Misal üçün, pozitivizm cərəyanının ən görkəmli nümayəndələrindən biri olan Emile Durkheim (fransız) hər kəsə bir individual hərəəkət kimi görsənən intihar hadisəsini cəmiyyət tərəfindən təsirləndiyini və ortaya çıxdığını apardığı empirik araşdırmalarda sübut etmişdir, amma təbii ki bütün intihar hadisələri cəmiyyətin təsirindən baş vermir. Durkheim araşdırmalarının nəticəsində müəyyən etmişdir ki, sosial-iqtisadi yaxud siyasi böhran keçirən, sosial və ya dini dəyərlərin insanların həyatına ifrat dərəcədə təsir edən, insanın azadlığının nəzərə çarpacaq dərəcədə məhdud olduğu cəmiyyətlərdə intihar hadisələrinin sayı adətən yüksək olur. Durkheim bu möhtəşəm və müasir dünyamızda da ekspertlər tərəfindən istinad edilən araşdırması sosiologiya elminin problemləri dərk etmək cəhətdən nə dərəcədə dəyərli elm olduğunu sübut edir.

İstifadə olunan metodlar statistik məlumatları tədqiqat, intervyular və uzun müddətli zamanda bir qrupun tədqiqat metodlarıdır.

Pozitivizmin inkişafında üç mərhələ fərqləndirilir: I mərhələnin nümayəndələri O.Kont, E.Litter, P.Laffit(Fransa), Con Stüart Mill, Herbert Spenser (İngiltərə) olmuşlar. Qnoseologiya – idrakın inkişafının 3 mərhələsi qanunu (Kont) və məntiq problemləri ilə (Mill) yanaşı pozitivistlər sosiologiyaya da mühüm yer vermişlər.

II mərhələ - empiriokritisizmin meydana gəlməsi XIX əsrin 70-90-cı illərinə təsadüf edir və obyektiv, real predmetləri hətta formal olaraq

qəbul etməyən Max və Avenariusun adları ilə bağlıdır. Maxizmdə idrak problemləri subyektivizmə keçən frat psixologizm mövqeyindən şərh olunurdu.

III mərhələ kimi neopozitivizmin meydanaz gəlməsi Vyana dərnəyinin (O. Neyrat, R.Karnap, M.Şlik və s.) və Berlin empirik fəlsəfə cəmiyyətinin (Reyxenbax, F.Krauz və s.) fəaliyyəti ilə bağlıdır ki, bunlar da bir çox cərəyanları – məntiqi atomizmi, məntiqi pozitivizmi, ümumi semantikanı özündə birləşdirmişdir. Bu mərhələnin nümayəndələri simvolik məntiq, elmi tədqiqatın strukturu və s. fəlsəfi problemlərə əsas yer verərək, psixologizmi rədd edir, "elm məntiqinin" riyaziyyatla yaxınlaşdırılması, qnoseoloji problemlərin formallaşdırılması yolu ilə getmişlər.

4.3. Sosial işdə funksional üsulun tətbiqinin özünəməxsusluğu.

Sosial işdə funksional üsulun tətbiqinin özünəməxsusluğu Dyürkheymin, B.Malinovskinin, A.Radkliff-Braunun və b. əsərlərində öz əksini tapmışdır. Onların fikrincə, funksionalizm, bunun və ya onun mənası axtarışına son qoymağa şərait yaradır, yəni, mühüm olan ictimai hadisələrin sosial strukturun elementlərinin funksiyalarının müəyyənləşdirilməsidir.

Bu baxışları nəzərdən keçirən R.Merton, XX əsrin ortalarında sosial hadisə və proseslərin funksional analizində 3 mühüm postulatı ayırmışdır:

1. Cəmiyyətin funksional vəhdəti postulatı (yəni onun fəaliyyət göstərən bütün hissələrinin uzlaşdırılması);
2. Universal funksionalizm vəhdəti postulatı (bütün ictimai hadisələr funksionaldırlar);
3. Hadisələrin funksiyalarının və onların qarşılıqlı əlaqələrinin zəruriliyi postulatı.

Sonuncu postulat sosioloqlar tərəfindən tez-tez tənqidə məruz qalırdı. Çünki cəmiyyətin bütün elementlərinin, ictimai həyatın bütün hadisələrinin funksiyalarının zəruriliyi axıra qədər açıqlanmırdı. Heç təsadüfi deyildir ki, bununla əlaqədar R.Merton həmin fikirləri

yenidən əsaslandırmağa çalışmış və qeyd etmişdir ki, o bütövlükdə "cəmiyyətin mahiyyəti nədir?" sualına cavab vermir və funksional zəruri, faydalı anlayışları eyniləşdirmir. Belə olsaydı nəzəriyyə və praktikanın uzlaşdırılmasını məhdudlaşdırmış olardı.

Mertona görə, funksionalizmin başlıca postulatı bunlardan ibarətdir: bu sosial hadisə müxtəlif funksiyalara malik ola bilər və eyni funksiya cəmiyyətin müxtəlif elementləri, sosial həyatın müxtəlif hadisələri tərəfindən yerinə yetirilə bilər.

Bu zaman funksional nəticə ictimai münasibətlər sisteminin, eləcə də cəmiyyətin davamlılığının yüksəlməsinə, onun adaptasiyalılığının artmasına şərait yaradır. Mənfi məzmunda belə nəticələr sosial orqanizmin davamlılığını zəiflədə bilər. Bu halda söhbət disfunksiyadan gedir. Bundan başqa R.Merton aşkar və gizli, şüurlu və şüursuz funksiyaları, həmçinin hadisə və strukturların polifunksiyalarını və monofunksiyalarını seçib ayırır. Bütün bunlar funkionalizmi, sosiologiyanın müstəqil sahəsi olan struktur-funksional analizə daha da yaxınlaşdırdı.

Tədqiqat nöqteyi-nəzərindən funksionalizm, sosial iş üçün səmərəli olmaqla, onun metodoloji əsaslarını zənginləşdirir, nəzəri və tətbiqi sahələri üçün ümdə əhəmiyyət kəsb edir. Məsələn, sosial iş təsisatlarını və sosial işçilər funksiyalarını nəzərdən keçirərkən, tədqiqatçı, funksionalizm ideyalarına əsaslanmaqla, onların rollarını, funksional vəzifələrini və həmin vəzifələrin konkret şəraitlərdə gerçəkləşdirilə bilmək qabiliyyət və imkanlarını sistemləşdirə bilər. Sosial işdə həmçinin funksionalizmin aşkar və gizli, şüurlu və şüursuz funksiyaları ilə əlaqədar müddəalar da xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda müxtəlif sosial sistemlərin bütövlüyü, davamlılığı və disfunksiyalar ilə əlaqədar müddəaları da unutmaq olmaz.

Müvafiq problemlər öz nəzəri-konseptual davamını sosiologiyanın struktur-funksional analizində də tapır.

Struktur-funksional üsul, ictimai həyatı, insanların çoxsaylı qarşılıqlı əlaqəsi, onların sonsuz təması kim anlamağı nəzərdə tutur. Bu əlaqələrin təhlili zamanı təkcə, həmin əlaqələrin baş verdiyi sistemə istinad qənaətbəxş deyildir. Bundan başqa, sistemin özündə

davamlı elementləri tapmaq, struktur kimi nəzərdən keçiriləcək əlaqənin nisbətən sabit aspektlərini müəyyənləşdirmək lazımdır. Bu strukturun rolları adətən funksiyalar kimi də xarakterizə olunur.

4.4. Struktur funksionalizmi.

Struktur funsionalizmin ən məşhur nümayəndələrindən biri Alfred Radklif Braun hesab olunur. O Kembric universitetində sosial antropologiya üzrə təhsil almış, 1806-1808-ci illərdə isə çöl tədqiqat işləri aparmışdır.Sonrakı illərdə Avstraliya, Mərkəzi Afrika, Çinin cənubunda da antropoloji tədqiqatlar aparan Braun 1938-ci ildə 24 ildən sonra Britaniyaya dönür və Oksford universitetinin sosial antropologiya kafedrasına rəhbərlik edir. Eyni zamanda Britaniya antropologiya institutunun prezidenti seçilir. Braunun əsərlərinin sayı çoxdur.Onun nəzəri müddəaları əsasən "Andaman adaları.sosial antropologiya sahəsində tədqiqatlar", "Primitiv cəmiyyətdə struktur və funksiya" və digər əsərlərində əks olunub. O,elmi fəaliyyətdə insanların gündəlik davranışı,ictimai həyatı, insan mədəniyyəti kimi xüsusiyyətləri funsionalist və struktur müstəvidən anlamağa səy etmişdir. Braunun dünyagörüşünə Spenser və E. Dürkheym müəyyən təsirə malik olmuşlar.Onların elmi-nəzəri müddəalarından istifadə edərək ibtidai icma cəmiyyətinin təbii struktur təsnifatını verməyə cəhd etmişdir.

A.R.Braun (1881-1955)

Braun antropologiyanı insan həyatının bütün cəhətlərini əhatə edən bir elm kimi xarakterizə edirdi və onun strukturunda üç istiqamət müəyyən edirdi: bioloji antropologiya, arxeologiya və etnoqrafiya.

Etnoqrafiyanı etnologiya və sosial antropologiyaya bölürdü. Onun təsnifatına görə etnologiya konkret müəyyən tarixi zaman aralığında mövcud olmuş ayrı-ayrı xalqların,onların daxili inkişafını,mədəni əlaqələrinin öyrənilməsilə məşğul olan elm sahəsidir. Etnologiyanın əsas metodu tarixin rekonstruksiya metodudur.Braun qeyd edirdi ki,etnologiya bilavasitə yazılı mənbələrin məlumatlarına və çöl tədqiqatlarından olan məlumatlara əsaslanır.

İnsan mədəniyyətinin öyrənilməsində sosial antropologiya tamam başqa bir istiqamət əhatə edir.Onun vəzifəsi ayrı-ayrı mədəniyyətlərin rekonstruksiyası deyil, ictimai-mədəni inkşafın ümumi qanunauyğunluqlarının aşkar edilməsindən ibarətdir.Bu elmin əsas metodu isə induksiya metodudur. Braun göstərir ki, bu mədəniyyətin əsas xüsusiyyəti mədəni gerçəkliklərin ümumiləşdirilmiş formada analizi və tədqiqindən ibarətdir. Beləliklə sosial antropologiya insan mədəniyyətinin inkşafının ümumi qanunlarınını tədqiq edən elm kimi çıxış edir. Braun son tədqiqatlarda induktiv metod anlayışını müqayisəli metod anlayışı ilə əvəz edir.Molinovskidən fərqli olaraq Braun mədəniyyətin tarixi inkişaf qanunauyğunluqlarının tədqiqinin qeyri-mümkünlüyünü qəbul etmirdi.Braun belə hesab edirdi ki, ictimai həyat sahəsində də mövcud olan gerçəkliklərin müxtəlif təbii sistemlər şəklində düzmək mümkündür. Təbiətdə belə şəkildə atom molekul çıxış etdiyi kimi,ictimai həyatda insan qrupları,cəmiyyət çıxış edir. Brauna görə, ictimai sistemlərin elementləri kimi insanların fərdi xüsusiyyətləri,davranış mexanizmləri və bunların arasında mövcud olan ictimai əlaqələr çıxış edir. İctimai sistemin özü,sosial strukturu,ictimai ənənələrin ümumi məcmusu, ictimai ayin və ənənələrlə bağlı olan xüsusi hislər, duyğular olmaqla üç tərkib hissələrindən ibarətdir.

Özünün erkən əsərlərində Braun əsasən mədəniyyət anlayışından istifadə edirdisə, artıq 30-cu illərdən etibarən sonrakı əsərlərində başlıca olaraq sosial struktur anlayışından geniş istifadə edib.Məhz bu dövrdən sonra onun tədqiqatlarının əsas obyekti kimi müxtəlif mədəniyyətlərin siyasi təşkili,qohumluq sistemlərinin xüsusisyyətləri və onların ictimai sistemlərdə rolu,ictimai inanc formalarının strukturunun funksional təzahürü kimi problemlər təşkil edir. Braun çox zaman hətta Molinovskini də struktualist adlandırırdı.O, ictimai sistemin strukturu kimi burada mövcud olan ictimai münasibətlərin çox mürəkkəb məcmusunu nəzərdə tuturdu.Bu münasibətlər real gözə dəyməsə də insan cəmiyyətinin bir sistem kimi mövcudluğunu onlarla bağlıdır. Braun hesab edir ki,hər bir insan cəmiyyəti özünün ictimai münasibətlər sisteminin mədəni modelini hazırlayır.Məhz bu modelin əsasında sosializasiya prosesində müxtəlif insanların davranışları müəyyən olunur.Onların cəmiyyətdə ictimai rolları hazırlanır. Cəmiyyətin ictimai münasibətlər sistemində onlar öz yerlərini tapırlar.

O, ritual, ayin, adət kimi anlayışları da, mövcud olan antropoloji gerçəklikləri də bu müstəvidən tədqiq edirdi.Hər ayinin mədəni dəyəri insan cəmiyyətinin strukturunda onun yerləşdiyi mövqe ilə müəyyən olunur. Braunun fikrinə görə, struktualizm anlayışı özündə bir-birilə bağlı olan üç cəhəti ehtiva edir:

Birincisi, özlüyündə struktur-bu əsasən sosial rolların timsalında realizə olunur və faktiki olaraq sosial sistemin mövcudluğu bunlarla bağlıdır.

İkincisi, strukturların həyata keçirdiyi funksiyalardır.Braunun fikrincə, funksiya insanların ictimai standartlaşmış fəaliyyət və düşüncə vasitəsidir. Bu yolla ictimai sistemlərdə mövcud struktur qorunur.

Üçüncü mühüm cəhət isə ictimai tərəqqi və ya dəyişkənliklərdir. Brauna görə,insan toplumunda dinin canlı yaşamda fəaliyyətini öyrənmək lazımdır. Braunun sosial antropologiyada irəli sürdüyü bu ideyalar De Sosiur tərəfindən linqivistikada da geniş istifadə olunmuşdur.İngiltərədə Braunun birbaşa davamçısı kimi Evans Priçardı göstərmək olar.

Evans Priçard (1902-1973)

Evans Priçard İkinci Dünya Müharibəsindən sonra uzun müddət Şərqi Afrikada çöl tədqiqatları aparmış,Sudan və digər ərazilərdə nilot xalqlarını tədqiq etmişdir. Onun nəşr etdirdiyi "Nuerlər monoqrafiyası" sosial antropologiyanın klassik əsərlərindən hesab olunur.O,Braunun ideyalarını inkişaf etdirərək, konkret sosioloji nəzəriyyələrdən istifadə etməyə çalışmışdır.Məhz bu ona müxtəlif cəmiyyətlərin struktur quruluşunu anlamağa və onlarda mövcud olan şəxsiyyətlərarası münasibətləri tədqiq etməyə imkan vermişdir.Bunun sayəsində insan cəmiyyətinin daha aydın şəkildə başa düşülməsi müəyyən olunmuşdur. Priçard əmin idi ki,hər bi ictimai sistemin elemetləri bir-birinə təsir edir. Onların qarşılıqlı münasibətləri müxtəlif istiqamətlərə yönəlmiş vektorlar şəklindədir. Braundan fərqli olaraq,o ictimai və mədəni sistemlərin birliyinə şübhə etmirdi.Onların bir gerçəkliyin iki təzahürü olduğunu qeyd edirdi.

Daha çox cəmiyyətin tədqiqində struktur metoda önəm verən Evans,belə hesab edirdi ki, ilk növbədə mədəni formadan ictimai faktları

ayırmaq lazımdır.Məhz onların ayrılması nəticəsində cəmiyyətin və insan mədəniyyətinin tədqiqi mövcudolma qanunauyğunluqlarının araşdırılması mümkündür.Priçard insanlar arasında mövcud olan münasibətlərin özlərini də özünəməxsus bir struktur kimi qəbul edirdi.Öz növbəsində cəmiyyətdə mövcud olan bütün ictimai ierarxik münasibətlər götürüldükdə onlar ictimai sistem yaradır. Sosial antropologiya sosial inkişafın ümumi qanunauyğunluqlarını öyrənməlidir. Funksional struktualizmin Fransada inkişafı struktualizmin və poststruktualizmin yaranmasına gətitib çıxarmışdır. Fransada bu cərəyanın banisi Klod Levi Stros hesab olunur.

Bir çox tədqiqatçılar onu "struktualizmin atası" adlandırırdılar. "Qəmli Tropiklər", "Totemizm bu gün", "Maskaların yolu" və digər əsərlərində Stros öz nəzəri müddəalarını irəli sürmüşdür.Brazliyada və digər bölgələrdə tədqiqatlar aparmış Stros Amerikada yaşayan 40-dan çox hindu qəbiləsini dünyaya tanıtmış,hinduların qohumluq sistemini tədqiq etmişdir.

Stros nəzəriyyəsinin ilk növbədə insani cəhətlərini önə çəkməyə çalışırdı.Onun fikrincə insan mədəniyyət və təbiət arasında yaranmış dərin uçurum şəraitində yaşadığından tam xoşbəxt deyil.O,əsərlərində bir neçə müddəa ilə çıxış edirdi.İnsan cəmiyyətinin bütün rəngarəng gerçəklikləri müəyyən bir ilkin modelin modifikasiyasından,onun açılışından ibarətdir. Bu səbəbdən bunlar sistemləşdirilə və təsnif oluna bilər. Bu elementlər arasında mövcud əlaqələri onların bir-birilə münasibətdə yerləşməsini və ilkin modelindən müəyyən etmək mümkündür. Strosun struktur antropologiyada insan təfəkkürünün təhtəlşüur formasına xüsusi önəm verirdi.O ictimai həyatın bütün müxtəlif formalarının müəyyən bir məğzinə görə, müəyyən bir tamın müxtəlif formaları olduğunu qeyd edirdi.Davranış sistemləri, insanların şüurlu və təhtəlşüur fəaliyyətini idarə edənlər və s. Stros ilk növbədə insanı əhatə edən xarici mühitin özünün nədən ibarət olması haqqında sualı irəli sürür.Belə ki,insan mədəniyyətini başa düşmək üçün ilk növbədə ətraf mühitin insanlar tərəfindən hansı formada,necə qəbul olunması mühüm rol oynayır.Stros göstərir ki,insanların duyğuları ətraf mühiti dərk etməkdən, kodlaşdırırlar. Xarici aləmdə baş verən gerçəkliklər simvollara çevrilirlər.

Beləliklə, K.L.Strosun konsepsiyasında iki struktur rol oynayır:

1.İnsan təfəkkürünün strukturu;

2.İnsanı əhatə edən real mühitin strukturu.

4.5. Sosial işlə sosiologiyanın qarşılıqlı əlaqəsi.

Sosial işin nəzəriyyə və praktikası üçün insan probleminin tam halda biogen, psixogen və sosiogen elementlərinin üzvi vəhdəti kimi başa düşülməsinin prinsipial mənası vardır. Sosial iş insanın dünyagörüşünün təbiəti və mahiyyətinə nəzər salmadan öz məsələlərini səmərəli surətdə həll edə bilməz.

İnsanın dünyanı başa düşməsində, onun həyatın mənası və məqsədləri haqqında təsəvvürləri, baxışları mühüm yer tutur.

Sosiologiya ilə sosial işin sıx qarşılıqlı əlaqəsinin mövcudluğuna baxmayaraq, bu əlaqənin dəqiq aydınlaşdırılması zərurəti hər zaman mövcud olmuşdur. Məsələn, bu əlaqəni sosial işin həm tədris fənni, həm də em sahəsi kimi dəyərləndirilməsi kontekstində müşahidə etmək bəzi hallarda çətin olur. Həm nəzəri, həm metodoloji, həm də tətbiqi planda bu əlaqənin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Tətbiqi planda bu iki elm sahəsinin qarşılıqlı əlaqəsini onların tədqiqat obyektlərinin və predmetlərinin müəyyənləşdirilməsində, eləcə də tətbiq etdikləri səciyyəvi metodlarda müşahidə etmək olar. Hazırda çoxsaylı sosioloji ədəbiyyatın mövcudluğu müvafiq məsələlərin ətraflı aydınlaşdırılmasına imkan yaradır.

Cari sahə üzrə ədəbiyyatın təhlili və xülasəsi aşağıdakıları söyləməyə imkan verir:

Birincisi, sosiologiya və sosial işin tədqiqat obyektləri, yaxud onların nəyi öyrənməsi ilə əlaqədar məsələ ilə bağlı sosiologiyada müxtəlif fikirlər mövcuddur, lakin onların hamısını iki fikir ətrafında cəmləşdirmək olar:

Bir tərəfdən sosiologiyanın tədqiqat obyektinin bütövlükdə cəmiyyət, ayrılıqda isə sosial əlaqə və münasibətlərin rəngarəngliyi olduğunu israr edən fikir tərəfdarları, digər tərəfdən isə, "sosiologiyanın obyekti – cəmiyyətin çoxsaylı sahələrindən biri olan sosial sahədir" fikrini irəli sürən qrup nümayəndələri çıxış edirlər.

Həm elmi, həm də tətbiqi planda, bir elm kimi sosiologiyanın predmetinin və tədqiqat obyektinin xüsusiyyətlərini, müxtəlif sosioloji cərəyan və məktəb nümayəndələrinin nəzəriyyə və fikirləri kontekstində öyrənmək fyadalı olardı. Belə nəzəriyyələr sırasına sosiologiyada çox məşhur olan pozitivist cərəyanı və onun O.Kont, C.Mil və H.Spenser kimi məşhur nümayəndələrini aid edirlər. Pozitivist məktəb və onun nümayəndələrinin sosiologiya elmində özünəməxsusluqları onunla bağlıdır ki, onlar cəmiyyətlə əlaqədar mücərrəd fikirlərdən uzaqlaşmaqla, pozitiv sosial nəzəriyyəni yaratmağa cəhd göstərmiş və onun təbiət nəzəriyyələri qədər mühüm və əhəmiyyətli olacağını əsaslandırmağa çalışmışlar. Bununla əlaqədar klassik pozitivizm sırf nəzəriyyəyə əsaslanmış sosial fəlsəfədən fərqli olaraq, müşahidə, ictimai proseslərin müqayisəli tarixi-sosioloji təhlili, riyazi metodlar kimi elmi üsullarla öz mövqelərini təsdiqləməyə çalışırdı.

Bundan başqa, sosioloji pozitivizmin naturalizm, təkamül, fenomenalizm, orqaniklik kimi xarakterik xüsusiyyətləri də var idi. Onun elmi idrak kimi biologiya, insanın anatomiya və fiziologiyası, qismən mexanika modelləri də var. Pozitivizm, cəmiyyətin fəaliyyəti və inkişafında labüd qanunların mövcudluğunu təsbit edir və onları təbiətdə baş verən proseslərin və qanunauyğunluqların davamı kimi nəzərdən keçirirlər. Müxtəlif variant və ayrı-ayrı elementlərdə, xüsusilə empirik sosiologiyada bu paradiqma hələ də öz sözünü deməkdədir.

Sosial iş sahəsindəki tədqiqatlar sosioloji göstəricilərə yaxud sosial gerçəkliyin təhlil metodlarına əsaslanır. Məsələn, risk qrupuna aid kliyentlərin sosial bioqrafiyasını yazarkən, sosial işçilər anket, müsahibə, arxiv sənədləri, avtobioqrafiyalar və digər informasiya toplamaq metodlarından istifadə edirlər. Bütün bunlar isə sosiologiyada tətbiq edilən mənəvi metodlardır.

Beləliklə, hazırda heç bir sosial iş probleminin həllini sosiologiyasız təsəvvür etmək olmaz.

Cəmiyyətimizdə sosial iş sahəsinin yenicə inkişaf etdiyini nəzərə alsaq, onda bu sahə barəsində məlumatın nə qədər kasad olduğunu aşkar müşahidə etmiş olarıq. Sosial işdən fərqli olaraq pedaqoji sahənin hərtərəfli inkişafı, ölkəmizdə bu iki sahənin məhsuldar əməkdaşlığına möhkəm zəmin yaradacağına təminat verir.

Tarixən vəziyyət elə gətirmişdir ki, sosial iş, təkcə lazımi köməyin göstərilməsi ilə qalmayıb, həmçinin əhalinin müxtəlif kateqoriyaları arasında, lazımi sosial stereotipləri də formalaşdırmışdır. Məsələyə bu cür baxış, belə bir fərziyyə irəli sürməyə əsas verir ki, sosial iş təkcə sosial pedaqogika deyil, sosial iş, elə sosial pedaqogikanın özü deməkdir.

Müxtəlif tarixi dönəmlərdə və müxtəlif mədəniyyətlərdə sosial iş, ictimai fəaliyyət növü olaraq, müxtəlif formalara malik olmuşdur. Məsələn, qədim Yunanistanda sosial kömək filantropiya, Romada isə xalq ənənələri kimi məşhur idi.

Ehtiyacı olanlara sosial köməyin göstərilməsi ayrı-ayrı vaxtlarda müxtəlif cür adlandırılmışdı. Məsələn, Qərbi Avropada XI-XVII əsrlərdə xeyriyyəçilik, XVIII-XX əsrlərdə mərhəmət, kömək, müdafiə və dəstək məqsədi ilə göstərilən fəaliyyət XX əsrin 50-ci illərinin ortalarından başlayaraq, bütün Qərbi Avropa ölkələrində "sosial iş" kimi ümumi ad alır. Müvafiq fəaliyyət sahəsinin ümumi ad altında birləşməsi obyektiv proses idi və o bir sıra qərb ölkələrində kömək modelinin dəyişilməsi ilə əlaqədar olmuşdur.

Şübhəsiz ki, sosial köməyin göstərilməsi ilə bağlı ilkin tədbirlər xeyriyyəçiliklə əlaqədar olmuşdur. Roma kilsəsinin ilk sənədlərindən biri məhz xeyriyyəçilik nəzəriyyəsi və praktikası ilə bağlı olmuşdur. Bu sənəd, ictimai köməyin göstərilməsi sahəsində ilk nəzəri mənbə hesab edilə bilər. Sosial iş müstəqil problem sahəsi kimi formalaşanadək onun başlıca fəaliyyəti, amalı və kömək forması, məhz xeyriyyəçilik olmuşdur.

Dəyişən təkcə fəaliyyət növləri, dəstək obyektləri deyil, həmçinin dəstək subyektləri idi. Bu dəyişmələr öz bariz nümunələrini sivilizasiya tarixində tapmışlar. Tarixən dəstək və müdafiə funksiyalarını öz üzərinə götürmüş çoxsaylı subyektlər mövcud olmuşdur və onların arasında

bütləq, şamanlar, peyğəmbərlər, monarxlar, könüllü köməkçilər, peşəkarlar və b. olmuşlar.

İctimai şüur kömək və dəstək ənənələrini tarixi dinamikada izləməklə, sosial iş, müstəqil paradiqma kimi ön plana çəkilir. Bu paradiqmanın əsas mahiyyətini insan və onun taleyi problemi təşkil edir. İnsan və onun taleyinə yardımçı olmaq məqsədi ilə müdaxilə sosial işin başlıca fəaliyyət prinsipidir. Müvafiq prinsip pedaqogikada da vacib olduğundan, sosial işlə pedaqogikanın qarşılıqlı əlaqəsini daha ətraflı nəzərdən keçirmək məqsədəuyğun olardı. Sosial iş sosial pedaqogika demək deyildir və pedaqogika bir sıra mühüm keyfiyyət xarakteristikalarına malik fəaliyyət sahəsidir. Bu sahə insan varlığını sosiomədəni münasibətlər sistemində, real gerçəklikdə nəzərdən keçirir. Reallıqda subyekt ehtiyacı olan insan kimi deyil, öyrənən, təhsil alan insan kimi çıxış edir. bu nöqteyi-nəzərdən, subyekt mədəni-tarixi prosesin təlim-təhsil daşıyıcısı kimi çıxış edir.

Mövzu 5. Sosial işə əsas elmi yanaşmalar

5.1. Bir elm kimi sosial işin tədqiqat predmeti

5.2. Fərdi yanaşma ideologiyası

5.3. Sosial işin fərdi metodlarına psixoloji biliklərin daxil olması

5.4. Bihevioral və koqnitiv-bihevioral prosedurların səmərəliliyi

5.5. Sosial işdə koqnitiv yanaşma

5.1. Bir elm kimi sosial işin tədqiqat predmeti

Elm-reallığın hər hansı bir sahəsi haqda biliklərin müəyyən sistemidir. Bütün elmlər təbiət, ictimai və texniki elmlərə bölünür. Sosial iş elmi biliyin bir sahəsi kimi özündə həm ictimai, həm də təbiət elmlərinin xüsusiyyətlərini daşıyır. Sosial işdə tədqiqatın statistik və riyazi metodları geniş istifadə olunur. Sosial işin elmi statusunun təyin olunması məsələsində bir çox yanaşmalar mövcuddur. Onlardan biri bu elmi sosial inkişaf sahəsini öyrənməyə yönələn tətbiqi fənn kimi qəbul edir. Digəri bu elmin insanın həyati güclərinin qorunub saxlanmasına aidiyyatı olan problemləri (tibbi xidmət, təhsil, işlə təminat, pensiya təminatı, aztəminatlı ailələrə yardım) əhatə etdiyini vurğulayır.

Bir elm kimi sosial işin öz tədqiqat predmeti və obyekti, spesifik problematikası vardır. O, müştərinin müxtəlif bioloji və sosial amillərin təsiri nəticəsində yaranan problemlərinin həlli məqsədi ilə sosial münasibətləri, sosial qarşılıqlı təsir proseslərini tədqiq edir. Sosial işin bir nəzəriyyə kimi fərqli cəhəti ondan ibarətdir ki, sosial iş daha çox tətbiqi xarakter daşıyır. Sosial işin bir elm kimi predmeti şəxsiyyətin, sosial qrupun və ya icmanın həyat fəaliyyətinə aidiyyatı olan sosial prosesləri və hadisələri əhatə edir. Sosial işin subyektlərinə aşağıdakları aid etmək olar:

1. Sosial yardım göstərən sosial işçilər və sosial pedaqoqlar;
2. Digərlərinə sosial işi öyrədən professor-müəllim heyəti;
3. Sosial işin inkişafını və vəziyyətini qeyd edən tədqiqatçılar;
4. Ölkədə sosial siyasəti formalaşdıran və həyata keçirən idarəetmə kadrları.

Sosial işin təşəkkülünün elmi mərhələsi, onun təkamülünün bir çox faktorları ilə, ilk növbədə, XX əsrin əvvəlləri üçün əksər ölkələrdə keyfiyyətcə dəyişmiş ictimai münasibətlər və əlaqələr sistemi ilə bağlı idi. Bəs sosial kömək paradiqmasının dəyişməsinə səbəb olan, bu keyfiyyət dəyişiklikləri nədən ibarət idi? Bunları aşağıdakı qaydada təqdim edək:

- Ümumi yaşayış normaları və prinsipləri ilə bağlı olan bütöv toplumun parçalanması;
- Urbanizasiya və sənayeləşmə;
- İnsanın cəlb olunduğu sosial əlaqələr sisteminin genişlənməsi və sayının artması.

Qeyd olunanlar, sosial işin təkamülünə nəzərə çarpacaq dərəcədə təsir göstərmiş tarixi səbəblərdir.

XX əsrin əvvəlləri üçün, sosial iş nəzəriyyə və praktikasının formalaşmasına, onun təkamülünə mühüm təsir göstərən faktorlar sırasından aşağıdakıları qeyd edirlər:

1. Makro
2. Mezo
3. Mikro

Təkamülün makrofaktoruna bunlar aiddir:

- əsrin əvvəllərində baş vermiş sənaye inqilabı;
- insan hüquqları və onların müdafiəsi sahəsində sosial siyasətin dəyişməsi;
- xəstələr və qocalar üçün sosial sığorta sisteminin təşkili.

Təkamülün mezofaktorlarına bunlar aiddir:

- müştəriyə maddi köməkdən, onun öz problemlərini müstəqil surətdə həll edə bilməsi qabiliyyətinə doğru dəyişdirilməsi – müştərilərin təlimi;
- sosial işçilərin praktiki maraqlarının dəyişməsi, sinfi maraqlardan, müştərinin şəxsiyyəti və onun maraqları istiqamətinə keçid.

Təkamülün mikrofaktorlarına bunlar aiddir:

- Sosial işçilərin diqqətinin “hadisələrlə iş” üzərində cəmləşdirilməsi;
- Praktikada, hadisənin öyrənilməsi ilə bağlı psixoanalitik üsulların tətbiqinin əsaslandırılması;
- Fərdi iş metodlarının və texnikalarının formalaşması, yaxud sosial işçinin fəaliyyətinin, müştərinin istək və arzuları əsasında qurulması.

Sosial işin nəzəri dərk edilməsi ilə əlaqəli ilkin addımlar, dünyanın bir çox ölkələrində feministlər – Almaniyada Alisa Solomon, Fransada Mariya Qaxeri, İngiltərədə Yelizaveta Fray, ABŞ-da Ceyn Adams tərəfindən atılmışdır.

Sosial işin elmi surətdə öyrənilməsinin yüksəliş dövrü kimi XIX əsrin II yarısı XX əsrin əvvəllərini, xüsusilə də 1915-1919-cu illəri və həmin illərdə Meri Riçmondun müəlliflyi ilə çıxan “Elmi sosial iş” əsərini qeyd etmək olar. Məhz Meri Riçmond ilk dəfə olaraq, sosial işçilər tərəfindən aparılan sosial işin keyfiyyətinin qiymətləndirilməsi məqsədi ilə geniş sxemlər toplusu təklif etmiş, sosial problemlərin diaqnozlaşdırılması yollarını göstərmişdir.

Onun baxışları tibbi üsulların, eləcə də psixologiyanın biheviorist məktəbinin və Z.Freydin psixoanalizi əsasında formalaşmışdır. Sosial işin nəzəriyyəsi sahəsində Meri Riçmondun ilk kitabı “Kasıblarla dostcasına görüş: xeyriyyə təşkilatlarında işləyənlər üçün təlimat” adlanırdı. Ehtiyacı olanlara kömək və dəstək, bir subyektin digərinə qarşı nümayiş etdirdiyi dostluq aksiyası kimi nəzərdən keçirilir. Lakin təsir, təkcə ehtiyacı olan insana doğru yönəlməklə qalmayıb, həmçinin, kasıbçılıq və dilənçilik şəraitində yaşayan insanlara qarşı mənfi münasibət bəsləyən sosial mühitin dəyişdirilməsini də əhatə etməlidir.

5.2. Fərdi yanaşma ideologiyası

XX əsrin əvvəllərində kliyentin ehtiyaclarına qarşı fərdi yanaşma ideologiyası geniş yayılmağa başlayır. Bu üsul sosial işin müxtəlif sahələrində - tibbdə, əmək münasibətləri sahəsində məsləhətvermədə,

qəyyumluq və s. geniş tətbiq edilirdi. Həmin dövr üçün sosial iş praktikasında fərdi işin aşağıdakı prinsipləri formalaşmışdı:

1. İnsanın ətraf mühitə uyğunlaşa bilməməsinin səbəbləri iqtisadi və sosial faktorlarla əlaqədardır.
2. İnsanlar sosial hadisələrə, öz bioloji və intellektual ehtiyatlarından istifadə etməklə reaksiya verirlər.
3. İnsanlar sosial statuslarından asılı olmayaraq, mənlik hisslərinə malikdirlər və onların ləyaqətlərinə hörmət olunmalıdır.
4. Düzgün diaqnozun qoyulması, problemin ayrılıqda, fərdi problem kimi öyrənilməsini nəzərdə tutur. Bununla əlaqədar müştərinin həyatının müxtəlif tərəflərini – sosial, iqtisadi, ailə, intellektual, tədqiq etmək lazımdır.
5. Faktların analizi prosesində, müştəri ilə dostluq münasibətləri yaratmaq lazımdır.
6. Diaqnoz qoyulduqdan sonra sosial işçi müalicə planını hazırlayır və müştərini onunla tanış edir.
7. Qarşıya qoyulmuş məqsədlərin məğzində xeyirxahlıq və dostluq durmalıdır.

1917-ci ildə Meri Riçmondun "Sosial diaqnozlar" kitabı çapdan çıxır. Bu kitabda o, fərdi sosial işin nəzəri və metodoloji əsaslarını təsvir edir. Bu əsərdə qabaqcıl təcrübələr də nəzərə alınmaqla, fərdi işin elmi əsasları müəyyənləşdirilir. Fərdi iş praktikasına, xəstələrin müalicəsində tədqiq edilən tibbi üsulları uyğunlaşdırmaqla, Meri Riçmond müştərinin sosial və psixoloji problemlərini analiz etməyə imkan verən orjinal bir metod işləyib hazırlayır. Sosial iş nəzəriyyəsinə, yeni semantik məzmunlu tibbi terminologiya "diaqnoz", "müalicə", "kliyent" daxil edilir. Sonralar sosial işin bu modeli, fərdi işin "tibbi model"i kimi tanındı.

İctimai və şəxsi situasiyaları sosial işin aparıcı problem sahələri kimi seçib ayıran Men Riçmondun fikrincə, sosial iş – kömək göstərmək sənəti qabiliyyəti deməkdir. Sosial işçi müştərinin qarşılıqlı əlaqə prosesi isə ağılsız situasiyada dərrakədən istifadə olunması kimi xarakterizə olunmalıdır.

Onun konsepsiyasına əsasən sosial işçi tərəfindən situasiyaya müdaxilə birbaşa və ya dolayı müalicə metodları ilə baş verə bilər.

Birbaşa müalicə, bilavasitə qarşılıqlı əlaqə şəklində gerçəkləşdirilirdi. Meri Riçmonda görə, bilavasitə qarşılıqlı əlaqələr müəkkəb prosedur olmaqla özünə bunları daxil etməlidir:

- Sosial işçi ilə müştəri arasında etibarlı münasibətlərin, pozitiv duyğuların yaranması
- Müştərinin öz problemlərini həll etmək qabiliyyətinin inkiafı

Bununla əlaqədar tətbiq ediləm aparıcı texnikalar – təlqin, inandırma, diskussiyalar, həmçinin sosial işçinin şəxsi keyfiyyətləri – səmimilik, düzgünlük olmalıdır.

Dolayı təsir, yaxud müalicə metodunun məzmunu ondan ibarət idi ki, kömək müştərinin əhatəsinə göstərilir, onun mühiti dəyişdirilirdi. Sosial işçi ilə qarşılıqlı əlaqə zamanı müştəri, öz vəziyyətinin sosial özülündən asılı olanların obyektiv mənzərəsini əldə etməli, bütövlükdə cəmiyyətdə, eləcə də sosial institutlarda, onun sosial fəaliyyətinə maneçilik törədən münasibətləri araşdırmalıdır.

Bu kitabda, həmçinin, ilk dəfə olaraq fərdi müdaxilə ilə əlaqəli üsullar ümumiləşdirilmiş və müdaxilənin aşağıdakı mərhələləri qeyd edilmişdi:

- İnformasiyanın əldə edilməsi;
- Diaqnoz (sosial vəziyyətin tədqiqi);
- Proqnoz (vəziyyətin yaxşılaşdırılması perspektivləri ilə əlaqəli mülahizələr);
- Müalicə (müştəriyə köməyin göstərilməsi).

“Sosial diaqnozlar” əsərində müştəri ilə fərdi iş zamanı, mənəvi inanclar və alternativlər metodlarından uzaqlaşmalar, təsir və sosial-psixoloji qarşılıqlı əlaqələr metodlarına keçid müşahidə olunur. İlk dəfə olaraq sosial işçi ilə müştəri arasındakı qarşılıqlı əlaqə prosesi təsvir edilir. Bu proses müəyyən məntiqə tabe olaraq, müştəriyə qarşı sistemli yanaşmanı ifadə edən ardıcıl fəaliyyət, qayda kimi nəzərdən keçirilməlidir. Sonralar bu qayda, sosial iş texnologiyalarında aparıcı üsullardan birinə - fərdi iş metoduna çevriləcək. M.Riçmond tərəfindən işlənib hazırlanmış fərdi yanaşma prinsipləri Xristian ictimai birliyinin dəstəyini alır və təkcə emiqrantlarla, deviant davranışlı şəxslərlə işdə deyil, həmçinin, müxtəlif mədəni həyat tərzləri olan müştərilərlə

aparılan sosial işdə də tətbiq edilir. Bu prinsiplər həmçinin, qruplarla və icmalarla işdə də tətbiq edilməyə başlayır. M.Riçmondun nəzəri üsulları, təkcə sosial işin praktikasında deyil, eləcə də nəzəriyyəsinin təşəkkülündə mühüm rol oynamışdır. "Sosial diaqnozlar" əsəri mühüm elmi tədqiqat işi olmaqla, fərdi sosial işin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu kitabın çapından 20 il sonra Qreys Makus Meri Riçmond və onun əsəri haqqında belə söyləmişdi: "Bu çox böyük məktəb idi və o, sxolast mülahizələrin cəlbedici təsirinə duruş gətirməli, əksinə ictimai həyatın elə aspektlərinin tədqiqi ilə məşğul olurdu ki, onlar müəyyən problemlərin həllinə şərait yaradırdı. Onun işinin deduktiv metodu, öz əksini fərdiləşmə prinsipində - fərdi sosial işin nəzəriyyə və praktikasının öyrənilməsi prosesində tapdı.

5.3. Sosial işin fərdi metodlarına psixoloji biliklərin daxil olması

1921-1930-cu illər, sosial işin fərdi metodlarına psixoloji biliklərin daxil olduğu illər kimi xarakterizə olunur. Biheviorizm, freydizm kimi məktəblərlə təmsil olunan "yeni psixologiya", sosial işin nəzəriyyə və praktikasında öz əksini tapır. Bu dönəm sosial iş nəzəriyyəsində, irsilik, fərdin fizioloji inkişafı, intellektin inkişafı və geri qalması kimi fenomenlər öz interpretasiyasını tapır. Psixologiya və psxiatriya, kliyentin həyati situasiyalarının izahının əsas etibarlı mənbələri kimi çıxış edirlər.

Məsələn, Z.Freydin nəzəriyyəsi, eləcə də inkişaf psixologiyası, sosial iş nəzəriyyəsində davranış simptomlarının izahına, kömək və dəstəyin daxili proseslərinin analizinə şərait yaratdı. Öz növbəsində sosial biheviorizm də sosial işdə kliyentin sosial tarixinin öyrənilməsinə təsir göstərmişdir.

Baxmayaraq ki, "müalicə" konsepsiyası sosial işdə aparıcı rol oynayırdı, bununla belə, "müdaxilə" konsepsiyasının da ortaya çıxması, günün tələbi hesab oluna bilərdi. "Müştərinin sosial tarixi" və "müalicə" kimi üsullar, fərdi işdə üstünlük təşkil etməklə, sosial işçilərin kömək prosesindəki sosial standartlarına çevrilmişdilər. Müvafiq kömək prosesində aşağıdakı vacib interaktiv elementləri seçib ayırırlar:

- Ehtiyatlardan istifadə olunması;

- Kliyentə problemlərini anlamasında köməkçi olmaq;
- Müştəriyə öz xarici sosial proqramına işləmək qabiliyyətinin aşılanması və inkişaf etdirilməsi.

Diaqnostik üsullarda, "müalicə" konsepsiyalarında nəzərə çarpacaq dəyişikliklər baş verməyə başlayır. XX əsrin 20-ci illərində artıq praktikaya psixoanaliz elementləri daxil olmağa başladığından, M.Riçmond fərdi iş metodunu yeniləşdirir və bu da psixi prosesləri sosial problemlər kontekstində nəzərdən keçirməyə şərait yaradır. Psixoanaliz, diaqnoz haqqındakı təsəvvürləri genişləndirdi və təkcə şəxsiyyətin deyil, həmçinin, sosial işçilər üçün mühüm olan sosial dəyişikliklərin də, elmi metod əsasında öyrənilməsinə şərait yaratdı. Kliyentin mənsub olduğu ətraf mühit vahid elmi sxem və məntiq əsasında izah olunmağa başlanmışdı. 1922-ci ildən başlayaraq, M.Riçmond "Sosial fərdi işin" prinsiplərini işləyib hazırlayır və əvvəlki üsullardan başqa digər üsullar da "fərdi inkişaf", "insan münasibətlərinin tənzimlənməsi" inkişaf etdirilir. Bu üsullarda şəxsiyyət, bioloji faktorların və inkişaf faktorlarının – kliyentin digər insanlarla əlaqəli münasibətlərinin və özü haqqındakı təsəvvürlərin məcmusu kimi təsvir edilir. Fərdin həyatı digər insanlarla, mürəkkəb və ziddiyyətli münasibətlərin məcmusu kimi nəzərdən keçirilirdi və bu da insan münasibətlərinin rənarəngliyinin qarşılıqlı əlaqəsi və özünüifadə ilə əlaqədar idi. Psixoanalitik nəzəriyyələr əsasında, qarşılıqlı əlaqə modellərinin hazırlanmasından başqa, sosial işçi ilə kliyent arasındakı qarşılıqlı əlaqə prinsipləri də müəyyənləşdirildi. M.Riçmond bunu "mental gigiyena prinsipləri" adlandırdı. Sonra bu prinsiplər sosial işçilərin etik kodeksinin əsası kimi götürüləcək. Həmin prinsiplər özünə aşağıdakı müddəaları daxil edirdi:

- Kliyentə rəğbət bəsləmək;
- Üstünlüyün ona verilməsi;
- Onun tərifləmək;
- Onunla birgə fəaliyyət planlarının qurulması.

Bu dövrdə, fərdi üsulun gələcək inkişafını V.Robinsonun və C.Tattın əsərlərində müşahidə etmək olar. V.Robinson fərdi iş metodunda yeni perspektivləri qeyd edir. O, diqqət mərkəzinə müştərinin situasiyasının deyil, onun dəyərlərinin, fərdi təcrübəsinin qoyulmasını və kömək

prosesinin məhz bu dominantlar üzərində qurulmasını təklif edir. Kliyentlə sosial işçi arasındakı praktiki qarşılıqlı əlaqədə əsas diqqət kliyentin keçmişinə, uşaqlıq həyəcanlarına, vərdişlərinə və dəyərlərinə yetirilir. Kliyentlə sosial işçinin təmas prinsipləri ilə əlaqədar məsələ də çox önəmlidir, çünki müştərilərin istəklərinin anlaşılması, ona sosial işçilər tərəfindən köməyin göstərilməsi prosesində mühüm rol oynayır. Sosial işin nəzəriyyə və praktikasının inkişafında mühüm rol oynayan nəzəri istiqamətlərdən biri də sosial işin funksional modelidir. Bu istiqamətin əsas ideoloqları kimi Q.Rank V.Stafi çıxış edirdilər. Z.Freydin ideyalarından çıxış edərək, Q.Rank belə hesab edirdi ki, şəxsiyyətin inkişafı prosesində yaşanan böhranlı vəziyyətlər, onun doğuşdan aldığı zədələrin nəticəsidir (müştəri onları doğum zamanı alır). Ona görə də müxtəlif sosial şərtlərdən asılı olmayaraq sosial işçi ilə kliyentin görüşü labüddür. Bu istiqamətin nümayəndələri öz diqqətlərini daha çox kliyentə köməyin göstərilməsi üzərində cəmləşdirir, onun uşaqlıq həyəcanlarına daha az maraq göstərirlər. Bu məktəbin nümayəndələrinin fəaliyyətindəki ən önəmli məqam, daha sonra kömək prosesini müəyyənləşdirəcək sosial işçilərlə kliyent arasında qurulan münasibətlərdir.

Bu fərdi iş məktəbinin əsas anlayış aparatını formalaşdıran aparıcı anlayış proses anlayışıdır. Proses dedikdə, sosial işçilərlə kliyent arasındakı kömək prosesi nəzərdə tutulur. Pozitiv dominantların mövcudluğu şəraitində kömək prosesini qurmaq daha asan olur. Bu dominantlar sosial işin aksioması kimi çıxış edirlər.

Funksional məktəb özünün nəzəri əsaslarını diaqnoz üzərində deyil, sosial işçi ilə müştəri arasındakı qarşılıqlı münasibətlər üzərində qurur və qeyd edir ki, bu münasibətlərdə ən önəmli şey, vəziyyətin dəyişdirilməsinin forma və vasitəsi olan proses çıxış edir.

Funksional məktəb, sinxron üsul – “burada və indi” prinsipinə əsaslnır və sosial işçi ilə müştəri arasındakı qarşılıqlı münasibətlərdə, müştərinin hazırki təcrübəsi, hiss və emosional həyəcanları aktuallaşdırılır. Buradan belə bir nəticə hasil olur ki, müştəriyə təklif edilən kömək yerində olmalı və onun özü tərəfindən qəbul edilməlidir. Bu halda subyektlər arasında başqa münasibətlər yaranır, onlar tərəf müqabilinə çevrilir və situasiyanın dəyişməsi üçün bərabər məsuliyyət

daşıyırlar. Cari nəzəri istiqamət, məqsəd olaraq qarşısına kliyentə kömək texnikalarının və metodlarının yaradılmasını, onların inkişafını qoyur.

1928-ci ildə sosial işçilərin Milford konfransında kliyentlə fərdi sosial işin əsas aspektləri müəyyənləşdirildi. Bunlar aşağıdakılardan ibarətdir:

1. Sosial həyatın ümumi qəbul olunmuş normalarından tipik sapmaların, dəyişmələrin öyrənilməsi.
2. Həyati bilgilərdən və qarşılıqlı əlaqələrin qurulması normalarından istifadə olunması.
3. Çətin vəziyyətə düşmüş insanın həyatının konkret təfərrüatı ilə tanış olmaq.
4. Sosial dəstəyə ehtiyac duyan insanlara lazımi köməyin göstərilməsi və müvafiq kömək metodlarının tətbiq edilməsi.
5. Sosial müalicədə yerli icmanın vəsait və ehtiyatlarından istifadə olunması.
6. Əldə olunmuş biliklərin və toplanmış təcrübənin, fərdi üsulun tələblərinə uyğunlaşdırılaraq tətbiq edilməsi.
7. Sosial işin fərdi üsulunun məqsədlərini, etikasını və xüsusiyyətlərini müəyyənləşdirən fəlsəfi əsasların anlamı.
8. Sadalanan bütün aspektlərin vahid sosial iş sistemində birləşdirilməsi

1957-ci ildə F.Baystekin sosial işçi ilə müştərinin qarşılıqlı əlaqələrindən bəhs edən kitabı çıxır. F.Baystek sosial işçi ilə müştəri arasındakı qarşılıqlı əlaqələrin əsas prinsiplərini aşağıdakı şəkildə ifadə edir:

- Fərdiləşmə;
- Hisslərin ifadəsində aşkarlıq;
- Müştərinin emosional durumuna nəzarət;
- Birbaşa münasibətlər;
- Müstəqilliyin inkişafı;
- Məxfilik.

Helen Harris Perlmanın fikrincə, kömək prosesi 2 mühüm komponentdən ibarətdir:

1. Kömək prosesi
2. Fərdin ehtiyatları

Kliyentin probleminin həllini dar mənada, yənin onun istəkləri səviyyəsində nəzərdən keçirən müəllif, motivasiyanın yüksəldilməsi, fəaliyyət qabiliyyətlərinin genişləndirilməsini, şəxsi ehtiyatların zənginləşdirilməsini təklif edir. Onun nəzəri üsulunun məzmununda üstünlük təşkil edən anlayışlar kimi – yeni problem, proses, ehtiyatlar terminləri qeyd olunur.

Problem dedikdə, fərdin müstəqil surətdə tələbatlarını ödəyə bilməmək qabiliyyəti və onun sosial fəaliyyətinə maneçilik törədən vəziyyət başa düşülür.

Proses dedikdə, müştərinin probleminin lazımi istiqamətdə dəyişməsinə səbəb olan, təkrarlanan ardıcıl fəaliyyət modeli başa düşülür.

Proses, sosial işçi ilə kliyentin, subyekt-subyekt qarşılıqlı əlaqəsi zamanı bir sıra məqsədyönlü hərəkətlər vasitəsilə həyata keçirilir. Hərəkətlər ardıcıllığını aşağıdakı şəkildə təsvir etmək olar:

- Mənfi enerjinin buraxılması, narahatçılıq hisslərinin uzaqlaşdırılması, müsbət motivasiyanın formalaşdırılmasına kömək, dəstək;
- Emosional blokadanın yarılması;
- Problemin rasionallaşdırılması (sosial işçi müştəri ilə birgə problemin yeni anlamını, ona qarşı fərqli münasibətləri formalaşdırır və atacaqları növbəti addımları müəyyənləşdirirlər);
- Sosial işçi müştəri ilə bərabər onun problemlərini həll edir və mühitinə, rollarına uyğun olan, mümkün imkan və ehtiyatları axtarıb tapır.

Texniki baxımdan sosial işçi ilə müştərinin qarşılıqlı əlaqələri aşağıdakı əsas prosedurlardan ibarət olur:

- Kliyentin probleminin və onu törədən səbəblərin identifikasiyası;

- Kliyentin və sosial işçinin problemin düzgün anlamında əminlikləri;
- İnformasiyanın toplanması və analizi;
- Qarşılıqlı əlaqə planlarının hazırlanması, onun gerçəkləşdirilməsi və təkmilləşdirilməsi.

Cədvəldə peşəkar sosial işdə geniş yayılmış sosial iş nəzəriyyələrinin adları sadalanır.

Tarix	**Metod**	**Nəzəriyyə**	**Metodun məzmunu**	**Yaradıcısı**
1920	Fərdi iş metodu	Z.Freyd	Uşaqlıq həyəcanlarının təhlili, hadisənin diaqnostikası	M.Riçmond
1930	Funksional metod	O.Rank	İradə, dəyişmək qabiliyyəti, kömək prosesi	C.Traft
1975	Ailə terapiyası	P.Alto	Kommunikasiya və təsir	P.Vats
1950	İcma metodu	Parsons, Merton	Funksiya, disfunksiya, sosial konsensus ideologiyası, qrupların inteqrasiyası	M.Ross
1959	Problemin həlli metodu	V.Ceyms, M.Follet	Praqmatizm, motivasiya, ehtiyatlar, qabiliyyətlər	H.Perlman
1960	ortaqlıq	C.Mid	Sosial interaksionizm	V.Şulman
1965	Sosial müalicə	H.Selye, X.Parad	“Mən”in rekonstruksiyası	P.Kaplan

1970	Məqsədlərlə cəmləşmə		Qısa müddətli təsir, obyektiv kontrakt	L.Epşteyn

Əsasən sosial sahəyə meylli bir fəaliyyət növü kimi sosial iş, öz nəzəri əsaslarını sosial elmlər sahəsində - ilk növbədə sosial psixologiyada, sosial pedaqogikada və sosiologiyada axtarmağa başlamışdır.

Sosial işçinin nəzəriyyəyə müraciət etməsi məsələnin bir tərəfidir. Onun digər tərəfi onunla əlaqədardır ki, müasir şəraitdə sosiologiya bir elm sahəs kimi, sosial iş sahəsinə meylli olmaqla qalmayıb, həm də onunla sıx əlaqələr yaratmalıdır.

Əhalinin köməyə ehtiyac duyan müxtəlif sosial qruplarına köməyin göstərilməsi, sosial siyasətin gerçəkləşdirilməsi və sosial iş orqanlarının fəaliyyətlərinin optimallaşdırılması məqsədi ilə, struktur sosial işin nəzəri-metodoloji nüfuzu da artmağa başladı.

5.4. Bihevioral və koqnitiv-bihevioral prosedurların səmərəliliyi

Bihevioral və koqnitiv-bihevioral prosedurların səmərəliliyini sübut edən dəlillər çoxdur, getdikcə onların sayı artmaqdadır. Lakin bihevioral yanaşmanı dəstəkləyən müəyyən sahələr xüsusilə seçilir. Buraya uşaq və yeniyetmələrin davranış problemləri daxildir. Koqnitiv-bihevioral yanaşma depressiya ilə iş sahəsində də kifayət qədər faydalıdır: bu yanaşmanın spirtli içkidən istifadə, özünüidarə, uşaqlarla amansız davranış, iş qabiliyyətinin olmaması və s. problemlərə tətbiqinin ümidverici nəticələri mövcuddur. Sosial vərdişlər treninqi konsultant və sosial işçilərin bir sıra sahələrdə apardıqları işlərdə xüsusilə özünü doğrultmuşdur. Lakin onun uzunmüddətli faydası barədə sübutlar hələ yoxdur.

Psixoloji təmələ malik istənilən yanaşma kimi, davranış yanaşması böyük sosial problemlər – işsizlik, evsizlik, yoxsulluq, psixi pozuntular (məsələn, tibbi müdaxilənin əsas rol oynadığı şizofreniya) qarşısında

acizdir. Buna baxmayaraq, hətta bu vəziyyətdə "davranış təfəkkürü" problemləri aydınlaşdırmağa və həll variantlarını, heç olmazsa qismən də olsa, görməyə kömək edir.

Koqnitiv-bihevioral terapiyanın ümumi sxemi belədir:

Cəlbetmə (engagement) – yardım alma imkanlarına görə kliyentin gözləmələri tədqiq və müzakirə olunur.

Problem üzərində fokuslaşma (problem focus) – bir sıra problemlər içərisində kliyentin nöqteyi-nəzərincə daha əhəmiyyətli olanların ayrılması və onların prioritetlərinin müəyyən olunması.

Problemlərlə iş (problem assesment) – bir problem ayırd edilir və konkret hala görə detallarınadək nəzərdən keçirilir; konkret vəziyyətdə mümkün alternativ davranış yolları tədqiq olunur.

Koqnitiv prinsiplərin öyrədilməsi (teach coqnitive principles) – Kliyentə öz fikirlərini müəyyən tərzdə - koqnitiv bihevioral metodun terminləri çərçivəsində nəzərdən keçirməyin öyrədilməsi.

Etiraz (dispute, challenge) – bu, vəziyyət haqqında düşünməyin yeni üsullarının axtarışıdır.

Kliyentə öznəetiraz vərdişlərinin öyrədilməsi (selfdisputing), yəni onu öz fikirlərini və əqidələrini yoxlamaq istiqamətində müstəqil işləməyə həvəsləndirmə.

Ev tapşırığının seçimi və təşkili (set behavioral homework) – özünəetiraz prosesini və dəyişmə prosesindəki əngəlləri izləmək məqsədilə konsultantla görüş xaricində olan iş prosesinə kömək etmək.

Tamamlama (ending) – dəyişikliklərin gedişinə yardım məqsədilə özünüterapiya və ya özünəkömək fəndlərinin öyrədilməsi.

A.Bek yanlış əqidələrin korreksiyası metodları kimi aşağıdakı üç metodu göstərmişdir:

1. İntellektual metod – şübhəli və ya yalnış konsepsiyaların testləşdirilməsi və daha vahid konsepsiyalarla əvəz olunması.
2. Eksperimental metod – real əqidələr kimi qəbul olunan yalnış ehtimalların yoxlanması məqsədilə müəyyən təcrübənin yaşanması.

3. Davranış metodu – bacarmağın yeni strategiyalarının inkişafı, məsələn, müəyyən relaksasiya metodunun, konfliktdə davranma vərdişlərinin öyrədilməsi, desensitizasiya və s.

Bek aşağıda sadalananları mənfi və ya yalnış təfəkkür üsulları hesab edirdi:

- ❖ "Ya hər şey, ya da heç nə" təfəkkürü (vəziyyətin ya ağ, ya da yalnız qara tonda anlaşılması);
- ❖ İfrat ümumiləşdirmə (yeganə mənfi nümunə gələcək uğursuzluqlardan xəbər verir);
- ❖ "Mental fikir" (İnformasiyaların seçilməsi. Məsələn, neqativ informasiyaların yığılması, pozitiv informasiyaların kənarlaşdırılması və ya yox edilməsi);
- ❖ Avtomatik olaraq qiymətin verilməməsi (pozitiv informasiyaya inamsızlıq və onun qiymətləndirilməsi. Məsələn, tərifi qəbul edə bilməmək);
- ❖ Əqli nəticəyə meyl ("o əsəbiləşdi – deməli, ... mən pisəm... o mənə nifrət edir... o pisdir" və s.);
- ❖ Maksimalizm və ya minimizasiya (hadisələri qeyri-mütənasib görmək; həddən artıq böyütmək, şişirtmək və ya kiçiltmək);
- ❖ Emosional xırdaçılıq (faktdan məntiqi nəticə çıxarmaq. Məsələn, pis əhvala görə);
- ❖ Labüdlük (təfəkkürdə, dildə və ya əqidələrdə, özünə, başqalarına, dünyaya istiqamətləndirilmiş "etməli" imperativinin mövcudluğu. Konsultasiya praktikası müəyyən etdi ki, bu motivasiyaya səbəb olmur, əksinə, qəzəb və ya günah hissini yaradır);
- ❖ Yarlıkların yapışdırılması və qoparılması (Məsələn, "bu insanlar bunu, bunu etdilər - əvəzinə "bu insanlar belədirlər").
- ❖ Personalizasiya (Məsələn, "nə baş versə də bu sizin öz səhvinizdir").

A.Ellis A.Bekin modelinə çox yaxın olan irrasional təfəkkür modeli təqdim edir:

- ❖ İrrasional əqidələr təbiətcə mütləqdirlər və “etməliyəm”, “lazımdır”, “borcludur” formasında təzahür edirlər;
- ❖ Onlar məqsədin qoyuluşuna və əldə olunmasına mane olan mənfi emosiyalara səbəb olurlar;
- ❖ Qeyri-produktiv davranış formalarına gətirib çıxarırlar;

İrrasional təfəkkürün nəticəsi olaraq insanın özünə və dünyaya münasibətlərində aşağıdakı xüsusiyyətlər yaranır:

- ❖ Dramatikləşdirmə, “faciələşdirmə”.
- ❖ Frustrasiyanı pis yaşamaq, nəticədə insan daim özünü bədbəxt hiss edir.
- ❖ Özünü və başqalarını etməli olduqları etmədiklərinə görə ittiham etmək, həyatı isə insanın istədiklərini vermədiyinə görə qınamaq.
- ❖ İfrat generalizasiya, ümumiləşdirmə, yəni xüsusi hadisələri ümumi proseslərə şamil etmək, xüsusi ilə ümumini qarışdırmaq.

Vacibliklərin nəticəsində A.Ellisə görə təfəkkürdə aşağıdakı təhriflər inkişaf edir:

- ✓ Ya hər şey, ya da heç nə.
- ✓ Nəticə çıxarmağa meyl və neqativ qeyri-ardıcıllıq
- ✓ Gümanlar (təxminlər)
- ✓ Mənfi hisslər üzərində mərkəzləşmə
- ✓ Müsbət hisslərin rədd edilməsi
- ✓ Həmişə və heç vaxt
- ✓ Alçaltma
- ✓ Emosional izah
- ✓ Damğaların yapışdırılması və ifrat ümumiləşdirmə
- ✓ Personalizasiya
- ✓ Cəzanın gözlənilməsi
- ✓ Nöqsansızlıq

Koqnitiv və bihevioral psixoterapiyada tez-tez yunan filosfu Epiktetə məxsus deyim sitat gətirilir: “İnsanların ovqatını təlx edən şeylər deyil, bu şeylər haqda onların düşündükləridir”.

Bütünlükdə bihevioral psixoterapiyanın proses kimi fərqləndirici xarakteristikaları aşağıdakılardır:

- ❖ Psixoterapiyanın bu növü insanlara, həyait situasiyalara özləri istədikləri kimi reaksiya verməyə qabil olmağa kömək edir;
- ❖ O, pasientin şəxsiyyətinin emosional sferasının dəyişməsi məqsədini qoymur;
- ❖ O, pozitiv münasibətlərin psixoterapiya prosesində vacibliyini nəzərə alır, lakin bunu psixoterapiyanın faydalılığı üçün yeganə şərt hesab etmir;
- ❖ Pasientin şikayət və simptomları onun gizli daxili problem və konfliktlərinin təmsilçiləri kimi deyil, reallıq və psixoterapiyanın obyekti kimi qəbul olunur;
- ❖ Psixoterapiyanın konkret məqsədləri və bu məqsədlərə çatmaq meyarları barədə yekdil rəyə gəldikdə, psixoterapevtik bağlılıq prinsiplərinə əməl olunur: psixoterapevt və pasient (biz necə bilərik ki, dəyişiklik baş verib?).

5.5. Sosial işdə koqnitiv yanaşma

Koqnitiv qiymətləndirmə terapiyası bir neçə il bundan öncə şəxsiyyətin dəyişməsinə inteqrativ yanaşma kimi inkişaf etmişdir. Bu yanaşma affektləri, davranışı və idrakı qarşılıqlı asılı və qarşılıqlı təsirdə olan psixoloji komponentlər kimi nəzərdən keçirir və hesab edir ki, oyanma mənbəyi insan tərəfindən psixoloji təhlükəsizlik axtarışını təşkil edir. İnsan bu təhlükəsizliyi müəyyən adəti təcrübənin təkrarı vasitəsilə əldə etməyə çalışır.

“Terapevtik koqnitiv qiymətləndirmə” (TKQ) adı kliyentdə idrak qabiliyyəti kimi qiymətləndirmənin inkişaf etdirilməsini psixoterapevtik müdaxilənin məqsədi faktı olduğunu göstərmək üçün qəbul olunmuşdur. Getdikcə daha çox aydın olur ki, insanlar çox nadir hallarda özlərinin bəzi daha əhəmiyyətli qiymətlərin dərk edirlər.

Psixoterapiyanın əksər formaları kimi TKQ 1980-ci illərdə narahatlıq və depressiya kimi halətlərin müalicəsində istifadə olunurdu.

Bəzi kliyentlərin psixoloji vəziyyəti yaxşılaşmırdı və ya bu proses uzun sürmürdü, yaxud da kliyentlər bu metodun müəllifləri ilə terapevtlərlə yaxşılaşma baş verəndən sonra da işləməkdə davam edirdilər.

TKQ-nin əsas müddəaları.

Terapevtik koqnitiv qiymətləndirmə öz başlanğıcını sistemin elementlərinin qarşılıqlı əlaqəsini nəzərdə tutan ümumi sistem nəzəriyyəsindən götürür. TKQ-nin komponentlərini psixi proseslər, affekt, davranış və idrak təşkil edir. "Affekt" termini, əsasən subyektiv emosional hisslərə və duyğulara şamil olunur.

Tədqiqatlar göstərdi ki, əqidələrin dəyişməsi yeni emosional reaksiyalara gətirir. Bu, "qorxmuş heyvanın" emosiyaları adlana bilər: heyvan təqdim olunan stimulu təhlükəli kimi qiymətləndirərək ona qorxu və qaçışla cavab verir. D.Vekslerin modelində bu emosional epizod aşağıdakı addımlardan ibarətdir:

1. Stimul;
2. Stimulun bilinməsi;
3. Müşahidə olunan stimulun gizli təsviri;
4. Təqdim olunan stimul barədə nəticəyə gəlmə;
5. Qiymət;
6. Qiymətlə müəyyən olunan emosional reaksiya;
7. Necə reaksiya vermək barədə qərar və davranış reaksiyası;
8. Davranış reaksiyasına nəzərən əks əlaqə (möhkəmləndirmə).

Heyvanlardan fərqli olaraq insanlar xarici stimullardan əlavə, daxili stimullara, həmçinin öz hiss və fikirlərinə də reaksiya verirlər.

TKQ-də nəticə və qiymətlər şəxsi həyat qaydalarına əsaslanır. Bu, təbii və sosial dünyada mövcud olan qarşılıqlı asılı və səbəb-nəticə münasibətlərinin, eləcə də, əxlaqi prinsiplərin və sosial dəyərlərin fərdi versiyalarıdır.

İnsanlar adət olunmuş emosiyalara malikdirlər, yəni onlar bəzi emosional hisslərə alışmışlar. Adəti emosiyaları qoruyub saxlamaq üçün onlar danışdıqlarını və etdiklərini öz hissləri ilə uzlaşdırmalıdırlar. Adəti emosiyalar onları saxlayan və bərpa edən davranış və idrakdan

asılıdırlar. İnsanlar bəzi hisslərə adət etməklə kifayətlənmirlər, onlar yenidən bu hissləri yaşamalıdırlar ki, psixoloji təhlükəsizlik duysunlar.

İnsanlar özlərini tanış mühitdə yaxın adamlarla daha rahat və təhlükəsiz hiss edirlər. Adət olunmuş dost münasibətlərinin çoxluğu darıxdırıcı, yeniliklərin çoxluğu isə təhlükəli ola bilər. TKQ-yə görə hər bir insanın dərkolunmaz həyat qaydaları vardır və bu qaydalar insanın nə hiss etməsini müəyyən edirlər.

Şəxsi-tipik affektlər mənfi olduqda (məsələn, narahatlıq, qəzəb) insanları bu mənfi hisslər "istehsal edən" təcrübəni axtarmağa təhrik edirlər. Başqa sözlə, insan neqativ, lakin adəti affektlərsiz "acından ölür" və onları hər yerdə arayır. Eyni zamanda o, "özünü yaxşı hiss etmək yaxşıdır" mədəni normanı şüurlu olaraq qəbul edir. İnsanın şüurlu istəyi ilə dərk olunmayan istəyi arasındakı bu uyğunsuzluq onu çaşdırır və yardım axtarışına sövq edir.

İnsan təbiəti haqqında əksər psixoloji müddəaların təməlində gedonizm prinsipi durur. Bu prinsipə görə bütün canlı varlıqlar, o cümlədən insanlar həzz, ləzzət arzulayır, ağrıdan, əzabdan isə qaçırlar. Mənfi şəxsi-tipik affektə olan tələbat isə, bu prinsipə münasibətdə istisna haldır.

Şəxsi-tipik affektlərə xidmət edən davranış reaksiyaları *təhlükəsizliyin axtarışı davranışı* adlanır. Adətən bu davranış, şəxsiyyətlərarası qarşılıqlı münasibətlərdə başqalarının qabaqcadan müəyyən oluna bilən reaksiyalarına səbəb olur, həmin reaksiyalar isə subyektdə qabaqcadan müəyyən oluna bilən hissləri stimullaşdırır.

Koqnitiv-bihevioral terapiyanın adi planı bəzi davranış reaksiyalarının və idraki qabiliyyətlərin dəyişdirmə məqsədi kimi müəyyən olunmasından ibarətdir. Bu məqsədlərin istiqaməti məntiqi əsaslandırılmışdır. Kliyentə verilən ev tapşırıqları davranışın yeni formalarının möhkəmləndirilməsinə istiqamətlənir və ona bəraətqazandırıcı idraki qabiliyyətlərin əsassız olduğu göstərilir.

TKQ-nin taktikasında başlıca məqam kliyent tərəfindən emosional, davranış və idraki patternlərin anlaşılmasıdır. Öz şəxsi xüsusiyyətlərini anlayan kliyent istənilən dəyişikliyə hazır olur, çünki o öz daxili qüvvə və cəhdləri ilə şüurlu olaraq işləyə bilir. Kliyentə dəyişikliklərə qarşı

işləyənKadəti hisslər barədə xəbərdarlıq edilə bilər. Kliyentlər dəyişikliyi şüurlu şəkildə arzuladıqlarını anlayarkən və psixoloji təhlükəni hiss etməyə hazır olarkən, həm də daxili ixtilaf və diskomfortun müəyyən zəruri səviyyəsinə də hazırlıq halına gəlirlər. Yalnız bu zaman onlar öz emosiyaları ilə işləyə bilərlər.

Utanc, şəxsi ləyaqət hissinə zidd olan özünəmərhəmət TKQ-də xüsusi diqqət yetirilən əhəmiyyətli hisslərdir. Utanc çox pis olduğundan gizli saxlanılan şəxsi naqislik və qüsurların hiss olunmasıdır. Utanc şəxsi-tipik affekt kimi çıxış etdiyi təqdirdə o, təhqirlərdən qaçmaq kimi deyil, onlara can atmaq kimi nəzərdən keçiriləcək. Baxmayaraq ki, bu hal heç bir rasional məna daşımır. Nə üçün insan utanc hissini yaşamağa can atır? Çünki, bu təhlükəsizlik hissini yaradan adəti emosional halətdir.

Özünəmərhəmət hissi kiminsə özünü ədalətsizliyin, biganəliyin qurbanı kimi duymasını nəzərdə tutur. Bu hiss özünütəkmilləşdirmə təşəbbüsünə şəxsi-tipik affekt olaraq təzahür etdiyi təqdirdə, insan üçün təhlükəsizliyin axtarışı davranışı xarakterik olur.

Həm utanc, həm də özünəmərhəmət hissi qəzəbdə təzahür edir. qəzəbə bu hisslər səbəb olduğu təqdirdə, onun hədəfi həmin insanı təqib edən və utandıranlar, yaxud ona yardım etməkdən imtina edənlər olurlar. Hər dəfə utanc və özünəmərhəmət hissi yaranan zaman meydana gələn zəiflik duyğusu halında fərdin qəzəbi boş, nəticəsiz, qisas qorxusu isə onun hədəfə birbaşa yönəlməsinə əngəl olur.

İnsanlar düzgün saydıqları kimi hərəkət etdikdə özlərinə hörmət edirlər. Bunun üçün isə həmin anda nəyin düz, nəyin yalnış olduğunu anlamalıdırlar. Şəxsi ləyaqət hissi bu zaman insanın nəzarətində olur və özünqiymətləndirməyə başqaları deyil, fərdin özü hakim olur. Sizin özünüzü qiymətləndirməniz başqalarının razılığını almaq yox, əxlaqi seçim məsələsidir. Bununla belə, özünə hörmət edən şəxs başqalarından öz şəxsiyyətinə hörmətlə yanaşmağı tələb edir.

Koqnitiv yanaşmanın son modeli olan qısamüddətli inteqrativ konsultasiya (QİK) psixoterapevtik müdaxiləyə olan tələbatı ödəmək üçün yaradılmışdır. Burada məsləhətçi kliyentin gündəlik həyatında ona maneçilik törədən fərdi xüsusiyyətlərini qısa müddətdə qiymətləndirir.

Kliyentin başqaları ilə münasibətlərindəki çətinliklərinin özünüdağıdıcı davranışının təsvirini dinləmək, adətən, məsləhətçi üçün kifayət edir. Sonra məsləhətçi əks əlaqə yaradır, öz təəssüratlarını bölüşür və kliyentə problemin nədən ibarət olduğunu göstərir. Burada məqsəd az müddətdə özünü tez anlamağa nail olmaqdır. Sonra konsultant və kliyent birlikdə kliyentin fərdi xüsusiyyətlərini nəzərə alaraq, disfunksional tendenisyaların aradan qaldırılması istiqamətində iş planı hazırlayırlar.

Koqnitivizmdə göstərilən yanaşmaya zidd tendensiya A.Bandura və A.Bekin işlərindı özünü büruzə verdi. Bu tendensiya "daxili faktorlara" daha sıx diqqət yetirilməsi və alternativ yanaşmalara dözümlü münasibəti ilə seçilir.

Multimodal diaqnostika şəxsiyyətin aşağıdakı sferalarının qiymətləndirilməsini nəzərdə tutur (ixtisarla BASİC İD):

- B(ehaviour)=davranış;
- A(ffect)=emosiyalar:;
- S(ensation)=duyğular;
- İ(magery)=təxəyyül;
- C(ognition)=təfəkkür;
- İ(nterpersonal relationships)=şəxsiyyətlərarası münasibətlər;
- D(rugs/biology)=dərmanlar/biologiya

Beləliklə, BASİC İD sadalanan modallıqların adları abbreviaturasıdır.

Ehtimal olunur ki, BASİC İD insanın temperament və şəxsiyyətini də əhatə edir və onu qəzəbdən, dilxorluqdan, tamahkarlıqdan, qorxudan, dərddən, ehtiramdan, nifrətdən və darıxmadan tutmuş, ümidə, inama, optimizmə və sevincədək hər bir şeyi insanın BASİC İD-i çərçivəsindəki komponentləri və onlar arasındakı qarşılıqlı təsiri nəzərdən keçirməklə izah etmək olar. Xarici faktorların psixoterapevtik müalicənin və psixoloji yardımın predmeti olmamasına rəğmən bu yanaşmanın tərəfdarları hesab edirlər ki, "psixopatologiya və cəmiyyət qırılmaz şəkildə əlaqədardırlar". Bu yanaşmanın əsasən, bihevioral, rasional-emotiv və koqnitiv terapiyadan törəməsinə baxmayaraq, yalnız MMT üçün xarakterik olan altı xüsusiyyəti mövcuddur:

1. BASİC İD-nin bütün modallıqlarına ayrılan spesifik və hərtərəfli diqqət;
2. BASİC İD diaqnostikasından ikinci qaydada istifadə;
3. Modal profillərdən istifadə;
4. Struktur profillərdən istifadə;
5. Prosedurların düşünülmüş birliyi;
6. Müəyyən modallığın işəsalma mexanizminin izlənilməs terapiyanın forması, üslubu, ritmi kliyentin üzə çıxarılmış tələbatlarına mümkün qədər uyğunlaşdırılır.

Bəzi kliyentlərə sakit, passiv, refleksiv, dinləyə bilənlər uyğun gəlir; başqaları aktiv, direktiv və açıq terapevtlərlə işləmək istəyirlər. Bəzilərinə isə müxtəlif vaxtlarda fərqli terapevtik üslublar lazım olur.

MM terapevt iki əsas prosedurdan istifadə edir: qoşulma və izləmə.

Qoşulma.

Bu prosedurda terapevt kliyentinin üstün tutulan modallığında işləyərək onu daha məhsuldar miqyasadək genişləndirir. Məsələn, kliyentə onun müəyyən xüsusiyyətini açıqcasına işarə etməkdənsə (məsələn, intellektual maneələr yaratmaqla öz hisslərini boğmaq) MM terapevtlərin fikrincə, əvvəlcə kliyentin "ərazisinə" daxil olmaq daha yaxşıdır. Yalnız bundan sonra onu başqa, potensial daha əhəmiyyətli sahələrə ehtiyatlı şəkildə yönəltmək olar.

İzləmə.

Bu fərqli modallıqların işəsalma mexanizminin müfəssəl tədqiqidir. Məsələn, bəzi kliyentlər duyğular üzərində təfsilatı ilə dayanaraq, mənfi emosiyalar törətməyə meyllidirlər.

Psixoterapiyada bir çox yanaşmalar ümumi cəhətlərə malikdir. əlaqə və terapevtik münasibətlər, adətən, psixoterapiyanın gedişində inkişaf edir və əksər sistemlər qarşılıqlı hörmət və diqqət mövqeyindən çıxış məqsədilə birbaşa və ya dolayı şəkildə yol göstərməklə yardımçı kimi işləyirlər.

Bütünlüklə, bihevioral psixoterapiyanın Skinnerin nəzəriyyəsindən başlayaraq, Bandura, Bek, Ellis, Lazarus və başqalarının da modelləri

daxil olmaqla, hər bir növü üçün ümumi olan xarakteristikalar mövcuddur:

- Məqsəd – insanın həyati situasiyalara arzu etdiyi şəkildə reaksiya vermək qabiliyyətinin formalaşmasında ona yardım etməkdir;
- Pozitiv terapevtik münasibətlər psixoterapiya prosesində vacib, lakin effektiv psixoterapiya üçün yeganə olmayan şərtdir;
- Ehtimal olunur ki, əksər problemlər natamam və ya yalnış sosial öyrənmə proseslərindən doğur;
- Terapevt-kliyent münasibətləri "həkim-müalicə olunan pasiyent" münasibətlərindən çox "trener-treninqə məruz qalan" münasibətləridir.
- Öyrənmənin terapevtik prosesdən gündəlik həyata köçürülməsi prosesi (generalizasiya) avtomatik deyil, tapşırıqların (o cümlədən ev tapşırıqlarının) qanunauyğun ardıcıllıqla yerinə yetirilməsi vasitəsilə həyata keçirilən məqsədyönlü prosesdir;
- Terapevtlər müəyyən olunmuş diaqnostik kateqoriyalar, əlamətlər, qlobal təsvirlər dilindən imtina edərək, davranış və əməli təsvirlərdən istifadə edirlər;
- Pasiyentin şikayət və simptomları onun gizli problemlərinin və daxili konfliktlərinin reprezentatorları deyil, reallıq və psixoterapiyanın obyekti kimi qəbul olunur;
- "psixoterapevtik saziş"in prinsipinə əməl olunur: psixoterapevt və pasiyent işin başlanğıc mərhələsində psixoterapiyanın konkret məqsədləri və məqsədin əldə olunmasının obyektiv (davranış) meyarları barədə yekdil rəyə gəlirlər.

Beləliklə, koqnitiv-bihevioral oriyentasiyalı sosial işin (cognitive-behavioral social work) formalaşmasına təsir edən başlıca koqnitiv-bihevioral ideya və dəyərlər aşağıdakılardır:

- İnsan davranışının rasionallığı-irrasionallığı;
- Davranışı idarə etmək imkanı;

- Davranışın daxili və xarici faktorlarının qarşılıqlı determinizmi prinsipi;
- Davranışın özünənəzarət, özünütənzim, özünümöhkəmləndirmə, özünüqiymətləndirmə, özünüdərketmə imkanı və bunların vacibliyi;
- Davranışın özünün səmərəliliyi;
- Gələcək davranışı proqnozlaşdırmaq imkanı;
- "Psixi sağlamlıq", konstruktiv alternativizm, yeni təcrübənin inkorporasiyasına hazırlıq, özünə maraq, ictimai maraq, frustrasiyaya davamlılıq, çeviklik, qeyri-müəyyənliyin qəbulu, yaradıcı planlara istiqamətlənmə, rasional realist, "elmi" təfəkkür, özünü qəbuletmə, öz emosional təzahürlərinə görə məsuliyyət daşımaq.

Mövzu 6. Sosial işdə nəzəri və təcrübi metodlardan istifadə

6.1. Sosial iş metodlarının müxtəlifliyi

6.2. Qruplarla sosial iş metodu

6.3. Bioqrafik və təşkilati metodlar

6.4. Psixoloji və sosial-iqtisadi metodlar

6.5. Operant və sosial öyrənmə nəzəriyyələrinə əsaslanan metodlar

6.1. Sosial iş metodlarının müxtəlifliyi

Min illərdir ki, sosial işin qarşısında duran əsas vəzifə kliyentin sosial problemlərinin həlli üçün mütəxəssislərin istifadə etdiyi fəaliyyətin forma, metod və üsullarının mövcudluğunu və gələcək inkişafını təmin etmək, arzuolunmaz həyat şəraitini dəyişdirmək üçün onların qüvvələrinin fəallaşdırılmasını stimullaşdırılmaqdır. Bununla yanaşı, gələcək sosial iş metodlarının işlənib hazırlanması mütəxəssislər tərəfindən həm cəmiyyət çərçivəsində, həm də kiçik qrup səviyyəsində elmi-tədqiqat axtarışlarının labüdlüyünü də şərtləndirir. Xüsusilə qeyd etməliyik ki, bu fəaliyyətin inkişafı təkcə praktik iş prosesində deyil, eyni zamanda ünvanlı, kompleks və vaxtında kömək prosesində reallaşır.

Peşəkar sosial iş metodları müxtəlifdir. Onlar aşağıdakı parametrlərə əsasən təsnif olunur:

Sosial işin forması və istiqamətinə görə (təşkilati, sosial-psixoloji, sosial-pedaqoji, sosial-tibbi, sosial-ekoloji və s.) təsnifi.

- Sosial işin obyektinə görə (fərdi, qrup, icma);
- Sosial iş subyektinə görə (xüsusi mütəxəssis tərəfindən tətbiq olunmuş, kollektiv sosial xidmət, sosial işdə idarə orqanları).

Bununla yanaşı, sosial işin obyektinə görə bir qədər geniş yayılmış təsnifatı da vardır:

-Fərdi iş (sosial işçi-kliyent);

-Qrupla iş (ailə qrupunda və ailə vasitəsilə);

-İcmada iş (mikrososial mühitdə iş).

Metodların təsnifatı, bir tərəfdən, onların ümumi planda istifadəsinə (sosial işin nəzəri problemlərinin tətbiqinin metodoloji cəhətdən əsaslandırılması kimi), digər tərəfdən, sosial işin öz metodlarının meydana çıxmasına imkan verir. Məlum olduğu kimi, təsnifat üçün bir sıra müxtəlif əsaslar mövcuddur: informasiyaların toplanması, onların işlənməsi, empirik tədqiqatlar, nəzəri modelləşdirmə.

Sosial işin obyektə əsasən təsnif olunmuş metodlarının təsnifi.

Fərdi iş metodu – bu metod özündə yeni sosial mühitə adaptasiya prosesində subyektə birbaşa fərdi qarşılıqlı təsiri, köməyi əks etdirir. İş prosesində sosial işçinin vəzifələri aşağıdakılardır:

- ❖ Kliyentin sosial xidmətlərə tələbatını müəyyən etmək və ilkin əlaqə yaratmaq;
- ❖ Problemi öyrənmək və aydınlaşdırmaq;
- ❖ Sosial köməyin zəruriliyini motivə çevirmək;
- ❖ Problemi konseptuallaşdırmaq;
- ❖ Nəzərdə tutulan həlli müəyyən etmək və araşdırmaq;
- ❖ Strateji istiqaməti seçmək;
- ❖ Problemin həllini reallaşdırmaq.

6.2. Qruplarla sosial iş metodu

Qruplarla sosial iş metodu bütövlükdə kliyentlər qrupu (ailə) ilə, həmçinin qrupda ayrılıqda hər bir üzvlə işi nəzərdə tutur. Bu halda, insan fəaliyyətinin müxtəlif sahələri öyrənilir ki, yaranan problemlərin və çətinliklərin daha səmərəli həllinə kömək edilsin. Qrupla iş oxşar problemli çətinliklərin daha səmərəli həllinə kömək edilsin. Qrupla sosial işlə bağlı bir neçə nəzəriyyə mövcuddur:

- ❖ Sahə nəzəriyyəsi qrupa müəyyən məqsədləri və qrupdaxili vəziyyətdən asılı olaraq dəyişən maraqları olan fərdlər toplusu kimi baxır.
- ❖ Sosial mübadilə nəzəriyyəsi qrup kontekstində biheviorizmin bir neçə ideyalarından istifadəni irəli sürür.

- Sosial sistem nəzəriyyəsi kiçik qruplarda sosial sistemin öyrənilməsini, onların daxili ənənələrinin möhkəmləndirilməsini və sistemin öz əhatəsinə uyğunlaşdırılmasını təklif edir. Sosial işdə qrup metodları kimi sosiologiyadan götürülən bir sıra metodlardan da istifadə edilir.
- Anket sorğusu bioqrafik məlumatların, rəylərin, sosial quruluşların, sərvət meyllərinin, şəxsi keyfiyyətlərin üzə çıxarılması üçün istifadə olunur. Anket özündə problemin əsas mahiyyəti ilə məntiqi surətdə bağlı olan suallar toplusunu birləşdirir.
- Sosiometriiya – qrupda şəxsiyyətlərarası emosional münasibətləri qiymətləndirmək, qrup fəallığının yalnız zahiri emosional qatını təhlil etməyə imkan verən testdir. Sosiometrik prosedur nəticəsində sosiometrik matrisa (cədvəl), qrupda şəxsiyyətlərarası münasibətləri göstərməyə imkan verən sosioqram tərtib edilir, qrup birliyinin sosiometrik əmsalı hesablanır.
- Referentometriya – qrup üzvlərinin referentliyini (əhəmiyyətliliyini), həmçinin qrupda şəxsiyyətlərarası seçim motivini göstərmək üçün istifadə edilir.
- Kommunikometriya – şəxsiyyətlərarası münasibətlər sisemində qrup iştirakçılarının hər birinin yerini müəyyən edir. Xüsusi qrup metodlar da vardır ki, onlar nəinki sosial psixoloji hadisələrin tədqiqi, diaqnozu və modelləşdirilməsini, həmçinin onların optimallaşdırılmasını və inkişafını təmin edir.
- İşgüzar oyunlar – peşəkar fəaliyyətin maddi və sosial məzmununu canlandırır, yaxud bu və ya digər praktik fəaliyyət üçün xarakterik olan münasibətlər sistemini modelləşdirir.
- Sosial davranışın modifikasiyası insanın qeyri-adi mühitə adaptasiyasına imkan verən yeni həyat vərdişləri və bacarıqlarını tərtib edir.

- ❖ Sosial-psixoloji treninq – qrupda ünsiyyətliliyi inkişaf etdirmək məqsədilə tətbiq edilən fəal psixoloji iş metodlarıdır.

Qrup işi o zaman səmərəli olur ki, həyat mövqelərinə, ideologiyalarına, mədəniyyət və təhsilə, cins, yaş, sağlamlıq və sosial vəziyyətə, əmək vərdişlərinə, mədəni xidmət maraqlarına, fərdi-psixoloji xarakterə aid çətin problemləri və məsələləri olan insanların könüllü surətdə birləşdiyi qrupda həyata keçirilir.

Qrupla sosial iş sosial vəzifə və həyat situasiyalarına və fərdin məkanına istiqamətlənir. O, qrupun köməyi ilə şəxsi problemləri həlletmə bacarığının genişlənməsini təklif edir.

İcmada sosial iş (mikro-sosial mühitdə sosial iş) – bir ərazidə yaşayan və ümumi problemləri olan fərdlərə, qruplara, kollektivlərə peşəkar köməyi nəzərdə tutur. Bu zaman aşağıdakı əsas metodlardan istifadə edilir:

- ❖ Sosial diaqnostika
- ❖ Sosial proqnoz
- ❖ Mikrososial mühitin sosial planlaşdırılması
- ❖ Sosial terapevtik iş
- ❖ Ərazi özünüidarə sisteminin inkişafı
- ❖ Mikrososial mühitdə xeyirxah aksiyalar
- ❖ İcmada praktik iş

İcmada sosial işdə başlıca məqsəd regional mütəxəssislərin fəaliyyəti üçün təşkilat bazası və kooperasiya yaradılmasına, həmçinin əhalinin müxtəlif qruplarının fəallaşmasına nail olmaqdır.

6.3. Bioqrafik və təşkilati metodlar

Bioqrafik metod (şəxsi sənədlərin öyrənilməsi metodu) – ictimai həyatın subyektiv tərəflərinin tədqiqinə imkan verir. Kliyentlə fərdi iş prosesində sosial işçi onun hüquqlarını nəzərə almalıdır. Bioqrafik metodun müxtəlif formaları vardır: müsahibə, qohumların şəhadətnaməsi, müxtəlif səpkili məktublar, foroşəkillər, avtobioqrafik fraqmentlər, öz həyatı haqda hekayət və s.

Fransız tədqiqatçıları olan D.Berto və İ.Berto vyam yeni instrumentari olaraq biblioqrafik metoddan "Ailə tarixi" metodu kimi istifadı etməyi təklif edirdi. Ailə tarixinin öyrənilməsi insanın həyat qüvvəsinin reallaşmasına təsir edən daxili faktorları anlamağa imkan verir. "Ailə tarixi" metodu sosiallaşma prosesinin istənilən komponentinin translyasiyası mexanizmlərini ayırmağa kömək edir.

Təşkilati metodlar – sosial iş sahəsində təşkilat tapşırıqların həlli üçün istifadə olunan fəaliyyət, üsul və vasitələrin istifadəsi baxımından tətbiq edilir və aşağıdakı bölmələrə ayrılır:

- Təşkilati nizam
- Təşkilati koordinasiya
- Təşkilati təlimat
- Təşkilati-texniki

Onlar son nəticədə sosial xidmətin, sosial müdafiə orqanlarının, idarəetmənin müxtəlif səviyyələrinin məsuliyyətini, vəzifə səlahiyyətini, hüquqlarını möhkəmləndirir.

Pedaqoji metodlar – sosiallaşma prosesində insana ayrıca bir fərd və sosium üzvü kimi sosial yardım göstərilməsinə istiqamətlənib. Bu metodlar əsasən üç qrupa bölünür:

1. Şəxsiyyətin şüurunun formalaşması metodları (anlayışlar, mühakimə, inam, qiymət);
2. İdraki və praktik fəaaliyyətin, davranışın təşkilati metodları (tapşırıq, məşğələ, xüsusi tərbiyəvi şərait yaratmaq);
3. Fərdin davranış və fəaliyyətinin stimullaşdırılması metodu (qiymət, mükafat, tənqid).

6.4. Psixoloji və sosial-iqtisadi metodlar

Sosial-psixoloji metodlar: bu metodlar kompleksi şərti olaraq bir neçə qrupa bölünür:

1. Psixoloji tədqiqatlar metodu:
   a) Müşahidə-psixi hadisələrin müəyyən şəraitdə mənasını, spesifik dəyişikliklərini öyrənmək məqsədi ilə onların

sistematik və məqsədəuyğun qavranılmasıdır. Müşahidənin səmərəliliyi, dəqqliyi tapşırıqların qoyuluşundan, müşahidəçinin təcrübəsindən, peşəkarlığından asılıdır.

b) Eksperiment-sosial şəraitdə fəal iştirak edərək öyrənilən obyektin vəziyyət və davranışındakı dəyişikliklərin tədqiqatçı tərəfindən qeyd olunmasıdır. Öyrənilən sahə məlum olmadıqda və ya pis öyrənildikdə, yaxud fərziyyə sistemi mövcud olmadıqda, eksperimentin müxtəlif formaları tətbiq edilir;
   - ❖ Laborator eksperiment-yüksək dəqiqlik və etibarlılığı təmin edən və buna nəzarət edə biləcək xüsusi təchizat sisteminə malik yerdə aparılır.
   - ❖ Təbii eksperiment-gündəlik təbii həyat şəraiti çərçivəsində insanın davranış və şəxsi xüsusiyyətlərini birbaşa öyrənmək vasitəsilə fərziyyənin yoxlanılmasıdır.
   - ❖ Formalaşdırıcı eksperiment-bu metod psixi prosesləri tənzimlənməsinə, şəxsiyyətin xüsusiyyətlərinə və davranışlarına təsir edilməsinə, eyni zamanda elmi fərziyyələrin yoxlanılmasına imkan verən təsir metodları ilə tədqiqat metodlarının birləşməsidir.

2. Diaqnostik metodlar-şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərini aşkar etmək, dəyişdirmək məqsədilə aparılır. Bu sahədə geniş yayılmış metod testləşdirmədir.
3. Psixogenetik metodlar-insanın fərdi-psixoloji xüussiyyətlərinin yaranmasında və onun formalaşmasında genotipin və ətraf mühitin rolunu əsas götürür. Bu sahədə bir qədər məlumatverici metod – "əkizlər metodu"dur. Bu metod mühitin şəxsiyyətə təsirini maksimal hesablamağa imkan verir.
4. Longitiudal metodlar-insanın həyat tsikli fazasında fərdi və yaş dəyişikliklərinin həmcini müəyyən etməyə kömək edir.
5. Həyat yolunun tədqiqi metodları-insanın doğumdan ölümünə qədər fərdi inkişafını öyrənir. Həyat yolu böhranlı dövrləri də əhatə edir. Bu metod diqqəti məhz həmin böhranlı dövrlərə yönəldir.

6. Psixoloji kömək metodu-insanın psixoloji bacarığını yüksəltmək metodu olub, psixoloji qayğıya ehtiyacı olan insana qarşıda duran problem və çətinlikləri aradan qaldırmaqda kömək edir. Bu metod özündə aşağıdakıları birləşdirir:
   a) Psixoloji korreksiya və reabilitasiya metodu – bu metodun məqsədi insana kəskin və ya xroniki psixi travma zamanı, psixosomatik, psixonevrotik xəstəlik hallarında kömək etməkdir;
   b) Psixogen və psixoprofilaktik metodlar – bu metod isə praktik olaraq sağlam insana psixosomatik xəstəliklərin qarşısını öncədən almaq üçün psixoloji yardım məqsədi ilə aparılır.
7. Polifunksional metodlar-bu qismə daxil olan metodlar sosial işin məqsəd və vəzifələrindən asılı olaraq, işin forma və məzmununu dəyişdirməyi zəruri edir. Bunlara şərti olaraq aşağıdakıları daxil etmək olar:
   a) Söhbətlər (müsahibə)-şəxsiyyət, onun əlaqələri haqqında informasiya almaq metodu, psixoloji diaqnostika, tədqiqat və həmçinin psixoloji kömək göstərmək (klinik söhbət və müsahibə) metodu kimi, kliyentin öz daxili çətinliklərini, münaqişələri, davranaışının gizli motivlərini dərk etməyə kömək edir;
   b) Fəaliyyət nəticələrinin təhlili metodu-şəkillər, müxtəlif tipli qrafik təsvirlər, çıxışlar, yazılı və şifahi testlər, incəsənət əsərləri, əmək fəaliyyəti nəticələri, oyun fəaliyyəti və s. Modelləşdirmə-riyazi, sosial və digər modellərin köməyi ilə psixi proseslər, insanın davranış və vəziyyəti haqqında informasiya almaq metodudur.

Sosial iqtisadi metodların tətbiqində əsas məqsəd optimal sosial normativləri formalaşdırmaq, əhalinin sosial-müdafiə sisteminin səmərəli təşkili, sosial səfərbərliyi yüksəltmək, dövlətin sosial xidmət işinin nəticələrini artırmaqdır. Sosial işdə aşağıdakı metodlar da istifadə edilir:

a) Statistik; b) riyazi; c) məqsədəuyğun fəaliyyətin təhlili; d) balans; e) indeks; f) seçki; g) dinamika sıralarının texnoloji təhlili.

Sosial iş praktikasında qəbul olunmuş koqnitiv-bihevioral metodlar fərqli öyrənmə modellərinə əsaslanmışlar.

6.5. Operant və sosial öyrənmə nəzəriyyələrinə əsaslanan metodlar

Operant öyrənmə nəzəriyyəsinə əsaslanan metodlar bunlardır:

Müsbət möhkəmləndirmə metodu, hərəkətdən dərhal sonra gəlməli olan müsbət möhkəmləndirmə sisteminin yaradılmasını nəzərdə tutur. Qeyd etmək lazımdır ki, müəyyən hadisənin həqiqətən möhkəmləndirilən davranışı gücləndirdiyini yoxlamadan, bu hadisənin fərd üçün müsbət möhkəmləndirici stimul olması haqda fikir yürütmək olmaz. Başlanğıcda hər dəfə arzu olunan davranışdan sonra müsbət möhkəmləndirmə olmalıdır, sonra onun tezliyi elə şəkildə aşağı düşməlidir ki, davranış tədricən daha gec-gec möhkəmləndirilsin. Konkret möhkəmləndirici stimulları (məs, şirin, xoşa gələn) hökmən sosial möhkəmləndirici stimullarla (məsələn, tərif) uzlaşdırmaq lazımdır. Bu zaman konkret möhkəmləndirici stimullar daha gec-gec təqdim olunmalıdır.

Bağlama (bənd etmə) metodu fərdə hərəkətlər zəncirinin elementlərini növbə ilə, bütün ardıcıllıq əldə olunanadək öyrətməyi nəzərdə tutur. Bu metod ayrı-ayrı hərəkətlərn müəyyən qaydada düzümündən ibarət yeni vərdişlərin öyrənilməsində xüsusilə faydalıdır.

Formalaşdırma (eləcə də ardıcıl yanaşmalar adlanan) metodu da hərəkətin möhkəmləndirilməsində "addım-addım" prinsipini tətbiq edərək son nəticədə hərəkəti bütünlüklə mənimsəməni nəzərdə tutur.

İşarələr sistemi metodu uşaq və yeniyetmələrlə işdə çox səmərəlidir. Bu metod rəğbətləndirmə simvollarının toplanması, yarış ekranlarının yaradılması üsullarından ibarətdir. Onlar dərhal möhkəmləndirmə vasitələri olub (yarış ekranında ulduzun görünməsi, hərəkətin müvəffəqiyyətli icrasından dərhal sonra nişanın verilməsi) sonradan arzu olunan davranışın yerinə yetirilməsi zamanı çətin təqdim oluna bilən möhkəmləndirmələrlə əvəz olunurlar.

Kliyentlər arasında bağlılıq metodu davranışın, ər-avad münasibətlərinin, ailənin terapiyasının komponenti ola bilər. İnsanlar öz

davranışlarının dəyişdirilməsi barədə yazılı razılığa gəlirlər. Razılıq müzakirə olunmuş, bağlılıq aydın şəkildə qeyd olunmuş arzuolunan davranışın möhkəmləndirilməsini nəzərdə tutur. Bəzən bağlılığa cəzalandırma formalarının tətbiqi üçün sanksiya maddələri də daxil edilir.

Cəzalandırmada bir sıra səbəblərə görə məsləhət bilinmir:

- ❖ Onun qorxu, depressiya, aqressiya, cəzalandıranın davranışını təqlid etmək, cəzalandıran insandan qaçmaq kimi əlavə effektləri ola bilər;
- ❖ O, cəzalandırılan insana yeni faydalı davranışı öyrənməyə kömək etmir;
- ❖ Görünür, insanlar cəzaya alışırlar. Ona görə də, özeffektivliyini saxlamaq üçün cəzalandırmanın intensivliyi zaman keçdikcə artmalıdır.

Operant sönmə. Əgər sosial işçi problemli davranışın indiki andakı möhkəmləndiricisini müəyyən edə və bu möhkəmləndirməni dərhal və bütünlüklə aradan qaldıra bilərsə, bu halda zaman keçdikcə arzuolunmaz davranış zəifləyəcək və kliyent üçün yeni şərait saxlanıldığı təqdirdə tamamilə itib gedəcəkdir.

Taym-aut – problemli uşaq davranışı hallarında xüsusi faydası olan sönmə metodudur. Bu, arzulanan davranışın müsbət möhkəmləndirmə metodu ilə birgə tətbiq edilir. Əvvəl uşağa xəbərdarlıq edirlər, əgər bu, kömək etmirsə, onu "darıxdırıcı" yerə keçirir və ya uşaq orada bir müddət sakit ayaq üstə durmalı və ya oturmalıdır.

Cavabın şərtlənməsi modelinə əsaslanan aşağıdakı metodlar mövcuddur:

Desensibilizasiya. Fərdə yeni, arzulanan cavabı əvvəllər həyəcan və ya qəzəb doğuram stimulla əlaqələndirmək öyrədilir. Bu, stimulun hissələrinin ardıcıllıqla insanın boşaldığı və ya əvvəlki nüqativ davranış reaksiyasına zidd bir vəziyyətdə şən əhvalda olduğu vaxt təqdim olunması nəticəsində əldə edilir.

Basdırma. Bu metodda neqativ stimulla qeyri-məqbul davranış eyni anda baş verir. Bu iki zidd metodlar (desensibilizasia və basdırma)

arasında dozalaşdırılmış təqdimin çüxtəlif formaları mövcuddur: dözə biləcəyi dozadan başlayaraq insana pis təsir edən stimullar təqdim edirlər. basdırmada və dozalı təqdimatda insan pozucu situasiyada arzuolunmaz cavabın aradan qaldırılmasınadək qalmalıdır.

Aşağıdakı metodlar sosial öyrənmə nəzəriyyəsinə əsaslanır:

Modelləşdirmə. Bu metod "nəyisə necə etməyi" göstərməkdən ibarətdir. Modelləşdirmə sosial vərdişlər treninqinin başlıca modeli və prinsipidir. Modelləşdirmə istənilən proqramda, məsələn, anaya öz övladına necə göstəriş verməyi, onunla necə oynamağı, onun arzuolunmaz davranışını necə aradan qaldırmağı öyrədən zaman böyük əhəmiyyət kəsb edir.

İndi isə özünü doğrultmuş və davranış treninqinin standart proqramlarına çevrilmiş bir neçə ümumi yanaşma haqqında məlumat yerinə düşər:

Sosial vərdişlər treninqi.

Sosial vərdişlər treninqinin başlıca elementləri modelləşdirmə və formalaşdırmadır. Əvvəlcə davranış haqqında insana izah edirlər, sonra uyğun davranışı nümayiş etdirirlər, daha sonra davranışı o özü təcrübədə sınaqdan keçirir və əks əlaqə, dəstək alır.

Kommunikativ treninq, ünsiyyət problemləri ilə işə istiqamətlənmiş sosial vərdişlər treninqinin bir variantıdır. Bəzi proqramlar potensial ünsiyyət səhvləri çoxluğundan olan müəyyən növ problemlərlə işləyirlər. Digər proqramlar isə daha geniş sahələrin müsbət və mənfi hisslərin, tələblərin ifadə olunmasının öyrədilməsini nəzərdə tuturlar.

Problemlərin həlli treninqi, problemlərin həlli və ya qərarların qəbulu istiqamətində atılan addımlar seriyasını öyrədir. Bu treninqdən bir çox kliyentlər faydalanırlar, ailə ilə işdə isə adətən o, ən mühüm treninq olaraq qəbul olunur. Buraya modelləşdirmə, spesifik əks əlaqə, möhkəmləndirmə, formalaşma variantları olan təcrübə daxildir.

Özünənəzarət treninqinə komponentlərin geniş dəsti daxildir. Məsələn, qəzəbə nəzarət zamanı insan problem situasiyasını ayrı-ayrı mərhələlər üzrə təhlil etməyi öyrənir. o, qəzəb hiddətinə aparan hadisələrin ardıcıllığını dayandırmağı, qəzəbin oyanması və inkişafının

psixoloji aspektlərinə, bu prosesi müşayiət edən, özü üçün qeyri-müəyyən olan, öz daxili dialoquna xüsusi diqqət yetirərək alternativ cavabları inkişaf etdirməyi öyrənir.

Unutmaq lazım deyil ki, yalnız bir prosedur çox nadir hallarda istifadə olunur. Bəzən sosial işçilər metodların bütöv bir dəstini işləyib hazırlayırlar və onu diqqətlə yoxlayırlar: prosedurun səmərəliliyi barədə və ya digər yeni informasiyanı əldə etmək üçün konkret prosedurları əlavə edirlər və ya lazımsızları çıxarırlar.

Mövzu 7. Sosial işdə modellər və nəzəriyyələr

7.1. Sosial işdə konseptual modellər

7.2. Sosial işin fəaliyyətinin psixodinamik modeli

7.3. Sosial işdə biheviorizm nəzəriyyəsi və koqnitiv model

7.4. Sosial işdə sistem üsulu

7.5. Sosial işdə emosional və sosial köməyin göstərilməsi

7.1. Sosial işdə konseptual modellər

Müasir elmi ədəbiyyatda "model" və "nəzəriyyə" anlayışları birmənalı şəkildə şərh edilmir, onların arasındakı sərhəd qeyri-müəyyəndir. Hal-hazırda elmi metodologiyada bu anlayışların aşağıdakı şərhi qəbul olunmuşdur:

Model-ilk növbədə modelləşdirmə prosesinin və ya hadisənin idarə edilməsinə istiqamətlənmiş konsepsual alətdir. Bu zaman gələcəyi qabaqcadan xəbər vermə, proqnozlaşdırma funksiyası idarəetmə məqsədlərinə xidmət edir.

Nəzəriyyə-bu modelə nisbətən daha abstrakt konseptual vasitədir, hansının ki, əsas məqsədi verilmiş prosesləri, hadisələri izah etməkdən ibarətdir. Gələcəyi qabaqcadan xəbər vermə funksiyası nəzəriyyədə hadisələri izah etmə məqsədlərinə istiqamətlənmişdir.

K.Tempelin fikrinə görə nəzəriyyə modellərdən ibarətdir, hansıların ki, elementləri və münasibətləri adətən uyğunlaşma qaydaları adlandırılan şey vasitəsilə aləm ilə bağlıdır.

Modellər üç tip uyğunluğu özündə ehtiva etməlidir:

-sosial aləmi təşkil etmək üsulu ilə modelin bu dünyanı təsvir etdiyi üsul arasındakı uyğunluğu;

-modelləşdirmə prosesində istifadə olunan aparat ilə modelləşdirilən nəzəriyyənin konseptual aparatı arasında olan uyğunluğu;

-nəzəriyyə ilə sosial aləm arasındakı uyğunluğu.

Modelləşdirmə artıq çoxdan təfəkkürün iqtisadi obrazının ayrılmaz elementinə çevrilmişdir. İqtisadçılar modelləri müxtəlif iqtisadi indikatorlar arasında qarşılıqlı əlaqələri öyrənməyə imkan verən sadələşdirilmiş nəzəriyyə kimi nəzərdən keçirirlər. "İqtisadi model adətən izah etmək istədiyi dəyişənlərə təsir edən çox az sayda faktorları nəzərə alır; o, insanların davranışı və insanlarınn aralarında seçim etməyə məcbur qaldığğı məhdudiyyətlər haqqında müəyyən ehtimallar edərək bu dəyişənləri bir-biri ilə əlaqələndirir. İqtisadi model mürəkkəb ehtimallar edərək bu dəyişənləri bir-biri ilə əlaqələndirir. İqtisadi model mürəkkəb bir mexanizmin sxematik şəklinə bənzəyir, hansında ki, müəyyən düymələr basıldığı və lingin dartıldığı zaman nəyin baş verəcəyini göstərməyə çalışırlar".

Modellərin təsnifatı üçün bir əsas olaraq çox vaxt onların formul edildiyi dil növü götürülür:

-məzmunlu model təbii dildə formul edilir;

-formal model bir və ya bir neçə formal dildə (məsələn, riyazi nəzriyyə və ya proqramlaşdırma dillərində) ifadə olunur.

Xüsusi sosial fəaliyyət növü və ictimai hadisə kimi, sosial işin nəzəri əsaslarını bir neçə konseptual model təşkil edir. Bu modellər, təkcə müxtəlif nəzəri məktəblərin nümayəndələri olan, böyük alim və tədqiqatçıların müasir cəmiyyətdə sosial müdafiə problemlərini necə təhlil etmələri və davamlı elmi axtarışları ilə qalmayıb, həmçinin sosial işin özünün forma və məzmunundakı dəyişiklikləri, onun təkamülünü özlərində inikas etdirirlər.

Baxmayaraq ki, ayrı-ayrı nəzəri modellərin seçilib ayrılması şərti məna kəsb edir. Bununla belə, aşağıdakı modellərin mövcudluğu haqqında tam əminliklə danışmaq olar:

1. Psixodinamik
2. Biheviorist
3. Koqnitiv
4. Sistemli-ekoloji

Qərb təcrübəsi əsaslarını təşkil edən bu modellərin zahiri bənzərliyinə baxmayaraq, müştəri ilə münasibətlərin qurulmasında onların hər birinin öz səciyyəvi xüsusiyyətləri vardır. Sosial işdə tətbiq

edilən ilk nəzəri modellər klassik psixoanaliz (20-ci illərin sonu – 30-cu illərin əvvəli) ideyalarına istinad edirdi. Freydizm ideologiyasına uyğun olaraq, bu modellər sosial işçinin fəal müalicəvi rolunu, kliyentin isə passiv davranışını vurğulayırdılar.

7.2. Sosial işin fəaliyyətinin psixodinamik modeli

Psixososial yaxud psixodinamik model, insanın psixi həyatı ilə, onun həyat fəaliyyətinə təsir göstərən xarici münasibətlər arasındakı tarazlığın təmin edilməsi ilə əlaqədar olan bir nəzəri modeldir. Onlar arasında ən geniş yayılması və F.Hollis ilə M.Vuds tərəfindən işlənib hazırlanmış "situasiya işi" yaxud "situasiyada şəxsiyyət" konsepsiyasıdır. Bu konsepsiyanın mərkəzində, bir tərəfdən insanlatla, digər tərəfdən isə, ətraf mühit ilə əlaqəli olan şəxsiyyət durur. Klassik psixoanalizdən fərqli olaraq, cari konsepsiya öz diqqətini insanın keçmişində deyil, bu günündə cəmləşdirir və şəxsiyyətin real sosial situasiyanı necə qəbul etməsini təhlil edir.

Sosial işçinin fəaliyyətinin *psixodinamik modeli* bir sıra vacib postulatlara əsaslanır və bunlara aşağıdakılar aiddir:

- Kliyent ilə münasibət kontekstində sosial işçi nəzərə almalıdır ki, kliyent müəyyən psixoloji strutura malikdir və o, qarşılıqlı təmasda olduğu mühitin xarici və daxili təsiri altında bu strukturu dəyişə də bilər;
- Sosial işçi müştəriyə təsir göstərərkən, onun sosial-iqtisadi vəziyyətini və statusunu, idarəetmənin müxtəlif səviyyələrindəki yerini nəzərə almaqla, müştərinin mənsub olduğu sosial mühitdəki rolunu və münasibət dinamikasını öyrənməlidir;
- Sosial işçi öz fəaliyyətində əsas vurğunu müştərinin şəxsi vəziyyətinə, onun fərdi təcrübəsinə, əlahiddəliyinə, düşücələrinə etməli, onun hazırkı durumuna uyğun strategiya və taktikanı seçməlidir.
- Bu konsepsiya çərçivəsində təkcə "status-kvo" analiz edilməyib, həmçinin kliyent ilə sosial işçi arasındakı

münasibətlər, eləcə də konkret sosial mühitdə ehtiyacı olanların bir-birilə münasibətlərinin təkamlü təhlil edilir;

- Sosial işin psxodinamik modeli, bir qayda olaraq, kliyentin daxili aləminə, gerçəklik duyumuna, onun mənsub olduğu qrupdakı münasibətlərinin xarakterinə təsir göstərməklə, davranışının, baxış və münasibətlərinin dəyişdirilməsi və korreksiyasını nəzərdə tutur.

Fərdin həyatında baş verən hadisələr və bununla əlaqədar topladığı sosial təcrübə, onun psixoloji simasının və şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Eyni zamanda sosial işçinin müştəri ilə münasibətdə, özününpsixi xüsusiyyətləri, münasibətlərinin inkişaf dinamikası, onu əhatə edən insanlarla əlaqələr qurmaq qabiliyyəti də mühüm amillərdən hesab edilməlidir.

Sosial işin psixodinamik model çərçivəsində gerçəkləşdirilməsi ilə əlaqədar psixososial təsirin bir neçə mühüm mərhələsini ayırırlar:

1. Kliyentin problemlərinin öyrənilməsi;
2. Kliyentin sosial vəziyyətinin, psixi durumunun və hisslərinin öyrənilməsi;
3. Sosial işçi ilə kliyentin yaxınlaşması və əlaqələrin yaradılması;
4. Kliyentin həyatında baş vermiş əsas hadisələrin nəzərdən keçirilməsi və onların insanın cari problemləri ilə əlaqəsi;
5. Qarşılıqlı etimad əsasında, kliyent ilə sosial işçi arasında razılaşdırılmış hərəkətlər planının yaradılması;
6. Kliyentin problemlərinin həlli ilə əlaqədar sosionomla kliyentin müştərək fəaliyyətləri.

7.3. Sosial işdə biheviorizm nəzəriyyəsi və koqnitiv model

Psixodinamik konsepsiya ilə eyni zamanda sosial işin digər alternativ nəzəriyyələrindən biri – biheviorizm meydana çıxmışdır. Bu üsul öz diqqətini əsasən xarici stimullara reaksiyaya rəğmən, kliyentin müşahidə olunan davranışı üzərində cəmləşdirirdi. Biheviorizmin sosial iş sahəsində ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, o, bu sahənin məzmununu empiprik tədqiqatlarla zənginləşdirməklə, onu sosial işin zəruri mərhələlərindən birinə çevirdi.

Biheviorist sosial iş, psixodinamik üsuladan fərqli olaraq, öz diqqətini öyrənmə nəzəriyyəsində, yaxud müşahidə olunan davranış üzərində cəmləşdirir. Davranışın mümkün növü müəyyənləşdirildikdən sonra, onun qiymətləndirilməsi başlayır. Bunun ardından isə müdaxilə gəlir.

Sosial işin bu modelinin tətbiqi ilə əlaqədar bir sıra ciddi problemlər də mövcuddur. Məsələn, elə hallar olur ki, sosionom heç bir motivi, əsasladıra biləcək davranışı olmayan kliyent ilə qarşılaşmalı olur. Bu halda biheviorist üsulu çərçivəsində onların probleminin həllini tapmaq çox çətin olur.

İnsanın öz fərdi və sosial maraqlarının müdafiəsi üçün rasional düşüncə tərzini optimallaşdırmaq vasitəsi ilə koqnitiv model, müştəri və sosionomu təkcə özlərinin dəyişməsinə, mühitə uyğunlaşmasına deyil, onların sosial ətrafının da təkmilləşdirilməsinə doğru yönəldir. Koqnitiv model çərçivəsində bir neçə mühüm məqam ortaya çıxır və onları da cari modelin səciyyəvi xüsusiyyətləri kimi xarakterizə etmək olar. Bunlar aşağıdakılardan ibarətdir: insanları o zaman yaxşı başa düşmək olur ki, onlar daima axtarışda olur, şəxsi və ictimai həyatlarındakı maneələri dəf etməklə, müəyyən məqsədə can atırlar.

1. İnsanlar gördüklərinə və anladıqlarına rəğmən öz gerçəklik modellərini yaradırlar.
2. İnsan sosial gerçəkliyə uyğunlaşmaqla, həm özü dəyişir, həm də reallığı dəyişdirməyə cəhd göstərir və nəticədə özünə arxayınlıq hissi qazanır.
3. İnsanın və mühitin adaptasiyası prosesinə "mən – biz" anlayışı təsir göstərir.

Müvafiq modelin əsasını simvolik interaksionizm tezislərindən biri olan "yalnız subyektin özü tərəfindən yaradılmış bir gerçəklik mövcuddur" – mülahizəsi təşkil edir.

Şəxsiyyətin xarici mühitlə qarşılıqlı əlaqəsi, fəal transaksional bir prosesdir və aşağıdakı fəaliyyət növləri onun əas aspektlərini təşkil edir:

- Adaptasiya (uyğunlaşma) – öz məqsədlərini gerçəkləşdirmək üçün xarici mühitə uyğunlaşma;

- Sabitləşdirmə - daima dəyişməkdə olan səbəblərə baxmayaraq, daxili və xarici sistemlər arasındakı tarazlığın qorunub saxlanması;
- İntensional fəaliyyət – daxili məqsədlərə uyğun olaraq, xarici mühitdə müəyyən dəyişikliklərin edilməsinə nail olmaq.

Sosial işin koqnitiv modeli, eləcə də sosial işçinin fəaliyyəti, ilk növbədə sosial təlimi, biliklərə yiyələnməyi nəzərdə tutur. Bununla əlaqədar Qoldşteyn praktikada tətbiq edilən 3 əsas tədris tipini ayırır:

- Strateji-informasiyanınn əldə edilməsi, müəyyən məqsədə nail olmaq üçün təcrübənin toplanılması;
- Taktiki-gündəlik həhyata uyğunlaşmaq məqsədilə;
- Adaptiv-öz "mən"nin yaradılmış gerçəkliyin dəyişdirilməsinə doğru yönəldilmiş tədris.

Tədris prosesi özünə 4 ardıcıl mərhələni daxil edir:

- Diskriminasiya-xarici mühit probleminin dərk edilməsi mərhələsi;
- Konseptual-informasiyanın emal edilməsi prosesində müştəri tərəfindən istifadə olunan ideya və simvolların öyrənilməsi mərhələsi;
- Prinsipial-dəyərlər sisteminin və daxili "mən"in öyrənilməsi mərhələsi;
- Problemin həlli mərhələsi-əvvəlkilərin özünəməxsus sintezi olmaqla, həm proses, həm də situasiyanın məntiqi qiymətləndirilməsinin ikinci üsuludur. Bu mərhələ özü də 3 əsas alt mərhələdən ibarətdir:
  1. Birinci alt mərhələdə mövcud problem müştəri üçün anlaqlı və hiss edilən olur;
  2. İkincidə problem təhlil edilir, onun təhlilinin müxtəlif üsulları araşdırılır, fəaliyyət strategiyası müəyyənləşdirilir;
  3. Yekun mərhələdə, seçilmiş strategiya gerçəkləşdirilir və insan tərəfindən gələcəkdə oxşar problemlərin həlli istiqamətində texnologiyalar hazırlanır.

Əvvəllər bu modelin heç də bütün sosial işçilər tərəfindən qəbul edilmədiyinə baxmayaraq, 80-ci illərdən başlayaraq bu model sosial işdə geniş tətbiq edilir.

7.4. Sosial işdə sistem üsulu

Sosial işin nəzəri əsaslarını təşkil edən bəzi konsepsiyaları da nəzərdən keçirmək məqsədəuyğun olardı. Onlardan biri sistem üsuludur. Sosial işdə bu üsulun 3 əsas modeli mövcuddur. Onlardan birincisinin əsasında Bertalanfinin sistem nəzəriyyəsi durur. Özünün ilkin variantından bu üsul bioloji materiala rəğmən hazırlanmışdı və qeyd olunurdu ki, bütün orqanizmlər altsistemlərdən ibarətdir.

Bu model sosial iş sahəsinə sistem nəzəryyəsinin bir sıra anlayışlarını – *giriş, çıxış, entropiya* və s. daxil etmişdir və ilk əvvəllər bu praktiki sosial işçilər tərəfindən bir o qədər də alqışlanmırdı.

Qərbdə XX əsrin 70-ci illərində sosial iş praktikasında bu üsulun tətbiqi geniş vüsət almağa başlayır. Bu baxış çərçivəsində belə bir təsəvvür geniş yayılmışdır ki, insanlara 3 tip sistem yaxından kömək göstərir:

Birincisi, qeyri-formal sistemlərdir (ailə, dostlar və b.).

İkincisi, formal sistemlərdir (siyasi partiyalar, həmkarlar və s.).

Sosioyental sistemlər (əsas sosial institutları-məktəb, hüquq mühafizə orqanları və s.).

Bu konteksdə sosial işçinin vəzifələri 2 qrupa ayrılır:

Bir tərəfdən, insanlara problemlərinin həlli ilə əlaqədar kömək göstərəcək təşkilat və idarələrin fəaliyyətinin optimallaşdırılması ilə bağlı olan vəzifələr;

Digər tərəfdən, öz tələbatlarını ödəmək, insanın özünümüdafiə potensialını yüksəltmək məqsədi ilə köməyə ehtiyacı olan insanlara, sosial iş müəssisələrindən geniş istifadə olunması ilə əlaqədar, sosial işçilər tərəfindən köməyin göstərilməsi.

İnsan həyatında problem o halda yaranır ki, onunla mühit arasındakı əlaqə ya pozulur, yaxud da təhrif olunur. Məhz aşağıdakı hallarda bu baş verə bilər:

- Bu və ya digər növ sistem mövcud olmur;
- İnsan ona kömək göstərmək iqtidarında olan sistemlərin mövcudluğu haqqında ya bilmir, ya da bilmək istəmir;
- İnsanın bu və ya digər sistemə daxil olması onun üçün yeni problemlər (məsələn, asılılıq) yaradır;
- Və ən nəhayət, müxtəlif sistemlərin münaqişəsi.

İkinci sistem modeli.

Bu model T.Parsons nəzəriyyəsinin sosial işin tələbatlarına uyğunlaşdırılması ilə əlaqədar idi. Qeyd etmək lazımdır ki, onun tətbiqi çox uğursuz oldu. Məsələ ondan ibarət idi ki, Parsons konsepsiyasının sosiologiya elmində ənənəvi olaraq tənqidə məruz qalan hissələri – məhz sosial sistemdə münasibətlərin ifrat ahəngdarlığı, sistemin ta əvvəldən tarazlığa meylli olması, subyektin fəallığının təcrid olunması kimi konseptual məqamları sosial işə tətbiq etmək cəhdləri göstərildi. Bu isə, qeyri-sabit sistemlərlə əlaqəli olan sosial iş təcrübəsi üçün işlək nəzəri model ola bilməzdi.

Son model sistem-ekoloji modelidir. Bu modelin "həyat modeli" adlanan konsepsiyası günümüzdə çox populyardır. Cari model, insanları "qarşılıqlı mübadilə" vasitəsi ilə daim ətraf mühitə uyğunlaşmağa çalışan subyektlər kimi nəzərdən keçirir, yəni fərdlər ətraf mühiti dəyişdikləri kimi, özləri də onun təsiri altında dəyişirlər. qarşılıqlı adaptasiya (uyğunlaşma) anlayışı "şəxsiyyət – mühit" münasibətlərinin analizində mühüm yer tutur.

Stresslərin əsas səbəbləri aşağıdakılardan ibarətdir:

Birincisi-müxtəlif həyati dəyişikliklər (məsələn, status və rolun, sosial məkaın dəyişdirilməsi, yaşla əlaqədar dəyişikliklər və s.);

İkincisi-ətraf mühitin təzyiqi (məsələn, sosial qeyri-bərabərsizliyin nəticəsi olaraq sosial qrupların qeyri-bərabər imkanları);

Üçüncüsü-şəxsiyyətlərarası münasibətlər (məsələn, istismar).

Aralarında müəyyən fərqlər olmasına baxmayaraq, sistem modellərinin ümumi xüsusiyyətləri ondan ibarətdir ki, onlar:

- Diqqətlərini ətraf mühitin dəyişməsi üzərində cəmləşdirir;
- Bir şəxsiyyətin digər şəxsiyyətə birbaşa təsirini (gizli fikir və hisslərini çıxmaq şərtilə) təhlil edir;
- Arzuolunan nəticələrin müxtəlif yollarla əldə edilməsi imkanlarını tanıyırlar.

Ekosistemlər nəzəriyyəsində sosial işin əsas vəzifəsi, insanların adaptiv qabiliyyətlərinin yüksəlməsindən, insanla mühit arasındakı kompromisi daha da adaptiv etmək məqsədi ilə insanların əhatəsinə təsirin göstərilməsindən ibarətdir.

Sosial işin strukturunda sistem-ekoloji üsulu öz nümunəsini hərtərəfli şəkildə, əhalinin sosial təminatı və dəstək işinin təşkilində tapır. Bu dəstək, əhalinin ehtiyacı olan müəyyən qruplarına həm mərkəzləşdirilmiş(formal), həm də fərdi, qeyri-formal şəkildə (qonşuların, qohumların) göstərilən köməyi əhatə edir.

Sistem üsulunun digər üsullardan fərqli cəhəti ondan ibarətdir ki, o, diqqətini kliyentin şəxsiyyətində və psixi problemlərində deyil, onun həyati problemlərinin sosial məzmununda cəmləşdirir.

Sosial iş nəzəriyyəsində, yuxarıda nəzərdən keçirdiyimiz konseptual modellərdən başqa digərləri də mövcuddur və qısaca olaraq onların da üzərində dayanmaq önəmli olardı. Söhbət 1. "Müdaxilə" yaxud "böhran vəziyyətinə müdaxilə", 2."Prevensiya" nəzəriyyələrindən gedir.

Böhran vəziyyətinə müdaxilə nəzəriyyəsi günümüzdə sosial iş praktikasında ən geniş yayılmış universal nəzəri metodlardan biridir. Bu nəzəriyyənin daha dolğun izahını Naomi Qolan aşağıdakı tezislərdə ifadə edir:

- Hər bir insan, sosial qrup, yaxud təşkilat ömür boyu böhranlı vəziyyətlərlə qarşılaşa bilər və bu hadisələr gözlənilən və gözlənilməz ola bilər;
- Hər hansı bir itki ilə müşayiət olunan hadisələr ən qorxulu hadisələrdir; çünki bu halda şəxsiyyətin müvazinəti pozulur,

o, öz problemlərini adi hallarda olduğu kimi həll etmək qabiliyyətini itirir və onun durumundakı psixoloji gərginlik artır;

- Stressli hadisələr təhlükə, itki, çıxılmazlıq hisslərini yaratdığından, fərdin ilkin reaksiyası narahatçılıq, daha sonra depressiya, mövcud narahatçılıq nəticəsində yaranmış problemi həll etmək cəhdləri ola bilər;
- Yaranmış problemlərin əksəriyyəri əvvəllər tətbiq olunmuş strategiyalar əsasında həll edilir. Bu da fəal böhran ehtimalını aşağı salır, lakin problemin həlli yönümündə uğursuz cəhdlər edilmiş olarsa, onda böhranlı situasiya kəskinləşə və onun nəticələri acınacaqlı ola bilər;
- Böhranlı hadisələr arasındakı aralıq və ondan çıxmaq üçün tələb olunan zaman kəsiyi, şəxsiyyətin psixoloji xüsusiyyətlərindən və hadisələrin xarakterindən asılı olaraq dəyişir. Lakin bir qayda olaraq, fəal böhran dövrü 406 həftə aralığını əhatə edir;
- Böhranlı durumda olan insanlar, xarici təsirə məruz qalmaq nöqteyi-nəzərindən daha həssas və "açıq" insanlar olduqlarından, onların durumuna məhz bu dövrdə müdaxilə olunmasının əhəmiyyəti təkzib edilməzdir;
- Bərpa, yaxud "reinteqrasiya" dövründə kliyent problemin həlli ilə əlaqədar yeni üsulları mənimsəyir. Bu da onun gələcəkdə gözlənilən böhranlı vəziyyətlər üçün dayanıqlığını artırır. Bərpa yaxud "reinteqrasiya" prosesi özünə bir neçə mərhələni daxil edir.

  Birincisi, koqnitiv duyumun korreksiyası nəticəsində kliyentlər, onların başlarına gələn hadisələrlə daha dəqiq və ətraflı məlumatlara malik olur, dünyagörüşlərini zənginləşdirirlər;

  İkincisi, hisslərin idarə olunması – güclü emosiyalardan "azad olma", sosial işçilər tərəfindən məqbul hesab edilən reaksiiya kimi nəzərdən keçirilir;

  Üçüncüsü, situasiyanı ələ almaq nöqteyi nəzərindən yeni davranış modelləri inkişaf etdirilir.

7.5. Sosial işdə emosional və sosial köməyin göstərilməsi

Sosial işçinin başlıca vəzifəsi, mümkün dərəcədə çox sosial vərdişlərin mənimsənilməsi məqsədilə, kliyentə eyni zamanda emosional və sosial köməyin göstərilməsindən ibarətdir. "Müdaxilə", yaxud "böhran vəziyyətinə" müdaxilə nəzəriyyəsi, sosial iş praktikasına daxil olmaqla, müxtəlif kateqoriyalardan olan müştərilərin problemlərinin həllində köməkçi rolunu oynayır. Bu model, konkret müdaxilə texnologiyalarının işlənib hazırlanması nöqteyi-nəzərindən empirik tədqiqatlar üçün həmişə "açıq" olmuşdur.

Bu nəzəriyyə ilə bilavasitə əlaqədar olan sosial iş praktikasında geniş tətbiq olunan nəzəriyyə "prevensiya" nəzəriyyəsidir. Ümumi şəkildə prevensiyanı arzuolunmaz hadisələrin, proseslərin qarşısını almaq cəhdləri kimi qiymətləndirmək olar. Sosial iş institutlaşmağa başladığı dövrdən, ta bu günədək, davamlı olaraq prevensiya (lat. praeventio-xəbərdarlıq) konsepsiyasına istinad etmişdir.

Müasir cəmiyyətimizi xarakterizə edən ümumi rasionallaşma prosesi, sosial iş sahəsindən də yan keçməmiş, bu sahənin bürokratikləşməsinə, peşəkar ixtisaslaşmasına və preventiv yönümünün güclənməsinə gətirib çıxarmışdır. Prevensiya anlayışı, elmi leksikonumuza elə də uzun zaman deyildir ki, daxil olmuşdur. Ona ətraflı tərif vermək, onun əsas növ və formalarını seçib ayırmaq səyləri bir çox qərb alimləri tərəfindən edilmişdir. Lakin alman sosioloqu Klaus P.Yapp "prevensiya"nı "təhlükə" və "risk" anlayışları vasitəsi ilə müəyyən etməyə çalışır və qeyd edir ki, risk hansısa bir seçimi nəzərdə tutur və subyektiv qərarın nəticələri ilə uyğunlaşdırılır. Preventiv fəaliyyətin yönümündən asılı olaraq, maddi və formal prevensiyanı ayırırlar.

Birinci, sosial problemlərin yaranma prosesləri ilə, ikinci isə, həmin problemlərin nəticələrinin kompensasiyası mexanizmləri ilə əlaqədardır. Məsələn, işsizlik kimi sosial problem kontekstində bazarın tələbatları nəzərə alınmaqıa, kadrların yenidən hazırlanması sisteminin təşkili – maddi prevensiya, işsizlik müavinətlərinin verilməsi isə formal prevensiyanın nümunəsidir. Bu 2 prevensiya növü günümüzdə sosial

müdafiə və təhlükəsizlik sistemlərinin əsasını təşkil edir. Maddi və formal prevensiya növləri, inkişaf etmiş cəmiyyətlərin tipik sosial problemlərinə (işsizlik, xəstəlik və s.) rəğmən daha səmərəlidir.

Loqoterapiya nəzəriyyəsi – insanın təbiətinə və mahiyyətinə mürəkkəb fəlsəfi, psixoloji, tibbi baxışlar sistemi olmaqla, şəxsiyyətin inkişaf mexanizmlərini norma və patologiyada nəzərdən keçirir, şəxsiyyətin inkişafı üçün müvafiq anomaliyaların korreksiyasının yol və üsullarını göstərir.

Bu üsulun dəyəri, sistem və struktur modelləri ilə uyğunlaşdırıldığı halda daha da artır.

Sosial iş nəzəriyyəsinin ekzistensialist və humanist modelləri sosial müdafiə nəzəriyyəsində mühüm yerlərdən birini tutur.

"Subyekt-obyekt-subyekt" qarşılıqlı münasibətlər sistemində, kliyentin duyum xüsusiyyətlərinin öyrənilməsi məsələləri, sosial işin ekzistensialist modelinin əsas məzmununu, bu münasibətlər haqqındakı fikir və nəticələr isə onun əsas qayəsini təşkil edir. Bu model çərçivəsində adətən aşağıdakılar nəzərdən keçirilir:

1. "subyekt-obyekt-subyekt" sistemi daxilində qaydalar və rollar;
2. Daha iri sistemlər kontekstində "subyekt-obyekt-subyekt" altsistemi və ona göstərilən təsir;
3. Müştərinin inandığı dəyərlər sistemi;
4. Müştəri qorxusu və təhlükəsizliyinin olmaması ilə mübarizə qaydaları;
5. Problemin həllinin bütün aspektlərinin əlaqələndirilməsi.

Sosial işin ekzistensialist modelinin nəzəri əsaslarına görə, kliyentin əksər emosional problemlərinin əsasında 4 yadlaşma mənbəyi durur:

- Müştərinin önəmli hesab etdiyi insanlar onun özünə üstünlük vermirlər;
- Qiymətləndirmə münaqişələri probleminin həllində qətiyyətsizlik, yaxud aldatmaya yol verilir;
- Məyusluq, xaos, yaxud formal dəyərlərin itirilməsi;

- Yaxın insanların itirilməsi (onların ölümü, tərk olunma, xəyanət və s.).

Kliyentə təsirin ekzistensialist texnologiyasının əsas məqsədi – insanlara lazımi və layiq olduqları həyat tərzini qazanmaları məqsədi ilə zəruri köməyin göstərilməsindən ibarətdir. Bu zaman ekzistensialist terapiyasının 3 mümkün qaydasından istifadə olunur:

Birincisi, kliyentin təcrübə və praktiki fəaliyyətinin dəyişdirilməsinə doğru yönəldilmiş qayda;

İkincisi, kliyentin şəxsiyyətinin anlamına doğru yönəlmiş qayda;

Üçüncüsü, şəxsi daxilolma, yaxud sosial işçinin kliyentin dəyərlər, hisslər və münasibətlər aləminə "varması" qaydası.

Sosial iş nəzəriyyəsinin humanist modeli, ekzistensialist texnologiyası üzrə, köməyə ehtiyac duyanlara dəstəyin göstərilməsi sahəsində fəlsəfi-humanist baza rolunu oynayır.

Sosial iş səviyyəsində köməyin göstərilməsi özünə bunları daxil edir:

a) Kliyentin həyatının məzmunun dolğunlaşdırılması məqsədi ilə, ona hər şeyin yaxşı olduğunu, həyatının təkamül və inkişaf məcrasında davam etdiyini təlqin etmək lazımdır;
b) Sosial işçilər kliyentə kömək göstərir, problemləri ilə tanış olub onları öyrənməyə hazır olduqlarını nümayiş etdirirlər, bir sözlə, diqqətlərini problem üzərində cəmləşdirirlər;
c) Sosial işçi kliyent ilə münasibətdə çeviklik, aşkarlıq nümayiş etdirməli, kliyentdə özünə arxayınlıq hissi oyatmalıdır.

Bir məqamı da unutmaq olmaz ki, sosial işçi kliyent ilə sərt və direktiv qaydalar üzrə işləyə bilməz. O, müvafiq vəziyyətin səciyyəvi xüsusiyyətlərinə rəğmən hərəkət etməlidir. Sosionom kimi sosial işçinin əsas vəzifəsi müştərini ruhlandırmaqdan, onun həyatındakı real imkanlarını anlamaqdan və onların gerçəkləşdirilməsi prosesinə fəal surətdə qoşulmaqdan ibarətdir.

Sosial işin bu nəzəri modellərinin universallığına baxmayaraq, köməyə ehtiyacı olan insanlar üçün, onları, sosial işin təşkilinin bütün formalarında eyni cür tətbiq etmək olmaz. Birincisi, ona görə ki, onlar

sosial köməyin müxtəlif formalarıdır və əksər hallarda eyni problemi müxtəlif cür həll edirlər. İkincisi, sosial iş müəssisələrinin inzibati dağınıqlığı da bu modellərin unifikasiyasına maneçilik törədir. Eyni zamanda, biz hər dəfə müxtəlif mühitlərdən çıxmış fərqli insanlarla əlaqələrdə oluruq. Və ən nəhayət, bu modelə, kiməsə hansısa bir hərəkət standartını təhriklə "uyğunlaşdırmaq" yaddır. Bu mənada, cari modellərə əsaslanan sosial işçilər, kliyentə təsirin forma və vasitələrinin seçilməsində, həmçinin onunla əməkdaşlığın qurulmasından azaddırlar.

Mövzu 8. Sosial işdə rol və kommunikativ nəzəriyyələr

8.1. Sosial işdə rol münaqişələri və problemlərin yaranması

8.2. Sosial iş nəzəriyyəsində radikal və marksist modellər

8.3. Sosial işin kompleks modelləri. Sosial-pedaqoji model.

8.4. Vitalist model

8.5. Sosial işdə psixodinamik yanaşma və psixoanalizm

8.1. Sosial işdə rol münaqişələri və problemlərin yaranması

Sadaladığımız modellərlə yanaşı, sosial iş nəzəriyyəsində rol və kommunikativ nəzəriyyələr də xüsusi əhəmiyyət kəsb edir. Sosial işin nəzəri əsaslarını təşkil edən bu üsulun əsas komponentini sosioloji biliklər təşkil edir. Lakin sosial işçilərin məqsədyönlü fəaliyyətlərinin məzmununu zənginləşdirmək nöqteyi-nəzərindən, psixoloji bilikləri də oraya əlavə etmək labüddür. Bu modellər çərçivəsində, ilk növbədə, şəxsiyyətin rolunun məzmunu (həm psixoloji, həm də sosial-psixoloji planda) araşdırılır. Sosial iş nəzəriyyəsində, şəxsiyyətin rolları ilə əlaqədar mövcud baxışlara əsasən insanlar öz davranışlarını fərdi-şəxsi şüurlarındakı sxem və modellərə uyğun olaraq qururlar. Bu sxemlər, adətən, keçmiş təcrübə nəzərə alınmaqla, özünü necə aparmaq, baş verən aktual hadisələrin önəminin anlaşılması, hər kəsin həyatda öz rolunu necə görməsi məsələlərinə toxunurlar. Bundan başqa, insanların həyatdakı müəyyən rollarına uyğun olaraq, kommunikasiya üslublarının olması da çox mühümdür. Texnoloji baxımdan da, müxtəlif və identik rollar oynayan insanların, mövcud davranış və təmas modellərinin mənimsənilməsi metodları çox əhəmiyyətlidir. Bununla əlaqədar, heç təsadüfi deyildir ki, rol və kommunikasiya metodları, bir qayda olaraq birlikdə nəzərdən keçirilir.

Baxmayaraq ki, rol nəzəriyyəsi texnoloji olaraq, psixoloji və sosial-psixoloji inkişaf kontekstində gerçəkləşdirilir, lakin bir məqamı da unutmaq olmaz ki, ilkin olaraq o, sosiologiyanın struktur-funksional üsulu çərçivəsində meydana gəlmişdir. Bu nəzəriyyəyə görə, insanlar cəmiyyətin sosial strukturunda müəyyən yer və mövqelər tutur və müvafiq statuslarına rəğmən xarakterik rollar oynayırlar. Bu mənada rol,

həyat fəaliyyəti subyektinin müəyyən gözləmələrin, yaxud davranış növlərinin məcmusu deməkdir. Cari müddəa, həm də onu vurğulayır ki, rolları, müxtəlif kommunikasiya növlərində gerçəkləşən münasibətlərin kontekstində də nəzərdən keçirmək lazımdır. Rollar, bizim özümüzün, ya da başqalarının mövcud olan və arzu etdikləri gözləmələri ilə əlaqədar yarana bilər. Onlar müxtəlif səbəblər üzündən insan tərəfindən qazanıla (xəstə, əlil, məsləhətçi) və nail oluna bilər. həmçinin mövcud hüquq, sosial-mədəni və mənəvi normalar sistemi ilə də nəzərdə tutula bilərlər.

Rol münaqişələri və problemlər o zaman yaranır ki, bir rol o biri rolla uzlaşmır, yaxud onunla ziddiyyət təşkil edir. Bəzən roldaxili münaqişələr də mövcud olur və bir şəxs tərəfindən yerinə yetirilən rollar, o biriləri ilə ya ümumiyyətlər uzlaşmır, ya da qismən uzlaşır. Roldaxili münaqişə o zaman baş verir ki, müxtəlif insanların eyni rolla bağlı gözləntiləri uyğunlaşmır, uzlaşmır. Rol müxtəlifliyi o zaman yaranır ki, konkret rolla əlaqədar qeyri-müəyyənlik mövcud olur. Bu qəbildən olan sosial-psixoloji anomaliyalar kommunikasiyaları çətinləşdirir, sosial işin rol və kommunikasiya modellərinin həll edəcəyi problemlərin xarakterini müəyyənləşdirir. Bununla əlaqədar, kommunikasiyanın hansı şəraitdə gerçəkləşdiyi, bu və ya digər rolları yerinə yetirən insanların qarşılıqlı əlaqələrinin necə olması məsələləri də çox önəmlidir. Bundan başqa, eyni və müxtəlif sosial-ösixoloji vəziyyətlərdə, müvafiq rollara riayət olunması və olunmaması məsələləri də problem olaraq qalmaqdadır. Onların həlli məqsədilə sosial işdə optimal texnologiyalar işlənib hazırlanır.

Sosial işin yönüm və böhran-müdaxilə nəzəri modelləri sosial işin nəzəriyyəsində özünün səciyyəvi xüsusiyyətləri ilə fərqlənən konseptual modellərdir. Sosial işdə bu modellərin tətbiqinin əsas məzmunu ondan ibarətdir ki, onlar, kliyentin problemlərinin həlli ilə əlaqədar, sosionomu qısamüddətli, fraqmentar müdaxiləyə yönəldirlər. Qərb praktikasında belə müdaxilə, təşkilati nöqteyi-nəzərdən sosial işçi ilə kliyent arasında bağlanmış müqavilə və razılaşmalara əsaslanır. Böhran-müdaxilə modeli, əsasən psixodinamik konsepsiyaya və eqopsixologiyaya əsaslanır. Fərdi yönümlü iş, özünün gerçəkləşdirilməsində heç bir səciyyəvi və sosioloji texnoloji əsasları və metodları qəbul etmir. O, bütövlükdə, əksər inkişaf etmiş ölkələrdə olduğu kimi, uzunmüddətli

stasionar psixodinamik köməyi inkar etməklə, şəxsiyyətin fərdi-psixoloji dəstəyinə, yəni operativ praqmatik üsula istinad edir. Sosial işçinin bphran müdaxiləsi, kliyentin həyatında böhrana yol açan, onun normal həyatını poza biləcək hadisələr ardıcıllığının pozulması yönümündə məqsədyönlü hərəkətlər kimi izah edilir. Məqsədyönlü iş, müəyyən problemlərə əlaqəli fəaliyyət kimi dəyərləndirilir. Hər iki model, insanlara öz problemlərini optimal surətdə həll etmək qabiliyyətini aşılayır. Böhran müdaxiləsi, müxtəlif həyati situasiyalarda, çətinliklərin yaranması nəzəriyyəsinə istinad edir. Məqsədyönlü model isə problemləri aktual planda praqmatik olaraq həll etmək üçün olduqları kimi götürür. Böhran müdaxiləsi, insanların yenidən həyata uyğunlaşmaları məqsədi ilə praktiki məsələlərdən istifadə edir. Bu modelin digər mühüm aspektlərindən biri də, insanların böhrana rəğmən emosional reaksiyalarının, gündəlik problemlərinin öhdəsindən gəlmələri üçün, qabiliyyət və bacarıqlarındakı uzunmüddətli dəyişikliklərin nəzərə alınmasıdır. Bu model diqqəti kliyentin özünü, özəl, emoisonal problemlərinin – yəni praktiki məsələlərin həllində necə aparmasında da cəmləşdirir.

8.2. Sosial iş nəzəriyyəsində radikal və marksist modellər

Sosial iş nəzəriyyəsində radikal və marksist modelləri də mühüm konseptual modellər kimi dəyərləndirilməlidir. Hər iki model, sosial işin ənənəvi anlamı və ictimai dəyəri ilə əlaqəli məsələdə tənqidi nöqteyi-nəzərdən çıxış edirlər. XX əsrin 70-ci illərində sosial işin ənənəvi formalarını kəskin tənqid edən bu üsul, onun yeni formalarının – sosial müvəkkillik, özünüdərkin inkişafı və yüksəldilməsi və s. əsaslandırılması məsələlərini ön plana çəkməyə çalışırdı. Sosial özünümüdafiə, sosial subyektlilik rolunun yüksəldilməsi kimi məsələlər xüsusi vurğulanırdı.

Sosial işin məzmununun elmi cəhətdən dərk edilməsi məsələlərində ən kəskin tənqidi radikal mövqeyi marksizm tuturdu. Bununla əlaqədar, sosial iş haqqında 3 əsas mövqe meydana çıxır.

1. Mütərəqqi mövqeyə görə, sosial iş dəyişikliklərin müsbət faktorudur, çünki o, əhalinin zəhmətkeş təbəqələrini istismar edən

burjua cəmiyyətinin köməyə ehtiyacı olan sosial qruplarını birləşdirir. Müvafiq vəziyyətdə sosial işçi çox böyük qüvvədir, çünki o, insanların mənlik şüurunun oyanmasına, dəyişikliklərin aparılması üçün onların kollektiv hərəkətlərə qalxmalarına köməkçi olur;

2. Reproduktiv mövqe, sosial işçilər, fəhlələri və zəhmətkeşləri istismar edən burjua cəmiyyətində sinfi nəzarətçi rolunu oynayan agentlər kimi təqdim edir;
3. Ziddiyyətli mövqe, sosial işi, bir tərəfdən, kapitalist cəmiyyətini zəiflədən və zəhmətkeş kütlələrin konsolidasiyasını təmin edən, əhəmiyyətli ictimai hadisə hesab edir, digər tərəfdən isə, sosial işçilər, kapitalist cəmiyyətindəki sosial gərginliyi azaltmaqla, onun sabitliyini təmin edənlər funksiyasın yerinə yetirməli olurlar.

Əgər sosial işin ənənəvi modelinin radikal tənqidini ümumiləşdirmiş olsaq, onda onları aşağıdakı müddəalarla ifadə etmək olar:

- ənənəvi sosial iş, mürəkkəb sosial problemləri fərdi-psixoloji səviyyədə izah etməyə çalışdığından, "günahkar" tapmaq tendensiyası yaranır və sosial mənşəli problemlərin məsuliyyətini kliyentlərin üzərinə atırlar;
- ənənəvi sosial iş, insanları sosial problemlərlə "cilovlayır" və onların diqqətini çətinliklərlə qarşılamamaları üçün onlara kömək edə biləcək digər mövcud məsələlərdən uzaqlaşdırır;
- ənənəvi sosial iş istismar cəmiyyətini gücləndirir, sosial münaqişələri dəf etməklə onun sabitliyini artırır.

Ənənəvi modeli tənqid etməsinə baxmayaraq, sosial işin bu modelləri arasında çoxsaylı əlaqələr də mövcuddur:

Birincisi, həm ənənəvi, həm də radikal model israr edir ki, məhz cəmiyyət, şəxsiyyətin fərdi həyatında problemlərin yaranmasına şərait yaradır;

İkincisi, hər iki üsul insanlarla cəmiyyət arasındakı münasibətləri qarşılıqlı, interaktiv, transaksional münasibətlər kimi nəzərdən keçirir və qeyd olunur ki, biz öz sosial əhatəmizə təsir göstərdiyimiz kimi, o da bizə təsir göstərməyə qabildir;

Üçüncüsü, hər iki üsul, müştərinin muxtariyyətini nəzərdə tutur;

Dördüncüsü, hər iki üsul, müştərinin həyati situasiyasının dərk etməsinin vacibliyini və onun müsbət tərəflərinə təsirin göstərilməsinin önəmliliyini vurğulayır.

Sosial işin sosioloji yönümlü nəzəriyyələri sırasına həll modeli də aiddir. O, aşağıdakı məqsədlərin əldə edilməsini nəzərdə tutur:

1. Kliyentə mövcud problemlərinin həlli ilə əlaqədar özlərinin "kazual agentlər" olduqlarının tılqin edilməsi məsələsində köməyin göstərilməsi;
2. Kliyentlər tərəfindən sosial işçinin, onun üçün faydalı olan səriştəli və səlahiyyətli mütəxəssis kikmi qəbul edilməsinə köməyin göstərilməsi;
3. Kliyent tərəfindən sosial işçinin, onun bəzi problemlərinin həllində maraqlı olan tərəf, əməkdaş kimi qəbul edilməsi;
4. Sosial işin təşkilinin hakim və səlahiyyətli strukturunun kliyent tərəfindən mürəkkəb, lakin açıq bir qurum kimi qəbul edilməsinə köməyin göstərilməsi.

8.3. Sosial işin kompleks modelləri. Sosial-pedaqoji modeli

Sosial işin kompleks modelləri sırasına aşağıdakılar aiddir:

1. Sosial-pedaqoji
2. Vitalist

Sosial iş nəzəriyyəsində sosial pedaqogika modeli də önəmlidir. Sosial pedaqogika – sosial işin tərkib hisssəsidir. O, böyüməkdə olan nəslin sosiallaşmasına mühitin sosial faktorlarının təsirini tədqiq edən, sosial mühitin konkret şərtləri nəzərə alınmaqla, şəxsiyyət, qrup, ərazi səviyyəsində tərbiyənin optimallaşdırılması məqsədi ilə səmərəli tədbirlər sistemini hazırlayan və gerçəkləşdirən bir elm kimi xarakterizə edilir. Bu elm, insanı sosial dəyərlər dünyasında müşayiət etməklə, onun müəyyən mühitə uyğunlaşmasına köməkçi olur.

Sosial işin sosial-pedaqoji modelinin özünəməxsusluğunu müəyyənləşdirərkən bir faktı nəzərə almaq lazımdır ki, sosial pedaqogika bir elm, tədris fənni və pedaqoji praktikanın bir sahəsi kimi, böyüməkdə olan nəslin, bütövlükdə isə əhalinin çox səviyyəli

sosiallaşması vəzifəsini qarşısına məqsəd qoyur. Beləliklə, sosial pedaqogikanın vəzifəsi, təkcə şəxsiyyətin sosial mühitə uyğunlaşdırılmasını öyrənməklə bitmir, həmçinin, pedaqoji problemlərin həlli nəzərə alınmaqla, həmin mühitin dəyişdirilməsində iştirakını da öyrənir. Bu nöqteyi-nəzərdən sosial pedaqogikanın inkişafında iki qarşılıqlı əlaqəli məqamı – bir tərəfdən şəxsiyyətin sosiallaşması və resosiallaşmasını, digər tərəfdən isə, mühitin pedaqogikalaşdırılması, yaxud şəxsiyyətin, sosial münasibətlərin və mühitinin dəyişdirilməsinə doğru yönəldilmiş sosial pedaqogikanı ayırmaq olar. Mühitin neqativ təsirini kompensasiya etmək məqsədi ilə sosial pedaqogika alternativ institutların yaradılmasının zəruriliyini ön plana çəkir. Yaranacaq sosiallaşma institutlarının yaradılmasının zəruriliyini ön plana çəkir. Yaranacaq sosiallaşma institutlarının həm pedaqoji korreksiya, həm də əhalinin sosial sağlamlığının yüksəldilməsi nöqteyi-nəzərindən dəyərləndirilməsi və qiymətləndirilməsi çox vacibdir.

Sosial işin bu modeli, onun gerçəkləşdirilməsi üçün iki tip sosial pedaqoqların işə cəlb olunmasını nəzərdə tutur. Onlardan *birincilər*, şəxsiyyət səviyyəsində sosiallaşma və resosiallaşma məsələlərini həll etməli, digərləri isə, əxlaq və sosial dəyərlər, eləcə də ictimai inkişaf tələbləri nəzərə alınmaqla, şəxsiyyətin sosiallaşma və resosiallaşma prosesinə maneçilik törədən, sosial mühit komponentlərinin təsirini öyrənməklə məşğul olmalıdırlar.

Beləliklə, sosial-pedaqoji model, sosial iş nəzəriyyəsinin konseptual üsullarından biri olmaqla, kompleks yanaşmanı bir daha təsdiqləyir.

Vitalist üsul kompleks modelin ən mühüm üsullarından biridir. Vitalizmi biologiyanın idealist yönümü kimi xarakterizə edirlər. Bu yönümə əsasən, həyatda canlı olan bir çox cismin xislətində xüsusi cansız, naməlum qüvvələr mövcuddur. Bu baxış bir çox hallarda təndiq olunmaqdır.

Problemin bu cür anlamının qədim tarixi kökləri vardır. Bpyük filosof Platonun ruhun ölməzliyi, Aristotelin "psixikası" – canlı təbiət hadisələrini idarə edən xüsusi cansız qüvvənin – entelexiyanın mövcudluğu haqqındakı ideyaları bunun bariz nümunələridir. Əksər hallarda bunu müasir elm də təsdiqləyir ki, canlı varlıq olaraq insan həm

maddi, həm də mənəvi qüvvələrin daşıyıcısıdır və ayrı-ayrı insanların ektrasensor, bioenergetik qabiliyyətləri bunun əyani göstəriciləridir.

8.4. Vitalist model

Vitalist model çərçivəsində insanın həyati qüvvələri anlayışı ətraflı nəzərdən keçirilir. İnsanın həyati qüvvələri dedikdə, onun biososial varlıq olaraq, nəsilartırma və həyat sürmək, öz tələbatlarını səmərəli şəkildə ödəmək başa düşülür. İnsanın həyati qüvvələri, onun fərdi və sosial subyektliyinin birliyi kimi nəzərdən keçirilir.

Fərdi subyektlilik deyəndə insanın müxtəlif tələbatlarını fərdi-şəxsi vasitələrlə ödəmək və inkişaf etdirmək qabiliyyəti nəzərdə tutulur.

Sosial subyektlilik isə, insanların öz maraq və tələbatlarını ödəmək və inkişaf etdirmək qabiliyyətlərini cəmiyyətin müvafiq sosial institut və təsisatlarının köməyi vasitəsilə gerçəkləşdirilməsini nəzərdə tutur. Bütövlükdə, həm fərdi, həm də sosial subyektlilik, insanın özəl və ictimai məqsədlərinin, həyati orientasiyalarının əldə edilməsinə xidmət göstərən mühüm amillər kimi nəzərdən keçirilməlidir.

Bununla əlaqədar sosial iş, insanın həyati qüvvələrinin formalaşmasına, gerçəkləşdirilməsinə və reabilitasiyasına kömək göstərən bir fəaliyyət, proses kimi başa düşülməlidir. Bu, onu struktur və psixososial işin vəhdəti, sosial işin psixoloji yönümlü ənənələri ilə sosioloji nəzəriyyəsinin kəsişməsi kimi nəzərdən keçirməyə imkan verir. Başqa sözlə desək, kompleks üsulu sosial iş nəzəriyyəsində böyük üstünlük təşkil edir. Məhz bunun sayəsində sosial işin strateji istiqamətləri işlənib hazırlanır, onun müxtəlif texnologiyalarının qarşılıqlı əlaqəsi korreksiya edilir, insanların rifahının və həyati qüvvələrinin sosial müdafiəsi məqsədi ilə sosial işin yeni praktik yönümlü üsulları formalaşdırılır.

Müvafiq konsepsiya çərçivəsində praktiki fəaliyyət modeli bir vəzifə olaraq qarşısına aşağıdakıları qoyur:

Birincisi, kliyentlərin öz imkanlarını mənfi qiymətləndirmək reaksiyalarının qarşısınınn alınması, problemlərinin və həyati

çətinliklərinin həll edilməsi məqsədi ilə onların müqavimət qabiliyyətlərinin artırılması, mövcud komplekslərin dəf edilməsi;

İkincisi, mövcud vəziyyətin mənfi məqamlarını neytrallaşdırmaqla, kliyent üçün labüd olan müsbət yönümünün inkişafı və onun probleminin həllində ona dəstək;

Üçüncüsü, kliyentin problemlərinin həlli imkanlarının mümkün variantları ilə əlaqədar, onun ətraflı məlumatlandırılması və xəbərdar edilməsi zəruridir, xüsusilə də mənəvi zəminlər nöqteyi-nəzərindən;

Dördüncüsü, müştəri, sosial işçinin onun problemlərini həll etmək iqtidarında olması qənaətinə gəlməlidir;

Beşincisi, fərdi-şəxsi və sosial vasitələrlə kliyentin öz maraq və tələbatlarını ödəyə bilmək qabiliyyəti dəqiq qiymətləndirilməli və sosial işçilərin fəaliyyət strategiyası müəyyənləşdirilməlidir.

Müasir sosial işdə psixoanalitik yanaşmanın mahiyyəti onun keçmiş və indiki təcrübə, daxili və xarici reallıq, insanın özü və "əhəmiyyətli başqası" arasındakı əlaqənin – psixoloji prosesin vacibliyini vurğulamasındadır.

İnsanların daxili vəxarici dünyaları arasındakı gərginlik, məhz sosial işçilər üçün aydın və eyni zamanda böhranlı olur. Ehtimal ki, bəzi sosial işçilərin psixoanalizə əsaslanan ideyalara ənənəvi mənfi münasibəti və bu ideyaların potensialını yoxlamaqdan yan keçmələri, məhz onların bu gərginliyi aradan qaldırmağa qabil olmamalarından irəli gəlir. Bu səriştənin olmamağının mənbəyi isə, çox vaxt sosial işin təbiəti, onun başlıca məqsəd və vəzifələri barədə yekdil fikrin olmamasındandır. Vəziyyətin qiymətləndirilməsi və ona müdaxilə ilə əlaqədar iki fərqli məqamı ayırmaq olar: birinci, ətraf mühit amilini əsas götürərək, emosional amillərin rolunu inkar edir; ikinci isə, əksinə, emosiya və münasibətlərin aparıcı rolunu vurğulayır, sosial ətrafın əhəmiyyətini isə kifayət qədər dəyərləndirmir. Bu qütbləşmə, hələ də qeyri-müəyyən olaraq qalmaqdadır.

Şübhəsiz ki, bir çox cəmiyyətdə kliyentlərin problemlərinin çox hissəsinin kökü yoxsulluqda və onların əlverişsiz vəziyyətindədir. Bu haqda Böyük Britaniya, ABŞ kimi sosial iş sisteminin inkişaf etdiyi ölkələrin alimləri öz tədqiqatlarında sərt açıqlamalar verirlər. Səhiyyəyə,

yaşayışa, təhsilə və məşöulluğa yaxın olan kobud bərabərsizlik həm Qərbi və Şərqi Avropada, Amerikada, həm də Asiyada mövcuddur. Problemlərin həllini fərdlərə öz bədbəxtliklərinə alışmağa kömək etməkdə deyil, ağıllı siyasi hərəkətlərdə axtarmaq lazımdır. Lakin struktur izahlar "nə üçün bəzi insanlar öz övladlarını təhqir edirlər? Halbuki oxşar sosial şərtlər daxilində olan başqa valideynlər bujnu etmirlər" tipli suallara yetərli cavab deyillər. Siyasi ölçülər, eləcə də, ər-arvad cütlüyünün münaqişəyə olan istəyini və ya ailə tərbiyəsinin pozulması zamanı uşaqları müdafiə etmək tələbatını ödəmək imkanına malik olmurlar. Buna görə də, sosial işçilər öz fəaliyyətlərini kliyentlərin sırf daxili problemləri, yaxud yalnız onların sosail ətrafı ilə məhdudlaşdırıla bilməzlər. Sosial işçilər nəinki həm bunu, həm də onu etməli, onlar eyni zamanda daxili və xarici amillərin qarşılıqlı təsiri altında işləməli, hətta imkan daxilində bu qarşılıqlı təsiri istiqamətləndirməlidirlər. Bu deməkdir ki, sosial işçilər daxili və xarici reallıqlar arasındakı gərginliyi aradan qaldırmalıdırlar, bu isə çox mürəkkəb bir ümumbəşəri məsələdir.

Bundan əlavə, bu gün istənilən müasir cəmiyyət sosial işçilərə tez təsiredici, bəsit, dar məqsədli və "təcili sosial yardım paketləri" adlanan konkret proqramlar şəklində səmərəli iş nümayiş etdirmək məqsədilə təzyiq edir. Belə bir kobud praqmatik yanaşma sosial işçilərdə insanın hiss və münasibətlər dünyasına "qeyri-ciddi bir hadisə", əngəl, müdaxilə, yaxşı halda isə əhəmiyyətsiz əlavə kimi baxmaq meyli yarada bilər. Halbuki, daxili və xarici reallıqlar arasında balans hökmən gözlənilməlidir; praktik ölçülər onların kliyent üçün emosional əhəmiyyətini anlamadan gözlənilən nəticəni təmin edə bilməzlər.

8.5. Sosial işdə psixodinamik yanaşma və psixoanalizm

Sosial işdə psixodinamik ideyaların münasibliyinin qiymətləndirilməsi zamanı insan davranışının psixoanalitik anlamının böyük əhəmiyyəti ilə bu yanaşmanın müdaxilə metodu kimi tətbiqinin məhdudluğu arasındakı vacib fərqi nəzərə almaq lazımdır. Psixodinamik yanaşma sosial işçinin kliyentlərin şəxsi həyatlarında baş verənləri və razılaşdırılmış sosial işdə kliyentlə olan xüsusi münasibətlərini anlaması baxımdan böyük əhəmiyyət kəsb edir.

Sosial iş təlimi proqramlarında psixoanalitik düşünmə tərzinin tədris üsulunu yaxşılaşdırmaq lazımdır. Öyrənmə, həm təcrübənin yaşanması səviyyəsində, həm də koqnitiv səviyyədə baş verməlidir. Akademik anlamın peşəkar və şəxsi təcrübə ilə uzlaşması zəruridir. Bu, tələbələrin, müəllimlərin və təcrübələrin mənlik şüuru və emosional resurslar qarşısında tələblər qoyacaqdır.

Məsləhət işində psixodinamik yanaşmanın teztəsirli davranış yanaşmasına üstünlük verən bəzi sosial iş məktəbləri tərəfindən tənqidə məruz qalmasına baxmayaraq, o, sosial işdə uzun müddət aparıcı mövqe tutmuşdur. 1980-ci illərdə artıq psixoloji məsləhət xarici ölkələrdə bir tərəfdən psixoterapiyadan, digər tərəfdən isə, məsləhət və tövsiyyələrdən qəti olaraq fərqləndi və ilk növbədə sosial işin daxili olduğu yardımla əlaqədar ixtisaslar çərçivəsində metod kimi yüksək qiymətləndirilirdi. Konsultasiyada bu və ya digər yanaşmanın üstün tutulmasına, adətən, müəyyən ölkədə bərqərar olmuş tarixi ənənələr, xüsusən, əvvəl mövcud olmuş psixoloji və psixoteravtik məktəblər təsir edirlər. Müasir dövrdə inkişaf etmiş sosial məktəb sistemlərində iki başlıca məktəb – *psixodinamik* və *şəxsi-oriyentasiyalı* məktəblər dominantdırlar. Psixodinamik ideyalar həm Qərbi, həm də Şərqi Avropa mədəniyyətində inkişaf etməkdə davam etdiyi üçün konsultasiya zamanı bu yanaşma daha məqbul və səmərəli sayılır.

Psixodinamik yanaşmada kliyentlə konsultant arasındakı mərkəzi qarşılıqlı münasibətlərə böyük əhəmiyyət verilir. Lakin bu yanaşma sadəcə kliyentlə birgə olmaq kimi səciyyələndirilə bilməz. Bu, münasibətlərin kəsb etdiyi məna və kliyent barədə verdiyi bilgi sosial işdə psixoanalizin *insayt* adlandırdığı hadisə ilə bağlıdır. İnsayt sosial işin hər üç formasında – konsultasiyada, resursların axtarışında və yardım şəbəkəsinin yaradılmasında dəyişmə prosesinə verdiyi norma böyükdür. Nəticədə hiss edən və müşahidə edən Eqo güclənir, başqa sözlə, insanda "Mən" hissi güclənir. Beləliklə, kliyent həm də öx daxili hiss və reaksiyalarını anlamaqla onlar üzərində nəzarəti öz üzərinə götürmə imkanını insayt vasitəsilə qazanır.

Sosial iş praktikası göstərdi ki, bir çox psixoanalitik konsepsiyalar nəinki psixoanalitikin kabinetində, həm də real sosial iş "sahəsində" də (sosial-fieldwork) səmərəli işlək oldu. Psixodinamik yanaşmanın "sosial

işin bu yönümünə (psychodynamic social work) relevant olan başlıca ideyaları aşağıdakılardır:

-psixoloji müdafiələr (proyeksiyalar, aqressorla identifikasiya, reallığın inkarı və s.);

-dəyişikliklərə qarşı müqavimət;

-ambivalentlik (kliyentdə arzuların və kontarzuların olması);

-Eqo-nun təsəvvür olunan və real Eqo-ya bölünməsi (splittinq);

-obyektə münasibətdə pozisiyalar (MŞKlyan): paranoyal və "depressiv" mövqe;

-qayğı çəkmək, narahat olmaq qabiliyyətinin inkişafı (Z.Freyd, D.Vinnikott);

-köçürülmə və kontr-köçürülmə;

-refleksiya prosesi;

-pozisiya deyil, təcrübənin yaşanmasıdır ("working through");

-kliyentin əsas problemlərinin işlənilməsi;

-müdaxilə deyil, anlama;

-dilemmaların kliyent tərəfindən həlli (məsələn, inam-asılılıq, mütilik-avtonomluq; rəqabət-əməkdaşlıq, dəyişmə-itki);

-inkişafda təsbit nöqtələrinə qayıtma (xüsusilə uşaqlarla işdə).

Bütün bu ideyalar Z.Freyd və onun ardıcılları tərəfindən irəli sürülmüş və işlənilmişdir. Praktikada isə onlardan yalnız psixoanalitiklər və psixoterapevtlər deyil, həm də gündəlik işlərində uşaqda ana dprivasiyası, simbiotik münasibətlər, psixoloji asılılıqlar, özünüdağıdıcı davranış, kəskin davranış, müdafiə reaksiyaları, aqressiya (məsələn, doğmalara münasibətdə), ailədə, hökmranlıq problemi (məsələn, qısqanclıq), narsist şəxsiyyətlərin davranışı və başqa uğursuzluq fenomenləri ilə üzləşən sosial işçilər də istifadə edirlər.

Psixoanalizin banisi Z.Freyd həm də adaptiv yanaşmaın əsaslarını yaratmışdır. "Uyğunlaşma konsepsiyası" təhrik ilə obyektin qarşılıqlı əlaqəsi problemlərinin tədqiqi zamanı Freyd tərəfindən düşünülmüşdür.

Köçürmə - təhlil materialının başlıca və daha önəmli mənbələrindən, daha əhəmiyyətli motivasiyalardan biri olmaqla yanaşı, konsultasiiyanın və digər yardım növlərinin uğurlu olması yolunda ciddi bir maneədir. Kliyentin dərkolunmaz həvəslərinin frustrasiyası onu öz libido və aqressiv impulslarını (təhriklərini) kpçürəcəyi obyektləri şüursuz olaraq axtaran bir subyektə çevirir. Kliyent öz keçmişini indiki anda mövcud olan, aktual insani münasibətlərin qurulması vasitəsilə təkrarlanmağa meyllidir. Təmin olunmaq üçün o, yalnız yenidən yaşanmalı deyil, eyni zamanda həyəcan və günahı müəyyən qədər özünə tabe etməlidir. Köçürmə - keçmişdən "qurtulma", indinin keçmiş vasitəsilə yanlış anlaşılmasıdır; sosial iş praktikasında köçürmənin vacibliyi o faktla şərtlənir ki, köçürmə reaksiyası lazımi şəkildə işlənilmədiyi halda, kliyent yardım edən insana münasibətdə öz keçmişindən olan bu konkret insanla o qədər də uzlaşmayan əhəmiyyətli hisslər keçirir.

Unutmayaq ki, kliyent özünün müəyyən davranış və ya reaksiyalarını dərk etmək və onlar üzərində işləmək əvəzinə, onları təkrar etməyə meyllidir. Təkrar həmişə dərketmə və hafizə funksiyalarına qarşı müqavimət kimi çıxış edir. lakin kliyent yennidən təkrar yolu ilə pz keçmişi üçün analitik vəziyyətə daxilolma imkanı qazanır.

Köçürmə reaksiyalarının fərqli təsnifatları mövcuddur. Adətən, pozitiv və neqativ köçürmə formalarını ayırd edirlər. "Pozitiv köçürmə" əhəmiyyətli dərəcədə başqasına olan rəğbət hissi, məhəbbət və hörmət reaksiyalarına şamil edilir. "Neqativ köçürmə" anlayışı isə, həmin adama qarşı hiss olunan aqressiya, qəzəb, antipatiya, nifrətin növlərinə aid edilir.

Psixoterapiyanın analitik formalarında köçürmə reaksiyaları təhlil olunmur, lakin onlarla işləyirlər. Terapevt keçmişdən olan əhəmiyyətli fiqurun (real və ya fantastik) ona sırınmış rolunu qəbul edərək, pasiyentin uyğun infantil arzularının təzahürünə imkan verir. Terapevt *sevən, dəstək verən* və ya əksinə, *cəzalandıran* valideyn kimi davrana bilər. Bunun nəticəsində isə pasiyent müvəqqəti olaraq özünü yaxşı hiss edər və hətta sağala bilər.

Müqavimət, psixoanalizin yaratdığı nəzəri konsepsiya deyil, o, köçürmə kimi fenomental reallıqdır. Bu, pasiyentin adi həyatında istifadə etdiyi müdafiə müxanizmlərinin təkrarıdır. Psixi hadisələrin bütün variasiyaları və davranışın müxtəlif formaları müqavimət məqsədi ilə istifadə oluna bilər.

Psixoanalitik terapiya, müqavimətin müfəssəl, sistematik təhlili ilə xarakterizə olunur. Psixoanalitik yönümlü yardımçının vəzifəsi pasiyentin *necə, nəyə və nə üçün* müqavimət göstərdiyini müəyyən etməkdən ibarətdir.

Konsultant kliyenti psixoanalitik yanaşma baxımdan dinləyir, anlayır və uyğun olaraq intervensiyanı (yəni müdaxiləni) həyata keçirir. R.Patton və A.Meara psixoanalitik konsultasiyanın aşağıdakı başlıca proseslərini ayırmışlar:

1. Materialın kliyent tərəfindən daha yaxşı açılması üçün söhbətdə fəal mövqe əlverişlidir. Məsləhətçi söhbətə olan marağını, öz iştirakını nümayiş etdirir; kliyent materialı mümkün qədər sərbəs təqdim edir, bununla yanaşı bəzən qarşı tərəf fəal olmalıdır.
2. Köçürmə. Bütün kliyentlər məsləhətçi ilə transfer münasibətlər yaratmağa əvvəlcədən hazırdırlar; transfer köçürmə uşaqlıq ümidləri və arzularının aktual vəziyyətə köçürülməsindən ibarət normal prosesdir. Köçürmə kliyentin çətinliklərinin anlaşılması üçnü mərkəzi əhəmiyyət kəsb etdiyi üçün kliyent və məsləhətçi tərəfindən təhlil olunmalıdır.
3. Məsləhətçi prosesi müşahidə edir, onu müəyyən psixoanalitik nəzəriyyə nöqteyi-nəzərindən anlayır, özünün kontr-köçürmələrini və affektiv reaksiyalarını öyrənərək, kliyentə şərh edir.
4. Kliyent məsləhətçi şərhləri üzərində düşünür və onları öz tələbatlarına uyğunlaşdırır.
5. Kliyent öz köhnə yanaşmalarından əl çəkir, onları dəyişdirir və beləliklə, özü haqda yeni biliklərə uyğunlaşır.

Bu proseslər aşağıdakı funksiyaları daşıyır: elan olunan şikayət və problemlərin azalması; cari çətinliklərə səbəb olan amillər haqda bilik əldə etmək; yeni tapılmış imkanların tətbiqini planlaşdırmaq.

Kliyent həmişə danışmağa sadəcə olaraq, aprior şəkildə qabil deyil. Buna görə də materialın bir hissəsini təqdim edir, digər hissə isə gizli (həm də kliyentin özü üçün) qalır. Məsləhətçi nümayiş olunan davranışın latent informasiyası barədə təsəvvürüqazanmalıdır. Bir şeyin unudulmadığı və dərk olunduğu təqdirdə bunu etmək asanlaşır: kliyentin materialının dağınıq hissələrini ümumi mövzu birləşdirir. Bu mövzu kliyentin şüursuz materialının məhsulu kimi başlanğıc şikayətlərdə tapıla bilər. Bununla yanaşı, nəzərdə saxlamaq lazımdır ki, kommunikasiya həmişə bir neçə səviyyədə həyata keçirilir:

1. Nümayiş olunan səviyyə: adi dildə, gündəlik istifadə.
2. Latent məna: arzular və cəhdlər şəklində ifadə olunur.
3. Nümayiş olunan davranışın kükəndə məsləhətçiyə və başqa əhəmiyyətli fiqurlara istiqamətləndirilmiş köçürmədə yerləşən arzuların dili dayanır.

Kliyentin nümayiş etdirdiyi kommunikasiya onun şüursuzluq kommunikasiyasından törəmədir. Köçürmə bu kommunikasiya vasitəsilə təzahür edir. Bu latent kommunikasiya artıq ilk şikayətlərdə iştirak edir. Məhz bu səbəbdən söhbətə kliyentin cari hadisələr barədə hekayətindən başlamaq məsləhət görülür. Bu hadisələr isə kliyentin daxili həyatına və təqdim etdiyi problemlərə uyğunluqları nöqteyi-nəzərindən anlaşılmalıdır.

Psixoanalitik konsultasiyaya görə hər bir stressə müəyyən hiss uyğundur:

- Depressiya itkiyə uyğundur.
- Utanc. Bu, bədənə və ya özünqiymətləndirməyə olan zərərə qarşı adi reaksiyadır və günah, pərtlik, alçalma hissləri ilə bağlıdır.
- Aqressiya. Aqressiya intellektual funksiyalardan istifadəyə mane olur.

Özünün əsas səhvlərini öyrənərək pasiyent köhnə yollarla getməyə davam etmək və ya yeni istiqamətlərdə hərəkət etmək barədə qərar vermək imkanı qazanır. Adlerin yanaşmasının tərəfdarları hesab edirlər ki, hətta pasiyent tərəfindən bu istiqamətlərin seçimi faktında da azadlıq, sərbəstlik elementi çox vacibdir. Q. və R.Ansbaxerlər qeyd edirdilər ki,

“məsləhət alan şəxs istənilən şəraitdə əmin olmalıdır ki, o, müalicəyə münasibətdə tamamilə sərbəstdir. O, bir şeyi edəm də bilər, etməyə də. Hər şey onun özündən asılıdır”. Pasiyent öz marağı ilə sosial maraq arasında seçim edə bilər. Əgər pasiyent dəyişmə yolunu seçirsə, bu zaman təhsil prosesinin qarşısına qoyduğu məqsədlər aşağıdakılardan ibarət olur:

- Sosial marağın tərbiyyə olunması;
- Natamamlıq hissinin azaldılması, pozuntuların dəf olunması, şəxsi resursların müəyyən olunması, qəbul edilməsi və onlardan istifadə;
- İnsanın həyat tərzinin, yəni həyatın və onun məqsədlərinin dərki səviyyəsinin dəyişməsi; terapevtik məqsəd – “böyük səhvlərin kiçik səhvlərə” transformasiyası;
- Hətta məqbul davranışın əsasında duran səhv motivasiyanın dəyişdirilməsi və ya dəyərlərin əvəz edilməsi;
- Fərdin insanlarla bərabərliyin etirafına rəvac vermək.

Bu məqsədləri əldə edən kliyentlər özlərinin kimə və ya nəyə aid (lazmı) olduqlarını hiss edəcəklər, həmçinin özlərini və başqalarını daha düzgün qavranmağa başlayacaqlar. Onlar hiss edəcəklər ki, öz talelərini real həyat çərçivəsində qura bilərlər. Belə pasiyentlər, adətən onların davranışının qəbul olunduğunu və mükafatlandırıldığını görürlər. Onlarda optimizm, özünəinam, cəsarət, əminlik hissi yaranır.

Mövzu 9. Sosial işdə insan hüquqları və humanistlik, etika.

9.1. Sosial işdə insan hüquqları və ləyaqət

9.2. Sosial işçilərin məsuliyyəti və öhdəlikləri

9.3. Sosial işdə ədalət və mərhəmət ideyaları

9.4. Sosial işdə humanistlik

9.5. Sosial işdə etika

9.1. Sosial işdə insan hüquqları və ləyaqət

Sosial iş inkişaf etməkdə olan elm sahəsi kimi, özünün konseptual əsaslarının və metodoloji üsullarının formalaşması sahəsində böyük səylər etməkdədir. Sosial işin fəlsəfi, məntiqi-qnesioloji, etik, psixoloji-pedaqoji, hüquqi aspektləri işlənib hazırlanır, sosial işlə sosial tarixin qarşılıqlı əlaqələri təhlil edilir, sosial işin təşəkkülündə sosiologiyanın əlahiddə xidmətləri nəzərdən keçirilir. Beləliklə, sosial iş nəzəriyyə və praktikası sistemli yanaşma yolu ilə özünü inkişaf istiqamətlərini müəyyənləşdirməyə çalışır.

Sosial işlə fəlsəfənin qarşılıqlı əlaqəsini nəzərdən keçirərkən, diqqət yetiriləcək ən vacib məsələ humanism ideyaları və onun mərkəzində duran insan problem ilə əlaqədar olmalıdır.

Sosial iş nəzəriyyəsi və praktikası üçün insan probleminin, biogen, psixogen və sosiogen elementlərin üzvi vəhdəti kimi nəzərdən keçiriləsi məsələsi, yeni cari problemin kompleks dərki ümdə əhəmiyyət kəsb edir. Sosial iş insanın dünyagörüşləri və baxışlarının məzmun və mahiyyətinə varmadan, öz problemlərini səmərəli şəkildə həll edə bilməz.

Insanın dünyəvi anlamında, onun baxışları, həyatının mənası və məqsədi kimi anlayışlar ən önəmli yerlərdən birini tutur.

Insan həyatının dəyəri, ictimaiyyətlə şəxsi amillərin uzlaşdırılmasından, şəxsiyyətlə cəmiyyətin həyati dəyərlərinin uyğunlaşmasından asılı olur. Bəzən ictimai quruluşun xarakterindən və insanın fərdi xüsusiyyətlərindən asılı olaraq, bu dəyərlər ziddiyyət də təşkil edə bilərlər.

Lakin fərdi ilə kollektivi tutuşdurmaq heç də həmişə düzgün deyildir. Məşhur rus filosofu V.Solovyovun da qeyd etdiyi kimi, şəxsiyyətlə cəmiyyət ayrılmazdır və onlar bir-birilərinin davamıdır. Cəmiyyət hərtərəfli genişləndirilmiş şəxsiyyət, şəxsiyyət isə yığcamlaşdırılmış cəmiyyət deməkdir.

Sosial işin əsas strategiyası, insanı, onun dünyasının, fərdiliyinin, universallığının vəhdətində öyrənməkdən ibarətdir. Bu müddəanın gerçəkləşdirilməsi, səmərəli sosial iş texnologiyasının həyata keçirilməsi deməkdir.

Sosial işçi hər bir kliyentin ləyaqətinə və şəxsiyyətinə və bunlardan doğan haqqlarına hörmətlə yanaşmalı, fiziki, psixoloji, mənəvi və ruhi vəhdətini, rifahını dəstəkləməli (ön plana çəkməli) və müdafiə etməlidir. Insan hüquqları və insan ləyaqəti dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Öz müqəddəratını təyin etməyə hüquqa hörmət etmək – sosial işçi həyat tərəzi və dəyərlərindən asılı olmayaraq hər bir şəxsin seçim etmək və qərar vermək hüququna hörmətlə yanaşmalıdır.
- Güclü cəhətləri müəyyənləşdirmək və inkişaf etdirmək – sosial işçi kliyentin güclü xüsusiyyətlərini önə çəkməli və onların inkişaf etdirilməsinə səy göstərməlidir.
- Hər bir kliyentlə tam bir məfhum kimi davranmaq – sosial işçi kliyentə tam bir məfhum kimi yanaşmalı, yəni onun ailəsi, yaşadığı mühit, cəmiyyət ilə yaxından maraqlanmalı və kliyentin həyatının bütün amillərinə nəzər yetirməlidir.
- Hər bir insana şəxsiyyət kimi yanaşmaq – kimliyindən asılı olmayaraq sosial işçi kliyentə şəxsiyyət kimi yanaşmalı və davranmalıdır.
- Hər bir kliyentə fərdi yanaşmaq – sosial işçi hər bir kliyentə fərdi yanaşmalı, eyni problemli kliyentlərlə onların xüsusiyyətlərinə uyğun davranmalıdır.
- Məxfiliyi saxlamaq – sosial işçi kliyentin verdiyi cəmiyyətə və ya ikinci bir şəxsə ziyan vurmayacaq məlumatını gizli saxlamalıdır.

Sosial işçi cəmiyyətdə kliyentə qarşı törədilən ədalətsizliyə qarşı mübarizə aparmaq öhdəliyini daşıyır. Sosial ədalət dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Ayrıseçkiliyə qarşı mübarizə - sosial işçi risk qrupuna daxil olan kliyentə qarşı yaş, cins, irq və başqa fiziki xüsusiyyətlərinə, sosial-iqtisadi durumuna, siyasi inam, mədəniyyət və cinsi yönümlüyünə, dini baxışlarına görə ayrıseçkilik etməməli və eyni zamanda, cəmiyyətdə mövcud olan bu cür ayrıseçkiliyə qarşı mübarizə aparmalıdır.
- Müxtəlifliyə hörmət etmək – sosial işçi cəmiyyətdə mövcud olan etnik və mədəni (etniik qruplara aid adət-ənənələr) müxtəlifliyi tanımalı və hörmət etməlidir.
- Resursları ədalətlə (bərabər) bölmək – sosial işçi səlahiyyətində olan resursları ehtiyacı olan kliyentlər arasında ehtiyaca uyğun olaraq ədalətlə bölməlidir.
- Ədalətsiz siyasi məsələləri və hərəkatlara qarşı mübarizə - sosial işçi resursların ədalətsiz bölüşdürülməsi, zülmkar, ədalətsiz və məhv edici siyasətlərin, davranışların və hərəkatların mövcudluğu faktını öz müdirinin, siyasətçilərin, siyasi proqram hazırlayanların və ümumi ictimaiyyətin diqqətinə çatdırmaq vəzifəsi var.
- Həmrəy olmaq – sosial işçi kliyentlərin sosial təcridliyinə, damğalanmağına və itaətçiliyinə şərait yaradan sosial şərtlərə qarşı mübarizə aparmalı və inklusiv cəmiyyətin qurulmasına çalışmalıdır.

9.2. Sosial işçilərin məsuliyyəti və öhdəlikləri

Kliyentə qarşı öhdəliklər:

- Sosial işçi ilk növbədə kliyentin rifahını önə çəkməli və kliyentin maraqlarını müdafiə etməlidir.
- Öz müqəddəratını təyin etməyə-sosial işçi kliyentin həyat tərzi və dəyərlərindən asılı olmayaraq seçim etmək və qərar vermək hüququna hörmətlə yanaşmalıdır.
- İnformasiyanın alınmasına əsaslanan yanaşma – işə başlamamışdan əvvəl sosial işçi kliyentlə onun həyat situasiyası ilə bağlı hərtərəfli və dolğun məlumat verməisnə zəmanət verən yazılı razılaşma imzalanmalıdır.

- Maraqların toqquşması – sosial işçilər ədalətli mühakimə və peşəkarlığa mane olan maraqların toqquşmasından qaçmalıdır. Maraqların real və potensial münaqişəsi yarandıqda, sosial işçilər bu haqqda kliyentə məlumat verməli, kliyentin maraqlaırnı müdafiə edən rassional addımlar atmalıdırlar.
- Məxfiliyi qorumaq – kliyentin verdiyi məxfi məlumatlar özünə, ikinci bir şəxsə və ya cəmiyyətə ziyan vurmayacaq təqdirdə sosial işçilər tərəfindən gizli saxlamalıdır.
- Xidmətlər üçün ödəniş – ödəniş təyin edərkən sosial işçilərin ödənişin əsaslı, ədalətli və həyata keçirilən xidmətlərə uyğunluğuna əmin olmalıdır. Sosial işçilər peşəkar xidmətin ödənişi müqabilində kliyentdən xidmət və ya əmtəə almaqdan çəkinməlidir.
- Qərar qəbul etmək bacarığı məhdud olan kliyentin qərar qəbul etməsinə köməklik – qərar qəbul etmək bacarığı məhdud olan kliyentin adından çıxış edən sosial işçilər kliyentin hüquqlarını və maraqlarını müdafiə etmək üçün əsaslı addımlar atmalıdır.
- Xidmətlərin fasiləsi – sosial işçilər qeyri-müyəssərlik, yerdəyişmə, xəstəlik, əlillik, ölüm və başqa amillər, narahatlıq halları müşahidə olunmur.
- Xidmətlərin istifadəsinin sona çatdırılması – xidmətlər və sosial işçilərlə kliyentlər arasındakı peşəkar münasibətlərə artıq ehtiyac olmadıqda və kliyentin ehityaclarına və maraqlarına xidmət etmədikdə dayandırılmalıdır. Etik standartlar (müraciətçi, cəmiyyət, iş yeri, əməkdaşlar qarşısında) sosial işçilər kliyentlərə, əməkdaşlara, cəmiyyətə qarşı bir sıra etik standartları qorumalıdır.

Sosial işçilərin həmkarlarına qarşı etik məsuliyyəti

- Həmkarlarına daim hörmətlə yanaşmalıdır.
- Ədalətsiz hərəkətlərə qarşı həmkarları müdafiə etməlidir.
- Kliyentin ən yaxşı maraqları naminə həmkarlarının məsləhət və dəstəyindən yararlanmalıdır.
- Həmkarların səriştəlilik və ixtisaslaşmış olduqları sahələr haqqında məlumatlı olmalıdır.
- Həmkarları ilə şəxsi məqsədlər və ya hər hansı bir mövqeyin tutulması məqsədi olmadan fikir mübadiləsi aparmalıdır.

- Peşəkar münasibətlər zamanı həmkarları tərəfindən bölünən məxfi informasiyanın konfidensiallığını saxlamalıdır.
- Digər mütəxəssislərlə, kliyentlərlə ünsiyyət zamanı həmkarlarına münasibətdə əsassız və neqativ tənqiddən yayınmalıdır. Əsassız, neqativ tənqidə həmkarların sərişt əlilik dərəcəsi, irq, milli-etnik mənsubiyyət, yaş, ailə status, siyasi mənsubiyyət, din, əqli və ya fiziki əlillik kimi fərdi göstəricilərə alçaldıcı şərhlər aid edilə bilinər.
- Konsultasiya mövzusu ilə bağlı sərişt və biliyini nümayiş etdirmiş həmkarlar ilə fikir mübadiləsi aparmaq və bu mübadilə zamanı keysin müzakirəsi üçün vacib olan minimum informasiyanı verməlidir.
- Əlavə xidmətlər tələb olunduqda, sosial işçi keyslə bağlı əsaslı dəyişikliklər edəcəyinə əmin olmadıqda və yaxud kliyentin digər mütəxəssislərin ixtisaslaşmış bilik və təcrübəsinə ehtiyac yarandıqda kliyenti digər mütəxəssisə yönəltməlidir.

Sosial işçilərin cəmiyyətə yönələn öhdəlikləri:

- Sosial işçilər cəmiyyətin ümumi rifahını önə çəkməlidir.
- Sosial işçilər sosial siyasətin və qurumların formalaşdırılmasında ictimaiyyətin rasional iştirakını dəstəkləməlidir.
- Sosial işçilər sosial problemlər çərçivəsində ictimaiyyətin maarifləndirilməsində yaxından iştirak etməlidir.
- Sosial işçilrə sosial qanunların qəbul olunmasında yaxından iştirak etməlidir.

9.3. Sosial işdə ədalət və mərhəmət ideyaları

İnsan dünyasının formalaşdırılması cəmiyyətin mənəvi, ideoloji dəyərlərinin dərk edilməsi yolunda mürəkkəb idraki prosesdir. Bu proses həm də, insan tərəfindən cəmiyyətdə mövcud biliklərin, sosial keyfiyyətlərin mənimsənilməsi prosesidir.

İnsanın fəal, yaradıcı təbiəti, sosial işin fərqli nəzəri modellərində və praktiki təşkilində müxtəlif cür interpretasiya edilir. Sosiomədəni fenomenləri və ilk növbədə insanı tədqiq edərkən bütün idrak

metodlarından istifadə etmək lazımdır. İnsanı, mənsub olduğu mədəni mühitin, sosiomədəni ənənələrin ayrılmaz hissəsi kimi hərtərəfli surətdə nəzərdən keçirmək, onun xarakterik problemlərini öyrənmək, inkişafını müşahidə etmək lazımdır.

Sosial işçi öz fəaliyyətinin bütün sahələrində insanlar, şəxsiyyətlər və kollektivlər arasındakı münasibətlərlə bağlı olur.

Sosial işçinin bütün fəaliyyəti, sözün əsl mənasında, insan münasibətlərinin təkmilləşdirilməsinə doğru yönəlmişdir. Sosial işçi öz fəaliyyətində yüksək humanism ideyalarını gerçəkləşdirməli olur. Məhz, humanism ideyalarının inkişafı prizmasından sosial işlə fəlsəfənin qarşılıqlı əlaqəsini nəzərdən keçirmək məqsədyönlü olardı.

Hansı dövrdə yaşamasından asılı olmayaraq, hər bir filosof insan probleminin ən zəruri müzakirə obyekti olduğu qənaətinə gəlir. İnsanın həyat və fəaliyyətinin məzmunu, onun digər insanlara, təbiətə münasibəti və s. bu kimi problemlər ən ümdə problemlərdir.

Insan probleminin müxtəlif aspektlərinin dərk edilməsi, özünün spesifikliyini hələ də saxlamaqdadır. Lakin bununla belə, cari məsələni, dünya fəlsəfəsində antropoloji mövzunun inkişafı nöqteyi-nəzərindən ətraflı nəzərdən keçirmək daha səmərəli olardı. Artıq qədim Çin fəlsəfəsində (Konfutsi) ilk cücərtilər müşahidə olunur və humanism, xeyirxahlıq ən ali dəyərlər kimi qiymətləndirilir. “İnsan təkcə öz yaxınlarını sevməklə kifayətlənmir, o, hətta başqalarının da əziyyətini çəkməyə qadirdir.” ideyası bu fəlsəfənin əsas qayəsini təşkil edir. Günümüzə qədər gəlib çıxmış “konfusi” məzmunlu aforizmlərdə, bu əzəl ideyaları müşahidə edə bilərik – “Xeyirxahlıq olan yerdə hər şey gözəldir.”, “Xeyirxahlığa can atan, şərdən uzaq olar.”, “Xeyirxahlıq nümayiş etdirənlər, ən yüksək mükafata layiqdirlər.”.

Müxtəlif mədəniyyətlərdə, dövrlərdə, cərəyanlarda, fəlsəfi məktəblərdə, fəlsəfi axtarışların ümumbəşəri anlamı özünü birmənalı şəkildə büruzə verir və heç şübhəsiz, məhz bunun məntiqi nəticəsidir ki, ədalət və mərhəmət kimi anlayışlar, sosial iş fəlsəfəsinin ana xəttini təşkil edir.

Ədalət haqqındakı ilkin təsəvvürlərin mənbəyi kimi – insanın həyat fəaliyyətini və kollektivin mövcudluğunu müəyyən edən, bəsit bərabərlik ideyası çıxış edir.

İctimai fikir tarixində Platon ilk dəfə olaraq, ədalət kateqoriyasını mövcud sosial qaydalara əsaslandırmaq məqsədilə işlədib. Platon ədalətin yüksək hiss olduğunu sübit etməyə çalışırdı. Məhşur filosofun fikrincə, hər hansı bir insanın hisslərindən asılı olmayaraq, bu kateqoriyanın özünün məzmunu vardır. Platonun fəlsəfi düşüncələr sistemində artıq mərhəmət hisslərinin, münasibətlərinin təhlilini müşahidə etməyə başlayırıq. Lakin bütövlükdə ynan şüuruna xas olan məhdudiyyət Platondan da yan keçmir. Həmin mərhəmət və ədalət anlayışları bütövlükdə nəzərdən keçirilmir. Belə ki, ədalət anlayışı sırf qanunla əlaqədar olur. Şər əmək qanunu pozmaq deməkdir. Mərhəmətə, ac, yaxud başqa şeyə ehtiyacı olan insan deyil, məntiqi cəhətdən daha şüurlu olan və çətin vəziyyətə düşən insan möhtacdır.

Ədalətin fərdi deyil, ümumi, ictimai hadisə kimi anlamı öz davamını Aristotelin əsərlərində tapır. Məhşur yunan filosofunun təbirincə, ədalət çox vacib anlayışdır və onsuz nə ictimai, nə də siyasi həyat mümkündür. Bu anlayış hər bir azad insanın vətəndaş və əxlaqi keyfiyyətlərinin əsasını təşkil edir. ədalətin formal strukturunun işlənib hazırlanması kimi, məsul vəifənin də ğhdəsindən məhz Aristotel gəlmişdir. Antik filosof ədalətin 2 növünü seçib ayırır:

1. Bərabərləşdirici
2. Bölüşdürücü

Aristotel mərhəmət anlayışını da ətraflı araşdırıb, təhlil edir. O, bu hisslərin kimlərə məxsus olub-olmadığını araşdırmaqla kifayətlənməyib, kimlərin mərhəmət doğurduğunu da qeyd edir. O, mərhəməti müəyyən bir bəlaya mübtəla olmuş insana qarşı ifadə edilən hisslər kimi xarakterizə edir. Birinin başqasına qarşı mərhəmət duyması təbii hiss olmalıdır, çünki hər kəs dərk etməlidir ki, bu və ya başqa bəla onun və yaxınlarının da başına gələ bilər.

Beləliklə, antic fəlsəfə, ədalət və mərhəmət anlayışları ilə yaxından tanış olmasına baxmayaraq, onları bir-birləri ilə əlaqələndirə bilmir. Məsələn, ədalət – antic Yunan ictimai institutlarının ilkin göstəricisi

kimi çıxış edirdi. Ədalət, cəsarət, müdriklik kimi keyfiyyətlərlə bərabər, insanın əxlaqi simasını bəzəməli idi. Qanun vasitəsi ilə insanın cəsarət, kamal, təmkinlik kimi xüsusiyyətləri tənzimlənirdi.

Ədalət və mərhəmət ideyaları, digər tarixi dönəmlərdə də fəlsəfi fikrin aparıcı ideyaları olaraq qalmaqdaydı. Bunun bariz nümunəsini məhşur filosof T.Morun humanism və ədalət ideyalarında müşahidə etmək olar. Humanism ideyalarının daşıyıcılarının fikrincə, insan başqalarına ğzünə münasibət bəslədiyi kimi münasibət bəsləməlidir, çünki, biz hamımız, insan övladlarıyıq və bir kökə məxsusuq. Özünün "Utopiya"sında T.Mor qeyd edir ki, kamal və təbiət, bütün faniləri bir-birinə kömək etməyə, yaxınlarının qayğısını çəkməyə, dərdlərini bölüşməyə,. çətinliklərinə şərik olmağa təhrik edir. Xəstə və imkansız insanlara xüsusi qayğı göstərmək, qərib düşmüş insanlara və qullara qarşı xüsusi mərhəmət nümayiş etdirmək lazımdır. Çünki, insaniyyət və insanlıq – yaxınların və başqalarının qayğısına qalmaq deməkdir.

Məhşur ingilis filosofu F.Bekon ədaləti naturalist mövqedən nəzərdən keçirir. Onun fikrincə, anadangəlmə ədalət hissi, insanı heyvandan fərqləndirir və onu ali məxluqa çevirir. ədalətin başlıca məqsədi, ümumi rifahın təmin edilməsindən ibarətdir.

Ədalətlə bağlı ideyalar T.Hobbsdan da yan keçməmişdir. Ingilis filosofunun fikrincə, ədalət ideyası, sosial ideya olmaqla, insanın müəyyən tələbatlarını ifadə edir. Ədalət həmçinin idrakın qanunu olmaqla, bizim həyatımızı puç eləyəcək hərəkətlərə qadağa qoyur və təbii qanun kimi çıxış edir. Aristotelin ardınca T.Hobbs da ədalətin iki növünü fərqləndirir:

1. Bərabərləşdirici (kommunikativ)
2. Bölüşdürücü (distributiv)

Hobbs mərhəmət anlayışına da diqqət yetirir və qeyd edir ki, mərhəmət, başqasının bədbəxtliyinə rəğmən, bizim də başımıza gələ biləcək bədbəxt hadisələrlə əlaqədar doğan hisslər, təxəyyül deməkdir.

B.Spinoza, ədaləti dövlətin mövcudluğu və fəaliyyəti ilə sıx əlaqədə nəzərdən keçirir. Mərhəmət isə, onun fikrincə, başqasının başına gəlmişlərlə əlaqədar, fəlakət ideyası ilə müşayiət olunan narazılıq deməkdir.

D.Yumun fikrincə isə ədalət – süni, mərhəmət və xeyirxahlıq isə təbii mənəvi dəyərlərdir.

Ədalət ideyaları fransız maarifçilərdən də yan keçmir və onlar ədalət və mərhəmət anlayışlarını təbiət və dövlət faktorları ilə əlaqələndirməklə kifayətlənməyib, insan münasibətləri aspektindən də nəzərdən keçirirlər. Məsələn, J.J.Russonun fikrincə, insan doğuşdan xeyirxahdır və mərhəmət insan xarakterinin ayrılmaz hissəsidir. Russodan fərqli olaraq K.Helvetsi qeyd edir ki, qanunların zəruriliyi başqa bir həqiqəti təsdiqləyir. İnsanların müxtəlif maraqları, onları ya yaxşı, ya da pis edir və mənən pak vətəndaşlar formalaşdırmağın yeganə yolu, şəxsi maraqların ictimai maraqlarla uzlaşdırılmasındadır. Məhşur filosof sübut etməyə çalışır ki, mərhəmət nə anadangəlmə, nə də mənəvi hissdir. O, sadəcə özünüsevmənin sadə nəticəsidir.

Beləliklə, ədalət, mərhəmət, məhəbbət – fəlsəfi humanizm ideyalarının başlıca elementidir.

9.4. Sosial işdə humanistlik

İnsanın fəlsəfi anlamına əsaslanan humanism qeyd edir ki, əgər insanın ağıl və hisslərinin gerçəkləşdirilməsi üçün müvafiq şərait yoxdursa, hansısa insanpərvərlikdən bəhs etməyə dəyməz. Bununla əlaqədar Aristotel yazırdı: "Görünür ki, xoşbəxtlik üçün kənardan da rifah halları lazımdır. Çünki heç bir vəsait olmadan, xeyirxah əməəlləri gerçəkləşdirmək mümkün olmur. Əksər əməlləri dostların, var-dövlətin, dövlətdəki nüfuzun hesabına gerçəkləşdirmək mümkün olur. Başqa sözlə, müəyyən vasitələr xeyirxahlığın və mərhəmətin təməlində durur və onlardan hansısa birinin yoxluğu (məsələn, əsl nəcabət, gözəllik) çətinliklər yaradır".

Humanistlik – insan varlığının ontolooji formalarından biri, bəşəriyyətin əzəli meyarıdır. İnsan övladının mövcudluğunun ayrılmaz hissəsi olmaqla, humanistlik, insanpərvərliyi, başqalarının ləyaqətinə hörməti nəzərdə tutur. M.Haydeger qeyd edirdi ki, "humanism, əgər biz bu sözü qorumağa çalışsaq, yalnız bircə şey deməkdir: insanın varlığı dünyanın varlığı üçün önəmlidir".

Humanistliklə bağlı çoxsaylı təriflər mövcuddur. Fundamental antologiyaya görə humanistlik (humanizm) yaranışdan gəlmə bir şey deyildir. O, insan varlığının, onun daxili formasının tapıntısıdır. E.Fromm humanism psixologiyasının əsaslarını, insan varlığının həyat və məhəbbətlə əlaqəsində nəzərdən keçirir. "Məhəbbət – özünün xüsusiliyini və bütövlüyünü saxlamaq şərti ilə, başqa bir insanla birləşmək deməkdir".

Məhəbbət özünü, bizi əhatə edən insanlarla həmrəylikdə, kişi ilə qadın arasındakı münasibətlərdə, ananın övladına olan sonsuz sevgisində, insanın özünə qarşı münasibətində büruzə verir. Fəaliyyətlə əlaqədar məhəbbət özünə-qayğı, məsuliyyət, hörmət və anlam kimi mühüm mənəvi keyfiyyətləri daxil edir. Insanda sevgi ənənələrinin fəlsəfi kökləri də çox dərindir. Qədim yunan mədəniyyəti (Platon, Aristotel, Empedokl) məhəbbəti – dünyanın yaradıcı, hərəkətverici qüvvəsi hesab edirdi. Xristianlıq Allahın mövcudluğunu məhəbbətdə görür və insanı da bu məhəbbəti təlqin edir, beləliklə, məhəbbət, humanism fəlsəfəsinin aparıcı meyarı kimi çıxış edir.

Humanism, həyati təcrübə forması kimi, humanistlik və qeyri-humanistlik, xeyir və şər, sosial, etnik, siyasi və digər subyektlər arasında azadlıq və zorakılıq kimi münasibətlərin məcmusunu doğurur. Bu halda o, özünü müxtəlif şəkillərdə büruzə verə bilər – insaniyyət, qayğı, məhəbbət, hörmət, məsuliyyət, mənəvi borc və s.

Humanism fəlsəfi əsaslarının digər paradiqması olan antropoloji paradiqm öz diqqət mərkəzində aparıcı dəyər kimi insanı saxlayır. Sosial varlığın mərkəzində durmaqla, hər şey insandan başlayır və insan üçün edilir.

Insan idrakının humanist təbiəti özünü həm də, cəmiyyətin demokratik təşkilində, qeyri-zorakılıqda, seçim azadlığında və s. büruzə verir. Düşüncə tərzi kimi humanism, təkcə şəxsən sənin deyil, başqalarının hərəkətlərini məhdudlaşdıran hərəkətlərin qarşısının alınmasını, digərlərinin ağrı və əzablarının azaldılmasını da nəzərdə tutur.

Idrakı sistem kimi, humanism, daxilən ziddiyyətlidir. Humanizmin həll edə bilmədiyi məsələlər qeyri-humanizmin, ədalətsizliyin, zorakılığın ontoloji əsaslarını təşkil edir.

Humanizm dünyagörüşü kimi, insan haqlarını tanımaqla kifayətlənməyi, ləyaqətli, xoşbəxt həyatın hər kəsin danılmaz hüququ olduğunu israrla müdafiə edir.

Beləliklə, humanizm ideyalarının ana xəttini, milli, irqi yaxud sosial xüsusiyyətlərindən asılı olmayaraq, bütün insanlar üçün bərabərliyin və ədalətin təmin edilməsi prinsipi təşkil edir. Elə məhz buna görə də, sosial iş humanist mentalitetin praktiki gerçəkləşdirmə forması kimi çıxış edir.

Humanizm anlayışı, öz mahiyyət və məzmununa görə humanitar problemlər, yaxud cəmiyyətin maraqları ilə, yəni şəxsiyyətlərarası münasibətlərlə, ailə və insan əlaqələri ilə sıx bağlıdır. Çağdaş cəmiyyətimizdə, humanizm ideyaları mühüm əhəmiyyət kəsb edir, çünki ziddiyyətli sosial problemlərin həllinin mərkəzində məhz humanizm prinsipləri dayanmalıdır.

Şəxsiyyətlər və qruplararası münasibətlərdə humanizmin səviyyəsi, müxtəlif tarixi dönəmlərdə fərqli olmuşdur və günümüzdə də onun yüksəlişini müşahidə edirik.

Humanizmin sosial əsaslarından başqa, humanist baxışların qəbul edilib-edilməməsi ilə əlaqədar mövcud olan digər sosiobioloji şəxsi baxışlardan da danışmaq lazım gəlir. Söhbət altruizm və eqoizmdən gedir. Altruizm – şəxsiyyətin həyat oriyentasiyası prinsipi olmaqla, başqalarının rifahı naminə xidməti, qayğını nəzərdə tutur. Altruist üçün özgələrinin rifahı, özününkündən daha önəmlidir. Eqoizm – şəxsiyyətin həyat prinsipi oriyentasiyası olmaqla öz "mən"ini sevməyə, ona qayğı göstərməyə doğru yönəldilmişdir. Eqoist, başqalarının maraqlarını tapdalamaq hesabına olsa belə, öz maraq və tələbatlarını təmin edir.

Sosial iş nəzəriyyə və praktikası üçün fəlsəfi biliklər sistemində çox vacib hesab edilən, qneseoloji, nəzəri-idraki məsələlərin əhəmiyyətinin dərk edilməsi çox vacibdir.

Sosial iş praktikasında insan şüurunun səciyyəvi komponentləri və səviyyələri barəsindəki biliklər xüsusilə vacibdir, çünki sosial işçi, bu və

ya digər sosial texnologiya və metodikaların seçimi zamanı, müştərinin cari problemlə əlaqədar bilik səviyyəsini, müvafiq problemə emosional yanaşmasının xarakterini, həmçinin cəmiyyətdə ayrı-ayrı şəxslərdə həmin problemlə bağlı yaranmış stereotipləri nəzərə almalıdır. Məsələn, problem kimi boşanma ilə əlaqədar yaranmış stereotipləri nəzərə almalıdır. Məsələn, problem kimi boşanma ilə əlaqədar yaranmış böhran situasiyası çıxış edə bilər. Müvafiq problemlə əlaqədar sosial işçinin yanına gəlmiş kliyentə, şübhəsiz ki, kömək etmək, eyni zamanda mövcud stereotiplərə də aludə olmamaq lazımdır. Çünki əksər hallarda həyat yoldaşlarından biri "xeyirxahlıq mücəssəməsi", digəri isə "vicdansız" kimi çıxış edir. Məhz belə vəziyyətlərdə sosial işç xeyli obyektiv olmalıdır.

Adi şüur səviyyəsində, müəyyən sosial normaların, milli psixologiyanın formalaşdırılmasına xalq ənənələrinin təkminləşdirilməsinə doğru yönələn geniş sayda sosial informasiyanın nəsildən nəslə ötürülməsi baş verir. Təlim-tərbiyə, ənənələr, xalq yaradıcılığı və folklor vasitəsilə başqalarına mərhəmət duymaq hissləri aşılanır, həyat sevgisi formalaşdırılır, yaxınlara, qohumlara, bəşəriyyətə məhəbbət təlqin edilir, vicdan, ləyaqət, humanizm və ədalət anlayışları yeni məzmun kəsb edirlər.

Ayrı-ayrı sosial qrupların, ədalət barəsində özünəməxsus təsəvvürləri olduğundan, sosial işçi müştəri ilə iş zamanı bütün bunları nəzərə almalıdır. Bu cür fəlsəfi yanaşmanın əsasında, sosial siyasət strategiyası olan humanizm durmalıdır. Günümüzdə bu ideyaların aktuallaşması onunla əlaqədardır ki, insanın ətraf mühitinin, bütün mənəvi və maddi mədəniyyətlərin humanistləşməsi – bəşəriyyətin xilası deməkdir.

Rus alimi V.N.Yarskayanın fikrincə, sosial iş fəlsəfənin konseptual aparatı, mədəniyyətin və idrakın universal kateqoriyalarını – mədəniyyəti, toplumu, azadlığı, humanizmi, münaqişəni, sosial zaman və məkanı, ictimai fəaliyyəti, həyatı, ölümü, obyekti və subyekti, həyat tərzini, dünyanın mənzərəsini, insan ruhunu, sosial ekologiyanı və s. müzakirə etməlidir. Bu problemləri müzakirə etməklə, ictimai həyatın digər tərəfləri – mədəniyyət, incəsənət, əxlaq, hüquq, siyasət, din,

ideologiya və s. yəni sosial fəlsəfənin digər fundamental problemləri ilə də tanış oluruq.

Sosial işçilərin peşəkar hazırlığı zamanı tədris prosesinə, bir sıra fəlsəfi fənlərin (məsələn, estetikanın, etikanın) daxil edilməsi də əhəmiyyətli olardı.

9.5. Sosial işdə etika

Sosial işdə etikanın rolu təkzibedilməzdir. Etikanın əsas kateqoriyaları olan – xeyir və şər, xeyirxahlıq, borc, məsuliyyət və s. sosial işdə iki məna kəsb edir. Bir tərəfdən, cəmiyyətdə və qrupda yaranmış münasibətləri təsvir edən kateqoriyalar, digər tərəfdən, şəxsiyyətin özünə, başqalarına və müxtəlif sosial proseslərə münasibəti kimi.

Sosial iş peşə kimi, mənəvi seçim və etik davranışın ayrıcında durmuşdur. Ona görə də, insan davranışının tənzimləyiciləri olan ictimai əxlaq, fərdi-mənəvi nəzarət, faktorları sosial işin də tənzimləyiciləri olan ictimai əxlaq, fərdi-mənəvi nəzarət faktorları sosial işin də tənzimləyiciləri kimi çıxış edirlər. İctimai əxlaqın ümumi tələbləri ilə yanaşı, sosial iş həm də, peşəkar etikanın – məxfilik və tolerantlıq kimi prinsipləri ilə də tənzimlənir.

Humanism və mənəviyyata əsaslanmaqla, sosial iş özünün bütün tarixi ərzində qoruyub saxlamağa nail olduğu dəyərlər sistemi ilə insanların rifahın sosial ədalətə, ləyaqətə yönəldir. Sosial işçilərin gündəlik etik problemləri isə böyük dəyişikliklərə məruz qalmışdır. (məsələn, kompyuterləşmə şəraitində məxfiliyin qorunub saxlanılması).

Belə etik problemlərin bir neçə səviyyəsini seçib ayırmaq olar:

1. Sosial işin dəyərlər bazasının onun məqsəd və vəzifələrindən asılılığı;
2. Peşənin etik standartlarının işlənib hazırlanması;
3. Sosial işçinin peşəkar vəzifəsinin etik dilemması.

Sosial işin dəyərlər bazası problem, birbaşa onun humanist məzmunu ilə əlaqədardır. Belə ki, sosial işin ən aparıcı dəyəri kimi şəxsiyyət çıxış edir. Hər bir şəxsin, ən ali dəyər olaraq, həyatının məzmununun zənginləşdirilməsi, bütövlükdə, həyatın məzmununun dəyişdirilməsini nəzərdə tutur.

Sosial iş subyektləri onlara kömək etmək xahişi ilə müraciət edən hər kəsə, diskriminasiyaya yol vermədən kömək etməlidirlər, çünki bu onların haqqıdır. Humanist yönüm sosial iş subyektlərini kliyentlə qarşılıqlı əlaqələr, əməkdaşlıq qurmağa ruhlandırır, başqalarının maraqlarına xələl gətirməməyi onlara tövsiyə edir.

Peşənin etik standartı, etik davranışın prinsip və xüsusiyyətlərini özündə birləşdirir. Burada, sosial işin proqram vəzifələri və uzunmüddətli dəyərləri, tövsiyə və qadağa prinsipləri, sosial işçilərin məsuliyyət və səlahiyyətlərini müəyyənləşdirən başlıca müddəalar açıqlanır. Bu balansın əsasında ümumfəlsəfi məsuliyyət konsepsiyası durur. Sosial işin prinsipi kimi məsuliyyət konsepsiyası durur. Sosial işin prinsipi kimi məsuliyyət, müştəri (onun maraqlarının üstünlüyü), kolleqalar (əməkdaşlıq, hörmət) iş verənlər (müvafiq sosial müdafiə orqanı qarşısında vəzifələrin yerinə yetirilməsi) səviyyəsində gerçəkləşdirilir.

Özlərinin praktiki fəaliyyətlərində sosial işçilər çoxsaylı etik problem və dilemmalarla qarşılaşmalı olurlar. Şübhəsiz ki, bu, peşənin özünməxsus xüsusiyyətidir və müştəri, həmkarlar, cəmiyyət qarşısında mütəmadi olaraq özünü büruzə verir. Müvafiq problem sahələri və etik dilemmalar bütün ölkələr üçün eyni deyildir, lakin bir qrup dilemmalar vardır ki, onlar sosial köməyin bütün modelləri üçün eynidir:

-müstəqillik və manipulyasiya;

-paternalizm və özünümüəyyənləşdirmə;

-hərtərəfli razılaşdırma prinsipi;

-həqiqəti söyləmək zərurəti;

-məxfilik və məlumatların özəl xarakteri;

-qanunlar və müştərinin rifahı;

-şəxsi və peşəkar dəyərlər.

Sosial işçilərin bəzi fəaliyyət dairəsini əhatə edən etik kodekslər, heç də həmişə mükəmməl səviyyədə olmur. Birincisi, ona görə ki, onlar ümumi sözlərlə ifadə olunmaqla, xeyli mücərrəddirlər, ikincisi isə, bəzi hallarda həmin kodekslərin özünün məzmununda elə prinsiplər mövcud olur ki, onlar özləri də dilemma yaradırlar.

Beləliklə, peşəkar sosial iş prinsipinin əsasında, ən ali dəyər olan humanism durur. Bu humanism sosial işin bütün sahələrinə - peşəkar fəaliyyətə, elmi tədqiqata və s. sirayət edir.

Etik kateqoriyaların qeyri-adekvat anlamı, bəzi hallarda, həm şəxsiyyət, həm də cəmiyyət səviyyəsində bir sıra münqaişələrə (sosial münaqişələrə) səbəb ola bilər. Sosial iş nəzəriyyə və praktikasında etik kateqoriyalar bir sıra hallarda zorakılıq problemi ilə sıx əlaqədar olur.

Özünü şəxsiyyət kimi dərketmə prosesi hər kəsdə eyni olmur. Belə ki, bəziləri ədalətsizlik, azadlıq və sülh uğrunda mübarizəyə hazır olduqları halda, digərləri buna qadir deyillər. Xülyaya dalıb, hər kəsin qeyri-zorakı yol seçərək, zorakılığa son qoyacağına da ümid bəsləmək olmaz. Özünün vacib təyinatına görə, tərbiyənin də dünyanı dəyişəcəyinə inanmaq olmaz. Qeyri-zorakılıq təkcə təbəəliyin, tabeçiliyin psixoloji mexanizmlərinin məhvinə doğru yönəlməklə kifayətlənməyib, zorakılığın mövcud olduğu məkan və zamanda özünə yer etməli, müstəqilliyi və məsuliyyəti dəstəkləməlidir.

Mövzu 10. Sosial iş və cəmiyyət

10.1. Sosial iş və cəmiyyət

10.2. Cəmiyyətin təşkilində sosial işin əhəmiyyəti

10.3. Sosial strukturun sosial işdə yeri

10.4. Sosial strukturda əlaqəlilik

10.5. Sosial stratifikasiya

10.1. Sosial iş və cəmiyyət

Cəmiyyət sosiologiyanın mərkəzi kateqoriyalarından biridir. Sözün geniş mənasında cəmiyyət təbiətin spesifik bir hissəsi olmaqla, insanların həyat fəaliyyətinin tarixən inkişaf edən formalarını özündə maddiləşdirən sosial dünyanın xüsusi sferasıdır. Konkret mənada isə "cəmiyyət" anlayışı özündə bəşər tarixinin müəyyən mərhələlərini ictimai-iqtisadi formasiyaları, formasiyalararası və formasiyadaxili mərhələlər və ya ayrıca, fərdi (konkret) cəmiyyəti özündə ehtiva edir. Sosiologiya cəmiyyəti onun təşkilinin müəyyən səviyyələrində(bütövlükdə insan cəmiyyətindən kiçik qruplara qədər), özü də müxtəlif zaman və məkan hüdudlarıda öyrənir.

İnsan cəmiyyətinin mahiyyətini izah etməyə cəhd bütün nəzəriyyələr həmişə bu və ya digər dərəcədə belə bir suala cavab tapmağa çalışmışdır ki, bəşər cəmiyyəti ilə təbiət arasında hansı qarşılıqlı münasibətlər mövcuddur. Bu cəhdlər özünü daha çox insan birlikləri ilə canlı təbiət arasındakı oxşar və fərqli cəhətləri müəyyən etməkdə göstərir. Sözün geniş mənasında təbiət deyəndə özünün çoxsaylı formaları ilə bütün dünya nəzərdə tutulur. "Təbiət" sözü "materiya", "universum", "kainat" anlayışları ilə təbiət arasındakı qırılmaz əlaqəni, onların bir-birinə qarşılıqlı təsirini təsdiqləmək həqiqəti meydana çıxır. Təbiət insan cəmiyyətini yaratmış olsa da, sonralar öz üzərində onun pozitiv olmayan təsirini də hiss etmişdir.

Təbiətlə cəmiyyətin qarşılıqlı dialektik təsirini izah etmək baxımdan "həyat", "sosial həyat" kateqoriyaları ilə yanaşı, "insan" anlayışının mahiyyətini də aydınlaşdırmaq məqsədəuyğundur.

Həyat materiyanın mövcudluq formalarından biri olub, onun inkişafı prosesinin müəyyən şəraitində meydana gəlir. Orqanizmlər qeyri-canlı obyektlərdən maddələr mübadiləsi, həssaslığı, çoxalma, böyümə, inkişaf qabiliyyəti, hərəkətin müxtəlif formalarında öz funksiya və tərkibini fəal surətdə nizamlanması, ətraf mühitə uyğunlaşması ilə fərqlənir.

Canlı orqanizmlərin təkamülü gedişində onların yüksək şəraitə uyğunlaşması prosesi də təkmilləşir; bu, sərbəst hərəkət edən canlılarda mərkəzi sinir sisteminin inkişafına kömək edirdi. Nəticədə insanların əcdadlarında əməyin təsiri altında ali sinir fəaliyyətinin inkişafı həyatın sosial səviyyəyə keçməsi üçün ilkin şərait yaratdı. Bu cəhət insana xas olan hərəkətin ali forması ilə əlaqədar idi.

Sosial həyat bütövlükdə təbiətin təkamülünün, xüsusilə həyatın bioloji formasının müəyyən mərhələsində meydana gəlmişdir. O, insanın simasında, mahiyyətində, fəaliyyətinin xarakterində, sosial həyatın obyekt və subyektləri qismində insanların bir-biri ilə qarşılıqlı əlaqələrində özünü təzahür etdirir.

İnsan yer üzündə canlı orqanizmlərin inkişafının ali dərəcəsi, ictimai-tarixi fəaliyyətin və mədəniyyətin subyekti kimi səciyyələnir. Onu fərqləndirən xüsusiyyət əmək alətlərini istehsal etmək qabiliyyətidir, eləcə də ətraf aləmə təsir etmək üçün bunlardan istifadə etmək bacarığıdır. İnsan öz təbiəti etibarilə bütöv sosial varlıqdır, onda bioloji və sosial keyfiyyətlər dialektik vəhdətdə, qarşılıqlı təsirdədir. İnsanın inkişafının müəyyənedici amili onun sosial əhəmiyyətli keyfiyyətləridir. Bunların da məcmusu "şəxsiyyət" anlayışını təşkil edir. insan ümumi (ümumbəşəri), xüsusi (formasiya, mərhələ, sosial-sinfi) və təkcənin (fərdi) mövcudluq üsulunun dialektik vəhdətini özündə təcəssüm etdirir.

10.2. Cəmiyyətin təşkilində sosial işin əhəmiyyəti

İnsan-şəxsiyyət-qrup-cəmiyyət bütün maddi dünyanın təkamülünün törəməsi kimi bir-biri ilə sıx surətdə bağlıdır. Bu qarşılıqlı əlaqə və təsir isə cəmiyyətin inkişafına uyğun olaraq daim yeniləşməkdədir. Sosial sistem kimi səciyyələnən ictimai həyatın başlıca ünsürləri məhz insanlar, onların əlaqələri, qarşılıqlı fəaliyyəti və

münasibətləridir. Bu əlaqə, qarşılıqlı fəaliyyət və münasibətlər davamlı inkişaf xarakteri daşıyır, tarixi prosesdə təkrar istehsal olunur və nəsildən nəslə keçir.

Cəmiyyətin mahiyyətinin tədqiqinə, izah edilməsinə müxtəlif tarixi dövrlərin alimləri sıx qarşılıqlı əlaqədə olan ünsürlərin bütöv sistemi kimi yanaşmışlar. Belə metoda üstünlük verilməsi tamamilə təbiidir. Cəmiyyətin bu cür araşdırılması elmdə sistemli yanaşma adlanır. Cəmiyyətin tədqiq edilməsinə sistemli yanaşmanın əsas vəzifəsi onun haqqında olan müxtəlif bilikləri bütöv sistemdə birləşdirməkdən ibarətdir. **Cəmiyyət haqqında nəzəriyyələrin** – cəmiyyətə bütöv sistem kimi yanaşmanın başlıca prinsiplərini araşdırmaq üçün aşağıdakı əsas anlayışları müəyyənləşdirmək zəruridir. Bunlardan biri **sistem anlayışıdır**. Sistem müəyyən tərzdə nizamlanmış, öz aralarında qarşılıqlı əlaqədə olan və vahid bir tamı yaradan üsnürlər çoxluğudur. Bütöv tam sistemlərin daxili təbiətini, məzmun tutumunu, onların təşkilinin maddi əsasını, ünsürlərinin tərkibini, düzümünü müəyyən edir. **İkincisi**, sosial sistemdir. O, bütövlük kəsb edən anlayışdır və əsas ünsürlərini insanlar, onların qarşılıqlı əlaqələri, təsir və münasibətləri təşkil edir. **Üçüncüsü**, sosial əlaqə anlayışıdır. Bu, müəyyən məqsədə nail olmaq üçün konkret birliklərdə və konkret vaxtda birgə fəaliyyəti şərtləndirən faktların məcmusu kimi səciyyələnir. Sosial əlaqələr insanların əhval-ruhiyyəsi ilə deyil, obyektiv surətdə yaranır. Həmin əlaqələrin təşəkkülünü fərdlərin yaşadığı və fəaliyyət göstərdiyi sosial şərait müəyyənləşdirir. Sosial əlaqələrin mahiyyəti bu və ya digər sosial birliyi təşkil edən insanların fəaliyyətinin xarakter və məzmununda ifadə olunur. Bir çox sosioloqlar sosial əlaqələri qarşılıqlı münasibətlər, qarşılıqlı təsir əlaqələri, sosial nəzarət əlaqələri, təminatlı əlaqələr və təşkilati əlaqələr kimi səciyyələndirir və qruplaşdırırlar. Belə qruplaşdırma mütləq xarakter daşımasa da, həmin əlaqələr barəsində nisbətən dolğun təsəvvür yaradır. Cəmiyyətə sistemli yanaşmanın digər prinsipi sosial qarşılıqlı təsirdir. Sosial qarşılıqlı təsir prosesində insanlar bir-birinə təsir göstərir və biri digərinin təsirini hiss edir. Sosial qarşılıqlı təsir mexanizminə bu və ya digər fəaliyyəti həyata keçirən fərdlər, həmin fəaliyyətin nəticəsində sosial birliklərdə və ya bütövlükdə cəmiyyətdə baş verən dəyişikliklər, bu dəyişikliklərin sosial birliyi təşkil edən digər fərdlərə təsiri, nəhayət, fərdlərin əks reaksiyası daxildir.

Qarşılıqlı təsir yeni sosial münaisbətlərin bərqərar olmasına gətirib çıxarır. Sosial münasibətlər isə fərdlər və sosial qruplar arasında nisbi dayanıqlı, möhkəm və müstəqil əlaqələrdir. Beləliklə, cəmiyyət çoxlu fərdlərdən, onların sosial əlaqələrindən, qarşılıqlı təsir və münasibətlərindən yaranır. Eyni zamanda cəmiyyət fərdlərin, onların qarşılıqlı təsir, əlaqə və münasibətlərinin sadəcə məcmusu deyildir. Cəmiyyətin öyrənilməsinə sistemli yanaşmanın tərəfdarı olan tədqiqatçıların nöqteyi-nəzərincə, o, bütöv sistemdir, yəni cəmiyyət səviyyəsində fərdi fəaliyyət, əlaqə və münasibətlər həm də yeni sistem keyfiyyəti yaradır. Sistem keyfiyyəti isə xüsusi keyfiyyət halıdır ki, ona da ünsürlərin sadəcə məcmusu kimi baxmaq olmaz. İctimai qarşılıqlı təsir və münasibətlər fərdin və şəxsiyyətin fövqündə duran anlayış xarakteri kəsb edir, yəni cəmiyyət fərdlərə münasibətdə ilkin olan, müəyyən qədər müstəqil varlıqdır. Dünyaya gələn hər bir fərd əlaqə və münasibətlərin müəyyən strukturu ilə qarşılaşır, sosiallaşma prosesinə məruz qalaraq ona qovuşur.

Bütöv sistemə çoxsaylı əlaqə, qarşılıqlı təsir və münasibətlər xasdır. Onlardan ən səciyyəvisi korrelyativ əlaqə və münasibətlərdir ki, ona da ünsürlərin koordinasiya və subordinasiyası daxildir. **Koordinasiya** bütöv sistemin saxlanmasını təmin etmək üçün ünsürlərin ardıcıllığının müəyyən düzümü, onların qarşılıqlı asılılığının xüsusi xarakteridir. **Subordinasiya** isə bir səciyyəli və ya bərabər tabelikdir. O, bütöv sistemdə ünsürlərin eyni olmayan əhəmiyyətini, onların xüsusi spesifik yerini səciyyələndirir.

Nəticədə cəmiyyət elə bir bütöv sistem kimi təşəkkürl tapır ki, onun keyfiyyətləri həmin sistemə daxil olan ünsürlərin heç birində ayrılıqda mövcud olmur. Sosial sistem özünün inteqral keyfiyyətləri sayəsində onu təşkil edən ünsürlərə münasibətdə müəyyən müstəqillik əldə edir, öz inkişafının nisbi müstəqil üsuluna nail olur.

10.3. Sosial strukturun sosial işdə yeri

Cəmiyyətin sosial strukturunun əsas elementləri müəyyən mövqe (status) tutan və müəyyən sosial funksiyaları (rolları) yerinə yetirən fərdlər və bu fərdlərin qruplarda status əlamətlərinə əsasən sosial-ərazi, etnik və digər birlikləridir. Sosial struktur insanların çoxsaylı meyarlara görə bir-birinə münasibətdə müxtəlif vəziyyətlərini göstərərək

cəmiyyətin birliklərə, siniflərə, təbəqələrə, qruplara və s. obyektiv bölünməsini ifadə edir. Hansı elementin əsas kimi seçilməsindən asılı olaraq, cəmiyyətin strukturu qrup, sinif, birlik, statifikasiya, institusional, təşkilati və s. sistem kimi təsəvvür edilə bilər. **Beləliklə, sosial struktur bütövlükdə cəmiyyətin qurulması, onun əsas elementləri arasında əlaqələr sistemidir**. Bu tərifdən bir neçə nəticə çıxarmaq olar: 1) insanlar təsadüfi deyil, müəyyən daimiliyi olan sosial münasibətləri formalaşdırırlar; 2) sosial həyat amorf deyil, qarşılıqlı asılılıqda və ya funksional qarşılıqlı əlaqədə olan sosial qruplar, institutlar diferensiallaşmışdır. Cəmiyyətin sosial strukturu anlayışı insanların öz hərəkətlərinin seçimində tam sərbəst olmadığını və onların seçiminin yaşadıqları ailə tərəfindən və iştirak etdikləri sosial münasibətlər tərəfindən məhdudlaşdığını göstərir. Sosial struktur bəzən, sadəcə olaraq, sosial bütövün üzvləri arasında davamlı sosial münasibətlər və ya bu münasibətlərin müntəzəm və təkrarolunan aspektləri kimi müəyyən edilir.

Sosial strukturun inkişafının əsasında: 1) əməyin ictimai bölgüsü; 2) istehsalat vasitələrinə və onun məhsullarına mülkiyyətçilik münasibətləri durur.

Əməyin ictimai bölgüsü siniflərdən, peşə qruplarından, habelə şəhər və kənd əhalisindən, əqli və fiziki əmək nümayəndələrindən ibarət böyük qrupların yaranmasını və mövcudluğunu şərtləndirir. İstehsalat vasitələrinə mülkiyyətçilik münasibətləri cəmiyyətin daxili bölgüsünü və onun daxilində qurulan sosial strukturu iqtisadi cəhətdən möhkəmləndirir. İctimai əmək bölgüsü kimi mülkiyyətçilik münasibətləri də cəmiyyətin sosial strukturunun inkişafı üçün obyektiv sosial-iqtisadi zəmindir.

Cəmiyyətin sosial strukturunun əsas elementlərinə aşağıdakıları aid etmək olar: sinifləri, şəhər və kənd əhalisini, əqli və fiziki əmək nümayəndələrini, sosial-demoqrafik qrupları (gənclər, qadınlar, kişilər, yaşlı nəsil), milli birlikləri (millətlər, xalqlar, etnik qruplar) və s.

Yuxarıda adı çəkilən bütün elementlər, öz tərkibinə görə yekcins deyil və sosial strukturun nisbi müstəqil elementləri kimi ayrı-ayrı təbəqələrə və qruplara bölünür. Belə ki, sosial struktur hər hansı bir cəmiyyətdə kifayət qədər mürəkkəbdir və təkcə sosioloqlar deyil, həm

də sosial idarəetmə nümayəndələrinin, habelə siyasətçilərin, dövlət xadimlərinin diqqət mərkəzindədir.

Cəmiyyətdə mövcud olan sosial qrup və insan birliklərinin qarşılıqlı əlaqəsi heç də statik deyil, o daha çox dinamikdir; bu özünü insanların tələbatlarının ödənilməsindəki və maraqlarının reallaşdırılmasındakı qarşılıqlı təsirdə daha aydın göstərir. Belə qarşılıqlı təsir iki əsas amillə xarakterizə edilir:

1. Cəmiyyətin hər bir subyektinin müəyyən məqsədlərə (sosioloqlara çox vaxt elə məhz bunu aşkar etmək lazımdır) istiqamətlənmiş fəaliyyəti;
2. Sosial subyektlərin öz tələbat və maraqlarını ödəmək naminə daxil olduqları ictimai münasibətlərlə.

Maraqlar fərdlərin, qrupların və digər birliklərin öz fəaliyyətlərində şüurlu və ya qeyri-şüurlu olaraq rəhbər tutduqları və onların sosial sistemdə vəziyyətlərini şərtləndirdikləri real həyat cəhətləridir.

Sosial maraqlard bu və ya digər birlik nümayəndəliklərinin aktual tələbatları daha ümumiləşmiş ifadəsini tapır. Maraqlar cəmiyyətdə fasiləsiz baş verən sosial müqayisə, yəni başqa sosial qrupların həyat şəraitinin müqayisəsi prosesinin gedişində dərk edilir.

Varlığın maddi vasitələrinin və insanın özünün təkrar istehsalı hüdudlarında hər hansı bütövlük kimi konkret birliklərin sosial strukturunun təşəkkülü xüsusiyyətləri və inkişafı nəzərə alınmalıdır. Bu mənada hər hansı bütövlük “sosial orqanizm” adlandırıla bilər. müasir cəmiyyətdə oxşar sosial orqanizmlər kimi milli-dövlət birlikləri qəbul edilməlidir. Onların başlıca funksiyası sosial qrupların hər hansı bütövdə birləşməsidir ki, bunun da hüdudlarında sosial qarşılıqlı fəaliyyət həyata keçirilə bilər və yaxud sosial proseslər baş verə bilər. Biz belə bir nəticəyə gələ bilərik ki, sosial struktur sosial qrupların, sosial institut və təşkilatların vəhdəti və ya qarşılıqlı fəaliyyətdə olan sosial qrupların, habelə sosial institutların və onlar arasındakı münasibətlərin vəhdətidir. Deməli, sosial struktur cəmiyyətin anatomik elə skeletidir ki, burada daxilən obyektin quruluşunu təşkil edən, funksional qarşılıqlı əlaqədə olan elementlərin sıx vəhdəti mövcuddur.

10.4. Sosial strukturda əlaqəlilik

Cəmiyyətin sosial strukturuna təkcə siniflər deyil, həm də qruplar və institutlar daxildir.

Siniflər haqqında əvvəlki paraqrafda artıq bəhs edilmişdir. Sosial qrupa gəlincə o, sosial birliyin əsas formalarından biridir. Əməyin inkişafı səviyyəsindən, bölgüsündən, sosial-iqtisadi münasibətlərindən və s. asılı olaraq, sosial strukturun müxtəlif tipləri formalaşır. Beləliklə, cəmiyyət öz konkret həyat reallığında bir çox sosial qrupların vəhdəti kimi çıxış edir. İnsanın anadan olduğu gündən vəfatınadək bütün ömrü bu qruplarda: ailə, təhsil müəssisəsi, istehsalat, ordu kollektivlərində, idman komandasında, dostların dairəsində və s. keçir.

Sosial qrup fərdlə cəmiyyət arasında özünəməxsus vasitəçidir. Bu, sosial proseslərin baş verdiyi və inkişaf etdiyi bilavasitə mühitdir. Bu mənada o, "şəxsiyyət-cəmiyyət" sistemində əlaqələndirici vasitə funksiyasını yerinə yetirir.

"Sosial qrup" anlayışı ümumi sosial əlamətləri olan və əməyin ictimai bölgüsü strukturunda ictimai zəruri funksiyanı yerinə yetirən insanların vəhdətini nəzərə alır.

Rəsmi sosial-hüquqi statusun olub-olmamasından və bununla bağlı olaraq müəyyən münasibətlərin mövcudluğundan asılı olaraq, sosial qruplar formal və qeyri-formal olaraq iki yerə ayrılır.

Formal qrup üzvlərinin davranışı müəyyən norma və nizamnamələrlə ciddi məhdudlaşan sosial birlikdir. Bu qrup həllində müəyyən birliyin (məktəb, ordu, zavod və s.) marağı olan xüsusi məqsədlərə nail olmaq üçün yaradılır. Buna görə də formal qruplarda əməyin ciddi bölgüsü olur. Onların üzvlərinin fəaliyyəti isə xüsusi norma və qanunlara tabedir. Formal qrup ikinci qrupdur. O, iştirakçılarının sayına görə həm böyük, həm də olduğu kimi kiçik ola bilər.

Qeyri-formal qrup kiçik qrupun növ müxtəlifliyidir və çox vaxt öz-özünə yaranır.

Sosial qrupların xüsusi növ müxtəlifliyi referent qruplardır. Referent qrup fərdlərin etalon hesab etdiyi real və ya xəyali sosial birlikdir ki,

insanlar özlərinin davranış və özünüqiymətləndirməsində həmin birliklərin norma, rəy, sərvət və qiymətlərinə əsaslanırlar. Bu fərdin mənsub olduğu qrup, onun üzvü olmaq istədiyi və ya əvvəllər olduğu qrup ola bilər.

Referent qrupları 2 yerə ayırmaq olar: **normativ və müqayisəli** . Normativ referent qrup fərdlərin davranışını tənzimləyən normaların, onlar üçün əhəmiyyətli olan bir sıra problemlərin istiqamətləndirilməsində imkan yaradır. Müqayisəli referent qrup fərd üçün etalon və özünüdərk vasitəsi kimi çıxış edir. Bir sosial qrup normativ olduğu kimi, müqayisəli də ola bilər.

"İnstitut" termininin bir çox mənaları vardır. Avropa dillərinə bu söz latın dilindən (İnstitutum-qurulma, yoluna qoyma) keçmişdir. Elmdə bu söz iki məna kəsb edir: birincisi, dar texniki məna (xüsusi elmin və tədris müəsissəsinin adı, məsələn EA-nın Fəlsəfə İnstitutu). Sosioloqlar bu anlayışa yeni, qeyd edilən mənadan fərqli məzmun verdilər. Lakin elmi ədəbiyyatda institutla bağlı vahid bir fikir yoxdur.

Sosial institutların müvəffəqiyyətli fəaliyyəti müəyyən şərtlərin reallaşmasından asılı olur: **1)** institutların hüdudunda insanların davranışını tənzimləyən spesifik sosial norma və göstərişlərin olması; **2)** institutun cəmiyyətin sosial-siyasi, ideoloji və aksioloji strukturuna daxil edilməsi; bu isə bir tərəfdən institut fəaliyyətinin formal hüquqi əsasını təminedir, digər tərəfdən isə fəaliyyətin institusional tipləri üzərində sosial nəzarət həyata keçirməyə imkan verir; **3)** normativ göstərişlərin müvəffəqiyyətlə yerinə yetirilməsi və sosial nəzarətin təşkili üçün maddi vəsaitlərin və şərtlərin mövcudluğu.

Hər bir sosial institutun spesifik xüsusiyyətləri olduğu kimi digər institutlarla ümumi əlamətləri də vardır. Bu:

1. davranış qaydaları və nümuələri;
2. mədəni simvollar (dövlət üçün gerb, bayraq, bəy və gəlin üçün nişan üzüyü və s.);
3. sosial institutların yüksək mədəni cəhətləri inzibati binaların, firma blanklarının olması;
4. şifahi və yazılı davranış məcəllələri (həkimlərdə Hipokrat andı, nigah bağlanarkən verilən and);

5. ideologiyanın olması.

Ən ümumi şəkildə sosial institut fərdlərin sosial tələbatlarının ödənilməsinə istiqamətlənmişdir. Bu məqsədə nail olmanın üsul və yolları sosial institutların aşkar funksiyasını təşkil edir. Bundan əlavə aşağıdakı funksiyaları göstərmək olar:

Kommunikativ funksiyalar

Bu funksiya sosial institutun fəaliyyətinin lazımi səviyyədə saxlanılması və onun bütün hissələrinin daxili qarşılıqlı əlaqəsinin həyata keçirilməsi üçün zəruridir. Hər bir sosial institut başqa sosial institutların fəaliyyəti haqqında xarici informasiyanın alınmasında maraqlıdır.

İnteraqtiv funksiya (sosial institutun bütövlüyünün salxanılması funksiyası).

Bu funksiya institutisonallaşmanın gedişində kollektiv üzvləri arasındakı daxili və xarici əlaqələrin möhkəmləndirilməsinə istiqamətlənmişdir.

Tənzimləyici funksiya

Davranışın ümumi sosial əhəmiyyətli nümunələrinin işlənib hazırlanmasını təmin edən funksiyadır. Davranışın ümumi nümunələrini təkras istehsal edən əsas institut mədəniyyətdir.

Aşkar funksiyalarla yanaşı sosioloqlar latent funksiyaları da göstərirlər.

Sosial institutların latent funksiyaları həm sosial sistemin inkişafına kömək edə bilər, həm də neqativ hallara gətirib çıxara bilər. Bu zaman ya onlara kömək etmək, ya da onları nəzarətə götürmək lazım gəlir. Bunun üçün də sosial institutların latent funksiyalarının öyrənilməsi zəruridir.

Cəmiyyət inkişaf etdikcə və mürəkkəbləşdikcə sosial institutlar sistemi çoxalır, diferensiallaşır. Ailə, təhsil, səhiyyə, maddi və mənəvi istehsalat, asudə vaxt və istirahət, cəmiyyət üzvlərinin təhlükəsizliyinin təmin edilməsi və bir çox başqa institutlar sosial orqanizmin fəaliyyətini şərtləndirən sistem yaradırlar.

10.5. Sosial stratifikasiya

“Stratifikasiya” termini sosiologiyaya təbiət elmlərindən keçmişdir. O, latın mənçəli söz olub, “stratum” – döşəmə, qat deməkdir. Hidrologiyada stratifikasiya anlayışı altında müxtəlif sıxlıqda və temperaturda olan su qatlarının yerləşməsi başa düşülür. Sosial stratifikasiya sosial təbəqələşmə deməkdir.

Sosial təbəqələşmə əhali arasında təbəqələrin yaranma prosesi və onun nəticələridir. Bu prosesin başlanğıc nöqtəsi sosialç yekcins cəmiyyətdir, yəni insanların əmlak və sosial vəziyyətinə görə fərqlənmədikləri cəmiyyətdir. Latın dilində buna iki termin uyğun gəlir: differensiasiya və stratifikasiya.

“Stratifikasiya” termini daha çox elm sahəsində, “təbəqələşmə” sözü isə daha çox gündəlik məişətimizdə, bəzən elmdə də işlədilir. İş burasındadır ki, təbəqələşmə sözündən daha çox cəmiyyətin yoxsulları və varlılara ayrıldığı halda istifadə edilir. Bu halda həmin anlayış çoxsaylı orta sinfi əhatə etmir. Buna görə də stratifikasiya reallığı daha tam inikas etdirir. O, təkcə əhalinin yoxsullara və varlılara ayrılma prosesini deyil, həm də cəmiyyətdə orta sinfin yerini və rolunu düzgün əks etdirir.

Sosial tərkib baxımından cəmiyyətin sosial strukturunun bütün elementləri üfüqi yerləşdirilib, yəni formal olaraq sistemin tərkib elementləri kimi onlar bərabərdir. Lakin real sosial fəaliyyətdə onlar bərabər deyillər. Hər bir konkret cəmiyyətdə müxtəlif fərdlər, qruplar, siniflər, birliklər, stratifikasiyalar və təşkilatlar qeyri-bərabər vəziyyətdədir.

Sosial bərabərsizlik cəmiyyətin ierarxiyalı strukturunun olmasını təsdiq edir. Bir fərd, qrup, sinif və təşkilat başqasından yuxarıda və ya aşağıda yerləşir. Bu isə o deməkdir ki, onlar başqası ilə müqayisədə çox və ya az sərvətə, hakimiyyətə malikdir. Bərabərsizliyin bu prinsipindən çıxış edərək sosial stratifikasiya sosial qurumların (qrupların, siniflərin, təbəqələrin və s.) ierarxiya qaydasında yerləşdirilmiş vəhdətidir.

Beləliklə, stratifikasiya fərdlərin, qrupların, siniflərin məlum sosial sistemdə tutduqları yerə müvafiq olaraq diferensiasiyasıdır.

İnsanların – soisal birliklərin bərabərsizliyi cəmiyyətin bütün tarixi inkişaf boyu onun başlıca xüsusiyyətlərindən biridir. İbtidai icma cəmiyyətində bərabərsizlik əsaslı deyildi. Buna görə də stratifikasiya demək olar ki, yox idi.

Müasir cəmiyyətdə insanları gəlirlərinə, təhsil səviyyələrinə hakimiyyətdə iştirakına görə müxtəlif təbəqələrə bölmək olar. Əvvəl silklər, sonra təbəqələr, daha sonra isə siniflər meydana gəlir. Əgər cəmiyyətlərin bir qismində sosial təbəqənin (stratın) birindən başqasına keçməsi qadağandırsa, başqalarında məhduddur, üçüncüsündə isə tamamilə azaddır. Sosial yerdəyişmələrin sərbəstliyi (mobillik) cəmiyyətin açıq və ya qapalı olduğunu müəyyən edir.

Sosial stratifikasiyaya ən lakonik təriflərdən birini ingilis sosioloqu Entoni Giddens vermişdir. O, "stratifikasiya"nı müxtəlif insan qrupları arasında strukturlaşdırılan bərabərsizlik kimi müəyyən edirdi. İnsanlar və ya insan birlikləri (qrupları) arasındakı bərabərsizlik onların müxtəlif sosial rifahları: pul, maddi və mənəvi sərvətləri, hakimiyyət və nüfuzu əldə etmələrinin müxtəlif şərait və imkanlarını göstərir. Strukturlaşdırılmış bərabərsizlik müxtəlif insan birliklərinin ehtiyat və sərvətlərə qeyri-bərabər imkanının sosial institutlar vasitəsilə möhkəmləndirilməsi deməkdir. Bunun nəticəsində cəmiyyətdə əlaqələndirilmiş və ierarxik təşkil olunmuş sosial təbəqələrin (stratların) ciddi sistemi yaranır.

Deməli, əgər sosial struktur əməyin ictimai bölgüsünü xarakterizə edirsə, onda sosial stratifikasiya əməyin nəticələrinin, sosial nemətlərin ictimai bölgüsünü xarakterizə edir.

Mövzu 11. Sosial iş və şəxsiyyət

11.1. Şəxsiyyətin sosial işdə yeri

11.2. Şəxsiyyətin mahiyyəti

11.3. Şəxsiyyətin sosiallaşması

11.4. Sosial nəzarət

11.5. Şəxsiyyət və sosial təyinat sərvətləri

11.1. Şəxsiyyətin sosial işdə yeri

Şəxsiyyət müxtəlif bilik sahələri tərəfindən öyrənilir. Sosioloji təhlil şəxsiyyətə sosial sistem kimi yanaşır, onun sosiallaşması prosesinin yolları və mərhələlərini araşdırır, sosial fəaliyyət və davranış mexanizmlərini təhlil edir, bu proseslərdə sosial amillərin rolunu aşkara çıxarır.

Şəxsiyyətin sosioloji təhlilinin çıxış nöqtəsi hər bir insanda bioloji və sosial tərəflərin ayrılmaz vəhdətdə götürülməsidir. Şəxsiyyətin sosiologiyasının əsas məsələlərini təhlil etməzdən əvvəl qısa şəkildə "fərd" və "şəxsiyyət" anlayışlarını izah etmək məqsədəuyğundur.

"Fərd" dedikdə bu və ya digər sosial birlik formasının ayrıca bir nümayəndəsi nəzərdə tutulur. Bu anlayış insanın real həyatının və fəaliyyətinin xüsusiyyətlərini ifadə etmir. Şəxsiyyət anlayışı isə bundan fərqli olaraq insanın konkret mahiyyətini göstərir, onda yaşadığı cəmiyyətin sosial əhəmiyyət kəsb edən cəhətləri və sosial münasibətləri təmərküzləşmiş şəkildə təcəssüm olunur. Şəxsiyyətin başlıca cəhəti insanın fiziki təbiəti deyil, onun sosial fəaliyyətində təzahür edən sosial keyfiyyətləridir. Bu keyfiyyətlər onun mənlik şüuruna, sərvətlər oriyentasiyasına malik olması, cəmiyyətə münasibətdə nisbi müstəqil mövqe tutması və öz hərəkətlərinə görə məsuliyyət daşımasıdır. Onlar öz-özünə yaranmır, mövcud cəmiyyətin sosial münasibətləri siseminin məhsulu kimi çıxış edir. Lakin şəxsiyyət sosial mühitin passiv nəticəsi deyildir, o, özünün praktiki fəaliyyətində həmin mühitə fəal dəyişdirici təsir göstərir.

Sosiologiya bu və ya digər konkret tarixi şəraitdə fəaliyyət göstərən şəxsiyyətləri daha dərindən öyrənmək üçün onları daxil olduğu sosial birliklərin tərkibində nəzərdən keçirir. Bununla əlaqədar olaraq sosioloji fikirdə şəxsiyyətin müəyyən sosial tiplərə ayrılması mühüm yer tutur. Belə ayrılmanın əsasında müxtəlif şəxsiyyətlərdə onların sosial birliklər üzrə fəaliyyətində rast gəlinən ümumi xarakterli və təkrarolunan sosial əlamətlər durur. Bunlar aşağıdakılardır:

- Fəaliyyətin sosial məqsədi
- Şəxsiyyətin sosial həyatda statusu və oynadığı rol
- Öz fəaliyyətində rəhbər tutduğu normalar və sərvətlər
- Yerinə yetirdiyi işlər sistemi
- Malik olduğu biliklərin səviyyəsi
- Sosial-psixoloji xüsusiyyətlər və fəallıq dərəcəsi

Bununla yanaşı şəxsiyyət sosiologiyasında şəxsiyyətin tarixi tipləri, müxtəlif dövrlərdə insanla cəmiyyətin qarşılıqlı münasibətlərinin öyrənilməsi də mühüm yer tutur. Bu məsələlərin izahında o belə mövqedən çıxış edir ki, hər bir konkret dövrdə insanla cəmiyyət arasındakı qarşılıqlı münasibətlərin xarakteri maddi, sosial və mənəvi şərtlərin birgə təsiri altında formalaşır.

"Şəxsiyyət" anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalılığı, öz hərəkət və davranışı üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən insandır. Şəxsiyyət müstəqil, sosial cəhətdən fəal olan adamdır. Şəxsiyyətin başlıca cəhəti onun sosial fəaliyyətidir.

İnsan anadan fərd kimi doğulur, tədricən şəxsiyyət kimi formalaşır. Əgər fərd anlayışı insanın ictimai münasibətlərinin məhsulu olduğunu göstərirsə, şəxsiyyət anlayışı onu daha çox bu münasibətlərin subyekti kimi səciyyələndirir.

Şəxsiyyətin sosial təcrübəni mənimsəməsi prosesi onun daxili aləmi vasitəsilə həyata keçirilir. İnsanın özünün nə etdiyinə və onunla nə edildiyinə münasibəti də bunda ifadə olunur.

Şəxsiyyət fərdin sosial keyfiyyətlərinin məcmu ifadəsidir, onun obyektiv və subyektiv xarakteristikalarının vəhdətidir. Lakin bu heç də bioloji və psixoloji amillərə laqeydlik göstərmək üçün əsas vermir.

11.2. Şəxsiyyətin mahiyyəti

Müasir elmi ədəbiyyatda şəxsiyyətin sosial strukturu haqqında qızğın mübahisələr gedir. Bu struktur insanın davranışının başlıca istiqamətini müəyyən edən obyektiv və subyektiv amillərin, habelə onların tərkib ünsürlərinin məcmusu olub, təkcə şəxsiyyət problemini öyrənmək üçün yox, həm də ona təsir göstərmək baxımından əhəmiyyətlidir. Deməli, şəxsiyyətin sosial strukturu bunu aşkara çıxarmalıdır ki, məlum cəmiyyətin xarakterik cəhətləri fərddə necə təkrar istehsal olunur. Fərdin sosial keyfiyyətləri onun obyektiv surətdə daxil olduğu birliyin təsiri altında onun fəaliyyəti prosesində təşəkkül tapıb inkişaf edir. Şəxsiyyətin sosial strukturunda aşağıdakı ünsürləri ayırd etmək olar:

a) fəaliyyətin müxtəlif növlərində sosial keyfiyyətlərinin həyata keçirilməsi üsulu;

b) şəxsiyyətin obyektiv tələbatı və mənafeləri;

c) cəmiyyətin mənəvi sərvətlərinə yiyələnmə dərəcəsi, yəni şəxsiyyətin mənəvi aləmi;

d) şəxsiyyətin rəhbər tutduğu əxlaqi normalar və prinsiplər;

e) əqidə.

Hər bir şəxsiyyətdə bu struktur ünsürləri müşahidə etmək olar. İnkişaf prosesində şəxsiyyətin sosial strukturu daim dəyişilir, təkmilləşir. Şəxsiyyət sosial mühitlə qarşılıqlı təsir prosesində formalaşır. Qarşılıqlı təsir fəaliyyət sahəsində mümkün olur. Həmin fəallığın səbəblərini aşkara çıxarmaq şəxsiyyəti mühüm həyati münasibətlər cəhətdən xarakterizə etmək deməkdir.

Şəxsiyyətin fəallığının mənbəyini onun tələbatı təşkil edir. Məhz tələbat insanı müəyyən tərzdə və müəyyən istiqamətdə iş görməyə təhrik edir. Tələbat şəxsiyyətin fəallığının mənbəyi kimi meydana çıxır.

Şəxsiyyətin fəallığı isə tələbatların təmin olunması prosesində təzahür edir.

Hər bir şəxsiyyət təkrarolunmaz xüsusiyyətlərə malikdir. Çünki o, tipik olanla fərdi olanın dialektik vəhdətidir. Çünki o, tipik olanla fərd olanın dialektik vəhdətidir. Lakin ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər də vardır. Ona görə də insanları uyğun, oxşar sosial əlamətlərinə görə qruplara ayırmaq olar ki, bu da adətən şəxsiyyətin sosial tipləri adlanır. Şəxsiyyətin sosial tipi insanın müxtəlif fəaliyyətini növlərini həyata keçirmək üslubudur. Aydın məsələdir ki, şəxsiyyətin sosial tipi öz sinfinin, sosial qrupunun mənafeyi ilə obyektiv surətdə şərtlənmişdir. Lakin müəyyən istisnaların olması da mümkündür.

Şəxsiyyətin sosial tipi çox maraqlı və mürəkkəb məsələdir. O, şəxsiyyətin həyat fəaliyyətinin, qarşılıqlı təsirdə olduğu mədəni-tarixi və sosial-iqtisadi şəraitin məhsuludur. Şəxsiyyətin sosial tiplərinin müxtəlif variantları mövcuddur. Məsələn, M.Veber şəxsiyyətin sosial fəaliyyətini, K.Marks onun mənsub olduğu formasiyanı və sinfi əsas götürürdü.

Şəxsiyyətin konkret elmi tipologiyası baxımından diqqəti cəlb edən psixoloji və sosial-psixoloji tipologiyasıdır. Alman mütəfəkkiri E.Şpranqer (1882-1936) şəxsiyyətin 6 tipini nəzərdən keçirir və onların hər birinə fəallığın müəyyən növünün uyğun gəldiyini qeyd edir:

- Nəzəri tip (həqiqəti aşkara çıxarmağa meyllilik, rasionalizm və tənqidi yanaşma)
- İqtisadi tip (faydaya meyllilik və praktiklik)
- Estetik tip (ahəngdarlığa və dünyanın obrazlı qurulmasına meyllilik)
- Sosial tip (insanlara sevgi, özünü fəda etməyə meyllilik)
- Siyasi tip (hakimiyyətə və liderliyə meyllilik)
- Dini tip (həyatın mənasını və dünya qurumunun vəhdətini axtarmaq, fövqəltəbiliyə inam).

K.Xofni (1885-1952) şəxsiyyətin 3 tipini ayırd edirdi:

1. Güzəştə gedən (insanlara istiqamətlənmə)

2. Təcrid edilmiş (insanlardan)

3. Düşmən (insanlara qarşı).

Sosioloji tipləşdirmə baxımınıdan R.Mertonun mülahizələri xüsusilə maraqlıdır. Onun təklif etdiyi tipologiya şəxsiyyətin davranışını məqsəd və vasitələrə münasibətdən asılı olaraq nəzərdən keçirir. Onun fikrincə bütün davranış növlərini 5 qrupda birləşdirmək olar:

1. **Konformist** – cəmiyyətin loyal üzvüdür; o, cəmiyyətdə bəyənilmiş mədəni məqsədləri və təsisatlaşmış vasitələri qəbul edir;
2. **Novator** – cəmiyyətin elə üzvüdür ki, o, öz məqsədlərinə qeyri-təsisatlaşmış vasitələrlə, o cümlədən qeyri-qanuni vasitələrlə çatır;
3. **Ritualist** – vasitələri mütləqləşdirən və xatirinə fəaliyyətin həyata keçirildiyi məqsədlərə laqeydlik göstərən şəxsdir;
4. **Təcrid edilmiş** tip həm mədəni məqsədlərdən, həm də təsisatlaşmış vasitələrdən yan keçir;
5. **Qiyamçı** – cəmiyyətdə qəbul olunmuş məqsəd və vasitələrdən yan keçir, başqa dəyərləri və normaları onlara qarşı qoyur.

Tanınmış qərb sosioloqu R.Darendorf şəxsiyyəti mədəniyyətin inkişaf məhsulu kimi nəzərdən keçirir. O, 4 tipi ayırd edir:

1. **Zəhmətkeş insan** (ictimai cəhətdən faydalı nemətlər yaradan şəxsiyyət, məsələn, kəndli, siyasətçi, hərbiçi və s.);
2. **İstehlak edən insan** (kütləvi istehlakla formalaşan şəxsiyyət);
3. **Universal insan** (müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilən şəxsiyyət);
4. **Totalitar insan** (totalitar dövlətdən asılı olan şəxsiyyət).

Beləliklə, sosioloji yanaşma insanların rol davranışının ümumi xarakteristikalarını, onların oxşar vəziyyətlərdə fəaliyyətinin məqsəd və vasitələrinə münasibəti ifadə edir.

11.3. Şəxsiyyətin sosiallaşması

Cəmiyyətlə şəxsiyyət arasındakı münasibətlərdə sosial birlik formaları əlaqələndirici vasitə kimi çıxış edirlər. Məhz onların tərkibinə daxil olmaq vasitəsilə bub və ya digər insan sosial həyata, ümumilikdı sosial münasibətlər sisteminə qovuşulur. Hər bir fərd müəyyən sosial

birlik formasına daxil olarkən onun ümumi mədəniyyətini, sosial normalarını və sərvətlərini qəbul edir. Bütövlükdə ayrıca bir fərdin sosial birliyə və onun vasitəsilə cəmiyyətə qovuşması prosesi şəxsiyyətin sosiallaşması adlanır.

Şəxsiyyətin sosiallaşması onun şəxsi keyfiyyətlərinin sosial mühitdə əriyib itməsi, nisbi müstəqilliyinin aradan qaldırılması demək deyildir, əksinə, şəxsiyyət sosial sistemə nə qədər dərindən və hərtərəfli qovuşarsa, o, özünəməxsus keyfiyyətlərini inkişaf və təzahür etdirmək üçün daha çox imkanlar əldə edir. Sosiologiya bunu əsas götürür ki, insan fəal ictimai qüvvədir, o, həm ayrılıqda öz həyatının, həm bütövlükdə sosial həyatın yaradıcısıdır. Sonuncu səpki sosiallaşmış şəxsiyyətdə, o, müxtəlif sosial sistemlərə, birliklərə daxil olduqda, başqaları ilə qarşılıqlı təsir prosesi intensivləşdikdə daha parlaq şəkildə üzə çıxır.

Şəxsiyyətin fəaliyyətinin əsasında duran tələbatlar insan həmin tələbatları ödəmək üçün şərait və vasitələr axtarmağa sövq edir. **Tələbatlar təbii və sosial olmaqla iki qrupa bölünür. Birincilər** insanın gündəlik qidaya, paltara, mənzilə və s. olan ehtiyaclarını ifadə edir. **İkincilərə** isə sırf sosial həyatın məhsulu olan ehtiyaclar (əmək fəaliyyəti, sosial fəallıq, məişəti yaxşılaşdırmaq, mənəvi mədəniyyəti inkişaf etdirmək və s.) daxildir. Bunlarla yanaşı fərdlərin sosial birlik formalarına qovuşmasına, sosial norma və sərvətlərə yiyələnməsinə olan tələbatları da mütləq nəzərə alınmalıdır.

Şəxsiyyət öz tələbatları və mənafeləri baxımından fəaliyyət şəraitini qiymətləndirir, ondan ya razı qalır, ya da narazı olur. Sonuncu hal həmin şəraiti öz tələbatlarına uyğun şəkildə dəyişdirmək fəaliyyətinə sövq edir.

Şəxsiyyətin sosioloji fəaliyyətini şərtləndirən amillər şərti olaraq iki hissəyə ayrılır. Bunlardan **birincisi** cəmiyyətdəki sosial birlik formalarının bütün növləri tərəfindən həyata keçirilməklə ümumilikdə ictimai inkişafın məqsəd, mənafe və tələbatlarını ifadə edir. **İkinci** qrupda isə, daha çox subyektiv xarakter daşıyan amillər (sərvətlər oriyentasiyası, şəxsiyyətin və sosial birliklərin mənafe və məqsədləri) daxildir.

Şəxsiyyətin mənafeyi onu mövcud şəraiti qoruyub saxlamaq və ya dəyişdirmək üçün fəaliyyətə səfərbər edən güclü motivlərdəndir. Obyektiv sosial qanunların tələbatlar kimi başa düşülməsini ifadə edən mənafelər məzmun etibarilə müxtəlif olur. Burada real surətdə təzahür edən mənafeləri, amal xarakterli və səmtləşmə xarakterli mənafeləri ayırmaq olar.

Şəxsiyyətin real fəaliyyətə başlanması üçün təkcə daxili motivlərin olması kifayət deyildir. Bu prosesdə həm də kənar sövqedici amillər – stimullar mühüm rol oynayır. **Stimullar daxili məzmuna görə iki qrupa ayrılır: maddi və mənəvi stimullar.**

11.4. Sosial nəzarət

Ayrı-ayrı fərdlərlə bütövlükdə cəmiyyət arasında sosial münasibətlər özbaşına tənzim olunmur. Bu işdə sosial nəzarət müstəsna rol oynayır. Sosial nəzarət dedikdə sosial sistemin onu təşkil edən elementlərin qarşılıqlı təsirini normativ nizamlama vasitəsilə öz-özünə tənzim etməsi üsulu nəzərdə tutulur. O, çox mühim funksiya yerinə yetirir: cəmiyyətdə mövcud sosial münasibətlərin və sosial strukturların normal inkişafını təmin etməyə yönəlir. Ayrı-ayrı fərdlərlə bütövlükdə cəmiyyət, vətəndaşlarla dövlət arasındaki münasibətlər sözün əsl mənasında qarşılıqlı xarakter daşıyır, yəni nəinki təkc sosial münasibətlər fərdi keyfiyyətlərə təsir edir, həm də sonuncular öz növbəsində ümumi ictimai sistemdə fəal rol oynayır.

Sosial nəzarət sistemində fərdi hərəkətlərlə, yəni sosial institutların nəzarətedici fəaliyyəti vəhdətdə çıxış edir. O, fərdlərin sosial davranışını təkcə dövlət mövqeyindən deyil, həm də mənəvi-etik münasibətdən tənzim edir.

Sosial nəzarət sistemində fərdi və sosial davranış əsas yer tutur. Lakin burada sosial xarakterli bir sıra əlavə ünsürlər iştirak edir ki, onların həmin prosesə ciddi təsiri nəzərə alınmalıdır. Subyektin öz-özünü qiymətləndirməsini və subyekt tərəfindən konkret sosial şəraitin qiymətləndirilməsini buna misal göstərmək olar. Qeyd olunan hər iki ünsür həm fərdi səviyyədə, həm də qrup səviyyəsində olan davranış

aktlarının məzmun və istiqamətinə mühüm təsir göstərir. Əlbəttə, onları birmənalı qiymətləndirmək doğru olmazdı.

Bütövlükdə sosial nəzarət sisteminin tərkibində aşağıdakı ünsürləri ayırmaq olar: fərdin sosial mühitlə adaptasiya xarakterli fəal qarşılıqlı təsirdə ifadə olunan hərəkət aktları; sosial qiymətləndirmə şkalasının nəticəsi kimi çıxış edən fərdi aktların müəyyən kateqoriyalara bölünməsi; ictimai həyatın özünüdərketmə şüurunun vəziyyəti; fərdin sosial hərəkətə qarşı verdiyi reaksiya; fərdin öz mənlik şüuru səviyyəsinə uyğun olaraq öz hərəkətlərini təsnif etməsi və s.

Sosial nəzarət sisteminin fəaliyyətinin ilkin mərhələsini fərdi hərəkət aktlarını qiymətləndirməyin sosial şərtlənmiş prosesi təşkil edir. Məhz bu mərhələdə fərdi hərəkətlər sosial aləmə daxil olur, sosial mahiyyət kəsb edir. Bu mərhələdə həm də fərdi akta cəmiyyət tərəfindən müəyyən reaksiya edilir. Həmin reaksiyanın xarakteri fərdi aktların sonrakı gedişinə mühüm təsir göstərir (həmin akt ya təkrar olunur, ya dəyişdirilir, ya da dayandırılır).

Fərdi hərəkətlərin sosial cəhətdən qiymətləndirilməsi bu və ya digər sosial birlik formasının malik olduğu normalara, sərvətlərə və ideallara uyğun baş verir. Burada öz məzmununa görə konkret akt ya kəskin surətdə pislənə, ya neytral qiymət ala bilər, ya da maksimum müsbət şəkildə qiymətləndirilə bilər. Sosial qiymətlər şkalası hüquqi (məcburi normaları) və əxlaq, peşə etikası normalarını da ifadə edə bilər. Bu və ya digər fərdin konkret hərəkətinin qiymətləndirilməsi meyarları həm ümumdövlət səviyyəsində (qanun şəklində), həm də sosial birlik (qrup) səviyyəsində işlənib hazırlanır. Fərdi aktın sosial baxımdan təsnif olunması prosesi iki məqamla səciyyələnir:

a) Bu akt mövcud sosial hərəkətlərin müəyyən kateqoriyasına aid edildikdən sonra onun spesifikliyi, unikal xarakteri aradan qalxır.
b) Fərdi aktın sosial nəzarət baxımından əhəmiyyət kəsb edən bu və ya digər keyfiyyəti ümumiləşmiş məna kəsb edir və ondan gələcəkdə belə aktların təsnif olunmasında bir meyar kimi istifadə oluna bilir.

Fərdi aktın kateqoriyalara ayrılması sosial nəzarətin, sosial qarşılıqlı təsiri sahmanlamağın mühüm mərhələsi olmaqla ictimai şüur hadisələri ilə (xüsusilə də ictimai baxımdan özünü qiymətləndirmə və sosial şəraitin qiymətləndirilməsi ilə) sıx bağlıdır.

Sosial nəzarətin metodları müxtəlifdir, burada təkvə neqativ sanksiyalar hökm sürmür. Əksinə, aparılmış sosioloji eksperimentlər sübut edir ki, neqativ sanksiyaların tətbiqi arzuolunmaz sosial davranışın yalnız müvəqqəti qarşısını alır, bir müddət keçdikdən sonra, yəni neqativ sanksiyanın vaxtı bitdikdən sonra onun yenidən canlanması meyli baş verir. Həm də qeyd olunmalıdır ki, sosial nəzarətdə həmin metodlardan daha çox istifadə edilməsi humanizm baxımından özünü doğrultmur. Buna görə də sosial nəzarətdə inandırma metodlar (qarşılıqlı təsirin sosial baxımdan bəyənilməsi, mənəvi-əxlaqi tənbehetmə) getdikcə daha mühüm rol oynayır.

Sosial nəzarətdən danışarkən belə bir cəhət də qeyd olunmalıdır: təkcə cəmiyyətin (dövlət hüquq) fərdi qiymətləndirilməsi ilə iş bitmir, fərd də öz növbəsində həm cəmiyyəti, həm də öz-özünü səciyyələndirir və qiymətləndirir. Deməli, şəxsiyyətin malik olduğu mənlik şüurunun səviyyəsi sosial nəzarətin təsirində özünəməxsus yer tutur.

Mənlik şüurunun formalaşmasının mühüm bir mənbəyini fərdin, hərəkətləri haqqında onu əhatə edən şəxslərin təsəvvürləri təşkil edir. Ətrafındakılar tərəfindən onun hərəkətlərinə verilən reaksiya, ona verilən qiymət həmin adamın necə olduğu barədə təsəvvür yaradır.

Ümumiyyətlə, bu və ya digər **cəmiyyətdə sosial nəzarətin həyata keçirilməsində yuxarıda göstərilənlərlə yanaşı ideoloji fəaliyyət, tərbiyə, ictimai rəy, təbliğat və təşviqat da mühüm yer tutur**.

11.5. Şəxsiyyət və sosial təyinat sərvətləri

Ətraf aləm obyektlərinin insan və cəmiyyət üçün müsbət və ya mənfi əhəmiyyətini aşkara çıxaran səciyyəvi sosial təyinat sərvətlərdir. Zahirən sərvətlər həmin predmetin və ya hadisənin xassələri kimi çıxış edir, lakin sərvətlər həmin predmetə və ya hadisəyə, ona görə məxsusdur ki, həmin obyekt insanın ictimai varlığı sahəsinə cəlb edilmiş və müəyyən sosial münasibətlərin daşıyıcısına çevrilmişdir. Subyektə

(insana) münaisbətdə sərvətlər onun mənafelərinin obyekti kimi çıxış edir, onun şüuru üçün isə predmet və baxımdan sosial gündəlik istiqamətlər, rolunu, əhatə olunduğu predmet və hadisələrə müxtəlif praktik münasibətlərinin qeyd edilməsi rolunu yerinə yetirir. Məsələn, stəkan su, şirə və s. içmək üçün əşya olduğundan, özünün bu faydalı xassəsini istehlak dəyəri kimi, maddi nemət kimi aşkara çıxarır. Əməyin məhsulu və əmtəə mübadiləsi olaraq stəkan iqtisadi sərvətlər kimi, dəyər kimi çıxış edir. Əgər stəkan incəsənət predmetidirsə, o, həmçinin estetik sərvət, gözəllik xüsusiyyəti qazanır. Bütün xassələr insanın həyat fəaliyyəti sistemində müxtəlif funksiyaları ifadə edir və insanın daxil olduğu müəyyən ictimai münasibətlərin predmet işarələri, rəmzləri kimi aşkara çıxarır.

Fərd tərəfindən sosial-mədəni təcrübənin, toplanmış və nəsildən-nəslə verilən əmək vərdişlərinin, biliklərin, normaların, dəyərlərin, ənənələrin mənimsənilməsi və daha da inkişaf etdirilməsi, fərdin ictimai münasibətlər sisteminə daxil olması v sosial keyfiyyətlərin formalaşması prosesi sosiallaşmadır. Dərk olunmuş təcrübənin başqalarına verilməsi, fəaliyyətin müxtəlif formaları və üsullarınını öyrənilməsi təlim-tərbiyə vasitəsilə və xarici mühitin təsiri vasitəsilə həyata keçirilir. Təcrübənin ötürülməsi vasitələri dil və insan fəaliyyətinin əşyalaşmış nəticələri, hər şeydən əvvəl əmək alətləridir. Bioloji məhdudluqdan azad olması insan qarşısında universal inkişafı üçün, onun humanistləşməsi sürətinin tezləşdirilməsi üçün yeni imkanlar açmışdır; insanın bioloji xassələri sosiallaşma prosesində onun sosial keyfiyyətləri ilə qarşılıqlı təsirdə və onlara inteqrasiya olunmaqla fəaliyyət göstərir.

Tarixən konkret fəaliyyət növləri və ictimai münasibətlər prosesində formalaşan sosial keyfiyyətlər aspektində götürülmüş insan fərdi şəxsiyyətdir. Şəxsiyyətin təbii əsasını bioloji xüsusiyyətlər təşkil etsə də, onun inkişafının müəyyənedici amilləri (mahiyyət əsası) təbii keyfiyyətləri (məsələn, ali sinir fəaliyyətinin bu və ya digər tipi) deyil, sosial keyfiyyətləridir – baxışlar, qabiliyyətlər, tələbatlar, mənafelər və s.-dir. **Şəxsiyyət insanın şüur və fəaliyyətinin fərdi xüsusiyyətlərində ifadə olunmuş intellektual, sosial-mədəni və əxlaqi-iradi keyfiyyətlərinin dinamik, nisbi sabit, bütöv sistemidir.**

Şəxsiyyət ümuminin, xüsusinin və ayrıcanın dialektik vəhdətidir. Konkret tarixi vəziyyətlərdə şəxsiyyət müəyyən sosial sistemdən irəli gələn tam kimi, bütövlük kimi çıxış edir. Şəxsiyyətin sosial keyfiyyətləri hərəkətlərində, davranışında və başqa adamlara münasibətlərində təzahür edir. Bu təzahürlərə görə müəyyən mənada insanın daxili aləmi, mənəvi və əxlaqi keyfiyyətləri (istər müsbət və istərsə mənfi) haqqında fikir yürütmək olar. Şəxsiyyətin subyektiv aləmi rəngarəng xarici təsirlərin mexaniki nəticəsi deyil, şəxsiyyətin özünün daxili işinin nəticəsidir, elə bir işin ki, onun gedişində xarici olan şəxsiyyətin subyektiv aləmi içərisindən keçərək yenidən işlənilir və praktik fəaliyyətdə tətbiq olunur. Təlim-tərbiyə nəticəsində əldə edilmiş və fərd tərəfindən müstəqil qazanılmış sosial keyfiyyətlərin bu yolla təşəkkül tapmış sistemi şəxsiyyətin ətraf aləmə qarşılıqlı təsirini əks etdirən subyektiv formada təzahür edir (ideyalar, dəyərlər, mənafelər və s.). İctimai münasibətlərin xarakterindən, bilik və iradə qüvvəsinin səviyyəsindən asılı olaraq fərd özünün inkişaf amillərinə çox və ya az dərəcədə təsir göstərmək imkanı əldə edir.

Şəxsiyyətin inkişaf dərəcəsi birbaşa daxil olduğu reak münasibətlərin zənginliyindən asılıdır. Onun inkişafındakı keyfiyyət dəyişiklikləri ictimai münasibətlərdəki tipindəki dəyişikliklərlə sıx bağlıdır. Bunların hərtərəfli araşdırılması şəxsiyyətin inkişafı üçün yeni imkanlar açır, mövcud üsulları, vasitələri təkmilləşdirməyə kömək edir.

Mövzu 12. Qarşılıqlı sosial təsir sistemində insan resursları.

12.1. Sosial işdə insan potensialı

12.2. İnsan potensialının dayanıqlılığı

12.3. Sosial işdə insan resurslarının rolu

12.4. Sosial işdə "düşünən beyin" resurslarının yeri

12.1. Sosial işdə insan potensialı

Qloballaşan bəşəriyyətin təkamül proseslərindən biri də insan potensialının formalaşması konsepsiyasıdır. Müasir dövrdə istehsalın yeni texnoloji əsaslarla idarə olunması, inteqrasiya proseslərinin sürətlənməsi, demoqrafik dəyişikliklərlə bağlı yer kürəsi əhalisinin intellektual çərçivəsində sivil formada yeni keyfiyyətin yaranmasına səbəb olmuşdur. Buna görə də hər bir ölkənin siyasi strategiyasında insan resurslarının intellektual optimallığına, istehsal və material sahələr arasında bu optimallığın tarazlığının yaradılması önəmə gətirilir. **İnsan potensialı: cəmiyyətin milli sərvəti, hərəkətverici qüvvəsidir.**

Elmi mərkəzlərin tədqiqatçıları "təbiət-cəmiyyət-insan" təkamül çərçivəsində belə bir ideya istiqaməti qəbul edirlər ki, cəmiyyətin qlobal sivilizasiya istiqaməti məhz insan potensialının qanunauyğunluqları ilə idarə olunmalıdır. Məntiqi olaraq müasir dövr üçün insan təfəkküründün dəyərləri, məqsəd və meyarları **"təkamül texnologiya"**ya əsaslanır.

"Təkamül texnologiya"ya əsaslanan insan potensialı hər bir ölkənin milli intellektual resursu və sosial-iqtisadi strukturlarının optimallığını təmin edən hərəkətverici dinamik qüvvəsi hesab edilir. Nəticə etibarilə o deməkdir ki, cəmiyyətin idarə edilməsi və təşkili ilk növbədə insan potensialının intellektual səviyyəsindən, keyfiyyətindən asılı olaraq təzahür edir. Bu səbəbdəndir ki, inkişaf etmiş ölkələr qrupunda iqtisadi artımın optimallığı, struktur modeli, həyat səviyyəsinin zənginləşdirilməsin insan potensialının inkişafı ilə əlaqələndirilir.

Müasir dünyanın qlobal problemlərindən sayılan insan potensialı kapital tutumlu sahəyə çevrilmişdir. Təhlillər göstərir ki, Avropa, Şimali

Amerika, Yaponiya və s. ölkələrin milli resurslarının 2/3 hissəsi insan kapitalının formalaşmasına sərf edilir. Ən mühüm cəhət ondan ibarətdir ki, inkişaf etmiş ölkələrdə baş verən revolyusiyon iqtisadi-sosial dəyişikliklər ilk növbədə insan potensialının "kəmiyyət-keyfiyyət" modelinin düzgün idarəedilməsi və aşkara çıxarılması ilə tənzimlənməsidir.

Cəmiyyətin qloballaşma siyasətinə əsaslanaraq belə bir məntiqi nəticəyə gəlmək mümkündür ki, gələcək inkişaf konsepsiyasını insan potensial inkişafı konsepsiyasız təsəvvür etmək qeyri-mümkündür:

- İnsan-bəşəriyyətin varlığını, onun təkamül düşüncə tərzini özündə birləşdirir;
- İnsan-fəal subyekt kimi cəmiyyətin qlobal inkişafında, istehsal-texnoloji, elmi tərəqqinin reallaşdırılmasında əsas rol oynayır;
- Dünyanın dərk edilməsi etnodemoqrafik inkişaf prosesləri insan çərçivəsi daxilində meydana gəlir, formalaşır və cəmiyyətləşir.

"İnsan-iqtisadi inkişaf" modeli bəşəriyyətin sivilizasiyasının ümumi cəhətlərini özündə birləşdirməklə yanaşı, onun tsiklli inkişafının davam etməsi üçün dayanıqlı mühit yaradır.

"İnsan potensialının tsikilli inkişafı" müəyyən qanunauyğunluqlar üzrə fəaliyyət dairəsinin dəyişdiyinə və inkişaf etdiyinə dair təklif etdiyimiz ideyanın əsas mahiyyəti ondan ibarətdir ki, insna potensialı demoqrafik iqtisadi inkişafının daim dəyişən trayektoriyaları müəyyən bir struktur yaradır ki, bu da öz növbəsində cəmiyyətdə mövcud olan əsas harmoniya ilə tsikilli dayanıqlığını təşkil edir.

"İnsan potensialının tsikilli inkişafı"na əsasən baş verən hər hansı demoqrafik dəyişikliyi müəyyən əhəmiyyətli informasiyanın nəticəsidir və eyni zamanda özü də müəyyən məntiqi informasiya doğurur. Demoqrafik inkişafın strukturuna daxil olan insan potensialı daha öncəki dəyişikliklərin təsiri nəticəsində yaranır və eyni zamanda sonrakı dəyişikliklərin baş verməsinə səbəb olur. Bu tip əks təsir insan potensialının təbii özəlliklərindən biridir və geniş miqyasda bu şəkildə əks təsirlər müəyyən inkişaf tsikillərini formalaşdırır. Bu tsikillərin müəyyən "məkan-zaman" üzrə təkrarlanması gələcəkdə

yarana biləcək demoqrafik formların proqnozlaşdırılmasına imkan yaradır.

İnsan potensialının öz qanunauyğunluqları vardır. Məlumdur ki, dünyada baş verən demoqrafik dəyişikliklər düzxətli asılılıq üzrə dəyişmir, demoqrafik dəyişikliklər tsikl ritminə uyğunlaşan mexanizmdir. Eyni zamanda dünyada baş verən demoqrafik dəyişikliklər insan potensialının inkişaf struktur tsiklinin ardıcıl dayanıqlığını özündə əks etdirir. Məntiqi olaraq tsikli-insan potensialı inkişafının istiqamətlənmiş hərəkət modelidir.

Bu hərəkət modeli iki tsikllə müşahidə olunur: "hərəkətverici tsikllər", "korreksiya tsiklləri". İnsan potensialının dayanıqlı inkişafında "hərəkətverici tsikllər" əsas tsikllər adlanır. Korreksiya tsikllər isə insan potensialının ümumi dayanıqlı tendensiyaya əks istiqamətdə dəyişildiyini xarakterizə edir və müvəqqəti dönüş hərəkətini özündə əks etdirdiyinə görə "korreksiya tsiklləri" adlanır. Bu yanaşma tsikl nəzəriyyəsinin əsas qanunauyğunluğunu özündə əks etdirir. Belə ki, hərəkətverici tsikllərin əsas xüsusiyyəti ondan ibarətdir ki, insan potensialın inkişaf səviyyəsi ierarxik struktura müvafiq olaraq optimallıq təşkil edir.

İnsan potensialının inkişafı tsikilində hər bir tsikil tipinin özünəməxsus xüsusiyyətləri bu tsikllərin təcəssüm etdirdiyi insan psixologiyasının ayrılmaz tərkib hissəsidir. İnsan intellektindən optimizmə doğru və əksinə inkişafı insan potensialının tsikil strukturunda hər zaman oxşar trayektoriya üzrə hərəkət edən və bu zaman müəyyən dərəcədə oxşar qrafik detallar yaradır.



12.2. İnsan potensialının dayanıqlılığı

Müasir bəşəri dövrün inkişaf mərhələsi dünyanın elm mərkəzlərində təhlil edilərkən, insan amili və onun intellektual formalaşması problemləri ön plana çəkilir. Bu səbəbdən də insan potensialı bütün iqtisadi-sosial tərəqqinin formalaşması çərçivəsində hər bir ölkənin milli resurs kimi, maddi varlığın hərəkətverici qüvvəsi kimi qəbul olunmuşdur. Təsadüfi deyildir ki, iqtisadi inkişafı yüksək potensiala malik olan qərb ölkələrində başqa resurslara nisbətən intellektual səviyyəli elmi tədqiqatlara (insan potensialına) sərmayə qoyuluşu daha effektli və optimal sayılır. **Elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və intellektuallığı insan potensialının keyfiyyətindən asılıdır.**

Cəmiyyətin ümumi təkamül prosesində insanın funksional rolu və yeri müəyyənləşdikcə, onun gerçəkliyi yeni ideyalarla zənginləşmiş və məntiqi olaraq müvafiq yanaşma və anlayışlar elmi ədəbiyyat mənbələrində fikirlər meydana gəlmişdir: “insan potensialı”, “insan kapitalı”, “intellektual əmək” və s. Bu cəhətdən bir çox anlayış və yanaşmalara yenidən baxmaq, onların mahiyyət və məzmununu konseptual əsaslarla müəyyən etmək elmi-praktiki cəhətdən faydalıdır.

Elmi ədəbiyyatlarda “insanın inkişafı” anlayışı geniş istifadə edilir. Bu anlayış 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən daxil edilmiş və həmin vaxtdan istifadə edilməyə başlamışdır. Göstərilən vaxtdan etibarən, BMTİP-i hər il insan inkişafı haqqında məruzə təqdim edir. Bu məruzə hər il insan potensialının müstəlif aspektlərinə həsr edilir. Məruzədə əsasən insan potensialının yeni konsepsiyaları və bu konsepsiyaların hazırlamasına yeni yanaşma metodlarının mexanizmləri təklif olunur.

Bütün məruzələrin əsas meyarı ondan ibarətdir ki, hər bir ölkənin inkişaf mərhələsində insanın mənafeyinə və onun imkanlarının genişlənməsinə xidmət edilsin.

Məkan və zaman: obyektivdir, ziddiyyətlidir. Zaman bir ölçülüdür, geriyə dönməzdir. Filosof Fales göstərir ki, “ən müdrik-zamandır, çünki o hər şeyi aşkar edir”. İnsan potensialında zəka problemi Dekart fəlsəfəsində “mən düşünürəmsə, deməli yaşayıram” ideyası bütün əsrlər boyu insan fəlsəfəsində aktual olmuşdur.

İnsan potensialının funksional gerçəklik anlayışları



İş qüvvəsi	XIX əsr-müsir dövrdə	İnsan-əmək prosesində kəmiyyət və keyfiyyət daşıyıcısı kimi
Əmək ehtiyatları	XX əsrin 20-ci illəri və müasir dövr	İnsan-idarəetmənin subyekti kimi
Əmək potensialı	XX əsrin 70-80-ci illəri və müasir dövr	İnsan-əmək prosesində intellektual səviyyədə iştirakının subyekti kimi
İnsan amili	XX əsrin 80-90-cı illərin əvvəli və müasir dövr	İnsan-istehsalın başlıca hərəkətverici qüvvəsinin subyekti kimi
İnsan kapitalı	XX əsrin 90-cı illərin əvvəli və müasir dövr	İnsan-kapital qoyuluşunun obyekti, bilik və qabiliyyətinin məcmusuna çevirən subyekt kimi

İnsan potensialı haqqında təsəvvürlərin inkişaf dinamikası

İnsan potensialının sosial dayanıqlı inkişafı bilavasitə həyat şəraitinin təmin edilməsidir. Hələ 1998-ci ildə qəbul edilmiş "Böyük Britaniya və Birləşmiş İrlandiya Krallığı dövləti üçün dayaıqlı inkişaf strategiyası" proqramında göstərilir ki, dayanıqlı inkişaf indiki və gələcək nəsil üçün yaxşı keyfiyyətdə həyat şəraitinin təmin edilməsidir. Bu istiqamətdə bir çox ölkələrin (Yaponiya, Almaiya, Fransa və s) dayanıqlı inkişaf konsepsiyaları da mövcuddur.

Dünyanın inkişaf etmiş ölkələrinin sosial dayanıqlı inkişafının ümumiləşdirici göstəricisi insan potensialının inkişaf indeksindən (İPİİ) ibarətdir.

Təhsil səviyyəsi indeksi ölkədə və eləcə də bütün dünya üzrə əhalinin ixtisası və intellektual potensial səviyyəsinin təyin edilməsində bir reallıqdır.

Əhalinin təhsil səviyyəsi ilə gəliri arasında müəyyən qanunauyğun, qarşılıqlı əlaqə və asılılıq vardır. Təhsil səviyyəainin yüksəldilməsi, öz növbəsində ölkənin ÜDM və milli resurslarının çoxalmasına şərait yaradır.

Adambaşına düşən real ÜDM indekis həyatın keyfiyyətinin mühüm tərkib hissəsidir. Bu indeks təhsil, tibbi xidmətlərinin, ərzaq, mədəniyyət və s. əhalinin həyat səviyyəsi inkişafını özündə birləşdirir. Müasir qloballaşmaya uyğun olaraq əhalinin həyat səviyyəsi anlayışı geniş məna kəsb edərək "insan potensialı" konsepsiyası ilə eyniləşir. Bu konsepsiya çərçivəsində həyat səviyyəsi həm sosial qruplar arasında sosial bərabərlik səviyyəsi, həm də insanların həyat səviyyəsinə iqtisadiyyatın imkanları ilə müəyyən olunur.



Əhalinin həyat səviyyəsi nəzəriyyəsinin aspektləri

Yeni nəzəriyyəyə əsasən əhalinin həyat səviyyəsi deyildikdə insanın şəxsiyyət və mövcud cəmiyyətin bir üzvü kimi inkişafı imkanları nəzərdə tutulur. Qərb nəzəriyyəsində əahlinin həyat səviyyəsini üəyyən edən əsas amillərdən biri orta təbəqənin mövcudluğudur. Qərbin inkişaf etmiş ölkələrində bu təbəqə əhalinin ümumi sayının 60-70%-ə qədərini təşkil edir. Məhz bu təbəqə istehlakın əsas strukturunu və həcmini yaradır.

Ümumiyyətlə, Avropa ölkələrində əhalinin istehlak xərclərinin strukturunda ərzaq xərcləri ilə bərabər, kommunal xrclər, nəqliyyat xərcləri və s. yüksək çəkiyə malikdir.

Əhalinin rifahının elmi obyekt kimi dinamikasında qiymətləndirmə məhz bazar tipli amillərin dəyişmə meyllərini nəzərə almaqla təyin olunur. Bazar tipli sosial model və həyat səviyyəsi daha çox orta səviyyəsi yanaşmasından, minimum yaşayış səviyyəsində olan əhalinin təminatı ilə daha da aktuallaşır.

12.3. Sosial işdə insan resurslarının rolu

Azərbaycan Respublikası müstəqil dövlət quruculuğuna qədəm qoyduqdan sonra iqtisadi və siyasi imkanlardan istifadə edilməsində yaranmış maneələr ləğv olunmuş və insanlar öz imkanlarından və nemətlərindən istifadə olunmasında iştirak etmək hüquqlarını əldə edə bilmişlər. Dövlətin strateji siyasətinin tərkib hissələrindən sayılan, ölkənin sosial tərəqqinin çərçivəsinə daxil edilən, insan potensialı momdelin inkişaf etdirilməsidir. Bu modelin mahiyyəti insanın ömür müddətinin sabitləşdirilməsi, təhsilin beynəlxalq standartlarına uyğunlaşdırılması və əhalinin maddi rifahının yaxşılaşdırılmasından ibarətdir.

BMT-nin ekspertlərinin verdiyi məlumata əsasən Azərbaycan Respublikası insan potensialının inkişaf indeksinə görə dünyanın 78 ölkəsini əhatə edən orta inkişaf səviyyəsinə daxil edilir. Azərbaycanla yanaşı postsover dövlətlər, həmçinin Çin, Hindistaan, İndoneziya, Braziliya, Səudiyyə Ərəbistanı, Meksika, Misir, İran və sair bu kimi onlarca digər ölkələrinin də adları qeyd olunur.

İnsan potensialın orta göstəricilərin mqayisəli təhlili Azərbaycanda insan potensialının inkişafı və onun dəyişilmə meyllərinə aid mülahizələr söyləməyə imkan yaradır.

Əhalinin həyat səviyyəsinin optimallığını təmin etmək daha çox onun minimum və orta təminat səviyyələrinin qiymətləndirilməsi metodikası və uyğun olaraq minimum səviyyə üçün dövlətin təminat meyarlarının və konkret maliyyə mexanizmlərini əsaslandırmaq və orta

istehlak səviyyəsi üçün gəlirlərin artmasına stimul yaradan tədbirlər tətbiq etməkdir.

Azərbaycan Respublikası əhalisinin demoqrafik tərkibi və onların müxtəlif sahələrdə istifadə dərəcəsi onun xarakterini müəyyən edir. Belə ki, əmək bazarının mövcud vəziyyəti insan resurslarına tələbat və təklif onun differensasiyası, respublika iqtisadiyyatının sahə strukturu, məşğuliyyət səviyyəsi və xidmət bazarının genişlənməsi ilətarazlaşır. Bu tarazlıq ölkədə iqtisadi artım və dövlətin strateji məqsədləri ilə də əsaslandırılır.

Yuxarıda göstərilən fikirlərin təhlili göstərir ki, Azərbaycanda insan inkişaf konsepsiyasının əsas məqsədi milli sərvəti və iqtisadi artımı artırmaqla insan potensialının inkişafını optimallaşdırmaqdan ibarətdir. Müasir dövrdə Azərbaycan Respublikasında insan inkişafı indeksinin yüksəlməsinə baxmayaraq obyektiv səbəblər üzündən ölkənin malik olduğu potensialından maksimum istifadə olunmur. Lakin dövlətin apardığı təhlillər göstərir ki, adambaşına düşən ÜDMM və insan inkişaf indeksi arasında əlaqə yoxsulluğun azalması tələbləri üçün Azərbaycanda əlavə milli potensialın olduğunu göstərir.

Azərbaycan Respublikasında insanın inkişafı haqqında hesabatın (2004-cü il) materiallarının təhlili göstərir ki, ölkədə insanın inkişaf indeksi və onun tərkib hissələri üzrə dəyişmələr son illərdə yüksəlmişdir.

Azərbaycanda insan inkişafı indeksinin qeyri-bərabərsizlik, hər şeydən əvvəl demoqraiyanın və insan resurslarının dinamikasının, həyat fəaliyyətinin bütün sahələrinə bazar mexanizmlərinin işlənməsi ilə bağlıdır.

Bəşəriyyətin ümumi tərəqqisi ictimai quruluş ilə birlikdə insan resurslarının dayanıqlı kompleks istifadə edilməsi çərçivəsində asılı olmuşdur. Məntiqi olaraq cəmiyyətin təkamülü onun fiziki və intellektual səviyyəsinin yaradılması, idarə edilməsi modelinin nə dərəcədə fəaliyyəti ilə nəticələnir:

- Onun tərkibinə intellektual əmək qabiliyyətli əhali düşür;
- Ölkənin fiziki və zehni cəhətdən inkişaf etmiş insan resursları daha aktiv fəaliyyət kəsb edir;
- İntellektual əhali – ölkənin potensial insan resursları hesab edilir;

- Hər bir ölkənin insan resursları strateji məqsəd daşıyır.

İnsan resursları qlobal xarakterli olub, insan potensialının idarə edilməsi sosial-iqtisadi strukturlaları optimallaşdırır və nəticədə isə beynəlxalq sistemin (siyasi, iqtisadi, sosial və s.) formalaşmasına imkan yaradır. Digər bir tərəfdən isə insan resursları kapital tutumlu olduğu üçün ondan optimal qaydada istifadə edilməsi mühüm şərtlərdən sayılır. Elmi mərkəzlərə istinad edərək, belə bir nəticəyə gəlmək mümkündür ki, dünyanın qlobal inkişafı və idarə edilməsi modelində intellektual insan amili durur. Bu baxımdan göstərə bilərik ki, inkişaf etmiş ölkələrin potensial strukturların sistemli elmi-texniki tərəqqisi insan resurslarından keyfiyyətli, optimal dərəcədə istifadə edilməsi qanunlarından irəli gəlir. əhatə etdiyi təsir çərçivəsinə görə insan potensialı elmi dialektikanın tərkib hissəsidir:



Buna görə də insan potensialın dialektikası (yunan sözü “dialoqo”-mübahisə etmək, müşahidə aparmaq) təbiət, cəmiyyət, təfəkkür və idrakı ümumi qanunlarına əsasən idarə edilir.

İnsan resurslarının idarə edilməsi dialektik qanunları mühitinin bütün aspektlərini və özünə inteqrasiya edilməsi baxımından formalaşmasının tələb edir.

Cəmiyyətin ümumi inkişafı əsasən üç komponent üzərində qurulmuşdur: insan resursu, enerji resursu və maddi resurs.



İnsan resurslarının inteqrasiya modeli

İnsan resurslarının idarə edilməsi strateji bir sistemdir. O, cəmiyyəti idarə edir, istehsal sistemini yaradır və tənzimləyir, "resurs-məhsul" modelinin texnoloji əsasını tutur.

Ölkəmiz dünyada baş verən qloballaşma proseslərinə qoşulmuş və fəallıq dərəcəsinə görə ön sıralarda gedir. İnsan potensialında baş verən dəyişikliklər və qloballaşma siyasəti yaxın gələcəkdə elmi-texniki potensialın qarşısında bir sıra idarəetmə prinsipləri durur:

- Qloballaşma və iqtisadi təhlükəsizlik şəraitində mili iqtisadi-sosial inkişafa nail olmaq siyasətini proqnozlaşdırılması;
- Elmi-texniki inkişaf strategiyasının çərçivəsində sosial-iqtisadi inkişafın dayanıqlığının yaradılması;
- İnsan potensialın inkişaf modelinə uyğun konseptual əsaslarının hazırlanması;
- Sosial-demoqrafik fonunda intellektual insan, əmək və kadr potensialının qiymətləndirilməsi;
- Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi və elmi-texniki potensial strukturlarının optimallığını müəyyən edilməsi.

12.4. Sosial işdə "düşünən beyin" resurslarının yeri

İnsan resursları – "düşünən beyin" - əhalinin fiziki və mənəvi qabiliyyəti hərtərəfli dünyagörüşü və "məhsuldar" zəkaya malik olan hissəsi kimi qəbul edilir. Qloballaşan dünyanın mərkəzi problemlərindən sayılan insan resursların (düşünən beyin) miqrasiyası və millətin genetik fonduna təsir elm mərkəzlərində tədqiqat obyektinə çevrilmişdir.

Dünyada baş verən evolyusiyon dəyişikliklər dövrlərindən başlayaraq bu günki dövrə qədər insan miqrasiyası (yer dəyişmə hərəkəti) baş vermişdir. Bəşəriyyətin bütün sivilizasiyası mərhələsini keçirmiş ölkələrdə insan miqrasiyası daha çox optimallığı ilə seçilmişdir. Faktiki olaraq, ABŞ dövlətinin ilk yaranma mərhələsində (sonrakı mərhələlərində) Avropa və digər ölkələrin insan resurslarının miqrasiyasının nəticəsində inkişaf etmiş və amerikan genetik fondunun formalaşmasına səbəb olmuşdur.

Beynəlxalq münasibətlər sistemində baş verən qlobal inkişaf ilk növbədə insan resurslarının xarakterinə, dinamikasına, istifadə edilməsi mexanizminə təsir edir. XIX əsrin axırı və XX əsrin əvvəllərindən başlayaraq iri miqyaslı sənaye strukturlarının əmələ gəlməsi şəraitində inkişaf etmiş ölkələr qrupu yarandığı dövrlərdə "kapital",. "düşünən beyin" miqrasiyası intensiv xarakter daşımışdır. "Kapital" və "düşünən beyin" miqrasiyası intensiv xarakter daşımışdır. "Kapital" və "düşünən beyin" axınları dünya iqtisadiyyatının "ağırlıq qüvvəsi"nə çevrilərək

müəyyən istiqamətlərdə hər bir ölkənin genetik fondunun dayanıqlı modelini yaratmışdır.

Müasir zəmanəmiz qloballaşan elmi-texnoloji tərəqqisi bilavasitə insan potensialı miqrasiyasına əsaslanır. Bu da ölkə daxilindən çıxaraq bəşəri miqyas mühitinə çevrilmişdir. Nəticədə isə "miqrasiya – qlobal inkişaf" hərəkətverici mexanizmi ilə vəhdətləşir.

Beynəlxalq insan miqrasiyası sosial-iqtisadi kateqoriya olub, çox funksionallığı ilə fərqlənir. Beynəlxalq miqrasiyanın əsas ideyası ondan ibarətdir ki, hər hansı bir ölkədə iqtisadi artım tempinə öz təsir funksiyasını göstərir. Bununla əlaqədar olaraq "beyin axını"na görə vergi ödənilməsi müzakirə obyektinə çevrilmiş, ondan gələn gəliri BMT-nin nəzarəti altında ölkənin inkişafı üçün lazım olan sahəyə sərf etmək lazımdır.

Klassik iqtisad nəzəriyyəçiləri insan miqrasiyasını təhlil edərkən ilk növbədə belə bir fikir irəli sürmüşdülər ki, hər bir insan öz əməyinə görə məhsul alır və qəbul edir. Onlar insan miqrasiya sistemini insanların mühüm ünsiyyət tərəfdarları cəmiyyətin inkişaf prosesində, təbii sərvətlərin mənimsənilməsi və istifadə edilməsi mənbəyini insan miqrasiyasının inkişafında axtarırdılar.

Son onilliklərdə inkişaf etməkdə olan ölkədən, xüsusi ilə MDB ölkələrindən Amerika və Avropa dövlətlərinə yüksək səviyyəli insan ("düşünən beyin") miqrasiyası artmışdır. Miqrasiya olunmuş digər ölkələr heç bir maneə qoymadan onların fəaliyyətləri üçün səlahiyyətlər yaradırlar. Buna səbəb:

- Həmin ölkələr əlavə kapital qoymadan hazırlıqlı, işgüzarlıq cəhətdən yüksək ixtisasa malik olan insanlara malik olurlar;
- "Düşünən beyin"lər öz ixtira, elmi nəzəriyyələri ilə həmin ölkələrdə milyonlarla kapital əldə etməyə şərait yaradırlar;
- Miqrasiya həyat tərzini keçirən "düşünən beyin" sahibləri həmin ölkənin intellektual genetik fondunun yaranmasında fəal iştirak edirlər.
- Elmi-texniki potensialını artırır və səmərəliliyin yüksəldilməsinə fəallıq göstərir.

Mövzu 13. Sosial işdə sosial-enik münasibətlərin əhəmiyyəti

13.1. Sosial-etnik münasibətlərin mahiyyəti

13.2. Sosial-etnik münasibətlərdə münaqişəlilik

13.3. Milli azlıqlarda etnik münaqişələrin kəskinləşməsi səbəbləri

13.4. Keçmiş sovet məkanında sosial-etnik münasibətlərin kəskinləşməsi səbəbləri

13.5. Sosial iş prosesində milli-etnik məsələlərin həlli yolları

13.1. Sosial-etnik münasibətlərin mahiyyəti

Sosial-etnik münasibətlərin öyrənilməsi xüsusi soisioloji nəzəriyyələr sistemində mühüm yer tutur. Bu onunla izah edilir ki, sosial-etnik münasibətlər sisteminin çox mühüm və əhəmiyyəti daim artmaqda olan istiqamətlərindən biridir. Onun əsas məzmunu millətlər və digər etnik birliklər arasında sosial həyatın istehsalı və təkrar istehsal prosesində qərarlaşan əlaqə və münasibətlərin məcmusundan ibarətdir.

Sosial-etnik birliklər bununla səciyyələnir ki, onlarda insanların bir-biri ilə sıx əlaqədə olan iki tərəfi sosial və etnik əlamətləri üzvü şəkildə birləşir. Həmin birlik formalarında sosial əlamətlər çox vacib və əhəmiyyətli yer tutur. Bununla yanaşı onlar həm də etnik keyfiyyətlər və xüsusiyyətlərlə səciyyələnirlər.

Sosial göstəricilərin, yəni bütövlükdə cəmiyyətin və onun struktur elementlərinin yetkinlik dərəcəsindən asılı olaraq bu və ya digər sosial-etnik birliyin fəaliyyətinin və inkişafının siyasi, iqtisadi, sosial və mənəvi keyfiyyətləri müvafiq surətdə artır və azalır.

Insanların sosial-etnik münasibətlərinin müasir, mürəkkəb mərhələsi elə bir termindən istifadəni zəruri edir ki, bu termin onların sosial mahiyyətini inkar etmədən etnik dərkini də dolğun əks etdirsin. Belə bir anlayış etnosdur: **Etnos tarixən müəyyən ərazidə yaşayan, mədəniyyət (dil də daxil olmaqla) və psixoloji xarakterin bəzi xüsusiyyətlərinə, eləcə də özünəməxsusluğunu və başqalarından fərqlərini dərk edən insanların sabit məcmusudur.**

Etnosun əsas əlamətləri – dil, xalq incəsənəti, adətlər, ənənələr, mərasimlər, davranış normaları və vərdişlərdir, yəni mədəniyyətin elə komponentləridir ki, onlar nəsildən nəsilə keçir və beləliklə etnik mədəniyyəti formalaşdırır. Insanların bu cür dayanıqlı birliyi onların sosial xüsusiyyətlərinin vacibliyini ifadə etməkələ yanaşı, həmişə özünün etnik mənsubiyyətini saxlamağa çalışır. Bu, həm bütöv etnosa, həm də onun tərkib hissəsi olan etnik qruplara aiddir. Etnik qruplar həm kompakt, həm də yayılmış vəziyyətdə ola bilirlər.

Sosial-etnik münasibətlərin tarixi təkamülü qəbilə, tayfa, xalq və millət kimi birlik formalarından keçərək bu günə gəlib çatmışdır.

Ilk qədim etnik birlik forması ibtidai icma cəmiyyətində yaranmış qəbilə hesab olunur. O, qan qohumluğuna əsaslanırdı. Bununla yanaşı, qəbilə daxilində birləşən insanlar mənafe ümumiliyinə, yaşayış məskəni, dil, adət və etiqadlar ümumiliyinə də malik olmuşlar. Öz tərkibində təxminən 30-50 nəfəri əhatə edən icma qəbiləsinin üzvləri əvvəllərdə ana xətti (matriarxat), sonralar isə ata xətti (patriarxat) ilə müəyyən olunurdu.

Ibtidai cəmiyyətin son dövrlərində iki və daha çox qəbilənin birləşməsi nəticəsində tayfa adlı yeni etnik birlik forması təşəkkül tapdı. Qəbiləyə xas olan əsas əlamətlər (qan qohumluğu, dil və ərazi ümumiliyi, adət və etiqadlar ümumiliyi və s) tayfada da özünü göstərmişdi. Bununla yanaşı tayfa birliyində əvvəla, sayca daha çox insanlar birləşirdi (bir neçə yüz nəfərdən min nəfərə qədər), sonar, tayfanın öz adı mövcud idi. Nəhayət, tayfa vahid mədəniyyət ünsürlərinin daha çox inkişafı ilə səciyyələnirdi.

Sinif münasibətlərin inkişafı ilə bağlı olaraq bu formanın yenisi ilə əvəz olunması prosesi getsə də, bir çox xalqlarda nəsil-tayfa bölgüsünün qalıqları indi də saxlanılmaqdadır. Hazarda onlar Asiyada, Afrikada, Amerikada və Rusiyanın Şimal ərazisində mövcuddur. Qan qohumluğu, klan və tayfaçılıq əlamətləri hazırki dövrdə də özünü büruzə verməkdədir. Xalqda sosial xüsusiyyətlər, əlamətlər çox mühüm rol oynayır.

Əvvəlki birlik formalarından fərqli olaraq xalq qan qohumluğuna deyil, təsərrüfat və mədəniyyət əlaqələrinin ümumiliyinə əsaslanırdı.

Xalqı yeni birlik forması kimi səciyyələndirən əsas cəhət budur ki, o, artıq, sırf etnik birlik forması deyildir. O, ilk dəfə olaraq, sözün əsl mənasında sosial-etnik birlik forması mahiyyəti kəsb etmişdir. Xalq daha mütərəqqi birlik forması kimi iqtisadiyyatın, sosial əlaqələrin və mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Lakin ictimai tərəqqi gedişində xalqın da birlik forması məhdudluğu özünü göstərməyə başladı. Nəticədə feodalizmin dağılması və kapitalizmin təşəkkülü dövründə insanların keyfiyyətcə yeni birliyi – millət yarandı.

13.2. Sosial-etnik münasibətlərdə münaqişəlilik

Müasir sosioloji ədəbiyyatda milli-etnik problemlər təhlil edilərkən daha çox "millətlərarası və ya milli" münasibətlər terminlərindən istifadən edilir. Həqiqətən də, XX əsrdə məhz millətlərarası münasibətlər müasir sosial münasibətlər sistemində çox mühüm yer tutur. Buradan aydındır ki, tarixi birliklər arasındakı münasibətlərdən söhbət gedərkən birinci növbədə millət anlayışına diqqət yetirilməlidir.

Millət tarixən formalaşmış etnos tipi olub, iqtisadi həyatın, dilin, ərazinin ümumiliyi ilə, mədəniyyətin, məişətin, psixoloji durumun və etnik xarakterin bəzi xüsusiyyətləri ilə səciyyələnən insanların xüsusi tarixi birliyidir. Millət xalqa nisbətən daha geniş tarixi birlik forması olub, kapitalizmin meydana çıxması və inkişafı ilə bağlıdır.

Millətlərin xalqları tarixi əvəzləməsi o demək deyildir ki, ikincilər yer üzündən silinmişdir. Xalq tarixən insanların tayfa birliyindən sonra gələn sosial-etnik birlik formasıdır. Onun meydana gəlməsinin başlanğıcı quldarlıq quruluşunun dağılması dövrünə təsadüf edir. Əgər tayfa birliklərinin səciyyəvi cəhəti onların qan qohumluğuna əsaslanan əlaqələri idisə, xalqlar üçün bu, ərazi və təsərrüfat əlaqələridir. Xalq anlayışı sözün əsl mənasında feodalizm cəmiyyətinin məhsuludur. Lakin xalqlar osnrakı cəmiyyətlərdə də mövcuddur. Çünki onlar bir sıra səbəblərdən (azsaylı olma, inkişafdan geri qalma, müəyyən səbəblərdən özlərinin milli dövlət qurumunu yarada bilməmələri və s.) millət kimi formalaşa bilməmişlər.

Müasir elmi ədəbiyyatda sosial-etnik münasibətləri səciyyələndirərkən həmçinin "milli azlıq", "yerli" və "gəlmə" kimi anlayışlardan da istifadə edilir. Bunlar əsas etibarilə öz millətinin ərzisindən kənarda yaşayan milli (sosial-etnik) qrupları nəzərdə tutur. Məsələn, Rusiyada yaşayan azərbaycanlılar, beloruslar, gürcülər və s.

Bu qrupların öz daxili tərkibində bir neçə kateqoriyanı ayırmaq olar (onları həmçinin diaspora da adlandırırlar).

Daxili diaspora (öz respublikalarından kənarda yaşayanlar).

Yaxın diaspora (tarixi vətəni keçmiş sovet respublikaları olan sosial-etnik qruplar).

Uzaq diaspora (tarixi vətəni uzaq xarivi dövlətlər olanlar).

Milli-ərazi qurumları olmayan diasporalar (kürdlər, qaraçılar və s.).

Bu və ya digər sosial-etnik birliyin tərkibində olan etnoqrafik qruplar özünəməxsusluğu ilə seçilir. Onlar əhalinin əsas hissəsindən mədəniyyətlərinin, dillərinin (ləhcə, danışıq tərzi) xüsusiyyətləri ilə fərqlənirlər.

13.3. Milli azlıqlarda etnik münaqişələrin kəskinləşməsi səbəbləri

Milli azlıqlar bir qayda olaraq miqrasiya (könüllü və ya məcburi), həm də bütöv xalqın deportasiyası nəticəsində əmələ gəlir. Bu, rusiyada runanların, inquşların, dağıstanlıların və başqa xalqların başına gəlmişdir. Qeyd etməliyik ki, məhz buradan da, milli azlıqlar problemi, onların yaşadıqları mövcud dövlət quruluşunda hüquq və azadlıqlarının reallaşması ilə bağlı problemlər yaranır. Onları elmi əsaslarla demokratik prinsiplərə və sivil qaydalara arxalanmaqla həll etmək lazımdır. Lakin bəzən bu belə olmur. Məsələn, azlıqda qalan millətin nümayəndələri – Azərbaycan ərazisində yaşayan Dağlıq Qarabağ ermənilər dövlət daxilində "dövlət" yaratmağa cəhd göstərirlər. Bu cəhd etnik separatçılıqdır, beynəlxalq hüquq normalarına ziddir və qətiyyətlə dəf edilməlidir.

İnsan birliklərinin sosial və etnik xüsusiyyətlərinin üzvi vəhdəti, onların rəngarəngliyi və qarşılıqlı əlaqəsi onlar arasındakı münasibətləri

ayrı-ayrı ictimai-iqtisadi formasiyalarda və müxtəlif dövrlərdə millətlər, xalqlar arasındakı iqtisadi, ərazi, hüquqi, mədəni və dil, eləcə də digər münasibətləri müəyyən etməyə imkan verir.

Sosial-etnik birliklər arasındakı münasibətlərin bu cür izahı (ədəbiyyatda bu çox vaxt milli məsələ adlandırılır), həm də onların özünəməxsusluğunu şərtləndirir. Yəni, əvvəla, birliklər arasındakı qarşılıqlı münasibətlər hər şeydən əvvəl ictimai münasibətlərin iqtisadi, siyasi, sosial və mənəvi istiqamətləri vasitəsilə təzahür edir. İkinci xüsusiyyət sosial-etnik birliklər arasındakı münasibətlərdə iki tərəfin mövcudluğunda üzə çıxır: daxili (ərazi-dövlət qurumları çərçivəsində münasibətlər) və xarici (müxtəlif ərazi-dövlət qurumları sistemində münasibətlər).

Sonuncu amil keçmiş SSRİ-də mühüm yer tuturdu, çünki onun tərkibində 200-ə qədər millət, xalq və etnik qrup yaayırdı. Bu həm də postsovet respublikaları, o cümlədən Azərbaycan üçün sciyyəvidir. Burada bir neçə sosial-etnik qrupun nümayəndələri yaşayır. Məsələ, təkcə müxtəlif birliklərin sayının çox olmasında deyildir, həm də bundadır ki, 90-cı illərin əvvəlində SSRİ-nin dağılması nəticəsində yerli xalqların müəyyən hissəsi öz tarixi vətənlərindən kənarda qaldı. Bəzi respublikalarda millətçi-separatçı qüvvələrin səyləri nəticəsində yaranmış problemlər (Dağlıq Qarabağ, Abxaziya, Şimali Osetiya və s.) daha da mürəkkəbləşmişdir.

Sosial etnik münaqişələr müəyyən səviyyədə cəmiyyətin inkişafının bütün mərhələlərində mövcud olmuşdur. Bunun əsas səbəblərini inkişafın qeyri-bərabərliyi, ərazi, dil, mənəvi həyat və adət-ənənələrinin müxtəlifliyi, milli mədəniyyətlərin özünəməxsusluğunun qorunması, sosial nemətlərə nail olmaqdakı fərqlər, öz problemlərini digər xalqların hesabına həll etmək cəhdləri təşkil edir.

Bəzi müəlliflər müxtəlif konsepsiya, nəzəriyyə və təlimlərin köməyi ilə sosial-etnik münaqişələrə haqq qazandırmağa çalışırlar. Bu zaman zorakarlığın müxtəlif formaları, fərdlərin, qrupların və təbəqələrin inkişafındakı qeyri-bərabərliyi təsdiq edən faktlar əsas götürülür. Bunların sırasına birinci növbədə müxtəlif sosial-irqi nəzəriyyələri, o cümlədən faşizmi və s. aid etmək olar.

13.4. Keçmiş sovet məkanında sosial-etnik münasibətlərin kəskinləşməsi səbəbləri

Keçmiş SSRİ-də mili siyasət və milli suverenliklə bağlı buraxılmış səhvlər bu gün mövcud olan konfliktlərin əsas səbəblərini şərtləndirir. Xüsusilə həmin dövrdə millətlərin milli suveren hüquqları hər bir millətin öz sosial-siyasi quruluşunu seçmək azadlığı, ərazi bütövlüyü, iqtisadi sərbəstliyi və s. hüquqları kobud surətdə pozur.

Məhz buna görə də keçmiş sovet məkanında etnik və millətlərarası münaqişələrin kəskinləşməsi səbəbləri üzərində daha ətraflı dayanmaq məqsədəuyğundur. Aydındır ki, Sovet İttifaqının dağılmasının əsas səbəblərindən biri onun ərazisində yaşayan müxtəlif xalqlar, millətlər arasındakı qarşılıqlı münasibətlərin kəskinləşməsi olmuşdur. Həm mərkəzdə, həm də müttəfiq respublikalarda müəyyən qüvvələr öz dar milli maraqlarını təmin etmək üçün köhnə haqq-hesabları və borcları ilə bağlı problemləri qabartmağa çalışırdılar. Bu isə qarşılıqlı narazılıqları gücləndirirdi. Digər səbəb sovet cəmiyyətinin iqtisadi, sosial və mənəvi inkişafda milli mədəniyyətlərin, milli dillərin və s. inkişafında buraxılmış nöqsanlar və səhvlər idi.

Şübhəsiz, millətlərarası münaqişələrin yaranmasına şəxsiyyətə pərəstiş illərində milli problemlərin həllində yol verilmiş ciddi səhvlər və əyintilər də öz mənfi təsirini göstərmişdi. Xüsusilə, 30-cu illərin əvvəllərindən başlayaraq guya SSRİ-də milli məsələnin həll olunduğu ilə əlaqədar olaraq ayrı-ayrı müttəfiq respublikalarda fəaliyyət göstərən milli şöbələr ləğv edilmiş, millətlərin qovuşdurulması prosesi süni surətdə gücləndirilmişdir. Əgər 1926-cı ildə siyahıya alınma zamanı SSRİ-də 200-ə yaxın millət, xalq, etnik qrup qeydə alınmışdırsa, 1939-cu ildə bunların sayı 99-a endirilmişdir. Deməli, 13 il ərzində bu göstərici 2 dəfə azaldılmışdır. Xalqların etnik xüsusiyyətlərinin nəzərə alınmaması, süni surətdə assimilyasiya ayrı-ayrı sosial-etnik qrupların bir-birindən uzaqlaşmaısnı, yadlaşmasını və son nəticədə ciddi sosial narazılıqları şərtləndirirdi. Burada həmçinin kütləvi repressiyalar, bütöv xalqların öz ənənəvi yaşayış yerlərindən köçürülməsi, bir çox partiya və

dövlət xadiminin, milli ziyalıların təqib olunması kimi neqativ proseslər də nəzərə alınmalıdır.

Millətlərarası münasibətlərin kəskinləşməsi həm də dövlətin, mərkəzin yeritdiyi siyasətdə regionların maraqlarının lazımi dərəcədə nəzərə alınmaması, nazirliklər və idarələr tərəfindən müttəfiq respublikaların, eləcə də digər ərazi dövlət qurumlarının mənafelərinin pozulması ilə əlaqədardır.

Millətlərarası münasibətlərin kəskinləşməsinin səbəblərindən biri də 80-ci illərin sonu, 90-cı illərin əvvəlində Sovet İttifaqına rəhbərlik etmiş şəxslərin korrupsiyaya qurşanmasının, ayrı-ayrı mafioz qruplarla əlaqələrinin nəticəsi idi.

Millətlərarası qarşılıqlı münasibətlərin kəskinləşməsinin mühüm səbəblərindən biri sovet cəmiyyətinin uzunmüddətli böhran vəziyyəti olmuşdur. Sosial problemlərin həllindəki çətinliklər, inflyasiya, cinayətkarlığın geniş vüsət alması və s. nəinki xalqlar arasında münasibətləri pisləşdirdi, həm də böyük bir ölkənin bir sıra regionlarında geniş miqyaslı məlum konfliktlərin yaranmasına gətirib çıxardı.

Etnik münaqişələrin qızışdırılmasında bir sıra kütləvi informasiya vasitələri də əhəmiyyətli rol oynamışlar və indi də belə bir rol oynamaqda davam edirlər. Bəzən informasiya vasitələrində verilən məlumatlar qərəzli olur, bir xalqın digərinə qarşı nifrətini formalaşdırmağa xidmət edir.

Nəhayət, etnik münasibətlərin müasir mərhələdəki böhranı ictimai proseslərin idarə olunmasının qeyri-effektivliyi, hakimiyyətin müxtəlif strukturlarının fəaliyyətinin bir-biri ilə razılaşdırılmaması, bəzən beynəlxalq təşkilatların bu münaqişələrə ikili standartlarla yanaşması, bu və ya digər səbəblərdən onların həllini istəməməsi ilə izah edilməlidir.

13.5. Sosial iş prosesində milli-etnik məsələlərin həlli yolları

Milli-etnik münasibətlərin tənzim olunması sahəsində aparılan işdə aşağıdakı iki istiqaməti nəzərə almaq lazımdır:

Birincisi, bütövlükdə cəmiyyətin effektiv fəaliyyətini təmin etməyin zəruri şərti kimi əhalinin bütün qruplarının, o cümlədən milli-etnik icmaların normal inkişafına əlverişli şərait yaradılması, etnik mühitdə münaqişəli vəziyyətlərə, böhran hallarına yol verilməməsi və onların qarşısını almaq texnologiyalarının işlənib hazırlanmasıdır.

İkincisi, milli-etnik birliklərin və qrupların həyat tərzi ilə həmin ərazidə (kənddə, rayonda, vilayətdə və bütün ölkədə) yaşayan milli azlıqların həyat şəraiti arasında uyğunluq yaratmağa yönələn fəaliyyətdir.

Etnik mühitdə sosial tərəfin xüsusiyyətləri, hər şeydən əvvəl, sosial-etnik birliklərin ayrı-ayrı qruplarının özünəməxsusluğu ilə əlaqədardır. Bu həm problemin özünün, həm də əhalinin bu qrupların etnik mühiti ilə şərtlənən məsələlərin birgə həllini nəzərdə tutur.

Bütövlükdə etnik mühitin səmərəli təşkili işi bir-biri ilə sıx bağlı olan aşağıdakı üç səviyyədə aparıla bilər:

1. Dövlət səviyyəsində müxtəlif sosial-etnik birliklər arasındakı münasibətlərin hüquqi tənzimlənməsi təmin olunmalı, millətlərarası münasibətlər sahəsində düzgün sosial siyasət fomralaşdırılmalı və həyata keçirilməlidir.
2. Sözügedən müddəaların həyata keçirilməsi təmin edilməlidir. Xalqların milli özünəməxsusluğunun süni surətdə silinməsinə aparan müasir texnoloji sivilizasiyanın, urbanizasiyanın və kütləvi mədəniyyətin yayılması ilə bağlı proseslərin qarşısı alınmalıdır. Bununla yanaşı müxtəlif sosial-etnik birliklərin nümayəndələri, yerli və gəlmə sakinlər arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşmasına səy göstərilmişdir.
3. Yelərdə sosial-etnik birliklərin nümayəndələrinin yaşadığı şəraitə uyğunlaşması, onların məskunlaşması, təhsili, tibbi xidmətin təşkili ilə bağlı konkret vəzifələr həll edilməlidir. Sonra, hər bir etnosun nümayəndələrinə öz milli adət və ənənələrini, psixologiyasını və mədəniyyətinin etnik komponentlərini qoruyub saxlamaqda köməklik göstərilməlidir.

Aydındır ki, millətlərarası və etnik münasibətlər cəmiyyət həyatının bütün sahələrində, ictimai münasibətlərin müxtəlif səpgilərində təzahür

edir. Buna görə də həmin sahələrin hər birində səmərəli, elmmi milli siyasət yeritmək tələb olunur. Məsələn, **siyasi sahədə** diqqəti mərkəzi və yerli hakimiyyətlər arasındakı münasibətlərin qurulmasına, milli qurumların maraqlarının uyğunlaşdırılmasına yönəltmək lazımdır. Öz-özünü tənzimləmə fəaliyyətini genişləndirmək problemi milli-dövlət quruluşu olmayan milli qrup və birliklər üçün daha çox aktualdır.

Sosial sahədə milli-ərazi qurumlarında kadrların seçilməsi və yerləşdirilməsi məsələləri, bütün xalqların nümayəndələrinin işgüzar və siyasi keyfiyyətlərinə görə rəhbər vəzifələr tutmasına bərabər imkanlar yaradan, dövlət işçilərinin milli mənsubiyyətə görə seçilməsində ədalətsizliyi istisna edən tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir.

Siyasi strukturların mühüm vəzifələrindən biri milli-etnik münasibətlərin inkişafının proqnozlaşdırılması kimi idarəedici funksiyanın həyata keçirilməsi olmalıdır. Bütün bunlar millətçi ruhlu elementləri vaxtında aşkar etməyə, hadisələrin mənfi inkişafını qabaqlamağa imkan yaradır.

Milli-etnik münasibətlərin həllində, əhalinin müxtəlif sosial-etnik qruplarının hüquqlarına, sosial müdafiəsinə həsr olunan və ya buna aid maddələri olan beynəlxalq sənədlərin göstərişlərinin yerinə yetirilməsi mühüm rol oynayır. Belə sənədlər "İnsan Hüquqları Ümumi Bəyannaməsi (BMT-nin Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul olunub), "Milli və ya etnik dini və dil azlıqlarına məxsus şəxslər haqqında Bəyannamə" (İnsan Hüquqları üzrə Komitə tərəfindən 1993-cü ildə qəbul olunub) və s. aid edilə bilər.

Beynəlxalq dünya birliyinə və keçmiş Sovet İttifaqına daxil olan ölkələrin təcrübəsi göstərdi ki, artıq yaranmış və kəskinləşən etnik konfliktlərə tezliklə, fövqəladə reaksiiya mexanizmlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu mexanizmlər münaqişəli vəziyyətlərin qarşısını ala bilən xüsusi özünümüdafiə dəstələrinin yaradılmasını, ayrı-ayrı rayonlarda fövqəladə vəziyyətin elan edilməsini, qanunsuz silahlı birləşmələrin buraxılmasını, cinayət işlərinin dərhal açılmasını və s. birləşdirə bilər.

İqtisadi sahədə sosial-etnik birliklər arasındakı qarşılıqlı münasibətlər, iqtisadi-təsərrüfat əlaqələri təbii-coğrafi, milli-tarixi və tarixən yaranmış əmək bölgüsünü nəzərə alaraq yaradılmalıdır. Xüsusilə bazar münasibətlərinin formalaşması şəraitində millətlərarası iqtisadi münasibətlər etnik birliklərin iqtisadi tələbatının təmin olunmasına yönəldilməlidir.

Mənəvi, ideoloji fəaliyyət sahəsində etnik konfliktlərin qarşısının alınmasına tarixin "ağ ləkələri"nin aşkar edilməsi, ayrı-ayrı etnik birliklərin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsi və həqiqəti əks etdirən elmi əsərlərin, dərsliklərin yazılması köməklik edə bilər. Bütün bunlar xalqların mənəvi sahədə qarşılıqlı zənginləşməsinə, eyni zamanda onların milli özünəməxsusluğunun saxlanılması və inkişafına zəmin yaradır. Milli mənəvi mədəniyyət adətən kifayət qədər zəngin, eləcə də çoxplanlı hadisə olmaqla, cəmiyyətdəki iqtisadi, siyasi, əxlaqi, dini və digər ictimai münasibətlər kontekstində inkişaf edir, öz üzərində onların təsirini hiss edir, hətta müəyyən dərəcədə onlardan asılıdır.

Etnik münasibətlərlə bağlı problemlərin nəzərdən keçirilən həlli yollarının reallaşmasında konkret sosioloji tədqiqatlar əhəmiyyətli rol oynayır. Onlar cəmiyyət həyatının konkret siyasi, iqtisadi, sosial və mənəvi sahələrində etnik münasibətlərin daha aktual aspektlərini aşkar etməyə, bununla da bu münasibətlərin gələcəkdəki inkişafını proqnozlaşdırmağa kömək edir.

Bir-biri ilə qarşılıqlı əlaqədə olan bu meyllər bütün dünyada gedən milli proseslərdə təzahür edir. Hər bir dövlət özünün milli strategiyasını işləyib hazırlayarkən və həyata keçirərkən bu meylləri nəzərə almalıdır.

Mövzu 14. Sosial işdə qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərin rolu

14.1. Sosial işdə qrupların əlaqəliliyi

14.2. Qrup uyuşması, rəhbərlik və liderlik

14.3. Qruplarda şəxsiyyətlərarası münasibətlərin sosial işə təsiri

14.4. Qruplarda və kollektivlərdə şəxsiyyətlərarası münasibətlərin fərqliliyi

14.5. Kollektivdə şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi

14.1. Sosial işdə qrupların əlaqəliliyi

Qrup-tarixən müəyyən cəmiyyət çərçivəsində yaranmış ümumi mənafe, sərvətlər və davranış normalarına malik olan insanların nisbətən sabit məcmusudur.

Qrup anlayışını kəmiyyət və keyfiyyət baxımından səciyyələndirmək olar. Kəmiyyət baxımından qrup üzvlərinin sayı 2-3 nəfərdən 20-30 nəfərə qədər olur. Qrup müəyyən adamlar çoxluğudur. Lakin eyni bir sosial şəraitdə iki və ya üç nəfərin sadəcə olaraq iştirak etməsi onların sosial-psixoloji cəhətdən qrup yaratması hesab olunmur.

Kəmiyyətə görə qrup təsnifi

Qrup üzvlərinin miqdarına, tanışlıq və yaxınlıq səviyyəsinə görə qrupları böyük və kiçik olmaqla iki yerə bölürlər.

Böyük qrup:

30-40-dan artıq insan birliyidir. Böyük qrupun üzvləri bir-birini tanımaya, bir-biri ilə təması daha yaxın və daimi xarakter daşıyır.

Kiçik qrup:

Kiçik qrupun üzvləri ümumi bir işlə məşğul olur və bir-birilə qarşılıqlı əlaqədə olurlar. Kiçik qrupların üzvlərinin sayı 7 nəfərdən artıq olmadıqda belə qrupları ilkin kiçik qruplar adlandırırlar. Məsələn: yeni yaranmış ailə. İnsan adətən bir ilkin qrupun iştirakçısı olur. Sosial

psixologiyada kiçik qrupların mövcudluq dərəcəsinə görə iki növünü: real və şərti qrupları ayırmaq olar.

Şərti qruplar

Müəyyən şərtlər, adamların müəyyən xüsusiyyətlərə (cins, yaş, həmkarlıq və s.) əsasən müəyyən qruplara daxil edilməsi nəticəsində yaranır. Şərti qrup bəzən statik qrup da adlanır. Şərti qrup üzvləri eyni zaman və məkan daxilində yanaşmaya və bir-birilə rabitədə, təmasda olmaya da bilərlər.

Real qruplar

Müəyyən zaman və məkan daxilində real münasibətlərlə birləşmiş insan birliyi. Məsələn, ailə, bir sinfin şagirdləri, məktəbin pedaqoji kollektivi və s. Real qrupların üzvləri daima bir-birilə təmasda olurlar. Sosial psixologiyada kiçik qrupların məqsəd və xarakterinə görə daha iki növünü ayırd edirlər: rəsmi (formal) və qeyri-rəsmi (qeyri-formal).

Rəsmi qruplar

Rəsmi sənədlər əsasında yaradılmış qruplardır. Bu cür qruplarda münasibətlər inzibati-hüquqi yolla müəyyən olunur və tənzim edilir. Bu cür qruplar daikma mütəşəkkil olub, onun üzvlərinin hüquq və vəzifələri müvafiq təlimat və sənədlərdə öz əksini tapır.

Qeyri-rəsmi qruplar

Rəsmi sənədlər əsasında yaradılmayan insan birliyidir. Bu cür qrupun üzvlərinin dəqiq qeyd edilmiş məqsədi olmur. Bu cür qruplar daima mütəşəkkil olub, onun üzvlərinin hüquq və vəzifələri müvafiq təlimat və sənədlərdə öz əksini tapır.

Referent qruplar

Özünün normaları, fikirləri, qiymətləri ilə fərdin davranış motivlərinə çevrilən sosial birlik referent qrup adlanır. Bu termin ilk dəfə olaraq 1942-ci ildə Q.Xaymen tərəfindən irəli sürülmüşdür. Qaydaları və normaları şəxsiyyətin qayda və normalarına çevirən, fərdin statusunun artması üçün daimi imkanları olan bu cür referent qrupları çox vaxt etalon qrup adlandırırlar.

14.2. Qrup uyuşması, rəhbərlik və liderlik

Qrupda psixoloji uyuşma dedikdə qrup üzvlərinin bir biri ilə şəxsiyyətlərarası münasibətinin səviyyəsinə çatması, qrupda məqsəd birliyinin olması, qrupun bütün üzvlərinin eyni şəraitinin yaranması başa düşülür.

Uyuşma insanlarda baş verir. Qrupda uyuşma dedikdə isə qrup üzvlərinin bir-birinə uyuşması, bir-birinə öyrəşməsi başa düşülür.

Qrup uyuşmasına təsir edən amillər aşağıdakılardır:

1. Qrupun rəhbərinin, liderinin rəhbərlik, liderlik üslubu.
2. Qrupa yeni gələn üçün müəyyən düzəlişlərin tətbiq olunması
3. Qrupa yeni gələn üçün müəyyən güzəştlərin tətbiq olunması
4. Qrupun fəaliyyətinin xüsusiyyətləri

Qrup təzyiq fenomeni

Qrup təzyiqi dedikdə qrup üzvlərinin hər birində qrupun iştirakçısı kimi məsuliyyət hissinin büruzə verməsi başa düşülür. Qrupun üzvü özünü nə qədər qrupa yaxın hiss etsə onda qrup identikasiyası (eyniləşdirmə, bənzətmə) yuxarı səviyyədə büruzə verir və qrupun həmin üzvü bir o qədər öz üzərində təzyiqini hiss edir.

Qrupda rəhbərlik və liderlik problemi

Hər bir qrupun ya rəhbəri, ya da lideri olur. Başqa sözlə qrupun başçısı olur. Adətən, rəhbər formal qrupda olur, lider isə qeyri-formalarda olur. Məsələn, şagird qrupunun rəhbəri sinif nümayəndəsi hesab olunur. Həyətdə yeniyetmə qrupunun başçısı lider olur.

Ümumiyyətlə rəhbər sırf iqtisadi, lider isə sırf psixoloji termindir.

Lider-özünün psixoloji keyfiyyətinə görə, qrupun birgə fəaliyyətində, iştirak səviyyəsinə görə, təşkilatçılıq qabiliyyətinə görə seçilir. Onu heç kim təyin etmir, o tədricən qrupun fəaliyyətində qazandığı uğurlara görə tədricən lider səviyyəsinə daxildir. O rəsmi şəxs olmadığı üçün əlində rəsmi səlahiyyət yoxdur.

Rəhbər-əksinə təyin olunur, ona görə də əlində rəsmi səlahiyyət mövcuddur. Elə qruplar var ki, onların rəhbəri həm də lider mövqeyində çıxış edir. Bu yaxşı hal kimi dəyərləndirilir. Belə olanda qrupun fəaliyyətinin səmərəliliyi yuxarı olur.

Rəhbərlik liderliyin 3 əsas üslubu ayrılır:

1. Aftoritar – qrupun həyatı ilə bağlı bütün qərarları təkbaşına qəbul edir, qrup üzvlərinin rəyini nəzərə almır. Məs: mən dedim, vəssalam.
2. Demokratik üslub – qrupun həyatı ilə bağlı qərarları kollegiyal (hamının rəyini nəzərə alan) qəbul edir. məs: qrupun üzvlərinin fikrini nəzərə alır.
3. Liberal – bu üslub zamanı rəhbər (lider) qrupun həyatı ilə maraqlanmır, qrupda özbaşınalıq hökm sürür. Bu da onun fəaliyyətini səmərəliliyinə mənfi təsir göstərir. Məs: qrupda bir yerə yığmaq üçün xüsusi səy göstərmir.

Etnik qrupun psixologiyası.

Etnik qruplar – sosial qrupların bir növüdür. Ayrı-ayrı xalqların monomilli (bir milli) məcmuyundan ibarətdir. Etnik qruplar özünəməxsusluğu ilə seçilir. Bu özünəməxsusluğa aid edilir. Etnik qrupların stereotipləri, adət və ənənələri, milli hissləri, xarakteri, özünüdərketməsi xüsusiyyətidir.

Stereotip – sterios – möhkəm, tupos-iz qoymaq deməkdir. Yunan sözüdür, möhkəmlənmiş iz qoyan deməkdir. Məs: Azərbaycanlıların unutqanlığı, ermənilərin məkirliyi.

Yönüm – yəni istiqamətini yönəltmək deməkdir. Başqa xalqları necə qavramaq, necə anlamaq elmə D.Uznadze gətirib.

Milli hislər – öz millətini sevmək, öz xalqının mənafeyini başqa yerdə qorumaq biz hiss ilə bağlıdır.

Korparasiyada – şəxsiyyətlərarası münasibətlərin qrup fəaliyyətinin şəxsiyyəti baxımından əhəmiyyətini ön plana çəkir. Başqa sözlə korparasiyada konkret şəxsiyyətin, liderin mənafeyini ön plana çəkir.

14.3. Qruplarda şəxsiyyətlərarası münasibətlərin sosial işə təsiri

Qruplarda insanlar birgə yaşayıb və fəaliyyət göstərmələrinə görə onların arasında istər-istəməz qarşılıqlı münasibətlər özünü göstərir. Bu cür münasibətlər sosial psixologiyada *şəxsiyyətlərarası münasibətlər* adlanır. Şəxsiyyətlərarası münasibətlər birgə fəaliyyət və ünsiyyət prosesində insanlar arasıdna təzahür edən subyektiv qarşılıqlı təəssüratdan ibarətdir. Şəxsiyyətlərarası münasibətlər fərdlərin bir-birini qavraması şəraitində mümkün olur. Şəxsiyyətlərarası münasibətlər insanların bir-birində qavradığı və qiymətləndirdiyi meyl, gözləmə, stereotiplər və s. sistemindən ibarətdir. Qavrayış zamanı hər şeydən əvvəl qavranılan adamın anatomik, funksional və sosial keyfiyyətlərinin müəyyən məcmusu əks etdirilir. Bu keyfiyyətlər vəhdətdə olsalar da inikas prosesində birinci yerə sosial cəhətlər keçir. Başqasına rast gəldikdə birinci növbədə "O kimdir?" sualı meydana gəlir. Bu sual hər şeydən əvvəl fərdin sosial mövqeyini müəyyənləşdirir. Bununla yanaşı olaraq qeyd etmək lazımdır ki, şəxsiyyətlərarası münasibətlər sistemində özünəməxsus iz buraxır. Məhz buna görə də hər bir şəxs qarşılıqlı münasibətdə olduğu adamın subyektiv mövqeyini öyrənməyə çalışır. Bu proses müxtəlif rabitə, yol və vasitələrin köməyi ilə həyata keçirilir. Bu vasitələrin köməyi ilə münasibət saxlanılan şəxsin kim olduğu, onun rəğbət və yaxud əks hisslərlə ətrafdakılara münasibəti, ictimai imkanları və s. aşkara çıxarılır. Keçmiş nəsillər insan münasibətləri haqqında tədricən zəngin məlumat toplamış və "sosial sxem" yaratmışlar.

"Sosial sxem" müəyyən vəzifəni həyata keçirmək üçün şablondan ibarətdir. Hər bir insanın ancaq ona məxsus həyat yolu olsa da, davranış normalarına xas olan üslubda hərəkət etsə də "sosial sxemlərin" insan həyatında və xüsusilə şəxsiyyətlərarası münasibətlərdə rolu böyükdür. İnsan nəinki "sosial sxem" əsasında öz davranışını təşkil edir, o, eyni zamanda başqalarını bu etalonlar əsasında qavrayır. Etalonlar ictimai həyatda tarixilik səciyyəsi daşıdığından tarixən dəyişir. İnsanın davranış üslubu, onun nitqi, geyimi və s. bu sxemə uyğun olaraq "zamanın tələbləri" səviyyəsində uyğunlaşdırılır.

Məlum olduğu kimi, davranış etalonu tədricən yaranmaqla tez-tez dəyişir. Bu dəyişmələr fərdin daxil olmaq istədiyi qrupların təsiri ilə baş verir. Müxtəlif qruplarda müxtəlif hadisələrlə əlaqədar olan etalon çoxluğu mövcuddur. Etalon seçilməsinə qrupun təsirindən əlavə fərdin yaş xüsusiyyətlərinin və onun mənsubiyyətinin də təsiri vardır.

Qruplarda şəxsiyyətlərarası münasibətlərin səviyyələri.

Qrup daxilində mövcud olan şəxsiyyətlərarası münasibətləri bilmədən onu idarə etmək mümkün deyildir. Məlum olduğu kimi, şəxsiyyətlərarası münasibətlər sosial qrupun ümumi fəaliyyəti əsasında yaranan çoxcəhətli rabitə və münasibətlər sistemindən ibarətdir. Şəxsiyyətlərarası münasibətlər mürəkkəb və çoxsəviyyəli quruluşa malikdir. Bunlardan **birincisi**, ilk növbədə "gözə çarpan" vasitəsiz asılılıq səviyyəsidir. Buraya fərdlərin emosional xoşagəlimliliyi, qrup uyğunluğu, ünsiyyətlilik və həmrəylik və s. vasitəli asılılıq səviyyəsi daxildir.

İkinci, daha əsaslı səviyyə vasitəli asılılıq səviyyəsi olub şəxsiyyətlərarası münasibətlərin məcmusunu təşkil edir. Bu səviyyəyə fərdin kollektivçilik psixologiyasının dərəcəsi, qrup həmrəyliyi, iştirakçıların öz davranış etalonları kollektivin etalonlarına uyğunlaşdırmaq meylləri, kollektivdə sosial sxemlər və onların iştirakçılar tərəfindən qavranılması və s. daxildir.

Üçüncü səviyyəni qrupun istehsalat, təlim və yaxud ictimai vəzifələri səviyyəsinin məcmusu təşkil edir. Buraya qrupun yerinə yetirdiyi vəzifəyə hazırlığı, işgüzarlığı, başqa qruplarla rabitə münasibətləri və s. daxildir.

Psixoloji iqlim qruplarda şəxsiyyətlərarası münasibətlərin mühüm göstəricisi kimi.

Qruplarda şəxsiyyətlərarası münasibətlərin necə olduğunu burada sosial-psixoloji iqlimin necə olmasından görmək mümkündür. Psixoloji iqlim sosial qrupun əsas əhvalını müəyyənləşdirən şəxsiyyətlərarası münasibətlər sistemindən ibarətdir. Başqa sözlə sosial-psixoloji iqlim qrupda, kollektivdə mövcud olan psixoloji vəziyyətdir. Qrupun qarşısına qoyulmuş vəzifənin səmərəli şəkildə həyata keçirilməsi üçün normal sosial-psixoloji iqlimin yaradılmasının əhəmiyyəti olduqca böyükdür.

Ümumiyyətlə, qrup və kollektivlərdə psixoloji iqlim müsbət (pozitiv) və mənfi (neqativ) xarakter daşıya bilir. Bunların hər biri isə özünəməxsus qarşılıqlı münasibətlərdə təzahür edir.

Qrupda müsbət psixoloji iqlimin yaradılması üçün fəaliyyət növündən asılı olan davranış etalonu yaradılmasının və onun qrup daxilində etalona çevrilməsinin əhəmiyyəti olduqca böyükdür.

Səmərəli sosial-psixoloji iqlimin yaradılması üçün qrup və kollektiv iştirakçıları arasında uyğunluq, uyuşmanın olması da zəruridir.

Sosial-psixoloji iqlimin xarakteri bütövlükdə qrupun inkişaf səviyyəsindən, yetkinliyindən də asılıdır. Adətən, qrupdakı sosial-psixoloji iqlimlə qrup üzvlərinin birgə fəaliyyətinin səmərəliliyi arasında birbaşa müsbət əlaqə mövcud olur. Əvvəlki bölmədə qeyd olunanlardan aydın olduğu kimi, qruplarda psixoloji iqlim qrupa rəhbərlik üslubundan da asılı olur. Adətən, demokratik rəhbərlik üslubu üstünlük təşkil edən qruplarda daima müsbət psixoloji iqlim hökm sürür. Ümumiyyətlə, şəxsiyyətlərarası münasibətlər rəngarəng müsbət hisslərlə bağlıdırsa, sosial qrupda yaranan psixoloji iqlim işgüzarlığın, təşəbbüskarlığın inkişaf etməsinə səbəb olur.

14.4. Qruplarda və kollektivlərdə şəxsiyyətlərarası münasibətlərin fərqliliyi

Qrup və kollektivdə şəxsiyyətlərarası münasibətlər bir-birindən fərqlənir. Belə ki kollektivdə şəxsiyyətlərarası münasibətlərdə qarşılıqlı tabeçilik ön plana çəkilir. Eyni zamanda kollektivdə şəxsiyyətlərarası münasibətlər yüksək səviyyədə inkişaf etmiş olur, qrup identifikasiyası yüksək səviyyədə olur, qrupda psixoloji uyuşma yüksək səviyyədə özünü büruzə verir. Bu ona görə belədir ki, kollektiv qrupun inkişafının ən yüksək səviyyəsidir. Qrupda isə şəxsiyyətlərarası münasibətlər qismən fərqli olur. Adətən qrupun xüsusiyyətində qrup fərqli qrupun lideri olur. Şəxsiyyətlərarası münasibətlərdə qismən azadlıq mövcud olur. Qrup bə kollektivdə ümumiyyətlə şəxsiyyətlərarası münasibətlərin 2 forması qeydə alınır:

1. İşgüzar münasibətlər
2. Şəxsi qarşılıqlı münasibətlər

Şəxsi qarşılıqlı münasibətlər: dostluq, sevgi, şəxsi münaqişələr, küsmək, barışmaq halları və s.

Qrup diferensasiyası dedikdə ayrı-ayrı qrup üzvlərinin sosial mövqeyi başa düşülür. Yəni, qruplarda qrup üzvlərinin statusu eyni səviyyədə olmur. Qrupun fəaliyyətində daha çox rol oynayan onun birində fəaliyyətinin təşkilatçısı adətən qrupun rəhbəri ya da lideri olur. Qrupda bəzi üzvlər orta mövqedə, bəziləri isə təcrid olunmuş səviyyədə olurlar. Hər bir qrup üzvünün mövqeyi, şəxsiyyətlərarası münasibətlərin təzahür xüsusiyyətləri şəxsiyyətlərarası seçmədən asılıdır. Yəni qrup üzvlərinin bir-birinə bəslədiyi simpatiyadan, rəğbətdən, antipatiyadan, yəni nifrət və laqeydlikdən asılıdır.

Diferensiya – özü parçalanma mənası verdiyi üçün elə başa düşülür ki, sanki qrupda şəxsiyyətlərin mövqeyləri aradında parçalanma gedir. Əslində isə bu belə deyildir. Qrupda hər kəs özünə məxsus psixoloji keyfiyyətlərinə görə mövqe tutur.

Hər kəs də tutduğu mövqeyə görə qrupda seçilir. Qrupda şəxsiyyətlərarası seçməni aparmaq üçün əsasən sosiometriya metodundan istifadə olunur. Sosio-cəmiyyət, metriiya-ölçürəm mənasını verir. Sosiyometrik nəzəriyyəni ilk dəfə işləyib elmə gətirən almaniya psixoloqu Con Morino olmuşdur. Con Moreno hesab edir ki, cəmiyyətdə mövcud olan qrupları insanları bir-birinə bəslədiyi rəğbətə uyğun olaraq birləşdirsək, qruplar yaratsaq, hər hansı bir işin öhdəsindən daha yaxşı gələr, hər bir şəxsiyyətin inkişafı üçün əlverişli şərait yaranar və bundan cəmiyyət udar və sağlamlaşar. Sosiometrik metod üzvləri bir-birini kifayət qədər tanıyan qrupda olmalıdır. Sosiometriya metodu sonralar psixoloq tərəfindən işlənib (A.V.Petroviski tərəfindən) və hal hazırda bu metodu köməyi ilə qrup və kollektivdə şəxsiyyətlərarası münasibətlərin təzahür xüsusiyyəti öyrənir. Sosiometriya metodunun aparılması prosedurları aşağıdakı kimi ən əvvəl sosiometrik meyar tərtib olunur. Bu zaman qrupun fəaliyyət sferası nəzəriyyə alınır. Məs: sən doğum gününə kimi dəvət edərdin? Sonra qrup üzvlərindən hər birinə 3 nəfəri seçmək təklif olunur. Burada şaquli istiqamətdə seçənlərin adı, familiyası yazılır, üfüqi istiqamətdə seçənlərin isə sıra nömrəsi yazılır. Sonda matrisada (cədvəl) seçmələr və qarşılıqlı seçmələr kəmiyyətcə sayılır və qərar çıxır.

Şəxsiyyətlərarası seçmə müxtəlif motivlər əsasında aparılır. Seçmənin emosiyonal təzahürü kimi rəğbət, nifrət və laqeydlik qeyd olunur. Bunlar hər 3 müxtəlif formada təzahür edə bilər. məs: mən ad günümə Gülnarı dəvət etmək istəyirəm, ona görə ki, o şən xarakterlidir.

Motivləşmə bilavasitə qrupun birgə fəaliyyətindən asılı olur. Məs: qrup ilə təhsil qanunu motivləşməsi eyni deyil.

Qrupda şəxsiyyətlərarası seçməni eyni zamanda referento-metriya metodu vasitəsilə öyrənməkdə mümkündür. Referentometriya metodu vasitəsi ilə qrupa hər bir qrup üzvü üçün əhəmiyyətli ünsiyyət dairəsini təşkil edən şəxsiyyəti müəyyənləşdirmək mümkündür.

Şəxsiyyətlərarası münasibətlərin növləri.

Sosial psixologiyada şəxsiyyətlərarası münasibətlərin müxtəlif növlərini qeyd edirlər: **rəsmi, qeyri-rəsmi, şəxsi, işgüzar və s.**

Rəsmi münasibətlər rəsmi sənədlərə, normalara uyğun həyata keçirilən şəxsiyyətlərarası münasibətdir. Bu cür münasibətlər rəhbərlə tabe olanlar arasında baş verir. Bu cür qarşılıqlı münasibətlər əvvəlcədən qrupun statusunda öz əksini tapır. Burada qarşılıqlı münasibətin gedişi rəsmi şəkildə həyata keçirilir. Nə rəhbər, nə də tabe olan adam qarşılıqlı münasibətin tələblərindən kənara çıxmır. Hər kəs öz səlahiyyəti çərçivəsində hərəkət edir.

Qeyri-rəsmi münasibətlər isə insanların bir-birinə olan şəxsi münasibətlərinə əsaslanır. Ona görə də bu cür münasibətlər subyektiv xarakter daşımaqla insanların bir-birlərinə olan simpatiyası, antipatiyasında və s. istifadə olunur. Ona görə də çox zaman bu cür qarşılıqlı münasibətləri şəxsi münasibətlər adlandırırlar. Bu cür qarşılıqlı münasibətlər "simpatiya" zəminində əmələ gəlir və qarşılıqlı şəkildə inkişaf edir.

Şəxsi qarşılıqlı münasibətlərin sosial psixologiyada aşağıdakı tiplərini fərqləndirirlər: tanışlıq, yoldaşlıq, dostluq, ər-arvad (N.N.Obozov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə). Mütəxəssislərin fikri şəxsi qarşılıqlı münasibətlərin kökü insanların hisslər aləmi ilə bağlıdır və emosional amillər zəminində formalaşır.

Ən geniş şəxsi qarşılıqlı münasibət forması **tanışlıqdır.** Bu cür qarşılıqlı münasibət özünün üç əsas səciyyəsi ilə fərqlənir: "üzdən tanıyırsan"; "salamlaşırsan" (yalnız qarşılıqlı tanıma zamanı); "salamlaşır və ümumi mövzularda söhbət edirsən". Bu cür tanışlıq zamanı şəxsiyyətlərarası hisslər əsaslı rol oynamır.

Yoldaşlıq qarşılıqlı münasibətləri işgüzar təmasa əsaslanır. Bu zaman birgə fəaliyyətin məqsədi vasitə və nəticələri əlaqələrin saxlanması, vəzifə bölgüsü ilə müəyyənləşir.

Dostluq qarşılıqlı münasibətlərinə gəldikdə insanlar arasındakı bu cür münasibət qarşılıqlı bağlılığa, mənəvi yaxınlığa, maraqların eyniliyinə və s. əsaslanır. Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin qeyd etdikləri kimi, şəxsi qarşılıqlı münasibətlərin hər bir tipi psixoloji məsafə ilə xarakterizə olunur. Ər-arvad münasibətləri, şəxsi, yoldaşlıq və tanışlıq münasibətləri ilə sosial münasibətlər kimi formalaşırlar.

Şəxsiyyətlərarası münasibətlərin növlərindən birinin də işgüzar-münasibət olduğunu qeyd etdik. Bu cür qarşılıqlı münasibətlər işgüzar əlaqələrin həyata keçirilməsi prosesində baş verir və insanların birgə fəaliyyətinin səmərəliliyinə öz təsirini göstərir.

Sosial psixoloqlar (A.V.Petrovski) qrupların inkişaf səviyyəsindən asılı olaraq dörd növünü: diffuz, assosiasiya, korporasiya, kollektiv qruplar və onlarda qarşılıqlı münasibətlərin xarakterini vermiş və bunu aşağıdakı şəkildə səciyyələndirmişlər:

1. Diffuz qrupda şəxsiyyətlərarası münasibətlər mövcuddur. Lakin onlar qrup fəaliyyətinin məzmunu vasitəsilə ifadə olunmur.
2. Assosiasiyada şəxsiyyətlərarası münasibətlər qrup fəaliyyətinin şəxsiyyət baxımından əhəmiyyətli olan məmunu vasitəsilə ifadə olunur.
3. Korporasiyada şəxsiyyətləarası münasibətlər qrup fəaliyyətinin şəxsiyyət baxımından əhəmiyyətli, lakin ustanovkalarına görə cəmiyyətdə zidd məzmunu vasitəsilə ifadə olunur.
4. Kollektivdə şəxsiyyətlərarası münasibətlər qrup fəaliyyətinin şəxsiyyət baxımından əhəmiyyətli və ictimai cəhətdən qiymətli məzmunu vasitəsilə ifadə olunur.

14.5. Kollektivdə şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi

Kollektivdə sağlam psixoloji mühit, tənqid və özünütənqid.

Psixoanaliz elminin banisi avstriyalı nevroloq Ziqmund Freydin (1856-1939) şüuraltı nəzəriyyəsinin və Amerika psixoloq və sosioloqu Elton Meyonun (1880-1949) işlərinin meydana çıxması ilə idarəetmə tabeçilikdə olanlara ətsir aləti kimi psixoloji metodlarla silahlanmışdır. Bunun əsas səbəbi işçilər üçün qeyri-maddi (ikinci dərəcəli və ya psixoloji) motivlərin və tələblərin ön plana çıxmasıdır: məsələn, özünə hörmət, işlə qaneolma, tanıma və s. Müasir idarəetmə şəraitində müvəffəqiyyət o halda təmin edilə bilər ki, rəhbər kollektivdə sağlam və əlverişli psixoloji mühit yaratsın. Kollektivdə sağlam və əlverişli mühit yaradılması üçün aşağıdakı bir sıra vacib qaydalara əməl etmək lazımdır:

- Psixoloji mühit kollektivdə lider formalaşdırır;
- Kollektivin yaxşı ənənələrini qorumaq və inkişaf etdirmək lazımdır;
- Vəhdət və fəallıq kollektivdə sağlam psixoloji mühiti möhkəmləndirmək üçün yaxşı baza olmalıdır;
- Kollektivdə inam, xeyirxahlıq və qarşılıqlı kömək şəraiti yaradılmasına fəal nail olmaq lazımdır;
- Hər hansı bir qazanılmamış mükafatlandırma və düzgün olmayan xidmətə istinad edilməsi kollektivə pozucu təsir göstərir;
- Sosial məsələlərdə rəhbərin başlıca vəzifəsi kollektivin və onun tələbatlarını bilmək və onları ödəməyə cəhd etmələridir;
- Rəhbərin ayrı-ayrı kollektiv üzvlərinə qarşı ədalətsiz münasibəti onun tamlığını və birliyini pozur;
- Rəhbərlərin vaxta dürüst əməl etmələri vəmreqlamentri gözləmələri kollektivi intizamlı edir və işgüzar atmosfer yaradır;
- Rəhbərin kobudluğu, diqqətsizliyi kollektivə əziyyət verir, onun təşəbbüskarlığını əlindən alır və əməyi bir növ cəzaya çevirir.

Bazar iqtisadiyyatı şəraitində idaretməni təkmilləşdirməyin ən kəsərli alətlərindən biri tənqiddir. Tənqidsiz irəliyə doğru hərəkət yoxdur. Özünü tənqid rəhbərlərə idarəetmə metodlarını və rəhbərlik üslubunu təkmilləşdirməyə imkan verən etibarlı vasitədir. O işdəki nöqsanlara qarşı təsirlənmə qabiliyyətini yüksəldir. Səbəbsiz və zərurət olmadan tabeçiliyinizdə olanları tənqid etməyin. Tənqid vasitədir, lakin məqsəd ola bilməz. Tənqid işçinin şəxsiyyətinə deyil, onun qeyri-qənaətbəxş işinə istiqamətləndikdə daha səmərəli olur. Ona görə də insanların bərpa edə biləcəkləri hərəkətlərini tənqid etmək lazımdır. Digərlərinin davranışlarını müqayisə etməklə, tənqid edilən şəxsi alçaltmaq isə xoşaəglməz nəticə verə bilər. Əgər tənqid edilən şəxs tənqiddən nəticə çıxarıbsa, onu təkrar etməyin. Tənqid insanı alçaltmamalı və onun təşəbbüskarlığını öldürməməlidir. Əgər tənqiddən nəticə çıxaran işçini rəhbər sonrada tərifləmirsə, onun tənqidinə işçinin fəal reaksiya verdiyini gözləmək olmaz. Tənqid edərkən obyektiv oluun və tənqid edilənin düşmənçiliyi və qərəzçiliyi rəhbər tutacağını güman etməyin. Rəhbər tənqiddən əhval-ruhiyyəsinin pozulduğunu göstərməməlidir.

Tənqidə qəzəblə və istehza ilə yanaşmaq, yaxud da onu zarafata çevirmək olmaz. Tənqidə sakit, əsaslandırılmış şəkildə cavab verərək tənqid edənin şəxsi keyfiyyətlərinə toxunmaq lazım deyildir. Səhvləri təhlil etmək onlardan nəticə çıxararaq öyrənmək və özünə özünü tənqid ruhunu aşılamaq lazımdır. Özünüzün bütün hərəkətlərinizi təhlil etməyi və qiymətləndirməyi öyrənmək lazımdır.

Mövzu 15. Sosial işdə bioloji və sosial cəhətlər, tələbatlar, əqidələr, iddia səviyyələri arasında fərqlilik.

15.1. Sosial işdə bioloji və sosial cəhətlər

15.2. Tələbatların əhəmiyyəti

15.3. Əqidə, əməl və nəticə

15.4. Hakimiyyət və effektiv idarəetmənin vacibliyi

15.5. İddia səviyyələri

15.1. Sosial işdə bioloji və sosial cəhətlər

XX əsrdə, xüsusilə onun sonunda insan probleminə diqqət daha da artmışdır. Elmin, xüsusilə insan aləminin öyrənilməsinə təbii-elmi yanaşmanın tənqidi, bu cür yanaşmanın məhdudluğunun dərk edilməsi fəlsəfənin elmlə birlikdə bütövlükdə mədəniyyətə istiqamətinin dəyişməsinə gətirib çıxarmışdır.

Hazırda informasiya cəmiyyətində insan fəaliyyətinin rolunun artması, cəmiyyətin bütün sahələrinin inkişafından insanda yaradıcılıq başlanğıcının əhəmiyyəti, industrial sivilizasiyanın transformasiyasında sivilizasion dönüş mühüm yer tutmağa başlayır.

Zəmanəmizin mühüm əlamətlərindən biri də yaxın keçmişdə əsas rol oynayan totalitar rejimlərin tarix səhnəsindən çıxıb getməsi, demokratik, hüquqi dövlətə doğru hərəkətin güclənməsi, cəmiyyətimizdə insanın maddi və sosial statusunun kəskin şəkildə aşağı düşməsi və bunun nəticəsində də ekzistensial problematikaya meylin artması ilə əlaqədardır.

Fəlsəfədə qnoseoloji, metodoloji və ontoloji problematikaya marağın azalması, şəxsiyyətin psixologiyası və sosiologiyasının yaradılmasına meylin artması ilə xarakterizə oluna bilər. Nəticədə insanla bağlı olan problemlərin şərhində fəlsəfənin "elmlər elmi", "elmlərin əsası" təsəvvürlərinin zamanındakı baxışlar bir daha xatırlanaraq ortaya atılmışdır. Bu cür yanaşma çərçivəsində fəlsəfi biliyin spesifik xarakteristikası formulə edilməyə başlanılmışdır. Elm, necə deyərlər, "dünyanın mənzərəsini" formalaşdırır, fəlsəfə isə nəzəri

cəhətdən ifadə edilən dünyagörüşünü formalaşdırır. Bu dünyagörüşdə "dünyanın mənzərəsi" yalnız bir moment kimi anlaşılır. "Dünyanın mənzərəsi" üçün obyektiv yanaşma səciyyəvidir. O, özlüyündə dünya haqqında rəqəmlərin quru məlumatlarından başqa bir şey deyildir. Burada azadlığa, spontanlığa, yaradıcılığa yer yoxdur. Onlar müasir elmlərin kor ləkəsindədir, fəlsəfə isə əsas dünyagörüşü kimi insanın dünyaya münasibətini ifadə edir. Bu sadəcə bilik deyil, insanın dünyada varlığının mənasını tədqiq edir. İnsan onun üçün sadəcə olaraq şeylər arasında şey deyil, dünyanı və özünü dəyişdirməyə qabil olan bir subyektdir. Elmi biliyə insanın dünyaya münasibətinin momenti kimi baxmaqla fəlsəfə onu daha geniş kontekstdə götürməyə və elmdaxili refleksiyadan kənara çıxmağa imkan verir. Eyni zamanda unikal bir varlıq olan insana dair düzgün baxışın formalaşmasında da fəlsəfənin rolu böyükdür.

Bizim hər birimiz insanı yerdə qalan dünyadan asanlıqla ayırdığımıza görə bizə elə gəlir ki, insanda heç bir sirr yoxdur. Çünki ilk baxışda onun digər canlılardan fərqi aydın, aşkar olduğundan heç kimdə onun sirli olmağı, hansısa gizli, bizə məlum olmayan cizgilərə malik olması inandırıcı olmur. Lakin məşhur ispan filosofu X.Orteqa-i-Qassetin fikrincə, fəlsəfə ona görə fəlsəfədir ki, o, məlum olanların hüdudlarından kənara çıxır. Bu hüdudlardan o, insanın öyrənilməsində də çıxır. Ümumiyyətlə, insanda təbii (bioloji), ictimai (sosial) və mənəvi (psixoloji) amillər qarşılıqlı vəhdətdə təzahür edir, onun formalaşması və inkişafını şərtləndirir. Lakin son illərədək insanda bioloji və sosialın nisbəti, onların təsiretmə imkanları və mövqeyi məsələləri elmi-fəlsəfi cəhətdən mübahisəli təhlil edilməkdədir.

İnsanın biolojiləşdirilməsi və ya sosiolojiləşdirilməsi mövqeləri arasında fikir ayrılıqları yenə də vardır. İnsanların formalaşmasında təbii bioloji cəhətləri mütləqləşdirən irqçilik, sosial-darvinizm, maltusçuluq və s. konsepsiyalar məhz biolojiləşdirmə mövqeyindən çıxış etmişlər. XVIII əsrdə ingilis iqtisadçısı T.Maltus iddia edirdi ki, ictimai həyat fərdlərin yaşayış uğrunda mübarizəsidir. Bu mübarizədə mühitə müvəffəqiyyətlə uyğunlaşanlar qalib gəlirlər. XIX əsrdə Ç.Darvin isə insanın yetişməsində təbii seçmə və təkamülü əsas götürmüşdür. Daha sonralar yayılmış etalogiyaya görə (heyvan davranışı haqqında elm), insanda müəyyən hərəkətlər anadangəlmə, instinktivdir, insanda

mürtəcelik, yırtıcı təbiət guya ona öz yırtıvı heyvan əcdadından keçmədir. Hətta müasir "sosiobioloji konsepsiya"nın tərəfdarları (amerikan alimi E.O.Uilson və b.) iddia edirlər ki, bütün sosial və humanitar elmlər biologiiyanın bölmələridir, onlar insanın davranışını bioloji növ kimi tədqiq etməlidir.

Sosiolojiləşdirmə konsepsiyası tərəfdarları isə insanda ancaq sosial cəhəti əsas tutur, onu mütləqləşdirir. Marksizm fəlsəfəsi insanda bioloji və sosialı vəhdətdə götürür, onun formalaşmasında ictimai əlaqə və cəhətləri əsas götürsə də, təbii amilə də mühüm yer verir. Marksizm insanı ümumi, ictimai varlıq hesab etsə də, onun fərdi xüsusiyyətlərini, şəxsiyyət kimi özünəməxsusluğunu, hətta onda intuitiv keyfiyyətlərin olduğunu da inkar etmir. Marksistlər insanda bioloji, təbii olanın rolundan bəhs edərkən göstərirlər ki, insan özü təbiətin bir hissəsidir, onun üzərində yetişmişdir. Marksizm qeyd edir ki, biz təbiət üzərində ağalıq etmirik. "Əksinə, bizim bədənimiz, canımız, beynimiz ona məxsusdur və onun içərisində yerləşir". Onlara görə biz empirik "mənimizdən", fərdi "canımızdan" insana yüksəlməliyik, yəni insanln sosial mahiyyətinə əsaslanmalıyıq. Bu isə o deməkdir ki, marksizm insana münasibətdə sosiolojiləşdirmə konsepsiyasının növ müxtəlifliyi kimi baxıla bilməz, çünki marksizm sosial amilə ciddi diqqət yetirsəə də, bioloji və ictimainin vəhdətdə götürülməsini əsas tutur; burada psixoloji-mənəvi təkmilləşməyə ciddi əhəmiyyət verilməsi tələb olunur. Fiziki kamillik, mənəvi-əxlaqi yetkinlik, davranış tərzi, əhval-ruhiyyə və s. bunları nəzərə almadan insan haqqında dərin elmi baxış meydana çıxa bilməz.

İnsanın mahiyyəti haqqında nə bilirik? – sualına konkret belə cavab vermək olar: İnsanın fiziki və mənəvi, təbii və sosial, irsi və həyatda əldə edilənlərin vəhdətindən ibarət canlı sistemdir. İnsan həm hadisələrin təbii əlaqəsinə qoşulur, həm də biboloji (biofiziki, biokimyəvi, fizioloji) qanunauyğunluqlara tabedir; insan şüuru psixik və şəxsiyyət səviyyəsində spesifik qanunauyğunluqlar olan sosial varlığa çevrilmişdir. İnsan fiziki, morfoloji orqanizm kimi kainatda materiyanın ən yüksək, mütəşəkkil formasıdır. Deməli, insan bütövlükdə bioloji, sosial və psixik – mənəvi ölçülərin təşkil etdiyi tamlıqdır. Bioloji cəhət insanın varlığı üçün ilkin şərt olan morfofizioloji, genetik, beyin-əsəb sistemi, elektrokimyəvi və s. kimi hadisə və prosesləri ifadə edir. Psixik-

mənəvi cəhət insanın daxili və mənəvi aləminin (şüur, iradə, əhval-ruhiyyə, yaddaş, xarakter, temperament və s.) əks etdirir. İnsanda sosial aspekt onun başqa adamlarla qarşılıqlı əlaqə və münasibətlərini, sosial əlaqələrini, ictimai mühitdə kəsb etdiyi xassə və keyfiyyətlərini əhatə edir. Bu aspektlərin üçü də insanda vəhdət halında təzahür edir və insanın biopsixososial mahiyyətini əks etdirir. Həmin fikri söyləyən ispan mütəfəkkiri tək deyildir. Hələ vaxtilə böyük alman filosofu İ.Kant belə bir nəticəyə gəlmişdir ki, fəlsəfə mövcud olan 3 suala cavab verməlidir. Bu sualları İ.Kant aşağıdakı kimi ümumiləşdirmişdi. "Mən nəyi bilməliyəm?", "Mən nə etməliyəm?", "Mən nəyə güvənə bilərəm?".

Ölümünə bir az qalmış Kant məşhur "məntiq"ində o üç sualı "İnsan nədir?" adlı bir sualla əvəz etmişdir. Deməli insan bir sirr kimi mövcuddur. Əsrlər boyu böyük dühalar açmağa, insanı anlamağa çalışmışdır. Tanınmış fransız yazıçısı Verkor "Adamlar, yaxud heyvanlar" adlı kitabını qəribə bir süjet əsasında qurmuşdur. Burada fikri eksperiment mühüm yer tutur. Süjetə görə bir neçə avropalıdan təşkil olunmuş ekspedisiya And dağlarına yola dü.ür və əlçatmaz yerlərdən birində onlar qəribə vəhşi tayfaya – adam sürüsü, yaxud da heyvan sürüsü ilə rastlaşırlar. Təsadüf elə gətirir ki, vəhşilərdən biri öldürülür. Sual olunur: Kim öldürülüb? Əgər öldürülən insansa ölümə görə öldürən cinayət məsuliyyətinə alınmalıdır. Yox, əgər öldürülən heyvansa, bunun üçün məsuliyyət yoxdur. Lakin həmin vəhşi qəbilənin insanlara, yaxud heyvanlara aid edilməsi mübahisəlidir, çətindir. Çünki həmin əsərdə insanı heyvandan fərqləndirən kriteriya yoxdur. Müzakirə başlanarkən müxtəlif kriteriyalar, mənəviyyat, dindarlıq, nitq, şüur və s. irəli sürülür. Lakin belə məlum olur ki, onların heç birisi kriteriya rolunda çıxış edə bilməz. Mənəviyyatlı adamlarla yanaşı, cəmiyyətdə mənəviyyatsız adamlar da mövcud olur. Lakin buna görə, necə deyələr, onları "adamlıqdan" çıxarmırlar. Bundan əlavə mənəviyyat xeyir və şəri bir-birindən kəskin fərqləndirmək üçün əsas rolunu oynaya bilmir. Bunu din haqqında da demək olar. Cəmiyyətdə Allaha inanmayan adam var və onların sayı dünyada getdikcə artmaqdadır. Nitq zəruri olmasına baxmayaraq, kriteriya rolunu oynaya bilməz. Hətta şüur kateqoriyası da qüsursuz deyildir. Çünki heyvanlarda da elə hərəkətlər olur ki, bu da

inkişaf etmiş psixika əlaməti ilə səciyyələnir. Doğrudur ki, burada şərti reflekslər mühüm rol oynayır.

Ümumiyyətlə, mahiyyət və mövcudluq problemi insanda biolojilik və sosiallığın qarşılıqlı nisbəti məsələsi ilə əlaqədardır. Öz mahiyyətinə görə, artıq qeyd etdiyimiz kimi, insan sosial varlıqdır. Eyni zamanda o, təbiətin övladıdır və öz mövcudluğu baxımından nə onun çərçivələrindən kənara çıxa bilər, nə də öz bioloji tələbatından – yemək, içmək və s.-dən imtina edə bilər. İnsanda biolojilik onun orqanizminin genlərində morfofizioloji, elektrokimyəvi, əsəb-beyin və digər proseslərdə istifadə olunur. İnsanda sosiallıq və biolojilik vəhdətdədir. "Sosial keyfiyyət" olan şəxsiyyət və onun təbii varlığını ifadə edən orqanizm bu vəhdətin əsasını təşkil edir.

Öz bioloji təbiəti tərəfindən hər bir fərd müəyyən genotipdən – valideynlərdən aldığı genlərdən asılıdır. Doğulan zamandan o, bu və ya digər bioloji irsi alır, o da genlərdə əks olunur. Bunlar öz növbəsində, fərdin xarici, fiziki keyfiyyətlərinə (emosiya, temperament, xarakterin ayrı-ayrı cizgilərinə və s.) təsir edir. Bəzi alimlərin fikrincə, insanların müxtəlif fəaliyyət növlərində adamların qabiliyyəti irsən keçir (bədii yaradıcılıqda, musiqidə, riyaziyyatda və s.). Lakin buradan o nəticəni çıxarmaq lazım deyildir ki, insan qabiliyyətinin təkcə təbii şərtlərindən danışmaq lazımdır. İrsi vergi – insanın qabiliyyətinin ilkin şərtləridir. Onu bütövlükdə genotipə calamaq lazım deyildir. Ümumi şəkildə qabiliyyətlər üç amilin vəhdətindən ibarətdir. **Bioloji** (irsən verilən), **sosial** (sosial mehit və tərbiyə) və **psixik** (insanın daxili "Mən"i, onun iradəsi və s.).

Sosiallıq və biolojilik məsələsinin təhlili zamanı iki ifrat nöqteyi nəzərdən qaçmaq lazımdır. **Birincisi**, sosial amillərin rolunun şişirdilməsi – **pansosiologizm** və **ikincisi**, bioloji amillərin rolunun şişirdilməsi – **panbiologizm**.

15.2. Tələbatların əhəmiyyəti

Cəmiyyətlə şəxsiyyət arasındakı münasibətlərdə sosial birlik formaları əlaqələndirici vasitə kimi çıxış edirlər. Məhz onların tərkibinə daxil olmaq vasitəsilə bu və ya digər insan sosial həyata, ümumilikdə

sosial münasibətlər sisteminə qovuşulur. Hər bir fərd müəyyən sosial birlik formaısna daxil oalrkən onun ümumi mədəniyyətini, sosial normalarını və sərvətlərini qəbul edir. Bütövlükdə ayrıca bir fərdin sosial birliyə və onun vasitəsilə cəmiyyətə qovuşması prosesi şəxsiyyətin sosiallaşması adlanır. Bu proses çox mürəkkəb olub, müxtəlif mərhələlərdən keçir. Fərdin sosiallaşması adlanan prosesin birinci mərhələsi – sosial adaptasiya onun cəmiyyətdə müxtəlif həyat fəaliyyəti səviyyələrində qərarlaşmış olan sosial-iqtisadi və mənəvi şəraitə, sosial normalar sisteminə, sosial qruplara, təşkilatlara və institutlara uyğunlaşmasını ifadə edir. İkinci mərhələdə normaların və sərvətlərin fərdin "daxili Mən"inə keçməsi, bir növ hopması prosesi baş verir. Əlbəttə, bu, avtomatik surətdə baş vermir, hər bir konkret şəxsin malik olduğu təcrübədən asılı olaraq həyata keçirilir. Qeyd etmək lazımdır ki, şəxsiyyətin sosiallaşması onun şəxsi keyfiyyətlərinin sosial mühitdə əriyib itməsi, nisbi müstəqilliyin aradan qaldırılması demək deyildir, əksinə şəxsiyyət sosial sistemə nə qədər dərindən və hərtərəfli qovuşarsa, o, özünəməxsus keyfiyyətlərini inkişaf və təzahür etdirmək üçün daha çox imkanlar əldə edir. Sosiologiya bunu əsas götürür ki, insan fəal ictimai qüvvədir, o, həm ayrılıqda öz həyatının, həm bütövlükdə sosial həyatın yaradıcısıdır. Sonuncu sıpki sosiallaşmış şəxsiyyətdə, o, müxtəlif sosial sosial sistemlərə, birliklərə daxil olduqda, başqaları ilə qarşılıqlı təsir prosesi intensivləşdikdə daha parlaq şəkildə üzə çıxır. Şəxsiyyətin sosiallaşması gedişini araşdırarkən bu prosesdə işarələr sisteminin mühüm rolunu qeyd etmək lazımdır. Məsələ bundadır ki, sosiallaşma gedişində başqa şəxslərlə sıx qarşılıqlı təsirdə və təmasda olan bu və ya digər fərd sanki güzgüyə baxmış kimi öz hərəkətlərinə və davranışına müəyyən düzəlişlər edir. İşarələr sistemi (nitq, hərəkət nümunələri və s.) hər bir sosial birlik formasının, ona daxil olan insanlaırn fəaəliyyətinin təşkilində, mühüm vasitə rolunu oynayır. Belə ki, fərd müəyyən sosial birliyə daxil olduqda burada qəbul edilmiş olan işarələr sistemini mənimsəyir və öz fəaliyyətində onlardan istifadə edir. Sosiologiyada şəxsiyyətin sosial fəaliyyəti və davranışı mexanizmlərinin aşkar edilməsi mərkəzi yerlərdən birini tutur. Obyektiv qanunauyğunluqların tələblərinin adekvat surətdə əks olunması insanın sosial fəaliyyətinin, sosial davranışının məzmununu şərtləndirir. Bununla yanaşı insan fəaliyyəti və davranışında həmin

qanuanuyğunluqların konkret şəraitdə təzahürü xüsusiyyətləri, ona təsir edən hadisələr çoxluğu, onların qarşılıqlı əlaqələri də nəzərə alınmalıdır. Şəxsiyyətin fəaliyyətinin əsasında duran tələbatlar insan həmin tələbatları ödəmək üçün şərait və vasitələr axtarmağa sövq edir. Tələbatlar təbii və sosial olmaqla iki qrupa bölünür: birincilər insanın gündəlik qidaya, paltara, mənzilə və s. olan ehtiyaclarını ifadə edir; ikincilərə isə sırf sosial həyatın məhsulu olan ehtiyaclar (əmək fəaliyyəti, sosial fəallıq, məişəti yaxşılaşdırmaq, mənəvi mədəniyyəti inkişaf etdirmək və s.) daxildir. Bunlarla yanaşı fərdlərin sosial birlik formalarına qovuşmasına, sosial norma və sərvətlərə yiyələnməsinə olan tələbatları da mütləq nəzərə alınmalıdır. İnsanın tələbatları özünün yüksək səviyyəsini müəyyən qəbildən olan sərvətlərin mənimsənilməsində tapır. Sərvətlərə orientasiya prosesində şəxsiyyətin fəaliyyət amalı formalaşır ki, onlar da fəaliyyətin real gedişində çox mühüm rol oynayır. Şəxsiyyət üçün onun nail olmağa çalışdığı sərvətlər bəzən o qədər əziz olur ki, o, həyatını da bu yolda qurban verməkdən çəkinmir. Məsələn, tarixdə azadlıq, həqiqət, demokratiya, humanizm, sevgi yolunda öz canlarından keçən şəxsiyyətlər az olmamışdır. Məlumdur ki, tələbatlarla onları doğuran şərait arasında sıx əlaqə mövcuddur. Əgər şərait fəaliyyətin statik, dayanıqlı, sabit tərəfini ifadə edirsə, tələbat bu prosesin mütəhərrikliyini göstərir. Fəaliyyətin şəraiti çox müxtəlif amillər qrupunu əhatə edir. Buraya aşağıdakıları aid etmək olar: fəaliyyətin baş verdiyi müvafiq maddi şərait; sosial birlik formaları daxilində və onlar arasında ünsiyyətin vəziyyəti; konkret sosial birlik formasında və cəmiyyətdə mövcud olan norma və sərvətlər; cəmiyyətdə sosial institutların və sosial təşkilatların işinin vəziyyəti.

Şəxsiyyət öz tələbatları və mənafeləri baxımından fəaliyyət şəraitini qiymətləndirir, ondan ya razı qalır, ya da narazı olur. Sonuncu hal həmin şəraiti öz tələbatlarına uyğun şəkildə dəyişdirmək fəaliyyətinə sövq edir. Şəxsiyyətin sosioloji fəaliyyətini şərtləndirən amillər şərti olaraq iki hissəyə ayrılır. Bunlardan birincisi cəmiyyətdəki sosial birlik formalarının bütün növləri tərəfindən həyata keçirilməklə ümumilikdə ictimai inkişafın məqsəd, mənafe və tələbatlarını ifadə edir. İkinci qrupda isə, daha çox subyektiv xarakter daşıyan amillər (sərvətlər, oriyentasiyası, şəxsiyyətin və sosial birliklərin mənafe və məqsədləri) daxildir. Şəxsiyyətin mənafeyi onu mövcud şəraiti qoruyub saxlamaq və

ya dəyişdirmək üçün fəaliyyətə səfərbər edən güclü motivlərdəndir. Obyektiv sosial qanunların tələbatlar kimi başa düşülməsini ifadə edən mənafelər məzmun etibarilə müxtəlif olur. Burada real surətdə təzahür edən mənafeləri, amal xarakterli və səmtləşmə xarakterli mənafeləri ayırmaq olar. Şəxsiyyətin sosial fəaliyyəti mexanizmində mənafelərin böyük rolu həm də bundadır ki, onlar o fəaliyyətin məqsədini müəyyən edir. Mənafelərin məqsəd kimi ifadə olunması isə mahiyyət etibarilə onları reallaşdırmağa yönələn məqsədyönlü fəaliyyətin başlanmasını göstərir. Birlikcə götürülən mənafe və məqsəd fəaliyyətin daxili motivlərini təşkil edir. Motivlər öz mahiyyətinə görə insanın konkret şəraitdə fəaliyyətinin daxili sövqedicilərıdir. Lakin şəxsiyyətin real fəaliyyətə başlanması üçün təkcə daxili motivlərin olması kifayət deyildir. Bu prosesdə həm də kənar sövqedici amillər – stimullar mühüm rol oynayır. Stimullar daxili məzmunagörə iki qrupa ayrılır: maddi və mənəvi stimullar. Sosioloji fəaliyyət belə bir mövqeyə əsaslanır ki, münasibətləri bir-birindən təcrid olunmuş halda öyrənmək qeyri-mümkündür. Cəmiyyət-şəxsiyyət münasibətləri biri digərindən ayrılmazdır. Məhz buna görə də sosiologiyanın əsas obyektini sosial münasibətlərin araşdırılması təşkil etsə də, baxmayaraq, o,ç şəxsiyyət səviyyəsində qərarlaşan münasibətlərin təhlilinə geniş yer verir. Fərdi səviyyədən sosial münasibətlərə keçidin mexanizmi başlıca olaraq şəxsiyyətlə müvafiq sosial sistemin qarşılıqlı təsirinin xarakteri ilə şərtlənir. Cəmiyyətin müxtəlif həyat fəaliyyəti səviyyələrində (ayrıca götürülmüş bir şəxs, sosial qrup, sinif və bütövlükdə cəmiyyət) qərarlaşan sosial münasibətlərdə onun inkişafının obyektiv sosial qanunauyğunluqlarının tələbləri ifadə olunur. Ayrıca bir şəxsin və sosial qrupun məqsədi və sərvət orientasiyaları isə bu ümumi tələblərə uyğun gələ və gəlməyə bilər. sonuncu hal baş verdikdə konkret sosial subyektlər nəticə etibarilə ümumi tələblərə uyğunlaşmalı olurlar. Şəxsiyyət səviyyəsində olan münasibətlərlə sosial münasibətlərin qarşılıqlı təsirində ikinci tərəf aparıcı yer tutur. Lakin bu heç də sosial münasibətlərin formalaşması prosesinə u və ya digər şəxsin təsirini inkar etmək demək deyildir. Bundan əlavə, sosial münasibətlərin formalaşması və inkişafı gedişində müxtəlif fəaliyyət sahələrində çalışan insanların sərvət yönümlərinin, davranış normalarının və s. biri ilə uzlaşdırılması zəruridir. Lakin bəzi hallarda müəyyən bir sahədə

fəaliyyət göstərən insanların davranış normaları ilə digər sferalarda məqbul sayılan sərvət yönümləri, sərvət yönümləri davranış normaları arasında xeyli fərqli nəzərə çarpır və güzəştli barışıq əldə edilməsi lazım gəlir.

15.3. Əqidə, əməl və nəticə

Demokratik cəmiyyətdə dinin və əqidənin rolunu çoxları səhvən eyniləşdirir, bu iki məvhumu düz anlamır və bəlkə də, belə yanaşma səbəbindən terrorizm, ekstremizm, din, əqidə anlayışları və onların bir-biri ilə əlaqəsi çox zaman nəinki adi vətəndaş üçün, hətta bu sahədə çalışan adamlar üçün də qaranlıq qalır. Əqidə azadlığı dini etiqad azadlığı ilə qarışdırılır.

Beynəlxalq paktlarda, konvensiyalarda, qərar və qətnamələrdə əqidə azadlığı hüquqi insan haqlarının əsas tərkib hissəsi kimi qəbul edilmiş və demək olar ki, bütün dünya dövlətlərinin konstitusiyalarında öz əksini tapmışdır.

Lakin belə bir faktı nəzərə almalıyıq ki, insanın əqidəsi təkcə dinlə məhdudlaşmır və əslində əqidə azadlığının özü də qanunlarla tənzimlənir, müəyyən hüquqi çərçivədə həyata keçirilir:

Tarixə qısa ekskurs etsək, görərik ki, insanlaırn əqidəsi, o cümlədən, dini əqidəsi heç də həmişə onların fəaliyyəti ilə müqayisədə ziddiyyətsiz olmamışdır.

Cəmiyyətdə, hətta ailədə yaranan bir sıra gərginliklərin və münaqişələrin əsasında ilkin amil kimi əqidə məsələləri də durmuşdur.

Qədim dövrlərdən başlayaraq bu günədək baş verən dəhşətli müharibələr, faciəli münaqişələr, dəfələrlə dünya xəritəsinin dəyişdirilməsi, imperiyaların yaradılması və iflası təkcə hakimiyyət uğrunda deyil, həmçinin əqidə uğrunda, çox zaman dini əqidə uğrunda mübarizənin tərkib hissəsi olmuşdur. Tarixi faktlar göstərir ki, din uğrunda, yaxud din pərdəsi altında aparılan müharibələrdə tökülən qanlar heç də birinci və ikinci dünya müharibələrində tökülən qanlardan az deyil.

Bütpərəstlər tərəfindən Yerusəlimin dağıdılması, IV əsrin sonu-V əsrin əvvəllərində xristianlığın yayılması ilə antik Roma sivilizasiyanın məhv edilməsi, səlib yürüşləri, islam fütuhatları, orta əsr inkvizisiyası və s. birbaşa dini əqidə ilə bağlı hadisələr vəfaktlar bir daha onu göstərir ki, din forması almış əqidələr cəmiyyətdə öz yerini heç də həmişə sülh yolu ilə tutmamış, bəzən nüfuz sahibi olmaq üçün gücdən, silahdan istifadə etmişdir.

Söhbət dinlərin əsl ilahi mahiyyətindən yox, bu mahiyyəti necə başa düşməkdən, dinin cəmiyyətdə praktikasından gedir.

2001-ci ilin 11 sentyabrından dərhal sonra terroru və ümumiyyətlə, terrorizmi birbaşa dinlə bağlayanlar çox oldu. Hətt islamı terror dini adlandıranlar da tapıldı. Dəhşətli terror aktlarından bir il keçib. Lakin heç kəs cəsarət edib dinlə, əqidə ilə terrorun və ekstremizmin əlaqəsinin olub-olmadığına aydınlıq gətirmək istəmir. Bəziləri dinlə terrorun və ekstremizmin əlaqəsinin olduğuna ehtiyatla işarə edir, bəziləri dini əqidə ilə terrorun və ekstremizmin qətiyyən əlaqəsi olmadığını sübuta yetirməyə, dini, dini təşkilatları tamamilə sığortalamağa cəhdlər göstərirlər.

Lakin din, əqidə mücərrəd məvhumlar deyil. Terrorist də, ekstremist də, yəqinlik hasil edərik ki, bugünkü müharibələrdə, münaqişələrdə, onların ideolojiləşdirilməsində dini amilin mövcudluğu danılmazdır.

Son illərin hadisələri, konkret olaraq İsrail-Fələstin qarşıdurması, 30 ildən çox tarixi olan Olster faciələri, Yuqoslaviyada baş verənlər, birinci və ikinci çeçen müharibəsi və nəhayət Azərbaycanın 20 faiz ərazisinin işğal olunması deyilənlərə konkret məzmun verir. Çoxlu insan tələfatı ilə müşayiət olunan bu müharibə və münaqişələr dini amilin təsirindən kənar deyil. Onların bəzilərinin ideya mənbəyi də dindir, dini təşkilatlardır. Erməni kilsəsi Azərbaycan-Ermənistan münaqişəsinin sülh yolu ilə həlli sahəsind görülən işləri sözdə dəstəkləsə də, bu münaqişənin Ermənistanın işğalçılıq siyasətinin nəticəsi olduğunu bugünədək etiraf etməyib və 1988-1989-cu illərdə isə Qarabağ ermənilərinin separatçı ideyalarını dəstəkləmişdir.

Odur ki, dinin demokratik cəmiyyətdə rolunu müzakirə edəndə ilahi dinlərin həqiqətən sülh məramlı, sülh mahiyyətli müqəddəs kitablarından, daha doğrusu, dinlərin normativ idealından çıxış edilməməli, daha çox dinin praktikasını həyata keçirən insanların fəaliyyəti demokratiya və sivil cəmiyyət qanunları prizmasından nəzərdən keçirilməli, dini təşkilatların, dini liderlərin cəmiyyətdə yüksək nüfuzu olduğunu nəzərə alaraq, onların demokratik cəmiyyətdə rolu və məsuliyyəti müəyyən edilməlidir.

Bu məsuliyyət ən azı din xadimlərinin demokratik cəmiyyətin onlara verdiyi imtiyazlara, onların vətəndaş hüquqlarını qoruyan beynəlxalq və yerli qanunların verdiyi təminata adekvat cavab reaksiyaıs olmalıdır. Bu gün demokratik cəmiyyətdə geədn prosesləri təhlil edərkən aydın olur ki, insanların hüquqlarını, o cümlədən, dini etiqad hüquqlarını qorumaq və onlara həqiqi təminat vermək üçün demokratik cəmiyyətdə güclü hakimiyyət və effektiv idarəetmə vacibdir.

15.4. Hakimiyyət və effektiv idarəetmənin vacibliyi

Cəmiyyət üçün vacib olan bu iki amil birbaşa mənəviyyatla, dolayısı yolla əqidə ilə də bağlıdır.

1. Əminik ki, dini ekstremizmlə mübarizənin ön cərgəsində tanklar, toplar, qırıcı təyyarələr yox, məhz əsl din xadimləri, nüfuzlu dini liderlər durmalı, vətəndaşları olduqları demokratik cəmiyyətin bütövlüyü uğrunda mənəvi cihad elan etməlidirlər. Lakin belə bir mübarizədə “din dövlətdən ayrıdır” məvhumu arxa plana keçməli, ümumi səylər cəmiyyəti terror kimi dəhşətli xəstəlikdən xilas etməyə yönəlməlidir. Belə bir müştərək fəaliyyətin parametrləri olduqca aydın və başadüşülən olmalıdır. Din, dini liderlər və dini təşkilatlar mənəviyyatla bağlı fəaliyyətləri sayəsində hakimiyyəti möhkəmlətməyə kömək edir, güclü hakimiyyətin isə əqidə azadlığı hüquqlarını daha qətiyyətlə təmin etmək imkanı genişlənir.
   Belə sıx əməkdaşlıq heç bir tərəfin hüquq və imtiyazlarını, səlahiyyətlərini artırıb-azaltmağa yönəlməməlidir. Bu, ümumi

sülh uğrunda birgə işin spesifik bir forması kimi qəbul edilməlidir.

2. Qənaətimə görə, dini ekstremizm və dinlə motivləşdirilən terrorizmə qarşı mübarizənin əsas tərkib hissələrindən biri də düzgün dini maarifçilik fəaliyyətinin təşkilidir. Cəmiyyətdə din haqqında məlumat qıtlığı olmamalıdır. Lakin bu, prioritet məlumat sahəsinə çevrilməli deyil. Eyni zamanda, din haqqında məlumat insanlara təkcə din xadimlərindən yox, digər mənbələrdən, hətta, dövlət tərəfindən də təqdim edilməlidir. Bu əslində ifrat dini təəssübkeşlik meyllərini zəiflədər və obyektivliyi daha çox təmin edə bilər.

   Dinə ciddi surətdə aludə olan insanları inzibati yolla təqib etmək, onları ikinci növ adam kimi hesab etmək gizli dini fəaliyyətə yol açır. Gizli fəaliyyət isə, xüsusən gənclərdə, romantik inqilabçı ruhu tərbiyə edir ki, bu da terror və ekstremizm üçün baza rolunu oynaya bilər.

3. Hakimiyyət və din cəmiyyətin əsasını təşkil edən iki mühüm elementidir. Birinci qanunun aliliyi, ikinci isə, qanunun mahiyyəti - əxlaq və mənəviyyatdır. Hakimiyyət, əxlaq və mənəviyyat əslində cəmiyyətin həyatında bir-birini tamamlayır. Başqa sözlə, hakimiyyət, yəni əxlaq və mənəviyyat kriteriyalarının məhsulu olan qanunlar cəmiyyət üçün bütövlükdə prioritet xarakter daşıyır.

   Əslində qanun əxlaq və mənəviyyat müdafiə edir. Tarix göstərir ki, əxlaqi keyfiyyəti zəif olan hakimiyyətin ömrü uzun olmur. Əxlaq isə ənənəvi olaraq dini dəyərlərlə qidalanır. Deməli, hakimiyyət və din bir-biri üçün vacibdir, zəruridir, ancaq avtonom birgəyaşayış şəraitində. Bunun əksini sübut edəcək tutarlı faktlar, yaxud uğurlu təcrübə tarixə bəlli deyil. Burada ən əsas sual ortaya çıxır. Bu avtonom birgəyaşayış necə olmalıdır ki, siyasət əxlaq və mənəviyyatca zəif olmasın, ilahi dinlərin əsl mahiyyətini qoruyub saxlaya bilmək üçün şərait yarada bilsin, eyni zamanda cəmiyyətdə dinin ictimai statusu elə müəyyən olunmalıdır ki, o, cəmiyyətdə ictimai əlaqələrin tənzimləyicisi rolunu oynayan hakimiyyətə öz funksiyasını yerinə yetirməyə mane olmasın.

4. Demokratik əsaslar üzərində qurulan cəmiyyətdə hakimiyyət dini təəssübkeşliyə yol verməməli, bütün dinlər və əqidələr üçün eyni şərait yaratmalıdır. Hakimiyyət üçün imtiyazlı əqidə forması olmalı deyil. Zənnimcə, dinlərarası uzunmüddətli dialoqun uğursuzluğunun əsas səbəblərindən biri dinlərin imtiyazlı, ənənəvi, qeyri-ənənəvi, destruktiv dinlər kimi təqdim olunmasında və onlara yanaşmanın bu təməəl mövqeyindən formalaşmasındadır. Söhbət əqidədən gedirsə, bizi onun sağlam və qeyri-sağlam, cəmiyyət üçün faydalı, yaxud zərərli olması ciddi müqavimət formalaşmalı və buna hakimiyyət də yardım etməlidir. Zərərli əqidənin din pərdəsi altında yayılmasına qarşı mübarizəni dini etiqad azadlığı hüquqlarını pozmaq kimi qiymətləndirmək olmaz. Təəssüf ki, bir sıra beynəlxalq təşkilatlarda məhz belə yanaşma üsulu hökm sürür. Dinləri və əqidələri olan vətəndaşlar üçün cəmiyyətdə yeganə bir qanun dövlətin konstitusiyasıdır.

Din və din xadimləri üçün, əlbəttə, insanların mənəviyyatı, dini əqidələri prioritet fəaliyyət sahəsidir. Əxlaqı təmiz, mənəviyyatı saf insanlar tərbiyə etməklə din xadimləri və dini liderlər siyasətə birbaşa qarışmadan öz müqəddəs missiyalarını yerinə yetirir və eyni zamanda hakimiyyətə yardım edərək, son təqdirdə dini fanatizmin və ifrat təəssübkeşliyin ekstremizmə yuvarlanmasının qarşısını alaraq cəmiyyət qarşısında böyük xidmət göstərmiş olurlar. Fikrimcə, bu, müasir dümokratik cəmiyyətdə din və dövlət münasibətlərində avtonom birgəyaşayışın ən optimal forması kimi qəbul edilə bilər və din-dövlət münasibətləri bu fundamental əsas üzərində qurulmalıdır.

15.5. İddia səviyyələri

Özünüqiymətləndirmə və şəxsiyyətin səviyyəsi.

Özünüqiymətləndirəm şəxsiyyətin özünü, öz imkanlarını, keyfiyyətlərini, qabiliyyətlərini, özünün başqa adamlarla münasibət sistemindəki yerini qiymətləndirməsindən ibarətdir. Özünüqiymətləndirmə insanın özünüdərketməsi ilə sıx bağlıdır. Bu baxımdan insanın mənlik şüurunun formalaşmasında

özünüqiymətləndirmə xüsusi yer tutur. Özünüqiymətləndirmə zamanı adətən qiymətin əxlaqi, estetik, intellektual, emosional və s. növlərindən istifadə olunur. Lakin təcrübə göstərir ki, bütün hallarda onların içərisində emosional qiymətlər əsas yer tutur. Bütün hallarda özünüqiymətləndirmədə emosional çalar üstünlük təşkil edir. Özünüqiymətləndirmə səviyyəsində qiymətverən və qiymətləndirilən eyni adam olduğuna, mən-mənə qiymət verdiyinə görə burada özünüsevmə, özünəhörmət, ləyaqət hissi özünə geniş yer edir. Ona görə də burada subyektiv amillərin təsiri qaçılmaz olur.

Psixoloji tədqiqatlar özünüqiymətləndirmənin üç səviyyəsini müəyyənləşdirməyə imkan vermişdir:

1. Adekvat özünüqiymətləndirmə
   Bu cür özünüqiymətləndirmə zamanı insan özünün bütün keyfiyyətlərini olduğu kimi, imkanlarına uyğun qeyd etməklə özünü düzgün qiymətləndirir.
2. Qeyri-real yüksək özünüqiymətləndirmə.
   Bu cür özünüqiymətləndirmə zamanı insan özünü onda olan keyfiyyətlərdən, imkanlardan yüksək qiymətləndirir. Adətən bu cür özünüqiymətləndirmə şişirdilmiş xarakter daşıyır, insanın özündən bədgümanlığı ilə nəticələnir.
3. Qeyri-real aşağı özünüqiymətləndirmə
   Bu cür özünüqiymətləndirmə zamanı insan özünün keyfiyyətlərini, imkanlarını, layiq olduğundan aşağı qiymətləndirir.

Qeyri-real yüksək və qeyri-real aşağı özünüqiymətləndirmə eyni dərəcədə ziyanlıdır. Məsələn, öz imkanlarını qeyri-real yüksək qiymətləndirən şagird və ya tələbələrdə çox vaxt özünəarxayınçılıq hissi yaranır. Nəticədə nəzərdə tutduqları məqsədlərinə nail ola bilmirlər. Öz imkanlarını qeyri-real aşağı qiymətləndirən şagird və ya tələbələrdə isə mümkün olacaq nailiyyətə çatmaq hissi və cəhdi olmur, nəticədə onlar mövcud imkanlarını təzahür etdirə bilmirlər. Ona görə də ən cüzi nailiyyətlə kifayətlənməli olurlar.

Özünüqiymətləndirmədə şəxsiyyətin iddia səviyyəsi ilə də sıx bağlıdır. İddia səviyyəsi dedikdə bu və ya digər fəaliyyət zamanı şəxsiyyətin seçdiyi və qarşısına qoyduğu məqsəd və vəzifələrin çətinlik dərəcəsi ilə müəyyən olunan xarakteristikası nəzərdə tutulur. Başqa

sözlə iddia səviyyəsi fərdin qarşısına qoyduğu məqsədin çətinlik dərəcəsi ilə müəyyən olunan şəxsiyyətin arzuolunan özünüqiymətləndirmə (mən obrazı) səviyyəsindən ibarətdir.

İnsan sonra yerinə yetirəcəyi işin çətinlik dərəcəsini sərbəst şəkildə seçərkən özünüqiymətləndirməyə cəhd göstərməsi iki cür konfliktin yaranmasına səbəb olur: bir tərəfdən maksimum müvəffəqiyyət əldə etmək üçün iddianı artırmaq cəhdi, digər tərəfdən uğursuzluqdan yaxa qurtarmaq üçün iddia səviyyəsini aşağı salmaq. Müvəffəqiyyət əldə edildikdə adətən iddia səviyyəsi artır, insan daha çətin məsələni həll etməyə hazır olduğunu təzahür etdirir, uğursuzluq zamanı isə iddia səviyyəsini müvafiq şəkildə aşağı salır.

Şəxsiyyətin iddia səviyyəsi konkret fəaliyyət növündə özünü aydın göstərir. Bununla əlaqədar bir fakta nəzər salaq.

İmtahana zəif hazırlaşmış tələbə 5 qiymət almağa cəhd göstərir və verilmiş 10 misaldan yalnız 4-nü yerinə yetirdiyinə görə həmin qiyməti ala bilmədikdə ruhdan düşməyəcəkdir. O eyni zamanda 3 qiymətə layiq görüldükdə də o qədər sevinməyəcəkdir. Çünki bu məqsədə nail olmaq o qədər də çətin deyildir. Lakin tədricən misalların sayını 4-dən yuxarı artırmaqla yaxşı qiymət almaq üçün ona neçə misal verilməsini istədiyini təklif etməklə onun iddia səviyyəsini müəyyənləşdirmək mümkündür.

Bu sadə model göstərir ki, şəxsiyyət öz iddialarının səviyyəsini müəyyən edərkən özü üçün müəyyən perspekti saxlamağa çalışır. Buna görə də o, elə tapşırıq və məqsədlər seçir ki, onlar nə həddindən artıq çətin, nə də həddindən artıq asan olsun.

Aparılmış tədqiqatlar göstərmişdir ki, iddia səviyyəsinin formalaşması nəinki müvəffəqiyyət və uğursuzluğu qabaqcadan görməklə, həm də hər şeydən əvvəl, keçmiş müvəffəqiyyət və uğursuzluqların ağıllı surətdə, bəzən isə dumanlı dərk olunan şəkildə nəzərə alınması və qiymətləndirilməsi ilə müəyyən edilir. Məktəblinin tədris işində, dərnəkdə məruzə üçün mövzu, ictimai tapşırıq və s. seçərkən iddia səviyyəsinin formalaşmasını izləmək olar.

Mövzu 16. Sosial işin texnoloji mahiyyəti

16.1. Sosial işə funksional yanaşma

16.2. Sosial işin prinsipləri

16.3. Müxtəlif sahələrdə sosial iş texnologiyaları

16.4. Psixoloji tədqiqat, diaqnostik, psixogenetik, longitindial, polifunksional və digər metodlar

16.5. Sosial iş texnologiyası prinsipləri

16.1. Sosial işə funksional yanaşma

Tarixən funksional yanaşma Amerika sosial iş nəzəriyyəsi və praktikasında daha əvvəl yaranmış diaqnostik yanaşmanın alternativi kimi meydana gəlmişdir. Nəzəriyyəçilərə görə, əgər diaqnostik yanaşma sosial işdə psixososial determinizmin Freyd modelinin istifadəsi ilə əlaqələnirsə, funksional yanaşma O.Rankin modeli və sonralar onun modelinə yaxın modellərlə əlaqələndirilir. V.Yela bunu belə təsvir edir: İnsanı xarici və daxili qüvvələrin məhsulu kimi dəyərləndirən bir baxışı onu öz taleyinin yaradıcısı, xarici və daxili təcrübədən kreativcəsinə istifadə edərək öz təcrübəsini inteqrasiya etməyə qabil varlıq kimi baxan pozitiv, ümüdverici baxış əvəz etdi. Xəstəlik psixologiyasından imtina olundu, onun yerini tutan pozitiv insanı potensiala və dəyişməyə qabil olan psixologiya sosial işin yeni metodu üçün impuls və istiqamət verdi. Diaqnostik yanaşmanın keçmiş təcrübəyə münasibətdə tutduğu yanlış mövqedən imtina etmiş funksionalizm indiki təcrübəni və bu təcrübənin inkişafı üçün olan potensialını vurğuladı. Müalicə konsepsiyası servis konsepsiyası ilə əvəz olundu. Servis-yardım prosesi olub, yardım göstərən sosial işçi ilə bu prosesin determinantı olan kliyent arasında dinamik qarşılıqlı münasibətdir. Dəyişikliklər mərkəzi kimi aertıq sosial işçi-terapevt deyil, kliyent çıxış edirdi. Hətta ilkin olaraq hadisə ilə işdə psixodinamik yanaşmadan istifadə edən sosial işçini nəzərdə tutan "ca-

seworker” termini diaqnostik işdən fərqli olaraq “hadisə ilə funksional iş” adlandırıldı, çünki vəziyyətin təsviri təhlilini deyil, onunla iş prosesini əks etdirirdi.

Kliyentin şəxsiyyətinin inkişafının və həyat yolunun qlobal parametrlərinin qiymətləndirilməsini nəzərdə tutan diaqnostik yanaşmadan fərqli olaraq, funksional yanaşmada diqqət kliyentin ümumi probleminin fraqmenti – faza üzərində mərkəzləşirdi. Ümumiyyətlə, kliyentin problemi konkret xidmətin, sosial iş agentliyinin imkanlarına uyğun olaraq müəyyənləşdirildi. Nəzəriyyə və praktika göstərdi ki, kliyentin konkret real, xüsusi probleminin həlli ondan özünün digər problemlərinin də öhdəsindən gəlməyə imkan verəcək enerjini ayrılmasına səbəb olur. Funksional yanaşma Eqo-nun gücləndirilməsi prisipinə əsaslandığı üçün psixodinamik mahiyyət daşıyır. Bu yanaşma eyni zamanda kömək edən şəxslə cari münasibətləri vurğulayır; burada müqavimət, daxili konfliktlər, əks-arzular proseslərinin vacib rolu və qaçılmazlığı da etiraf olunur; lakin konsultasiya və sosial iş sahəsində aparıcı mütəxəssis olan R.Nelson-Consa görə, diaqnoz (söhbət psixoanalitik deyil, sosial-psixoloji diaqnozdan gedir) kliyentin özü tərəfindən həyata keçirilən bir prosesdir. Bu zaman kliyent sosial işçi tərəfindən təqdim olunan xidmətdən istifadə edir. O, bu xidmətdən istifadə və öz problemləri ilə iş prosesində qarşılaşdığı şərtləri və məsuliyyəti ya qəbul, ya da inkar edərək öz şəxsi intizamlarına və yardım resepiyentinə davamlı şəkildə alternativləri görməyə, onlara açıq olmağa imkan yaradan *prosesə, qayğıya* görə məsuliyyət daşıyırlar. Şübhəsiz ki, işçinin diaqnostik müşahidələri barədə kliyentə məlumat verilə bilər ki, lakin bu müşahidələr yardım prosesinin nə əsasını, nə də mahiyyətini təşkil edir.

Sosial işə funksional yanaşma çərçivəsində verilən təriflərdən biri N.Smolliyə aiddir: tədqiqatları başqa nəzəriyyəçilər tərəfindən yüksək qiymətləndirilən Smolliyə görə bu anlamda sosial işin başlıca prinsipləri aşağıdakılardır.

1. Diaqnoz servis xidmətinin təyinatı ilə uzlaşmalı, servis yardımı ilə əlaqədar inkişaf etməli, fenomenin (yəni problemlərin, şikayətlərin, sorğuların və s.) dəyişməsi ilə birgə dəyişməli, kliyent tərəfindən bilinməli və anlaşılmalıdır.

2. İşin mərhələləri (başlanğıc, orta və son) tamamilə kliyentin maraqlaırna həsr olunmalıdır.
3. Agentliyin imkanlarından istifadə sosial iş prosesinin fokusunu, məzmununu və istiqamətini müəyyən edir, cəmiyyətin bunu anlamasını təmin edir, kliyenti tədricilik, strukturluluq və konkretliklə səciyyələnən prosesə cəlb edir.
4. Funksiyalar və proseslə əlaqədar strukturdan şüurlu istifadə, sosial işçi və kliyentdə qarşılıqlı münasibətlərin formasını müəyyən edir.
5. Sosial işin bütün prosesləri qərarın və ya seçimin yardım alan insan tərəfindən qəbulunu nəzərdə tutan qarşılıqlı münasibətlərdən ibarətdir. Həmin münasibətlər məqsədyönlü seçim və qərarlara imkan yaratmalıdır.

İşin zaman parametrləri, seçim azadlığı, inkişaf tendensiyası funksional sosial işdə vacib anlayışlar hesab olunurlar.

Smollinin fikrincə, sosial işin bütün cəhdlərinin başlıca məqsədinin insanın həm şəxsi zənginliyinə səbəb ola biləcək, həm də cəmiyyətə xeyir verəcək gücünün üzə çıxarılması bütün insanlara özünü gerçəkləşdirmə imkanı verən, cəmiyyətin, institutların və sosial siyasətin yaradılması üçün sosial gücün əldə olunması təşkil edir.

Sosial iş cəmiyyətdə mövcud olan maneələrə, bərabərsizliyə və ədalətsizliyə qarşı çıxır. Böhranlar zamanı ortaya çıxan problemlərlə yanaşı, sosial iş gündəlik həyatda baş verən sosial və şəxsi problemlərin həllinə də çalışır. Problemləri fərdlər, ailələr və icmalar səviyyəsində həll etməklə yanaşı sosial iş problemlərin kökündən həlli üçün proqramlar və siyasətlər irəli sürür.

Sosial iş nəzəriyyəsinin obyekti kimi fərdin, ailənin və ya lokal sosiumun cəmiyyət ilə qarşılıqlı əlaqələri çıxış edir. Sosial iş nəzəriyyəsinin predmeti isə fərdin, ailənin və ya lokal sosiumun cəmiyyət ilə qarşılıqlı münasibətlərinin pozulmasının və bərpa olunmasının qanunauyğunluqlarıdır.

Sosial iş nəzəriyyəsində həm fənlərarası katqoriyalar (məsələn, məqsəd, kliyent, yardım, dövlət, sağlamlıq, hüquqi status, büdcə, ailə), həm də əksər hallarda sosial iş nəzəriyyəsində istifadə olunan müəyyən dərəcədə spesifik kateqoriyalar (məsələn, çətin həyat şəraiti, sosial

müdafiə, sosial yardım, sosial təminat, sosial xidmət, sosial dəstək) işlədilir.

Çətin həyat şəraiti – qrupun və ya icmanın insanın həyat fəaliyyətini pozan və ya pozulmasına təhlükə yaradan şəraitdir. Bu elə bir şəraitdir ki, o, kənardan gələn yardımsız, köməksiz aradan qaldırılmır.

Sosial müdafiə - dövlətin və ya cəmiyyətin bütün vətəndaşları sosial təhlükədən qorumağa yönəldilən, əhalinin müxtəlif kateqoriyalarının həyat fəaliyyətinin pozulmasına imkan verməyən fəaliyyəti kimi çıxış edir. Sosial müdafiə ən çox acınacaqlı vəziyyətdə olanları qoruyur.

Sosial yardım – konkret ehtiyac duyulanda yaranan fəaliyyət növüdür (məsələn, tibbi yardım, hüquqi yardım, psixoloji yardım).

Sosial təminat – sosial xidmətin müştərilərinə maddi ictimai ehtiyatın bir hissəsinin verilməsini nəzərdə tutur.

Sosial xidmət – müxtəlif kateqoriyaların sosial xidmətlərdə (faydalı hərəkətlərdə) olan tələbatının ödənilməsinə yönələn fəaliyyətdir.

Sosial dəstək – müştəriyə davranışında öz xəttini qurmağa köməklik göstərən fəaliyyətdir.

16.2. Sosial işin prinsipləri

Sosial işin prinsiplərindən söhbət açmamışdan əvvəl prinsip anlayışı haqda danışmaq yerinə düşərdi. Prinsip başlıca ideya, əsas tələb, müəyyən bir fəaliyyətin həyata keçirilməsində rəhbər qayda kimi başa düşülür. Sosial işin prinsipləri bir neçə qrupa bölünür.

Birinci qrup ehtiyacı olan, sosial xidmətin müştərisi olanın obrazının əsasında qurulur və özündə aşağıdakı prinsipləri birləşdirir.

1. Sosial işçinin kliyentin öz gücünə arxalanması prinsipi (sosial xidmətin kliyentində sosial mühitin xoşagəlməz təsirlərinin qarşısında durmaq qabiliyyətlərinin inkişaf etdirilməsi;
2. Konfidensiallıq (anonimlik) prinsipi (sosial xidmətin kliyenti haqda məlumatın heç kəsə deyilməməsi);
3. Universallıq prinsipi (kliyentin cinsi, dini, milliyəti, irqi, siyasi düşüncələrindən asılı olmayaraq ona eyni, bərabər münasibət);

4. Tolerantlıq prinsipi (sosial xidmətin kliyenti tərəfindən hər növ aqressiyaya dözümlü münasibət).

Sosial işin prinsiplərinin ikinci qrupu sosial işin bir yardımçı fəaliyyət kimi spesifikliyi ilə bağlıdır.

1. Müştərinin mərkəzə qoyulması prinsipi (sosial iş müştərini öz dəyərlər sisteminin mərkəzinə qoyur);
2. Prfilaktik istiqamətləndirmə prinsipi (“risk zonalarının” üzə çıxarılması, sosial və şəxsi təhlükələrin qarşısının alınması);
3. Sosial reaksiya vermək prinsipi (sosial xidmətlər sistemi hər zaman yardım haqda daxil olan sifarişlərə reaksiya vermək vəziyyətində olmalıdır;
4. Müdaxilənin təsirinin yoxlanılması prinsipi.

Sosial iş prinsipinin üçüncü qrupunun əhəmiyyəti ictimai və dövlət ehtiyatlarının sosial işdə oynadığı vacib rolu ilə izah olunur:

1. Sosial hüquqların qorunması prinsipi;
2. Sosial ehtiyatların maksimallaşması prinsipi (mövcud ictimai fondların xərclənməsində rasionallıq, müxtəlif mənbələrdən əlavə maddi, təşkilati, maliyyə ehtiyatlarının cəlb olunması).

Sosial işin qanunauyğunluqları əhalinin müxtəlif kateqoriyalarına dövlət tərəfindən normalaşdırılan, xüsusi təşkil olunmuş sosial yardım və müdafiə fəaliyyəti prosesində mühüm qarşılıqlı əlaqələri əks etdirirlər.

Sosial işin qanunauyğunluqları sosial işin bir sistem kimi makrosistemlərlə (dövlət, sosiomədəni mühit), təşkil olunma üsulları ilə (kadr səriştəliyi məsələləri) qarşılıqlı əlaqələrini qeydə alır.

Sosial iş dövlətin sosial siyasəti ilə əlaqədədir. Onun səmərəliliyinin mühüm şərti kimi sosial xidmətlərin kadrlarının peşəkar səriştəliliyi və dəyərli istiqaməti çıxış edir.

Sosial işin məzmununu bir neçə cərəyanda təqdim etmək olar:

1. Sosial hüquqi cərəyan (çətin həyat şəraitinin həll edilməsində fərdin hüquqi statusunun istifadəsi);
2. Sosial-məişət cərəyanı (ətraf mühitlə optimal adaptasiyada dəstək);

3. Sosial-tibbi cərəyan (səhhətin vəziyyəti ilə bağlı həyat fəaliyyətinin məhdudiyyətlərinin nəticələrinin yüngülləşdirilməsi);
4. Psixoloji-pedaqoji cərəyan (fərdin qabiliyyətlərinin inkişafı, fəal həyat mövqeyinin, pozitiv özünühissetmənin formalaşdırılması, müştərinin sosial təcrübəni qavramasının təşkili;
5. Sosial-psixoloji cərəyan (çətin həyat şəraitinin qarşısının alınması prosesində şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi).

Sosial işin məqsədi hər kəs həyat şəraitini və keyfiyyətini yaxşılaşdırmaq üçün fərdlər və cəmiyyət arasında qarşılıqlı bəhrə verəcək təması yaratmaqdan, bərpa və inkişaf etdirməkdən ibarətdir. Mühit (sosial, fiziki, təşkilatı) bütün insanların öz potensiallarını və imkanlarını maksimum dərəcədə dərk etmələri üçün imkan və mənbələr yaratmalıdır, həmçinin onların mənəvi ehtiyaclarını ödəmək, əzabı, gərginliyi və məzlumluğu aradan qaldırmaq üçün imkanlar yaratmalıdır.

Fərdlər də əllərindən gəldiyi qədər həm öz rifahları və sosial inkişafları üçün, həm də yaxınlarının, ümumiyyətlə kollektiv cəmiyyət üçün səmərəl çalışmalıdırlar. Fərdlərin qarşılıqlı və ya cəmiyyətin digər üzvləri arasında təmas zamanı bir-birlərinin vicdanına, şəxsiyyətin və toxunulmazlığına, həmçinin seçiminə hörmət etməlidir. Bütün insanlara qarşı humanist və ədalətli yanaşma olmalıdır.

Sosial iş hər bir cəmiyyət üzvünün həyat şəraitinin və keyfiyyətinin yaxşılaşdırılmasını başlıca məqsəd olaraq qarşısına qoymaqla cəmiyyətlə fərd arasına qarşılıqlı əlaqəni yaradır, insanın özünüinkişaf potensialını stimullaşdırır və onu qarşıya çıxa biləcək həyati çətinliklərə qarşı hazırlayır.

Sosial iş, eyni zamanda köməyə ehtiyacı olan sosial təbəqələrə dəstək məqsədilə cari resurslardan istifadə etmək yollarını göstərir və lazımi sosial siyasətin hazırlanması ilə əlaqədar təklig və tövsiyyələri hazırlamaqla kifayətlənməyib onların gerçəkləşməsində bilavasitə iştirak edir.

16.3. Müxtəlif sahələrdə sosial iş texnologiyaları

Min illərdir ki, sosial işin qarşısında duran əsas vəzifə - kliyentin sosial problemlərinin həlli üçün mütəxəssislərin istifadə etdiyi fəaliyyətin forma, metod və üsullarının mövcudluğunu və gələcək inkişafını təmin etmək, arzuolunmaz həyat şəraitini dəyişdirmək məqsədilə onların qüvvələrinin fəallaşdırılmasını stimullaşdırmaqdır. Bununla yanaşı, gələcək sosial iş metodlarının işlənib hazırlanması mütəxəssislər tərəfindən həm cəmiyyət çərçivəsində, həm də kiçik qrup səviyyəsində elmi tədqiqat axtarışlarının labüdlüyünü də şərtləndirir. Xüsusilə qeyd etməliyik ki, bu fəaliyyətin inkişafı təkcə praktik iş prosesində deyil, o cümlədən ünvanlı, kompleks və vaxtında kömək zamanı reallaşır.

Peşəkar sosial iş metodları müxtəlifdir. Onlar aşağıdakı parametrlərə əsasən təsnif olunur:

Sosial iş forma və istiqamətinə görə (təşkilati, sosial-psixoloji, sosial-pedaqoji, sosial-tibbi, sosial-ekoloji və s.).

Sosial işin obyektinə görə (fərdi, qrup, icma).

Sosial iş subyektinə görə (xüsusi mütəxəssis tərəfindən tətbiq olunmuş, kollekiv sosial xidmət, sosial iş orqanları).

Bununla yanaşı, sosial işin obyektinə görə bir qədər geniş yayılmış təsnifatı da vardır:

-fərdi iş (sosial işçi – kliyent).

-qrupla iş (ailə qrupunda və ailə vasitəsilə).

-icmada iş (mikrososial mühitdə iş).

Metodların təsnifatı, bir tərəfdən onların ümumelmi planda istifadəsinə (sosial işin nəzəri problemlərinin tətbiqinin metodoloji cəhətdən əsaslandırılması kimi), digər tərəfdən, sosial işin öz metodlarının meydana çıxmasına imkan verir. Məlum olduğu kimi, təsnifat üçün bir sıra müxtəlif əsaslar mövcuddur: informasiyaların toplanması, onların işlənməsi, empirik tədqiqatlar, nəzəri modelləşdirmə.

Sosial işin obyektə əsasən təsnif olunmuş metodlarına bir qədər geniş nəzər salaq.

Fərdi iş metodu – bu metod özündə yeni sosia mühitə adaptasiya prosesində subyektə birbaşa fərdi qarşılıqlı təsiri, köməyi əks etdirir. İş prosesində sosial işçinin vəzifələri aşağıdakılarddır:

- ❖ Kliyentin sosial xidmətlərə tələbatını müəyyən etmək və ilkin əlaqə yaratmaq;
- ❖ Problemi öyrənmək və aydınlaşdırmaq;
- ❖ Sosial köməyin zəruriliyini motivə çevirmək;
- ❖ Problemi konseptuallaşdırmaq;
- ❖ Nəzərdə tutulan həlli müəyyən etmək və araşdırmaq;
- ❖ Strateji istiqaməti seçmək;
- ❖ Problemin həllini reallaşdırmaq.

Qrupla sosial iş metodu – bu metod bütövlükdə kliyentlər qrupu (ailə) ilə, həmçinin qrupda ayrılıqda hər bir üzvlə işi nəzərdə tutur. Bu halda, insan fəaliyyətinin müxtəlif sahələri öyrənilir ki, yaranan problemlərin və çətinliklərin daha səmərəli həllinə kömək edilsin. Qrupla iş oxşar problemli qruplar birliyi ilə (ailələrlə) də aparıla bilər. Qrupla sosial işlə bağlı bir neçə nəzəriyyə mövcuddur:

- ❖ Sahə nəzəriyyəsi qrupa müəyyən məqsədləri və qrupdaxili vəziyyətdən asılı olaraq dəyişən maraqları olan fərdlər toplusu kimi baxır.
- ❖ Sosial mübadilə nəzəriyyəsi qrup kontekstində biheviorizmin bir neçə ideyasından istifadəni irəli sürür.
- ❖ Sosial sistem nəzəriyyəsi kiçik qruplarda sosial sistemin öyrənilməsini, onların daxili ənənələrinin möhkəmləndirilməsini və sistemin öz əhatəsinə uyğunlaşdırılmasını təklif edir. Sosial işdə qrup metodları kimi sosiologiyadan götürülən bir sıra metodlardan da istifadə edilir:
    - Anket sorğusu bioqrafik məlumatların, rəylərin, sosial quruluşların, sərvət meyllərinin, şəxsi keyfiyyətlərin üzə çıxarılması üçün istifadə olunur. Anket özündə problemin əsas mahiyyəti ilə məntiqi surətdə bağlı olan suallar toplusunu birləşdirir.
    - Sosiometriya – qrupda şəxsiyyətlərarası emosional münasibətləri qiymətləndirmək, qrup fəallığının yalnız

zahiri emosional qatını təhlil etməyə imkan verən testdir. Sosiometrik prosedur nəticəsində sosiometrik matrisa (cədvəl), qrupda şəxsiyyətlərarası münasibətləri göstərməyə imkan verən sosioqram tərtib edilir, qrup birliyinin sosiometrik əmsalı hesablanır.

- Referentometriya – qrup üzvlərinin referentliyini (əhəmiyyətliliyini), həmçinin qrupda şəxsiyyətlərarası seçim motivini göstərmək üçün istifadə edilir.
- Kommunikometriya – şəxsiyyətlərarası münasibətlər sistemində qrup iştirakçılarının hər birinin yerini müəyyən edir. Xüsusi qrup metodlar da vardır ki, onlar nəinki sosial-psixoloji hadisələrin tədqiqi, diaqnozu və modelləşdirilməsini, həmçinin onların optimallaşdırılmasını və inkişafını təmin edir.
- İşgüzar oyunlar – peşəkar fəaliyyətin maddi və sosial məzmununu canlandırır, yaxud bu və ya digər praktik fəaliyyət üçün xarakterik olan münasibətlər sistemini modelləşdirir.
- Sosial davranışın modifikasiyası – insanın qeyri-adi mühitlə adaptasiyasına imkan verən yeni həyat vərdişləri və bacarıqlarını tərtib edir.
- Sosial-psixoloji treninq – ünsiyyətliliyi inkişaf etdirmək məqsədilə tətbiq edilən fəal qrup psixoloji iş metodları.

Qrup işi o zaman yerində və uğurlu olur ki, həyat mövqelərinə, ideologiyalarına, mədəniyyət və təhsilə, cins, yaş, sağlamlıq və sosial vəziyyətə, əmək vərdişlərinə, mədəni xidmət maraqlarına, fərdi-psixoloji xarakterə aid çətin problemləri və məsələləri olan insanların könüllü surətdə birləşdiyi qrupda həyata keçirilir.

Qrup sosial işi sosial vəzifə və həyat vəzifələrinə, fərdi məkanına istiqamətlənir, qrupun köməyi ilə şəxsi problemləri həlletmə bacarığının genişlənməsini təklif edir.

16.4. Psixoloji tədqiqat, diaqnostik, psixogenetik, longitindial, polifunksional və digər metodlar

İcmada sosial iş (mikro-sosial mühitdə sosial iş) – bir ərazidə yaşayan və ümumi problemləri olan fərdlərə, qruplara, kollektivlərə peşəkar köməyi nəzərdə tutur. Bu zaman aşağıdakı əsas metodlardan istifadə edilir:

- Sosial diaqnostika
- Sosial proqnoz
- Mikrososial mühitin sosial planlaşdırılması
- Sosial terapevtik iş
- Ərazi özünüidarə sisteminin inkişafı
- Mikrososial mühitdə xeyirxah aksiyalar
- İcmada praktik iş

İcmada sosial işdə başlıca məqsəd regional mütəxəssislərin fəaliyyəti üçün təşkilat bazası və koopersiya yaradılmasına, həmçinin əhalinin müxtəlif qruplarının fəallaşmasına nail olmaqdır.

Bioqrafik metod (şəxsi sənədlərin öyrənilməsi metodu) – ictimai həyatın subyektiv tərəflərinin tədqiqinə imkan verir. Kliyentlə fərdi iş prosesində sosial işçi onun hüquqlarını nəzərə almalıdır. Bioqrafik metodun müxtəlif formaları vardır: müsahibə, qohumların şəhadətnaməsi, müxtəlif səpkili məktublar, fotoşəkillər, avtobioqrafik fraqmentlər, öz həyatı haqda hekayət və s.

Təşkilati metodlar – sosial iş sahəsində təşkilati tapşırıqların həlli üçün istifadə olunan fəaliyyət, üsul və vasitələrin istifadəsi baxımından tətbiq edilir və aşağıdakı bölmələrə ayrılır:

- Təşkilati nizam
- Təşkilati koordinasiya
- Təşkilati təminat
- Təşkilati-texniki.

Pedaqoji metodlar – sosiallaşma prosesində insana ayrıca bir fərd və sosium üzvü kimi sosial yardım göstərilməsinə istiqamətlənib. Bu metodlar əsasən üç qrupa bölünür:

1. Şəxsiyyətin şüurunun formalaşması metodları (anlayışlar, mühakimə, inam, qiymət);

2. İdraki və praktik fəaliyyətin, davranışın təşkilati metodları (tapşırıq, məşğələ, xüsusi tərbiyəvi şərait yaratmaq və s.);
3. Fərdin davranış və fəaliyyətinin stimullaşdırılması metodu.

Sosial-psixoloji metodlar kompleksi şərti olaraq bir neçə qrupa bölünür:

1. Psixoloji tədqiqatlar metodu:
   a) Müşahidə - psixi hadisələrin müəyyən şəraitdə mənasını və spesifik dəyişikliklərini öyrənmək məqsədi ilə onların sistematik və məqsədəuyğun qavranılmasıdır. Müşahidənin səmərəliliyi, dəqiqliyi tapşırıqların qoyuluşundan, müşahidəçinin təcrübəsindən, peşəkarlığından asılıdır;
   b) Eksperiment – sosial şəraitdə fəal iştirak edərək öyrənilən obyektin vəziyyət və davranışındakı dəyişikliklərin tədqiqatçı tərəfindən qeyd olunmasıdır. Öyrənilən sahə məlum olmadıqda, və ya pis öyrənildikdə, yaxud fərziyyə sistemi mövcud olmadıqda, eksperimenin müxtəlif formaları tətbiq edilir:
      - Laborator eksperiment – yüksək dəqiqlik və etibarlılığı təmin edən və buna nəzarət edə biləcək xüsusi təchizatlı yerdə aparılır.
      - Təbii eksperiment – gündəlik təbii həyat şəraiti çərçivəsində insanın davranış və şəxsi xüsusiyyətlərini birbaşa öyrənmək vasitəsilə fərziyyənin yoxlanılmasıdır.
      - Formalaşdırıcı eksperiment – bu metod psixi proseslərin tənzimlənməsinə, şəxsiyyətin xüsusiyyətlərinə və davranışlarına təsir edilməsinə, eyni zamanda elmi fərziyyələrin yoxlanılmasına imkan verən təsir metodları ilə tədqiqat metodlarının birləşdirilməsidir.
2. Diaqnostik metodlar – şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərini aşkar etmək, dəyişdirmək məqsədi ilə aparılır. Bu sahədə geniş yayılmış metod – testləşdirmədir.
3. Psixogenetik metodlar – insanın fərdi-psixoloji xüsusiyyətlərinin yaranmasında və onun formalaşmasında genotipin və ətraf mühitin rolunu əsas götürür. Bu sahədə bir qədər məlumatverici metod – "əkizlər metodu"dur. Bu metod mühitin şəxsiyyətə təsirini maksimal hesablamağa imkan verir.

4. Longitidual metodlar – insanın həyat tsikli fazasında fərdi yaş və dəyişikliklərinin həcmini müəyyən etməyə kömək edir.
5. Həyat yolunun tədqiqi metodları – insanın doğulduğu gündən ölümünə qədər fərdi inkişafını öyrənir. Həyat yolu böhranlı dövrləri də əhatə edir. Bu metod diqqəti məhz həmin böhranlı dövrlərə yönəldir.
6. Psixoloji kömək metodu – insanın psixoloji bacarığını yüksəltmək metodu olub, psixoloji qayğıya ehtiyacı olan insana qarşıda duran problm və çətinlikləri aradan qaldırmaqda kömək edir. Bu metod özündə aşağıdakıları birləşdirir:

a) Psixoloji korreksiya və reabilitasiya metodu
b) Psixogen və psixoprofilaktik metodlar

7. Polifunksional metodlar – bu qismə dasil olan metodlar sosial işin məqsəd və vəzifələrindən asılı olaraq, işin forma və məzmununu dəyişdirməyi zəruri edir. Bunlara şərti olaraq aşağıdakıları daxil etmək olar:

a) Söhbətlər(müsahibı) – şəxsiyyət, onun əlaqələri haqqında informasiya almaq metodu, psixoloji diaqnostika, tədqiqat və həmçinin psixoloji kömək göstərmək (klinik söhbət və müsahibə) metodu olaraq, kliyentin öz daxili çətinliklərini, koknfliktlərini, davranışının gizli motivlərini dərk etməyə kömək edir;
b) Fəaliyyət nəticələrinin təhlili metodu – şəkillər, müxtəlif tipli qrafik təsvirlər, çıxışlar, yazılı və şifahi testlər və s.

Modelləşdirmə - riyazi, sosial və diər modellərin köməyi ilə psixi proseslər, insanın davranış və vəziyyəti haqqında informasiya almaq metodudur.

Sosial-iqtisadi metodlar-bu metodun tətbiqində əsas məqsəd optimal sosial normativləri formalaşdırmaq, əhalinin sosial-müdafiə sisteminin səmərəli təşkili, sosial səfərbərliyi yüksəltmək, dövlətin sosial xidmət işinin nəticələrini artırmaqdır. Sosial işdə aşağıdakı metodlar da istifadə edilir:

a) Statistik
b) Riyazi
c) Məqsədəuyğun fəaliyyətin təhlili
d) Balans

e) İndeks
f) Seçki
g) Dinamika sıralarının texnoloji təhlili

Sosial işin metodları mütəxəssis, sosial xidmət tərəfindən subyektin, sosial iş obyektinin (fərdin, qrupun, yaxud cəmiyyətin) daxili və xarici ehtiyatlardan istifadəsi prosesinin idarəolunmasının ümumiləşdirilmiş üsullarıdır. Sosial işin metodları sistemi bərpa metodu kimi təqdim oluna bilər. Bərpanın ən məşhur növləri: tibbi, peşə, sosial, psixoloji (pedaqoji) bərpa daxili ehtiyatların yaradılması metodları; mövcud olmayan ehtiyatın müvəqqəti əvəz olunması metodu; ehtiyatların birbaşa ötürülməsi metodu (pensiyalar, imtiyazlar, müavinətlər); ehtiyyatların rezervləşdirilməsi metodu (sosial sığorta).

Sosial işin metodları sisteminin digər variantı aşağıdakı metodları özünə daxil edir: sosial-iqtisadi metodlar (sosial iş mütəxəssislərinin kliyentin əxlaqi, maddi, milli, ailə və digər sosial mənafe və tələbatlarına təsir göstərməyə köməklik göstərən üsulları); təşkilati-sərəncam verən metod (sosial xidmətlərin təşkilati strukturunun idarəetmə təsiri – bu metodlar reqlamentedici, normativ – hüquqi aktlara arxalanır); psixoloji—pedaqoji metodlar (kliyentin sosial özünühissetməsinə və davranışına sosial-psixoloji mexanizmlər vasitəsi ilə dolayı təsir).

Sosial işdə elmi-tədqiqat metodları və metodikaları istifadə olunur. Aşağıdakı altqrupları qeyd etmək olar:

- Ümummәntiqi metodlar-analiz, sinez, ümumiləşdirmə, müqayisə, modelləşdirmə;
- Ümumelmi metodlar - ədəbi əsərlərin təhlili, sosial-pedaqoji tədqiqatların nəzəri təhlili və sintezi, eksperiment, ekspert qiymətləndirilməsi metodu;
- Tarixi metodlar – tarixi-müqayisəli metod, genetik metod;
- Sosioloji metodlar – anketləşdirmə və müsahibə, sosiometriya, monitorinq;
- Psixoloji metodlar
- Riyazi statistika metodları.

Bundan əlavə sosial-iqtisadi, təşkilati və psixoloji-pedaqoji metodlar da mövcuddur. Sosial işdə sosial terapiya, fərdi terapiya, qrup

terapiyası, ailə terapiyası, əmək terapiyası, özünütərbiyə terapiyası, sosiodrama, psixodrama, oyun terapiyası metodlaırndan geniş istifadə olunur.

Sosial işin texnologiyası – müştərinin şəxsi ehtiyatlarının aktivləşdirilməsinə və çətin həyat vəziyyətindən çıxmağa nail olmağa yönəldilən sosial iş mütəxəssisinin peşə ustalığına və fərdi texnikasına əsaslanan həmin mütəxəssisin hərəkətlərinin ardıcıllığıdır.

Peşə ustalığı dedikdə, sosial iş üzrə mütəxəssisin şəxsi və işçi keyfiyyətlərinin, onun bilik və təcrübəsinin üst-üstə düşməsi başa düşülür.

Fərdi texnika – kliyenti, onun çətin həyat vəziyyətinin qarşısını almaq məqsədi ilə faydalı müşayiəti üçün lazım olan sosial iş üzrə mütəxəssisin bacarıq və vərdişlərinin cəmidir. Tədqiqatçı Xolostovanın fikrinə görə sosial işin texnologiyasının əlamətləri bunlardır:

1. Kliyentə yardımın göstərilməs prosesinin, konkret forma və prosedurları özündə birləşdirən mərhələlərə bölünməsi;
2. Mütəxəssislərin, nəticənin əldə edilməsinə yönəlmiş hərəkətlərinin tədricən koordinasiyası;
3. Texnologiyaya daxil olan prosedurların və əməəliyyatların yerinə yetirilməsinin birmənalılığı.

16.5. Sosial iş texnologiyası prinsipləri

Sosial işin texnologiyası bu prinsiplər əsasında realizə olunur:

1. Profilaktik yönüm prinsipi
2. Sosial işin texnologiyasının realizə olunmaı sahəsində dövlət zəmanətlərinin təqdim olunması prinsipi
3. Sosial xidmətlərin alınmasında və onların kliyentlərin bütün kaeqoriyaları üçün əlçatmazlığında bərabər imkanların təminatı prinsipi
4. Sosial işin texnologiyalarının bütün növlərinin ardıcıllığı prinsipi
5. Sosial işin texnologiyalarının bütün növlərinin varisliyi prinsipi

6. Sosial işin texnologiyalarının kliyentlərin fərdi tələbatlara yönümü prinsipi
7. Sosial işin texnologiyalarının istifadəsinin nəticəsinə görə dövlət hakimiyyəti orqanlarının və müəssisələrin məsuliyyəti prinsipi.

Sosial işin texnologiyasının başlıca anlayışlarına metodika (ümumi, konkret, xüsusi), sosial işin formaları, metodları aiddir. Ümumi metodika özündə işin məqsədini, vəzifələrini, mərhələlərini, ümumi məzmununu, vasitələrini birləşdirən proqramdır. Ümumi metodikaya əhalinin sosial xidmətinin stasionar müəssisəsində sosial-bərpa metodikasını, əhalinin sosial xidmətinin qeyri-stasionar müəssisəsində dövlət yardımının təqdim olunması metodikasını aid etmək olar. Konkret metodika – sosial işin konkret formasının realizəsində kliyentlə qarşılıqlı hərəkətlərin üsullarının ardıcıllığıdır. Bu formalara ilkin qəbul metodikası, sosial patronaj metodikası və s. aiddir. Xüsusi metodika – xüsusi məsələlərin səmərəli həllini nəzərdə tutan konkret kliyentə yardım göstərmə prosesinin təşkilinə təqdim olunan qaydalar sistemidir. Xüsusi metodika nümunələri kimi yetkinlik yaşına çatmayanlar üçün sosial-bərpa mərkəzində tərbiyə alanın özünəxidmət vərdişlərinin inkişafı metodikası ola bilər.

Sosial işin texnologiyasının məzmununun təşkilati formaları fərdi və qrup formalarına bölünür. Fərdi formalara ilkin qəbulu, söhbəti, məsləhətverməni aid etmək olar. Qrup formalarına sosial patronaj, ailə məsələləri üzrə məsləhətvermə, frontal sorğu, sosial treninq, məşğələ-praktikumlar, kollektiv-yaradıcı işlər aiddir.

İlkin qəbul zamanı sosial iş üzrə mütəxəssis müraciət etmiş vətəndaşı çətin həyat şəraitinə gətirib çıxaran amillər haqda məlumat toplayır. Bu amillərə kliyentin kateqoriyası, yaşı, yaşadığı və işlədiyi yer haqda, o cümlədən, 18 yaşa qədər uşaqların olması haqda məlumat aiddir.

Sosial patronaj – evdə sosial xidmət, kliyentlərə diaqnostik, sosial-bərpa məqsədləri ilə baş çəkmə formasıdır. Sosial patronaj çətin həyat şəraitindən çıxmağa köməklik göstərən ailənin ehtiyatlarını üzə çıxarır.

Sosial diaqnostika zamanı sosial iş üzrə mütəxəssis insanlarla münaisbətdə müvəffəqiyyətin müstəqil əldə olunmasını təmin edən

kliyentin şəxsi ehtiyatlarını, sosial əhatənin ehtiyat imkanlarını üzə çıxarır.

Sosial profilaktika – insanların həyatının normal səviyyəsinin qorunmasına yönəlmiş sosial tədbirlər sistemidir.

Sosial adaptasiya (uyğunlaşma) – kliyentin sosial mühitə fəal daxil olması prosesidir.

Sosial reabilitasiya – kliyentin sosial statusunun bərpasına, onunmaddi müstəqilliyinə nail olmasına dəstək olan metodlar kompleksidir.

Sosial terapiya – kliyentin qabiliyyətinin inkişafına və kompensasiyasına dəstək olan texnikalar cəmidir. Sosial terapiyaya artterapiya aiddir. Artterapiyanın bu növləri mövcddur: biblioterapiya, imaqoterapiya, musiqi terapiyası, kinezeterapiya (rəqs terapiyası, xoreaterapiya, korreksiya terapiyası).

Sosial texnologiyaların çoxlu sayda təsnifi var. Məsələn, idarəetmə strategiyasının axtarışı texnologiyası, sosial modelləşdirmə və proqnozlaşdırma texnologiyası, informasiya texnologiyası, öyrədən innovasiya texnologiyaları, kemiş təcrübə texnologiyası.

Sosial işin texnologiyaları onun praktiki aspektini əks etdirir, həmçinin sosial xidmətlərin və peşə kadrlarının fəaliyyətinin səmərəliliyini təyin edirlər.

Mövzu 17. Sosial işdə sosial diaqnostika və onun tətbiqi metodları

17.1. Sosial iş baxımından, pozitivçilik cərəyanı nümayəndələrinin nəzəriyyə və fikirləri.

17.2. Müasir sosial iş nəzəriyyələri

17.3. Sosial işin sosial-tərbiyəvi səviyyəsi

17.4. Sosial işdə müasir struktur yanaşmanın prinsipləri

17.5. Funksional yanaşma-diaqnostik yanaşmanın alternativi kimi.

17.1. Sosial iş baxımından, pozitivçilik cərəyanı nümayəndələrinin nəzəriyyə və fikirləri.

Sosial iş bir sıra elmlərlə sıx əlaqədədi. Sosiologiya ilə sosial işin sıx qarşılıqlı əlaqəsinin mövcudluğuna baxmayaraq, bu əlaqənin dəqiq aydınlaşdırılması zərurəti daim mövcud olmuşdur. Məsələn, bu əlaqəni sosial işin həm tədris fənni, həm də elm sahəsi kimi dəyərləndirilməsi kontekstində müşahidə etmək bəzi hallarda çətin olur. Həm nəzəri, həm metodoloji, həm də tətbiqi planda bu əlaqənin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Sosial iş nəzəriyyələrinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, onların böyük əksəriyyəti bu və ya digər sosioloji konsepsiya əsasında təşəkkül tapmış və sosial problemlərə tətbiq olunmuşdur.

Həm elmi, həm də tətbiqi planda, bir elm kimi sosiologiyanın predmetinin və tədqiqat obyektinin xüsusiyyətlərini, müxtəlif sosioloji cərəyan və məktəb nümayəndələrinin nəzəriyyə və fikirləri kontekstində öyrənmək səmərəli oladı. Belə nəzəriyyələr sırasına sosiologiyada çox məşhur olan pozitivçilik cərəyanını və onun O.Kont, HŞSpenser kimi məşhur nümayəndələrini aid edirlər. Pozitiv məktəb və onun nümayəndələrinin sosiologiya elmində özünəməxsusluqları onunla bağlıdır ki, onlar cəmiyyətlə əlaqədar mücərrəd fikirlərdən uzaqlaşmaqla, pozitiv sosial nəzəriyyəni yaratmağa cəhd göstərmiş və onun təbiət nəzəriyyələri qədər mühüm və əhəmiyyətli olacağını əsaslandırmağa çalışmışlar. Bununla əlaqədar, klassik pozitivizm sırf nəzəriyyəyə əsaslanmış sosial fəlsəfədən fərqli olaraq, müşahidə, ictimai

proseslərin müqayisəli tarixi-sosioloji təhlili, riyazi metodlar kimi elmi üsullarla öz mövqelərini təsdiqləməyə çalışırdı.

Sosial işdə pozitiv üsul, bir tədqiqat praktikası kimi özünü sosionomların düzgün, konkret biliklərə əsaslanmasında və sosial işin bu və ya digər konsepsiyasının elmi cəhətdən izahında büruzə verir. Bu mənada pozitiv sosiologiya, sosial iş nəzəriyyə və praktikasının empirik əsaslarından birini təşkil edir.

Sosial işin cəmiyyətdə yerinin dərk edilməsi nöqteyi-nəzərindən, pozitivçilərin sosiologiyanın sosial fizika kimi dəyərləndirilməsi təsəvvürləri də çox önəmlidir. Çünki bu təsəvvürlərə rəğmən, cəmiyyət vahid bir sistem, qarşılıqlı əlaqədə olan elementlərin mexanizmi kimi nəzərdən keçirilirdi. Bu baxışları bir qədər sadələşdirmiş olsaq, onda onların sosial iş üçün də əhəmiyyətli olduğunu görmüş olarıq. Bu halda, müvafiq təsəvvürlərə əsasən, sosial iş cəmiyyətin ayrılmaz hissəsi, onun sosial institutu kimi nəzərdən keçirilməlidir.

Lakin sosial işin elmi əsaslarının təmin edilməsi nöqteyi-nəzərindən pozitiv sosiologiyanın imkanlarının məhdud olduğunu da unutmaq olmaz. Bu məhdudiyyət özünü ilk növbədə, sosial köməyə ehtiyac duyan müştəri ilə aparılan, sosial-funksional və psixososial işin əsaslarının başa düşülməsində büruzə verir.

Sosiologiyanın digər klassik paradiqmalarından biri isə-funksionalizmdir. Funksionalizm, cəmiyyətin və sosial əlaqələrin elementlərin ayrı-ayrı fraqmentlərini nəzərdən keçirərkən, onların yerini və rolunu daha geniş əlaqələr sistemində müəyyənləşdirir, bir sözlə onları sistemli şəkildə öyrənir. Bu nöqteyi-nəzərdən əvvəla sosial iş, onun büötvlüyünü və davamlılığını təmin edən, toplumun daha böyük münasibətlər sisteminin bir hissəsi kimi nəzərdən keçirilir. İkincisi, sosial işin özü, müvafiq qurumların, ideyaların, ictimai əlaqələrin fəaliyyət sistemi kimi, həmçinin özünün daxili inkişaf məntiqi olan bir sosial institut kimi nəzərdən keçirilir. Bu zaman sosial iş cəmiyyətin funksiyası (yaxud funksiyalar sistemi) kimi (həm cəmiyyət, həm də şəxsiyyət qarşısında) özünün icbari rolunu oynamalı olur. O, cəmiyyətin sabitliyinə təminat yaradır, problemi olan və köməyə ehtiyac duyan sosial qrup və insanlara konkret fəaliyyət planı təklif edir.

Sosiologiyada funksional üsulun tətbiqinin özünəməxsusluğu E.Dyürkheymin, B.Malinovskinin, A.Radkliff-Braunun və s. əsərlərində öz əksini tapmışdır. Onların fikrincə, funksionalizm, bunun və ya onun mənasız axtarışına son qoymağa şərait yaradır, yəni, mühüm olan ictimai hadisələrin, sosial strukturun elementlərinin funksiyalarının müəyyənləşdirilməsidir.

Tədqiqat nöqteyi-nəzərindən funksionalizm, sosial iş üçün səmərəli olmaqla, onun metodoloji əsaslarını zənginləşdirir, nəzəri və tətbiqi sahələri üçün ümdə əhəmiyyət kəsb edir. Məsələn, sosial iş təsisatlarını və sosial işçilərin funksiyalarını nəzərdən keçirərkən, tədqiqatçı, funksionalizm ideyalarına əsaslanmaqla, onların rollarını, funksional vəzifələrini və həmin vəzifələrin konkret şəraitlərdə gerçəkləşdirə bilmək qabiliyyəti və imkanlarını sistemləşdirə bilər.

Sosial işdə həmçinin funksionalizmin aşkar və gizli, uğurlu və uğursuz funksiyaları ilə əlaqədar müddəalar da xüsusi əhəmiyyət kəsb edir.

17.2. Müasir sosial iş nəzəriyyələri

Müasir şəraitdə optimal sosial texnologiyaların nəzəri əsaslarının hazırlanması, təkvə tətbiqi planda deyil, həmçinin, sosial işin müxtəlif konsepsiyalarının əsaslandırılması, eksperimental praktikanın dəyərləndirilməsi, sosial işçilərin hazırlanması nöqteyi-nəzərindən də xüsusi əhəmiyyət kəsb edir.

Sosiologiya sosial işin struktur sosial iş adlanan nəzəri bölümü ilə daha sıx əlaqədədir. Struktur sosial iş çərçivəsində, sosionomlar, köməyə ehtiyacı olan müxtəlif sosial qruplara dəstək olur, sosial iş təsisatlarının işinin optimallaşdırılması yönümündə iş aparır, cəmiyyətdə sosial siyasətin səmərəli gerçəkləşdirilməsi üçün səylər göstərirlər. bununla əlaqədar, sosioloji analizin obyektivində, sosial mənbələr, psixososial işin həyata keçirilməsi şəraiti-yəni konkret insanlara sosial kömək texnologiyaları durur.

Müasir sosial iş nəzəriyyələrinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, onların böyük əksəriyyəti bu və ya digər sosioloji konsepsiya əsasında təşəkkül tapmış və sosial iş problemlərinə tətbiq

olunmuşdur. Bununla əlaqədar sosiologiya ilə praktiki sosial iş fəaliyyətinin qarşılıqlı əlaqəsini daim diqqət mərkəzində saxlamaq lazımdır.

Müvafiq əlaqənin əyani nümunəsi kimi, ehtiyacı olan ailələrə praktik yardımın göstərilməsi yönümündə sosiologiyanın rolundan qısaca da olsa, bəhs etmək yerinə düşərdi. Bu məqsədlə ilk növbədə, sosial mənşəyindən və statusundan asılı olaraq, ailələri qruplaşdırmaq, onların vəziyyətinin kəskinlik səviyyəsindən asılı olaraq kömək strategiyası hazırlamaq, cəmiyyətin mümkün imkanlarını araşdırmaq, həmçiin həm bütövlükdə ailə kollektivinin, həm də onun ayrı-ayrı üzvlərinin özünümüdafiə imkanlarını nəzərdən keçirmək lazımdır. Köməyə ehtiyacı olan ailələrin sosioloji qruplaşdırılmasının əsas meyarları kimi aşağıdakıları qeyd edirlər:

1. Yaşayış minimumu nəzərə alınmaqla, ailədə adambaşına düşən gəlir;
2. Ailədə uşaqların və himayədə olanların sayı;
3. Bir, yaxud hər iki valideynin olmaması;
4. Ailə üzvlərinin səhhəti;
5. Ailənin yaşlı üzvlərinin əmək qabiliyyəti;
6. Mənzil, əmanət, torpaq sahəsinin mövcudluğu;
7. Ailə üzvlərinin cəmiyyətdə sosial statusu və yeri.

Köməyə ehtiyacı olan sosial qrupların xarakteri nəzərə alınmaqla, sosial işin struktur və psixososial nəzəriyyələri baxımından yuxarıda qeyd olunanlara müəyyən düzəlişlər verilə və əlavələr edilə bilər. Məsələn, sosial işdə ailənin sosial statusu çox da önəmli deyildir, lakin sosiologiyada, əhalini sosial vəziyyətinə görə təsnif etmək üçün bu çox vacib meyardır.

Sosial iş sahəsindəki tədqiqatlar sosioloji göstəricilərə, yaxud sosial gerçəkliyin təhlil metodlarına əsaslanır. Məsələn, risk qrupuna aid kliyentlərin sosial bioqrafiyasını yazarkən, sosial işçilər anket, müsahibə, arxiv sənədləri, avtobioqrafiyalar və digər informasiya toplamaq metodlarından istifadə edirlər. Bütün bunlar isə, sosiologiyada tətbiq edilən mənəvi metodlardır.

Beləliklə, hazırda heç bir sosial iş probleminin həllini sosiologiyasız təsəvvür etmək olmaz.

17.3. Sosial işin sosial-tərbiyəvi səviyyəsi

Sosial iş – sosial pedaqogikanın özü deməkdir. XX əsrdə sosial iş və sosial pedaqogika təkcə ümumi məxrəcə gəlməklə qalmayıb, həm də vahid anlayış kateqorial və elmi-praktiki sahəni formalaşdırır. Sosial işdə sosial pedaqogikanın sistem xüsusiyyətləri müşahidə olunur. Bu iki fənn sahəsinin yaxınlaşması XX əsrin əvvəllərində müşahidə olunur. Tarixən sosial kömək öz qarşısına sosial tərbiyə vəzifəsini də qoyurdu. Sosial işçilər təhsil sisteminin ayrılmaz atributlarıdır. Sosial işçilər şagirdlərin dərs buraxmalarının səbəblərini araşdırırlar. Pedaqoji sahədə sosial işin rolu təkzibedilməzdir.

Sosial işdən fərqli olaraq pedaqoji sahənin hərtərəfli inkişafı, ölkəmizdə bu iki sahənin məhsuldar əməkdaşlığına möhkəm zəmin yaradacağına təminat verir.

Tarixən elə olmuşdur ki, sosial iş, təkcə lazımi köməyin föstərilməsi ilə qalmayıb, həmçinin əhalinin müxtəlif kateqoriyaları arasında, lazımi sosial stereotipləri də formalaşdırmışdır. Məsələyə bu cür baxış, belə bir fərziyyə irəli sürməyə əsas verir ki, sosial iş-təkcə sosial pedaqogika deyil, sosial iş – elə sosial pedaqogikanın özü deməkdir.

Tərbiyə prosesi obyektiv olaraq dövlət, cəmiyyət və mühit fenomenləri ilə bərabər mövcud olur. Müxtəlif tarixi dönəmlərdə, onların inkişaf müxtəlifliklərı tərbiyə prosesinə də öz təsirini göstərmişdir. Zaman keçdikcə tərbiyə prosesi, müxtəlif idrak modellərinə çevrilmiş və bu modellərdən biri də sosial pedaqogika olmuşdur.

Sosial pedaqogikanın tarixi köklərini qədim dövrlərdə axtarmış olsaq, səhv etmərik. Bu elmin ilk nəzəri üsullarını məşhur yunan filosofu Platonun əsərlərində müşahidə etmək olar. Platon şəxsiyyətin fərdi inkişafını dövlətin idealları kontekstində nəzərdən keçirməyi təklif edirdi. Ona görə, fərdlə dövlət eyniləşdirilməlidir. Normalara uyğunlaşmaq, topluma qarşı normativ münasibətin tərbiyə edilməsi,

sosial tərbiyyənin ilkin prinsipinə çevrilir. Sonralar Platonun nəzəri müddəaları Kant, Fikte, Frebel və Natorp tərəfindən daha da genişləşdirilmiş və Natorp hətta "Sosial epdaqogika" adlı əsərdə yazmışdır.

XX əsrdə sosial iş və sosial pedaqogika təkcə ümumi məxrəcə gəlməklə qalmayıb, həm də vahid anlayış kateqorial və elmi-praktiki sahəni formalaşdırır.

Sosial işdə sosial pedaqogikanın sistem xüsusiyyətləri müşahidə olunur. Bu məqam daha qabarıq şəkildə gənclərin sosiallaşması və resosiallaşması işində özünü büruzə verir və sosial işin eyni zamanda sosial pedaqogika olduğu mülahizəsini də təsdiqləyir. Bu iki fənn sahəsinin yaxınlaşması XX əsrin əvvəllərində müşahidə olunur və müvafiq yaxınlaşmanın əsas səbəbi ondan ibarət idi ki, ictimai münasibətlərdə tərbiyə vasitəsi ilə ahəngdarlıq əldə etmək barəsindəki romantik təsəvvürlər özünü doğrultmurdu. Sosial siyasət kontekstində tərbiyəvi imkanlar, azad şəxsiyyətin formalaşdırılması işinin faktorlarından biri kimi qeyd olunur və bu şəxsiyyətin toplumda dəyişikliklər aparmağa qabil olduğu vurğulanır. Məsələn, P.Natorp qeyd edirdi ki, "şəxsiyyətin özünüqiymətləndirməsi, onun özünü ictimai işə həsr etməsində daha güclü şəkildə büruzə verir və elə məhz buna görə də, şəxsiyyətin fərdin azad olmaq istəyi sosial işə doğry yönəlməli, onun yekun məzmununu isə sosial təhsil təşkil etməlidir".

Sosial köməyin sosial-tərbiyəvi funksiyası təkvə infatisid məsələsi ilə məhdudlaşmırdı. Tərbiyəvi istiqamət öz parlaq əksini böyüklərin tərbiyələndirilməsi üzrə monastırların fəaliyyətində tapır. Dindarlar xəstə, kimsəsiz və yoxsul insanları ziyarət edir, onlara öz mərhəmətlərini nümayiş etdirirdilər. Din insanları bir-birləri ilə barışıq və məhəbbət hissi ilə yaşamağa çağırır, ehtiyacı olanlara mərhəmət göstərməyi təlqin edirdi.

Beləliklə, sosial işin sosial-tərbiyəvi səviyyəsinin dərin tarixi kökləri və ənənələri mövcud olmuşdur və bəşəriyyətin müxtəlif inkişaf mərhələlərində bu ənənələr cəmiyyətin bütün üzvlərinin tərbiyələndirilməsi üzrə əsas pedaqoji vasitə və metodlar kimi çıxış etmişdir.

XX əsrdə “sosial” anlayışı, insanın yeni düşüncə tərzinə və baxışına çevrilir. Məhz bu dövrdə müxtəlif ictima fenomenləri, o cümlədən tərbiyə və dəstək fenomenlərini özündə birləşdirən universal paradiqmalara yaranır. Nəticədə sosial işlə sosial pedaqogikanın yaxınlaşması baş verir.

Bu iki elm sahəsinin anlayış aparatının inteqrasiyası, təkcə kliyentə ümumi yanaşma üsulu, fəaliyyətin təşkili prinsipləri əsasında deyil, həmçinin ümumi qarşılıqlı əlaqə texnika və metodikalarından istifadə olunma əsasında baş verir.

Sosial pedaqogika, sosial iş nəzəriyyəsinin məzmun və mahiyyətini nəzərəçarpacaq dərəcədə zənginləşdirmiş, onun kateqorial aparatının hüdudlarını genişləndirmişdir.

Müasir şəraitdə əhalinin sosial müdafiəsi ilə məşğul olan sosial iş strukturlarının əksəriyyətində sosial pedaqoq vəzifəsi ən çox ehtiyac duyulan peşələrdən biridir. Sosial pedaqoq öz fəaliyyətində bir sıra mühüm vəzifələri yerinə yetirməli olur:

-maddi köməyin göstərilməsi (pul vəsaiti, təqaüdlər, güzəştlər, məişətdə kömək);

-sosial qayğının təşkili (adamlarla iş, əməkdaşların seçilməsi, yoxlama, aparıcı təcrübənin təbliği);

-insana təsir.

İnsana təsir – pedaqoji və psixoloji təsir prosesidir və adətən bu vəzifəni sosial pedaqoq, sosial işçi ilə bir yerdə yerinə yetirir.

Sosial pedaqoq, uşağın və yeniyetmənin müdafiəsi sahəsində işləməklə ona sosial və tibbi kömək göstərir, onun təhsilinin təşkilinə dəstək verir, reabilitasiya və adaptasiya üçün səylər göstərir.

Müxtəlif ölkələrdə sosial pedaqoqun məktəbdə işlə əlaqədar 2 istiqaməti mövcuddur: sosial işçi ya məktəblə yaxından əməkdaşlıq edir, ya da məktəbin tamştatlı işçisi olur.

Sosial işçilər həm məktəblilərə, həm də onların valideynlərinə kömək göstərməyə çalışırlar. Evdə və məktəbdə valideynlərlə görüşərkən onlar valideynləri uşaqlarına verilmiş təhsil imkanlarından

bütünlüklə istifadə etməyə çağırır, uşağın təhsilinə mənfi təsir göstərən problemlərin həlli ilə əlaqədar ailəyə köməkçi olacağını təsdiqləyir.

Təhsilin sosial təminatı xidmətlərin müəllimlərin dərslərinin davamlı yoxlanılmasının təşkilinə də cavabdehdirlər.

Sosial işçilərin xüsusi diqqət yetirib, qayğı göstərdikləri digər qrup uşaqlar valideynləri tərəfindən zorakılığa məruz qalan, emosional gərginliklər ucbatından fiziki və təlimlə bağlı inkişafdan geri qalan uşaqlardır. Belə uşaqlara kömək məqsədi ilə, bütün səriştəli mütəxəssislər – psixoloqlar, hüquqşünaslar, tibb işçiləri, polis cəlb olunur. Dərslərində geriləmə olmasın deyə sosial xidmət həmin uşaqlar üçün xəstəxana və ev şəraitində təlim təşkil edir. inkişafında müəyyən problemləri olan uşaqların adi məktəblərə inteqrasiya edilməsi prosesində sosial təminat xidməti işçilərinin rolu təkzibedilməzdir. Belə uşaqlar və onların valideynləri qarşısında sosial işçilər xüsusi məsuliyyət hiss edirlər.

Bu xidmətin digər funksiyaları arasında davranışları ilə əlaqədar birdəfəlik və müvəqqəti olaraq məktəbdən uzaqlaşdırılmış uşaqlara qayğını, uşaqları digər tədris müəssisəsinə düzəltməklə əlaqədar valideynlərə göstərilən köməyi, milli azlıqlardan olan uşaqlara başqa şagirdlər sırasına adaptasiya olunmaq məqsədilə köməyin göstərilməsini, onlar arasında normal münasibətlərin yaradılmasını və saxlanmasını, dərs zamanı qeyri-qanuni olaraq işə cəlb olunmuş uşaqların araşdırılmasını, onların tədris məsələlərinin həll olunmasını, uşaqlar tərəfindən uşaq qrupları və mərkəzlərində onların iştirakının müşahidə edilməsini, uzunmüddətli dərs buraxma hallarının səbəblərinin araşdırılması və əgər həmin səbəblər xəstəliklə, yaxud valideynlərin amansız rəftarı ilə əlaqədardırsa, köməyin göstərilməsini, məktəbdən kənarda (evdə, müalicə müəssisələrində) təhsil alan uşaqlaırn dəstəklənməsini, məktəblilər üçün nəzərdə tutulmuş sosial güzəştlərdən (məktəb formasının alınması üçün nəzərdə tutulmuş maddi vəsait, nəqliyyat xərcləri, pulsuz yemək və s.) istifadə olunması üçün yardımın göstərilməsini qeyd etmək olar.

Əksər Qərb ölkələrində tərbiyə işləri üzrə müdir vəzifəsi yoxdur və uşağın tərbiyəsi ilə əlaqədar əsas məsuliyyət ailənin üzərinə düşür. Qərb

ölkələrində sosial pedaqoq anlayışından da istifadə olunmur və onlar yalnız sosial işçi terminində üstünlük verirlər.

ABŞ-da isə bir qədər fərqli mənzərə müşahidə etmək olar. Məsələn, bu ölkədə polis məktəblilərlə əlaqədar qanun pozuntuları ilə məşğul olur, profilaktik tədbirlər həyata keçirir. Hüquq mühafizə orqanları əməkdaşları uşaq bağçalarına, məktəblərə gedir, orada faydalı söhbətlər aparırlar. Uşaqlarla əlaqəli olan polis işçiləri mütəmadi olaraq məktəblərə gedir, uşaqlarla oynayır, onların problemləri ilə maraqlanır və onların aradan qaldırılmasında uşaqlara yardımçı olurlar.

Beləliklə, kimlərin hansı formada gerçəkləşdirməsindən asılı olmayaraq, pedaqoji sahədə sosial işin rolu təkzibedilməzdir.

17.4. Sosial işdə müasir struktur yanaşmanın prinsipləri

Sosial işdə müasir struktur yanaşmanın prinsipləri sosial işçilərin fəaliyyətini tənzim edən sənədlərdə çox aydın şəkildə əks olunmuşdur. Məsələn, sosial işçilərin Britaniya Assosiasiyasının (BASW) diplomlu sosial işçiləri üçün 1990-cı ildə qəbul etdiyi tələb və qaydalarda göstərilir ki, sosial işçi ixtisasına yiyələnmiş mütəxəssis (CCETSW, 1990):

1. Cəmiyyətdə istismar prosesləri ilə irqi, sinfi və cinsi məsələlər arasındakı daxili əlaqələrdə dərketməni inkişaf etdirmək;
2. Cinsi, yaş fərqləri, dini və məzhəb mənsubiyyəti əsasında, şikəstlik, "natamamlıq" (bacarıqsızlıq və yoxsulluq faktlarına görə stiqmatizasiyanı və diskriminasiyanı anlamaq və onlara müqavimət göstərmək);
3. Fərdi və ya institusional irqçiliyi, antiirqçilik təcrübələrinin köməyi ilə onlarla mübarizə aparmağın yollarını dərketməni nümayiş etdirmək;
4. Hüquqi ayrı-seçkiliyə və istismara qarşı yönəlmiş siyasət və praktikaların zəruriliyini dərk etmək və onların inkişafına imkan yaratmaq qabiliyyətinə malik olmalıdır.

Bu yanaşmaya görə bütün sosial işçilər dərk olunmuş peşəkar treninqin gedişində işlədikləri cəmiyyətdə fəaliyyət göstərən iqtisadi,

sosial və siyasi qüvvələrin başa düşülməsini inkişaf etdirməlidirlər. Bununla yanaşı, nəzərdə tutulur ki, onların bu biliklərə uyğun şəkildə quracaqları fəaliyyətlərində sosial işin kliyentləri ola biləcək insanların həyatını, seçimini və imkanlarını formalaşdırsan strukturlar haqda biliklər də nümayiş etdirəcəklər. Struktur yanaşmada sosial elmlərin (sosiologiyanın, politologiyanın və sosial siyasətin) izi aydın görünür. Bu yanaşmanın nümayəndələri sosial işçilərin peşəkar nəzəri və praktiki hazırlığı zamanı ictimai quruluşun strukturu və funksiyaları haqda biliklərin rolunu qiymətləndirməmək tendensiyasını tənqid edirlər.

Cəmiyyət həyatında qeyri-iradi, dərk olunmayan diskriminasiya və incitmə faktlarının və təcrübəsinin də ictimai etirafı vacib məsələdir.

Struktur yanaşmanı tətbiq etmək üçün sosial iş vəziyyətin təhlilini aparmalıdır. Belə təhlil bir neçə səviyyədə aparılır.

Struktur səviyyə bərabərsizlik fenomenləri və faktlarının, onların sosial, sinfi, cinsi, yaş, etnik, dini, psixoloji (məsələn, "əqli gerilik") və fiziki fərqlər əsasında möhkəmləndiyini anlamaqdan ibarətdir.

Təşkilati səviyyə tələbatın, resursların və onların tələbatlara görə bölgüsünün təhlilindən; kliyent və ya qrupun düşdüyü vəziyyətin mürəkkəblik dərəcəsinin təhlilindən; sosial işçinin müdaxiləsinin kliyentin zəruri resurslara çatmasını təmin edə biləcəyinə kömək edən yolların toplanmasından ibarətdir.

İnteraksion və ya psixososial səviyyə kliyent və ya qrupun çətinliklərinin həm xarici struktur qüvvələrin, həm də şəxsi xüsusiyyətlərin təsir effekti baxımından necə anlaşılmasından ibarətdir.

17.5. Funksional yanaşma-diaqnostik yanaşmanın alternativi kimi.

Tarixən funksional yanaşma Amerika sosial iş nəzəriyyəsi və praktikasında daha əvvəl yaranmış diaqnostik yanaşmanın alternativi kimi meydana gəlmişdir. Nəzəriyyəçilərə görə əgər diaqnostik yanaşma sosial işdə psixososial determinizmin Freyd modelinin istifadəsi ilə əlaqələnirsə, funksional yanaşma O.Rankin modeli və sonralar da ona qoşulmuş yaxın modellərlə əlaqələndirilir. V.Yela bunu belə təsvir edir: "İnsanı xarici və daxili qüvvələrin məhsulu kimi dəyərləndirən bir baxışı

onu taleyinin yaradıcısı, xarici və daxili təcrübədən kreativcəsinə istifadə edərək öz təcrübəsini inteqrasiya etməyə qadir varlıq kimi baxan pozitiv, ümüdverici baxış əvəz etdi. Xəstəlik psixologiyasından imtina olundu, onun yerini tutan pozitiv insani potensiala və dəyişməyə qabil olan psixologiya sosial işin yeni metodu üçün impuls və istiqamət verdi. Diaqnostik yanaşmanın keçmiş təcrübəyə münasibətdə tutduğu yanlış mövqedən imtina etmiş funksionalizm indiki təcrübəni və bu təcrübənin inkişaf üçün olan potensialını vurğuladı. Müalicə konsepsiyası servis konsepsiyası ilə əvəz olundu. Servis – yardım prosesi olub, yardım göstərən sosial işçi ilə bu prosesin determinantı olan kliyent arasında dinamik qarşılıqlı münasibətdir". Dəyişikliklər mərkəzi kimi artıq sosial işçi-terapevt deyil, kliyent çıxış edirdi. Hətta ilkin olaraq hadisə ilə işdə psixodinamik yanaşmadan istifadə edən sosial işçini nəzərdə tutan "caseworker" termini diaqnostik işdən fərqli olaraq "hadisə ilə funksional iş" adlandırıldı, çünki vəziyyətin təsviri təhlilini deyil, onunla iş prosesini əks etdirirdi.

Kliyentin şəxsiyyətinin inkişafının və həyat yolunun qlobal parametrlərinin qiymətləndirilməsini nəzərdə tutan diaqnostik yanaşmadan fərqli olaraq, funksional yanaşmada diqqət kliyentin ümumi probleminin fraqmenti – faza üzərində mərkəzləşirdi. Ümumiyətlə, kliyentin problemi konkret xidmətin, sosial iş agentliyinin imkanlarına uyğun olaraq müəyyənləşdirilirdi. Nəzəriyyə və praktika göstərdi ki, kliyentin konkret real, xüsusi probleminin həlli ondan özünün digər problemlərinin də öhdəsindən gəlməyə imkan verəcək enerjinin ayrılmasına səbəb olur. Funksional yanaşma Eqo-nun gücləndirilməsi prinsipinə əsaslandığı üçün psixodinamik mahiyyət daşıyır. Bu yanaşma, eyni zamanda kömək edən şəxslə cari münasibətləri vurğulayır; burada müqavimət, daxili konfliktlər, əks-arzular proseslərinin vacib rolu və qaçılmazlığı da etiraf olunur; lakin konsultasiya və sosial iş sahəsində aaparıcı mütəxəssis olan R.Nelson-Consa görə, diaqnoz (söhbət psixoanalitik deyil, sosial-psixoloji diaqnozdan gedir) kliyentin özü tərəfindən həyata keçirilən bir prosesdir. Bu zaman kliyent sosial işçi tərəfindən həyata keçirilən bir prosesdir. Bu zaman kliyent sosial işçi tərəfindən təqdim olunan xidmətdən istifadə edir. O, bu xidmətdən istifadə və öz problemləri ilə iş prosesində qarşılaşdığı şərtləri və məsuliyyəti qəbul, yaxud inkar edərək öz qabiliyyətlərini və

ehtiyaclarını dəyərləndirir. Sosial işçilər diaqnoza və sosial iş xidməti ilə kliyent arasındakı münasibətlərin nəticəsinə görə deyil, öz şəxsi imtiyazlarına və yardım resepientinə davamlı şəkildə alternativləri görməyə, onlara açıq olmağa imkan yaradan prosesə, qayğıya görə məsuliyyət daşıyırlar. Şübhəsiz ki, işçinin diaqnostik müşahidələri barədə kliyentə məlumat verilə bilər, lakin bu müşahidələr yardım prosesinin nə əsasını, nə də mahiyyətini təşkil edir.

Mövzu 18. Sosial işdə profilaktika adaptasiya, reabilitasiya və terapiya vasitələrinin tətbiqi.

18.1. Sosial profilaktika

18.2. Profilaktik söhbət

18.3. Sosial adaptasiya

18.4. Sosial reabilitasiya

18.5. Sosial terapiya

18.1. Sosial profilaktika

İstənilən neqativ prosesin inkişafının qarşısını ilkin mərhələlərdə almaq üçün mühüm vasitə olmaqla, profilaktika daha az funksional itkilərlə problemin kəskinliyini aradan qaldırmağa və prosesi başqa, daha münasib məcraya yönəltməyə imkan verir. Beləliklə, profilaktik təsirin məqsədinə nail olmaq mümkün olur.

Sosial profilaktika – sosial obyektə onun funksional vəziyyətini qorumaq və həyat fəaliyyətində mümkün neqativ proseslərin qarşısını almaq məqsədilə elmi cəhətdən əsaslandırılmış və vaxtında tətbiq edilmiş təsirə deyilir. Onun effektivliyi daha çox təsir subyektinin professionallığı və profilaktik işin kompleks xarakteri ilə müəyyən olunur. Sosial profilaktika şəxsiyyətin qanunçuluğa, əxlaqi prinsiplərə əsaslanmış normal sosiallaşma prosesinə zəmin yaradır. Bununla da ailələrdə əmin-amanlığın, bütövlükdə isə cəmiyyətdə sosial sabitliyin əsası qoyulur. Bu baxımdan "profilaktikaya bütün əhalinin ehtiyacı var" fikri ilə razılaşmamaq olmaz. Lakin onun tətbiqinin prioritet istiqamətləri də mövcuddur, əhalinin bu baxımdan belə xidmətə daha çox ehtiyacı olan təbəqələri var. Bu qəbildən olan sosial qruplara uşaqları, yeniyetmələri, əlilləri, qocaları, antisosial həyat tərzi ilə fərqlənən, eləcə də müvəqqəti çətinliklərə məruz qalan şəxsləri və b. aid etmək olar. Profilaktik iş əhalinin həmin kateqoriyalarının sosial vəziyyətini, statusunu, cəmiyyətin bir çox sosial problemlərinin aradan qaldırılması tələbatlarını nəzərə almaqla qurulur.

Deviant davranışın, nəzarətsizliyin və kimsəsizliyin, ailə uğursuzluğu və zorakılığın, işsizliyin və s. profilaktikasını sosial işdə istifadə olunan mühüm profilaktika növlərinə aid etmək olar. Sosial deviasiyanın əsas komponentləri olan cinayətkarlığın, alkoqolizmin, narkomaniyanın, toksikomaniyanın, suisidin, əxlaqsız davranışın profilaktikası ilə yanaşı, müasir rus cəmiyyətində nəzarətsizliyin və kimsəsizliyin profilaktikası xüsusi aktuallıq kəsb edir. Son 10 ildə bu cür uşaqların və yeniyetmələrin sayının əhəmiyyətli dərəcədə artması müşahidə olunur və bu da təəccüblü deyildir. Belə ki sosial ixtişaşlar, ictimai qurumun dəyişilməsi və vətəndaş münaqişələri dövrü üçün belə bir tendensiya xarakterikdir. İndiyədək ölkəmizdə nəzarətsizliyin və kimsəsizliyin sayı barədə dəqiq statistik məlumat yoxdur.

Sosial profilaktikanın metodlarına aşağıdakıları aid etmək olar:

- Profilaktik məlumat və məsləhətverici söhbət
- Sistemli müşahidə
- Profilaktik treninq
- Yeni vərdişlərin, davranış modellərinin sosial mühitin dəstəyi və stimullaşdırılması metodu
- Konflikt şəraitinin qabaqcadan neytrallaşdırılması metodu
- Profilaktik müdaxilə metodu və s.

18.2. Profilaktik söhbət

Ən geniş istifadə olunan metod – profilaktik söhbət üsuludur. Həmin söhbət onun texnoloji mərhələlərinə riayət edildiyi təqdirdə effektiv ola bilər. İlkin mərhələfə sosial iş üzrə mütəxəssis, sosial psixoloq və ya sosial pedaqoq xeyirxahlıq, şəfqətə xüsusi nəzakət göstərərək həmsöhbəti ilə emosional əlaqə yaradır. İkinci mərhələdə konsultant (məsləhətçi) müvafiq suallar vasitəsilə yaranmış problemlərin səbəblərini aydınlaşdırmağa çalışır (məsələn, deviant davranışın həqiqi motivlərini). Söhbətin üçüncü mərhələsində, məsləhətçi kliyentlə birgə hadisələrin neqativ inkişafının qarşısını almağa imkan verə biləcək yeni davranış modelini formula etməyə səy göstərirlər. Söhbətin dördüncü – yekun mərhələsində məsləhətçi öz həmsöhbəti tərəfindən yeni davranış

modelinin və problemin digər anlamında, eləcə də məvəffəqiyyətlə həvəsin daxili qəbuluna nail olmalıdır.

Profilaktik söhbət valideynlərin uşaqlara münasibətdə sui-istifadələrinin qarşısını almaq üçün görülən tədbirlər sistemində də istifadə olunur. Burada valideynlərin uşaqların yaş xüsusiyyətlərinə, müxtəlif yaş dövrlərində uşaqlarla münasibətin spesifikasına aid məsələlərdə, hüquqi, eləcə də uşaq hüquqlarının müdafiəsinə dair məsələlərdə maarifləndirilməsi mühüm rol oynayır.

Profilaktik söhbət üsulu "inam telefonu"nun iş praktikasında da istifadə olunur. Burada işləyən peşəkar məsləhətçilərin səyi nəticəsində hadisələrin təhlükəli inkişafının qarşısını almaq, özünə qəsd etmək istəyənləri fikrindən daşındırmaq, münaqişənin gərginliyini azaltmağa kömək etmək və s. mümkün olur.

Profilaktik məlumat-məsləhət xarakterli söhbətin mühüm əhəmiyyətinə baxmayaraq, nəzərə almaq lazımdır ki, bu söhbətin səriştəsiz və zəhlətökənliklə aparılması əks-effekt verə bilər. Bu, xüsusən də misal üçün, narkomaniyanın profilaktikası problemi ilə bağlı söhbətlərə aid edilə bilər. Bizim ölkədə və xaricdə keçirilən xüsusi tədqiqatlar göstərmişdir ki, informasiya xarakterli yanaşma burada öz effektivliyini az göstərir.

Profilaktik təsir metodlarının düzgün seçilməsi, onların vaxtında və peşəkarlıqla həyata keçirilməsi sosial profilaktikanın səmərəliliyini təmin edir. Bu isə sosial işdə bu və ya digər sosial proseslərin arzuedilməz inkişafının qarşısının alınması, insanların normal və sağlam həyat səviyyəsinin saxlanılıması və müdafiə edilməsi deməkdir. Profilaktika, cəmiyyəti və şəxsiyyəti davamlı neqativ hadisələr və proseslərə qarşı yönəldilmiş xərclərdən ciddi səylərdən qorumağa imkan verir. Axı, neqativ prosesin gələcək inkişafını qabaqlamaq və qarşısını almaq sonradan onun nəticə və təzahürlərinə əks-təsir göstərib, ona qalib gəlməkdən asandır.

18.3. Sosial adaptasiya

Sosial adaptasiya mürəkkəb və çoxsəviyyəli proses olmaqla, insanın həyat fəaliyyətinin müxtəlif sahələrində həyata keçirilir. Bir proses kimi o, çətin həyat şəraitinə düşmüş şəxsiyyətin və ya sosial qrupun real sosial mühitə uyğunlaşmasını ifadə edir. Sosial adaptasiya prosesi, şəxsiyyətin (sosial qrupun) belə bir vəziyyəti dərk etməsindən başlayır ki, əvvəlki davranış nailiyyətlər əldə etmək üçün yaranır və yeni sosial şəraitin tələblərinə uyğun olaraq davranış vərdişinin dəyişməsi zəruridir. Davranış nümunələrinin dəyişilməsi üçün isə şəxsyyətin özünün fəal mövqeyi labüddür. Yuxarıda deyilənləri nəzərə alaraq "adaptasiya" anlayışına daha əsaslı tərif vermək olar. *Sosial adaptasiya* – şəxsiyyətin və ya sosial qrupun yeni həyat fəaliyyəti mühitinə onun fəal mənimsənilməsi yolu ilə uyğunlaşması prosesidir.

Sosial işdə insanın inkişafına təsir edən müxtəlif adaptasiya növlərini nəzərə almaq vacibdir. Bəzi alimlər, bir sıra dərsliklərin müəllifləri də daxil olmaqla, insan adaptasiyasının dörd əsas növünü və ya səviyyəsini ayırırlar: bioloji, fizioloji, psixoloji, sosial.

Sosial adaptasiya prosesi konkret tarixi xarakter daşıyır. Buna görə də şəxsiyyətin və ya sosial qrupun səyləri, onların dəyişmiş sosial mühiti mənimsəmə imkanları bir çox hallarda dəyişikliklərin özünün istiqamətindən, ölkədəki sosial-hüquqi və əxlaqi şəraitdən asılıdır.

Ümumiyyətlə, bizim hər birimizə yaşadığımız real cəmiyyətdə dəfələrlə bu və ya digər həyat fəaliyyəti proseslərinə uyğunlaşmaq lazım gəlir. İlk növbədə bu cür uyğunlaşma əmək münasibətləri, şəxsi-məişət, mədəni və asudə vaxt sahələrində tələb olunur. Odur ki, alimlər haqlı olaraq sosial adaptasiyanın üç əsas növünü (səviyyəsini) göstərirlər: istehsal, məişət və asudə vaxt.

Praktik sosionomiyada adaptasiya yalnız proses kimi deyil, həm də sosial texnologiya kimi də özünü göstərir. Adaptasiyanın səbəbi yeni sosial şəraitlə bağlı şəxsiyyətin və ya şəxslər qrupunun sosial vəziyyətinin və durumunun dəyişməsi ola bilər (işini itirməsi, təqaüdə çıxması, köçmə və ya məcburi mühacirət, şikəst olma, hərbi əməliyyatda iştirak və s.). Çətinləşmiş sosial şərait, şəxsiyyətin (qrupun) sosial statusunun dəyişməsi sosial adaptasiyanın sosial işlə bağlı əsas istiqamətlərinin təsnifindəxüsusi meyar kimi çıxış edir. Bu istiqamətlərə aşağıdakıları aid etmək olar: yetim uşaqların (uşaq evlərinin

məzunlarının) müstəqil həyata uyğunlaşması; əlillərin və təqaüdçülərin yeni həyat tərzinə adaptasiyası; hərbi toqquşma iştirakçılarının, zorakılığa məruz qalmış, fəlakətə uğramış insanların, işsizlərin, mühacir, qaçqın və məcburi köçkünlərin, həbsxanalardan azad olunmuş məhbusların adaptasiyası və s. Yuxarıda sadalananların hamısının vacib olmasına baxmayaraq, birinci istiqamətə xüsusi diqqət yetirmək daha zəruri hesab edilir. Axı ölkənin gələcəyi uşaqlar və gənclərdir. Cəmiyyətin uşaqlara, xüsusən də onların ən zəif təbəqəsi olan yetimlərə münasibətinə görə bütövlükdə ölkənin, hüquqi səlahiyyətliyi və sosiallığı haqqında fikir söyləmək olar. Halbuki, uşaq evləri məzunlarının əksəriyyətinin taleyi hələ də onların öz problemləri olaraq qalır.

Qeyd etmək lazımdır ki, yetim uşaqların – öz evlərində tərbiyə olunanların adaptasiyası ilə bağlı son dərəcə gərgin vəziyyət yalnız uşaq evləri və internatlarda yaşayanların say tərkibinin natamamlığı ilə deyil, həm də adaptasiya-reabilitasiya yönümlü ixtisaslaşdırılmış sosial müəssisələr şəbəkəsinin inkişafı üzrə maliyyə imkanlarının məhdudluğundan irəli gəlir. Bundan əlavə plkənin ümumi ictimai-iqtisadi durumu (vəziyyəti), durğunluq şəraiti, fəhlə ixtisaslarının nüfuzunun dəyişməsi, sahibkarların "yetimlərə baş qoşmamaq" meyli, abad yataqxanaların olmaması və başqa səbəblər problem daha da kəskinləşdirir. Bütün bu cəhətlərə baxmayaraq, mütəxəssislər və uşaq evlərinin, internat-məktəblərin çoxunun işçiləri öz şagirdlərinə real həyatın sərt şəraitinə uyğunlaşma bacarığını öyrətməyə çalışırlar. Asudə vaxt sahəsində fərdi maraqların inkişaf etməməsi yeniyetmənin cəmiyyətə zidd mühitə cəlb olunmasının səbəbi ola bilər. Bunu nəzərə alaraq, yetim uşaqlara öz məişətini təşkil etməyi, sağlamlıqlarının qeydinə qalmağı, asudə vaxtını mədəni keçirməyi öyrədirlər. Çox vacibdir ki, uşaq evlərinin və internatların məzunları məktəbdə, insan həyatının başqa sahələrində özlərini, öz "mən"lərini tapa bilsinlər. Uşaqlara əməyə məhəbbət hissinin aşılanması, əməkdən zövq almağı öyrətmək onların adaptasiya hazırlığının əsas komponentini təşkil edir. Şəhərətrafı qəsəbələrdə və kəndlərdə yerləşən uşaq evlərinin şagirdləri bu cür adaptasiyanın faydalı təcrübəsini keçirlər. Peşə və lazımi yaşayış yeri almışməzun müxtəlif təxribatlara uymayaraq gələcək taleyini qurmağa imkan verən zəruri əsas əldə etmiş olur.

Həyatımızın reallıqları bundan ibarətdir ki, uşaq evləri və internatların məzunlarının əksəriyyətinin nə yaşayış yerləri olur, nə də ətrafdakılar tərəfindən lazımi şəkildə başa düşülmürlər. Çox vaxt onlar öz sualları və problemləri ilə əlaqədar hara müraciət edəcəklərini bilmirlər. Mütəxəssislərin fikrincə, yeniyetmənin uşaq evind davranışı müəssisənin hüdudlarından çıxandan sonrakı davranışının imkanlarını proqnozlaşdırmaq üçün kifayət deyildir. Əldə edilmiş müsbət keyfiyyətlər əlverişsiz şəraitdə itirilə də bilər. Bu problemin əhəmiyyətini anlayaraq ölkənin bir sıra regionlarında yeniyetmələrin adaptasiyası və reabilitasiyası məsələlərində sosial kömək, yardım göstərən ixtisaslaşdırılmış ərazi adaptasiya mərkəzləri yaratmaqdır.

Sosial adaptasiya metodlar sisteminə sosial iş texnologiiyalarının digər funksional prosedurlarının reallaşmasında tətbiq olunan metodlar daxildir. Məsələn, adaptasiyanın gedişində məlumat-məsləhətverici söhbət universal metodu, sosial profilaktikada istifadə olunan yeni vərdişlərin, davranış modellərinin və sosial mühitin dəstəyi və stimullaşdırılması üsulu, eləcə də sosial terapiyaın həyata keçirilməsi metodlarına aid olan nağıl terapiyası metodlarından istifadə oluna bilər. Bundan əlavə, sosial adaptasiya praktikasında adaptasiya treninqləri, şəxsi sosial patronaj metodu və b. işlənilir.

Uşaq evlərinin məzunları olan yetim uşaqların adaptasiyası mövzusunun davamı kimi qeyd edək ki, onun həyata keçirilməsi üsulundan biri də, şəxsi sosial patronaj metodudur. Onun mahiyyəti uşaqlara ünvanlı sosial, hüquqi, psixoloji və tibbi yardım göstərməkdən ibarətdir.

Özünəməxsus şəxsi sosial patronaj məktəblərdə təhsilə başlayan uşaqların çoxunun ehtiyacı var. Gizli deyil ki, məktəbdə təlimin, demək olar ki, bütün birinci ilini uşaqlar müəllimin tələblərinə uyğunlaşmağa və yeni davranış tipinin mənimsənilməsinə sərf edirlər. Məktəblilərin bir qismi yeni şəraitə tez və böyüklərin köməyi olmadan öyrənir, digərlərinə isə bunun üçün uzun müddət kömək tələb olunur. Həyəcanlılıq dərəcəsi yüksək olan uşaq özünü hər an təhlükədə hiss edib, lövhədə cavab verməkdən çəkinir. Psixoloqların fikrincə, belə davranış uzun müddət davam edərsə, şagird pis oxuyanlar sırasına düşür. Müəllimin neqativ münasibəti idrak maraqlarının itirilməsi ilə nəticələnə bilər. Belə uşağa

xüsusi diqqət, sosial hamilik, onun məktəbdə tədris prosesinin tələblərinə və şəraitinə daha tez uyğunlaşması səbəb ola bilər.

Qeyd edilən üsulların sistemli və peşəkarcasına tətbiqi şəxsiyyətin və ya sosial qrupun uğurlu adaptasiyasının təmin edilməsinin rəhnidir. Yeni sosial mühitin fəal mənimsənilməsi yeni həyat şəraitinə, dəyişilmiş ictimai mövqeyə məişət çətinliklərinə, peşə fəaliyyətinin xüsusi tələblərinə tez və az itkilərlə uyğunlaşmağa imkan verir.

18.4. Sosial reabilitasiya

Reabilitasiya sosial texnologiyaların ayrılmaz komponentidir. Sosial reabilitasiiya insanın öz hüquqlarının, ictimai mövqeyinin bərpası, onun sağlamlığının, iş bacarığının yaxşılaşması istiqamətində görülən kompleks tədbirlərə deyilir. Həmin proses, eyni zamanda bu və ya digər səbəblərdən pozulmuş və ya məhdudlaşdırılmış həyat şəraitinin, sosial mühitin dəyişdirilməsinə yönəldilib.

Sosial reabilitasiyanın həyata keçirilməsi onun əsas prinsiplərinə əməl olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Bunlara aşağıdakları aid etmək olar: reabilitasiya tədbirlərinin mərhələi, fərqləndirici, kompleks, ardıcıl, fasiləsiz şəkildə keçirilməsi, ən çox ehtiyacı olanlara (əlillərə, təqaüdçülərə, qaçqınlara və s.) xidmətin müyəssərliyi və əsasən pulsuz olması. Sosial-reabilitasiya fəaliyyəti daxilində alimlər müxtəlifm səviyyələri ayırırlar. Onların sırasında adətən tibbi-sosial, peşə-əmək, sosial-psixoloji, sosial-rollu, sosial-məişət, sosial-hüquqi səviyyələrin adı çəkilir.

Praktik sosial işdə reabilitasiya köməyi müxtəlif kateqoriyalara aid olan müştərilərə göstərilir. Reabilitasiya fəaliyyətinin mühüm istiqamətləri də bundan asılı olaraq təyin olunur. Sosial reabilitasiyanın belə istiqamətlərinə aşağıdakıları aid etmək lazımdır: əlillərin və məhdud imkanlı uşaqların, hərbi əməliyyatlarda iştirak edənlərin, həbsxanalarda cəzalarını çəkmiş şəxslərin, uyğunlaşa bilməyən uşaqların və yeniyetmələrin və s. reabilitasiyası.

Yuxarıda sadalanan istiqamətlərdən əlillərin və məhdud imkanlı uşaqların reabilitasiyasını xüsusi qeyd edək. Məhz əhalinin bu kateqoriyasının sosial müdafiəsi müasir ictimai siyasətin

prioritetlərindən biri kimi elan edilib. Əlillərin reabilitasiyası onların həyat fəaliyyətində orqanizmin davamlı pozuntulara səbəb olan məhdudiyyəti aradan qaldırmağa və ya kompensasiya etməyə, eləcə də, sosial statusun mümkün ola biləcək maksimal bərpasına yönəlmişdir.

Əlillərin reabilitasiyasının əsas növləri bunlardır: tibbi, sosial-mühit, peşə-əmək və psixoloji-pedaqoji.

Tibbi reabilitasiya orqanizmin pozulmuş, itirilmiş, əlilliyə gətirmiş funksiyalarının bərpası və ya kompensasiyasına yönəlmiş kompleks tibbi tədbirləri özündə cəmləşdirir. Bunlar bərpaedici və senator-kurort müalicə, xəstəliyin ağırlaşmasının profilaktikası, rekonstruktiv cərrahiyyə, protezləşdirmə, fizioterapiya, müalicəvi idman, palçıqla müalicə, psixoterapiya və s. kimi tədbirlərdir. Dərmanlarla təminat da daxil olmaqla, dövlət tibbi yardımın bütün növləri ilə əlillərin təmin olunmasına zəmanət verir.

Əlillərin sosial-mühiti reabilitasiyası deyəndə, onların həyat fəaliyyəti üçün optimal mühitin, sosial statusun və itirilmiş ictimai əlaqələrin bərpası üçün şəraitin təmin olunmasına yönəldilmiş kompleks tədbirlər nəzərdə tutulur. Belə reabilitasiya fəaliyyəti, əlillərin məişətdə nisbi müstəqilliyinə imkan yaradan xüsusi avadanlıq və ləvazimatla təmin olunmasına yönəlib. Ölkəmizdə əlillərin ümumi sayından dörddə üç hissəsinin texniki reabilitasiya vasitələrinə ehtiyacı vardır. İndiki zamanda dünyada əlillər üçün iki mindən artıq adda müxtəlif bərpaedici vasitələr mövcuddur.

Peşə-əmək reabilitasiyası dedikdə əlillərin sağlamlığına, ixtisaslarına və şəxsi meyillərinə uyğun olaraq onların peşə yönümü, peşə təlimi və iş təminatı ilə bağlı dövlət tərəfindən zəmanət verilmiş tədbirlər sistemi nəzərdə tutulur. Peşə əmək bərpası ilə bağlı tədbirlər müvafiq reabilitasiya müəssisələrində, təşkilatlarda və istehsalarda həyata keçirilir. Peşə yönümü tibbi-sosial ekspert komissiyaları və bərpa mərkəzləri tərəfindən aparılır. Peşə təlimi adı və ya müxtəlif yönümlü mütəxəssis hazırlayan ixtisaslaşdırılmış tədris ocaqlarında, eləcə də müəssisələrdə, texniki istehsalat təhsili sistemində aparılır. Yeni dövlət təhsil standartlarına uyğun olaraq orta peşə təhsili strukturuna müasir ixtisaslar daxil edilib: menecment, maliyyə, bank işi, hüquq və sosial təminatın təşkili və s. Əlillərin sağlam tələbələrlə birlikdə ümumi tipli

təhsil müəssisələrində öyrədilməsi üçün şərait yaradılır (sadə və əlillərin xüsusiyyətlərinə adekvat olan təlim metodikalarından istifadənin təmin edilməsi), bu isə müasir dövrdə prioritet istiqamət sayılır.

Psixoloji adaptasiya ona müvafiq sosial rolun qəbulu və icrasında, özünü psixoloji müdafiəsində, zəruri mənəvi-psixoloji tarazlığa nail olmasında kömək edir. Reabilitasiya mərkəzlərində çalışan psixoloqlar çox zaman əlillərlə birgə onların ailə üzvlərini də məşğələlərə cəlb edirlər. Bu cür yanaşma psixoloji reabilitasiiyanın səmərəsini artırmağa imkan verir.

Əlilin fərdi reabilitasiyası proqramı onun üçün optimal olan reabilitasiya tədbirləri kompleksini özündə cəmləşdirir. Həmin proqram Dövlət tibbi-sosial ekspertiza xidmətinin qərarı əsasında işlənilir və əlillərin reabilitasiyasının federal baza proqramına uyğun olan pulsuz, eləcə də əlil və ya onun yaxınları tərəfindən haqqı ödənilən bərpa tədbirlərindən ibarətdir.

Mütəxəssislərin fikrincə, əlil uşaqların reabilitasiyasına xəstəliyin ilkin mərhələlərində başlanmalı, pozulmuş funksiyaların minimal mümkün vaxt ərzində maksimal bərpası və ya kompensasiyası əldə edilənədək fasiləsiz aparılmalıdır.

Fiziki imkanları məhdud olan uşaqlar üçün internatlarda dayaq-hərəkət aparatı, müxtəlif dərəcədə zədələnmiş olan contingent yerləşdirilib. Burada onların reabilitasiyası üçün idman-sağlamlıq işlərindən, peşə-əmək təlimindən geniş istifadə olunur. Internatda əsasən iki ixtisas – xarratlıq və dərzilik üzrə tədris-istehsalat emalatxanaları yaradılır. Onların çoxunda əlil uşaqlara kargüzarlığın əsaslarını, mühasib peşəsini də öyrədirlər. Məhdud imkanlı uşaqların ev-internat şəratində reabilitasiyası prosesinin problem tərəfi onun müəyyən dərəcədə qapalılığıdır. Burada əlil uşaqların sosiallaşma səviyyəsinə özünəməxsus iz qoyur, onların cəmiyyətə uyğunlaşmasını çətinləşdirir. Lakin indi də fiziki və əqli inkişafında pozuntular olan uşaq və yeniyetmələrə kömək məqsədi daşıyan bu cür xidmətlər kifayət qədər deyil.

Məhdud imkanlı uşaq və yeniyetmələr üçün bərpa mərkəzlərində əlavə təhsil sistemi çərçivəsində məktəb yaşlı əlillərin təlimi sağlam şagird kollektivində aparılır. Nəticədə, əlil uşaqlar öz xəstəliklərindən

utanmamağı öyrənir, zəruri kommunikativ bilik və bacarıqları daha tez mənimsəyirlər. Sağlam uşaqlar sinif yoldaşlarını tam dəyərli insan kimi qavramağa çalışırlar. Bu tipli reabilitasiya mərkəzlərinin işinin səmərəsi kifayət qədər yüksəkdir. Burada müvafiq bərpa kursu keçmiş uşaqların əksəriyyəti dayaq-hərəkət sisteminin pozuntusu, nitq qüsurları və s. ilə bağlı əvvəllər malik olduqları ciddi komplekslərdən azad olurlar. Bu isə onlara adi kütləvi məktəblərdə təhsillərini başlamağa və ya davam etdirməyə imkan verir.

Əlillərin sosial müdafiəsi və reabilitasiyası məsələləri *məqsədli və ünvanlı yanaşma* bölgə və respublika sosial müəssisələrinin proqramlarında nəzərə alınır. Bu sahədə "Əlillərin sosial müdafiəsi" üzrə proqramlar və konsepsiyalar işlənilib. Onların həyata keçirilməsinin əsas istiqamətləri bunlardır: tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası; əlillər üçün əlverişli olan yaşayış mühitinin yaradılması; protezləşdirmə vasitələrinin işlənilməsi və istehsalı, protez-ortopedik müəssisələrin tikintisi, yenidən qurulması və müasir texniki avadanlıqla təchiz edilməsi.

Sosial reabilitasiya üsullarının müxtəlifliyi bu mühüm və zəruri fəaliyyətdə lazımi effektə nail olmağa imkan yaradır. Məlumat-məsləhətverici söhbət, psixoloji treninq, istiqamətli müşahidə kimi universal üsullarla yanaşı, sosial reabilitasiyada sosial terapiyanın psixoterapevtik treinq və kökləmə, obrazlı oyunlar rəqs terapiyası, biblioterapiya və s. kimi metodlarından da fəal istifadə olunur.

Psixoloqların müşahidəsinə görə, uşaq və yeniyetmələrin psixi sağlamlığı və psixoloji əhvalı əhəmiyyətli dərəcədə onların oyun qabiliyyətləri ilə müəyyən olunur. Mühitə uyğunlaşa bilməyən uşaqların çoxu emosional-iradi sahənin son dərəvə zəif inkişaf etməsi səbəbindən sadə rollu oyunları belə ifa edə bilmirlər.

Mühitə uyğunlaşa bilməyən uşaq və yeniyetmələr rollu oyunlar sayəsində öz qorxu komplekslərinə qalib gəlir, əxlaqi dəyərləri dərk etməyi və seçməyi öyrənirlər.

Düzgün seçilmiş üsullar nəticəsində reabilitasiya prosesi insanın normal fəaliyyəti üçün bu və ya digər qabiliyyətlərini bərpa edərək, öz məqsədinə yetişir. Sosial adaptasiyanın kompleks şəkildə həyata

keçirilməsi şəxsin yalnız sağlamlığı, əmək qabiliyyətini deyil, eləcə də sosial mövqeyini, hüquqi vəziyyətini, mənəvi-psixoloji tarazlığını, müvəffəqiyyətə öz gücünə və imkanlarına inamını bərpa etməyə imkan verir.

18.5. Sosial terapiya

Sosial terapiya sosial işin texnologiyasının xüsusi proseduru olaraq, ona məxsus olan metodlaırn köməyi ilə vətəndaşların sosial davranışına, müəyyən sosial şəraitə, hadisəyə təsir edir. Korreksiya ilə müqayisədə terapiya sosial obyektə onun sosial sağlamlaşması məqsədi ilə göstərilən daha uzunmüddətli və əhəmiyyətli təsirə yönəlib. Bu, şəxsin (bir qrup şəxsin) sosial və psixoloji sağlamlaşdırılması, sosial fəaliyyətlərində davamlı pozuntuların aradan qaldırılması məqsədilə onun əhvalına, davranışına, psixikasına peşəkar təsir sistemidir. Əgər sosial-terapevtik təsir psixikaya yönələrsə, sosial terapiya adı altında psixoterapiyanı nəzərdə tutmaq haqlı olardı. Psixoterapiyanın spesifikliyi onun psixikaya, psixika vasitəsilə bütövlükdə insan orqanizminə, onun əhvalı və davranışına müalicəvi xarakterli təsirindən ibarətdir.

Müasir dövrdə mütəxəssislər psixoterapiyaya yalnız müalicə üsulu, inanın (bir qrup şəxsin) tibbi sağlamlaşdırma vasitəsi kimi deyil, həm də sosial iş təcrübəsində geniş istifadə olunan, sosial obyektə sosial-psixoloji təsir üsulu kimi baxırlar. Buna görə də psixoterapevtlər indi həm tibbi, həm də müxtəlif sosial müəssisələrdə (əhaliyə kompleks sosial xidmət mərkəzlərində, ailəyə sosial-psixoloji kömək otaqlarında, "inam telefonu" xidmətlərində, sosial-reabilitasiya mərkəzlərində və s.) çalışırlar. Psixikaya müalicəvi təsir etmək məqsədilə psixoterapevt daha çox nevrozlarla sərhəd vəziyyətləri işləyir, eləcə də onların profilaktikası məsələləri ilə məşğul olur.

Psixoterapevt təsir insanın daxili aləminin müxtəlif xüsusiyyətlərinə göstərilə bilər. Bundan asılı olaraq bəzi nüfuzlu alimlər (B.A.Karvasarski, Q.S.Abramova və b.) psixoterapiyanın dörd əsas modelini fərqləndirirlər: psixoterapiya psixi və somatic funksiyalar sferasında orqanizmin funksional sisteminin vəziyyətinə təsir edən

müalicə üsulu olan psixoterapiya (*psixoterapiyanın tibbi modeli*); psixoterapiya öyrənmə prosesini hərəkətə gətirən üsul kimi (*psixoterapiyanın psixoloji modeli*); psixoterapiya alət xarakteri daşıyan və ictimai nəzarət məqsədinə xidmət edən manipuyasiya üsulu kimi (*sosioloji model*); psixoterapiya insanlar arasında qarşılıqlı əlaqə zamanı baş verən hadisələr kompleksi kimi (*psixoterapiyanın fəlsəfi modeli*).

Sosial terapiya, onun psixoterapetik imkanları sosial işdə, müxtəlif sosial müəssisələrin fəaliyyətində geniş istifadə olunur. Psixoterapevtik kömək üsulları əhalinin bir çox kateqoriyaları ilə, ailələrlə sosial sağlamlaşdırmaya, sosial korreksiyaya, reabilitasiyaya ehtiyacı olan şəxslər qrupu ilə işdə istifadə olunur. Buna görə də tamamilə əsaslandırılmış sosial terapiyanın sosial kənara çıxmaların, ahıl insanların, ailələrin, böhranlı şəxslərin terapiyası və s. kimi istiqamətlərini ayırırlar.

Terapevtik təsirin effekti metodlar sistemi ilə təmin olunur. Psixoterapiya üsullarının təsnifatı müxtəlifdir. Sosial obyektin kəmiyyət göstəricisindən asılı olaraq fərdi və qrup terapiyası metodlarını ayırırlar. Terapevtik təsirin müxtəlif xarakterə malik olması psixoterapevtik metodun aşağıdakı üç qrupunun meyarı kimi çıxış edir: şəxsiyyətyönümlü (rekonstruktiv) terapiya; təlqin effektinə və insanın psixi həyatının davamlı xüsusiyyətlərinin dəyişilməsinə istiqamətləndirilmiş suqqestiv terapiya; davranış terapiyası (şərti-reflektor) metodları.

Şəxsiyyətyönümlü terapiya üsulları yalnız psixoterapevtik təcrübədə deyil, eləcə də praktik psixologiyada, sosial-pedaqoji işdə, sosial iş mütəxəssislərinin fəaliyyətində də geniş yer tutur. Həmin metodlar sırasına psixoterapevtik söhbəti, danışıq terapiyasını, psixoterapevtik treninqi, əmək terapiyasını, getaltterapiyanı aid etmək olar. Suqqestiv terapiya metodları şüur və təhtəlşüur səviyyələrinə məqsədyönlü təsir yolu ilə təlqin texnikalarının aktiv tətbiqini nəzərdə tutur. Peşə fəaliyyətində bu cür üsullardan bəhrələnməsi üçün psixoloq tibbi təhsilə malik olmalıdır və yaxud terapevtik təsiri həkim-psixoterapevtlə birlikdə həyata keçirməlidir. Suqqestiv terapiya metodlarına bunlar aiddir: autogen məşqlər, fəal relaksasiya, meditasiiya

metodları; platseboterapiya (dərman təsirinə oxşatma); hipnotik yuxu vəziyyətində təlqin və b.

Psixoterapiyanın davranış metodlarını sosial obyektin davranışının xarakterinə məqsədyönlü terapevtik təsir fərqləndirir. Bu metodlara sistematik desensibilizasiya, operativ şərtlənmə metodlarını və b. aid etmək olar. Birinci halda mütəxəssislər qıcıqlandırıcıların təsirinin məhdudlaşdırılması yolu ilə qorxuların aradan qaldırılmasına nail olurlar. Ikinci üsul isə stimullaşdırıcı təsirin köməyi ilə davranışın dəyişməsinə yönəldilib.

Sosial iş təcrübəsində qrup terapiyasının bəzi metodlarından da istifadə oluna bilər. İlk növbədə onlara qrup müzakirəsi üsulunu, obrazlı oyunları, proyektiv rəsm, psixogimnastika və b. metodları aid etmək lazımdır.

Sosial terapiya üsullarının çoxunun spesifikliyini, psixoterapevtik yönümünü nəzərə alaraq, sosionomik təcrübədə onlardan ehtiyatla, hissə-hissə istifadə etmək, sosial işin bu və ya digər sahəsində özünü doğrultmuş metodlara üstünlük vermək lazımdır. Suqqestiv üsulları isə psixoterapevtlərlə birlikdə işlətmək məqsədəuyğundur.

Sosial obyektə profilaktik, adaptasiya olunmuş, bərpaedici və terapevtik təsir vasitələrinin özünəməxsusluğu ilə yanaşı, bu proseslərdə ümumi məqamlar da çoxdur. Onlar çox vaxt bir-birinə təsir göstərirlər. Artıq qeyd olunub ki, bəzi terapevtik üsullar adaptasiiyada, reabilitasiyada və hətta profilaktikada fəal istifadə olunur. Adaptasiya, reabilitasiya vasitələrindən biri kimi çıxış edə bilər. Digər tərəfdən, reabilitaisya metodlarından adaptasiyanın gedişatında istifadə oluna bilər və bütün bunlar bir məqsədə - sosial fəaliyyət qabiliyyətinin bərpası, saxlanılması və ya yaxşılaşdırılması yolu ilə sosial yardımın göstərilməsi və sosial sağlamlaşdırılmanın təmin olunması məqsədinə xidmət edir. Vətəndaşların sosial sağlamlığı, ailələrin rifahı isə, ölkənin sabit və mütərəqqi inkişafının zəruri şərtidir.

Mövzu 19. Sosial ekspertiza texnologiyaları

19.1. Sosial ekspertiza

19.2. Sosial ekspertizanın növləri

19.3. Sosial-psixoloji ekspertiza

19.4. Məhkəmə

19.5. Tibbi-sosial ekspertiza

19.1. Sosial ekspertiza

Sosial texnologiyalaşdırma – vahid sisteminin ən mühüm komponenti – ekspertizadır. O, çox sosial məsələlərin həlli və əhalinin bəzi kateqoriyalarına yardımın göstərilməsi zaman tətbiq olunur. Sosial ekspertiza diaqnostika, profilaktika və s. kimi funksional texnologiyalar ilə bağlıdır və qarşılıqlı təsir göstərir. Məsələn, ekspertiza sosial obyektin vəziyyətinin diaqnostikasından ibarətdir. Öz növbəsində sosial ekspertiza proqnozların diaqnostikası, layihələndirilməsi, tərtib olunması zamanı tətbiq oluna bilər, eləcə də qəyyumluq, hamilik, sosial təminat məsələlərinin həlli zamanı istifadə oluna bilər.

Sosial ekspertizanın keçirilməsinə tələbat o zaman yaranır ki, müəyyən sosial əhəmiyyətli həllin qəbul edilməsi zamanı real həyat proseslərinə birmənalı (pozitiv və ya neqativ) təsir etmir, normativ qərarı qəbul edən sosial subyektdə isə bunun nə ilə nəticələnməsi haqqında anlayışı yoxdur. Bu halda sosial ekspertiza həyatın özü tərəfindən tələb olunur.

Ümumi planda ekspertiza adı altında xüsusi bilikləri tələb edən problemin və ya onun aspektlərinin tədqiqi başa düşülür. Sosial ekspertiza öz xüsusiyyətlərinə malikdir. Bu anlayış altında sosial obyektin vəziyyətinin peşəkar tədqiqi və obyekt haqqında düzgün informasiya, qərarların qəbulu üçün konkret təkliflər (tövsiyələr) və mümkün proqnozdan ibarət olan əsaslı rəyin çıxarılması başa düşülür. Bir sıra hallarda rəy mütəxəssislərin müşavirəsinin yekun protokolu formasında tərtib oluna bilər.

Qeyd etmək lazımdır ki, sosial obyektin spesifikasını aydınlaşdırmaq üçün ekspertiza gedişində çox zaman onun vəziyyətinin diaqnostikası tətbiq olunur. Rəyi layihələndirmə elementləri, sxem, çertyoj şəklində müəyyən təsvirlər olmadan formalaşdırmaq çətin olduqda və ekspertiza obyekti mürəkkəb olduqda əlaqədar problem qrupunun həllinə istiqamətlənmiş sosial layihələndirilmə istifadə olunur. Ekspertiza olunan sosial layihələr nəzəri dəlillərə və regionlararası təsərrüfat və sosial əlaqələrin yeni tip texnoloji təminata yönələ bilər.

Bir çox sosial layihələrin reallaşması tədqiq olunan obyektin vəziyyətinin sosioloji qiymətləndirilməsini, perspektiv informasiya texnologiyalarının istifadəsini, sosial transformasiyaların əsas tendensiyalarının, sosial və mənəvi həyat dinamikasının prioritet istiqamətlərinin müəyyən edilməsini tələb edir. Ekspertizanın keçirilməsi zamanı onun təşkilinin tipologiyasını nəzərə almaq lazımdır. Nüfuzlu mütəxəssislərin fikrincə, ekspert müayinəsinin üç əsas tipi və ya təşkilat modellərii ayırd etmək olar: resenziya, monitorinq, layihə.

Resenziya - ən sadə və ən az məsrəfli ekspert sənədidir. O, müstəsna olaraq birdəfəlik xarakter daşıyır. Əgər sosial ekspertizanın aparılması müntəzəm xarakter alırsa və uzunmüddətli əsasda həyata keçirilirsə, onda ekspertizanın monitorinq modeli tətbiq olunur. Monitorinq rejimində ekspert müayinəsini tədqiq olunan halların, proseslərin müqayisəsi üçün kifayət qədər materialın olması zamanı aparmaq daha məqsədəuyğundur. Ekspert müayinəsinin layihə modeli – ekspert qiyməti arzu olunan ictimai vəziyyətin layihələndirilməsinin əsasını təşkil etdiyi zaman əlaqəli məsələ qrupunun həllinə yönəlmişdir. Sosial ekspertizanın keçirilməsi zamanı eksperimentlərin müxtəlif kombinasiyaları da mümkündür.

19.2. Sosial ekspertizanın növləri

Ekspertizanın yönəldiyi sosial obyektin xarakterindən asılı olaraq sosial ekspertizanın müxtəlif növlərini ayırmaq olar. Onların arasında aşağıdakıları qeyd etmək lazımdır: inzibati-idarə orqanlarının normativ qərarlarının (sənədlərin, proqramların, layihələrin və s.) sosial

ekspertizası; məhkəmə-tibbi ekspertizası; məhkəmə-psixiatriya ekspertizası; tibbi-sosial ekpertiza və s.

Müasir rus cəmiyyətində baş verən sosial keçid prosesləri elmi dəlillərin və müxtəlif səviyyədən olan (federaldan başlayaraq yerliyədək) inzibati idarə orqanlarının qəbul etdiyi normativ qərarların sosial ekspertizasının aparılması məsələsini aktuallaşdırır. Bizim ölkəmizdə federal – dövlət səviyyəsində ekspertizanın keçirilməsinin müəyyən təcrübəsi toplanmışdır. Lakin bir sıra tədqiqatçıların (Darmodexin S.V., Muratov Y.İ. və s.) düzgün qeyd etdikləri kimi, ali hakimiyyət və dövlət idarəetmə orqanlarının qərar layihələrinin əldə olunmuş sosial ekspertiza səviyyəsi, sosial nəticələrin bütün kompleksinin proqnozlaşdırılması nöqteyi-nəzərindən cəmiyyətin dəyişdirilməsinin müasir məsələlərinə uyğun gəlmir. Sosial ekspertizanın icra dövlət hakimiyyəti və yerli bələdiyyə orqanlarına daxil olunması labüd olmuşdur. Bu cür sistem çərçivəsində yalnız dövlət hakimiyyəti və yerli idarəetmə qərarlarını təhlil etmək deyil, həm də belə ekspert tövsiyyələrin reallaşmasına dövlət nəzarətini təmin etmək olar. Regional spesifikanı nəzərə almaqla dövlət sosial siyasəti prioritetlərinin reallaşması üzrə texnoloji qərarlardan ibarət ekspert rəylərində yerli hakimiyyət orqanları da maraqlıdır.

19.3. Sosial-psixoloji ekspertiza

Ekspert işinin ayrı bir istiqaməti sosial-psixoloji ekspertizadır. Təcrübi sosionomiyada o, kifayət qədər istifadə olunur. Bu cür ekspertizaya sosial ünsiyyətdə çətinliklər çəkən şəxslər ehtiyac duya bilər. Ekspert rəyi müştərinin sosial ünsiyyətinin konkret səriştəsini və çatışmazlıqlarını müəyyən etməyə imkan verir. Ekspertiza, həmçinin – sosial iş təcrübəsində geniş şəkildə istifadə olunan sosial diaqnostika üzrə çoxsaylı tədqiqat məlumatlarının ən mühüm təhlil metodlarından biridir.

Sosial psixiatrik ekspertiza çox zaman deviant hərəkətə, qanun pozuntularını meylli olan şəxslər barəsində tətbiq olunur. Bu ekspertiza növü cəmiyyət üçün təhlükəli olan hərəkətin qarşısını almağa və ya cinayət artıq törədildikdən sonra istintaqa yardım etməyə imkan verir.

Belə ki, qrup şəklində qanun pozuntusu zamanı istintaqın qarşısında onun ibtidai mərhələsində təqsirləndirilən şəxslərin qrupdakı rolları haqqında məsələ durur. Bunun üçün ekspertlər istintaq altında olan şəxslərin fərdi psixoloji xüsusiyyətlərini müəyyən edirlər. Daha sonra öz psixoloji spesifikasını nəzərə almaqla qrupda lider mövqeyini tuta biləcək şəxs müəyyən olunur. Ekspertlər, həmçinin yüksək təsirlənmə qabiliyyətinin, cəsarətsizlliyin, aqressivlik kimi şəxsi keyfiyyətlərin kimə məxsus olduğunu müəyyən edirlər. Sonda ekspertlər cinayət qruplaşmasının mütəşəkkillik dərəcəsini və istintaq altında olan şəxlərin cinayətin törədilməsi vəziyyətində ən çox ehtimal olunan davranış ssenarisini müəyyən edirlər. bu halda sosial-psixoloji ekspertiza sosial-psixiatriya formasını alır.

Məhkəmə-psixiatriya ekspertiza halında ekspertiza olunan şəxs əksər halda öz iradəsi ilə müayinə olunmur. Bu vəziyyətdə o, davranışın sosial bəyənilən formalarının anlaqlı riayətinə istiqamətlənnir. Mütəxəssislərin qeyd etdiyi kimi, xüsusilə bu proses sorğulanan şəxslərlə ekspertiza vəziyyətində ifadə olunur – onlar sorğunun tələb etdiyi kimi birmənalı “Hə” və ya “yox” cavabını verə bilmirlər, bunun əvəzinə konkretləşdirici məqamlar daxil edirlər və ya yalan danışırlar, hətta onlar tədqiq olunan vəziyyətdə real iştirak etsələr belə. Bu vəziyyətdə onlar sosial bəyənilən normalara o qədər yönəlirlər ki, ekspertin emosional reaksiyasına dərhal uyğunlaşaraq, hətta fərdiyyətin ən kiçik əlamətlərindən belə imtina etməyə hazırdırlar. Buna görə də psixoloq-ekspert müvafiq şəkildə müştəri ilə qarşılıqlı əlaqənin vəzifələrini formalaşdırmalıdır. “Düzgün” görünməyə çalışaraq, sonuncu sosial bəyənilən normalarla müvafiq olaraq öz davranışının şərhində (interpretasiyasında) çox seçici olur. Q.S.Abramovanın “Praktiki psixologiyası”nda belə şərhlərin (interpretasiyaların) aşağıdakı nümunələri göstərilir: məhkəmə psixiatriya ekspertizası zamanı zorakılıq edən şəxs qurbana qarşı sevgisini elan etməyə başlayır, qəsdən adam öldürən və onu əvvəldən və əsaslı şəkildə hazırlayan qatil bunu təsadüfən, bilməyərək törətdiyinə and içir və s.

19.4. Məhkəmə

Məhkəmə - psixiatriya ekspertizasının keçirilməsi zamanı mütəxəssislər müəyyən metodikalardan, test tapşırıqlarından istifadə edirlər. Xüsusilə, mütəxəssis-ekspertlər "Piktoqramma", "Dördüncü artıqdır" metodikalarından, "Rorşah testi, Şmitekin sorğu testindən" və s. istifadə edirlər.

Məhkəmə-tibbi ekspertizası həkimlər, xüsusi hazırlığı olan tibbi ekspertlər tərəfindən həyata keçirilir, zərərçəkmişin aldığı zədələrin xarakterini, ölüm halında isə-onun səbəblərini müəyyən etməyə yönəlmişdir. Tibbi ekspertin rəyi məhkəmə təhqiqatı gedişində tutarlı dəlil kimi çıxış edə bilər.

Qəddarlıq və ədəbsizliyin təzahürü – son ildə baş alıb gedən ailələrdə zorakılıq hallarının xeyli artması olmuşdur. Ölkənin məhkəmə-tibbi ekspertiza xidmətlərinin məlumatlarına görə, ailədə zorakılıq obyekti çox zaman zəif və daha az müdafiə olunan şəxslər olur (qadınlar, uşaqlar, yaşlı insanlar). Pis ailə-məişət münasibətləri zəminində öldürülənlərin 38%-i yenə də qadınlar, uşaqlar, qocalar, əlillər, ailədə asılı vəziyyətdə özünü müdafiə edə bilməyən şəxslər təşkil edir. Həmin tibbi ekspertlər çox zaman törədilmiş hadisəni gizlətməyə və cəzadan qaçmağa çalışan cinayətkarları ifşa edirlər.

İstintaq altında olan şəxsin hərəkətlərinin motivasiyasını aydınlaşdırmaq üçün bir sıra hallarda məhkəmə-psixiatriya ekspertizasının keçirilməsi tələb olunur. O, şəxsin anlaqlı olub-olmaması haqqında suala cavab verməyə imkan verir. Məhkəmə-psixiatriya eksöertizasını müvafiq ixtisaslı mütəxəssis-həkimlər aparır. Ayrı-ayrı hallarda kompleks məhkəmə - psixoloji-psixiatriya ekspertizasının keçirilməsi məqsədəuyğun hesab edilir. Bu zaman psixoloq – ekspert psixiatr ilə birgə işləyir. Mütəxəssilərin fikrinə görə bu cür ekspertizaların gedişində aşağıdakı əsas məsələlər həll olunur: müayinə olunan şəxsin ruhi vəziyyəti təsnif olunur, psixoloji patologiyanın mahiyyəti, növü və tipi, onun dərinliyi müəyyənləşdirilir, psixikada psixopatoloji və norma-psixoloji qarşılıqlı münasibətlər, eləcə də vəziyyətə uyğunlaşma prosesində kompensasiya hallarının və şəxsiyyətin müdafiəsinin uyğunluğu aydınlaşdırılır, sabit psixoloji xassələr və keyfiyyətlər, dinamik vəziyyətlərin sabit xüsusiyyətləri və tədqiq olunan vəziyyətdə emosional reaksiyaların dərinliyi müəyyən

olunur, eləcə də anormal şəxsiyyətlərin xüsusiyyətləri, sərhəd əqli geriliyin dərəcəsi aydınlaşdırılır, aşkar olunmuş şəxsiyyət xarakteristikaları və ruhi vəziyyətlərin xüsusiyyətlərinin tədqiq olunan halda davranışa təsiri aşkarlanır, yəni tədqiq olunan şəxs üçün ətrafdakıları əks etdirmək, reaksiya vermək və öz davranışını konkret vəziyyətdə tənzimləmək imkanı təhlil olunur.

19.5. Tibbi-sosial ekspertiza

Sosial iş təcrübəsində xüsusi yeri tibbi-sosial ekspertiza tutur. Əvvəllər bizim ölkəmizdə mövcud olmuş həkim-əmək ekspertizası sistemi əsasən insanın əmək qabiliyyətinin qiymətləndirilməsinə yönəlmişdir və həyat fəaliyyətinin digər sahələrinin məhdudlaşdırılmasının müəyyən olunmasını, onların sosial nəticələrinin təyin edilməsini və sosial mühitlə pozulmuş qarşılıqlı münasibətlərin əlil tərəfindən dəf edilmə üsullarının müəyyənləşməsini təmin etmirdi. Bununla əlaqədar 90-cı illərin ikinci yarısından həkim-əmək ekspertizası tibbi-sosial ekspertizaya dəyişməyə başlamışdır.

Hazırda tibbi-sosial ekspertizanın dövlət xidmətinin formalaşdırılması tamamlanmışdır. İndi ölkədə tibbi-sosial ekspertizanın 100-dən artıq bürosu və təxminən 60 nəfərlik kontingenti olan Baş tibbi-sosial ekspertiza bürosu fəaliyyət göstərir.

Qanuna görə tibbi-sosial ekspertizası dövlət xidmətinin üzərinə aşağıdakı vəzifələr qoyulmuşdur: əlillik qrupunun, onun səbəblərinin, müddətinin, əlilliyinin baş vermə tarixinin, əlilin müxtəlif sosial müdafiə növlərinə tələbatının müəyyən edilməsi, əlillərin fərdi reabilitasiya proqramlarının işlənib hazırlanması; sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə nəzarət, o cümlədən reabilitasiya tədbirləri daxil olmaqla, onların effektivliyinin qiymətləndirilməsi; zəruri sosial müdafiə tədbirlərinin alınmasında, o cümlədən, reabilitasiya daxil olmaqla, əlillərə yardımın göstərilməsi; əhalinin əlillik vəziyyətinin, dinamikasının və əlilliyə gətirib çıxaran amillərin tədqiq olunması; əlilliyin profilaktikası, əlillərin tibbi-sosial reabilitasiyası və sosial müdafiəsi üzrə kompleks tədbirlərin işlənib hazırlanmasında iştirak edilməsi; ölkənin qanunvericiliyinə əsasən ölənin ailəsinə imtiyazların

verilməsi nəzərdə tutulan hallarda əlilin ölüm səbəbinin müəyyən edilməsi.

Tibbi-sosial ekspertiza bürosunun ştatına üç müxtəlif ixtisaslı həkim, reabilitasiya üzrə mütəxəssis, psixoloq ilə yanaşı sosial iş üzrə mütəxəssis də daxildir. Zəruri hallarda büronun tərkibinə pediatrlar, funksional diaqnostika üzrə, peşə istiqaməti üzrə, hüquqi məsələlər üzrə, əmək fiziologiyası üzrə, texniki reabilitaisya vəsaitləri üzrə və s. mütəxəssislər daxil ola bilər. Müayinə üçün ərizəni tibbi-sosial ekspertiza müəssisələrinə indi yalnız müalicə-profilaktika müəssisələrinvə əhalinin sosial müdafiə orqanları deyil, həm də məişət, ictimai və peşə fəaliyyətində çətinliklər çəkən vətəndaların özləri də göndərə bilər. Onlar indi bilavasitə TSEB-ə müraciət etmək hüququna malikdirlər. Vətəndaşlar və ya onların qanuni nümayəndələri həmçinin tibbi-sosial ekspertizanın keçirilməsində iştirak etmək üçün öz şəxsi vəsaitləri hesabına istənilən digər mütəxəssisi cəlb edə bilərlər.

Tibbi-sosial ekspertiza xidmətinin ilk fəaliyyət təcrübəsi müəyyən problemləri aşkar etmişdi. Belə ki, bir çox müəssisələrdə TSEB-in yerləşdiyi baza otaqları normativlərə cavab vermir. Hələ də ixtisaslı kadrlar çatmır. Bu, yalnız reabilitasiya və sosial iş üzrə mütəxəssislərə aid deyil, həm də ekspert hazırlığı olan həkimlərə aiddir. Nəticədə bir çox TSEB xidmətləri yalnız son bir neçə il ərzində əlillərin fərdi reabilitasiyası proqramlarının hazırlanmasına fəal şəkildə başlamışlar, buna qədər onlar əsasən xəstələrin müayinəsi ilə məşğul olurdular.

Tibbi-sosial ekspertiza müəssisələrinin fəaliyyətinə dair ayrı-ayrı normativ müddəalar təshih olunmağa (düzəlişə) ehtiyac duyulur. Xüsusilə, bəzi əlillər kateqoriyası üçün (məsələn, əl, ayaqların amputasiyası olan və s.) icbari illik müayinə təcrübəsindən imtina etmək lazımdır. Onların ekspert komissiyalarının öz əlillik qrupunu hər il təsdiq etməyə ehtiyacı yoxdur.

Ümumilikdə, tibbi-sosial ekspertiza xidmətinin lazımi effektiv işi haqqında hələ danışmaq olmur. Ölkədə iş qabiliyyəti yaşında əlillərin və uşaq-əlillərin sayının artması müşahidə olunur. Bu cür tendensiya sosial-iqtisadi müvəffəqiyyətsizliyin qalması ilə əlaqədar çətin ki, yaxın illər ərzində yaxşılığa doğru dəyişsin. Bununla belə əlillərin reabilitasiya göstəriciləri aşağı səviyyədə qalır və təkrar yenidən müayinə zamanı

2,8 %-dən artıq olmur, bu da tibbi, peşəkar və sosial reabilitasiyanın həyata keçirilməsində nöqsanların olmasına dəlalət edir. Rusiya hökuməti tərəfindən əlillərin reabilitasiyasının dövlət xidmətinin təşkili və fəaliyyət qaydası hələ də işlənib hazırlanmamışdır.

Əmək fəaliyyəti ilə bağlı əlillik və ya digər zədə ilə əlaqədar daha az ödənilən işlərə müvəqqəti keçirilmiş işçilərə sağlamlığın pozulmasına görə cavabdeh olan müəssisə əvvəlki qazanc və yeni iş üzrə qazanc arasında fərqi ödəyir.

Sosial ekspertizzanın keçirilməsi zamanı müxtəlif metodlar qrupundan istifadə edirlər. İnzibati idarə qərarlarının (proqramların, layihələrin, əmrlərin, qətnamələrin) ekspertizası ekspertizaya daxil olan sənədlərin elmi təhlilinin, cəmiyyətdəki həmin qərarlara aid real proseslərin tədqiqini tələb edir. Daha sonra müqayisə metodundan istifadə etmək məqsədəuyğundur.

Sosial-psixoloji və məhkəmə-psixiatrik ekspertizanın keçirilməsi zamanı müqayisə, ekspert təhlili metodları ilə yanaşı, xüsusi metodika və testlərdən aktiv şəkildə istifadə olunur. Onların adlarının bəziləri yuxarıda qeyd olunmuşdur. Bir sıra hallarda, məsələn, sosial ünsiyyətin qiymətləndirmə ekspertizası gedişində müşahidə və özünü müşahidə metodlarından istifadə olunur. Özünü müşahidə texnologiyası - özünümüşahidə gündəliklərinin tətbiqini nəzərdə tutur. Ekspertlər öz müştərilərindən onlarla baş verən və onların öz davranışlarından məmnun qaldıqları mürəkkəb vəziyyətləri gündəlikdə təsvir etməyi xahiş edirlər.

İnzibati orqanların mümkün qərarlarının sosial ekspertizası, eləcə də ayrı-ayrı hallarda sosial-psixoloji ekspertiza ekspertlərin əyani və qiyabi iştirakı ilə keçirilə bilər. Birinci halda ekspert rəyi ekspertlərin öz aralarında bilavasitə əlaqəsi gedişində hazırlanır. Qiyabi ekspertiza zamanı rəyin hazırlanmasında ekspertlərin təkbətək iştirakları təmin olunur. Əyani ekspertiza metodları arasında kifayət qədər geniş yayılmış vəziyyət təhlili metodudur. Bu zaman konkret həyat vəziyyəti təhlil olunur. Ekspertiza gedişində problemlər, onların səbəbləri, səciyyəviliyi müəyyən olunur. Daha sonra, onun həllinin mümkün variantlarının qiymətləndirilməsindən sonra ən yaxşısı göstərilir. Ekspert təhlili gedişində, proqnozlaşdırma zamanı olduğu kimi, ekspertlərin

konformizmini müəyyən qədər aradan qaldırmağa imkan verən "Delfi"qiyabi müayinə metodundan istifadə olunur. Belə halda ekspertizanın anonimliyi və çox mərhələliyi son vəziyyətlərin müzakirəsi, onların yaxınlaşdırılması və ya istisna edilməsi yolu ilə ekspert qiymətlərinin dağılmasını tədricən məhdudlaşdırmağa imkan verir. Sosial-psixoloji, məhkəmə-psixoloji ekspertiza metodları kompleks məhkəmə-psixoloji-psixiatrik ekspertizanın gedişində də istifadə oluna bilərlər. Məhkəmə-tibbi və məhkəmə-psixiatrik ekspertizası öz spesifikasına və müvafiq metodlar yığımına malikdir. Lakin onların qiymətləndirilməsi nə sosial psixoloqların, nə də sosial iş üzrə mütəxəssislərin peşə maraqları sahəsi deyil.

Tibbi-sosial ekspertiza metodlarının istifadəsi çox zaman onun xarakteri və istiqaməti ilə müəyyən olunur. O ısı xüsusi-tibbi, funksionla-diaqnostik, peşə oriyentasiyalı, reabilitasiya və s. ola bilər. Xüsusi tibbi metodika ilə yanaşı burada sosial-psixoloji ekspertiza metodları da istifadə oluna bilər.

Müxtəlif ekspert metodlarının məharətli istifadəsi ekspertizanın əsaslığını və dəyərini təmin edir, bu və ya digər konkret vəziyyət üçün ölçülüb – biçilmiş və daha münasib rəy hazırlamağa imkan verir. Ekspertiza sosial sahədə, sosionomik təcrübədə daha çox tələb olunmağa başlamışdır.

Mövzu 20. Əhalinin məşğulluq sferasında sosial işin texnologiyaları.

20.1. Əmək bazarı

20.2. İşsizliyin funksiyaları

20.3. Əhali gəlirlərinin tənzimlənməsi

20.4. Sosial işdə fərdi işin texnoloji prosesin 3 əsas mərhələsi

20.5. Fərdi işin texnoloji prosesinin fazaları və hər fazanın mərhələləri

20.1. Əmək bazarı

Əmək bazarı-iqtisadiyyatın ən mürəkkəb problemlərindən biridir. Əmək bazarı adı altında iş verənlə potensial işçi arasında qarşılıqlı münasibətlərin müəyyən iqtisadi məkan çərçivəsində fəaliyyət göstərən mexanizmi başa düşülür. *Əmək bazarı-istehsal vasitələrini paylaşanlarla işçi qüvvəsinin sahibləri arasında qarşılıqlı münasibətlərin məcmusudur.*

Əmək bazarı müəyyən prinsiplər əsasında formalaşdırılır, onun öz qurulma metodları və fəaliyyət mexanizmləri vardır. Bazarın formalaşdırılması bazarın subyektləri arasında sabit, davamlı iqtisadi və qarşılıqlı sosial əlaqələrin yaradılmasını nəzərdə tutur.

Daxili bazarlar ondan ötrü yaradılır ki, müəssisəni sabitlik və mobillik prinsiplərinin optimal şəkildə birləşdirilməsi əsasında zəruri personal təmin etmək mümkün olsun. Xarici bazarlar yaradılarkən işçi qüvvəsinin peşəkar və sosial əlamətləri nəzərə alınır. Daxili və xarici bazarlar biri o biri olmadan mövcud ola bilməzlər, onlar daimi qarşılıqlı əlaqədədirlər.

P.Deringer və M.Piore ilkin və sonrakı bazarları bir-birindən fərqləndirirlər. İlkin bazarlar əlverişsiz konyunktura təsirlərindən yüksək müdafiə olunmaq dərəcəsi ilə; autsayderlər üçün çətinləşdirilmiş girişlə; məşğul olanların müdafiə olunmalarının, sahibkarların və həmkarlar təşkilatlarının iqtisadi maraqlarının paritetliyini təmin edən yüksək səviyyəsi ilə fərqlənir. İlkin əmək bazarı – iş yerini seçmək üstünlüyünə malik işçilrəin imtiyazlı təbəqələrinin bazarıdır. Sonrakı bazar –

“marginalların” bazarıdır ki, burada iş yerlərinin əsas kütləsi ixtisaslaşma üzrə həmcinsdir, burada həmçinin işçi qüvvəsinin çoxlu alıcıları və satıcıları da vardır.

Əmək bazarlarında işçi qüvvəsi əmtəə kimi çıxış edir. Hər bir əmtəə kimi işçi qüvvəsinin də öz dəyəri və qiyməti vardır. İşçi qüvvəsinin dəyəri iki amillə (işçinin peşə-ixtisas səviyyəsini və istehlak səbətinə daxil edilmiş həyat vasitələrinin toplusu ilə müəyyən edilir) müəyyən olunur.

Sosial, etnik, yaş, təhsil və digər amillər işçi qüvvəsinin qeyri-bərabər vəziyyətində öz ifadəsini tapır, bu da peşə ayrısekiliyinin və seqreqasiyanın açıq və gizli meyllərini doğurur. Əgər sosial-iqtisadi sistemdə diskriminasiya meyarları üstünlük təşkil edirsə, onda insanın səlahiyyətliliyinin işverənlərin muzdlu tutmaq üçün dominant əhəmiyyəti yoxdur. Onu digər standartlar (loyallıq, sosial mənsubluq və s.) əvəz edir.

Əmək sahəsində sosial siyasət strategiyası dörd tərkib hissəyə malikdir:

- Kompensasiya siyasəti – yenidən bölüşdürülməli və yenidən hazırlanmalı olan azad olunan işçilərin zəruri osial müdafiəsini təmin edir;
- Stimullaşdırma siyasəti – məşğul olan müxtəlif qrupların əməyə maraq münasibətini təmin edən sosial mexanizmin yaradılmasına cavabdehdir;
- Sosial adaptasiya siyasəti - əmək həyat tərzinin plüralizmini təmin edir;
- Sosia tərəfdaşlıq siyasəti - əmək fəaliyyətinin müxtəlif aspektləri üzrə hökumət, sahibkarlar və zəhmətkeşlər arasında razılığın əldə edilməsinə cavabdehdir.

Məşğulluq mərkəzlərinin fəaliyyətinin başlıca məqsədi – məşğul olmayan və iş axtaran əməkqabiliyyətli əhalinin və azad olunan işçilərin maksimum dərəcədə işə düzəldilmələrinin və onların sosial müdafiəsinin təmin edilməsindən ibarətdir.

İşsiz-mövcud qanunvericiliyə görə işə qəbul olunmalı olan və aktiv surətdə iş axtaran şəxsdir. İşsiz statusunu almaq üçün bir sıra şərtlərə

əməl edilməsi zəruridir: məşğulluq xidmətində qeydə alınma; fəal surətdə iş axtarılması; digər gəlir mənbələrinin olmaması; məşğulluq xidməti ilə əməkdaşlıq və onun tövsiyyələrinin nəzərə alınması.

Səbəblərdən asılı olaraq işsizliyin aşağıdakı tiplərini fərqləndirirlər:

- Friksiya (könüllü) işsizliyi – yeni iş axtarmaqla öz arzusu ilə iş yerinin dəyişdirilməsi ilə bağlıdır;
- Mövsümi işsizlik - işçi qüvvəsinə tələbin mövsümi dəyişmələrindən asılıdır;
- Struktur işsizlik – iqtisadiyyatda texnoloji dəyişikliklərlə əlaqədar olaraq əməyə tələbatın strukturunda baş verən dəyişikliklərlə şərtlənmişdir;
- Gizli işsizlik – formal olaraq işləyən hesab olunan və göstərilən iş həcmini yerinə yetirməyən işçilərin sayı ilə səciyyələnir;
- Məcburi işsizlik – iş yerini məcburən itirməklə bağlıdır (müəssisənin iflasa uğraması, hazırki iş yerinin ləğv edilməsi, işdən azad edilmə). Bu cür işsizliyi tsiklik işsizlik də adlandırırlar. Belə işsizlik iqtisadi inkişaf fazası ilə əlaqədar olaraq istehsalın aşağı düşməsindən yaranmışdır;
- Texnoloji işsizlik – istehsalın mürəkkəbləşməsi, ixtisassız əməyin istifadə olunduöu iş yerlərinin ixtisarından əmələ gəlir.

20.2. İşsizliyin funksiyaları

Sosioloqlar işsizliyin aşağıdakı funksiyalarını və onun doğurduğu hadisələri müəyyənləşdirmişlər:

1. İşsizlik iki sosial-iqtisadi funksiyanı - ədalət funksiyasını və stimullaşdırma funksiyasını yerinə yetirir.
2. İş barəsində ictimai əhval-ruhiyyələr: ictimai rəy bir qayda olaraq işsizliyə mənfi yanaşır.
3. Muzdlu işçinin eqoizmi – muzdlu işçi üçün iş yeri xüsusi məqsəddir, halbuki iş yerinin səmərəliliyi nisbətən ikinci dərəcəlidir; muzdlu işçi çox vaxt işverənə istismarçı kimi baxır.
4. İşverənin eqoizmi: işverən iş yerlərini onların ən yüksək səmərəliliyi baxımdan nəzərdən keçirir və qiymətləndirir.

5. Kadr qərarlarında subyektivlik: çox vaxt işdən azadetmə, ixtisarla əlaqədar konkret məsələlərin həlli zamanı insanlar özlərinin fərdi və sosial maraqlarından çıxış edirlər.
6. Rəqabət və yaxud həmrəylik: kadrı ixtisar edərkən müəssisə işçilərin bir hissəsinin ixtisarı ilə yerdə qalanların əmək haqlarının saxlanılması (rəqabət variantı) arasında, yaxud bütün ştatın saxlanılması ilə hamı üçün əmək haqqının ixtisar edilməsi (həmrəylik variantı) arasında seçim etməli olur.
7. Sosial müdafiənin ziddiyyətləri: bir qayda olaraq işsizliyin xüsusi çəkisi və qədəri yüksək olarsa, işsizliyin sosial müdafiəsinin səviyyəsi bir o qədər aşağı, sosial gərginlik isə daha kəskin olur.
8. İşsizliyin doğurduğu həyəcanın xüsusiyyətləri və onların amilləri (bu, insanların müxtəlif kateqoriyaları və tipləri üçün işsizliyin sosial-psixoloji problemliliyinin dərəcəsinin göstəriciləridir): böhran kateqoriyasına adətən pensiya öncəsi yaşda olan insanları, xüsusən də kişiləri aid edirlər, çünki onlar işə sosial və əxlaqi tələbatı daha güclü hiss edirlər.
9. İşsizlərin davranışı: işsizin davranışına təsir edən bütün amilləri obyektiv və subyektiv amillərə ayırmaq olar; obyektiv amillərə işsizin rifah halının səviyyəsi, subyektiv aillərə isə insanın işsizliyə hadisə və şəxsi bədbəxtlik kimi yanaşması.
10. İstehlakçılıq psixologiyası amili: işsizliyin səviyyəsinə, həmçinin bu və ya digər istehlakçı obrazının dəyərlilik oriyentasiyaları, maraqları, meylləri təsir göstərir.

İnsanın, əhalinin qrup və təbəqələrinin təminatı onların tələbatları ilə sıx bağlıdır. Tələbatlar – orqanizmin, insan şəxsiyyətinin, sosial və digər qrupların, ümumən cəmiyyətin həyat fəaliyyətini saxlamaq üçün zəruri olan tələbatlara ehtiyacdır. Dərk olunmuş tələbatlar maraqlar qismində çıxış edir.

Tələbatlar belə təsnif edilir:

Fəaliyyət sahələrinə görə - əməyə, idraka, ünsiyyətə, istirahətə tələbat;

Obyektinə görə - maddi və mənəvi, etik, estetik və b.;

Funksional roluna görə - üstün və ikinci dərəcəli, mərkəzi və periferik, davamlı və situativ;

Subyektinə görə - fərdi, qrup, kollektic, ictimai.

Bu fəsildə əsas diqqət ayrı-ayrı subyektlərə, xüsusilə əhalinin aztəminatlı qruplarına münasibətdə maddi tələbatlar üzərində mərkəzləşəcək.

Amillərin bütün bu qrupları (şərti olaraq onları müvafiq surıtdı ictimai-sivil, təbii-coğrafi, sosial və ya sosial-iqtisadi adlandıraq) bir-birinə sıx şəkildə qarşılıqlı təsir göstərir. Lakin insan cəmiyyəti inkişafının müxtəlif mərhələlərində onların təsiri eyni deyil.

Həyat səviyyəsi maddi və mənəvi tələbatları təmin olunma həddini və dərəcəsini daha çox kəmiyyət ölçülərində (pul və natura vahidləri) səciyyələndirir. Ona milli gəlirin səviyyəsi, əmək haqqının miqdarı, real gəlirlər, istifadə olunan xidmətlərin həcmi, ərzaq və qeyri-ərzaq mallarını işlətmə səviyyəsi, iş və sərbəst vaxtın müddəti, yaşayış şəraiti, təhsilin, səhiyyənin, mədəniyyətin səviyyəsi və s. kimi göstəricilər daxildir.

20.3. Əhali gəlirlərinin tənzimlənməsi

Həyat səviyyəsinin belə geniş izahı əhalinin iqtisadi vəziyyətini səciyyələndirir. Dar mənada o, tələbatların ödənilmə səviyyəsi və buna uyğun gəlir səviyyəsi mənasını verir. Ona görə də, çox zaman əhalinin həyat səviyyəsinin ümumi göstəricisi, onun maddi və mənəvi tələbatlarının ödənilməsi kimi *əhalinin real gəlirlərini* nəzərdən keçirirlər.

Həyat səviyyəsinin mühüm göstəricisi – ailənin minimal tələbat büdcəsidir. O, istehsaledici qüvvələrin mövcud inkişaf səviyyəsi nəzərə alınmaqla, maddi nemətlər və xidmətləri sərf etmənin minimal olaraq zəruri səviyyəsindən təşkil olunur və insanın (ailənin) minimal tələbatlarını (pul və natural formada) ifadə edir.

Minimal istehlak büdcəsi qidalanma, qeyri-ərzaq malları, xidmətlər, vergilər və başqa ödəmələrin daxil olduğu minimal yaşayış həddinin tərkib hissəsidir. Aydındır ki, aztəminatlı və kasıb ailələrdə qidalanma

əsas məxaric maddəsidir. Varlı və zənfin təbəqələrdə xərclərin başqa strukturu var.

Həmçinin qeyd etmək lazımdır ki, qeyri-ərzaq mallarının xərclənməsi maddəsinə indi yalnız ən zəruri əşyalar, sanitariya və gigiyena predmetləri, dərmanlar aid edilir, xidmətlər isə yalnız yaşayış yeri və nəqliyyata sərfi nəzərdə tutur. Hazırki yaşayış minimumu uzunmüddətli istifadə əşyalarının (geyim, ayaqqabı, mebel və s.) alınmasını nəzərdə tutmur. Fikrimizcə, bu, təkcə iqtisadiyyatın vəziyyətini deyil, müasir Rusiya dövlətinnin sosial siyasətini əks etdirir.

Minimal istehlak büdcəsi – yoxsulluğun özünəməxsus hesablama nöqtəsidir. Yoxsul və ya aztəminatlılar – bir ailə üzvünə aylıq gəliri minimal istehsal səbətindən (minimal istehlak büdcəsindən) az olan, yaxud minimal əmək haqqına bərabər olan şəxslərdir.

Cəmiyyətdə yuxarıda haqqında danışdığımız yoxsulluq səviyyəsi minimal əmək haqqının, təqaüdlərin, müavinətlərin, stipendiyaların verilməsi, vətəndaşların qocalar, əlillər evlərində, uşaqların uşaq bağçalarında və uşaq evində, xəstələrin xəstəxanalarda, məhkumların islah-əmək müəssisələrində saxlanmasının məxaric smetasının miqdarının təyin edilməsində istifadə olunur.

Əhalinin həyat səviyyəsinin tənzimlənməsi mərkəzləşdirilmiş halda yerinə yetirilirdisə, indi bu problem yeni metodlarla həll olunur. Onlardan ən əsası indeksasiya kompensasiyasıdır.

İndeksasiya, gəlirlərin avtomatik düzəldilməsi mexanizmi kimi getdikcə artan həyat dəyərini qismən və ya tam ödəməyə xidmət edir.

Xarici və yerli təcrübə göstərir ki, indeksasiya iki yolla həyata keçirilir:

1. Müəyyən müddətdən bir (ildə bir dəfə, kvartalda bir dəfə) gəlirlərin müəyyən faiz artırılması yolu ilə;
2. Qiymətlər artdıqca gəlirlərin qabaqcadan müəyyənləşdirilmiş faizə qədər dəyişdirilməsi yolu ilə.

Bir qayda olaraq, vətəndaşların pul gəlirlərinin (əməkhaqqı, pensiya, müavinət, təqaüd, birdəfəlik ödəmələr istisna olmaqla, sosial ödəmələrin

bütün növləri) bütün növləri indeksasiya edilir. Mülkiyyətdən gələn (aksiyalar, paylar, daşınmaz əmlak) gəlirlər indeksasiyaya məruz qalmır.

İndeksasiya üzrə ödəmələr dövlət və yerli büdcələr hesabına, ictimai təşkilatların vəsaitləri hesabına və kommersiya əsasında işləyən müəssisə və idarələrin vəsaitləri hesabına həyata keçirilir. Bu, kollektiv müqavilələr yazılarkən nəzərə alınmalıdır.

Adamların həyat səviyyəsini tənzimləyən digər metod kompensasiyadır. Bu, qiymətlərin qalxmasının başlanması, yaxud gözlənilməsi, millətlərarası münaqişələr, təbii fəlakətlər (zəlzələlər, daşqınlar və s.) nəticəsində hakimiyyət orqanları tərəfindən əhalinin bu və ya digər qruplarına xərclərin ödənilməsidir. İndeksasiyadan fərqli olaraq, kompensasiya adamları daima, müntəzəm olaraq dəstəkləməyi nəzərdə tutmur. İcra orqanları əllərində olan maliyyə vəsaitlərindən çıxış edərək, bu cür sosial yardım göstərirlər.

Əhali gəlirlərini tənzimləmənin hər bir yolunun öz müsbət və mənfi cəhətləri var. Ölkədə qərarlaşmış vəziyyətdən iqtisadi (maliyyə) imkanlardan, dövlətin apardığı sosial siyasətin məqsəd və vəzifələrindən asılı olaraq onlardan birinə üstünlük verilir.

Aztəminatlı vətəndaşların sosial müdafiəsi üzrə dövlətin həyata keçirdiyi ən mühüm tədbirlər aşağıdakılardır:

- Güzəştli vergilərin qoyulması;
- Pulsuz, yaxud güzəştli xidmətlərin göstərilməsi (səhiyyədə, nəqliyyatda, kommunal xidmətlərin göstərilməsində və s.);
- Uşaqlara və işsizliyə görə müavinətlər, təqaüdlər və s.

Yekun olaraq qeyd etmək istərdik ki, indi dövlət əhalinin ehtiyacı olan bütün qruplarına hərtərəfli köməyi təşkil edə bilmədiyindən, aztəminatlılarının sosial dəstəklənməsində ölkə xeyriyyəçiliyinin (dərin tarixi köklərə malik olan) inkişafı olduqca mühüm əhəmiyyət kəsb edir. müxtəlif xeyriyyəçilik təşkilatları, fondlar, sənaye müəssisələri, kommersiya və qeyri-kommersiya strukturları imkansızların pulsuz qidalanmasının təşkili, onların geyim, ayaqqabı, hərəkət vasitələri, yataq dəstləri, qida məhsulları ilə təmin olunması, teatr və konsert zallarına getmələri, tibbi xidmətlərin təşkili, əmək veteranları evlərinin

saxlanması, təqaüdçülərə, xəstələrə, əlillərə evdə köməyin göstərilməsi və s. üçün xeyli vəsait ayırırlar.

20.4. Sosial işdə fərdi işin texnoloji prosesin 3 əsas mərhələsi

Praktik sosial işdə belə hesab edilir ki, fərdi işin texnoloji prosesi üç əsas mərhələdən ibarət olmalıdır. Prosesin tərkib hissələrinə belə ayrılması mütəxəssisə nəinki ardıcıl hərəkət etmək, həm də səmərəlilik baxımdan özünün hər bir hərəkətini mərhələlər üzrə qiymətləndirmək imkanı verər, eyni zamanda işə yeni başlayan mütəxəssisə işin bu növü üçün zəruri olan vərdişlərə bir-birinin ardınca yiyələnməyə kömək edər. Əlbəttə, real təcrübədə texnoloji prosesin pillələri, dərs vəsaitlərində olduğu kimi, bir-birindən belə dəqiq ayrılmayıb, çünki onlar qarşılıqlı surətdə kəsişə, bəzən də biri digəri ilə əvəz oluna bilər. Hətta mərhələlərin sərhədləri silinə də bilər, çünki kliyent real sosial mühitdə yaşayır və mütəxəssislə qarşılıqlı əlaqə prosesi müddətində eyni zamanda özünəyardım metodlarından istifadə edir. Lakin mütəxəssis kliyentə, bir mərhələdən digərinə asanlıqla keçərək, köməkedici prosesdə iştirak etmək imkanı yaradar.

Birinci mərhələ, bir qayda olaraq, real şəraitin qiymətləndirilməsidir. Mütəxəssis fəaliyyətinin əsas prinsipi ondan ibarətdir ki, kliyentə onun problem vəziyyəti ilə bağlı işinin real durumunu özü üçün müəyyənləşdirməyə və aydınlaşdırmağa, həmçinin öz probleminin bu vaxta qədər istifadə olunmamış həlli yollarını görməyə kömək etsin.

Öz probleminin xarakterini müəyyənləşdirməyə və onun mahiyyətini anlamayanadək, kliyent problemli vəziyyətdən heç vaxt çıxa bilməz və müvafiq vasitələrdən istifadə etmək imkanlarından məhrum olur.

İkinci mərhələ ondan ibarətdir ki, kömək üçün mütəxəssisə müraciət edərkən kliyentin nəyə cəhd göstərməsinə, hansı nəticələr gözləməsinə aydınlıq gətirilsin. Burada mütəxəssisin hərəkətlərinin əsas prinsipi kliyentə nəyə nail olmaq istədiyini özü üçün dərk etməyə, başa düşməyə kömək etməkdir, yəni o, qabaqcadan problemli vəziyyətin

xarakterini və hələ istifadə etmədiyi imkanlarını özü üçün aydınlaşdırıb, kömək almaqdan ötrü etdiyi müraciətin məqsəd və vəzifələrini müəyyənləşdirməlidir. Bu mərhələ "Siz nə istəyirsiniz?", "Yüngülləşərkən sizinlə nə baş verəcək?" kimi suallara verilən cavablarla bağlıdır. Bu mərhələ kliyentin əldə edə biləcəyi nəticələrin qiymətləndirilməsi ilə əlaqədardır.

Üçüncü mərhələ - sosial hərəkətdir (əmələdir). Bu mərhələdə mütəxəssisin əsas prinsipi ondan ibarətdir ki, kliyentə qarşısına qoyduğu məqsədə uyğun olaraq hərəkət etməyə və istədiyinə həqiqətən nail olmağa kömək etsin. Kliyent nə istədiyini, hansı istiqamətdə hərəkət etmək lazım gələcəyini bilər, lakin ona bunu necə etməyi aydınlaşdırmaqda kömək etmək vacibdir. Bu mərhələ nəticələrə nail olmaq üçün konkret aktiv hərəkətlərlə bağlıdır.

Hər üç mərhələ mahiyyət etibarilə koqnitiv, yəni idrakidir. Texnika ünsiyyətdən və hərəkətlərin planlaşdırılmasından ibarətdir. Ünsiyyət isə, son nəticədə, hərəkətə gətirib çıxarmalıdır. Hər üç mərhələdə qarşılıqlı təsirin lap əvvəlindən işin əsas vektoru kliyentin müstəqil hərəkətlərinə (əlbəttə, hüquq çərçivəsində) tərəf istiqamətlənmişdir. Kömək prosesinin səmərəli olması üçün bütün qarşılıqlı təsir boyunca daim gündəlik həyatda fəaliyyət göstərmək lazımdır.

Prosesin hər fazası da öz növbəsində üç pilləyə ayrılır. Həm də onlardan birinin digərinin ardınca gəlməsi mütləq deyil. Lazım gələrsə, kliyent istədiyi nəticəyə nail olana qədər bir pillədən, yaxud fazadan və ya mərhələdən digərinə adlaya bilər, ya da artıq keçdiklərinə qayıda bilər və s. Səriştəli peşəkar yardım çeviklik və rəvanlıq kimi parametrlərlə səciyyələnir. Təcrübədə yardımgöstərmə prosesi bu vəsaitdə yazılan kimi düzxətli və dəqiq deyil. Lakin biz indi baza vərdişlərindən danışdığımıza görə onlar mütəxəssis tərəfindən məhz əsas, özüü kimi başa düşülərək, yaradıcı surətdə istifadə olunmalıdır. Yada salaq ki, sosial işin tez-tez elmi biliklərə əsaslanan incəsənət anlayışı ilə xarakterizə olunması təsadüfi deyil.

Beləliklə, hər şeyi yerbəyer etməyə çalışaq. Doğrudur, nəzərə almaq lazımdır ki, faza və pillələrin təsvirini nümayiş etdirərkən biz kliyent və mütəxəssisin qarşılıqlı təsir prosesinin, eyni zamanda onların işinin nəticələrinin təsvirini şüurlu olaraq sadələşdiririk.

20.5. Fərdi işin texnoloji prosesinin fazaları və hər fazanın mərhələləri

Birinci faza. Problemli vəziyyətin və istifadə olunmamış imkanların dərk edilməsi.

O üç mərhələyə bölünür:

Birinci mərhələ. Vəziyyətin aydınlaşdırılması.

Əsas vəzifə: kliyentə öz vəziyyətini mümkün qədər aydın və dəqiq danışmağa kömək etmək.

Əgər kliyent öz həyat vəziyyətinin (şəraitinin) bütün mənfi cəhətlərini və mahiyyətcə barışmaq mümkün olan bəzi məqamlarını görə bilməsə, mütəxəssis ona köməklik göstərə bilməz. Ona görə də kliyent öz həyat vəziyyətini mümkün qədər ətraflı danışmalıdır ki, özü üçün problemin nədən ibarət olduğunu, hansı imkanları əldən qaçırdığını aydınlaşdırsın və bir daha çətin vəziyyətə düşməsin. Bəzi kliyentlər söhbətcil olur, hətta digərlərinə danışmaq belə çətindir. Bəzi kliyentlərə onları narahat edən fikirlər ifadə etmək asandır, başqaları çəkişmələri barədə danışmağa özlərini məcbur edə bilmirlər. Öz arzusu olmadan mütəxəssislə söhbət etməyə məcbur olan kliyentlər özləri haqqında yox, onları mütəxəssisə müraciət etməyə təhrik edən şəxslər barədə danışmağı üstün tuturlar.

Kliyenti "dilə gətirmək", öz çəkişmələrindən açıq danışmasına kömək etmək, danışmaqda çox çətinlik çəkənləri dəstəkləmək üçün mütəxəssis xüsusi vərdişlərə malik olmalıdır. Beləliklə, bu mərhələnin məqsədi kliyentin düşdüyü vəziyyətin açıq müzakirəsinə nail olmaqdır.

İkinci mərhələ. Kliyentin şəxsiyyətində qüsur və zəifliklərin axtarılması və tapılması.

Bu mərhələdə mütəxəssis işinin vəzifəsi kliyentə öz problemini real qiymətləndirməyə mane olan müxtəlif nöqsan və zəifliklərini,

indiyədək istifadə edilməmiş imkanlarını aşkar etməyə, görməyə kömək etməkdən ibarətdir.

Təcrübəli mütəxəssis yaxşı bilir ki, sadəcə olaraq kliyentin hekayətini qəbul etmək, onu ruhlandırmaq və lazım gəldikdə öz şübhələrini bildirməmək ona heç nə verməz, bu, səthi addım olar. Eyni zamanda kliyentə dəstək göstərmədən dediklərinin həqiqiliyini şübhə altına almaq onun "alçaldılmasına" və daxilən məhv olmasına gətirib çıxarar. Hadisələrin təsvirinin həqiqiliyini şübhə altına almaq yeni imkan axtarılması prosesi üçün yaxşı şərait yaradar.

Üçüncü mərhələ. Məqsədə nail olmaq üsullarının axtarılması.

Burada mütəxəssisin işinin əsas vəzifəsi kliyentə öz problemi ilə "işləməyə": həyatında hər hansı bir dəyişikliyin yaranması üçün mübahisəli məsələləri, mümkün nəticələri, müxtəlif imkan variantlarını müəyyənləşdirməyə kömək etməkdir.

Əvvəla, kliyentin üzləşdiyi problemli vəziyyət mürəkkəbliyi ilə, müxtəlif səviyyəli bir neçə hissədən ibarət olduqda, mütəxəssis ilk növbədə üzərində işlənməsi vacib olan bir və ya bir neçə məsələni axtarıb tapmaqda ona kömək etməlidir. İkinci, əgər problemin həlli (maliyyə və psixoloji xarakterli) nəzərə çarpacaq xərclərlə bağlıdırsa, problemli vəziyyətdən çıxış yolunun "maya dəyərini" qiymətləndirmək vacibdir. Başqa sözlə, belə bir suala cavab vermək gərəkdir: mövcud olan bu problem onun həllinə sərf olunacaq vaxta və səylərə dəyərmi?

Köməyin göstərilməsi prosesi kliyentin gündəlik həyatını pozmamalıdır. Kliyentə hər hansı bir perspektivi görməyə, özünə inanmağa lap əvvəldən kömək etmək zəruridir. Köməyin göstərilməsi prosesi olduqca çevik, bəzən isə ziddiyyətlidir. Bütün problemlərin həlli üçün vahid formul yoxdur. Lakin prinsip vahid olaraq qalır: həll olunmamış problemi yerindən tərpədəcək fəaliyyət variantlarını tapmaqda kliyentə kömək etmək.

Bu mərhələdə mütəxəssisin əsas vəzifəsi kliyenti fəallığa sövq etməkdir. Kliyent nəinki sosial işçi ilə söhbət zamanı, həm də gündəlik həyatda fəal olmalıdır.

Son nəticədə kömək göstərilmənin məqsədi kliyentin həyatında əməli dəyişikliklərə nail olmaqdan ibarətdir. Həqiqətən də, problemloi vəziyyətin, istifadə olunmamış imkanların müzakirəsi, qarşıya qoyulmuş məqsədə çatmağa yönəldilmiş strategiyaların işlənib hazırlanması – bütün bunlar söhbətdir, iş deyil. İşlər sehrli çubuğun təsiri ilə ani olaraq yerinə yetirilmir – bu, ağır zəhmətdir. Kliyent fəallıq göstərmirsə, öz-özünə heç nə baş verməyəcək. Köməkedici prosesdə iki tip hərəkət vacibdir: mütəxəssislə söhbət zamanı kliyentin aktiv işi və onun gündəlik həyatdakı konkret hərəkətləri ideal olaraq, kliyent öz fəaliyyəti nəticəsində özünə kömək etməyə başlayır, yəni dəyişikliklər prosesinin obyekti yox, fəal subyekti olur.

Köməkedici prosesin bütün faza və mərhələləri ən yaxşı halda kliyentin özünün hərəkətləri üçün bir katalizator, impulsdur. Sosial xidmətdən kənarda, gündəlik həyatda kliyentin hərəkətləri – təsadüfi, qeyri-ixtiyari olmayıb, öz dayanıqsız vəziyyətini tərpənməz nöqtədən çəkib çıxarmağa, həyatda inamlı olmağa istiqamətlənmiş məqsədyönlü hərəkətlərdir. Əgər işin nəticəsi konkret bir hərəkətdə ifadə olunmursa, kliyentin və ya mütəxəssisin "biz bu gün yaxşı işlədik" deməsi heç bir məna kəsb etmir.

İkinci faza. Fəaliyyət planının işlənib hazırlanması.

Bu faza zamanı kliyent mütəxəssislə işləmək nəticəsində nə əldə edəcəyi, yəni problemli vəziyyətdən çıxmağın fərz edilən nəticələri barədə düşünür.

Birinci mərhələ. Hadisələrin mümkün variantlarının işlənilib hazırlanması.

Bu mərhələdə mütəxəssis fəaliyyətinin vəzifəsi gələcəkdə kliyentin qarşısında açıla biləcək imkanların geniş spektrini görməkdə ona kömək etməkdir.

Bu mərhələdə mütəxəssis kliyentin vəziyyətini başa düşərək, ona aşağıdakı suallara cavab tapmağa kömək edir. "Mən həqiqətən nə istəyirəm?", "Həyatım yaxşılığa doğru dəyişərsə, o necə qurula bilər?". Həyat təcrübəsi, tədqiqatların nəticələri göstərir ki, çox az bir qismimiz problemli şərait və ya əldən verilmiş imkanlarla

rastlaşarkən, özünə bu tipli suallar verir: “Mən bu çətin vəziyyətdən çıxdıqdan sonra mənimlə nə baş verəcək?”, “Mən itirdiyimin əvəzinə nə qazanacağam?”. Bu suallar olduqca vacibdir. Bundan əlavə, həmin suallar “işləyir”, çünki kliyentlərə öz xəyalından istifadə etməyə və gələcək – fikrən indikindən daha yaxşı olacaq – həyatın konturlarını cızmağa kömək edir.

Gələcəyin planlaşdırılması – idealizm və mümkün olmayan, yaxud həyata keçməyənlər haqqında arzu deyil, bu, sadəcə gələcək üçün həyat perspektivlərinin tərtib olunmasıdır.

Bu mərhələdə belə bir sualı cavablandırmağa kömək etmək çox vacibdir: “Axı mən nə istəyirəm?”. Hətta cavab həqiqətə uyğun olmasa belə, kliyentin gələcək həyatın mənzərəsini təsvir etməsi üçün öz təxəyyülündən istifadə etmək cəhdlərini qırmaq olmaz. Sonralar öz imkanları haqqında daha realist mövqe tutmaqda kliyentə kömək etmək olar, lakin bu mərhələdə əsas və səmərəli olan, məhz təxəyyülü oyatmaqdır.

İkinci mərhələ. İmkanların real məqsədə keçirilməsi.

Mütəxəssisin işində əsas vəzifə ondan ibarətdir ki, potensial perspektivlər toplusundan daha real olanı seçərək, onları həqiqi məqsədə çevirməkdə kliyentə köməklik göstərsin. Bu mərhələdə artıq “Siz nə istəyirsiniz?” sualına yox, “Siz həqiqətən nə istəyirsiniz?” sualına cavab vermək vacibdir. Bu mərhələdə kliyentin nəzərdə tutduğu məqsədlər gələcəkdə konkret əməllərin sırası olacaq daha konkret cizgilər kəsb edir.

Üçüncü mərhələ. Əməli dəyişikliklər proqramının işlənilib hazırlanması.

Mütəxəssisin işində əsas vəzifə kliyentə təhrikedici motivləri müəyyənləşdirməkdə kömək etməkdir. Onlar nəzərdə tutulmuş nəticələrə nail olmağı real tərzdə arzulamaqda kömək edəcək.

Kliyent mütəxəssisdən nə istəyir?

Birincisi – məqsədi müəyyənləşdirmək.

İkincisi – onu fəaliyyətə təhrik etmək.

Ancaq konkret olaraq nə isə etmək üçün qərar qəbul etmək lazımdır. Ona görə də hərəkət etmək qətiyyətini əldə etmək üçün qərar qəbul etmək lazımdır. Ona görə də hərəkət etmək qətiyyətini əldə etmək bu mərhələ üçün əsasdır. İnsan problemli vəziyyətlə üzləşdikdə ona eyni zamanda mümkün variantlar arasından bir və ya bir neçəsini seçmək lazım gəlir. Bu seçimin mexanizmi necədir? Bu və ya digər seçim üçün təhrikedici motivlər hansılardır? Həmin suallara cavab bu mərhələnin mahiyyətini təşkil edir.

Bu faza uğurla başa çatarsa, kliyent nə istədiyini, nəyə nail olmaq istədiyini, hətta konkret olaraq necə hərəkət edəcəyini bilməsə belə, hansı istiqamətdə getmək istədiyini aydın təsəvvür edir.

Üçüncü faza. Konkret əməllər strategiyasının müəyyənləşdirilməsi.

Fərdi sosial işdə texnologiya prosesinin əvvəlki fazası kliyentin nə istəməsi, nəyə nail olmaq istəməsi ilə bağlı suallara verilən cavablarla bağlı idi. Üçüncü faza arzu edilənə necə nail olmaq sualına verilən cavabla əlaqədardır.

Birinci mərhələ. Strategiyanın qiymətləndirilməsi.

Bu mərhələdə mütəxəssisin işində əsas vəzifə ondan ibarətdir ki, kliyentə əvvəllər qarşıya qoyulmuş məqsədə aparan yolların marşrutu olan xəritəni öz qarşısında yerbəyer etməyə kömək etsin, ya da indi demək dəbdə olduğu kimi, qarşıya qoyulmuş məqsədə yönələn strateji addımlara münasibətdə "beyin həmləsi"nə başlamağa kliyentə köməklik göstərsin.

Kliyent "Arzu etdiyim məqsədə mən necə çatacağam?" sualına cavab verməlidir. "Gedəcəyim marşrutu necə müəyyən etməli?". Bəzi kliyentlər nə istədikləri barədə qərar qəbul edərkən birinci olaraq ağıllarına gələni seçirlər. Onların motivasiyası güclü və inandırıcı olsa belə, hərəkətlərinin strategiyası ya az təsirli, ya şübhəli, ya da ümumiyyətlə faydasız ola bilər, yaxud hər üç strategiyanın birləşməsindən ibarət ola bilər.

Birinci mərhələdə hərəkətlərin mümkün qədər çox strateji variantı işlənib hazırlanmalıdır. Hətta ən ağlasığmaz ideyalar belə real hərəkətlər proqramı üçün həqiqi açar ola bilər.

İkinci mərhələ. Əməllərin ən yaxşı variantlarının seçilməsi.

Mütəxəssisin vəzifəsi kliyentə əməllərin elə variantlarını seçməkdə kömək etməkdir ki, onlar onun həm daxili, həm də xarici imkanlarına optimal olaraq uyğun gəlsinlər.

Əməllərin variantları müəyyən olunduqdan sonra, kliyent mütəxəssislə birgə onları təhlil edir və ən yaxşılarını seçməyə çalışırlar. Bu, vahid bir strategiya, yaxud variantların birləşməsi ola bilər, lakin istənilən halda belə strategiya kliyentin tələbatlarına, daha üstün tutduqlarına optimal olaraq uyğun gəlməlidir, eləcə də kliyentin sosial əhatəsinin bu və ya digər amillərini təcrid etməyəcək ehtiyatlara müvafiq olmalıdır. Başqa sözlə, strategiyalar məqsədə çatmaq tələbatlarına uyğun olmalı, maksimal dərəcədə reallığa yaxınlaşmalıdır. Həmçinin hərəkət variantları kliyentin dəyərlər sisteminə tamamilə uyğun gəlməlidir.

Strategiyaların daha perspektivli variantlarını seçmək üçün ən mühüm şərt realizmdir. Doğrudan da, özünü qabaqcadan uğursuzluğa məhkum etmənin nə mənası var? Kliyentlə işin bu mərhələsində mütəxəssisə xüsusilə ehtiyatlı olmaq lazımdır. Bəzən kliyentlər onları müəyyən ideala çatmağa vadar edən strategiyalar seçirlər. Prinsipcə belə seçim çox əladır, lakin ideallar real olaraq əldə edilə bilən olmalıdır.

Üçüncü mərhələ. Strategiyanın fəaliyyətə gətirilməsi.

Mütəxəssisin əsas vəzifəsi ondan ibarətdir ki, kliyentə nəzərdə tutulmuş məqsədin həyata keçməsinə yönəlmiş ətraflı, addımlar üzrə hərəkət planını qısaca ifadə etməyə köməklik göstərsin.

Kliyentlər, ilk növbədə, ikinci, üçüncü və s. növbədə nə etmək lazım olduğunu bildikdə fəallıq göstərməyə hazır olurlar. Onların seçdiyi strategiyalar konkret mərhələli hərəkət planına çevrilməlidir. Burada hər bir mərhələyə ayrılan vaxtın qeydə alınması böyük əhəmiyyətə malikdir. Plan kliyentə öz vaxtını düzgün təşkil etməyə imkan verir, onu intizamlı edir.

Bu mərhələnin əsas məqamı məsuliyyətlilik və şəxsi intizamdır.

Planın təhlil olunması. Kliyentlərin hazırlığı və dəstəklənməsi.

Planlaşdırma funksiyası kliyentlərin öz problemlərinin həll edilməsi və əlverişli imkanlardan istifadə olunması üzrə hərəkətlərini istiqamətləndirir. Bu elə bir özünəməxsus keçid mərhələsidir ki, bu zaman mütəxəssis kliyenti nəzərdə tutulmuş proqramı həyata keçirmək üçün fəal hərəkətlərə hazırlamalıdır. Təcrübəli mütəxəssis kliyenti rastlaşa biləcəyi çətinlik və maneələri görməyə və dərk etməyə kömək etməlidir.

Bu mərhələdə mütəxəssisin ikinci vəzifəsi ondan ibarətdir ki, kliyentə təşəbbüslərində, ilk fəal hərəkətlərində, seçimində hərtərəfli dəstək olsun. Kliyentə həm sığortalanma şəklində, həm sosial işçi, həm də onun yaxın əhatəsi tərəfindən dəstək və kömək vacibdir. Bundan əlavə mütəxəssis kliyentə əməli dəyişikliklər proqramını həyata keçirmək üçün zəruri olan bütün ehtiyatları səfərbər etməkdə yardım göstərməlidir.

Ümumən qəbul edilmiş praktikada prosesin qiymətləndirilməsi işin yekun mərhələsində keçirilir. Bununla belə, bizə elə gəlir ki, iş təkcə yolun sonunda qiymətləndirilsə xeyli gec ola bilər, çünki heç kim səhvlərdən sığortalanmayıb. Ona görə də prosesin özünün hər fazasında özünə qiymət vermək düzgün və daha səmərəli olardı. Qiymətləndirmə həm mütəxəssisin özü, həm də kliyent tərəfindən verilməlidir. Öz hərəkətlərini qiymətləndirərkən, bu suallara cavab vermək vacibdir: “Mütəxəssislə görüş probleminin həllinə və əlverişli imkanların inkişafına necə təsir göstərdi?”, “Bu təsir əhəmiyyəti idimi?”.

Yardım hər şeydən əvvəl kliyentin tələbatlarına istinad etdiyindən, olduqca çevik olmalıdır. Sosial işin real təcrübəsində heç bir vəchlə bu və ya digər iş modellərini mexaniki olaraq təkrarlamaq olmaz. Real həyatda kliyentlər sərt sxemlər üzrə yaşamırlar. Bəzi kliyentlər bütün problemlərini özləri və mütəxəssis üçün dərhal açıqlamağa qabil deyillər, ona görə də birinci faza həmin an sona çatmaya da bilər. Bu o demək deyil ki, mütəxəssis işin sonrakı fazalarında verilən tövsiyələrə uyğun hərəkət etməyə cəhd göstərməməlidir. Söhbət ondan gedir ki, yardım göstərilməsi prosesində yuxarıda təsvir edilən işin ayrı-ayrı fazalarında paralel hərəkətlər tamamilə mümkündür.

Mütəxəssis kliyentlərlə peşəkarcasına işləməyə başlayarkən bütün bunları nəzərə almaq lazımdır. Məqsəd – problemin həlli və kliyentin potensialının inkişafı, marşrut-yardım göstərilmə prosesidir.

Mövzu 21. Valideynlərini itirmiş uşaqlarla və gənclərlə sosial işin texnologiyaları

21.1. Valideynlərini itirmiş uşaqlarla sosial işin texnologiyaları

21.2. Pedaqoji travmatizmin qarşısının alınması yolları

21.3. Özünüinkişaf motivasiyasının gücləndirilməsi

21.4. Gənclərlə sosial işin texnologiyaları

21.5. Gənclərin sosial müdafiəsi

21.1. Valideynlərini itirmiş uşaqlarla sosial işin texnologiyaları

Müasir şəraitdə uşaq bağçası və körpələr evində uşaqların saxlanması üçün ödəmə haqqı valideynlərin rifah halından asılı olaraq dəyişilir, sosial cəhətdən müdafiəsiz olanlar isə ondan tamamilə azad olunur. Uşaq müəssisələrində uşaqların qalma müddəti ailənin tələbat və imkanlarından asılıdır. Bəzi hallarda uşaqlar həftənin beş gününü uşaq bağçalarında keçirirlər.

Uşaq müəssisələrində tərbiyə təcrübədən keçmiş proqramlar əsasınlda qurulur. Uşaqların qrupn daxilində ünsiyyətə, fəaliyyətə öyrədilməsi, məktəbə hazırlıq onun zəruri elementini təşkil edir.

Məktəbəqədər yaşlı uşaqların sosial müdafiəsi təbabət, pedaqogika, istehsalatla qarşılıqlı əlaqədə həyata keçirilir. Əhalinin sosial müdafiəsi orqanları məktəbəqədər yaşlı uşaqların sağlamlığına və müalicəsinə şərait yaradır, bunun üçün məktəbəqədər yaşlıların sanatoriyalarda, yay bağlarında güzəştli şərtlərlə qalmasına imkan verilir.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi onların sosiallaşması məsələlərini həll edir. Kiçik yaşlılar davranış qaydalarını mənimsəyir, qrup fəaliyyətinə qoşulur, mədəniyyətin əsaslarına yiyələnirlər.

Sağlamlıq problemi və inkişafında pozuntular olan uşaqlar üçün geniş tədbirlər nəzərdə tutulmuşdur. Məqsədi adi məktəbdə təlimə hazırlıq olan xüsusi uşaq bağçaları mövcuddur. Bununla belə, məktəbəqədər yaşlıların səhhəti ilə bağlı problemləri olanların bir hissəsi xüsusi məktəbdə oxumaq üçün hazırlıq keçir.

Məktəblilərin sosial müdafiə sistemi məktəbdə, məktəbdənkənar müəssisələrdə keçirilən müxtəlif tədbirləri, ailə və ictimaiyyətlə işi üzvi şəkildə əhatə edir. Bu fəaliyyətin əsas nəticəsi məktəblilərdə sosial müdafiəliliyin formalaşması, yəni uğurlu sosial-peşə özünütəyinetməsinə inamı ehtiva edən sabit psixi vəziyyəti, eləcə də onların effektiv sosiallaşmasıdır. Sosial-pedaqoji iş istehsaledici əməyə, fasiləsiz təhsil sisteminə qoşulmağa imkan yaradır.

Təhsilin diferensiallaşdırılması məsələsi elə həll edilir ki, son nəticədə hər bir insan, istər məktəbli, istərsə də mütəxəssis olsun, konkret həyat situasiyalarına uyğun olaraq fasiləsiz təhsilin fərdi yollarını seçə bilsin. XX əsrin sonuncu onilliyində ümumtəhsil müəssisələrinin yeni tipləri meydana çıxmışdır. Ənənəvi ümumtəhsil məktəbləri ilə yanaşı, müxtəlif profilli (humanitar, klassik, milli, dini yönümlü və s.) gimnaziyalar fəaliyyətə başlamışdır. Məktəbdaxili diferensiallaşma profil (lisey), yəni xarici dil, iqtisadiyyat, sosiologiya, psixologiya, menecment, mədəniyyətşünaslıq və kompüter hazırlığı dərindən öyrənilən siniflərin yaradılması yolu ilə baş verir.

21.2. Pedaqoji travmatizmin qarşısının alınması yolları

Uşaqlığın sosial müdafiəsi özünə pedaqoji travmatizmin qarşısının alınmasını, uğursuz məktəblilərin, ikinci ilə qalanların olmadığı təlimi daxil edir, çünki belə məktəblilərə həyat fəaliyyətini bədbinləşdirən psixi halət xasdır. Bu yönümlü sosial iş profilaktik və terapevtik xarakter daşıyır. Praktik sosial-psixoloji işdən geniş istifadə olunur.

Məktəblilərin, ali və orta ixtisas məktəblərində təhsil alanların *peşəyönümü* sosial müdafiə məsələlərinin həllində ən vacib yollardan biridir. Lakin həmin iş kadr siyasəti olmadığından çətinləşir, bu isə iqtisadi böhrandan irəli gəlir.

Uşaq və yeniyetmələrin sosiallaşmasının mühüm istiqaməti onların deprivasiya (təhsil, psixoloji, mənəvi, sosial və b.) ilə, yəni mühüm şəxsi keyfiyyətlərin itirilməsi ilə bağlı reabilitasiyadır. Bu zaman şəxsi inkişaf üçün diaqnoz qoyulur, qabiliyyətlərin (perspektiv, intellektual, kommunikativ, praktik fəaliyyət) bərpa edilməsinin fərdi planı tərtib olunur, korreksiya qrupları təşkil edilir, kollektiv fəaliyyətdə sosial

baxımdan dəyərli biliklər əldə etməyə və onları əməkdə, ünsiyyətdə, şəxsi həyatda tətbiq etmək bacarıqlarına yiyələnməyə imkan verən aktual məşğələlər seçilir.

Məktəbdə sosial iş – sosial orqanları, müəssisələr və ictimaiyyət adından çıxış edən müəllimlər, tərbiyəçilər, sosial pedaqoqlar, psixoloqlar tərəfindən aparılır. Bununla belə qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların və məktəblilərin sosial müdafiəsi sahəsində kadr problemi ilk növbədə iqtisadi səbəblər üzündən mürəkkəb olaraq qalır. Məhz onlar böyüməkdə olan nəslin sosial müdafiəsi ilə bilavasitə məşğul olan mütəxəssislərin sayının artmasını ləngidir.

Hazırda uşaq evlərində tərbiyə alanların əksəriyyəti ailə əlaqələrinin zəifləməsindən və ailənin dağılmasından irəli gələn sosial yetimliyin qurbanlarıdır. Onlar arasında xroniki alkoqoliklərin uşaqları və irsi xəstəlikləri olan uşaqlar getdikcə azalmaqdadır. Onların valideynləri psixi və fiziki cəhətdən tamamilə sağlam, lakin sosial baxımdan deprivasiyaya məruz qalmış şəxslərdir. Yeni nəslin tərbiyə olunanları daha geniş dünyagörüşləri ilə fərqlənir və onların maddi nemətlərdən istifadə etməkdə təcrübələri var. Onlar üçün, çıxdıqları mühitdə olduğu kimi, intellektual tələbatların olmaması səciyyəvidir.

Uşaq evində olduğu müddətdə uşaq müasir dünyada həyat fəaliyyətinin sosial rollarını və mənəvi normalarını mənimsəyir. Bu baxımdan sosial həəyat ilə əlaqədar xüsusi aktuallıq kəsb edir.

Uşaq evlərində tərbiyə alanların sosial müdafiəsinin özəyini onlarda dostluq və məhəbbət hisslərinin, bunun əsasında isə qarşılıqlı köməyə hazırlığın tərbiyə olunması təşkil edir. Nəzərdən qaçırmaq olmaz ki, uşaq evinin qruplarında qarşılıqlı kömək rəqabətlə əlaqələnir. Tərbiyəçilər qrupları ünsiyyət, liderlik imkanlarını nəzərə alaraq təşkil etməlidirlər. Sosial iş bu təbii yarışmaya sivil forma verməlidir. Uşaq və yeniyetmələrin ailə həyatına hazırlığı mürəkkəb mənəvi fonda baş verir. Belə ki, onlar valideynləri, qohumları olan uşaqları, eləcə də oğulluğa götürülmüş uşaqları qısqanırlar.

Uşaq evləri məzunları üçün sosiallaşma ilkin kapitalın toplanması kimi möhkəm sosial, hüquqi və iqtisadi əsasa malik olmalıdır. Bu işin

mərkəzində sosial müdafiənin formalaşdırılması durur. Son nəticədə internat-məktəb məzunlarının iqtisadi müstəqilliyi, iqtisadi azadlığı təmin olunur. Sosiallaşma bazar iqtisadiyyatı dəyərlərinin mənimsənilməsi əsasında səmərəli olur.

Uşaqlığın sosial müdafiəsi uşaqların təhsili və tərbiyəsi müəssisələrində inkişafın keyfiyyəti ilə daha çox müəyyən olunur. O cümlədən, uşaq evləri, internat-məktəblər, körpələr evləri ilə bağlı onların inkişafının aşağıdakı əsas müddəaları qəbul edilə bilər. Uşaq evinin kollektivi daxilində və onun əmək kollektivləri və ictimai təşkilatlarla əlaqələrində demokratik münasibətlər dərinləşdirilməlidir. Məktəbdənkənar kollektivlərlə əlaqələri təkcə maddi yardım istiqamətində deyil, həmçinin şagirdlərdə sosial müdafiənin formalaşdırlmasına, onların həyata hazırlığına, əmək prosesinə, fasiləsiz təhsil sisteminə qatılmalarına yönəltmək lazımdır.

İnternat-məktəbin fəaliyyətində uşaqların fərdi xüsusiyyətlərini nəzərə alan praktik-psixologiya və pedaqogikanın prinsipləri xüsusi aktuallıq kəsb edir. İlk növbədə, tərbiyə alanları onlar üçün maraqlı olan və bununla bərabər onların şəxsiyyət kimi inkişafını təmin edən fəaliyyətə, hər hansı ilkin peşə-texniki, bədii, musiqi təhsili almalarına cəlb etmək məqsədəuyğundur.

21.3. Özünüinkişaf motivasiyasının gücləndirilməsi

Təlim, əmək fəaliyyəti müvəffəqiyyətə nail olmağa yönəldilməlidir, bu, şəxsiyyətin *özünüinkişaf motivasiyasını* gücləndirir. Hər bir məktəbli öz inkişafının güclü tərəfləri barədə təsəvvür əldə edir. Uşaqlar bu keyfiyyətlərə istinad edərək ümumi təhsilin və ilkin ibtidai hazırlığın yüksək səviyyəsinə çatırlar. Fəaliyyətin müxtəlif növləri şagirdlərə fərdi xüsusiyyətlərinə uyğun olaraq təlim-əmək prosesinə qoşulmağa imkan yaradır.

Uşaq evinin əsas vəzifəsi – tərbiyə alanların sosiallaşmasıdır. Bu məqsədlə ailənin modelləşdirilməsi üzrə tədbirlər genişləndirilməlidir: böyük uşaqlar kiçiklərin qayğısına qalmalı, yaşlılara hörmət etməlidirlər. Ailə həyatına hazırlığı məqsədyönlü şəkildə elə aparmaq lazımdır ki,

tərbiyə alanlarda ailə təsərrüfatını aparmaq, ilkin yardım göstərmək, asudə vaxtını təşkil etmək vərdişləri əldə olunsun.

Təlim-əmək fəaliyyətində praktik elementləri gücləndirmək lazımdır. Məktəblilər həyatı, əməyi, istehsalatı elə formalarda öyrənməlidirlər ki, öz həyatlarında bundan istifadə etməyə hazır vəziyyətdə olsunlar (bostançılıq, peşələr, makinada yazma, kompüterdə işləmə və s.). Bu halda məşğələləri son maddi və tərbiyəvi nəticəyə yönəltmək məqsədəuyğundur.

Uşaq evində psixoloji iqlim yaxşılaşarsa, tərbiyə alanlarda şəxsiyyətin sosiallaşması daha effektli olar. Uşaqlarla, həmçinin bir-birilə münasibətdə qayğıkeşliyin, xeyirxahlığın artmasına çalışmaq lazımdır, münaqişələrdən uzaqlaşmaq, onların yarandığı təqdirdə isə danışıqlar və qarşılıqlı güzəşt vasitəsilə onları aradan qaldırmaq gərəkdir.

Gecə-gündüz özünü inkişaf məsələsi hər bir insana qarşı çıxır. Bu çətin prosesdə ilk udma və motivasiya, qəribə bir şəkildə, həyatınızdan narazılığınızdır. Həyatını və cəmiyyətdəki yerlərini az qane edir, amma ətraf mühit, statusu və həhyat tərzini dəyişdirmək üçün ilk növbədə özümüzü dəyişdirməyə başlamalıyıq. Onların bacarıqlarını inkişaf etdirmək, hər kəs həyat keyfiyyətini yaxşılaşdırmağa qadirdir.

Müasir intellektual, mənəvi və psixoloji təcrübələr özünü inkişaf etdirmə və özünü inkişaf yollarının ən geniş seçimini təklif edir, lakin hər bir fərd üçün bu yol, stereotiplərin pozulması və şəxsi inkişaf mərhələləri onların çatışmazlıqlarını aradan qaldırmaq və inkişaf etməkdə olan bir şəxsin qarşısını almaq üçün zəif cəhətləri aradan qaldırmaq, ciddi səy, ciddi motivasiya və daimi fəaliyyət tələb edir.

Özünü inkişaf etdirməyə və özünü inkişafa necə başlamağa nümunələr verməyə və göstəriş göstərməyinə dair ümumi tövsiyyələt verə bilər, amma bu prosesin ən başlıcası, insanın şəxsi arzusu və böyük işidir. Bu yolda ilk mərhələ motivasiya və hədəf qəbuludur.

Özünü inkişaf yolları və şəxsi özünü inkişaf yolları

Bir insan kimi özünü tanıtmaq, öz səhvlərini, nailiyyətlərini, yaxşı və pis keyfiyyətlərini təhlil etmək bir insana nəyə görə müəyyən

məqsədlərə nail olmadığı üün anlayış imkanı verir. Əvvəlcə həyatınızın dönüş nöqtələrini xatırlamaq və siyahı etmək lazımdır:

1. Acı və ya utanma səbəb olan öz hərəkətlər.
2. Sizə və sənə verdiyi təhqirlər.
3. Yaşamaq və inkişaf etdirməyə mane olan problemlərin siyahısı.
4. Müvəffəqiyyətin əldə olunmasına mane olan şəxsi səhvlər.

Şəxsiyyətin özünü inkişaf etdirməsi və özünü inkişafı onların səhvlərini, qüsurlarını və təqsirini tanımadan, mümkün olmur, çünki onlar tamamilə bütün insanlardır. Onların uğursuzluqlarını təqsirləndirməyin. Öz həyatınızın hekayəsi lazımsız bir şəkildə duygusal və faciəli olsalar belə, bir kənar haqqında oxuduğunuz kimi obyektiv və müstəqil olaraq müalicə etməliyik. Həyatınızın anını, yolunuza getməyincə, pozduğunu başa düşdüyünüzdə, özünüzü və başqalarını anlaya, qəbul edə və bağışlaya bilərsiniz. Öz-özünə acı, özünü günahlandırma və nifrət etmək bundan sonra yalnız bir dərs olacaq.

Özünü inkişaf etdirmək və özünü inkişaf yolları, həyatın bütün səviyyələrini əhatə edən bir neçə əsas mərhələdən ibarətdir:

- Mənəvi inkişaf
- Emosional vəziyyət
- İntellektual potensial
- Peşəkar nailiyyətlər
- Sosial vəziyyəti.

Yalnız bir istiqamətdə dəyişdirmək mümkün deyil, çünki bir insanın hər şey bir-birinə bağlıdır və fərdi bir quruluş təşkil edir. Məqsədə çatmaq üçün bir zərbə deyil, ancaq hər gün çətin bir iş olduğunu başa düşmək vacibdir. “Gündəlik müvəffəqiyyət gününüzə” başlayım və hər gün gündəmə gələn kiçik nailiyyətlərinizi və planlarınızı belə yazın.

Şəxsiyyət və bacarıqların inkişafı ilə bağlı müxtəlif ədəbiyyatlardan biri özü üçün özünü inkişaf etdirmək üçün kitablar tapa bilər və ən yaxşı müəlliflərin siyahısını verir. Oxucuların rəy və psixoloq məsləhətlərinə əsasən, özünüzü başa düşməyinizə və öz yolunuzu tapmağa kömək edəcək, yalnız layiqli ədəbiyyatın kiçik bir hissəsini gətirə bilərsiniz:

1. Peel Norman-“Pozitiv düşüncənin qüvvəsi”
2. Stiv Pavlina-“Ağıllı insanlar üçün şəxsi inkişaf”
3. John Kehoe-“Şüurlu bir şey edə bilər”
4. Dmitri Leuşkin-“Turbo-Qara Sincap”
5. Konstantin Şeremetev-“Bütün sürücülü beyin. Alçaldıcılığı necə idarə etmək olar?”
6. Adam Cekson-“10 Xoşbəxtlik sirrləri”
7. Viktor Vasiliev-“Ağ kitab”
8. Eric Berne-“İnsanlar oynadığı oyunlar”
9. Dan Millman-“Sülhün bir döyüşçünün yolu”
10. Eckhart Tolle-“İndi gücü”

21.4. Gənclərlə sosial işin texnologiyaları

Bazar iqtisadiyyatına keçid əhalinin ayrı-ayrı qruplarının, o cümlədən ənənəvi olaraq qabaqcıl ideyaların daşıyıcısı sayılan qrupların da sosial vəziyyətində əhəmiyyətli dəyişikliklər etmişdir. Yeni şəraitdə əsas yerlərdən biri gənclərə aiddir. Onların seçdiyi sosial yönümlər cəmiyyətin gələcəyini müəyyənləşdirəcək.

Sosioloji planda gənclərin sosial inkişaf meyllərində obyektiv amil sayılan ictimai tərəqqinin təsirinin iki tərəfi ayırd edilir. Bir tərəfdən, gənclərin cəmiyyətin sosial strukturuna qoşulması xüsusiyyətləri makromühitin dəyişilən obyektiv və subyektiv şəraiti vasitəsilə ifadə olunur, bu isə həm gənc nəslin sosial simasının formalaşmasına, həm də sosial strukturun özünün inkişaf səviyyəsinə təsir edir. Digər tərəfdən ictimai tərəqqi amilləri, gənclərin şüurunda əks olunaraq, onların davranış proqramlarında tələbatlarına, maraqlarına, sərvət meyllərinə təsir göstərir, son nəticədə bu da gənclərin sosial simasında əksini tapır.

Gənclik onu (başqalarına nisbətən) müstəqil sosial-demoqrafik qrup kimi müəyyənləşdirən ictimai münasibətlər və ictimai formalarla səciyyələnir. Xüsusi sosial-demoqrafik qrup kimi gənclik, hər şeydən əvvəl, onun obyektiv mahiyyətindən irəli gələn bir sıra xüsusiyyətlərə malikdir. Gənclərin sosial xüsusiyyətləri sosial strukturun istehsalı prosesində tutduğu spesifik mövqe ilə, habelə artıq bərqərar olmuş ictimai münasibətlərin nəinki varisi olmaq, eləcə də onları dəyişdirmək

bacarığı ilə, yəni gənc adamın əsas potensial qüvvələri ilə müəyyən olunur. Bu proses daxilində yaranan ziddiyyətlər gənclərin özünəməxsus problemlərinin bütöv bir kompleksinin əsasını təşkil edir.

Gənclər-sosial yetkinliyin təşəkkül dövrünü yaşayan xüsusi sosial-demoqrafik qrupdur. Onun mövqeyi cəmiyyətin sosial-iqtisadi vəziyyəti ilə müəyyən olunur.

Gənclik dövrünün hüdudları mütəhərrikdir. Onlar cəmiyyətin sosial-iqtisadi inkişafından, rifah və mədəniyyətin əldə edilmiş səviyyəsindən, adamların həyat şəraitindən asılıdır. Bu amillərin təsiri insanların həyat müddətində, gənclik dövrünün 14 yaşdan 30 yaşa kimi genişlənməsində təzahür edir. Aşağı yaş həddi onunla müəyyənləşir ki, məhz bu dövrdə yeniyetmə sosial planda ilk dəfə seçim hüququna malik olur: məktəbdə təlimini davam etdirmək, texniki və ya humanitar kollecə, liseyə daxil olmaq, yaxud işə düzəlmək. Otuz yaşa çatanda insan, bir qayda olaraq, peşəkar yetkinliyə nail olur, onun ailəsinin formalaşması sona çatır, o, cəmiyyətdə müəyyən mövqe tutur.

Ölkəmizdə doğumun aşağı düşməsi gəncliyin "qocalmasına" səbəb olub: 25-29 yaşlıların payı artıb.

Dövlət statistikasının məlumatına görə, XX əsrin 90-cı illərinin sonunda gənclər arasında ölüm qocalar arasında ölümə nisbətən 2 dəfə artmışdır.

Son zamanlar uşaq və gənclərin sağlamlığı problemmi xeyli kəskinləşmişdir. Yeniyetməlik yaşında xəstə uşaqların sayı artıa 90%-i keçmişdir. Gənclərin fiziki və mənəvi sağlamlığını sosial "xəstəliklər" məhv edir. Son 7 il ərzində onların irsi yolla keçən xəstəliklərə yoluxması 52 dəfə artmışdır.

Demoqrafik vəziyyət qətllərin və intiharların sayının artması hesabına çətinləşir. Təkcə 1998-ci ildə 762 adam intihar edib. Bundan əlavə, son 5 ildə narkotik maddələr qəbul edənlərin sayı 3,5 dəfədən çox artmışdır (narkomanların yaş kateqoriyası – 13-25 yaş həddindədir); iri şəhərlərdə məktəbli və tələbələr arasında narkomanların sayı 6-8 dəfə artmışdır. Toksikomaniya və alkoqolizm geniş yayılmışdır.

Xüsusi həyəcan doğuran meyllər sırasına gənclər arasında təhsil səviyyəsinin ən çox inkişaf etmiş ölkələrin əldə etdiyi səviyyədən geri

qalması; ümumi və peşə-texniki təhsilin nüfuzunun enməsinin sürətlənmsi; əmək fəaliyyətinə başlayan gənclərdən təhsil səviyyəsi aşağı olan və təhsilini davam etdirmək istəməyənlərin sayca artması; təhsilin bir çox həlqələrində istehlakçıların tələbatları nəzərə alınmadan "axın" şəklində fəhlə, qulluqçu və mütəxəssislərin istehsal edilməsinə yönəliş; ali, peşə və orta məktəb kadrlarının yeni şəraitdə işləməyə hazır olmaması; maddi-texniki bazanın bütün səviyyələrdə normativ tələblərdən geridə qalmasının güclənməsi; rus elminin gələcəyi olan aspirant heyətində intellektual səviyyənin aşağı düşməsi; istedadlı oğlan və qızların bir çox ali məktəblərdən, o cümlədən ölkədən axını aiddir.

İldən-ilə "qadın" cinayətlərinin sayı artır. Hüquq-müafizə orqanlarında qadın cinayətkarlığının "cavanlaşması" tendensiyası böyük həyəcan doğurur. Uşaq qətlini, bir qayda olaraq, həyatda özünü tapa bilməyən: ailəsiz, dolanmağa imkanı, yaşamağa yeri olmayan cavan qadınlar törədirlər.

Gənc nəslin əksər hissəsində etibarlı sosial yönümlərin olmadığı məlum olmuşdur. Sosiallaşmanın sosial baxımdan həyat yolunun qabaqcadan təyin edilməsinə əsaslanan ənənəvi formaların dağılması, bir tərəfdən, gəncləri seçim qarşısında qoyaraq, onların öz taleləri üçün məsuliyyəti artırmış, digər tərəfdən, onların çoxunun yeni ictimai münasibətlərə qoşulmasına hazır olmadığını aşkar etmişdir. Həyat yolunun seçilməsi cavan adamın təkcə qabiliyyətləri və maraqları ilə deyil, konkret şəraitlərlə müəyyən olunmağa başlanmışdır.

Təəssüf ki, mövcud iqtisadi və sosial proqramlar ictimai inkişaf prosesində gənc nəslin spesifik sosial mövqeyini, demək olar ki nəzərə almır. Bununla bağlı gənclərin sosial problemlərinə, gənc nəsillə sosial işin strukturu, forma, metod və meyarlarını müəyyənləşdirməyə diqqəti gücləndirmək vacibdir.

21.5. Gənclərin sosial müdafiəsi

"Əhaliyə sosial xidmət göstərilməsinin əsasları haqqında" qanunda əhaliyə, gənclər də daxil olmaqla, sosial xidmət göstərilməsinin kompleks sistemi çətin həyat şəraitinə düşmüş (çoxuşaqlı, natamam ailələr, əlillərin yaşadığı ailələr, tənhalar və ahıl adamlar, yetim uşaqlar,

işsizlər, müəyyən yaşayış yeri olmayan şəxslər, uşaq evlərinin məzunları və b.) vətəndaşlara sosial-iqtisadi, tibbi-sosial, psixoloji, sosial-məişət, hüquqi və digər sosial xidmətlərin göstərilməsini nəzərdə tutur.

Sosial xidmət – sosial xidmət göstərilməsini həyata keçirən idarə, müəssisə, təşkilat və müxtəllif mülkiyyət formalarının ayrı-ayrı hüquqi şəxsləri, eləcə də sosial xidmət üzrə hüquqi şəxs olmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardır.

Ölkənin subyektlərində gənclərin sosial müdafiəsi sistemi sosial xidmət müəssisələrinin aşağıdakı strukturuna malikdir.

1. Hər bir şəhər, rayon üçün müəssisələrin mütləq minimumu. Bura daxildir:
   a) Sosial xidmət mərkəzi (şöbələr: evdə sosial yardım, günərzi, müvəqqəti qalma, təcili sosial yardım);
   b) Ailə və uşaqlara sosial yardım mərkəzi;
   c) Həddi-büluğa çatmayanlar üçün sosial-reabilitasiya mərkəzi;
   d) Sosial qonaq evi;
   e) Uşaq və yeniyetmələr üçün sosial sığınacaq;
2. Şəhər və rayonlarda əlavə şəbəkə. Bura daxildir:
   a) Psixoloji-pedaqoji yardım mərkəzi;
   b) Telefonla təcili-psixoloji yardım mərkəzi;
   c) Şəfqət evi;
   d) Məhdud imkanlı şəxslər üçün (o cümlədən uşaq və yeniyetmələr üçün) reabilitasiya mərkəzləri;
3. Respublika, diyar, vilayət, bölgə, rayonlararası müəssisələr. Bura daxildir:
   a) Valideyn himayəsindən məhrum olmuş uşaqlara yardım mərkəzləri;
   b) İnternat-evlər; uşaq, psixonevroloji, xüsusi;
   c) Məhdud imkanlı şəxslər üçün yataqxana.

Gənclərin sosial xidmətlərə real tələbatlarının öyrənilməsi – onlara sosial xidmət göstərilməsi sisteminin formalaşdırılması zamanı başlıca elementdir. Tədqiqatlara əsasən, gənclər, hər şeydən əvvəl əmək birjalarına, hüquq müdafiəsi və hüquq məsləhəti məntəqələrinə, "etimad telefonuna" və daha sonra, gənc ailəyə yardım mərkəzinə, evdə zorakılıq halları ilə üzləşən yeniyetmələr üçün yataqxana-sığınacağa ehtiyac

duyurlar. Bu zaman cavan fəhlələr hüquq müdafiəsi və hüquq məsləhəti məntəqələrinə, gənclər üçün əmək birjalarına, gənc ailəyə yardım mərkəzinə; təhsil alanlar – etimad telefonuna, əmək birjasına üstünlük verirlər.

Cavan fəhlələrin əsas problemlərindən biri işə düzəlməkdir. Bazar iqtisadiyyatına keçid insanlarda iqtisadi fəallığın stimul və motivlərinin köklü dəyişilməsini, gənc nəslin yeni şəraitdə yaşamaq və işləmək hazırlığı və bacarığının formalaşmasını nəzərdə tutur. Müxtəlif kateqoriyalı gənclərin əməyə münasibətinin öyrənilməsi göstərdi ki, onların şüurunda qeyri-maddi dəyərlərdən maddi dəyərlərə doğru yönümün köklü dəyişilməsi baş vermişdir. "Yüksək maaş" – bu cür iş yerinin seçilməsi zamanı 17 yaşlı gənc oğlan və qızların 59,9%-i üçün, 24 yaşlıların 65,3%-i və 31 yaşlıların 64,4%-i üçün həlledici olmuşdur. Əməyin məzmunu, əməkdə özünütəyinetmə, öz bilik və qabiliyyətlərini reallaşdırmaq imkanı kimi dəyərlər ikinci plana keçmişdir.

Gənclər "etimad telefonu"na üstünlük verirlər. Bu, bizim həyatımızda ziddiyyətin artması, çox zaman ailədə, məktəbdə anlaşılmanın olmaması, əsl dost tapmaq və sadəcə ünsiyyətdə olmaq bacarığının olmamasından irəli gəlir. Respondentlərin yalnız 10-17%-i belə hesab edir ki, orta ümumtəhsil müəssisələrində, peşə məktəblərində iqlim normaldır, əlverişlidir, təxminən hər ikinci adam müəllimlər və şagirdlər arasında anlaşılmanın olmadığını göstərir. Hətta onlardan 65%-i etiraf edir ki, müəllimlərdən heç biri ilə ruhi yaxınlıq hiss etmir. 50%-dən çoxu ailədə öz mövqeyindən narazıdır: bəziləri tənhalıq hissindən, başqaları yaşlıların həddən ziyadə himayəsindən şikayət edirlər, üçüncüləri böyüklərə tabe olmaq zərurəti razı salmır.

Diaqnostika şöbəsinin vəzifələrinə daxildir: dezadaptasiyaya məruz qalmış və yeniyetmələri üzə çıxarmaq, onlar barədə məlumat bankı yaratmaq; uşaqların sosial dezadaptasiyasının amillərini, onun forma və mərhələlərini müəyyənləşdirmək və təhlil etmək; uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətini, şəxsiyyət və davranışının inkişaf xüsusiyyətlərini öyrənmək; həddi-büluğa çatmayanları sosial reabilitasiyasının fərdi proqramlarını, onların çətin vəziyyətdən çıxması və normal həyat fəaliyyəti üçün şəraitin yaradılmasına yönəlmiş tədbirlər kompleksini işləyib hazırlamaq.

Sosial reabilitasiya şöbəsinin əsas vəzifələri bunlardır: həddi-büluğa çatmayanların sosial reabilitasiya proqramlarının mərhələlər üzrə yerinə yetirilməsinin təşkili; ailə ilə ailə daxilində itirilmiş əlaqələri bərpa etmək; həddi-büluğa çatmayanların qarşılıqlı münasibətlərini sağlamlaşdırmaq; yaşıdlar kollektivində onların sosial statusunu bərpa etmək, psixi zədələyici şəraitləri aradan qaldırmaq, yaşlılar və yaşıdları ilə mənəviyyat normaları əsasında ünsiyyət vərdişlərini təkmilləşdirmək; kompleks şəkildə tibbi-pedaqoji və hüquqi yardımın və s. göstərilməsi.

Ölkəmizdə gənclərlə praktik sosial iş üzrə təcrübə toplanmışdır. Lakin ümumən bu gün gənclərin sosial xidmətlərlə təmin olunmasına olan tələbatları onların təmin olunma imkanlarını xeyli üstələyir.

Mövzu 21. Valideynlərini itirmiş uşaqlarla və gənclərlə sosial işin texnologiyaları

21.1. Valideynlərini itirmiş uşaqlarla sosial işin texnologiyaları

21.2. Pedaqoji travmatizmin qarşısının alınması yolları

21.3. Özünüinkişaf motivasiyasının gücləndirilməsi

21.4. Gənclərlə sosial işin texnologiyaları

21.5. Gənclərin sosial müdafiəsi

21.1. Valideynlərini itirmiş uşaqlarla sosial işin texnologiyaları

Müasir şəraitdə uşaq bağçası və körpələr evində uşaqların saxlanması üçün ödəmə haqqı valideynlərin rifah halından asılı olaraq dəyişilir, sosial cəhətdən müdafiəsiz olanlar isə ondan tamamilə azad olunur. Uşaq müəssisələrində uşaqların qalma müddəti ailənin tələbat və imkanlarından asılıdır. Bəzi hallarda uşaqlar həftənin beş gününü uşaq bağçalarında keçirirlər.

Uşaq müəssisələrində tərbiyə təcrübədən keçmiş proqramlar əsasınlda qurulur. Uşaqların qrupn daxilində ünsiyyətə, fəaliyyətə öyrədilməsi, məktəbə hazırlıq onun zəruri elementini təşkil edir.

Məktəbəqədər yaşlı uşaqların sosial müdafiəsi təbabət, pedaqogika, istehsalatla qarşılıqlı əlaqədə həyata keçirilir. Əhalinin sosial müdafiəsi orqanları məktəbəqədər yaşlı uşaqların sağlamlığına və müalicəsinə şərait yaradır, bunun üçün məktəbəqədər yaşlıların sanatoriyalarda, yay bağlarında güzəştli şərtlərlə qalmasına imkan verilir.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi onların sosiallaşması məsələlərini həll edir. Kiçik yaşlılar davranış qaydalarını mənimsəyir, qrup fəaliyyətinə qoşulur, mədəniyyətin əsaslarına yiyələnirlər.

Sağlamlıq problemi və inkişafında pozuntular olan uşaqlar üçün geniş tədbirlər nəzərdə tutulmuşdur. Məqsədi adi məktəbdə təlimə hazırlıq olan xüsusi uşaq bağçaları mövcuddur. Bununla belə, məktəbəqədər yaşlıların səhhəti ilə bağlı problemləri olanların bir hissəsi xüsusi məktəbdə oxumaq üçün hazırlıq keçir.

Məktəblilərin sosial müdafiə sistemi məktəbdə, məktəbdənkənar müəssisələrdə keçirilən müxtəlif tədbirləri, ailə və ictimaiyyətlə işi üzvi şəkildə əhatə edir. Bu fəaliyyətin əsas nəticəsi məktəblilərdə sosial müdafiəliliyin formalaşması, yəni uğurlu sosial-peşə özünütəyinetməsinə inamı ehtiva edən sabit psixi vəziyyəti, eləcə də onların effektiv sosiallaşmasıdır. Sosial-pedaqoji iş istehsaledici əməyə, fasiləsiz təhsil sisteminə qoşulmağa imkan yaradır.

Təhsilin diferensiallaşdırılması məsələsi elə həll edilir ki, son nəticədə hər bir insan, istər məktəbli, istərsə də mütəxəssis olsun, konkret həyat situasiyalarına uyğun olaraq fasiləsiz təhsilin fərdi yollarını seçə bilsin. XX əsrin sonuncu onilliyində ümumtəhsil müəssisələrinin yeni tipləri meydana çıxmışdır. Ənənəvi ümumtəhsil məktəbləri ilə yanaşı, müxtəlif profilli (humanitar, klassik, milli, dini yönümlü və s.) gimnaziyalar fəaliyyətə başlamışdır. Məktəbdaxili diferensiallaşma profil (lisey), yəni xarici dil, iqtisadiyyat, sosiologiya, psixologiya, menecment, mədəniyyətşünaslıq və kompüter hazırlığı dərindən öyrənilən siniflərin yaradılması yolu ilə baş verir.

21.2. Pedaqoji travmatizmin qarşısının alınması yolları

Uşaqlığın sosial müdafiəsi özünə pedaqoji travmatizmin qarşısının alınmasını, uğursuz məktəblilərin, ikinci ilə qalanların olmadığı təlimi daxil edir, çünki belə məktəblilərə həyat fəaliyyətini bədbinləşdirən psixi halət xasdır. Bu yönümlü sosial iş profilaktik və terapevtik xarakter daşıyır. Praktik sosial-psixoloji işdən geniş istifadə olunur.

Məktəblilərin, ali və orta ixtisas məktəblərində təhsil alanların *peşəyönümü* sosial müdafiə məsələlərinin həllində ən vacib yollardan biridir. Lakin həmin iş kadr siyasəti olmadığından çətinləşir, bu isə iqtisadi böhrandan irəli gəlir.

Uşaq və yeniyetmələrin sosiallaşmasının mühüm istiqaməti onların deprivasiya (təhsil, psixoloji, mənəvi, sosial və b.) ilə, yəni mühüm şəxsi keyfiyyətlərin itirilməsi ilə bağlı reabilitasiyadır. Bu zaman şəxsi inkişaf üçün diaqnoz qoyulur, qabiliyyətlərin (perspektiv, intellektual, kommunikativ, praktik fəaliyyət) bərpa edilməsinin fərdi planı tərtib olunur, korreksiya qrupları təşkil edilir, kollektiv fəaliyyətdə sosial

baxımdan dəyərli biliklər əldə etməyə və onları əməkdə, ünsiyyətdə, şəxsi həyatda tətbiq etmək bacarıqlarına yiyələnməyə imkan verən aktual məşğələlər seçilir.

Məktəbdə sosial iş – sosial orqanları, müəssisələr və ictimaiyyət adından çıxış edən müəllimlər, tərbiyəçilər, sosial pedaqoqlar, psixoloqlar tərəfindən aparılır. Bununla belə qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların və məktəblilərin sosial müdafiəsi sahəsində kadr problemi ilk növbədə iqtisadi səbəblər üzündən mürəkkəb olaraq qalır. Məhz onlar böyüməkdə olan nəslin sosial müdafiəsi ilə bilavasitə məşğul olan mütəxəssislərin sayının artmasını ləngidir.

Hazırda uşaq evlərində tərbiyə alanların əksəriyyəti ailə əlaqələrinin zəifləməsindən və ailənin dağılmasından irəli gələn sosial yetimliyin qurbanlarıdır. Onlar arasında xroniki alkoqoliklərin uşaqları və irsi xəstəlikləri olan uşaqlar getdikcə azalmaqdadır. Onların valideynləri psixi və fiziki cəhətdən tamamilə sağlam, lakin sosial baxımdan deprivasiyaya məruz qalmış şəxslərdir. Yeni nəslin tərbiyə olunanları daha geniş dünyagörüşləri ilə fərqlənir və onların maddi nemətlərdən istifadə etməkdə təcrübələri var. Onlar üçün, çıxdıqları mühitdə olduğu kimi, intellektual tələbatların olmaması səciyyəvidir.

Uşaq evində olduğu müddətdə uşaq müasir dünyada həyat fəaliyyətinin sosial rollarını və mənəvi normalarını mənimsəyir. Bu baxımdan sosial həəyat ilə əlaqədar xüsusi aktuallıq kəsb edir.

Uşaq evlərində tərbiyə alanların sosial müdafiəsinin özəyini onlarda dostluq və məhəbbət hisslərinin, bunun əsasında isə qarşılıqlı köməyə hazırlığın tərbiyə olunması təşkil edir. Nəzərdən qaçırmaq olmaz ki, uşaq evinin qruplarında qarşılıqlı kömək rəqabətlə əlaqələnir. Tərbiyəçilər qrupları ünsiyyət, liderlik imkanlarını nəzərə alaraq təşkil etməlidirlər. Sosial iş bu təbii yarışmaya sivil forma verməlidir. Uşaq və yeniyetmələrin ailə həyatına hazırlığı mürəkkəb mənəvi fonda baş verir. Belə ki, onlar valideynləri, qohumları olan uşaqları, eləcə də oğulluğa götürülmüş uşaqları qısqanırlar.

Uşaq evləri məzunları üçün sosiallaşma ilkin kapitalın toplanması kimi möhkəm sosial, hüquqi və iqtisadi əsasa malik olmalıdır. Bu işin

mərkəzində sosial müdafiənin formalaşdırılması durur. Son nəticədə internat-məktəb məzunlarının iqtisadi müstəqilliyi, iqtisadi azadlığı təmin olunur. Sosiallaşma bazar iqtisadiyyatı dəyərlərinin mənimsənilməsi əsasında səmərəli olur.

Uşaqlığın sosial müdafiəsi uşaqların təhsili və tərbiyəsi müəssisələrində inkişafın keyfiyyəti ilə daha çox müəyyən olunur. O cümlədən, uşaq evləri, internat-məktəblər, körpələr evləri ilə bağlı onların inkişafının aşağıdakı əsas müddəaları qəbul edilə bilər. Uşaq evinin kollektivi daxilində və onun əmək kollektivləri və ictimai təşkilatlarla əlaqələrində demokratik münasibətlər dərinləşdirilməlidir. Məktəbdənkənar kollektivlərlə əlaqələri təkcə maddi yardım istiqamətində deyil, həmçinin şagirdlərdə sosial müdafiənin formalaşdırlmasına, onların həyata hazırlığına, əmək prosesinə, fasiləsiz təhsil sisteminə qatılmalarına yönəltmək lazımdır.

İnternat-məktəbin fəaliyyətində uşaqların fərdi xüsusiyyətlərini nəzərə alan praktik-psixologiya və pedaqogikanın prinsipləri xüsusi aktuallıq kəsb edir. İlk növbədə, tərbiyə alanları onlar üçün maraqlı olan və bununla bərabər onların şəxsiyyət kimi inkişafını təmin edən fəaliyyətə, hər hansı ilkin peşə-texniki, bədii, musiqi təhsili almalarına cəlb etmək məqsədəuyğundur.

21.3. Özünüinkişaf motivasiyasının gücləndirilməsi

Təlim, əmək fəaliyyəti müvəffəqiyyətə nail olmağa yönəldilməlidir, bu, şəxsiyyətin *özünüinkişaf motivasiyasını* gücləndirir. Hər bir məktəbli öz inkişafının güclü tərəfləri barədə təsəvvür əldə edir. Uşaqlar bu keyfiyyətlərə istinad edərək ümumi təhsilin və ilkin ibtidai hazırlığın yüksək səviyyəsinə çatırlar. Fəaliyyətin müxtəlif növləri şagirdlərə fərdi xüsusiyyətlərinə uyğun olaraq təlim-əmək prosesinə qoşulmağa imkan yaradır.

Uşaq evinin əsas vəzifəsi – tərbiyə alanların sosiallaşmasıdır. Bu məqsədlə ailənin modelləşdirilməsi üzrə tədbirlər genişləndirilməlidir: böyük uşaqlar kiçiklərin qayğısına qalmalı, yaşlılara hörmət etməlidirlər. Ailə həyatına hazırlığı məqsədyönlü şəkildə elə aparmaq lazımdır ki,

tərbiyə alanlarda ailə təsərrüfatını aparmaq, ilkin yardım göstərmək, asudə vaxtını təşkil etmək vərdişləri əldə olunsun.

Təlim-əmək fəaliyyətində praktik elementləri gücləndirmək lazımdır. Məktəblilər həyatı, əməyi, istehsalatı elə formalarda öyrənməlidirlər ki, öz həyatlarında bundan istifadə etməyə hazır vəziyyətdə olsunlar (bostançılıq, peşələr, makinada yazma, kompüterdə işləmə və s.). Bu halda məşğələləri son maddi və tərbiyəvi nəticəyə yönəltmək məqsədəuyğundur.

Uşaq evində psixoloji iqlim yaxşılaşarsa, tərbiyə alanlarda şəxsiyyətin sosiallaşması daha effektli olar. Uşaqlarla, həmçinin bir-birilə münasibətdə qayğıkeşliyin, xeyirxahlığın artmasına çalışmaq lazımdır, münaqişələrdən uzaqlaşmaq, onların yarandığı təqdirdə isə danışıqlar və qarşılıqlı güzəşt vasitəsilə onları aradan qaldırmaq gərəkdir.

Gecə-gündüz özünü inkişaf məsələsi hər bir insana qarşı çıxır. Bu çətin prosesdə ilk udma və motivasiya, qəribə bir şəkildə, həyatınızdan narazılığınızdır. Həyatını və cəmiyyətdəki yerlərini az qane edir, amma ətraf mühit, statusu və həhyat tərzini dəyişdirmək üçün ilk növbədə özümüzü dəyişdirməyə başlamalıyıq. Onların bacarıqlarını inkişaf etdirmək, hər kəs həyat keyfiyyətini yaxşılaşdırmağa qadirdir.

Müasir intellektual, mənəvi və psixoloji təcrübələr özünü inkişaf etdirmə və özünü inkişaf yollarının ən geniş seçimini təklif edir, lakin hər bir fərd üçün bu yol, stereotiplərin pozulması və şəxsi inkişaf mərhələləri onların çatışmazlıqlarını aradan qaldırmaq və inkişaf etməkdə olan bir şəxsin qarşısını almaq üçün zəif cəhətləri aradan qaldırmaq, ciddi səy, ciddi motivasiya və daimi fəaliyyət tələb edir.

Özünü inkişaf etdirməyə və özünü inkişafa necə başlamağa nümunələr verməyə və göstəriş göstərməyinə dair ümumi tövsiyyələt verə bilər, amma bu prosesin ən başlıcası, insanın şəxsi arzusu və böyük işidir. Bu yolda ilk mərhələ motivasiya və hədəf qəbuludur.

Özünü inkişaf yolları və şəxsi özünü inkişaf yolları

Bir insan kimi özünü tanıtmaq, öz səhvlərini, nailiyyətlərini, yaxşı və pis keyfiyyətlərini təhlil etmək bir insana nəyə görə müəyyən

məqsədlərə nail olmadığı üün anlayış imkanı verir. Əvvəlcə həyatınızın dönüş nöqtələrini xatırlamaq və siyahı etmək lazımdır:

5. Acı və ya utanma səbəb olan öz hərəkətlər.
6. Sizə və sənə verdiyi təhqirlər.
7. Yaşamaq və inkişaf etdirməyə mane olan problemlərin siyahısı.
8. Müvəffəqiyyətin əldə olunmasına mane olan şəxsi səhvlər.

Şəxsiyyətin özünü inkişaf etdirməsi və özünü inkişafı onların səhvlərini, qüsurlarını və təqsirini tanımadan, mümkün olmur, çünki onlar tamamilə bütün insanlardır. Onların uğursuzluqlarını təqsirləndirməyin. Öz həyatınızın hekayəsi lazımsız bir şəkildə duygusal və faciəli olsalar belə, bir kənar haqqında oxuduğunuz kimi obyektiv və müstəqil olaraq müalicə etməliyik. Həyatınızın anını, yolunuza getməyincə, pozduğunu başa düşdüyünüzdə, özünüzü və başqalarını anlaya, qəbul edə və bağışlaya bilərsiniz. Öz-özünə acı, özünü günahlandırma və nifrət etmək bundan sonra yalnız bir dərs olacaq.

Özünü inkişaf etdirmək və özünü inkişaf yolları, həyatın bütün səviyyələrini əhatə edən bir neçə əsas mərhələdən ibarətdir:

- Mənəvi inkişaf
- Emosional vəziyyət
- İntellektual potensial
- Peşəkar nailiyyətlər
- Sosial vəziyyəti.

Yalnız bir istiqamətdə dəyişdirmək mümkün deyil, çünki bir insanın hər şey bir-birinə bağlıdır və fərdi bir quruluş təşkil edir. Məqsədə çatmaq üçün bir zərbə deyil, ancaq hər gün çətin bir iş olduğunu başa düşmək vacibdir. “Gündəlik müvəffəqiyyət gününüzə” başlayım və hər gün gündəmə gələn kiçik nailiyyətlərinizi və planlarınızı belə yazın.

Şəxsiyyət və bacarıqların inkişafı ilə bağlı müxtəlif ədəbiyyatlardan biri özü üçün özünü inkişaf etdirmək üçün kitablar tapa bilər və ən yaxşı müəlliflərin siyahısını verir. Oxucuların rəy və psixoloq məsləhətlərinə əsasən, özünüzü başa düşməyinizə və öz yolunuzu tapmağa kömək edəcək, yalnız layiqli ədəbiyyatın kiçik bir hissəsini gətirə bilərsiniz:

11. Peel Norman-“Pozitiv düşüncənin qüvvəsi”
12. Stiv Pavlina-“Ağıllı insanlar üçün şəxsi inkişaf”
13. John Kehoe-“Şüurlu bir şey edə bilər”
14. Dmitri Leuşkin-“Turbo-Qara Sincap”
15. Konstantin Şeremetev-“Bütün sürücülü beyin. Alçaldıcılığı necə idarə etmək olar?”
16. Adam Cekson-“10 Xoşbəxtlik sirrləri”
17. Viktor Vasiliev-“Ağ kitab”
18. Eric Berne-“İnsanlar oynadığı oyunlar”
19. Dan Millman-“Sülhün bir döyüşçünün yolu”
20. Eckhart Tolle-“İndi gücü”

21.4. Gənclərlə sosial işin texnologiyaları

Bazar iqtisadiyyatına keçid əhalinin ayrı-ayrı qruplarının, o cümlədən ənənəvi olaraq qabaqcıl ideyaların daşıyıcısı sayılan qrupların da sosial vəziyyətində əhəmiyyətli dəyişikliklər etmişdir. Yeni şəraitdə əsas yerlərdən biri gənclərə aiddir. Onların seçdiyi sosial yönümlər cəmiyyətin gələcəyini müəyyənləşdirəcək.

Sosioloji planda gənclərin sosial inkişaf meyllərində obyektiv amil sayılan ictimai tərəqqinin təsirinin iki tərəfi ayırd edilir. Bir tərəfdən, gənclərin cəmiyyətin sosial strukturuna qoşulması xüsusiyyətləri makromühitin dəyişilən obyektiv və subyektiv şəraiti vasitəsilə ifadə olunur, bu isə həm gənc nəslin sosial simasının formalaşmasına, həm də sosial strukturun özünün inkişaf səviyyəsinə təsir edir. Digər tərəfdən ictimai tərəqqi amilləri, gənclərin şüurunda əks olunaraq, onların davranış proqramlarında tələbatlarına, maraqlarına, sərvət meyllərinə təsir göstərir, son nəticədə bu da gənclərin sosial simasında əksini tapır.

Gənclik onu (başqalarına nisbətən) müstəqil sosial-demoqrafik qrup kimi müəyyənləşdirən ictimai münasibətlər və ictimai formalarla səciyyələnir. Xüsusi sosial-demoqrafik qrup kimi gənclik, hər şeydən əvvəl, onun obyektiv mahiyyətindən irəli gələn bir sıra xüsusiyyətlərə malikdir. Gənclərin sosial xüsusiyyətləri sosial strukturun istehsalı prosesində tutduğu spesifik mövqe ilə, habelə artıq bərqərar olmuş ictimai münasibətlərin nəinki varisi olmaq, eləcə də onları dəyişdirmək

bacarığı ilə, yəni gənc adamın əsas potensial qüvvələri ilə müəyyən olunur. Bu proses daxilində yaranan ziddiyyətlər gənclərin özünəməxsus problemlərinin bütöv bir kompleksinin əsasını təşkil edir.

Gənclər-sosial yetkinliyin təşəkkül dövrünü yaşayan xüsusi sosial-demoqrafik qrupdur. Onun mövqeyi cəmiyyətin sosial-iqtisadi vəziyyəti ilə müəyyən olunur.

Gənclik dövrünün hüdudları mütəhərrikdir. Onlar cəmiyyətin sosial-iqtisadi inkişafından, rifah və mədəniyyətin əldə edilmiş səviyyəsindən, adamların həyat şəraitindən asılıdır. Bu amillərin təsiri insanların həyat müddətində, gənclik dövrünün 14 yaşdan 30 yaşa kimi genişlənməsində təzahür edir. Aşağı yaş həddi onunla müəyyənləşir ki, məhz bu dövrdə yeniyetmə sosial planda ilk dəfə seçim hüququna malik olur: məktəbdə təlimini davam etdirmək, texniki və ya humanitar kollecə, liseyə daxil olmaq, yaxud işə düzəlmək. Otuz yaşa çatanda insan, bir qayda olaraq, peşəkar yetkinliyə nail olur, onun ailəsinin formalaşması sona çatır, o, cəmiyyətdə müəyyən mövqe tutur.

Ölkəmizdə doğumun aşağı düşməsi gəncliyin "qocalmasına" səbəb olub: 25-29 yaşlıların payı artıb.

Dövlət statistikasının məlumatına görə, XX əsrin 90-cı illərinin sonunda gənclər arasında ölüm qocalar arasında ölümə nisbətən 2 dəfə artmışdır.

Son zamanlar uşaq və gənclərin sağlamlığı problemmi xeyli kəskinləşmişdir. Yeniyetməlik yaşında xəstə uşaqların sayı artıa 90%-i keçmişdir. Gənclərin fiziki və mənəvi sağlamlığını sosial "xəstəliklər" məhv edir. Son 7 il ərzində onların irsi yolla keçən xəstəliklərə yoluxması 52 dəfə artmışdır.

Demoqrafik vəziyyət qətllərin və intiharların sayının artması hesabına çətinləşir. Təkcə 1998-ci ildə 762 adam intihar edib. Bundan əlavə, son 5 ildə narkotik maddələr qəbul edənlərin sayı 3,5 dəfədən çox artmışdır (narkomanların yaş kateqoriyası – 13-25 yaş həddindədir); iri şəhərlərdə məktəbli və tələbələr arasında narkomanların sayı 6-8 dəfə artmışdır. Toksikomaniya və alkoqolizm geniş yayılmışdır.

Xüsusi həyəcan doğuran meyllər sırasına gənclər arasında təhsil səviyyəsinin ən çox inkişaf etmiş ölkələrin əldə etdiyi səviyyədən geri

qalması; ümumi və peşə-texniki təhsilin nüfuzunun enməsinin sürətlənmsi; əmək fəaliyyətinə başlayan gənclərdən təhsil səviyyəsi aşağı olan və təhsilini davam etdirmək istəməyənlərin sayca artması; təhsilin bir çox həlqələrində istehlakçıların tələbatları nəzərə alınmadan "axın" şəklində fəhlə, qulluqçu və mütəxəssislərin istehsal edilməsinə yönəliş; ali, peşə və orta məktəb kadrlarının yeni şəraitdə işləməyə hazır olmaması; maddi-texniki bazanın bütün səviyyələrdə normativ tələblərdən geridə qalmasının güclənməsi; rus elminin gələcəyi olan aspirant heyətində intellektual səviyyənin aşağı düşməsi; istedadlı oğlan və qızların bir çox ali məktəblərdən, o cümlədən ölkədən axını aiddir.

İldən-ilə "qadın" cinayətlərinin sayı artır. Hüquq-müafizə orqanlarında qadın cinayətkarlığının "cavanlaşması" tendensiyası böyük həyəcan doğurur. Uşaq qətlini, bir qayda olaraq, həyatda özünü tapa bilməyən: ailəsiz, dolanmağa imkanı, yaşamağa yeri olmayan cavan qadınlar törədirlər.

Gənc nəslin əksər hissəsində etibarlı sosial yönümlərin olmadığı məlum olmuşdur. Sosiallaşmanın sosial baxımdan həyat yolunun qabaqcadan təyin edilməsinə əsaslanan ənənəvi formaların dağılması, bir tərəfdən, gəncləri seçim qarşısında qoyaraq, onların öz taleləri üçün məsuliyyəti artırmış, digər tərəfdən, onların çoxunun yeni ictimai münasibətlərə qoşulmasına hazır olmadığını aşkar etmişdir. Həyat yolunun seçilməsi cavan adamın təkcə qabiliyyətləri və maraqları ilə deyil, konkret şəraitlərlə müəyyən olunmağa başlanmışdır.

Təəssüf ki, mövcud iqtisadi və sosial proqramlar ictimai inkişaf prosesində gənc nəslin spesifik sosial mövqeyini, demək olar ki nəzərə almır. Bununla bağlı gənclərin sosial problemlərinə, gənc nəsillə sosial işin strukturu, forma, metod və meyarlarını müəyyənləşdirməyə diqqəti gücləndirmək vacibdir.

21.5. Gənclərin sosial müdafiəsi

"Əhaliyə sosial xidmət göstərilməsinin əsasları haqqında" qanunda əhaliyə, gənclər də daxil olmaqla, sosial xidmət göstərilməsinin kompleks sistemi çətin həyat şəraitinə düşmüş (çoxuşaqlı, natamam ailələr, əlillərin yaşadığı ailələr, tənhalar və ahıl adamlar, yetim uşaqlar,

işsizlər, müəyyən yaşayış yeri olmayan şəxslər, uşaq evlərinin məzunları və b.) vətəndaşlara sosial-iqtisadi, tibbi-sosial, psixoloji, sosial-məişət, hüquqi və digər sosial xidmətlərin göstərilməsini nəzərdə tutur.

Sosial xidmət – sosial xidmət göstərilməsini həyata keçirən idarə, müəssisə, təşkilat və müxtəllif mülkiyyət formalarının ayrı-ayrı hüquqi şəxsləri, eləcə də sosial xidmət üzrə hüquqi şəxs olmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardır.

Ölkənin subyektlərində gənclərin sosial müdafiəsi sistemi sosial xidmət müəssisələrinin aşağıdakı strukturuna malikdir.

4. Hər bir şəhər, rayon üçün müəssisələrin mütləq minimumu. Bura daxildir:
   f) Sosial xidmət mərkəzi (şöbələr: evdə sosial yardım, günərzi, müvəqqəti qalma, təcili sosial yardım);
   g) Ailə və uşaqlara sosial yardım mərkəzi;
   h) Həddi-büluğa çatmayanlar üçün sosial-reabilitasiya mərkəzi;
   i) Sosial qonaq evi;
   j) Uşaq və yeniyetmələr üçün sosial sığınacaq;
5. Şəhər və rayonlarda əlavə şəbəkə. Bura daxildir:
   e) Psixoloji-pedaqoji yardım mərkəzi;
   f) Telefonla təcili-psixoloji yardım mərkəzi;
   g) Şəfqət evi;
   h) Məhdud imkanlı şəxslər üçün (o cümlədən uşaq və yeniyetmələr üçün) reabilitasiya mərkəzləri;
6. Respublika, diyar, vilayət, bölgə, rayonlararası müəssisələr. Bura daxildir:
   d) Valideyn himayəsindən məhrum olmuş uşaqlara yardım mərkəzləri;
   e) İnternat-evlər; uşaq, psixonevroloji, xüsusi;
   f) Məhdud imkanlı şəxslər üçün yataqxana.

Gənclərin sosial xidmətlərə real tələbatlarının öyrənilməsi – onlara sosial xidmət göstərilməsi sisteminin formalaşdırılması zamanı başlıca elementdir. Tədqiqatlara əsasən, gənclər, hər şeydən əvvəl əmək birjalarına, hüquq müdafiəsi və hüquq məsləhəti məntəqələrinə, "etimad telefonuna" və daha sonra, gənc ailəyə yardım mərkəzinə, evdə zorakılıq halları ilə üzləşən yeniyetmələr üçün yataqxana-sığınacağa ehtiyac

duyurlar. Bu zaman cavan fəhlələr hüquq müdafiəsi və hüquq məsləhəti məntəqələrinə, gənclər üçün əmək birjalarına, gənc ailəyə yardım mərkəzinə; təhsil alanlar – etimad telefonuna, əmək birjasına üstünlük verirlər.

Cavan fəhlələrin əsas problemlərindən biri işə düzəlməkdir. Bazar iqtisadiyyatına keçid insanlarda iqtisadi fəallığın stimul və motivlərinin köklü dəyişilməsini, gənc nəslin yeni şəraitdə yaşamaq və işləmək hazırlığı və bacarığının formalaşmasını nəzərdə tutur. Müxtəlif kateqoriyalı gənclərin əməyə münasibətinin öyrənilməsi göstərdi ki, onların şüurunda qeyri-maddi dəyərlərdən maddi dəyərlərə doğru yönümün köklü dəyişilməsi baş vermişdir. "Yüksək maaş" – bu cür iş yerinin seçilməsi zamanı 17 yaşlı gənc oğlan və qızların 59,9%-i üçün, 24 yaşlıların 65,3%-i və 31 yaşlıların 64,4%-i üçün həlledici olmuşdur. Əməyin məzmunu, əməkdə özünütəyinetmə, öz bilik və qabiliyyətlərini reallaşdırmaq imkanı kimi dəyərlər ikinci plana keçmişdir.

Gənclər "etimad telefonu"na üstünlük verirlər. Bu, bizim həyatımızda ziddiyyətin artması, çox zaman ailədə, məktəbdə anlaşılmanın olmaması, əsl dost tapmaq və sadəcə ünsiyyətdə olmaq bacarığının olmamasından irəli gəlir. Respondentlərin yalnız 10-17%-i belə hesab edir ki, orta ümumtəhsil müəssisələrində, peşə məktəblərində iqlim normaldır, əlverişlidir, təxminən hər ikinci adam müəllimlər və şagirdlər arasında anlaşılmanın olmadığını göstərir. Hətta onlardan 65%-i etiraf edir ki, müəllimlərdən heç biri ilə ruhi yaxınlıq hiss etmir. 50%-dən çoxu ailədə öz mövqeyindən narazıdır: bəziləri tənhalıq hissindən, başqaları yaşlıların həddən ziyadə himayəsindən şikayət edirlər, üçüncüləri böyüklərə tabe olmaq zərurəti razı salmır.

Diaqnostika şöbəsinin vəzifələrinə daxildir: dezadaptasiyaya məruz qalmış və yeniyetmələri üzə çıxarmaq, onlar barədə məlumat bankı yaratmaq; uşaqların sosial dezadaptasiyasının amillərini, onun forma və mərhələlərini müəyyənləşdirmək və təhlil etmək; uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətini, şəxsiyyət və davranışının inkişaf xüsusiyyətlərini öyrənmək; həddi-büluğa çatmayanları sosial reabilitasiyasının fərdi proqramlarını, onların çətin vəziyyətdən çıxması və normal həyat fəaliyyəti üçün şəraitin yaradılmasına yönəlmiş tədbirlər kompleksini işləyib hazırlamaq.

Sosial reabilitasiya şöbəsinin əsas vəzifələri bunlardır: həddi-büluğa çatmayanların sosial reabilitasiya proqramlarının mərhələlər üzrə yerinə yetirilməsinin təşkili; ailə ilə ailə daxilində itirilmiş əlaqələri bərpa etmək; həddi-büluğa çatmayanların qarşılıqlı münasibətlərini sağlamlaşdırmaq; yaşıdlar kollektivində onların sosial statusunu bərpa etmək, psixi zədələyici şəraitləri aradan qaldırmaq, yaşlılar və yaşıdları ilə mənəviyyat normaları əsasında ünsiyyət vərdişlərini təkmilləşdirmək; kompleks şəkildə tibbi-pedaqoji və hüquqi yardımın və s. göstərilməsi.

Ölkəmizdə gənclərlə praktik sosial iş üzrə təcrübə toplanmışdır. Lakin ümumən bu gün gənclərin sosial xidmətlərlə təmin olunmasına olan tələbatları onların təmin olunma imkanlarını xeyli üstələyir.

Mövzu 22. Deviant davranışlı şəxslərlə sosial işin texnologiyaları

22.1. Deviant davranışı sosial fəaliyyətin bir növü kimi

22.2. Funksional inteqrasiya

22.3. Dürkheymin dörd intihar tipi. Eqoist və alturist intihar tipləri.

22.4. Anomi intihar tipi

22.5. Fatal intihar

22.1. Deviant davranışı sosial fəaliyyətin bir növü kimi

Cəmiyyətə, yaxud qrup mədəniyyətinə məxsus ümumi normal, qayda və qanunların kobud surətdə pozulması deviant davranış adlanır. Ümumiyyətlə, deviant davranış – tipik olmayan, yaxud qeyri-adi davranış deyildir. Məsələn, bir idman növü kimi, paraşutla tullanmaq qeyri-adidir, lakin deviant deyil. Deməli, hər hansı bir davranışı deviant kimi səciyyələndirmək üçün həmin davranış mütləq müəyyən edilmiş sosial normaların kobud surətdə pozulması baxımından qiymətləndirilməlidir. Bəzi normalar,. Qaydalar qanunlar şəklində kodlaşdırılır, digəri isə bu cür statusa malik olmur. Bu baxımdan, deviant həm cinayətkar davranışı, həm də əxlaq normalarına sığmayan etik davranışı əhatə edir. Ciddiliyindən asılı olaraq, deviasiya müxtəlif formalarda təzahür edir. İctimai rəy bəzisini güclü surətdə pisləyir, digər hallara isə laqeyd yanaşır, yaxud qeyri-müəyyən mövqe tutur. Əksər hallarda, ciddi deviant hərəkət törədənlər “psix”, “axmaq”, “fırıldaqçı”, “satqın” və buna bənzər mənfi etiketlərlə damğalanır. Deviantlıq çəkisi “yüngül” olandavranış – adətən “normal” adlandırılır, lakin bəzi hallarda kənara çıxan davranış kimi qiymətləndirilir. Bu cür “yüngül” deviant davranışa misal olaraq kitabxanadan kitab, iş yerindn qələm, karandaş, kağız və s. əşyaların oğurlanması hallarını göstərmək olar. Yaxud qırmızı işığı keçən, yalan danışan, gəlir vergisindən yayınanların davranışı, əlbəttə, deviantdır.

Sosiologiya deviant davranışı sosial fəaliyyətin bir növü kimi nəzərdən keçirir, zira o, başqaların fəaliyyətə yönəlmiş, həmin fəaliyyətlə uzlaşdırılmış, ona uyğunlaşdırılmış davranışdır. Sərmayə biznesinin qaydasını pozmuş X-in davranışı şirkətin meneceri, yaxud

digər sərmayəçilərin fəaliyyəti ilə əlaqəli olmuşdur (ondan rüşvət almaqla bank müdiri, digər icraçı məmurlar cinayət əməlinə qoşulmuşlar).

Deviant davranışın baş verdiyi sosial struktur – bütövləşmiş funksional bir sistemdir. Birja səhmlərinin və qiymətli kağızların alqı-satqısı kapitalist maliyyə sisteminin ayrılmaz bir hissəsidir. Dünyanın ən iri şirkətlərinin pullarını artırmaq üçün qiymətli kağızların alqı-satqısı ilə məşğul olan açıq bir bazara ehtiyacı vardır. Belə bir sistem daxilində hər hansı iri miqyaslı deviant fəaliyyət həmin sistemin müvazinətini ciddi surətdə poza, sistem üçün disfunksional mənbəyə çevrilə bilər.

Deviant davranış konkret zaman, məkan, qrup və situasiya daxilində fəaliyyət göstərən sosial normalara münasibətdə mövcuddur. Başqa sözlə, deviant-qavrayış məsələsidir. Ona görə də o, sosial baxımdan müəyyənləşdirilməlidir. Ümumiyyətlə, heç bir davranış irsən deviant deyil: özlərinin "düzgün", "xeyir" və "səhv", "şər" haqqında təsəvvürlərinə müvafiq olaraq adamlar bəzi davranış formalarını deviant adlandırır. Elə bu səbəbdən, devianta verilən sosial tərifl ər müxtəlifdir. Məsələn, ABŞ-da devianta verilən tərifl ər müxtəlif etnik qrupların (amerikalı-asiyalılar və ispanlar üçün qoca valideynin qayğısını çəkməmək – davranışın ən pis növüdür; həmçinin, əksər azərbaycanlılar bu cür düşünür; halbuki, ağlar bunu deviant kimi qəbul etmir), sosial siniflərin (şəhərin kasıb məhəlləsində gənc qızın hamilə olması deviant deyil, lakin orta sinif mühitində bu deviantdır), peşə qrupların (psixoanalitik xəstə ilə görüş təyin etməyi deviant sayır, diş həkimi isə əksinə düşünür), coğrafi rayonların (Nyu-York şəhərində tanımadığın adamla salamlaşmaq-deviant, balaca şəhərdə, məsələn, Corciya və Honolulada deviant deyil) və s. sosial qrupların müxtəlif rəylərini ifadə edir. Beləliklə, hansısa bir hərəkətin, yaxud fəaliyyətin deviant olub-olmaması qrupun sosial normalarından asılıdır. Deviant-nəinki qrupdan-qrupa, hətta eyni qrup daxilində müxtəlif situasiyalarda fərqli məna kəsb edir. Məsələn, əksər cəmiyyətlərdə qətlə yetirmək – deviant hərəkətdir, lakin özünü müdafiəyə, yaxud müharibə zamanı düşmənə münasibətdə ona bəraət qazandırılır. Eyni ilə cəmiyyət qrupun normaları zaman daxilində dəyişdiyindən, onların deviant haqda təsəvvürləri də dəyişir. Məsələn, əski Avropa, yaxud Yaxın Şərqdə nikahsız yaşamaq deviant sayılırdı. ABŞ-da və keçmiş SSRİ-də yaxın vaxtlarda bu cür hərəkətdən

ötrü kollecdən qovurdular. Bu gün əksinə, əhər cavanlar müxtəlif cinsdəndirsə və hələ övladları yoxsa, Amerikada onların nikahsız birlikdə yaşamasına normal baxılır. Deviant haqda təsəvvürlərin dəyişməsi sosial dəyişikliyin mühüm hissəsidir. Daim dəyişən şəraitə cavab olaraq, sosial normalar da tədricən dəyişir.

22.2. Funksional inteqrasiya

Deviant davranış funksional səciyyə daşıya bilir. Bu baxımdan, funksional inteqrasiya anlayışı deviantı təhlil etməyə və onu anlamağa kömək edir. Deviantı heç də yaxşı inteqrasiya olunmuş sosial sistemlərin bütövlüyü yalnız pozmaqla məhdudlaşmır. Həmçinin, sosial prosesdə bəzi pozitiv funksiyalara xidmət edir. Sosiologiyanın banilərindən biri olan Emil Dürkheymin ilk dəfə olaraq deviantın bu paradoksal aspektini öyrənmişdir. Dürkheym təsdiq edirdi ki, deviant bütün sağlam cəmiyyətlərin, sosial həyatın ayrılmaz hissəsidir. Təbii, belə bir sual ortaya çıxır: mənfi bir hadisə olan deviant cəmiyyətə necə müsbət təsir göstərə bilər? Dürkheymin cavabını iki hissəyə ayırmaq olar: Birincisi, hansısa qrup, yaxud cəmiyyət müəyyən davranış növlərini deviant kimi müəyyənləşdirərkən, müəyyən davranışların məqbul olduğunu aydınlaşdırır. Məqbul və qeyri-məqbul davranışlar arasında dəmir sədd yoxdur. Tipik olaraq cəmiyyət müxtəlif "mümkün variasiyalar ehtiyatına", yəni spesifik normalara malikdir. Lakin, əksər normalar spesifik formalarda ifadə olunmur. Əksinə, adamların gündəlik həyat fəaliyyətində həmin normalar tədricən müəyyənləşdirillir. "Mümkünlük sərhədlərini" sınağa çəkməklə, deviant davranışın subyekti cəmiyyətin yerdə qalan üzvlərini hansı davranışın normal və düzgün olmağı haqda düşünməyə bir növ məcbur edir. İkincisi, cəmiyyət üzvlərini devianta qarşı müxalif cəbhədə birləşdirməklə, deviant müsbət rol oynayır: cəmiyyət üzvlərinin sosial həmrəyliyini möhkəmlədir. Məsələn, ictimai asayişin müdafiəsinə könüllü qoşulanları, daha vicdanlı siyasətçiyə səs verən vətəndaşları ümumi bir fəzilət birləşdirir: bütün hallarda devianta qarşı (oğruluq, rüşvətxorluq və s.) mübarizədə həmrəylik nümayiş etdirməyin zəruriliyi ön plana çəkilir. Devianta qarşı ictimai müxalifət və onun cəzalandırılması təhlükə altında qalmış normaları sadəcə "bərpa" etmir, həmçinin cəmiyyət üzvlərinin sosial qanun-qaydanın

müdafiəsi naminə kollektiv səylərini birləşdirməyə sövq edir. Digər problemlər kimi, deviant davranışı Dürkheym ümumi əxlaqın tənəzzülü ilə izah edirdi. Bundan ötrü o, anomi (yunanca a-inkar hissəciyi, nomos-qanun, hərfi mənada qanunun inkar, yaxud rədd edilməsini bildirir) terminini daha geniş mənada işlətmişdir. Anomi anlayışında Dürkheymin ümumi əxlaqın zəifləməsi məsələlərini əks etdirmişdir. Fərdlər əxlaq normaları tərəfindən kifayət qədər məhdudlaşmırsa, yəni hansı davranışın məqbul yaxud qeyri-məqbul olması haqda aydın təsəvvürlərə malik olmursa, anomi ilə qarşılaşır. Dürkheymə görə müasiri olduğu cəmiyyətin əsas qüsuru əmək bölgüsündəki anomidən ibarət olmuşdur. Anomi cəmiyyətin "pataloji" halıdır. Sosioloqa görə, bu hal aradan qaldırılarsa, müasir cəmiyyətin yaralarını sağaltmaq mümkündür. O, inanırdı ki, müasir cəmiyyətdə əməyin struktur bölgüsü zəifləmiş ümumi əxlaqı əvəz edə bilməz. Anomi bir xəstəlik kimi orqanik həmrəyliyin meydana gəlməsi ilə əlaqədardır. Bu zaman fərdlər yüksək ixtisaslaşmış fəaliyyətlərində bir-birindən təcrid edilmiş halda mövcuddur. Bir yerdə işlədiklərinə və yaşadıqlarına baxmayaraq, aralarında heç bir ümuməxlaqi tellər mövcud olmur. Qeyd etmək vacibdir ki, Dürkheym bunu qeyri-normal situasiya hesab etmişdir, zira yalnız qeyri-adi şəraitdə əməyin müasir bölgüsü insanları bir-birindən təcrid edir və "mənasız işlərlə" həddən ziyada yükləyir.

Anomi anlayışını Dürkheym, yalnız "Əməyin bölgüsü" əsərində deyil, həmçinin "İntihar" əsərində, intiharın əsas növü kimi inkişaf etdirmişdir. "Anomi intihar" o halda baş verir ki, kollektiv əxlaqi tənəzzülə uğrayır və fərd öz ehtiraslarını məhdudlaşdırmaq üçün yetərincə zahiri tənzimləmə mexanizminə malik olmur.

22.3. Dürkheymin dörd intihar tipi. Eqoist və alturist intihar tipləri.

Dürkheym intiharın dörd tipini qeyd etmişdir: eqoist, alturist, anomi və fatalist. O, göstərilən növləri cəmiyyətdəki inteqraisya və tənzimləmə dərəcəsi ilə əlaqələndirirdi. İnteqrasiya ümumkollektiv hissəsinə aiddir. Alturist intihar inteqrasiyanın yüksək dərəcəsi, eqoist intihar inteqrasiyanın aşağı dərəcəsi ilə əlaqələndirilir. Tənzimləmə xarici məhdudiyyət dərəcəsinə aiddir. Fatal intihar yüksək tənzimləmə, anomi intihar aşağı tənzimləmə dərəcəsi ilə bağlıdır.

Eqoist intihar.

Sosial inteqrasiyanın zəif olduğu cəmiyyət daha çox kollektivdə, yaxud qrupda rast gəlinir. İnteqrasiyanın yetərsizliyi frdlər arasında sosial həyatın mənasızlığı ilə bağlı hiss və şüura güclü təsir edir. Adamlar daha çox özləri haqda düşünür, cəmiyyət və hakim mühitin təyin etdiyi sosial normalara laqeyd olur. Əksinə, kollektiv şüurun güclü olduğu cəmiyyətdə eqoist intiharın genişlənməsi və artımının qarşısı alınır. Öz həyatlarının mənası ilə bağlı fərdlərin təsəvvürləri genişlənir. Sosial bağlar zəiflənəndə, insanlar kollektiv şüuru səfərbər edir. Kollektiv şüurun zəif olduğu iri miqyaslı sosial strukturlarda fərdlər arzu və meyllərinə uyğun olaraq daha çox şəxsi maraqlarını güdür. Bu cür qeyri-məhdud eqoizmin şəxsi narazılıqla nəticələnmə ehtimalı böyükdür, zira bütün şəxsi tələb və istəklərin yerinə yetirilməsi mümkünsüzdür. Hətta bu və ya digər tələb yerinə yetərsə, yeniləri meydana gəlir. Son nəticədə, tələblərin hamısını ödəyə bilməmək fərdlərdə narazılıq yaradır. Axırıncı hal bəzilərini intihar etməyə sövq etdirir. Kollektiv şüurun "agentləri" kimi, güclü inteqrasiya edilmiş ailə, dini qrup və cəmiyyət intiharın qarşısını almağa qadirdir. Xüsusilə, din və dini icma son dərəcə pozitiv sosial amillərlə zəngindir. Dürkheymə görə, eqoist intiharın təhlili belə bir faktı təsdiqləyir ki, hətta ən fərdiyyətçi və şəxsi davranışlarda belə sosial faktlar əsas təyinedici amillərdir.

Alturist intihar.

Əgər eqoist intihar sosial inteqrasiyanın daha çox zəif olduğu hallarda baş verirsə, alturist, əksinə, sosial inteqrasiya daha güclü olanda baş verir. Dürkheym iki cür misal göstərir: birincisinə arxaik cəmiyyətlərdə tez-tez rast gəlinir. Burada kollektivçilik alturist intiharı tələb edir. Hindistanda ərinin cənazəsini yandırmaq mərasimində dul arvad özünü könüllü surətdə tonqala atmaq istəyir. Həmin misal intharın ifrat fərdiyyətçilik zəminində deyil, əksinə, fərdin qrup daxilində "ərindiyini" göstərir; sosial imperativlərə müvafiq olaraq, fərd ölümü seçir. Müasir dillə desək, arxaik fərd yaşamaq hüququndan könüllü imtina edir. Eyni ilə kapitan gəmi heyətinin itgisinə dözmür və alturist intiharı seçir. Bu cür fərdlər özünüqoruma instinktinə deyil, sosial qrupun əmr və sərəncamlarına tabe olur. Qəhrəmanlıq yaxud dini intihar

nümunələrindən əlavə, Dürkheym dövrünün statistik faktları içərisində müasir örnəkləri tapır. Peşəkar ordu sıralarında əsgərlər eyni yaşdan olan mülki əhali ilə müqayisədə daha çox intihara meyllidir. Lakin, intiharın bu iki növünü yalnız sosial inteqrasiya (aşağı, yaxud yüksək) baxımdan şərh etmək doğru olmazdı. Nə zəif, nə də ki yüksək inteqrasiya dərəcəsi, müvafiq olaraq, eqoist və alturist intiharın bilavasitə səbəbləri deyildir. Əksinə, müxtəlif dərəcəli inteqrasiya fərqli sosial axın və motivləri törədir. Bu axırıncılar intiharın sürətinə və faizinə öz təsirini göstərir. Ona görə də, Dürkheym eqoist və alturist intiharın faizinin yüksək olmasının səbəbini melanxolik sosial impulsda, yaxud axınında görürdü. Əgər eqoist intiharın yüksək faizi "sağalmaz narahatçılıq hissindən və ruhu sıxıntıdan" qidalanırsa, alturist intiharın ehtimal olunan artımı "ümiddən yaranır, zira o, indiki həyatdan kənarda mövcud olan xoşbəxt gələcəyə inamdan asılıdır".

22.4. Anomi intihar tipi

Anomi intihar.

İntiharın sonuncu və əsas növüdür. Cəmiyyətin tənzimləyici bacarıqları zəifləyəndə başvermə ehtimalı daha böyükdür. Bu növ, Dürkheymə görə, müasir cəmiyyət üçün daha səciyyəvidir, zira anomi intihar faizində artım təkcə iqtisadi böhranlar dövründə deyil, həmçinin itqisadi çiçəklənmə dğvründə müşahidə olunur. Maraqlıdır ki, Dürkheym böyük siyasi dəyişikliklər və hadisələr dövründə intiharın kəmiyyətcə azaldığını göstərir. Məsələn, müharibə zamannı intiharın faizi enir. Dürkheymin təklif etdiyi anomi intiharın sosial depressiyalar dövründə artımı böyük siyasi hadisələr dövründə intiharın azalması faktları əsasında təhlil olunur. Anomi intihar onun sosial fəlsəfəsinin əsas anlayışıdır. Mütəfəkkirin əsas marağı – müasir cəmiyyətdəki böhrandır. Böhranın səbəbi fərdləri sosial qruplara bağlayan zəifliyi – sosial dezinteqrasiyasıdır.

Anomi intihar müasir cəmiyyətdə (mövcud şəraitin nəticəsi kimi) fərdlər üzərində böyük təsirə maikdir. Bu şərait bir sıra keyfiyyətlərdən ibarətdir: sosial həyat daha adət-ənənələr tərəfindən idarə olunmur; fərdlər bir-birilə sonsuz yarış və rəqabətə girir; onlar həyatdan çox şey gözləyir və tələb edir (mənfəət, var-dövlət, mənsəb və s.); onlar əbədi olaraq öz istəkləri və həmin istəklərini ödəmək bacarıqları arasında

yaranmış uyğunsuzluq və müvazinətsizlikdən əziyyət çəkir. Bu cür narahat və narazılıq mühiti intiharı yaxşıca qidalandırır.

Beləliklə, Dürkheym intiharın sosial tipləri ilə psixoloji tipləri arasında körpü yaratmaq istəyir. Əgər bu mümkündür, onda eqoist intihar apatiya (süstlük) halıdır, sosial həyata bağlılığın zəif, yaxud heç olmadığını göstərir; alturist intihar üçün yüksək enerji səciyyəvidir. Anomi intihar daha çox əsəbilik, yaxud nifrətlə bağlıdır: əsəbilik sosial həyat şəraitinin yaratdığı ümidsizliyin, nifrət isə istək-tələblə və onu ödəmək bacarığı arasında yaramam uyğunsuzluğun nəticəsidir.

Sonda, Dürkheymin gəldiyi nəticələri qısa şəkildə belə ifadə etmək olar. Fərdi hadisə kimi intiharın səbəbləri, əsasən sosial səciyyə daşıyır. Cəmiyyətə məxsus və cəmiyyəti idarə edən sosial qüvvələrin – "intihara təhrik edən impulsların" – kökünü fərddə yox, kollektivçilikdə axtarmaq lazımdır. Bu sosial amillər, intiharı təyin edən səbəblərdir. Həmin impulslar ayrıca fərddə təcəssüm tapmır. Əgər müəyyən fərdlər intihar edirsə, bunun səbəbini onların psixoloji ovqatında, meyllərində, əsəb sisteminin zəifliyində, yaxud əsəb gərginliyində, güman ki, axtarmaq olar. Lakin "intihar impulslarını" doğuran eyni sosial şərait psixoloji meylləri də yaradır, lakin buna baxmayaraq müasir cəmiyyətdə yaşayan fərdlər çox zərif və zəif hissələrə malikdir (Ziqmund Freydin 20-ci əsr adamını "nevrotik tip" adlandırmasını Dürkheymin təsiri ilə əlaqələndirmək olar).

Deməli, real səbəblər – sosial amillərdən ibarətdir. Bu sosial amillər, yaxud qüvvələr cəmiyyətdən-cəmiyyətə, qrupdan-qrupa, dindən-dinə dəyişir, müxtəlif formalar kəsb edir. Həmin qüvvələr ayrı-ayrı fərdlərdən deyil, qrupdan təşəkkül tapır. Beləliklə, anomi haqda təlim cəmiyyətin təbiəti bağlı Dürkheymin fundamental tezisi ilə sıx bağlıdır: fərdlərə nisbətdə cəmiyyət daha çox heterogen təbiətə malikdir. Cəmiyyətdə elə hadisələr, qüvvələr var ki, onların əsasını ayrı-ayrı fərdlərin cəmində yox, kollektiv sosial həyatın özündə axtarmaq lazımdır. Başqa sözlə, fərdlərin birlikdə yaratdıqları hadisələr, yaxud qüvvələr yalnız bütövlükdə izah oluna bilər. Ona görə də, fərdi fenomenləri ifadə edən spesifik sosial fenomenlər mövcuddur. Misal üçün: Dürkheym fərdləri ölümə doğru sürükləyən sosial qüvvələri göstərir. Ölümün səbəbi bu cür qüvvələr olduğu halda, hər bir fərd

“motivi” özündə axtarır. Dürkheymə görə, bu mənada ölümün özü sosial fenomendir.

22.5. Fatal intihar

Fatal intihar.

Dürkheym bu növə az diqqət yetirmişdir, lakin onunq qeydlərindən bəzi nəticələri əldə etmək olar. Əgər anomi intihar sosial tənzimləmənin çox zəif olduğu situasiyalarda baş verirsə, fatal intihar tənzimləmənin ifrat dərəcindən yaranır. İntiharın bu növünü törədənlər “gələcəyi qarşısında amansız sədd çəkilmiş və ehtirasları zorakılıqla yatırılmış şəxslərdən” ibarətdir. Klassik örnək kimi qulun öz həyatına qəsd etməsi göstərilir: bütün fəaliyyət və davranışlarına sərt nəzarət və təqib tam ümidsizlik yaratmaqla, qulu intihara təhrik edir. Ümumiyyətlə, sərt nəzarət hər yerdə melanxolik hala güclü təkan verir və melanxolik ovqat fatal intiharın kəmiyyətcə artımına səbəb olur.

Bundan ötrü deviantın baş verdiyi cəmiyyət tipini nəzərə almaq vacibdir. Primitiv-ənənəvi cəmiyyətlərin strukturu əxlaqi və ya məqbul davranışa münasibətdə yüksək dərəcədə konsensus yaratmağa meyllidir. Bu cür cəmiyyətlərdə deviantın cəzalandırılması adətən statuskvo üçün məsuliyyət hissini artırır. Əksinə, müasir və mürəkkəb cəmiyyətlər daha çox heterogenliyə meyllidir, yəni müasir cəmiyyətdə müxtəlif həyat tərzləri və əxlaqi dünyagörüşləri rəqabət aparır. Müasir cəmiyyətlərdə dəyərlər, normalar və əxlaqın sərhədləri nədənsə öncə təyin olunmur, onlar danışıqlar vasitəsilə müəyyənləşdirilir. Nəticədə, deviant sosial normaları təkrar danışıqlar vasitəsi ilə tənzimləməklə, sosial dəyişikliklərin inkişafına yardım edir.

Əgər deviant konkret zaman, məkan və yaranmış vəziyyət daxilində mövcud normalara münasibətdə müəyyən edilirsə, onda belə bir sual yaranır: bütövlükdə cəmiyyətdə kimlərin normaları üstünlük təşkil edir? Başqa sözlə, cəmiyyətdə hansı normaların əsas olduğunu və davranışın həmin normalardan kənara çıxdığını müəyyənləşdirmək səlahiyyəti kimlərin əlindədir? Məsələn, Amerika cəmiyyətində maddi sərvət və irqi mənsubiyyətlə yanaşı, klan,. Tayfa, qohumluq əlaqələri hakimiyyətin kimlərə məxsus olduğunu, deviantı müəyyənləşdirmək

səlahiyyətinin kimlərin əlində cəmləşdiyini müəyyənləşdirməyə yardım edir. Məsələn, inkişaf etmiş sənaye cəmiyyətlərin əksəriyyəti küçə quldurlarını deviant kimi müəyyənləşdirmək səlahiyyəti orta və yüksək sinfə mənsub fərdlərin ixtiyarındadır. Tipik olaraq, deviant damğası nisbətən az səlahiyyətli fərdlərə vurulur. Əksinə, iqtidar və səlahiyyət sahiblərinə, ayrı-ayrı fərdlərə və cəmiyyətə əhəmiyyətli dərəcədə ziyan vurduqları təqdirdə, adamlar deviant damğası vurmaqdan çəkinir. Məsələn, 1980-ci illərdə bank və vergi məmurlarının amerikalılardan fırıldaq yolu ilə milyardlarla dollar mənimsəməyinə baxmayaraq, geniş ictimaiyyət həmin məmurlara deviant damğasını vurmamışdı.

Nisbi hakimiyyətsizliyi ilə seçilən deviant qrup heç də yalnız qara camaatı, yaxud kasıbları əhatə etmir. Məsələn, öz feminin davranışını yenidən müəyyənləşdirməyə cəhd göstərən qadınlara əsrlər boyu deviant möhürü vurulmuşdu. Hətta, zorakılığın qurbanı, əsirin təhqirlərinə, işində kobud münasibətlərə belə məruz qalmasına baxmayaraq, qadınları deviant adlandırmışlar. Müasir cəmiyyətlərdə qadınlar nisbətən böyük səlahiyyətlərə malikdir, lakin, ənənəvi kişi-qadın fərqləri hələ də mövcuddur. Bu fərqlər Asiya və Afrikanın 3-cü dünya ölkələrində daha böyükdür.

Karl Marksa görə iqtisadi elitanın kiçik bir dəstəsi əxlaq normalarını, o cümlədən deviantı müəyyənləşdirir. Əxlaq normaları, öz növbəsində mövcud iqtisadi qayda-qanunu müdafiə edir. Cəmiyyət normalarının pozulmasına verilən reaksiyanın sərtliyi həmin pozuntuların hakimiyyət münasibətləri üçün törətdiyi təhlükənin dərəcəsindən asılıdır. Məsələn, Amerika elitası narkotiklərin deviant davranışına qarşı uzun müddət dözümlülük nümayiş etdirmişdir. Bunun səbəbi onunla izah olunur ki, deviant davranışın neqativ nəticələri daha çox kasıbları və etnik azlıqları əhatə edir. Lakin sonradan bu bəla orta sinfə mənsub olan ağlar arasında artanda narkotikdən istifadəyə qarşı sosial sanksiyalar güclənməyə başlamışdır. Artıq narkotik alveri o qədər geniş miqyasda yayılmışdır ki, ondan böyük miqdarda mənfəət götürənlər ənənəvi hakimiyyət münasibətlərini pozmağa cəhd göstərirdi. Nəticədə, hakim elita qanun pazuntularının müdafiəsinə qalxmışdır.

Beləliklə, marksist sosiologiyaya görə qanun, hər şeydən əvvəl, hakim sinfin maraqlarını əks etdirir və müdafiə edir. Cinayət məhkəmə

sistemi qanunvericilik, polis və məhkəmə üzərində nəzarəti həyata keçirən səlahiyyətli qüvvələrin dəyər və maraqlarını əks etdirir. Əslində, bu cür baxışlar ədalət idealı ilə təzad yaradır: ideal məhkəmə sistemi sosial hakimiyyət fərqlərinə qərəzsiz yanaşmalı və obyektivliyi təmin etməlidir.

Mövzu 23. İctimaiyyət tərəfindən qanun pozuntularının deviant kimi müəyyənləşdirmə imkanları

23.1. “Yarlıq asma” nəzəriyyəsi

23.2. Mertonun 5 mümkün davranış növü

23.3. “Risk qrupları” və əhalinin bu kateqoriyalarının sosial müdafiəsi istiqamətləri

23.4. Xəstəlik depressiyaları problemlərinin qarşısının alınması

23.5. Alkoqol və narkotik alüdəçiliyi problemləri

23.1. “Yarlıq asma” nəzəriyyəsi

Amerika məhkəmə sistemini öyrənmiş sosioloq Amitia Etzioninin hesablamalarına görə, Amerikanın 500 ən iri korporasiyalarından 3/2-si hər on il ərzində bu və ya digər dərəcədə qanunu pozur.

Bunu deviant hesab etmək üçün meyar heç də həmin hərəkətin verdiyi ziyan dərəcəsinə görə deyil, qanundan kənara çıxmaq səlahiyyətini aşmaqdan ibarətdir. Əlbəttə, elitanın hakimiyyəti heç yerdə və heç vaxt kamil olmur. Xüsusən, plürazilmə doğru inkişaf edən demokratik cəmiyyətdə ayrı-ayrı sosial qruplar hakim sinfi kənarlaşdırmaq və deviant davranışa əhəmiyyətli dərəcədə təsir göstərmək imkanlarına malikdir. Məsələn, 1960-cı illərdən başlayaraq, istehlakçıları müdafiə edən qruplar alıcıları təhlükəli məhsullardan, ağır xəstəlik törədən qidalardan müdafiə etmək məqsədi ilə ABŞ federal hökümətini müvafiq qanunları qəbul etməyə məcbur etmişdir. Yaxud siqaret çəkməyə qarşı ictimaiyyətin təzyiqini göstərmək olar. Deməli, kifayət qədər kollektiv səy və həmrəyliyə malik olan ictimaiyyət hətta hakim elitanın belə qanun pozuntularını deviant kimi müəyyənləşdirmə imkanı və bacarıqlarına malikdir.

Bununla bağlı bir sıra nəzəriyyələr mövcuddur. Bəzilərini nəzərdən keçirək. “Yarlıq asmaq”, yaxud “damğa vurmaq” nəzəriyyəsinə görə, “deviant damğası” şəxsiyyətin sosial müəyyənliyinə güclü təsir göstərir.

Bu baxımdan, ilkin deviantı (yəni sosial normanın birinci bağlanılmaması) sonrakı deviantdan fərqləndirmək lazımdır (axırıncı

halda sosial normaların pozulması şəxsiyyətin həyat tərzinə çevrilir, başqalarının rəyinə görə şəxs özünü deviant hesab edir).

İlkin devianta tez-tez rast gəlinir. Demək olar ki, hər birimiz bu və ya digər formada qanunu pozuruq, hətta bəzən yaşadığımız zamanla "ziddiyyətə" giririk. Lakin, əksəriyyətimiz heç də özümüzü deviant hesab etmirik. İlkin deviantın cüzi bir qisminə "cinayət", "psix", "ağıldan kəm" və s. damğası vurulur. Bir qayda olaraq, bu cür "yarlık"la möhürlənmiş fərdlər cəmiyyətdən kənarlaşdırılır. "Cinayətkar" adlanan, yaxud cinayətkar damğası vurulmuş şəxs yaxşı iş, nüfuz və status qazana bilmir. Ləyaqətsiz davranışa malik qadın övlad qayğısından məhrum olur və s. cəmiyyətdə baş verən bu cür "sosial imtina", yaxud "üzdöndərmə" fərdin özünə deviant kimi baxmağına, deviant həyat tərzini seçməyinə bir növ şərait yaradır – necə deyərlər, onu deviantlığa sürükləyir. Bu cür davranmaqla şəxs, başqalarının ondan gözlədiyi diqqəti öz üzərinə alır.

Beləliklə, "deviant yarlık" mədəniyyətin funksiyalarından biridir, "yarlık asma" isə - səlahiyyət, yaxud hakimiyyət münasibətlərini ehtiva etməklə sosial fəaliyyətdir.

Deviasiyanın səbəbini irsiyyətdə axtarmağa müxtəlif dövrlərdə cəhdlər göstərilmişdir. 19-cu əsr italiya kriminalisti Çezare Lombrozo (1835-1909) cinayətkarların şəxsiyyətini öyrənərək belə bir fərziyyə irəli sürmüşdür ki, cinayətkarların şəxsiyyətini öyrənərək belə bir fərziyyə irəli sürmüşdür ki, cinayətkarların beynində spesifik anatomik və fizioloji əlamətlər mövcuddur və həmin əlamətlər irsən deviant və cinayətkar davranışı təyin edir. Mühakimə olunmuşların beynini antropoloji metodlara əsasən "ölçərək", Lombrozo "anadangəlmə (irsən) cinayətkar" tipini təklif etmişdir. Onun təsnifatı cinayətkarların fiziki əlamətlərini meymunun fiziki əlamətləri ilə eyniləşdirirdi. O, "irsın cinayətkar"ın aşağıdakı fiziki tiplərini xüsusi ayırırdı: yastı burun, seyrək saqqal, alçaq alın, iri çənə, hündür almacıq sümüyü və s. Lombrozunun "fiziki əlamətlər cədvəli" şəxsiyyətin "yeni" tipini – atavizm tipli şəxsiyyəti təklif edirdi və bu tipin irsən cinayətkarlığa meyilli olduğunu iddia edirdi. Beləliklə, Lombrozoya görə, cinayət təkamülün ilkin mərhələsinə, keçmişə, sivil cəmiyyət arasında "vəhşilərə", bir sözlə, reqresə aiddir. Lombrozunun əsas səhvi bütün

əhali üçün nümunəvi ola biləcək qrupları deyil, yalnız cinayətkarların beynini öyrənməklə özünü məhdudlaşdırmaqdan ibarət olmuşdur. Həmçinin, cinayətkarların tarixi və sosial şəraitini nəzərə almamışdır. Üstündən bir neçə il keçəndən sonra, Britaniyalı həkim Çarlz Qorinq 1913-cü ildə adi adamların və cinayətkarların beynini müqayisəli şəkildə öyrənib onlar arasında heç bir fərqin mövcud olmadığını aşkarlanmışdı. Cinayətkarlığın irsi olmadığını, onun müəyyən tarixi və sosial mühit daxilində yetişdiyini sübut edən digər dəlillər meydana çıxdı. Məsələn, Avstraliya Britaniyanın cəza koloniyası olmuşdur. Bugünkü avstraliyalıların əksəriyyətinin əcdadlarının həyatı həmin koloniya ilə bağlıdır, lakin, müasir avstraliyalılar arasında cinayətkarlığın faizi heç də yüksək deyil. Sosioloq R.Haqzın göstərdiyi kimi, müasir avstrliyalılar öz əcdadlarından "irsi cinayətkarlıq" əlamətlərini əcz etməmişlər. Lakin bioloji amili qəti rədd etmək də düzgün olmazdı. Müasir genetika, biokimya və neyropsixologiyanın son nailiyyətləri deviantın bioloji izahına yenidən marağı artırmışdır.

Fərd, həyati boyu sosiallaşır. Sosiallaşma prosesində o, məxsus olduğu mədəniyyətin norma və dəyərlərinə alışır, onları dərindən öyrənir. Sosiallaşma formaları cəmiyyətdən – cəmiyyətə fərqlənir. Lakin həmin formalar və üsullar sayəsində adamlar deviant təyin edə bilirlər. Məsələn, psixoanalizin banisi Ziqmund Freyd təsdiq edir ki, sosiallaşma prosesində əksər adamlar həzz, yaxud təcavüzə meylli daxili motivlərini tənzimləməyi öyrənir. Bu prosesdə yaşlı nəslin davranışı uşaq üçün örnək olmalıdır. Belə bir örnək olmayanda bəzi uşaqlar uyğunlaşmaq istədikləri müvafiq əxlaqi norma və dəyərləri müəyyənləşdirmək işində çətinlik çəkir. Freydə görə, bu cür uşaqlar özlərində güclü supereqo tərbiyə edə bilmir, yəni öz davranışını şüurlu surətdə tənzimləyə bilmir. Nəticədə, onlar deviant davranışa daha çox meylli olur.

Sosial-təlim nəzəriyyəçilərin fikrincə, bəzi adamlar hörmət etdikləri və nümunəvi saydıqları şəxslərin deviant davranışını yamsılamaqla özləri deviant davranışa alışırlar.

Sosioloqlar Albert Bandura və Riçard Volterz maddi cəhətdən yaxşı təmin olunmuş ailədə tərbiyə almış deviant və qeyri-deviant iki qrupu (əsasən oğlanları) müqayisəli surətdə öyrənmişlər. Onların qənaətinə görə, daha çox aqressivliyi ilə seçilən oğlanların əksəriyyəti

aqressivliyi həvəsləndirən ailəyə mənsubdur. Bu cür ailədə valideynlərin öz davranışı aqressiv model kimi çıxış edir: yeniyetmə acıqlı olanda, yaxud psixoloji ovqatı pozulanda həmin modeli yamsılayır. Sosioloqların gəldiyi ikinci nəticə ondan ibarətdir ki, aqressiv davranış modelinə təkrar məruz qalan yenyetmələrin deviant davranışları, ümumiyyətlə bəzi adamların deviant və digər zorakı hərəkətlərinin səbəblərini öyrənməyə yardım edir.

Sosial-təlim nəzəriyyəsini sosial struktur elementləri ilə tamamlayan digər bir nəzəriyyə diferensial assosiasiya nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə deviant davranan qruplar bir-biri ilə sosial əlaqələr qurur, biri digərindən deviant norma və dəyərləri əxz edir. Münasib və uyğun davranış kimi deviant davranış eyni sosiallaşma prosesində yaranır. Hər bir sosial qrup öz mədəni norma və dəyərlərini ailənin təsviri və yaşıdlarının nüfuzundan istifadə etməklə ötürməyə müyəssər olur.

Qrupla sıx əlaqə, yaxud assosiasiya sayəsində yeni üzvlər bu norma və dəyərləri öz dəyərləri kimi qəbul edir. Qrup dəyərləri cəmiyyətin dəyərlərinə zidd olanda, qrupun yeni üzvləri deviant submədəniyyət daxilində sosiallaşmağa başlayır. Beləliklə, adamlar deviantla əlaqələrə girərək, müxtəlif narkoman, cinayətkar, quldur dəstələrinin submədəniyyəti daxilində sosiallaşa, onların həyat tərzini qəbul edə bilər. Sosioloq Hovard Beker göstərir ki, hər hansı bir şəxsin narkoman olub-olmaması, həmin şəxsin narkomanların submədəniyyətində tez-tez iştirak etməsindən asılıdır: nə qədər çox iştirak edirsə, sıx sosial əlaqələr yaranırsa, bir o qədər narkotiklərdən istifadə etmə ehtimalı güclü olur.

Diferensial assosiasiya nəzəriyyəsi təkcə ayrı-ayrı fərdlərin deyil, həmçinin iri qrupların deviant həyat tərzinə meylli olmağının səbəblərini anlamağa yardım edir.

23.2. Mertonun 5 mümkün davranış növü

Bəzi adamların deviant davranışa meylli olmağının səbəblərini açıqlayan digər bir nəzəriyyə struktur gərginlik, yaxud struktur konflikt nəzəriyyəsidir. Bu nəzəriyyəni Robert Merton irəli sürmüşdür. O,

Dürkheymin anomi anlayışına əsaslanırdı. Xatırladaq ki, Dürkheym deviantın səbəbini sosial norma və institutlara inamın itirilməsi ilə izah etmişdir. Onun nəzərincə, cəmiyyətdə deviantın yüksək faizi – sosiyetal gözləmələr və imkanlar, mədəni məqsədlər və onların əldə edilməsi vasitələri arasında yaranan ziddiyyətlərin nəticəsidir. İnsanlar bu məqsədlərə çatmağın legitim vasitələr və imkanlar məhdud, yaxud qeyri-mümkün olanda onlar alternativ vasitələr axtarır, yaxud məqsədlərdən imtina edir. Buradan Merton belə bir nəticə çıxarır ki, sosial strukturda yaranmış gərginlik deviant davranışa sövq etdirir. Örnək olaraq, Merton əsasən Amerika cəmiyyətinə isnad verir, lakin buna baxmayaraq, bu cəmiyyət maliyyə müvəffəqiyyətini xüsusi vurğulayır. Həmin cəmiyyət uşaqları varlanmaq, kapital yığmaq ruhunda tərbiyə edir. Bundan ötrü uşaqlara gərgin əməyin xeyri və bəhrəsi aşılanır. Digər tərəfdən, Mertona görə Amerika cəmiyyətində varlanmağın legitim imkanları və vasitələri məhduddur. Təbii olaraq belə bir sual yaranır: mədəni məqsədlərə çatmağın legitim vasitələri arasında yaranmış ziddiyəti aradan qaldırmaq üçün adamlar necə hərəkət etməlidir? Vəziyyətdən çıxış yolu kimi Merton 5 mümkün davranış növünü təklif etmişdir:

1. Konformist (uyğunlaşma) – sosial gözləmələr və imkanlar arasında ziddiyyətə baxmayaraq, normativ məqsədlərə adekvat normativ vasitələr axtarılmalıdır. Məsələn, əksər iş adamları qanun və normaları pozaraq qazanc əldə edir.
2. Novatorluq – bəyənilmiş məqsədlərə qeyri-münasib və qeyri-qanuni vasitələrlə yiyələnməyi daxil edir. Məsələn, səhm bazarının daxili qaydalarını pozaraq, broker yüksəkq azanc götürür: pul qazanmaq normal bir işdir, lakin broker qeyri-qanuni vasitəyə əl atmışdır.
3. Ritualpərəst – məqsədə çatmaq üçün sosial müəyyənləşdirilmiş və bəyənilmiş vasitələrə çox ciddi əməl olunur, lakin irimiqyaslı məqsədlər unudulur. Bu zaman deviant bu cür ciddiyyətin törətdiyi mənfi nəticələrə məhəl qoymamaqdan yaranır. Məsələn, səmərəsizliyinə və yaradıcı münaisbəti boğmağına baxmayaraq, məmur sosial qanun-qaydalara və sərəncamlara çox ciddi əməl edir.

4. Uzaqlaşma – normativ məqsəd və vasitələri tərk edir. Bu cür adamlar "cəmiyyətin göz yaşlarıdır" (R.Merton). İş axtarmaqdan bezikən bu adamlar narkomana, səfilə və avaraya çevrilirlər.
5. Müqavimət – bəyənilmiş məqsəd və vasitələri rədd edir, yeni məqsəd və vasitələr irəli sürür, lakin, cəmiyyət bunu qəbul etmir. Merton qeyd edir ki, dünənki müqavimətçilər sabahın komformistləri ola bilər.

Deviant davranışın Merton modeli qismən rasional seçim modelinə uyğundur. Həmin modelə görə, deviant davranış sosial struktur gərginliyi şəraitində rasional seçimdən ibarətdir. Yəni arzuolunan məqsədlərə qanuni vasitələrlə çatmağın qeyri-mümkünlüyünü, deviant davranışın seçimini mümkün edir. Bu cür şərait durduqca və deviant davranışın vurduğu ziyan (məs: tutulmaq və cəza almaq riski aşağıdırsa, yaxud başqalarına verilən mənfi qiymət ifrat həddə çatmırsa) yüksək deyilsə, bəzi adamlar (əksər adamların can atdıqları, lakin nail ola bilmədikləri) eyni məqsədə çatmaq üçün deviant vasitələr seçilir.

Rasional seçimdən əlavə, Merton modelinin daha bir tərkib hissəsi – sosial-psixoloji komponentdən ibarətdir. Sosial bəyənilmiş məqsədlərə çatmağın legitim vasitələri mümkün olmayanda, bu, ovqat pozğunluğu yaradır, fərdin, yaxud qrupun ümidlərini məhv edir. Mertona görə, psixoloji ovqatın pozulması deviantlığa təkan verir, lakin buna baxmayaraq, müəyyən adamlar deviant davranışı, onların imkanlarını məhdudlaşdıran cəmiyyətə bir növ əks reaksiya vermək vasitəsi kimi qiymətləndirir.

Bəzi sosioloqlar Mertonun nəzəriyyəsini qüsurlu sayır. Məsələn, Con və Torperə görə o, deviantın bəzi tiplərini izah edə bilməz (alkoqolizm, yaxud mental pozuntular kimi). Digər tərəfdən cəmiyyətin sıxışdırdığı adamların nə üçün həmişə bütün hallarda deyil, məhz bəzi hallarda deviant davranmadığını izah etmir. Mədəniyyətin təbiətindən çox şey asılıdır: mədəniyyət hansı məqsədləri və onları əldə etmə vasitələrini bəyənir? Məsələn, cəmiyyətimizdə varlanmaq, yaxud pul qazanmaq (məqsəd) normal satılır. Mədəniyyətimiz bu məqsədi bəyənməklə, eyni zamanda oğurluğu, vergidən yayınmağı, dövlət resurslarının israfçılığını pipsləyir. Cəmiyyətin müxtəlif hissələrinin

funksional inteqrasiyasına, yaranmış gərginliyə diqqətlə yanaşmaq lazımdır.

Sosial nəzarət, qrup, yaxud cəmiyyətin öz üzvlərinin davranışın ümumi qəbul olunmuş normalara müvafiq olaraq tənzimlənməsini nəzərdə tutur. Cəmiyyət, yaxud qrup ümid edir ki, insanlar həmin normaları daxilən mənimsədiyindən, yəni öz düşüncə və davranış tərzində dərindən "əritdiyindən", mexaniki surətdə normaya müvafiq davranmalıdır. Təəssüf ki, bu ümid çox vaxt gerçəkləşmir, əksinə, normalar kobud surətdə pozulur. Bu səbəbdən sanksiyalar qeyri-formaldır: qeyri-rəsmi təzyiqlər altında adamlar normaları qəbul edir. Pozitiv qeyri-rəsmi sanksiyalar normalara uyğunluğu, yaxud əldə olunan razılığı "gülümsəmək", "öpmək", "tərifləmək", "təltif etmək" və s. vasitələrlə mükafatlandırır. Normalara əməl edilmədikdə neqativ qeyri-rəsmi sanksiyalar işə düşür. Məsələn, rəsmi cərimə, həbs etmək, məsuliyyətə cəlb etmək və s.

Sosioloq travis Hirşi "Qanun pozuntularının səbəbləri" əsərində təsdiq edir ki, qeyri-adekvat sosial nəzarət cinayət və deviantın səbəbidir. Məsələn, yeniyetmələr daim yaşlıların, yaxud valideynlərin nəzarəti altında olduğu üçün az cinayət törədirlər. Yalnız cavanlıq həddinə çatanda, valideyn nəzarətindən azad olur və bu dövr üçün daha çox cinayətlərin törənməsinə rəvac verir. Belə ki, narkomanlar şəhərin daha çox kasıb məhəlləsində, müxtəlif etnik qrupların yaşadığı iri şəhərlərdə, etnik azlıqların sıx yaşadığı və yüksək cinayətkarlıq faizi ilə seçilən məhəllələrdə yaşamağa "üstünlük" verir. Ona görə yox ki, narkotiklərdən istifadə edilməsi, yaxud etnik azlıqların ona aludə olması cinayətlə nəticələnir. Əsas amil həmin yerlərdə, məhəllədə, qonşuluqda sosial nəzarətin zəifliyindədir. Burada, həmçinin ailə strukturunun zəifliyini əlavə etmək gərəkdir: boşanmış valideynlər, sözü keçməyən ailə başçısı cinayətə, yaxud narkotikdən istifadə edilməsinə nəzarət etmək iqtidarında olmur.

Bəzi sosioloqlar qeyd edir ki, devianta zahiri məhdudiyyət qoyulmadan ona nəzarət edilməsi şəxs tərəfindən həyata keçirilə bilər. Belə ki, əksər adamlar sosiallaşma, mədəni norma və dəyərləri daxilən mənimsəmək yolu ilə kənardan sanksiyalar qoyulmadan sosial bəyənilmiş məqsədləri sosial bəyənilmiş vasitələrlə əldə etməyi

öyrənilir. Təəssüf ki, bəziləri bu cür sosiallaşma bacarığını səhv və qeyri-kamil hesab edir, tez-tez deviant davranışa üstünlük verir. Belə adamlar öz məqsədlərinin və metodlarının ictimaiyyət tərəfindən pislənməyinə əhəmiyyət vermir, nəyin bahasına olursa olsun, qısamüddətli, ani həzz və ləzzətin qurbanı kimi narkotik vasitəyə və spirtli içkiyə aludə olur.

23.3. "Risk qrupları" və əhalinin bu kateqoriyalarının sosial müdafiəsi istiqamətləri

"Risk qrupları" bu və ya digər meyarlara görə sabitliyi olmayan, tək çətinliklərlə mübarizə apara bilməyən insan kateqoriyalarıdır. "Risk qrupları"na:

-əlillər

-yetim uşaqlar

-deviant davranışlı uşaqlar

-tənha analar

-natamam ailələr

-ahıllar

-tənhalar

-əqli cəhətdən zəif olan insanlar

-qaçqınlar

-cinayətkarlar

-narkomanlar

-alkoqoliklər

-evsizlər

-ekoloji fəlakətlərin qurbanları və s. aiddir.

Belə insanların düşdüyü böhranlı vəziyyət, psixoloji stresslər, maliyyə uğursuzluqları, həyat səviyyəsinin aşağı olması təkcə sosial xidmətlərin bu müştərilərinə yox, həm də bütün cəmiyyətin atmosferinə

mənfi təsir göstərir. Əhalinin bu kateqoriyalarının sosial müdafiəsi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

-pensiya təminatı

-sosial xidmət

-sosial yardım.

Birbaşa sosial iş praktikasında qarşıya çıxan problemlər, güclü cəhətlər və mənbələr fərddaxili, fərdlərarası və mühit sistemlərinin qarşılıqlı təsirinin nəticəsi kimi meydana çıxır. Hər hansı sistemdə funksional tarazlığın pozulması bir qayda olaraq, digər sistemlərdə də eyni halın təkrarlanmasına səbəb olduğundan, onları bu geniş sistemlərə çox nadir hallarda aid etmək mümkün olur. Fərdi çətinliklər (məs: dəyərsizlik hissi və depressiya) labüd şəkildə insanın digərləri ilə münasibətlərinə təsir edir; fərdlərarası çətinliklər (məs: nikahda yaşanan gərginliklər) eyni qaydada fərdi funksiyaya təsir göstərir.

Şübhəsiz ki, bu üç sistem arasında olan qarşılıqlı təsirlər funksional tarazlığın pozulması və sistem çatışmazlıqlarının mənfi təsirləri ilə məhdudlaşmır. Üstün keyfiyyətlər, güclü cəhətlər və resurslar da qarşılıqlı müsbət tərislərə malikdirlər. Güclü mühitin mövcudluğu fərddaxili çətinlikləri yalnız qismən əvəz edə bilər; eyni qaydada, uşaqlar və valideynlər arasında olan güclü fərdlərarası münasibətlər sonuncuları, kasad ətraf mühiti əvəz etməkdən daha üstün müsbət həyat təcrübəsi ilə təmin edir.

Hər hansı bir fərdin dəyərləndirilməsi biofiziki, əqli, hissi, emosional, tərbiyəvi, mədəni və motivasiya amillərini daxil edir.

Kliyentlərin fiziki xüsusiyyətləri və görkəmli ya üstün, yaxud da qüsurlu cəhət ola bilər. Qərb cəmiyyətində fiziki cəlbedicilik yüksək qiymətləndirilir, cəlbedici olmayan insanlar isə sosial arzuolunma sahəsində, iş imkanlarında və nikahda əlverişsiz mövqeyə malik olurlar. Bundan əlavə ən azı bir tədqiqatın nəticələri onu göstərir ki, fiziki cəlbedicilik buraxılmış psixiatrik kliyentlərin yenidən uyğunlaşmasını asanlaşdırır. Sosial funksiyaya təsir göstərə biləcək müəyyənedici fiziki xüsusiyyətləri müşahidə etmək bu baxımdan vacibdir.

23.4. Xəstəlik depressiyaları problemlərinin qarşısının alınması

Xəstəlik depressiyaya, əsəbiliyə, enerjinin aşağı səviyyəsinin olmasına, narahatlığa, diqqəti toplamanın mükünsüzlüyünə bir sıra digər çətinliklərə səbəb ola bilər. Bu baxımdan, kliyentlərin problemlərini araşdırarkəb onların sağlamlıq durumunu müntəzəm surətdə nəzərdən keçirmək tədqiqatçılar üçün vacibdir. Belə olduqda ilk dəyərləndirmənin məqsədi, fəaliyyətləri kliyentlərə tibbi qayğı göstərilib-göstərilməməsini, bu olmadıqda onlara göstərilən son tibbi yoxlamanı müəyyən etməkdən ibarətdir.

Tədqiqatçılar problemləri yalnız psixoloji amillərə şamil etməmişdən qabaq, lazım gəldiyi halda kliyentləri tibbi yoxlamalardan keçirmək yolu ilə çətinliklərin tibbi əsaslarını istisna etməlidirlər. Bəzi hallarda tədqiqatçılar əsəbiliyin kəskin şəkildə artmasını, emosional nəzarətin qəfil itkini və digər fərdi dəyişiklikləri müalicə etmək üçün psixoterapiyadan istifadə etmiş və çox gec bu dəyişikliklərin beyin şişləri cə ya digər üzvi çatışmazlıqlarla bağlı olduğunu aşkar etmişlər. Bu cür faciələrdən yayınmaq üçün tədqiqatçılar ehtiyatlı davranmalı və ortada tibbi amillərin mövcudluğunu, hətta dolayısı yolla mümkün sayılsa belə, problemlərin əsasları barədə tələsik nəticələr çıxarmaqdan vaz keçməlidirlər.

Kliyentlərin sağlamlıqlarını dəyərləndirmək, xüsusən də tibbi qayğının aşağı səviyyədə göstərildiyi qruplar üçün əhəmiyyət daşıyır. Bu qruplara yoxsulluq içində yaşayan insanlar, etnik azlıqlar, yaşlı insanlar, immiqrantlar (qaçqınlar da daxil olmaqla), qəyyumluğa götürülmüş uşaqlar, nikahsız hamilə olan yeniyetmə qızlar, evsiz insanlar, sağlamlıq sığortası olmayan qazanılmış immun çatışmazlığı sindromuna (QİÇS) yoluxmuş xəstələr daxildir.

QİÇS-dən əziyyət çəkən insanların sağlamlıq qayğısına daha çox ehtiyacı var. Xəstəlik müddəti olduğuna görə onların başqa xəstəliklərə yoluxmuş insanlardan daha çox psixososioloji ehtiyacları olur. Sağlamlıq qayğısı və sosial yardım fövqəladə əhəmiyyət daşısa da, QİÇS-ə xüsusilə onun dərmanla bağlı cəhətlərinə ikili icma münasibətlərinin olması səbəbindən kliyentlər digər müddətli xəstəliklərdən əziyyət çəkənlər kimi bəhrələnə bilmirlər.

QİÇS-ə dair qiymətləndirmə xəstəliyə yoluxmuş insanların ehtiyaclarını müəyyən etməkdən daha geniş əhatə dairəsinə malikdir. Partnyorlar və ailə üzvləri, həmçinin qayğı prosesi və yoluxmuş insanın gözlənilən ölümündən kəskin təsirlənirlər.

Xəstəliyin səbəbləri, fiziki pozuntular, qüsurlu cəhətlər və ruhi simptomlara dair kliyentlərin fikirlərini öyrənmək qiymətləndirmə işi üçün əhəmiyyətli bir işdir. Çünki tibbi müayinə və müalicənin kliyentlər tərəfindən qəbulu dərəcəsi, onların kliyentlər baxımından məqsədəuyğun olub-olmamasında asılı olacaq. Müasir qərb cəmiyyətində artan sayda mütəxəssislərin sistemlər yanaşmasını qəbul etməsinə baxmayaraq, əksər insanlar xəstəliyi fiziki səbəblərlə bağlamaqda davam edirlər (məs: yoluxmalar, zəhərləyici maddələr, degenerativ proseslər, irsiyyət, düzgün olmayan qidalanma, kimyəvi tarazlığın pozulması, hərəkətsizlik və ya dogər məlum olmayan amillər). Bununla insanlar öz gözləntiləri ilə üst-üstə düşən müayinə və müalicələri qəbul etməyə meylli olurlar.

Sağlamlıq problemlərini qiymətləndirərkən əsas ailə üzvlərinin münasibətləri də nəzərə alınmalıdır. Əksər mədəniyyətlərdə ailə üzvünün xəstə olub-olmadığını, xəstəliklərin mənalarını, ailə üzvlərinin xəstəliklə necə davranmalı olduqlarını ailə müəyyən edir. Bundan əlavə, ailənin mədəni dəyərləri və həyat tərzi pasiyentin xəstəliyinə və sağlamlığının bərpasına təsir edir. Tibbi qayğının göstərilməsi, müayinəyə münasibət və müaicə məsləhətlərinə əməl olunub-olunmaması kimi ilkin addımlardan etibarən ailə, həmin ailə üzvünün xəstəliyinin hər bir mərhələsində qərarvermə işinə təsir göstərir.

Təcrübəçilər, həmçinin ailə üzvünün xəstəliyinin ümumi ailə işinə necə təsir göstərdiyini qiymətləndirməlidir. Hər hansı bir üzvün və xüsusilə də valideynin xəstələnməsi ailə sistemində tarazlığın pozulmasına səbəb olur və adətən, ailə üzvləri tərəfindən rolların icrasında uzlaşmanın əldə olunmasını tələb edir.

Başqa sistemlər xəstələrin sağlamlıqlarına təsir göstərdiyi üçün təcrübəçilər, xəstələrin bu sistemlərlə qarşılıqlı təsirinin təbiətini də araşdırmalıdır. Sosial qayğı xidmətləri, xüsusilə də nikah və ailə münasibətləri çox vacibdir. Psixososial qohumluq üzrə tədqiqat da onu göstərir ki, yaxşı ruhi sağlamlıq üçün yardım şəbəkələri fövqəladə vəziyyətə malikdir.

Tədqiqatçılar xəstələrin müntəzəm qaydada narkotiklərdən istifadə edib-etmədiklərini müəyyən etməyin vacibliyini (xüsusən də sağlamlıq qayğısı şəraitində) vurğulayırlar. Hətta xeyirli dərmanlar belə, müxtəlif biopsixoloji sistemlərin funksiyasına təsir göstərən kənar effektlər doğura bilir. Məsələn, yuxulu olmaq – bir çox dərmanların yan təsiridir. Seksual funksiyada baş verən dəyişikliklər də yüksək qan təzyiqini müalicə etməkdə istifadə olunan tibbi vasitələrin səbəbi ola bilər. Sarılıq xəstəliyinə bənzərlik, dəyişməyən yeriş tərzi, zombiyə bənzər sifət, dil sallanması və digər qeyri-iradi əzələ gərilmələri psixozun bəzi formalarının müalicəsi üçün istifadə edilən əsas sakitləşdirici dərmanların artıq dozalarının nəticəsidir və bu zaman dozanın tibbi dəyərləndirməsinə zərurət yaranır. Digər problemlər narahatlıq və gərginliyi müalicə etmək üçün istifadə edilən kiçik sakitləşdirici dərmanların artıq dozası ilə əlaqədar ola bilər. Və bu, ümumən istifadə olunan dərmanların çoxsaylı kənar təsirlərinin yalnız bir neçəsidir. Digər sağlamlıq problemləri dərmanlara müsbət reaksya verə bilər (məs: kəskin depressiya, diqqət çatışmazlığı pozuntuları və uşaqlarda hiperaktivlik, epileptik tutmalar) həkimə, yaxud sağlamlıq ocaqlarına müraciət edilməsinə dərmanda göstərilir.

23.5. Alkoqol və narkotik alüdəçiliyi problemləri

Alkoqoldan istifadə sağlamlığa ciddi ziyan vuran, ailə həyatını pozan və ya dağıdan, həmçinin icma problemləri yaradan bir problemdir. Alkoqolizm, həm də özünəqəsd, qətl, həyat yoldaşı və uşaqlara qarşı zorakılıqla bağlı ola bilər.

İçkiyə qurşanmış qadınlar kişilərdən daha çox içkiyə qurşanmamış qadın tiplərinə malikdirlər. Onlar əsasən resept dərmanlarından təklikdə qəbul etməyə, irqi və ya ailədaxili zorakılıq kimi travmatik hadisələrdən sonra alüdəçiliyə daha çox meylli olurlar. İçən qadınların narkotik və içkidən istifadə olunan ailələrə mənsub olması ehtimalı böyükdür. Qadınlar müalicə proqramlarına daxil olmağa və onu başa çatdırmağa kişilərdənn daha az meyl edirlər və müalicə ərzində uşaq qayğısı onlar üçün əsas maneəyə çevrilir. Alkoqola qurşanmış qadınlar arasında təqsir və eyib hissinin yüksək olmasına görə, onların içdiklərini inkar etmələrinə son qoymaq məqsədi ilə onlarla aqressiv qarşıdurma bir

qayda olaraq əks nəticə göstərir. Dərman preparatlarından istifadəyə təhrikedən qeyri-sağlam mühitin xüsusiyyətlərini müəyyənləşdirmək və qadınları təzyiq mühitləri ilə tanış etmək kimi mübarizə üsulları da daxil olmaqla, güclü cəhətlərə diqqət yetirən yanaşmalar bu insanların ehtiyaclarına daha üstün şəkildə xidmət etmək üçün tövsiyyə edilir.

Alkoqolizmlə bağlı olan fərd, psixoloji və psixososial amillər sosial xidmət işlərinin işinə xüsusilə uyğundur. Alkoqol düşkünləri nadir hallarda alkoqoldan istifadənin problem olduğunu qəbul edir, qaba davranışlara haqq qazandırır, çətinliklərə görə başqalarını və öz vəziyyətlərini günahlandırır, öz bacarıq və əhəmiyyətlər barədə ağlasığmaz ideyalar inkişaf etdirir və məqsədyönlü şəkildə narahatlığı azaldan və özünəhörməti təmin edən vəziyyətlərə və ünsiyyət növlərinə diqqət yetirirlər.

Alkoqol düşkünlərini əhatə edən sosiomədəni mühitlər də qiymətləndirilməlidir, çünki mühit amilləri müalicə nəticələrində, içki qəbulu xüsusiyyətləri və müalicə tədbirlərinin birlikdə olan nəticələri qədər fərqlilik təşkil edir. Digər alkoqol düşüncələri ilə yaxınlıq, barlara baş çəkmə və ya onları içkiyə ruhlandıran şəxslərlə birgə olmaq davamlı içkini möhkəmləndirir. Bunun əksinə olaraq, qayğıkeş olan, içkidən çəkindirən, alkoqol düşkününün ondan asılı olaraq, qayğıkeş olan, içkidən çəkindirən, alkoqol düşkününün ondan asılı olması və ya istismar etməsinə imkan verməyən və içki alüdəsinin içkinin nəticələrindən qoruyan ayıq insanlarla yaxın əlaqədə olmaq, içkidən imtina edilməsini gücləndirir.

Sosial işçilər adətən, problemli içki düşkünləri ilə, "precon-templation"-əvvəllər araşdırma adlandırılan mərhələdə məşğul olurlar. Bu mərhələ, problemli içki düşkününün problemi qəbul etmədiyi və kömək istəmədiyi mərhələdən qabaq gəlir.

Alkoqolizmə irsi amillər vacib olduqlarından ailə keçmişinin araşdırılmasının tərkib hissəsi kimi, içkinin valideynlər, baba-nənələr, əmi-dayılar və xala-bibilər tərəfindən qəbul edilib-edilmədiyini daxil etmək vacibdir. Ailə həyatını araşdırarkən digər ailə üzvləri ilə qarşılıqlı münasibətlərin keyfiyyətini, həm də tezliyini müəyyən etmək mütləqdir. Mübahisələrin tezliyini və təbiətin, içki məqamlarında onların artıb-artmadığını araşdırmaq da mühüm əhəmiyyət kəsb edir. Digər ailə

üzvlərinə qarşı zorakılığın mümkünlüyü tək kliyent ilə yox, həm də ailənin digər üzvləri ilə araşdırılmalıdır.

İş yeri dəyişmələri, iş şəraitindən razılıq, iş yoldaşları və rəhbərlərlə yaşanan problemlər, işdən yayınma, kliyentin malik olduğu təhsil və ya bacarıq səviyyəsindən aşağı işdə çalışması alkoqolizmlə bağlı iş çətinliklərinin göstəricisi ola bilər. Vaxtaşırı iş dəyişmələri və ya işdən azadolunmalar kliyentin sərxoş olduğuna görə işə gəlmədiyini, yaxud iş yerində içdiyini ehtimal etməyə imkan verir.

Narkotikləri qəbul etmənin ümumi ələamətləri aşağıdakı xüsusiyyətləri əhatə edir:

- İş və ya məktəb davamiyyətində dəyişikliklər
- Normal qabiliyyətlərin (iş icrası, iş keyfiyyəti, vərdişlər və s.) zəifləməsi
- Pis xarici görkəm, geyim və şəxsi gigiyenaya laqeydlik
- Sulanmış və ya kiçilmiş göz bəbəklərini gizlətmək və gözün geniş işığına uyğunlaşması qabiliyyətinin zəifləməsini əvəz etmək üçün eynəkdən istifadə olunması
- Qolu örtmək və iynə yerlərini gizlətmək üçün göstərilən qeyri-adi cəhətlər
- Məlum narkotik alüdəçiləri ilə yaxınlıq əlaqəsi
- Narkotik alüdəçiliyi vərdişini davam etdirmək və pul qazanmaq üçün oğurluq, yaxud əxlaqsızlıq etmək.

Narkotikdən istifadənin mümkünlüyünü qiymətləndirərkən tək şübhəli istifadəçidən (adətən, o narkotikdən istifadəni gizlətməyə çalışır) yox, həm də bu fərdin vərdiş və həyat tərzi ilə tanış olan şəxslərdən məlumat toplamaq lazımdır.

Tədqiqat, kliyentin narkotik alüdəçisi (və ya alkoqol alüdəçisi) olduğunu aşkar edəndə adətən, narkotikdən müalicə mərkəzinə (bəzi ruhi sağlamlıq mərkəzlərində və xəstəxanalarda bu cür şöbələr var) göndəriş qeyd olunur. Həmin mərkəzlərin işçi heyətinin çox vaxt bu cür çətin olan kliyentlərlə effektiv işləmək bacarığı var. Bundan əlavə, narkotik alüdəçiliyi mərkəzləri bu cür alüdəçilər üçün xüsusilə uyğun olan qrup metodlarına üstünlük verirlər. Narkotikdən istifadəni sistemlər baxımından qiymətləndirmək də vacibdir. Ailə münasibətlərinin

araşdırılması bir qayda olaraq, onu göstərir ki, narkotik istifadəçiləri başqa ailə üzvləri ilə öz aralarında soyuqluğun yarandığını hiss edirlər. Bundan əlavə, ailə üzvləri bir çox hallarda həm içki, həm də narkotik alüdəçilərinin problemini bilmədən artırırlar. Məntiqi olaraq, bir çox mütəxəssislər narkotikdən istifadəni ailə sistemi daxilində mövcud olan yarıtmaz münasibətlərin ifadəsi kimi nəzərdən keçirirlər. Unutmaq olmaz ki, narkotik alüdəçiləri ailə sisteminə təsir göstərir və onun təsirinə məruz qalırlar.

Eynilə alkoqolizm kimi, narkotikdən istifadə və alüdəçilik də kliyentin əsas sosial sistemlərində üstünlüyünə malik olur.